**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

**ETİBAR NƏCƏFOV**

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR NƏZƏRİYYƏSİ

**Ali məktəblər üçün dərslik**

**Bakı –2022**

**Elmi redaktor:**
***Namiq Həsən oğlu Əliyev***
*hüquq elmləri doktoru, professor,*
*Azərbaycan Respublikasının*
*Fövqəladə və Səlahiyyətli səfiri*

**Rəyçilər:**
***Əlikram Zakir oğlu Abdullayev***
*fəlsəfə elmləri doktoru, professor*

***Elçin İldırım oğlu Əhmədov***
*siyasi elmlər doktoru, professor*

***Əsgər Sücayət oğlu Əhməd***
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**Etibar Əli oğlu Nəcəfov. Beynəlxalq münasibətlər nəzəriyyəsi.**
*Ali məktəblər üçün dərslik.* – Bakı: ......, 2022. – 2.. səh.

*Dərslik müəllifin ABŞ-ın Nyu-York şəhərində yerləşən Kolumbiya Universitetinin Beynəlxalq və İctimai Əlaqələr Məktəbində (School of İnternational and Public Affairs) elmi ezamiyyətdə olduğu vaxt dinlədikləri mühazirələr, eləcə də Azərbaycanın bir neçə ali məktəbində beynəlxalq münasibətlər nəzəriyyəsi fənnindən oxuduğu mühazirələr əsasında tərtib edilmişdir.*

*Əsasən ABŞ və Qərbi Avropa müəlliflərinin əsərlərinin təhlili əsasında hazırlanmış dərslik üç bölmədən ibarətdir. Birinci bölmədə (giriş hissə) beynəlxalq münasibətlər nəzəriyyəsi fənninin predmeti, meydana gəlməsi, əsas inkişaf mərhələləri, onun digər ictimai elmlərlə münasibəti, əhəmiyyəti, fəndə istifadə edilən ümumi və tətbiqi metodlar. İkinci və üçüncü bölmələr (“Beynəlxalq münasibətlərin öyrənilməsinə dair əsas məktəblər və nəzəri yanaşmalar”, “Beynəlxalq münasibətlər nəzəriyyəsinin aktual problemləri”) dərsliyin əsasını təşkil edir. İkinci bölmədə liberalizm, realizm, neorealizm, neoliberalizm, İngilis məktəbi, marksizm, neomarksizm, konstruktivizm, feminizm və yaşıl siyasət kimi beynəlxalq münasibətlərin əsas nəzəriyyələri və nəzəri yanaşmaları təhlil olunur. Üçüncü bölmədə “qərarın qəbul edilməsi nəzəriyyəsi”, “oyunlar nəzəriyyəsi”, “cücənin oyunu”, “məhbus dilemması” kimi aktorların davranış nəzəriyyələri ilə yanaşı “güc və ondan istifadə metodları”, “milli maraq və təhlükəsizlik dilemması”, “milli maraq və ideologiya”, “xarici və daxili siyasət arasında münasibət”, “diplomatiya və onun növləri”, “beynəlxalq münaqişələr və onların tənzimlənməsi”, “müharibə, onun səbəbləri və növləri”, “beynəlxalq əməkdaşlıq”, “qloballaşma və onun beynəlxalq əməkdaşlığın inkişafına təsiri” kimi beynəlxalq münasibətlər nəzəriyyəsinin aktual problemləri tədqiq olunur.*

*Dərslik beynəlxalq münasibətlər, beynəlxalq hüquq, politologiya, tarix, regionşünaslıq ixtisasları üzrə təhsil alan tələbələr, magistrlər, doktorantlar, həmçinin müəllimlər və beynəlxalq münasibətlərin nəzəri problemləri ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur.*

© E.Ə.Nəcəfov, 2022

**Ön Söz**......................................................................................................7

**I BÖLMƏ. GİRİŞ**

**I Fəsil. Beynəlxalq münasibətlər nəzəriyyəsi fənninin predmeti və əhəmiyyəti**......................................................................................................9
1.1. BMN fənninin predmeti......................................................................9
1.2. BMN fənninin meydana gəlməsi və əsas inkişaf mərhələləri.......................11
1.3. BMN fənninin digər ictimai elmlərlə münasibəti.......................................16
1.4. BMN fənninin əhəmiyyəti....................................................................19
Fəslə aid suallar…………………………………………………………...21
Ədəbiyyat……………………………………………………………….22

**II Fəsil. BMN fənninin metodları**..............................................................24
2.1. BMN fənninin metodları haqqında ümumi məlumat.................................24
2.2. Ümumi metodlar..................................................................................24
2.3. Tətbiqi metodlar..................................................................................30
Fəslə aid suallar……………………………………………………………38
Ədəbiyyat…………………………………………………………….39

**II BÖLMƏ. BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN ÖYRƏNİLMƏSİNƏ DAİR ƏSAS MƏKTƏBLƏR VƏ NƏZƏRİ YANAŞMALAR**

**III Fəsil. Liberalizm**........................................................................... 41
3.1. Liberalizmin əsas müddəaları. ............................................................ 41
3.2. “Daxili-xarici” yanaşma........................................................................45
3.3. Demokratik sülh nəzəriyyəsi………………………………….....................46
3.4. Liberalizmdə müharibə konsepsiyası.......................................................48
3.5. Liberalizm azad ticarət haqqında............................................................50
3.6. Liberalizm gizli diplomatiya, qüvvələrin balansı və kollektiv təhlükəsizlik haqqında………...............……......................................53
Fəslə aid suallar……………………………………………………………...56
Ədəbiyyat……………………………………………………………….58

**IV Fəsil. Realizm**....................................................................................59
4.1. Realizmin əsas müddəaları...................................................................59
4.2. Edvard Karr........................................................................................63
4.3. Hans Morqentau..................................................................................66
4.4. Ənənəvi realizmin tənqidi.....................................................................71
Fəslə aid suallar…………………………………………………………72
Ədəbiyyat…………………………………………………………….74

**V Fəsil. Neorealizm**.....76
5.1. Kennet Volts.....76
5.2. Beynəlxalq münasibətlər sisteminin əsas qüvvələri və prinsipləri.....78
5.3. Neorealizm nəzəriyyəsinin dəyərləndirilməsi.....81
Fəslə aid suallar.....83
Ədəbiyyat.....84

**VI Fəsil. Neoliberalizm**.....86
6.1. Robert Koheyn və Cozef Nay.....86
6.2. Neoliberalizmin əsas müddəaları.....88
6.3. Neoliberalizm nəzəriyyəsinin dəyərləndirilməsi.....91
Fəslə aid suallar.....92
Ədəbiyyat.....93

**VII Fəsil. İngilis məktəbi nəzəriyyəsi**.....95
7.1. İngilis Məktəbi nəzəriyyəsinin ümumi xarakteristikası.....95
7.2. İngilis Məktəbi nəzəriyyəsində beynəlxalq cəmiyyət anlayışı. Nizam və ədalətin münasibəti.....98
7.3. İngilis Məktəbi nəzəriyyəsinin dəyərləndirilməsi.....102
Fəslə aid suallar.....103
Ədəbiyyat.....104

**VIII Fəsil. Marksizm**.....106
8.1. Beynəlxalq münasibətlərin hakim və tənqidi nəzəriyyələri.....106
8.2. Beynəlxalq münasibətlərin marksizm nəzəriyyəsinin əsas müddəaları.....110
8.3. Marksizmin tarix konsepsiyası.....112
8.4. Marksizmin millətçiliyə münasibəti.....114
8.5. Neomarksizm.....115
8.6. Marksizmin dəyərləndirilməsi.....118
Fəslə aid suallar.....119
Ədəbiyyat.....121

**IX Fəsil. Konstruktivizm**.....123
9.1. Konstruktivizm nəzəriyyəsinin əsas müddəaları.....123
9.2. Konstruktivizmin beynəlxalq sistem konsepsiyası.....126
9.3. Konstruktivizm beynəlxalq aktorların kimlikləri və maraqları haqqında.....128
9.5. Konstruktivizm nəzəriyyəsinin dəyərləndirilməsi.....130
Fəslə aid suallar.....132
Ədəbiyyat.....134

**X Fəsil. Feminizm**.....135
10.1. Feminizm nəzəriyyəsinin əsəs müddəaları.....135
10.2. Sintiya Enlo.....138
10.3. Cudit Enn Tikner.....140

10.4. Feminizm nəzəriyyəsinin dəyərləndirilməsi....................................................142
Fəslə aid suallar.....................................................................................144
Ədəbiyyat.............................................................................................146

**XI Fəsil. Yaşıl siyasət**.......................................................................................148
11.1. Yaşıl siyasət nəzəriyyəsinin əsas müddəaları.....................................148
11.2. Yaşıl siyasət nəzəriyyəsi və davamlı inkişaf.......................................152
11.3. Yaşıl siyasət nəzəriyyəsi və iqlim dəyişikliyi.......................................153
11.4. Yaşıl siyasət nəzəriyyəsinin dəyərləndirilməsi....................................156
Fəslə aid suallar.....................................................................................157
Ədəbiyyat.............................................................................................158

**XII Fəsil. BMN-də Böyük debatlar**.....................................................................160
12.1. Birinci Böyük debat..........................................................................160
12.2. İkinci Böyük debat............................................................................161
12.3. Üçüncü Böyük debat.........................................................................163
12.4. Dördüncü Böyük debat......................................................................164
Fəslə aid suallar.....................................................................................165
Ədəbiyyat.............................................................................................166

## III BÖLMƏ. BEYNƏLXALQ MÜNASİBƏTLƏR NƏZƏRİYYƏSİNİN AKTUAL PROBLEMLƏRİ

**XIII Fəsil. Aktorların davranış nəzəriyyələri**.....................................................168
13.1. Aktorların davranış nəzəriyyələrinin ümumi xarakteristikası...............168
13.2. Qərarın qəbul edilməsi nəzəriyyəsi.....................................................169
13.3. Oyunlar nəzəriyyəsi...........................................................................171
13.4. "Cücənin oyunu"................................................................................177
13.5. Məhbus dilemması..............................................................................179
Fəslə aid suallar.....................................................................................181
Ədəbiyyat.............................................................................................182

**XIV Fəsil. Güc. Milli maraq. İdeologiya**...............................................................184
14.1. Güc BMN-nin kateqoriyası kimi.........................................................184
14.2. Gücün elementləri..............................................................................184
14.3. Gücdən istifadə metodları..................................................................187
14.4. Qüvvələrin balansı nəzəriyyəsi...........................................................188
14.5. Kollektiv təhlükəsizlik.........................................................................190
14.6. Milli maraq və təhlükəsizlik dilemması................................................193
14.7. Milli maraq və ideologiya....................................................................195
Fəslə aid suallar.....................................................................................197
Ədəbiyyat.............................................................................................198

**XV Fəsil. Xarici siyasət və Diplomatiya**......................................................200
15.1. Xarici siyasətin mahiyyəti....................................................................200
15.2. Xarici və daxili siyasət arasında münasibət.............................................202
15.3. Diplomatiya xarici siyasətin həyata keçirilməsinin bir
vasitəsi kimi........................................................................................203
15.4. Diplomatiyanın növləri..........................................................................205
15.5. Diplomatiya və beynəlxalq hüquq...........................................................213
15.6. Köhnə və yeni diplomatiya.....................................................................214
Fəslə aid suallar...........................................................................................217
Ədəbiyyat…………………………………………………………….219

**XVI Fəsil. Münaqişə və Müharibə**..............................................................220
16.1. Münaqişə bir sosial hadisə kimi..............................................................220
16.2. Beynəlxalq münaqişələr və onların tənzimlənməsi.................................220
16.3. Müharibənin mahiyyəti və səbəbləri......................................................223
16.4. Müharibələrin növləri.............................................................................227
Fəslə aid suallar...........................................................................................232
Ədəbiyyat……………………………………………………………...233

**XVII Fəsil. Beynəlxalq əməkdaşlıq və qloballaşma**.....................................235
17.1. Beynəlxalq əməkdaşlığın ümumi xarakteristikası...................................235
17.2. Beynəlxalq münasibətlər nəzəriyyələri beynəlxalq
əməkdaşlıq haqqında..........................................................................236
17.3. Qloballaşmanın mahiyyəti, səbəbləri və əlamətləri ................................239
17.4. Qloballaşma prosesinin beynəlxalq əməkdaşlığın inkişafına təsiri...........241
Fəslə aid suallar...........................................................................................243
Ədəbiyyat…………………………………………………………………244

**ADLAR GÖSTƏRİCİSİ** ……………………………………………...246

# ÖN SÖZ

Qədim zamanlardan bəri dövlətlərarası, xalqlararası, ümumiyyətlə beynəlxalq münasibətlər tədqiqatçıların maraq dairəsində olmuşdur. İlk başlanğıcda beynəlxalq münasibətlərə dair söylənilən fikirlər *fəlsəfi fikrin* tərkib hissəsi kimi çıxış edirdi. Ona görə də bu sahəyə aid olan nəzəri məsələlər fəlsəfi fikrin tərkib hissəsi kimi tədqiq olunurdu. Beynəlxalq münasibətlərin mahiyyətinə, qanunauyğunluqlarına, hərəkətverici qüvvələrinə, inkişaf perspektivlərinə və digər nəzəri problemlərinə dair alimlər və mütəfəkkirlər tərəfindən bir çox dəyərli fikirlər söylənilirdi. Bu isə, öz növbəsində, tədricən beynəlxalq münasibətlər nəzəriyyəsi fənninin müstəqil bir fənn kimi formalaşması üçün zəmin yaradırdı.

Beynəlxalq münasibətlər nəzəriyyəsi (BMN) fənninin müstəqil bir fənn kimi formalaşması Birinci Dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. 1919-cu ildə *Böyük Britaniyanın Uels universitetində (Aberistvis şəhəri*) beynəlxalq münasibətlər kafedrasının açılması bu fənnin yaranma tarixi kimi qəbul olunur. Məhz bu tarixdən sonra aparıcı Qərb dövlətlərinin, ilk növbədə ABŞ və Böyük Britaniyanın bir sıra universitetlərində beynəlxalq münasibətlərin nəzəri məsələləri əsaslı şəkildə tədqiq olunmağa başlayır. Birinci Dünya müharibəsindən sonrakı dövrdə BMN fənninin tarixindəki bu əlamətdar hadisə, yəni onun müstəqil bir elm sahəsi kimi formalaşması, həmin dövrdə baş verən hadisələrlə sıx bağlı idi. Daha dəqiq desək, Birinci Dünya müharibəsinin bəşəriyyətə gətirdiyi misli görünməyən fəlakətlər gələcəkdə dəhşətli bir sosial hadisə kimi müharibənin qarşısını almaq məqsədilə onun tədqiq olunması məsələsini gündəmə gətirmişdir. O dövrdən beynəlxalq münasibətlər nəzəriyyəsi bir elm sahəsi kimi Qərbdə inkişaf etməkdə davam etmişdir.

Keçmiş sosialist ölkələrinə, o cümlədən keçmiş sovet respublikalarına gəldikdə, onu qeyd etmək lazımdır ki, burada beynəlxalq münasibətlər nəzəriyyəsinin bir elm sahəsi kimi inkişafı üçün əlverişli şərait yox idi. Bu, ilk növbədə onunla izah olunurdu ki, sosialist ölkələrində mövcud olan totalitar sistem onların beynəlxalq əlaqələrini, xüsusilə xarici siyasətini dövlətin ciddi nəzarəti altında saxlayaraq bu sahələrə aid olan məsələləri ideoloji çərçivədə, marksizm-leninizm təliminə əsaslanan hakim kommunist ideologiyasının müddəalarına əsaslanaraq izah edirdi. Bu məsələlərin ictimaiyyət tərəfindən müzakirə və təhlil olunmasına yol verilmirdi. Ölkə rəhbərliyi hesab edirdi ki, beynəlxalq münasibətlər nəzəriyyəsinin bir elm sahəsi kimi inkişafı və tədrisi beynəlxalq münasibətlərə dair marksizm-leninizm təliminə zidd fikirlərin yayılmasına səbəb ola bilərdi. Məsələn, keçmiş SSRİ-də dövlətin xüsusi nəzarəti altında fəaliyyət göstərən bir neçə elmi

tədqiqat mərkəzi və ali məktəb istisna olmaqla elmi tədqiqat mərkəzlərində beynəlxalq münasibətlər nəzəriyyəsi sahəsində elmi araşdırmalar aparılmırdı və ali məktəblərdə beynəlxalq münasibətlər nəzəriyyəsi bir fənn kimi tədris olunmurdu.

Sovet İttifaqının dağılması, yeni müstəqil dövlətlərin meydana gəlməsi keçmiş sovet respublikalarında, o cümlədən Azərbaycanda beynəlxalq münasibətlər nəzəriyyəsi sahəsində elmi araşdırmaların aparılması və onun tədris olunması üçün əlverişli şərait yaratdı. Bu dəyişikliklər beynəlxalq münasibətlər nəzəriyyəsinin bir elm sahəsi və tədris fənni kimi inkişafına dair sosial tələbatın yaranmasına da səbəb oldu. Bu dəyişikliklərin nəticəsində beynəlxalq münasibətlər nəzəriyyəsinin yeni inkişaf mərhələsi başladı. Yeni mərhələnin əlamətləri özünü Azərbaycanda da büruzə verdi. Belə ki, beynəlxalq münasibətlər nəzəriyyəsi bir fənn kimi Azərbaycanın bir sıra ali məktəblərində tədris olunmağa başladı. Bu fənn üzrə bir neçə dərs vəsaiti və tədris proqramı nəşr olundu.[2]

Təqdim olunan *"Beynəlxalq münasibətlər nəzəriyyəsi" adlı dərslik* mənim prof.A.Abbasbəyli ilə həmmüəllif olduğum və 2007-ci ildə dərc olunmuş "Beynəlxalq münasibətlər nəzəriyyəsi" adlı dərsliyin yenilənmiş variantıdır. Lakin bu dərslik əvvəlki dərsliyin yenilənmiş variantı olmaqla yanaşı ondan əhəmiyyətli dərəcədə fərqlənir. Belə ki, bura beynəlxalq münasibətlərin "konstruktivizm", "feminizm", "yaşıl siyasət" kimi nəzəriyyələri, Dördüncü Böyük debat, eləcə də qloballaşma ilə bağlı bəzi nəzəri müddəalar əlavə olunmuşdur. Bundan başqa bu dərslikdə əvvəlki dərslikdəki bütün mövzuların məzmununda lazımi, müasir dövrün inkişafına uyğun gələn dəyişikliklər edilmişdir. Və nəhayət bu dərslikdə son 14 ildə beynəlxalq münasibətlər sahəsində baş verən bir neçə mühüm hadisələrə beynəlxalq münasibətlərin hakim və tənqidi nəzəriyyələrinin yanaşmaları təqdim olunur.

Təqdim olunan dərslik beynəlxalq münasibətlər, beynəlxalq hüquq, politologiya, tarix, regionşünaslıq ixtisasları üzrə təhsil alan tələbələr, magistrlər, doktorantlar, həmçinin müəllimlər və beynəlxalq münasibətlərin nəzəri problemləri ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur.

---

[2] İndiyədək Azərbaycanda bir dərs vəsaiti (Baxışov M.Ə.. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Dərs vəsaiti. Bakı, Şirvannəşr, 2005.-116 səh.), iki dərslik (Abbasbəyli A., Nəcəfov E.. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Bakı, 2007; Раджабли А.. Теория Международных Отношений. Учебник, Баку, БСУ, 2007) və üç tədris proqramı (Məmmədov K.C.. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Bakı, BDU, 2001; Керимова Н.И.. Теория Международных Отношений, Баку, 2006; Abbasbəyli A., Nəcəfov E.. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Bakı, BDU, 2007) çapdan çıxmışdır.

# I BÖLMƏ

# GİRİŞ

# I FƏSİL
# BEYNƏLXALQ MÜNASİBƏTLƏR NƏZƏRİYYƏSİ FƏNNİNİN PREDMETİ VƏ ƏHƏMİYYƏTİ

## 1.1. BMN fənninin predmeti

Bütün ictimai fənlərdə olduğu kimi BMN fənnində də bir çox nəzəri məsələlər mübahisə doğurur. Belə mübahisə doğuran məsələlərdən biri bu fənnin predmetinə aiddir. BMN fənninin predmetinə dair müxtəlif fikirlər vardır. Bu məsələyə dair fənnin əsas nəzəri yanaşmaları öz təməl müddəalarına uyğun olaraq müxtəlif fikirlər söyləyirlər. Məsələn, BMN-nin əsas nəzəriyyələrindən biri olan *realizm* bu fənnin predmetini *dövlətlərarası münasibətlərin tədqiq olunması* kimi xarakterizə edir. Digər bir mühüm nəzəri yanaşma olan *liberalizm* isə fənnin predmetini *dövlətlər, xalqlar arasında artan iqtisadi-ticarət əlaqələrinin möhkəmlənməsi nəticəsində onlar arasında yaranan qarşılıqlı asılılığın öyrənilməsində* görür. Uzun illər keçmiş Sovet İttifaqın-da və dünya kommunist sisteminə daxil olan digər ölkələrdə hakim ideologiyanın nəzəri əsasını təşkil etmiş, müasir dövrdə isə BMN fənninin aparıcı paradiqmalarından biri olan *marksizm* fənnin predmetini *beynəlxalq münasibətlərin əsas aktorları hesab etdiyi burjuaziya və proletariat arasında əlaqələrin öyrənilməsi* kimi təsvir edir.

BMN fənninin predmetini müəyyən etmək üçün ilk öncə *beynəlxalq münasibətlər məfhumunun* məzmunu müəyyən edilməlidir. Beynəlxalq münasibətlər məfhumunun məzmununa dair ədəbiyyatda müxtəlif fikirlər vardır.

Məşhur fransız sosioloqu *Raymon Arona* görə, beynəlxalq münasibətlərin məzmununu əsasən dövlətlər arasında olan münasibətlər təşkil edir. Buna misal kimi Aron dövlətlərarası müqavilələri göstərir. Dövlətlərarası münasibətlər simvolik personajlar olan *diplomat* və *əsgərin* özünəməxsus davranışlarında ifadə olunur. Aronun fikrincə, bu iki personaj mənsub olduqları cəmiyyətin nümayəndələri kimi çıxış edirlər. Onların timsalında beynəlxalq münasibətlər öz mahiyyəti etibarilə sülh və ya müharibə şəraitini təmsil edir. Dövlətlər arasındakı münasibətlər ya sülhlə, yada ki, müharibə ilə xarakterizə olunur. Başqa sözlə desək, beynəlxalq münasibətlərin xüsusiyyəti ondan ibarətdir ki, burada bu iki alternativlərin hər biri mümkündür. Bu isə öz növbəsində beynəlxalq münasibətlərin aktorlarının arasında konsensusun, əməkdaşlığın olub-olmamasından asılıdır.

Arondan fərqli olaraq beynəlxalq münasibətlər nəzəriyyəsi üzrə tanınmış amerikalı politoloq *Ceyms Kaporazo* hesab edir ki, müasir dövrdə beynəlxalq münasibətlərin məzmununun əsasını dövlətlər arasında olan münasibətlər deyil, siniflər, sosial-iqtisadi qruplar və siyasi qüvvələr arasında olan münasibətlər təşkil edir. Bu səbəbdən müasir dövrdə siniflər, sosial-iqtisadi qruplar və siyasi qüvvələr beynəlxalq münasibətlərin əsas iştirakçıları kimi dövlətin minimal vasitəçiliyi ilə, bəzən isə onun istəyinə zidd olaraq bir-biri ilə müxtəlif sahələri əhatə edən əlaqəyə girirlər.

Ümumiyyətlə, müasir dövrdə beynəlxalq münasibətlərin məzmununu dövlətlərarası münasibətlərlə məhdudlaşdırmaq düzgün deyil. Dövlətlərarası münasibətlər beynəlxalq münasibətlərin əsasını təşkil etsə də, müasir dövrdə beynəlxalq hökumətlərarası təşkilatların, beynəlxalq qeyri-hökumət təşkilatlarının, transmilli şirkətlərin, beynəlxalq ictimai birliklərin və görkəmli şəxslərin beynəlxalq münasibətlərin inkişaf istiqamətinə təsirləri daim artır. Başqa sözlə desək, müasir dövrdə beynəlxalq münasibətlərin aktorları (iştirakçıları) kimi dövlətlərlə yanaşı beynəlxalq hökumətlərarası təşkilatlar, beynəlxalq qeyri-hökumət təşkilatları, transmilli şirkətlər, beynəlxalq ictimai birliklər, görkəmli şəxslər də çıxış edir. Beynəlxalq münasibətlərin sahələrinə siyasi, ideoloji, hərbi-strateji, iqtisadi, mədəni və s. əlaqələr daxildir.

*Beynəlxalq münasibətlər* məfhumunun məzmununun dərk olunmasına onun *dünya siyasəti* və *beynəlxalq siyasət* kimi məfhumlarla müqayisə olunması kömək edir. “Beynəlxalq siyasətin nəzəri aspektləri” adlı kitabın müəllifi *M. Kumar* qeyd edir ki, *dünya siyasətini beynəlxalq siyasət* və *beynəlxalq münasibətlər* ilə eyniləşdirmək olmaz. Çünki *dünya siyasəti* hal-hazırda mümkün deyil. Biz dünya dövlətinə nail olanda *dünya siyasəti* mümkün olacaqdır. Dünya dövlətinin yaranmasına zəmin yaradan BMT və digər beynəlxalq təşkilatlar dünya təşkilatları kimi qələmə verilə bilər. Dünya dövləti yarananda dövlətlər arasında siyasət özünü yalnız dünya təşkilatlarında büruzə verəcəkdir, çünki milli sərhədlər dünya dövlətində ləğv olunacaqdır. Supramilli təşkilatlar (milli sərhədlərdən, hakimiyyətlərdən və ya milli maraqlardan yuxarıda duran BMT, Avropa İttifaqı, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Ticarət Təşkilatı və onlar kimi digər beynəlxalq təşkilatlar. – E.N.) beynəlxalq münasibətlərin əsas iştirakçıları olacaqdır. Bu mülahizələrin əsasında M.Kumar belə bir nəticəyə gəlir ki, beynəlxalq münasibətlərdən və beynəlxalq siyasətdən fərqli olaraq dünya siyasəti hələlik mümkün deyil.

Rus politoloqu *P.A. Sıqankov* isə “Beynəlxalq Münasibətlər Nəzəriyyəsi” adlı dərs vəsaitində dünya siyasətini *beynəlxalq səhnədə dövlətlərin fəaliyyəti* kimi, *beynəlxalq münasibətləri* isə *dövlətlər arasında real əlaqələr sistemi* kimi təqdim edir. Onun fikrincə, dövlətlər arasında real əlaqələr sistemi olan beynəlxalq

münasibətlər *dövlətlərin fəaliyyətlərinin nəticəsi,* bir də *dünya siyasətinin mövcud olduğu mühit* kimi çıxış edir. Dünya siyasəti beynəlxalq münasibətlərin formalaşmasında mühüm rol oynayır. Beynəlxalq münasibətlər dünya siyasətinin təsiri altında daim dəyişərək onun məzmununa və xarakterinə əks təsir göstərir.

*Beynəlxalq münasibətlər* ilə *beynəlxalq siyasət* məfhumları arasındakı münasibətə gəldikdə, qeyd etmək lazımdır ki, bəzi tədqiqatçılar bu məfhumları eyniləşdirirlər. Məsələn, beynəlxalq münasibətlər nəzəriyyəsi üzrə tanınmış amerikalı tədqiqatçılar *Hans Morqentau və Kennet Tomson* hesab edirlər ki, beynəlxalq siyasət beynəlxalq münasibətlərin mahiyyətini təşkil edir. Müəlliflərin bu fikri onların dövlətlərarası siyasi münasibətləri beynəlxalq münasibətlərin əsası kimi götürmələrindən irəli gəlir. Beynəlxalq siyasətdən fərqli olaraq beynəlxalq münasibətlər dövlətlər arasındakı siyasi münasibətlərlə yanaşı iqtisadi, hərbi, ideoloji, mədəni, sosial (təhsil, elm, səhiyyə, idman, turizm və s.) münasibətləri də əhatə edir. Buna görə də beynəlxalq münasibətlər məfhumunun həcmi beynəlxalq siyasət məfhumunun həcmindən genişdir.

Beləliklə, beynəlxalq münasibətlər dövlətlərin, beynəlxalq qeyri-hökumət təşkilatların, transmilli şirkətlərin, beynəlxalq ictimai birliklərin, görkəmli şəxslərin aralarında mövcud olan siyasi, ideoloji, hərbi, iqtisadi, mədəni və digər əlaqələri əhatə edən ictimai münasibətlərin xüsusi bir növüdür. Sözsüz ki, bu münasibətlərin əsasını siyasi münasibətlər təşkil edir.

Beynəlxalq münasibətlər məfhumunun qeyd olunan tərifi əsasında BMN fənninin *predmetini* belə ifadə etmək olar. *BMN fənni beynəlxalq münasibətlərin mahiyyətini, qanunauyğunluqlarını, formalaşmasının və inkişafının səbəblərini, aktorlarının davranışlarını, dövlətlər arasında müharibələrin qarşısının alınmasının və əməkdaşlığın inkişaf etdirilməsinin yollarını müəyyən etməklə beynəlxalq münasibətlərin inkişaf perspektivlərini öyrənir.*

## 1.2. BMN fənninin meydana gəlməsi və əsas inkişaf mərhələləri

İctimai-fəlsəfi fikir tarixində beynəlxalq münasibətlərə dair nəzəri müddəalar hələ qədim zamanlarda irəli sürülmüşdür. Məsələn, eramızdan əvvəl V əsrdə yaşamış qədim yunan tarixçisi *Fukididin "Peloponnes müharibəsinin tarixi" əsərində* dövlətlərarası münasibətlər təhlil olunur. Bu kitabda Fukididin irəli sürdüyü bir çox nəzəri müddəalar indiyədək öz aktuallığını itirməmişdir. Belə nəzəri müddəalardan dövlətlərarası münasibətlərdə *gücün* əsas amil olması ilə bağlı Fukididin irəli sürdüyü fikri qeyd etmək olar.

Tarixin sonrakı dövrlərində də tarixçilər, mütəfəkkirlər tərəfindən beynəlxalq münasibətlərə dair bir çox nəzəri müddəalar irəli sürülmüşdür. Lakin buna baxmayaraq, beynəlxalq münasibətlər nəzəriyyəsi fənninin bir müstəqil fənn kimi

formalaşması Birinci Dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. 1919-cu ildə Böyük Britaniyanın Uels Universitetində (Aberistvis şəhəri) beynəlxalq münasibətlər kafedrası açılmışdır. Bu kafedranın açılması BMN fənninin yaranma tarixi kimi qəbul olunur. Məhz bu tarixdən sonra aparıcı Qərb dövlətlərinin, ilk növbədə ABŞ və Böyük Britaniyanın bir sıra universitetlərində beynəlxalq münasibətlərin nəzəri məsələləri əsaslı şəkildə tədqiq olunmağa başlayır.

BMN fənninin tarixindəki bu əlamətdar hadisə, yəni onun müstəqil bir elm sahəsi kimi formalaşması, həmin dövrdə baş verən hadisələrlə, ilk növbədə Birinci Dünya müharibəsi ilə sıx bağlı idi. Belə ki, Birinci Dünya müharibəsinin bəşəriyyətə gətirdiyi misli görünməyən fəlakətlər gələcəkdə dəhşətli bir sosial hadisə kimi müharibənin qarşısını almaq məqsədilə onun tədqiq olunması məsələsini gündəmə gətirmişdir. O dövrdən beynəlxalq münasibətlər nəzəriyyəsi bir elm sahəsi kimi Qərbdə inkişaf etməyə başlamışdır. O vaxtadək beynəlxalq münasibətlərin, beynəlxalq siyasətin nəzəri məsələləri fəlsəfə, hüquq, iqtisadiyyat, politologiya, tarix kimi fənlər tərəfindən tədqiq olunurdu. Başqa sözlə desək, BMN fənninin meydana gəlməsi Birinci Dünya müharibəsinin dəhşətlərinə intellektual reaksiyanın nəticəsi idi. Gələcəkdə belə müharibələrin qarşısını almaq üçün ictimai fikir tarixində müharibə bir sosial hadisə kimi diqqət mərkəzində idi. Tədqiqatçıları ilk növbədə müharibənin başlanmasının səbəbləri maraqlandırırdı ki, gələcəkdə onun qarşısını almaq mümkün olsun. Bu zaman tədqiqatçıların arasında belə bir fikir formalaşırdı: sülhü yalnız *kollektiv təhlükəsizlik sistemi* vasitəsilə saxlamaq olar. Bu fikrin tərəfdarları (onlara idealist, liberal və ya utopist deyirdilər) gələcəyə ümidlə baxaraq dünyada sülhü qoruyacaq beynəlxalq təşkilatın (məsələn, Millətlər Liqası) yaranmasını arzulayırdılar.

Birinci Dünya müharibəsinin başlanmasının səbəblərini araşdıran tədqiqatçılar müəyyən etdilər ki, tarix bir elm sahəsi kimi bu müharibənin nəzəri məsələlərinin araşdırılması üçün münasib deyil. Belə ki, tarix elmi beynəlxalq münasibətlər sistemində baş verən hadisələri əsasən təsvir və onları xronoloji şəkildə təqdim edirdi. Burada ümumiləşdirmələr, müqayisələr aparılmırdı. Nəticədə tədqiq olunan hadisənin mahiyyəti, yaranmasının səbəbləri açıqlanmırdı, inkişaf perspektivləri proqnozlaşdırılmırdı, eləcə də ona mümkün təsir imkanları müəyyən edilmirdi. Belə bir çatışmazlığı aradan götürmək üçün qalib ölkələrin, xüsusilə ABŞ və Böyük Britaniyanın bir sıra universitetlərində beynəlxalq münaqişələrin təhlili üzrə ixtisaslaşan tədqiqat mərkəzləri yaradıldı. Bu mərkəzlərdə müharibə arzuolunmaz, əxlaqa zidd, çoxlu xərc tələb edən bir sosial hadisə kimi qələmə verilirdi. Qalib ölkələrdən olan tədqiqatçıların demək olar ki, hamısı tədqiqatlarını əsasən aşağıdakı suallara yönəltdilər:

- Müharibənin səbəbləri nədir?
- Müharibə səhvin, anlaşılmazlığın, yoxsa bəd fikrin nəticəsidir?

- Müharibə milyonlarla insana aclıq və ölümdən başqa nə gətirmişdir?

- Gələcəkdə müharibələrin qarşısını almaq üçün əvvəlki müharibələrdən hansı dərsləri öyrənmək olar?

Bu suallara cavab olaraq, BMN fənninin "birinci məktəbi" (liberalizm və ya idealizm) yarandı və fənnin *erkən tarixində* hakim məktəb kimi fəaliyyət göstərirdi. İdealistlərə (yuxarıda qeyd etdik ki, onlara liberal və utopist də deyirdilər) görə, müharibə insanın təbiəti ilə bağlı olan hadisə deyil. O, dövlət başçıları, siyasətçilər arasında yaranan anlaşılmazlığın nəticəsidir. Belə anlaşılmazlıqlar siyasətçilərin siyasi hadisələrə nəzarəti itirmələrinə səbəb olmuşdur. Bu isə öz növbəsində müharibənin, o cümlədən Birinci Dünya müharibəsinin başlanmasına gətirmişdir. Onların fikrincə (*Zimmern, Vilson, Noel-Beyker*), "gizli diplomatiya" "kollektiv təhlükəsizliklə", "avtokratik idarəetmə üsulu" "demokratik idarəetmə üsulu" ilə əvəz olunmalıdır. Başqa sözlə desək, Birinci Dünya müharibəsindən irəli gələn dərslər düzgün başa düşülsə və bunun əsasında müvafiq fəaliyyət istiqaməti götürülsə, daha etibarlı və ədalətli dünya nizamı yaradıla bilər. BMN üzrə tanınmış avstraliyalı professor *Hedli Bull* bu idealistlər barədə aşağıdakıları söyləmişdir: "Bu tədqiqatçıların əsas fərqləndirici xüsusiyyətləri ondadır ki, onlar tərəqqiyə inanırlar, xüsusilə onlar əmindirlər ki, Birinci Dünya müharibəsinə səbəb olan beynəlxalq münasibətlər sistemi ədaləti və sülhü bərqərar edə bilən sistemə çevrilə bilər. Bu isə demokratiyanın inkişafı "beynəlxalq təfəkkürün" yayılması, Millətlər Liqasının möhkəmlənməsi, sülhpərvər ideyaların geniş yayılması ilə bağlıdır".

Qeyd etmək lazımdır ki, BMN fənni yarandığı zaman normativ xarakter daşıyırdı. Birinci Dünya müharibəsinin dağıdıcı nəticələrinə bir əks təsir kimi özünü büruzə verən beynəlxalq münasibətlər fənni belə bir fikrə əsaslanırdı: müharibə bir daha baş verməməlidir, bu müharibə bütün müharibələrin sonudur. Müharibənin bir sosial hadisə kimi əsaslı şəkildə tədqiq olunması onun yaranmasının qarşısını gələcəkdə ala bilər. Buna görə də BMN fənninin maraq dairəsinə əsasən müharibə ilə bağlı olan suallar düşmüşdür. Bu zaman BMN fənni liberal-utopist tədqiqatçıların əlində idi.

BMN fənninin formalaşma mərhələsində nəzəriyyə və təcrübə, vasitələr və məqsədlər arasında əlaqə özünü aydın şəkildə büruzə verirdi. Bu fənnin əsas məqsədlərindən biri müharibənin qarşısını almaq və xalqlar arasında siyasi, iqtisadi, sosial, mədəni əlaqələri inkişaf etdirmək olmuşdur. BMN fənni inkişaf etdikcə onun tədqiqat sahəsi genişlənərək beynəlxalq münasibətlər sahəsinə aid olan bir çox başqa məsələləri də daxil edirdi.

BMN fənninin *ikinci inkişaf mərhələsi* təxminən ötən əsrin 30-cu illərinin sonunda başladı. Əgər birinci mərhələdə beynəlxalq münasibətlərin liberalizm məktəbi hakim nəzəriyyə kimi çıxış edirdisə, ikinci mərhələdə onun yerini realizm məktəbi tutdu. Liberal-utopistlərin beynəlxalq münasibətlərin nəzəri məsələlərinə

dair fikirləri, xüsusilə müharibənin qarşısını beynəlxalq hüquq və Millətlər Liqası vasitəsilə alınmasına dair fikirləri, realistlər tərəfindən tənqid olunurdu. Realistlərlə liberalların mübahisəsi ədəbiyyatda BMN fənninin Birinci Böyük debatı kimi qələmə verilir. Bu debat ilə əlaqədar bəzən BMN fənni "liberalizm ilə realizm arasında dualizm" kimi xarakterizə olunur. Həmin dövr realistlərin mövqelərinin möhkəmlənməsinə bir neçə Avropa ölkəsində faşistlərin hakimiyyətə gəlmələri və bunun nəticəsində beynəlxalq vəziyyətin pisləşməsi, yeni dünya müharibəsinin başlanması təhlükəsinin artması səbəb olmuşdur.

BMN fənninin *üçüncü inkişaf mərhələsi* İkinci Dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. Bu müharibənin nəticəsində dünyada faşizmin məğlub olması, Birləşmiş Millətlər Təşkilatının təsis edilməsi, dövlətlər arasında iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsi liberalizmin mövqelərinin yenidən güclənməsi, xüsusilə onun iqtisadi nəzəriyyəsinin geniş yayılması üçün əlverişli şərait yaratdı. Bununla belə yeni tarixi şəraitdə *ikiqütblü beynəlxalq münasibətlər sisteminin* formalaşması və bu sistemdə ABŞ-ın başçılıq etdiyi liberal demokratiya ölkələri ilə Sovet İttifaqının başçılıq etdiyi dünya kommunist sisteminə daxil olan ölkələr arasında ilk növbədə hərbi, siyasi, ideoloji sahələrdə qarşıdurmanın yaranması, bu ölkələr arasında "soyuq müharibə"nin aparılması realizm nəzəriyyəsinin də yayılması üçün münasib şərait yaradırdı. Qeyd etmək lazımdır ki, BMN fənninin üçüncü inkişaf mərhələsi əvvəlki mərhələlərdən daha çox davam etmişdir. Bu mərhələ "soyuq müharibə" illərinin sonunadək, yəni ötən əsrin 80-ci illərinin sonu 90-cı illərin əvvəlinədək davam etmişdir. Bundan başqa qeyd olunan mərhələ əvvəlki mərhələlərlə müqayisədə məzmun baxımından da daha rəngarəng, daha zəngin olmuşdur. Belə ki, bu mərhələdə beynəlxalq münasibətlərin yeni nəzəriyyələri yaranmışdır. Onlardan ilk növbədə neorealizmi, neoliberalizmi, İngilis məktəbini (rasionalizmi), konstruktivizmi, feminizmi, yaşıl siyasəti və başqalarını göstərmək olar. Beynəlxalq münasibətlərin liberalizm, realizm və marksizm kimi aparıcı nəzəriyyələri ilə yanaşı yeni yaranmış nəzəriyyələr də beynəlxalq aləmdə baş verən proseslərə dair müvafiq konsepsiyalar irəli sürmüşlər. Bu isə ümumilikdə BMN fənninin inkişafına səbəb olmuşdur.

BMN fənninin *dördüncü inkişaf mərhələsinin* başlanması dünya kommunist sisteminin dağılması, "soyuq müharibə"nin başa çatması ilə bağlıdır. Məlum olduğu kimi, Sovet İttifaqının bir dövlət kimi 1991-ci ilin sonunda süqutu nəticəsində dünya kommunist sisteminin dağılması və liberal demokratiyanın zəfəri "soyuq müharibə" illərinə son qoymaqla *ikiqütblü* dünyadan *birqütblü* dünyaya keçidə səbəb oldu. Beynəlxalq münasibətlər sistemində ABŞ yeganə hegemon dövlətə çevrildi. Onunla hərbi və iqtisadi sahələrdə rəqabət etmək gücünə malik olan dövlət yox idi. ABŞ öz hərbi, siyasi və iqtisadi imkanlarını istifadə edərək *liberal hegemonluq siyasətini* tətbiq edirdi.

Beynəlxalq münasibətlər nəzəriyyəsi üzrə görkəmli amerikalı mütəxəssis *Con Mirşeymerə* görə, ABŞ-ın liberal hegemonluq siyasətinin *3 əsas məqsədi* vardır. Birincisi, bütün dünyada *liberal demokratiyanı* yaymaq. Bu məqsəd demokratik dövlətlərin bir-biri ilə müharibə etməmələri ilə əsaslandırılırdı. Bu məqsədə nail olmaq üçün ABŞ hətta hərbi gücündən istifadə etməyi də mümkün sayırdı. İkincisi, dövlətlər arasında *açıq iqtisadi əlaqələri* inkişaf etdirmək. Bu məqsədin də əsasını müharibənin qarşısının alınmasının mümkünlüyü təşkil edirdi. Belə ki, möhkəm iqtisadi-ticarət əlaqələrinə malik olan dövlətlər bir-biri ilə müharibə aparmağı səmərəsiz hesab edir. Üçüncüsü, dövlətləri *beynəlxalq təşkilatlara inteqrasiya* etdirmək. Beynəlxalq təşkilatlara daxil olan dövlətlər bu təşkilatlar vasitəsilə liberal demokratiya dəyərlərini daha asan mənimsəyirlər. Təbii ki, mövcud şərait liberalizmin beynəlxalq münasibətlərin digər nəzəriyyələri arasında dominantlığını təmin edirdi.

BMN fənninin dördüncü inkişaf mərhələsinin digər əsas cəhətlərindən biri də post-kommunist dövrdə BMN fənninin əldə etdiyi mühüm bir imkanla bağlı idi. Dərsliyin ön sözündə qeyd etdiyimiz kimi, keçmiş sosialist ölkələrində mövcud olan totalitar sistem orada beynəlxalq münasibətlər nəzəriyyəsinin bir elm sahəsi kimi inkişafına ciddi şəkildə mane olurdu. Yeni tarixi şərait bu ölkələrdə beynəlxalq münasibətlər nəzəriyyəsi sahəsində elmi araşdırmaların aparılması və onun tədris olunması üçün münasib şərait yaratmaqla bu sahənin inkişafı üçün əlverişli imkan yaratdı. Qeyd olunan imkanın sayəsində əvvəlki mərhələyə xas olan beynəlxalq münasibətlər nəzəriyyələrinin rəngarəngliyi daha da artdı. Bu, özünü beynəlxalq münasibətlərin klassik nəzəriyyələrinin inkişafı ilə yanaşı, fənnin üçüncü inkişaf mərhələsində meydana gəlmiş konstruktivizm, feminizm, yaşıl siyasət kimi yeni nəzəriyyələrin sonrakı inkişafı ilə xarakterizə olunurdu.

Nəhayət, BMN fənninin *müasir inkişaf mərhələsinin* başlanması *birqütblü* dünyadan *çoxqütblü* dünyaya keçidlə bağlıdır. Yeni dünya düzənində ABŞ-la yanaşı Avropa İttifaqı, Çin və Rusiya dünya güc mərkəzləri kimi çıxış edir. Con Mirşeymer hesab edir ki, çoxqütblü dünyaya keçid ABŞ-ın liberal hegemonluq siyasətinin iflasa uğramasının nəticəsində baş verdi. Belə ki, insan haqları, qanunun aliliyi və digər demokratik dəyərlərin inkişafda olan ölkələrə ixrac olunması adı ilə ABŞ-ın onların daxili işlərinə müdaxiləsi qeyd olunan ölkələrin əksəriyyətində hakim dairələr tərəfindən millətçiliyin təşviq olunmasına səbəb olurdu. İnkişafda olan ölkələrdə millətçiliyin qalxması bir tərəfdən liberal demokratiyanın mövqelərini zəiflədirdi, digər tərəfdən isə yeni güc mərkəzlərinin yaranmasına səbəb olurdu. Bundan başqa Mirşeymerin fikrincə, liberal hegemonluq siyasəti çərçivəsində Beynəlxalq Ticarət Təşkilatı vasitəsilə Çinin beynəlxalq iqtisadi və ticarət əlaqələrinə qoşulması onun iqtisadi və texnoloji inkişafını əhəmiyyətli dərəcədə sürətləndirdi. Nəticədə Çin

iqtisadi və texnoloji inkişaf sahələrində ABŞ-ın ciddi rəqibi oldu. 2016-cı ildə isə artıq Çin böyük gücə çevrildi.

Çinin və Rusiyanın dünya güc mərkəzlərinə çevrilməsi prosesini ABŞ-ın liberal hegemonluq siyasətinin iflasa uğraması ilə tamamilə əlaqələndirmək düzgün deyil. Çünki bu prosesdə ABŞ-ın liberal hegemonluq siyasəti müəyyən rol oynasa da onun reallaşması ilk növbədə bu ölkələrin müxtəlif sahələrində aparılan islahatlarla bağlı idi.

BMN fənninin müasir inkişaf mərhələsində müşahidə olunan liberal demokratiyanın mövqelərinin zəifləməsi beynəlxalq münasibətlərin digər nəzəriyyələrinin, xüsusilə realizm nəzəriyyəsinin mövqələrinin güclənməsi ilə xarakterizə olunur.

Beləliklə, BMN fənninin meydana gəlməsinin və inkişaf mərhələlərinin əsasında tarixin müxtəlif dövrlərində baş verən hadisələr durur. Bu hadisələr fənnin inkişaf mərhələlərinin mahiyyətini, xüsusiyyətlərini müəyyən edir.

İndi isə bir ictimai elm kimi BMN fənninin digər ictimai elmlərlə münasibətini nəzərdən keçirək.

### 1.3. BMN fənninin digər ictimai elmlərlə münasibəti

BMN fənni *interdissiplinar* bir fəndir. O, beynəlxalq münasibətləri tədqiq edərkən fəlsəfə, politologiya, tarix, beynəlxalq hüquq və iqtisadi nəzəriyyə kimi ictimai elmlərin nəzəri müddəalarından və/ və ya bu elmlərin təqdim etdikləri faktoloji materiallardan istifadə edir.

#### *Fəlsəfə*

Mahiyyətcə nəzəri fənn olan BMN ilk növbədə fəlsəfənin nəzəri müddəalarından istifadə edir. Fəlsəfə onun nəzəri-metodoloji əsasını təşkil edir. BMN bir müstəqil elm sahəsi kimi meydana gəlməzdən öncə beynəlxalq aləmdə, dövlətlərarası münasibətlərdə baş verən hadisələrin mahiyyəti, qanunauyğunluqları, xüsusiyyətləri, formalaşma və inkişaf səbəbləri və digər bu kimi nəzəri məsələlərlə filosoflar məşğul olurdular. BMN fənninin əsas məktəbləri, nəzəri yanaşmaları *Nikkola Makiavelli (1469-1527), Tomas Hobs (1588-1679), Con Lokk (1632- 1704), İmmanuel Kant (1724-1804), Karl Marks (1818-1883)* və digər filosofların irəli sürdükləri fikirlərə əsaslanır. Məsələn, məşhur ingilis filosofu *Tomas Hobsun ictimai müqavilə nəzəriyyəsi* beynəlxalq münasibətlərin realizm nəzəriyyəsinin əsasını təşkil edən müddəalardandır.

Məlum olduğu kimi, beynəlxalq münasibətlər terminini elmdə ilk dəfə ingilis filosofu *Jeremi Bentam (1748-1832)* istifadə etmişdir. Bentam beynəlxalq münasi-

bətləri əsasını siyasi münasibətlər təşkil edən, böyük dövlətlər arasında öz-özünə formalaşan münasibətlər kimi xarakterizə edirdi.

Müasir beynəlxalq münasibətlər nəzəriyyələri də fəlsəfə elminin metodologiyasından geniş istifadə edir. Məsələn, bəzi beynəlxalq münasibətlər nəzəriyyələrində dövlətlərarası münasibətlər tədqiq olunarkən, eləcə də proqnozlaşdırılarkən tanınmış amerikalı filosof Samuil Hantinqtonun *"sivilizasiyaların toqquşması"* konsepsiyasına istinad olunur.

***Politologiya***

BMN fənninin sıx əlaqədə olduğu ictimai elmlərdən fəlsəfə ilə yanaşı politologiyanı da qeyd etmək lazımdır. Beynəlxalq münasibətlər sisteminin əsasını siyasi münasibətlər təşkil edir. Bu sistemdə əsas fəaliyyət növü siyasi fəaliyyətdir. Bəzi tədqiqatçılar qeyd olunanları əsas tutaraq BMN fənnini politologiyanın tərkib hissəsi hesab edirlər. Həqiqətən, həm politologiya, həm də BMN cəmiyyətin necə fəaliyyət göstərdiyinə birbaşa və ya dolayısı yolla təsir göstərən siyasi sistemləri ehtiva edən ictimai elmlərdir. Bundan başqa daxili siyasətdə olduğu kimi beynəlxalq (xarici) siyasətdə də aktorlar arasında hakimiyyət uğrunda mübarizə gedir. BMN fənninin politologiyaya yaxınlığı onun politologiyanın bir neçə nəzəri müddəasından istifadə etməsində də özünü büruzə verir. Məsələn, politologiyanın *daxili siyasətin xarici siyasətə münasibətdə müəyyənedici rol oynamasına dair müddəası* BMN fənnində geniş istifadə olunur.

Lakin bu iki fənn arasında qeyd olunan yaxınlıq BMN fənnini politologiyanın tərkib hissəsi kimi təqdim etməyə əsas vermir. Belə ki, BMN fənninin obyekti beynəlxalq dövlətlərarası mühit hesab olunur. Bu mühit mərkəzi, yaxud ali hakimiyyətin yoxluğu ilə və buna görə də legitim zorakılığa monopoliyanın olmaması ilə xarakterizə olunur. Politologiyanın isə obyekti ölkədaxili mühitdir. Ölkədaxili mühitdə ali hakimiyyətin olması legitim zorakılığın tətbiq olunmasını mümkün edir. Bu səbəbdən politologiyanın əsas məfhumlarının (məsələn, "siyasi hakimiyyət", "siyasi proses", "siyasi rejim", "vətəndaş cəmiyyəti" və s.) beynəlxalq (xarici) siyasətə münasibətdə xüsusi əhəmiyyəti və nisbətən müstəqil predmet sahəsi vardır.

***Tarix***

BMN fənni tarix elminin təqdim etdiyi faktoloji materialdan geniş istifadə edir. Onun bir çox nəzəri müddəaları müxtəlif dövrlərdə, müxtəlif məkanlarda baş verən hadisələrin müvafiq elmi metodlar vasitəsilə tədqiq olunması əsasında əldə edilmişdir. Demək olar ki, bütün ictimai elmlərdə tarix elmi tərəfindən empirik

material kimi təqdim olunan faktlar təhlil olunaraq ümumiləşdirilir. Məlumdur ki, ümumiləşdirmə bir tədqiqat metodu kimi nəzəri fənnin əsas vəzifələrindən olan qanunauyğunluqların müəyyən edilməsində həlledici rol oynayır. Bu o deməkdir ki, xarakterinə görə nəzəri fənn olan BMN fənninin qarşısında əsas vəzifələrdən biri kimi duran qanunauyğunluqların müəyyən edilməsi tarix elminin təqdim etdiyi faktların ümumiləşdirilməsi vasitəsilə əldə olunur.

***Beynəlxalq hüquq***

Beynəlxalq hüquq elmi beynəlxalq münasibətlər sistemində fəaliyyət göstərən aktorların davranışlarını tənzimləyir. BMN fənni bu və ya digər aktorun davranışını xarakterizə edərkən beynəlxalq hüquq elminin müddəalarından geniş istifadə edir. Yuxarıda qeyd etdiyimiz kimi, beynəlxalq münasibətlər sistemində dövlətlərlə yanaşı beynəlxalq hökumətlərarası təşkilatlar, beynəlxalq qeyri-hökumət təşkilatları, transmilli şirkətlər, beynəlxalq ictimai birliklər və görkəmli şəxslər də fəaliyyət göstərirlər. Aktorlar beynəlxalq münasibətlərin siyasi, ideoloji, hərbi-strateji, iqtisadi, mədəni və digər sahələrində fəaliyyət göstərərək onların istiqamətini müəyyən edirlər. Təbii ki, hər bir aktor ilk növbədə öz maraqlarına uyğun fəaliyyət göstərir. Bu səbəbdən maraqların toqquşması mümkün, hətta qaçılmazdır. Beynəlxalq münasibətlər sisteminin qeyd olunan xüsusiyyətini əsas götürərək bir çox tədqiqatçılar, ilk növbədə realistlər, onu anarxik bir sistem kimi xarakterizə edirlər. Aktorların maraqlarının toqquşması müxtəlif sahələrdə münaqişələrin, o cümlədən müharibələrin başlanması üçün əlverişli şərait yaradır. Bunun qarşısının alınmasının ən optimal yollarından biri aktorların beynəlxalq münasibətlər sistemdə davranışlarının beynəlxalq hüquq elminin müddəalarına əsaslanmasıdır. BMN fənni beynəlxalq hüquq elminin müddəalarından istifadə edərək beynəlxalq münasibətlər sistemdə sülhün və təhlükəsizliyin təmin olunmasına dair aktorlar üçün tövsiyələr təklif edir.

***İqtisadi nəzəriyyə***

BMN fənni iqtisadi nəzəriyyə elminin həm nəzəri müddəalarına, həm də onun təqdim etdiyi faktoloji materiallardan istifadə edir. İqtisadi nəzəriyyə elmi dövlətlər arasında qarşılıqlı faydalı əməkdaşlıq əsasında iqtisadi- ticari münasibətlərin inkişaf etdirilməsini onlar arasında hərbi, siyasi və mədəni qarşıdurmanın aradan qaldırılmasının səmərəli yolu kimi qələmə verir. Bir qayda olaraq, iqtisadi-ticari münasibətləri yüksək səviyyədə olan dövlətlər arasında hər hansı bir qarşıdurmanın yaranmasının ehtimalı çox azdır. Belə ki, dövlətlər arasında iqtisadi-ticari münasibətlərin inkişaf etdirilməsi onların müxtəlif sahələrdə əməkdaşlığına şərait

yaradır və bir-birindən asılılıqlarını artırır. İqtisadi nəzəriyyə elminin təqdim etdiyi faktoloji materiallar dövlətlər arasındakı iqtisadi-ticari sahədəki ziddiyyətlərin onlar arasında qarşıdurmalara səbəb olduğunu göstərir.

### 1.4. BMN fənninin əhəmiyyəti

BMN fənninin əhəmiyyəti digər fənlərin əhəmiyyəti kimi onun funksiyaları ilə sıx bağlı olaraq onlardan irəli gəlir. Buna görə BMN fənninin əhəmiyyətini müəyyən etmək üçün onun funksiyalarını nəzərdən keçirmək lazımdır. Bu fənnin əsas funksiyaları aşağıdakılardır: *idraki, praktiki, proqnozlaşdırıcı və ideoloji.*

#### *İdraki funksiya*

BMN fənninin predmetinə yuxarıda verdiyimiz tərifdən göründüyü kimi o, əsasən nəzəri bir fəndir. Bir nəzəri fənn kimi onun, ilk növbədə, *idrakı funksiyası* vardır. BMN fənninin idraki funksiyası onun predmetinə yuxarıda verdiyimiz tərifdə əks olunan bir neçə məsələlərdə aydın şəkildə özünü büruzə verir. Belə ki, bu fənn yuxarıda qeyd etdiyimiz ictimai elmlərin nəzəri müddəalarına, eləcə də onların təqdim etdikləri faktoloji materiallara əsaslanaraq beynəlxalq münasibətlərin spesifik məsələlərini öyrədir. Bu məsələlər sırasında ilk növbədə beynəlxalq münasibətlərin mahiyyətini, qanunauyğunluqlarını, formalaşmasının və inkişafının səbəblərini, aktorlarının davranışlarını göstərmək olar.

Bundan başqa BMN fənninin idraki funksiyası beynəlxalq münasibətlər sistemində baş verən hadisələrin toplanması, təsvir edilməsi, öyrənilməsi, təhlili, həmçinin beynəlxalq münasibətlərin inkişafının aktual problemlərinin və ziddiyyətlərinin müəyyənləşdirilməsi kimi məsələləri də ehtiva edir.

#### *Praktiki funksiya*

BMN fənninin predmetinə yuxarıda verdiyimiz tərifdə onun idraki funksiyası ilə yanaşı *praktiki (və ya praqmatik) funksiyası* da əks olunmuşdur. Belə ki, bu tərifdən göründüyü kimi, BMN fənni beynəlxalq münasibətlərin spesifik məsələlərini tədqiq edərək bizim müvafiq sahə haqqında biliklərimizi artırmaqla kifayətlənmir. O, beynəlxalq münasibətlərin əsas aktorları olan dövlətlər arasında müharibələrin qarşısının alınmasının və əməkdaşlığın inkişaf etdirilməsinin yollarının müəyyən edilməsinə xüsusi fikir verir.

BMN fənninin praktiki funksiyası fənnin konkret məsələlərinin həlli ilə bağlı olduğunu göstərir. Beynəlxalq münasibətlər sistemində baş verən hadisələr haqqında

həqiqi biliklərin əldə olunmasının əsasında bu və ya digər dövlətin real tələblərinə cavab verən tövsiyələr işlənib hazırlanaraq təklif olunur.

### *Proqnozlaşdırıcı funksiya*

BMN fənninin predmetinə verdiyimiz tərifdə onun idraki və praktiki funksiyaları ilə yanaşı *proqnozlaşdırıcı funksiyasını* da görmək olar. Bu tərifə əsasən, BMN fənni beynəlxalq münasibətlərin inkişaf perspektivlərini də öyrənir.

Fənnin proqnozlaşdırıcı funksiyası beynəlxalq münasibətlər sisteminin inkişafının yaxın və uzaq perspektivlərinin müəyyən edilməsinə, beynəlxalq aləmdə baş verə biləcək siyasi proseslərin, hadisələrin istiqamətinin modelləşdirilməsinə, aktorların mümkün davranış ssenarilərinin qurulmasına yönəlmişdir.

### *İdeoloji funksiya*

BMN fənninin *ideoloji funksiyası* dedikdə onun konkret nəzəri müddəalarının müəyyən qrupların maraqlarına xidmət etməsi nəzərdə tutulur.

Bu dərsliyin giriş hissəsində qeyd olunduğu kimi, keçmiş Sovet İttifaqında BMN fənni bir neçə ali məktəb istisna olmaqla tədris olunmurdu və bu sahədə aparılan elmi tədqiqatlar ciddi dövlət nəzarəti altında idi. Bu onunla izah olunurdu ki, BMN fənni Sovet dövləti və kommunist partiyası rəhbərliyi tərəfindən inkişaf etmiş ölkələrin təcavüzkar siyasətinə bəraət qazandıran elmə zidd olan bir bilik sahəsi kimi qələmə verilirdi. Əslində isə bu fənnin tədris olunmamasının real səbəbi beynəlxalq münasibətlərə və xarici siyasətə dair rəsmi ideologiyaya zidd olan biliklərin yayılmasının qarşısının alınması idi. Daha konkret desək, sovet rəhbərliyi ehtiyat edirdi ki, bu fənnin tədrisi ölkənin xarici siyasətinin iç üzünün açılmasına və fənn üzrə ölkədə hakim kommunist ideologiyasına zidd müxtəlif fikirlərin yayılmasına gətirəcəkdir.

Sovet dövründə BMN fənni ilə bağlı vəziyyət onun ideoloji xarakter daşımasına dəlalət edirdi. Lakin BMN fənninin ideoloji funksiyasının olmasını ikiqütblü dünyanın mövcudluğu ilə əlaqələndirmək düzgün deyil. Dünya kommunist sisteminin süqutundan, "soyuq müharibənin" başa çatmasından sonrakı dövrdə də bu fənnin ideoloji funksiyası özünü büruzə verir. Bu, onunla izah olunur ki, beynəlxalq sistemdə fəaliyyət göstərən hər bir aktor öz maraqlarını güdür. Bütün ictimai elmlərdə olduğu kimi BMN fənnində də elmi biliyin təcrübə yolu ilə əldə olunmasının qeyri-mümkünlüyü faktından sui-istifadə edən aktorlar beynəlxalq münasibətlər sahəsində baş verən müəyyən hadisəni, prosesi öz maraqlarına uyğun olaraq konseptual cəhətdən əsaslandırmağa çalışırlar. Məsələn, 2011-ci ilin mart ayından bəri Suriyada əhali arasında silahlı toqquşma davam edir. Ölkə əhalisinin

geniş təbəqələri Bəşər Əsəd rejiminə qarşı mübarizə aparır. Bu toqquşma öz xarakterinə görə vətəndaş müharibəsi olsa da indiyədək münaqişəyə regionun bir neçə dövləti ilə yanaşı hərbi-siyasi qruplaşmalar (NATO) və dünya gücləri də cəlb edilmişdir. Münaqişəyə cəlb olunan xarici qüvvələr öz maraqlarını əsas tutaraq oradakı iştiraklarına bəraət qazandırmağa çalışırlar. Onlar Suriyada baş verən hadisələri bir-birinə zidd olan iki əsas konseptual yanaşma vasitəsilə izah edirlər. Bir yanaşmaya əsasən, Bəşər Əsəd rejiminin saxlanılması ölkədə insan hüquqlarının kobud şəkildə pozulmasına səbəb olur. Digər yanaşma isə bu rejimin yıxılmasını qeyri-qanuni, ölkənin daxili işlərinə müdaxilə kimi qələmə verir və hesab edir ki, rejimin yıxılması ölkədəki vəziyyətin daha da pisləşməsinə səbəb olacaqdır.

### *Fəslə aid suallar*

1. BMN fənni nəyi öyrədir?
2. Niyə beynəlxalq münasibətlərin məzmununu dövlətlərarası münasibətlərlə məhdudlaşdırmaq düzgün deyil?
3. Beynəlxalq münasibətlər nədir?
4. Fukididin beynəlxalq münasibətlərə dair irəli sürdüyü hansı fikri indiyədək öz aktuallığını saxlayır?
5. BMN-nin bir müstəqil fənn kimi yaranma tarixi nə ilə bağlıdır?
6. Niyə BMN fənninin yaranması Birinci Dünya müharibəsindən sonrakı dövrə təsadüf edir?
7. Niyə BMN fənni formalaşma mərhələsində normativ xarakter daşıyırdı?
8. BMN fənninin ikinci inkişaf mərhələsində realistlərin mövqelərinin güclənməsi nə ilə bağlı idi?
9. BMN fənninin üçüncü inkişaf mərhələsi hansı dövrü əhatə edir və onun əsas cəhətləri nədən ibarətdir?
10. BMN fənninin müasir inkişaf mərhələsi hansı dövrü əhatə edir və onun əsas cəhətləri nədən ibarətdir?
11. BMN-inin interdissiplinar fənn olması nə ilə izah olunur?
12. Fəlsəfənin BMN fənni üçün əhəmiyyəti nədən ibarətdir?
13. BMN fənni ilə politologiya arasında oxşar və fərqli cəhətlər nədən ibarətdir?
14. Tarix elminin BMN üçün əhəmiyyəti nədən ibarətdir?
15. Hüquq elminin BMN üçün əhəmiyyəti nədən ibarətdir?
16. İqtisadi nəzəriyyə elminin BMN üçün əhəmiyyəti nədən ibarətdir?
17. BMN fənninin idraki funksiyası nədən ibarətdir?
18. BMN fənninin praktiki funksiyası nədən ibarətdir?
19. BMN fənninin ideoloji funksiyası nədən ibarətdir?

20. BMN fənninin proqnozlaşdırıcı funksiyası nədən ibarətdir?

## Ədəbiyyat


*Алексеева Т.А.* Современные политические теории. М., 2000.

*Aron, R.* What is a Theory of IR?// Theory and Reality in International Relations. (eds. by J.Farrel and A. Smith), Columbia University Press, 1967.

*Бузан Б.* Уровни анализа в международных отношениях// Международные отношения: социологические подходы. М., 1998.

*Гоббс Г.* Левиафан // Избр. соч.- В 2 т. Т. 2. М, 1991.

*Грум Дж.* Растущее многообразие международных акторов // Международные отношения: социологические подходы / Под ред. П.А.Цыганкова. М.. 1998.

*Гудин Р. И., Клингеманн Х.Д.* Политическая наука как дисциплина // Политическая наука: новые направления / Под ред. Р.И.Гудина, Х.Д.Клингеманна. М., 1999.

International Relations Theory for the Twenty-First Century An introduction Edited by Martin Griffiths. https://hostnezt.com/cssfiles/internationalrelations/International-Relations-Theory-for-21st-Century.pdf

*Кант И.* К вечному миру // Соч. Т. 6. М., 1972.

*Клаузевиц К.* О войне. М., 1996.

*Knutsen T.L.* A History of International Relations Theory: An Introduction. N.Y., 1992.

*Kumar M.* Theoretical Aspects of International Politics. New Delhi, 1978.

*Morgenthau, H.* Common Sense and Theories of IR”. // Theory and Reality in International Relations. (eds. by J. Farrel and A. Smith), Columbia University Press, 1967.

*Nəcəfov E.Ə.* Müasir dövrdə dövlətlərarası münasibətlərin tədqiq edilməsində Hans Morqentaunun milli maraq konsepsiyasının əhəmiyyəti. Elmi Əsərlər. İctimai-siyasi elmlər seriyası, Bakı Slavyan Universiteti, N2, 2008, s.67-72

*Rüstəmov Y.İ.* Siyasi-hüquqi təlimlər tarixi. Dərs vəsaiti. Bakı, 2000.

Современные международные отношения / Под ред. ТоркуноваА.В. М., 2000.

Теория международных отношений: Хрестоматия / Под ред. и с комментариями П. А.Цыганкова. М., 2002.

*Thompson, K.* Schools of Thought in International Relations. Columbia University Press, 1996.

*Фукидид*. История. В двух томах / Пер. Ф. Мищенко и С. Желебова. М., Пролог. 1994.

*Цыганков П.А.* Теория международных отношений: Учебное пособие. М., 2006.
*Wight M.* Why is there no International Theory? // H. Butterfield and M. Wight (eds).

# II FƏSİL
# BMN FƏNNİNİN METODLARI

## 2.1. BMN fənninin metodları haqqında ümumi məlumat

Metod (*yunan dilindən tərcümədə methodos* - *nəyəsə aparan yol, tədqiqatın və ya idrakın yolu)* elmi biliyin əldə olunmasının yolu, dərketmə prosesinin, xüsusilə də elmin predmetinin öyrənilməsi üsuludur. Elmi cəhətdən əsaslandırılmış metodların tətbiq edilməsi həqiqi biliyin əldə olunmasının, idrak prosesinin müvəffəqiyyətlə inkişafının ən mühüm şərtlərindən biridir. Metod elmi biliyin əldə edilməsinin və onun praktiki fəaliyyətdə tətbiqinin yollarını, üsullarını göstərir. Əgər metodun tətbiq edilməsinin məqsədi elmi biliyin əldə edilməsidirsə, onda tətbiq edilən metodun özü də elmi olmalıdır. Buna görə də hər bir elmdə, o cümlədən hər bir tədris fənnində tətbiq ediləcək müvafiq metodların seçilməsi mühüm bir məsələdir.

BMN fənnində *ümumi və tətbiqi metodlardan* istifadə edilir. Ümumi metodlar fənnin nəzəri səviyyəsində, tətbiqi metodları isə onun tətbiqi səviyyəsində istifadə edilir. Hər iki qrup metodlar BMN fənninin predmetini dərindən və hərtərəfli dərk olunmasına kömək edir.

## 2.2. Ümumi metodlar

BMN-nin *ümumi metodları* fənnin nəzəri səviyyəsinə aid olan məsələlərin (beynəlxalq münasibətlərin mahiyyəti, qanunauyğunluqları, formalaşmasının və inkişafının səbəbləri, beynəlxalq aləmdə baş verən hadisələrin etik dəyər və normalar baxımından qiymətləndirilməsi və s.) tədqiq olunmasında istifadə edilir. Ümumi metodlar BMN fənni ilə yanaşı bir çox ictimai elmlərdə də tətbiq edilir.

BMN fənninin ümumi metodlarından ən çox istifadə olunanlar aşağıdakılardır: *sosioloji, kulturoloji, normativ, biheviorist, funksional, struktur-funksional, sistem, antropoloji, psixoloji və tarixi metodlar.*

### *Sosioloji metod*

*Sosioloji metod* vasitəsilə beynəlxalq münasibətlərin, beynəlxalq siyasətin cəmiyyətdən, sosial hadisələrdən, ilk növbədə mövcud iqtisadi (istehsal) münasibətlərdən, cəmiyyətin sosial strukturundan, bu və ya digər ölkədə hakim olan ideologiyadan, həmçinin mədəni dəyərlərdən asılılığı müəyyən edilir. Sosioloji metod beynəlxalq münasibətlərin mahiyyətini, qanunauyğunluqlarını,

formalaşmasının və inkişafının səbəblərini, aktorların fəaliyyətlərini, beynəlxalq aləmdə baş verən müəyyən hadisələri cəmiyyətin inkişafı ilə əlaqələndirir.

Qeyd etmək lazımdır ki, sosioloji metodu tətbiq edən beynəlxalq münasibətlər nəzəriyyələri onu müxtəlif şəkildə təqdim edirlər. Məsələn, beynəlxalq münasibətlərin marksist nəzəriyyəsində sosioloji metod ifrat şəkildə təqdim olunmuşdur. Burada o, *iqtisadi determinizm* formasında çıxış edir. Marksizm nəzəriyyəsi tərəfindən tətbiq olunan sosioloji metodun çatışmazlığı ondadır ki, o, bioloji, psixoloji amillərin beynəlxalq münasibətlər sistemində baş verən proseslərə etdikləri təsirlərə əhəmiyyət vermir.

*Kulturoloji metod*

*Kulturoloji metod* öz mahiyyətinə görə sosioloji metoda yaxındır, çünki bu metod da sosial mühitin, sosial amilin əhəmiyyətini əsas götürərək tədqiq olunan obyektə bir sosial hadisə kimi yanaşır. Lakin sosioloji metoddan fərqli olaraq kulturoloji metod, adından göründüyü kimi, obyektin tədqiq olunmasında konkret olaraq mədəniyyət amilini əsas götürür. O, müasir dövrdə *mədəniyyətin ictimai inkişafda aparıcı rol oynaması ideyasına* əsaslanır. Bu səbəbdən sözügedən metoda bəzən *sivilizasiyalı yanaşma* da deyirlər.

Mədəniyyətin ictimai inkişafda aparıcı rol oynaması ideyası müasir ictimai inkişafın, xüsusilə də onun səbəb və istiqamətinin, o cümlədən xalqların ölkə daxilində və beynəlxalq münasibətlər sistemində davranışının tədqiq olunmasının ən mühüm metodoloji prinsiplərindən biridir. Bu ideyaya əsaslanan kulturoloji metod sosial hadisələrin, o cümlədən beynəlxalq aləmdə baş verən hadisələrin tədqiq olunmasında tarixin subyektlərinin fəaliyyətini mədəniyyətin dəyərlərinin (din, dil, adət- ənənə və s.) xüsusiyyətləri ilə əlaqələndirir. Kulturoloji metoda əsasən, müasir dövrdə mədəniyyətin dəyərləri dövlətlərarası münasibətlərə mühüm təsir göstərir. Lakin bəzi tədqiqatçılar mədəniyyətin müəyyən dəyərlərinin ictimai inkişafda rolunu şişirdərək yanlış nəticələrə gəlirlər. Məsələn, tanınmış Amerika politoloqu *Samuel Hantinqton* ictimai inkişafda *din* amilinin rolunu mütləqləşdirərək *"sivilizasiyaların toqquşması"* kimi yanlış bir konsepsiya irəli sürmüşdür. Bu konsepsiyaya əsasən, müasir dövrdə dinin insanların kimliyini müəyyən edən əsas amil olmağına görə gələcək münaqişələr dövlətlər arasında deyil, mədəniyyətlər, sivilizasiyalar arasında olacaqdır.

*Normativ metod*

Ənənəvi olaraq qədim zamanlardan siyasi fikir normativ və ya normativ- dəyər metoduna əsaslanırdı. Adından göründüyü kimi, *normativ metod* beynəlxalq

münasibətlər sahəsində baş verən bu və ya digər hadisənin dövlət, fərd üçün əhəmiyyətinin müəyyən edilməsini, onun ədalət, azadlıq, insan ləyaqətinə hörmət və digər dəyərlər baxımından qiymətləndirilməsini nəzərdə tutur.

Bu metoda əsasən, siyasətçi, dövlət xadimi qərar qəbul edən zaman öz fəaliyyətində etik dəyərlərə əsaslanmalı, əxlaqa uyğun davranmalıdır. Normativ metod əsasını etik normalar təşkil edən müəyyən idealın irəli sürülməsini və onun həyata keçirilməsini nəzərdə tutur. O, etik dəyər və normaların əsas götürülməsini və beynəlxalq sahədə onlara uyğun şəkildə fəaliyyət göstərilməsini vacib sayır. Lakin bəzi hallarda etik dəyər və normalar real həyatın tələblərindən uzaq olur. Etik dəyər və normaların insanların dünyagörüşündən, sosial mövqelərindən və fərdi xüsusiyyətlərindən asılılığı normativ metodun zəifliyini göstərir. Bundan başqa bir çox hallarda real siyasət və etik normalar bir-birinə uyğun gəlmir. Bütün bunlar normativ metodun BMN-nin bir ümumi metodu kimi çatışmazlığını göstərir. Lakin bu çatışmazlığa baxmayaraq normativ metodun BMN fənni üçün böyük əhəmiyyəti vardır. O, beynəlxalq münasibətlərə etik, insani ölçü verir, onun məzmununu mənəvi dəyərlərlə zənginləşdirir.

*Biheviorist metod*

*Biheviorist metod* (*ingilis dilindən tərcümədə behaviour – davranış*) beynəlxalq münasibətlərin aktorlarının davranışlarının öyrənilməsinə yönəlmişdir. O, mahiyyəti etibarilə pozitivizmin metodlarındandır. Biheviorist metodu dəqiq elmlərdə olduğu kimi BMN-də də biliklərin aydın, dəqiq, birmənalı olması və onların təcrübə yolu ilə yoxlanılması tələbini irəli sürür.

Biheviorist metod elmin birliyi ideyasına əsaslanır. Bu metoda əsasən, gerçəkliyin dərk olunması mücərrəd təfəkkürə yox, real faktların müəyyən edilməsinə və təhlilinə söykənməlidir. Buna görə də biheviorist metoda əsasən, BMN elmi empirik metodlar (müşahidə, eksperiment, müqayisə, ölçü) vasitəsilə beynəlxalq münasibətlərin aktorlarının bilavasitə müşahidə olunan davranışlarını öyrənməlidir.

Biheviorist metod vasitəsilə əldə olunan faktları əks etdirən elmi müddəalar *intersubyektiv* olmalıdır. Bu o deməkdir ki, digər tədqiqatçılar aktorların davranışlarını müşahidə etdikdə eyni elmi nəticələri asanlıqla əldə edə bilərlər. Biheviorizmin bu mühüm cəhəti onun *verifikasiya* (*təcrübə yolu ilə yoxlama. E.N.*) prinsipində öz əksini tapmışdır. Verifikasiya prinsipinə əsasən, təcrübə yolu ilə yoxlanıla bilməyən, konkret faktlara əsaslanmayan müddəa həqiqi ola bilməz.

*Funksional metod*

Pozitivizmin metodlarından hesab olunan *funksional metod* normativ metoddan fərqli olaraq beynəlxalq münasibətlər sahəsində baş verən hadisələrə etik prizmadan yanaşmır. O, bütövlükdə məntiqə və faktlara əsaslanır. Funksional metod beynəlxalq münasibətlər sahəsində tədqiq olunan hadisələr arasında asılılıqların öyrənilməsinin vacibliyini göstərir *(məsələn, ölkənin daxili vəziyyətinin onun xarici siyasətinin istiqamətinə təsiri*).

Funksional metodu siyasət elmində ilk dəfə tətbiq edənlərdən biri məhşur italiyalı mütəfəkkir, siyasi xadim *Nikkola Makiavelli* (1469-1527) olmuşdur. Makiavelli *"Hökmdar"* adlı əsərində real həyatın öyrənilməsində dini ehkam və etik normalardan əl çəkməyin vacibliyini göstərmişdir. Bundan başqa o, gerçəkliyi müşahidə olunan şəkildə tədqiq etməyə çağırırdı.

*Struktur-funksional metod*

*Struktur-funksional metod* da öz mahiyyəti etibarilə pozitivizmin metodlarındandır. Bu metod mürəkkəb struktura malik olan cəmiyyəti, dövləti, dövlətlərin birliyini sistem şəklində tədqiq edir. Bu sistemin hər bir elementi xüsusi funksiyaları yerinə yetirir və bununla da sistemin müəyyən tələbatlarını ödəyir.

Struktur-funksional metodun beynəlxalq münasibətlərin tədqiqinə münasibətdə tətbiq edilməsi beynəlxalq münasibətləri mürəkkəb struktura malik olan bir sistem kimi, eləcə də bu sistemin tərkib hissələri olan və müəyyən funksiyaları yerinə yetirən aktorlardan ibarət bir sosial hadisə kimi təqdim edir. Sistemin elementlərinin fəaliyyəti onun struktur təşkilatı ilə, institutların, insanların sistemdə tutduqları mövqelərlə və yerinə yetirdikləri rollarla əvvəlcədən proqramlaşdırılmışdır. Başqa sözlə desək, sistemin elementləri təşkilatın strukturu tərəfindən əvvəlcədən verilmiş müəyyən proqrama uyğun fəaliyyət göstərir. Təşkilatın əsas vəzifəsi sistemin tarazlığını saxlamaq, təşkilatın elementləri tərəfindən müvafiq funksiyaların (rolların) yerinə yetirilməsini təmin etməkdir. *Karl Marks (1818-1883)* və *Talkot Parsons (1902-1979)* tədqiqatlarında struktur-funksional metodu geniş tətbiq edirdilər. Qeyd etmək vacibdir ki, bu metod sistem təhlilinin prinsiplərindən biridir.

*Sistem metodu*

*Sistem metodu* beynəlxalq münasibətlər sisteminə bütöv, mürəkkəb şəkildə təşkil olunmuş bir orqanizm və özünü tənzimləyən bir mexanizm kimi yanaşır. Beynəlxalq münasibətlər sistemi ətraf mühitlə sıx təmasdadır. Cəmiyyətdəki ali hakimiyyət siyasi sistemə məxsusdur.

Siyasətə münasibətdə sistem metodunu ilk dəfə əsaslı şəkildə XX əsrin 50-60-cı illərdə tanınmış *Amerika tədqiqatçıları Talkot Parsons* və *Devid İston* irəli

sürmüşlər. İstona görə, siyasi sistem özünü qorumağa can atır və iki mühüm funksiyanı yerinə yetirir:

1. Dəyərlərin və resursların paylaşdırılması;

2. Vətəndaşlar tərəfindən paylaşdırıcı qərarların zəruri şəkildə qəbul olunmasının təmin edilməsi.

### *Antropoloji metod*

Əgər sosioloji metod, yuxarıda qeyd olunduğu kimi, beynəlxalq münasibətlər sahəsində baş verən hadisələri sosial faktorlarla əlaqələndirirsə, antropoloji metod bu hadisələri insanın bir bio-sosial varlıq kimi tələbatları ilə izah edir. Yəni o, sosioloji metoddan fərqli olaraq qeyd olunan hadisələrin baş verməsində sosial faktorlarla yanaşı insanın *təbii tələbatlarının* (qida, paltar, yaşayış yeri, təhlükəsizlik və s.) rolunu da göstərir. Antropoloji metod vasitəsilə bio-sosial varlıq olan insanın təbii tələbatlarının, maraqlarının, instinktlərinin, psixikasının, mentalitetinin onun siyasi sahədəki fəaliyyətinə təsirini müəyyən etmək mümkün olur. Cəmiyyətdə, o cümlədən beynəlxalq münasibətlər sahəsində, baş verən hadisələri insanın tələbatları ilə əlaqələndirən antropoloji metod bu hadisələrin mahiyyətinin, səbəblərinin dərk olunmasına müəyyən dərəcədə kömək edir.

Antropoloji metodu ilk dəfə tətbiq edənlərdən biri *Aristotel (e.ə. 384 - 322)* olmuşdur. Aristotel siyasətin əsasını insanın kollektiv mahiyyətində görürdü.

Müasir dövrdə antropoloji metod aşağıdakı mühüm prinsiplərə əsaslanır:

1. Əzəldən azad olan insanın bir bioloji, sosial və mənəvi varlıq kimi fundamental soy əlamətlərinin dəyişməzliyi, sabitliyi;

2. İnsanın universallığı, insan nəslinin birliyi və etnik, irqi, sosial, coğrafi və digər fərdlərdən asılı olmayaraq bütün insanların bərabərliyi;

3. İnsanların təbii, əsas hüquqlarının ayrılmazlığı, bu hüquqların siyasi quruluşun prinsiplərinə, dövlətin qanununa və fəaliyyətinə münasibətdə üstünlüyü.

Antropoloji metod sosial mühitin real siyasi hadisələrə təsirinin öyrənilməsi ilə bərabər, insanın təbiətindən irəli gələn və özünü daha aydın şəkildə ibtidai icma cəmiyyətində göstərən siyasi fəaliyyətin irrasional, instinktiv, bioloji və başqa səbəblərini də araşdırmağı vacib hesab edir.

### *Psixoloji metod*

Antropoloji metod kimi *psixoloji metod* da tədqiqatlarda insanı əsas götürür. Lakin artropoloji metoddan fərqli olaraq psixoloji metod insanı ümumilikdə yox, konkret fərd kimi götürür. Bu isə tədqiqat zamanı insanın ümumi təbiətinin, sosial mühitin və şəxsin fərdi inkişafının xüsusiyyətlərinin nəzərə alınmasını tələb edir.

Psixoloji metod siyasi fəaliyyətin subyektiv mexanizmlərinin öyrənilməsinə yönəlmişdir. Bu metodu ilk dəfə tətbiq edənlərdən biri qədim Çin filosofu *Konfusi (e.ə.VI-V əsrlər)* olmuşdur. O, Çin hökmdarlarına vətəndaşlarının etimadını və itaətliyini təmin etmək üçün onların psixoloji reaksiyalarına fikir verməyi tövsiyə edirdi. Makiavelli də hökmdarlıq psixologiyasının inkişafına öz tövsiyəsini vermişdir.

Müasir psixoloji yanaşma çoxvariantlıdır. Burada mühüm yerlərdən birini əsası məşhur psixoloq *Ziqmund Freyd (1856–1939)* tərəfindən qoyulmuş *psixoanaliz* tutur. Psixoanaliz psixoloji tədqiqatların mərkəzinə şüursuz psixi prosesləri və səbəbləri qoyur. Psixoanalizə əsasən, insanın həyatında baş verən *affektiv* (həyəcan xarakterli) təəssüratlar onun psixikasında qalır. Bu təəssüratlar psixikanın şüursuz sferasına keçərək insanın fəaliyyətinə, o cümlədən siyasi fəaliyyətinə aktiv təsir göstərir. Psixoanalizin vasitəsilə siyasi fəaliyyətin müxtəlif növlərini izah etmək mümkündür. Məsələn, şəxsi keyfiyyətsizlik, çatışmazlıqların müxtəlif növləri, daxili gərginlik hisslərini ram etmək məqsədilə hakimiyyəti əldə etmək istəyən şəxsiyyətin avtoritar tipini psixoanalizin köməkliyi ilə rasional cəhətdən izah etmək olar.

Psixoloji yanaşma siyasi həyatın ən mühüm aspektlərindən birini izah etməyə imkan verir. Onun digər bir növü *sosial-psixoloji metoddur*. Sosial-psixoloji metod fərdlərin siyasi davranışını, onların sosial qruplara daxil olmalarından asılılığını müəyyən edir. Bundan başqa o, sosial qrupların (kiçik qruplar, kütlə, etnoslar, siniflər) müxtəlif psixoloji xüsusiyyətlərini öyrənir.

*Tarixi metod*

*Tarixi metod* bütün ictimai elmlərdə geniş şəkildə tətbiq edilir. Bu metod tədqiq olunan obyektlərin zaman etibarilə ardıcıllıqla öyrənilməsini tələb edir. O, keçmişin, indiki zamanın və gələcəyin əlaqəsinin müəyyən edilməsini nəzərdə tutur. BMN-də tarixi metodun tətbiq edilməsi beynəlxalq münasibətlər sahəsinə aid olan hadisələrin meydana gəlməsinin, formalaşmasının və inkişafının təhlilini bir məqsəd olaraq qarşıda qoyur.

***

Beynəlxalq münasibətlərin hər bir nəzəri məktəbi üçün yuxarıda təqdim etdiyimiz ümumi metodların hər biri eyni əhəmiyyətə malik deyil. Müəyyən fikir cərəyanlarında, nəzəriyyələrdə bu metodlardan birinə və ya bir neçəsinə üstünlük verilir. Həmçinin bu metodlardan bəziləri müəyyən fikir cərəyanlarında,

nəzəriyyələrdə tətbiq edilmir. Bundan başqa, bu və ya digər metodun tətbiq edilməsi həll olunacaq məsələnin məzmunundan, tədqiqatçının subyektiv fikrindən asılıdır.

İndi isə BMN fənninin tətbiqi metodlarını nəzərdən keçirək.

## 2.3. Tətbiqi metodlar

Yuxarıda qeyd olunduğu kimi, BMN fənninin tətbiqi metodları fənnin tətbiqi sahəsinə aid olan konkret məsələlərin tədqiq olunmasına və onların həlli yollarının müəyyən edilməsinə yönəlmişdir.

Ədəbiyyatda tətbiqi metodları üç böyük qrupa bölürlər: *situasiyanın təhlili metodları, eksplikativ metodlar və proqnoz metodları.*

Bu bölgünün əsasında tətbiq edilən metodların yerinə yetirdikləri funksiyalar durur. Məsələn, situasiyanın təhlili metodları, adından göründüyü kimi, beynəlxalq aləmdə baş verən hadisələr haqqında məlumatın əldə olunmasını nəzərdə tutur. Eksplikativ metodlar, situasiyanın təhlili metodlarından fərqli olaraq, hadisələri daha dərindən tədqiq edir. Proqnoz metodları isə hadisələrin tədqiqi ilə kifayətlənmir. Burada tədqiq olunan konkret məsələlərin həlli yollarının, inkişaf perspektivlərinin müəyyən edilməsinə xüsusi fikir verilir.

### *Situasiyanın təhlili metodları*

Situasiyanın təhlili metodlarına *müşahidə, sənədlərin öyrənilməsi və müqayisə* daxildir.

#### *Müşahidə*

*Müşahidə* - cisim və hadisələrin öyrənilməsinə, onların mənasının və əhəmiyyətinin müəyyən edilməsinə yönələn gerçəkliyin məqsədyönlü qavrayışıdır.

Müşahidə prosesi müşahidənin *obyekti* (müşahidə olunan cisim və ya hadisə), müşahidənin *subyekti* (müşahidəçi), müşahidənin *vasitələri* və müşahidənin *məqsədi* kimi tərkib hissələrdən ibarətdir.

Müşahidə tədqiq olunan obyekt haqqında ilkin məlumatın alınmasına yönəlmişdir. Müşahidə vasitəsi kimi insanın hiss orqanları çıxış edir. Bir qayda olaraq müşahidə zamanı subyekt obyektin inkişafına müdaxilə etmir. Obyekt təbii, adi şəraitdə olur. Subyekt isə onu öyrənir.

Müşahidə nəticəsində əldə olunan məlumat subyektin istəyindən, arzularından asılı olmur. Başqa sözlə desək, bu məlumat *obyektiv* xarakter daşıyır. O, müşahidə olunan cisim və hadisələrin obyektiv əlamətləri və münasibətləri haqqında bizə

məlumat verir. Sözügedən məlumatın məzmunu tədqiq olunan cisim və hadisələrin sonrakı öyrənilməsinin növbəti mərhələlərində tədqiqatçı üçün faydalı olur.

Müşahidənin *iki növü* vardır:

*a. Xarici və ya kənardan aparılan müşahidə.* Xarici müşahidədə müşahidəçi baş verən prosesi kənardan izləyir;

*b. Daxili müşahidə.* Burada müşahidəçı baş verən prosesin fəal iştirakçısı kimi çıxış edir.

Məsələn, bu və ya digər Avropa ölkəsinə miqrant kimi gəlmiş əcnəbilərin adət-ənənələrini öyrənmək üçün tədqiqatçı onları 2 yolla müşahidə edə bilər. Ya onları kənardan seyr edə bilər, yaxud onlarla yaxından tanış olub aralarında tədqiqatını apara bilər. Birinci halda aparılan müşahidə xarici, ikinci haldakı isə daxili müşahidə adlanacaqdır.

Bundan başqa müşahidə zamanı texniki vasitələrdən istifadə olunub-olunmamasından asılı olaraq müşahidə *bilavasitə və ya dolayı (instrumental)* ola bilər. Bilavasitə müşahidədə subyekt obyekt haqqında məlumatı heç bir texniki vasitədən (audio, video vasitələrdən, müxtəlif texniki avadanlıqlar və s.) istifadə etmədən əldə edir. Subyekt obyekt haqqında bilikləri dolayı yolla da (məsələn, müsahibə və ya anket sorğusu yolu ilə) əldə edə bilər. Belə müşahidəni dolayı adlandırırlar.

Dərketmə prosesinin səmərəli metodu olmaq üçün müşahidə bir sıra tələblərə cavab verməlidir. İlk növbədə müşahidə *planlı* şəkildə aparılmalıdır. Müəyyən müşahidə aparmağı nəzərdə tutan tədqiqatçı konkret plan əsasında fəaliyyət göstərməlidir. Bundan başqa müşahidə *məqsədyönlü* olmalıdır. Tədqiqatçı bu və ya digər hadisəni müşahidə edərkən qarşısında müəyyən məqsəd qoymalıdır. O, müşahidə olunan hadisənin bütün əlamətlərini deyil, tədqiqat üçün müəyyən əhəmiyyət daşıyan əlamətini öyrənməlidir. Planlı və məqsədyönlü şəkildə aparılan müşahidə konkret situasiyadan asılı olaraq müşahidə metodunun yuxarıda qeyd olunan növlərindən (*daxili, xarici, bilavasitə və dolayı*) biri və ya bir neçəsi vasitəsilə fəal şəkildə həyata keçirilməlidir. Müşahidənin *çevik* olması onun qarşısında qoyulan daha bir mühüm tələbdir.

### *Sənədlərin öyrənilməsi*

*Sənədlərin öyrənilməsi* metodu, adından göründüyü kimi, mövcud sənədlərdən, mənbələrdən (qəzet, jurnal, statistik məlumat kitabçaları, audio-video materiallar, İnternet materialları, rəsmi sənədlər, qeyri-rəsmi mənbələr, müəyyən hadisələrin iştirakçılarının xatirələri və s..) lazım olam məlumatın əldə olunmasını nəzərdə tutur. Tədqiqatçı onu maraqlandıran məsələlərə dair xüsusi mənbələrdən məlumat əldə edir. Müşahidədən fərqli olaraq sənədlərin öyrənilməsi zamanı subyekt beynəlxalq aləmdə baş verən hadisələrin aktiv və ya passiv iştirakçısı olmur. Lakin o, əldə etdiyi

məlumatı əsaslı şəkildə təhlil etmək imkanı qazanır. Nəticədə hadisələrin daha dərindən təhlil olunması üçün əlverişli şərait yaradılır.

Müasir dövrdə dünya dövlətlərinin inkişaf səviyyələrini əks edən məlumat Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Dünya Ticarət Təşkilatı və bu kimi beynəlxalq təşkilatların, eləcə də bir çox inkişaf etmiş demokratik dövlətlərin tərtib etdikləri və xüsusi vebsaytlarda yerləşdirdikləri xüsusi cədvəllərdə geniş təqdim olunmuşdur. Lakin bəzi dövlətlər, xüsusilə "qapalı" avtoritar dövlətlər çalışır ki, onlar haqqında geniş ictimaiyyətə məlumatlar çatmasın. Belə olan hallarda sənədlərin öyrənilməsi bir metod kimi öz əhəmiyyətini itirir.

*Müqayisə*

Müqayisə situasiyanın təhlilində bir metod kimi mühüm rol oynayır. Bu metodun mahiyyəti tədqiq olunan iki və daha çox obyektə xas olan *oxşar* və *fərqli* cəhətlərin müəyyən edilməsindədir. Müqayisə elmi biliyin əldə olunmasının mühüm mərhələsi olan ümumiləşdirmənin vacib şərtidir.

Digər tədqiqat metodları kimi müqayisə də səmərəli olmaq üçün müəyyən tələblərə cavab verməlidir. Belə tələblərdən ikisini göstərmək olar:

1. Müqayisə bir metod kimi aralarında müəyyən *oxşar* əlamət olan obyektlərə tətbiq oluna bilər;

2. Müqayisə obyektlərin *mühüm* əlamətləri üzrə aparılır.

Müqayisə BMN-də istifadə edilən səmərəli metodlardan biridir. Burada müqayisə metodu vasitəsilə tədqiq olunan obyektlər haqqında məlumat iki müxtəlif yolla əldə oluna bilər:

1. Müqayisə metodunun bilavasitə tətbiqi yolu ilə. Yəni müqayisə olunan obyektlərdə oxşar və fərqli cəhətlərin müəyyən edilməsi yolu ilə;

2. Müqayisə nəticəsində əldə olunan ilkin məlumatın sonrakı təhlili yolu ilə. Bu, adətən analogiyaya əsaslanan əqli nəticə vasitəsilə reallaşır. Məsələn, dövlətin demokratik üsul-idarəsinin onun sülhsevər xarici siyasət aparmasına təsir etməsi haqqında müddəanı bir neçə dövlətləri bir-biri ilə müqayisə etməklə əldə etmək olar. Lakin müəyyən obyektiv səbəblərə görə demokratik üsul-idarəsinə malik olan bütün dövlətlərin müqayisə edilməsinin mümkün olmaması bu yolla alınan nəticənin ehtimali xarakter daşımasına gətirir. Başqa sözlə desək, bu yolla əldə olunan nəticə ehtimali xarakter daşıyır. Bu cür hallarda çalışmaq lazımdır ki, həqiqi biliyin əldə edilməsi ehtimalı mümkün qədər yüksək olsun. Bunun üçün isə aşağıdakı qaydalara riayət etmək lazımdır:

1. Müqayisə edilən obyektlərdə nə qədər *çox* oxşar əlamət aşkar olunsa, analogiyaya əsaslanan əqli nəticə vasitəsilə əldə olunan nəticənin həqiqiliyinin ehtimallığı bir o qədər yüksək olacaqdır;

2. Müqayisə nəticəsində aşkar olunan oxşar əlamətlərin obyektlərin *mühüm* əlamətləri olması əldə olunan nəticənin həqiqiliyinin ehtimallığını artırır.

3. Bir obyektdən digər obyektə keçirilən əlamət ikincinin mahiyyətinə zidd olmamalıdır. Müqayisə olunan obyektlər arasındakı oxşar əlamətlərlə yanaşı onlar arasındakı müxtəliflik də nəzərə alınmalıdır.

***Eksplikativ metodlar***

Qeyd olunduğu kimi, *eksplikativ ("explikatio" latınca – izah) metodlar* beynəlxalq münasibətlər sahəsində baş verən hadisələrin daha dərindən tədqiq edilməsinə köməklik edir. Eksplikativ metodlar əsasən bu hadisələri izah edir. BMN-də eksplikativ metodların sırasında *kontent–analiz, ivent–analiz, koqnitiv kartlaşma və eksperiment* ən geniş yayılmış metodlardır.

*Kontent–analiz metodu*

Kontent–analiz (*ingilis dilindən tərcümədə content – məzmun*) və ya məzmunun təhlili metodunun mahiyyəti yazılı və ya şifahi mətndə müəyyən söz və ya söz birləşməsini tapmaqla onun məzmununun öyrənilməsindədir. Daha konkret desək, əvvəlcə bir neçə yazılı və ya şifahi mətndə bu və ya digər obyekt üçün mühüm əhəmiyyət kəsb edən söz və ya söz birləşməsi tapılır. Sonra bu söz və ya söz birləşməsinin işlədilməsi baxımından tədqiq olunan mətnlər müqayisə olunur. Bu söz və ya söz birləşməsinin hansı mətndə olması yaxud daha çox olması həmin mətnin müəyyən obyektə aid olmasını göstərir. Məsələn, kontent–analiz metodu vasitəsilə siyasi partiyaların nizamnamələrini təhlil etməklə onların bu və ya digər ideologiyaya mənsub olmalarını müəyyən etmək olar. Yaxud hansısa dövlət başçısının müxtəlif vaxtlarda etdiyi çıxışlarını müəyyən söz və ya söz birləşməsinin işlədilməsi baxımından müqayisə edərək onun baxışlarında müvafiq dəyişikliklərin olmasını göstərmək olar.

Bununla belə qeyd etmək lazımdır ki, kontent–analiz metodu bir tədqiqat metodu kimi bəzi hallarda öz əhəmiyyətini itirir. Məsələn, əgər dövlət xadiminin dedikləri və/və ya yazdıqları ilə əməlləri uyğun gəlmirsə, yəni o, çıxışlarında və/və yaxud yazdıqlarında öz həqiqi mövqeyini, fikirlərini gizlədirsə, bu halda kontent–analiz metodunun tətbiqi səmərəsiz olur.

*İvent–analiz metodu*

*İvent–analiz metodu* (*ingilis dilindən tərcümədə ivent- hadisə)* və ya hadisənin təhlili metodu *"kim", "nə vaxt", "kimə"* münasibətdə *"nə" deyir, yaxud edir*

məlumatının təhlil edilməsinə yönəlmişdir. Amerikalı tədqiqatçılar Brüs Rasset və Harvey Starr müvafiq göstəricilərin sistemləşdirilməsini və təhlilini aşağıdakı xüsusiyyətlər üzrə aparırlar:

1. subyekt – təşəbbüsçü (kim);
2. süjet və ya problem ("issue-area") (nə);
3. subyekt – hədəf (kimə münasibətdə);
4. hadisənin tarixi (nə vaxt).

Bu şəkildə sistemləşdirilmiş hadisələr elektron – hesablayıcı maşınlar vasitəsilə təhlil olunur. Bu metodun səmərəliliyi təhlil olunan göstəricilərin çoxluğundan asılıdır, yəni təhlildə nə qədər çox göstərici istifadə edilsə, ivent-analiz metodunun tətbiq olunmasının səmərəliliyi bir o qədər də yüksək olacaqdır. Məsələn, müəyyən bir ölkədə dini azadlığın təmin olunması məsələsini tədqiq edərkən, təhlilə dini azadlığın təmin olunmasını səciyyələndirən çox göstərici daxil etmək lazımdır. Bundan başqa tədqiqata daha çox respondent, cəmiyyətdə mövcud olan bütün dinlər cəlb olunmalıdır. Bu, əldə olunan nəticənin doğruluğunu artıracaqdır.

*Koqnitiv xəritələşmə metodu*

*Koqnitiv (ingilis dilindən tərcümədə cognitive - idraki) xəritələşmə metodu* vasitəsilə siyasi xadim tərəfindən bu və ya digər siyasi problemin necə dərk olunması müəyyən edilir. Burada siyasi xadimin böhran situasiyalarına reaksiyasına, sabit siyasi durumda mümkün davranış nümunələrinə, tərcümeyi-halına və onunla bağlı digər məlumatlara xüsusi fikir verilir. Bütün bu məlumatlar siyasi xadimin qəbul etdiyi qərarların izah olunmasına köməklik göstərir.

Bəzən siyasi xadim qərar qəbul edərkən onu əhatə edən gerçəkliyə deyil, bu gerçəkliyə özünün subyektiv münasibəti prizmasından yanaşmasına arxalanır. Başqa sözlə desək, siyasi xadimin qəbul etdiyi qərarlara bəzən onun gerçəkliyə uyğun gəlməyən təsəvvürləri təsir göstərir. Nəticədə qarşıda qoyulan vəzifələr yerinə yetirilmir və problemlər həll edilmir. Yanlış təsəvvürlərə arxalanan siyasi xadim, bir tərəfdən, onun baxışlarına zidd olan hər hansı bir vacib məlumatı lazımınca qiymətləndirmir, digər tərəfdən isə mühüm olmayan hadisələrə həddindən artıq önəm verir.

Koqnitiv xəritələşmə metodu siyasi xadimin gerçəkliyi necə dərk etməsini açıqlayaraq onun qəbul etdiyi qərarın səbəbinə aydınlıq gətirir, yəni məlum faktlara arxalanaraq yeni bilik əldə olunur. Lakin bəzən mövcud məlumatın həqiqiliyi şübhə doğurduğuna görə əldə olunan bilik gerçəkliyi düzgün əks etdirmir.

*Eksperiment*

*Eksperiment* digər eksplikativ metodlardan fərqli olaraq tədqiq olunan obyektin gedişatına müdaxilə etməyi nəzərdə tutur. Eksperiment zəruri şərtlərin yaradılmasına maneçilik törədən bütün təsirlərin və faktorların aradan götürülməsini, müxtəlif vasitələrlə obyektin təsbit olunmasını, müvafiq texniki qurğularla müşahidənin və ölçünün aparılmasını ehtiva edir.

Təbiət elmlərində eksperiment nəzəri fərziyyələrin, nəticələrin və müddəaların yoxlanılması məqsədilə süni şərait yaradır. İctimai elmlərdə isə o, əsasən "xəyali" formada çıxış edir. "Xəyali eksperiment" "mövcud durumda müəyyən səbəblərə görə olmayan bəzi şəraitləri yaratmaq mümkün olsaydı bu hadisələrin inkişafı necə olardı?" məsələsini müzakirə edir. İctimai elmlərdə, o cümlədən BMN fənnində eksperimentin daha geniş yayılmış növlərindən biri də imitasiya (təqlid) oyunlarıdır. İmitasiya oyunları tədris zamanı interaktiv metodlardan geniş istifadə edilməsində mühüm rol oynayır.

İmitasiya oyunlarının tədris zamanı tətbiq edilməsi tələbələrin fəallığını artıraraq keçirilən mövzunun yaxşı qavranılmasına kömək edir. İmitasiya oyunları əvvəlcədən tərtib edilmiş ssenariyə uyğun müəyyən rolların (məsələn, beynəlxalq münasibətlər sahəsində fəaliyyət göstərən aktorların rolları) icra olunması ilə bağlıdır. Oyun zamanı hər bir iştirakçı oyunun rəhbəri tərəfindən nəzarət edilən oyun şərtlərinə ciddi əməl etməlidir. Məsələn, hər bir rolu ifa edən oyunçunun (tələbənin) gerçəklik haqqında tam məlumatı olmalıdır. O, bu məlumata əsasən qərar qəbul etməli və fəaliyyət göstərməlidir. Əks halda bu oyun özünün idraki əhəmiyyətini itirəcəkdir.

İmitasiya oyunlarını elektron – hesablayıcı maşınlar vasitəsilə də təşkil etmək mümkündür. Texnikanın köməyi ilə aparılan oyunlar daha geniş tədqiqat imkanlarını təklif edir. Belə ki, bu oyunlar oyunçuların qərəzli mövqelərinin oyunun gedişinə təsirinin qarşısını alır, əldə olunan nəticələr gerçəkliyi daha dəqiq əks etdirir və nəhayət, obyektin gələcək inkişaf perspektivlərinə dair müəyyən proqnoz verir. Göründüyü kimi, eksperiment digər eksplikativ metodlardan fərqli olaraq beynəlxalq münasibətlər sahəsində baş verən hadisələri izah etməklə kifayətlənmir. O, həmçinin bu hadisələrin mümkün optimal inkişaf perspektivlərini də göstərir. Buna görə də eksperimenti eksplikativ metodlarla yanaşı proqnoz metodlarına da daxil etmək olar.

### *Proqnoz metodları*

*Proqnoz metodları* situasiyanın təhlili və eksplikativ metodlardan fərqli olaraq beynəlxalq münasibətlər sahəsində baş verən hadisələrin mövcud durumu ilə yanaşı onun gələcək durumunu, inkişaf perspektivlərini də müəyyən edir. Beynəlxalq

münasibətlərdə tətbiq edilən proqnoz metodlarından *delfi metodunu, ssenarilərin qurulmasını və modelləşdirməni* göstərmək olar.

*Delfi metodu*

*Delfi metodunun* mahiyyəti müstəqil ekspertlər tərəfindən müəyyən bir problemin əsaslı şəkildə təhlil olunması və həlli yolunun tapılması ilə bağlıdır.

Bu metod aşağıdakı kimi tətbiq olunur: bir neçə ekspert eyni problemi ayrı-ayrılıqda təhlil edərək aldıqları nəticəni mərkəzə təqdim edir. Mərkəz problemlə bağlı cavabları ümumiləşdirdikdən və sistemləşdirdikdən sonra onları yenidən ekspertlərə qaytarır. Bu əməliyyat bir neçə dəfə təkrarlana bilər. Hər dəfə ümumiləşdirmələr qaytarıldıqda, ekspertlər özlərinin əvvəlki qiymətlərini yenidən nəzərdən keçirərək onu müəyyən dərəcədə və ya tamamilə dəyişə bilərlər. Eyni bir problemin bir neçə ekspert tərəfindən təhlil olunması və hər bir ekspertin təhlilinin nəticələrinin digər ekspertlərin nəzərinə çatdırılması problemin hərtərəfli və əsaslı şəkildə öyrənilməsinə səbəb olur. Bu müzakirələrin nəticəsində ekspertlərin qiymətlərindəki ilkin uyğunsuzluqlar tədricən aradan qaldırılır və onlar müzakirə olunan problemin həlli yolunu irəli sürülər.

*Ssenarilərin qurulması*

*Ssenarilərin qurulması metoduna* əsasən tədqiq olunan hadisənin mümkün inkişafının ideal (xəyali) modeli ssenari formasında irəli sürülür. Mövcud situasiyanın təhlili əsasında onun sonrakı inkişafına dair fərziyyələr təqdim olunur. İrəli sürülən fərziyyələr əvvəlcə heç bir yoxlanışa məruz qalmır. Birinci mərhələdə tədqiqatçının fikrincə situasiyanın sonrakı inkişafını müəyyən edən əsas faktorların təhlili və seçimi aparılır. Belə faktorların sayı çox olmamalıdır (altıyadək). Əks halda hər bir faktor tərəfindən təqdim olunan gələcəyin inkişaf variantı çox olaraq çətinlik yarada bilər. İkinci mərhələdə seçilmiş faktorların növbəti 10, 15 və 20 il ərzində inkişaf mərhələlərinə dair fərziyyələr irəli sürülür. Üçüncü mərhələdə bu faktorlar bir-biri ilə müqayisə olunur. Müqayisənin əsasında hər bir faktora uyğun bir neçə fərziyyə irəli sürülür. Nəhayət, dördüncü mərhələdə hər bir ssenarinin reallığının göstəriciləri müəyyən edilir və reallıq səviyyəsinə görə ssenarilərin təsnifatı verilir.

*Modelləşdirmə*

*Modelləşdirmə* bir proqnoz metodu kimi beynəlxalq münasibətlərin tədqiq olunmasında geniş tətbiq edilir. Bu metodun mahiyyəti sistem kimi çıxış edən süni,

ideal, təsəvvür olunan obyektlərin, situasiyaların qurulması ilə bağlıdır. Sistemin elementləri və münasibətləri real beynəlxalq münasibətlər sistemində olan hadisələrin və proseslərin elementlərinə və münasibətlərinə uyğun gəlir. Modelləşdirmə müəyyən qaydalar üzrə tədqiq olunan obyektin bənzərində onun əlamətlərinin əks olunmasıdır. Obyektin bənzəri *model* adlanır. Modelin qurulması üçün tədqiq olunan obyektin və modelin əlamətləri və prosesləri arasında müəyyən oxşarlığın olması vacibdir.

Mövcud şəraitdə real obyektlərin tədqiq olunması daha çətin, yaxud qeyri-mümkün olduğu halda modelləşdirmə təhlilin aparılmasını asanlaşdırır. Modelin üstünlüyü onun düzəlməsinin asanlığındadır, həmçinin əlamətlərinin onun iş rejiminin tez bir zamanda dəyişdirilməsinin, laboratoriya şəraitində lazımi dəyişikliklərin aparılmasının mümkünlüyündədir. Beynəlxalq münasibətlərdə modelləşdirmə metodunun tətbiq edilməsi təhlilin tətbiqi metodlarından və texnikasından kompleks şəkildə istifadə edilməsi üçün ona şərait yaradır. Bu isə, öz növbəsində, beynəlxalq münasibətlərin izah olunması və proqnozlaşdırılması üçün mühüm əhəmiyyət kəsb edir.

Lakin modelləşdirmə metodunun *zəif tərəfləri* və *bəzi çatışmazlıqları* da vardır. Onlardan ən əsası odur ki, beynəlxalq münasibətlər sisteminin tamamilə obyektiv modelinin qurulması mümkün deyil. Buna görə də modelin əsasında əldə olunan biliklər şübhə doğurur.

Beynəlxalq münasibətlərdə proqnoz metodlarının rolu əvəzsizdir. Beynəlxalq münasibətlər insan fəaliyyətinin elə bir sahəsidir ki, burada atılacaq hər bir addım elmi cəhətdən əsaslandırılmalıdır. Proqnoz metodlarının vasitəsilə beynəlxalq münasibətlər sahəsində baş verən hadisələrin inkişaf meyllərinin müəyyənləşdirilməsi müvafiq qərarların qəbul edilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Düzgün qərarların qəbul edilməsində partnyorun (və ya rəqibin) qərar qəbul etmə prosesinin təhlili mühüm əhəmiyyət kəsb edir.

***

Beləliklə, BMN fənnində istifadə edilən metodlar ümumi və tətbiqi qruplara bölünür. Hər iki qrup xarakterinə görə fənlərarası metodlara aiddir, yəni bu metodlar başqa elmlərdə də istifadə edilir. Nəzərdən keçirdiyimiz metodlardan ayrı-ayrılıqda deyil, kompleks şəklində istifadə etmək məqsədəuyğundur.

### *Fəslə aid suallar*

1. Metod nədir?

2. Niyə tətbiq edilən metod elmi olmalıdır?
3. BMN fənnində ümumi metodların tətbiq olunmasının əhəmiyyəti nədən ibarətdir?
4. Ümumi metodların tətbiqi metodlardan fərqi nədədir?
5. Sosioloji metodun mahiyyəti və əhəmiyyəti nədən ibarətdir?
6. Niyə beynəlxalq münasibətlərin marksist nəzəriyyəsində sosioloji metod ifrat şəkildə təqdim olunmuşdur?
7. Kulturoloji metodun mahiyyəti və əhəmiyyəti nədən ibarətdir?
8. Niyə kulturoloji metoda bəzən sivilizasiyalı yanaşma da deyirlər?
9. Samuel Hantinqtonun irəli sürdüyü “sivilizasiyaların toqquşması” konsepsiyasının məzmunu və onun nəzəri əsası nədir?
10. Sosioloji və kulturoloji metodlar arasında oxşar və fərqli cəhətlər nədən ibarətdir?
11. Normativ metodun mahiyyəti və əhəmiyyəti nədən ibarətdir?
12. Normativ metodun çatışmazlığı nədən ibarətdir?
13. Funksional metodun mahiyyəti və əhəmiyyəti nədən ibarətdir?
14. Biheviorist metodun mahiyyəti və əhəmiyyəti nədən ibarətdir?
15. Biheviorist metodunun elmi müddəaların intersubyektiv olması tələbi nəyi nəzərdə tutur?
16. Funksional metodun mahiyyəti və əhəmiyyəti nədən ibarətdir?
17. Struktur-funksional metodun mahiyyəti və əhəmiyyəti nədən ibarətdir?
18. Sistem metodunun mahiyyəti və əhəmiyyəti nədən ibarətdir?
19. Antropoloji metodun mahiyyəti və əhəmiyyəti nədən ibarətdir?
20. Antropoloji və sosioloji metodlar arasında oxşar və fərqli cəhətlər nədən ibarətdir?
21. Psixoloji metodun mahiyyəti və əhəmiyyəti nədən ibarətdir?
22. Tarixi metodun mahiyyəti və əhəmiyyəti nədən ibarətdir?
23. Tətbiqi metodların situasiyanın təhlili, eksplikativ və proqnoz metodları qruplarına bölgüsünün əsasında nə durur?
24. Müşahidə nədir?
25. Müşahidə prosesinin tərkib hissələri hansılardır?
26. Xarici və daxili müşahidə arasında fərq nədən ibarətdir?
27. Bilavasitə və dolayı müşahidə arasında fərq nədən ibarətdir?
28. Dərketmə prosesinin səmərəli metodu olmaq üçün müşahidə hansı tələblərə cavab verməlidir?
29. Sənədlərin öyrənilməsi metodunun mahiyyəti və əhəmiyyəti nədən ibarətdir?
30. Müqayisə nədir?
31. Bir tədqiqat metodu kimi səmərəli olmaq üçün müqayisə hansı tələblərə cavab verməlidir?

32. BMN-də müqayisə metodu vasitəsilə tədqiq olunan obyektlər haqqında məlumatı hansı yolla əldə etmək olar?
33. Kontent – analiz metodunun mahiyyəti və əhəmiyyəti nədən ibarətdir?
34. İvent-analiz metodunun mahiyyəti və əhəmiyyəti nədən ibarətdir?
35. Koqnitiv xəritələşmə metodunun əsas məqsədi nədir?
36. Eksperimentin digər eksplikativ metodlardan fərqi nədən ibarətdir?
37. BMN fənnində eksperimentin hansı növündən istifadə olunur?
38. Delfi metodunun mahiyyəti və əhəmiyyəti nədən ibarətdir?
39. Ssenarilərin qurulması metodunun mahiyyəti və əhəmiyyəti nədən ibarətdir?
40. Modelləşdirmə metodunun mahiyyəti və əhəmiyyəti nədən ibarətdir?

## Ədəbiyyat


Аналитические методы в исследовании международных отношений: Сборник научных трудов / Под ред. И.Г. Тюлина, А.С. Кожемякова, М.А. Хрусталева. М., 1982.

*Боришполец К. П.* Методы, методики и процедуры прикладного анализа международных отношений // Международные отношения: социологические подходы. Ред. П.А. Цыганков. М, 1998.

*Brzezinski Zb.* The Primacy of History and Culture. //Journal of Democracy, 12, 4, 2001.

*Bueno de Mesquita B.* Principles of International Politics: People’s Power, Preferences, and Perceptions. CQ Press, 2000.

*Бузан Б.* Уровни анализа в международных отношениях// Международные отношения: социологические подходы. М., 1998.

*Валлерштайн И.* Анализ мировых систем: современное системное видение мирового сообщества // Социология на пороге XXI века: новые направления исследований. М., 1998.

*Зайцева О.* О методологии изучения международных организаций //Мировая экономика и международные отношения. 1998. № 2.

*Косолапов Н.А.* Теоретическое исследование международных отношений (историко-интеллектуальный фон и этапы становления науки) // Мировая экономика и международные отношения. 1998. № 1,2.

*Huntington S.* The clash of civilizations and the remaking of world order. New York, Simon and Schuster, 1996

*Макьявелли Н.* Государь. https://avidreaders.ru/read-book/gosudar.html

*Merle M.* The Sociology of International Relations. Berg. N.Y., 1987.

*Rassett B.,* Starr H. World Politics. Menu for Choice. San Francisco, 1981.

*Nəcəfov E.Ə.* "İctimai elmlərdə akademik yazı və tədqiqat metodları", (Ali məktəblər üçün dərslik). Bakı, 2017

*Наджафов Э.А.* Цивилизационный подход к исследованию международной политики С. Хантингтоном. // Sosial biligilər 2002, № 1.

*Najafov E.A.* Impact of academic writing on development of critical thinking of MA students, Dövlət İdarəçiliyi. Nəzəriyyə və təcrübə, 2014, N2 (46), pp.151-160

*Цыганков П.А.* Теория международных отношений: Учебное пособие. М., 2006.

# II BÖLMƏ

# BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN ÖYRƏNİLMƏSİNƏ DAİR ƏSAS MƏKTƏBLƏR VƏ NƏZƏRİ YANAŞMALAR

## III FƏSİL
## LİBERALİZM

### 3.1. Liberalizmin əsas müddəaları

İctimai-fəlsəfi fikir tarixində beynəlxalq münasibətlərə dair liberalizm ideyaları BMN fənninin bir müstəqil fənn kimi formalaşmasından (1919-cu il) xeyli əvvəl irəli sürülmüşdür. Bu ideyaları irəli sürənlərdən holland hüquqşünası, filosofu *Huqo Qrosini (1583- 1645), ingilis filosofu Con Lokku (1632- 1704), şotland iqtisadçısı, filosofu Adam Smiti (1723- 1790), alman filosofu İmmanuil Kantı (1724-1804), Jeremi Bentamı (1748- 1832)* və başqalarını göstərmək olar. Bu görkəmli xadimlərin səyləri nəticəsində beynəlxalq münasibətlərin tədqiqi sahəsində liberalizm ənənəsi formalaşmışdır.

Liberalizm ənənəsi öz mahiyyətinə görə nikbin xarakter daşıyır. Çünki o, insanı təbiətinə görə mükəmməl, xeyirxah və sülhsevər bir məxluq olduğuna, onun təfəkkürünün, ağlının gücünə inanmaqla, elmə, təhsilə böyük önəm verməklə xalqlar, dövlətlər arasında müharibələrin qarşısının alınmasını, eləcə də sülh və əmin-amanlıq şəraitinin yaradılmasını real hesab edir. Liberalizm cəmiyyətdə *təkamül ideyasına* əsaslanır. Bu ideya hələ XVIII əsrdə yaranmışdır. 1795-ci ildə fransız filosofu-maarifçisi *Nikola de Kondorse (1743-1794) "İnsan təfəkkürünün tərəqqisinin tarixi görünüşünün eskizi"* adlı traktatında liberalizmin əsas müddəalarını təqdim etmişdir. O, dünyada müharibələrin, bərabərsizliyin və istibdadın olmamasını arzulayaraq elmin, təhsilin və ağlın yaradıcı gücündən bəhs edirdi, gələcək beynəlxalq cəmiyyəti zorakılıqdan, mənəviyyatsızlıqdan azad bir sistem kimi təsvir edirdi. Liberalizmin intellektual müddəalarına Jeremi Bentamın əsərlərində də rast gəlmək olar. Bentamın yaratdığı fəlsəfi sistem ağlın ictimai inkişafda aparıcı roluna arxalanırdı.

Bir tərəfdən Birinci Dünya müharibəsinin başa çatması, digər tərəfdən isə müharibədən az sonra BMN fənninin bir müstəqil fənn kimi formalaşması və Böyük Britaniya, ABŞ kimi qalib ölkələrin universitetlərində beynəlxalq münasibətlərin nəzəri məsələlərinə dair elmi tədqiqatların aparılması beynəlxalq münasibətlərin liberalizm ənənəsinin yayılması üçün əlverişli şərait yaradırdı. Beynəlxalq münasibətlər sahəsində aparılan tədqiqatlar ilk növbədə gələcəkdə müharibələrin qarşısının alınmasına dair tövsiyələrin hazırlanmasına xüsusi fikir verirdi.

Həmin dövr beynəlxalq münasibətlərin liberalizm nəzəriyyəsinin inkişafında ABŞ-ın 28-ci prezidenti *Vudro Vilson (1856-1924)* mühüm rol oynamışdır. Vilson tarixçi və politoloq kimi də məhşur idi. Onun elmi və siyasi fəaliyyəti nəticəsində liberalizm nəzəriyyəsi daha da geniş yayıldı. Liberal beynəlmiləlçilik nəzəriyyəsi Vilsonun adı ilə assosiasiya olunduğuna görə bəzən bu nəzəriyyə *vilsonianizm* adlandırılır. Vilsona görə, beynəlxalq aləmdə müşahidə olunan qeyri-sabitliyin və münaqişənin səbəbi beynəlxalq siyasətin qeyri-demokratik təbiəti ilə bağlıdır. Buna görə də qeyri-sabitliyin və münaqişənin qarşısını almaq üçün gizli diplomatiyadan imtina etməklə beynəlxalq siyasətin demokratikliyini təmin etmək lazımdır. Bu isə liberal beynəlmiləlçiliyin qarşısında duran əsas məsələdir. Liberal beynəlmiləlçilik nəzəriyyəsi dövlətlər arasında səmimi münasibətlərin inkişafını, liberal demokratiyanı, azad ticarəti təbliğ edir, gizli diplomatiyaya qarşı çıxır və insan haqlarını müdafiə və təşviq edir.

8 Yanvar 1918-ci ildə Prezident Vudro Vilson Amerika Konqresində *"14 maddə"* adlı proqram sənədi təqdim etmişdir. Bu sənəddə Birinci Dünya müharibəsindən sonrakı dövrdə yeni dünya düzəninin qurulmasının yolları əks olunmuşdur. *Vilsonianizmin,* yəni *liberal beynəlmiləlçilik nəzəriyyəsinin* müddəaları əsasında tərtib olunan bu sənəddə dünyada sülhün və ədalətin bərqərar olmasının konkret yolları göstərilir. "14 maddə"də Vilson ölkələri müharibələrə sürükləyən köhnə diplomatiyadan əl çəkib sülh danışıqlarının gizli qapılar arxasında deyil, açıq şəkildə aparılmasını tələb edir. O, ərazi sularından kənar dənizlərdə sərbəst naviqasiyanın təmin edilməsinə, müstəmləkə iddialarının qərəzsiz həllinə, ümumi silahlanmanın qarşısının alınmasına, süni ticarət maneələrinin aradan qaldırılmasına və ən əsası, sülhü təşviq etmək, eləcə də dövlətlərin siyasi müstəqilliyini və ərazi bütövlüyünü qorumaq üçün Millətlər Liqasının yaradılmasına çağırış edir. Bundan başqa Vilson dövlətlər arasında bir neçə konkret məsələnin həllinə dair təkliflərini irəli sürür. Onun təkliflərinə aşağıdakı məsələlərin həlli daxildir: Belçikanın bərpa edilməsi, vətəndaş müharibəsi gedən Rusiyanın daxili işlərinə müdaxilənin edilməməsi və ona lazım olan köməyin göstərilməsi, müstəqil Polşa dövlətinin yaradılması, Elzas- Lotarinqiyanın Fransaya qaytarılması, Avstriya-Macarıstan və Osmanlı İmperiyaların tərkibində olan xalqlara öz müqəddaratlarını təyin etmək hüququnun verilməsi.




*Şəkil 1*. Prezident Vudro Vilsonun *"14 maddə"* adlı proqram sənədi. Woodrow-Wilsons-Fourteen-Points.png

1919-cu ildə Paris Sülh Konfransında Vudro Vilsonun Millətlər Liqasının yaradılması haqqında ideyası reallaşdı. Vudro Vilson Millətlər Liqasının yaradılmasının zəruriliyini belə əsaslandırırdı. O hesab edirdi ki, dövlətlər arasında maraqların müxtəlifliyi dünyada sülhə nail olmağa imkan vermir. Beynəlxalq təşkilatlar dövlətlərin maraqlarını uzlaşdırmaqla sülhün möhkəmlənməsinə istiqamətlənən dünya düzənini qurmağa qadirdirlər. Bundan başqa beynəlxalq təşkilatların demokratik xarakteri onları üzv dövlətlər arasında fikir mübadiləsinin aparılması, mübahisəli məsələlərin sülh yolu ilə həll edilməsi üçün imkan yaradır. Beynəlxalq təşkilatlar fəaliyyətlərində açıq diplomatiyanı, əməkdaşlığı və qanunun aliliyini təşviq edirlər.

Beynəlxalq münasibətlər sistemində sülhün təmin edilməsində beynəlxalq təşkilatların mühüm rol oynamaları ideyası liberalizm nəzəriyyəsindən irəli gəlir. Millətlər Liqasının yaradılması bu nəzəriyyənin sözügedən ideyasının həyata keçirilməsi idi.

1930-cu illərdən başlayaraq beynəlxalq münasibətlərin liberalizm nəzəriyyəsinin mövqeləri zəifləməyə başladı. Bu proses İkinci Dünya müharibəsinin sonunadək davam etdi.

Liberalizmin növbəti dirçəlişi müharibədən sonrakı illərə təsadüf edir. Yeni tarixi şəraitdə bu nəzəriyyənin dirçəlişi onun ilk növbədə beynəlxalq təşkilatların

sülhün və təhlükəsizliyin təmin olunmasında roluna dair müddəasının geniş yayılmasında özünü büruzə verdi. 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) yaranması liberalizmin bu nəzəri müddəasının reallaşması idi. BMT gələcək müharibələrin qarşısının alınmasına, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasına, eləcə də dövlətlər arasında əməkdaşlığın inkişafına yönəlmişdir. Lakin 1946-1947-ci illərdə başlayan və 1991-ci ilin sonunadək davam edən ABŞ-ın və Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) başçılıq etdikləri hərbi-siyasi bloklar arasında gedən "soyuq müharibə" illəri ərzində BMT dünyada sülhü qorumaq missiyasını yerinə yetirə bilmirdi. Çünki bir-birinə qarşı duran bu hərbi-siyasi bloklar ilk növbədə öz hərbi potensiallarına güvənirdilər. Onlar milli təhlükəsizliklərinin təmin olunmasını hərbi potensiallarının artmasında görürdülər. BMT-nin və digər beynəlxalq və regional təşkilatların fəaliyyətlərinə isə ciddi önəm vermirdilər. Sovet İttifaqının bir dövlət kimi tarixin səhnəsindən getməsi və dünya kommunist sisteminin dağılması ilə "soyuq müharibənin" başa çatması BMT-nin və digər beynəlxalq təşkilatların sülhün və təhlükəsizliyin təmin olunmasında rolunun artması üçün əlverişli şərait yaratdı.

Sovet İttifaqının başçılıq etdiyi dünya kommunist sisteminin dağılması təkcə sülh və təhlükəsizliyin təmin olunması baxımından deyil, eləcə də liberalizmin digər fundamental dəyəri olan liberal demokratiyanın bərqərar olması baxımından əlamətdar bir hadisə idi. Bununla əlaqədar tanınmış Amerika politoloqu *Frensis Fukuyama "Tarixin sonu və sonuncu insan" ("The End of History and the Last Man")* adlı əsərində göstərir ki, SSRİ-nin süqutu liberal demokratiyanın ciddi rəqibi olmamasını sübut edir. Bu, bəşəriyyətin ideoloji inkişafının sonudur və "hakimiyyətin son formasıdır". Bundan başqa, "soyuq müharibənin" sonu "ideal dövlətin" və mükəmməlləşdirilə bilməyən siyasi iqtisadın, liberal kapitalizmin xüsusi formasının zəfəridir". Fukuyamaya görə, Şərq-Qərb qarşıdurmasının başa çatması göstərdi ki, liberal kapitalizm model kimi yıxıla bilməz və o, siyasi və iqtisadi inkişafın ən yüksək zirvəsidir. Fukuyama da əksər liberallar kimi tarixi inkişafı tərəqqi yönümlü təsvir edir. Onun qənaətinə görə, bütün xalqlar liberal demokratiya istiqamətində inkişaf edirlər. Modernləşmənin Qərb modeli tədricən bütün dünyada yayılacaqdır. Fukuyama inanır ki, tarixin tərəqqisi qlobal münaqişələrin ləğvi və liberal demokratiya ölkələrində mövcud olan qanunun aliliyi prinsipinin beynəlxalq aləmdə yayılması ilə ölçülə bilər.

Qeyd etmək lazımdır ki, qanunun aliliyi prinsipinin beynəlxalq aləmdə yayılmasına dair fikir beynəlxalq münasibətlərə *"daxili-xarici"* ("inside-out") yanaşmanın əsas müddəalarından biridir. Bu yanaşma dövlətlərin beynəlxalq münasibətlər sistemində davranışını onların daxili siyasi və iqtisadi durumları ilə əlaqələndirir. "Daxili-xarici" yanaşmanın beynəlxalq münasibətlərin liberalizm

nəzəriyyəsində mühüm yer tutduğunu nəzərə alaraq növbəti paraqrafda bu yanaşma ətraflı təhlil edəcəyik.

### 3.2. "Daxili-xarici" yanaşma

Liberal beynəlmiləlçilərin "legitim siyasi qaydaların yayılması tədricən beynəlxalq münaqişələrə son qoyacaqdır" fikrini Frensis Fukuyama yeni şəraitdə dirçəldir. Mahiyyətcə neokantçı mövqe olan "daxili-xarici" yanaşma göstərir ki, liberal-demokratik dəyərlərə malik olan bu və ya digər dövlət ideal və ya model dövlət kimi çıxış edir. Digər dövlətlər belə dəyərlərə can atır. Fukuyamaya görə, liberal demokratik dövlətlər öz zorakı instinktlərini və institutlaşdırılmış normaları üstələyərək bir-biri ilə münasibətlərini tənzimləyir. Onlar arasında oxşar prinsiplər yaranır. Liberal-demokratik prinsiplərin beynəlxalq aləmə keçirilməsi dünyada sülhün möhkəmlənməsi üçün əlverişli şərait yaradır, çünki liberal-demokratik prinsiplərə söykənən dünyada müharibə üçün zəmin çox az olur. Fukuyamaya görə, bu onunla bağlıdır ki, bütün demokratik dövlətlər qanunun aliliyi prinsipinə, bir-birinin suverenliyinə hörmətlə yanaşır.

Liberal mövqedən çıxış edən digər amerikalı politoloq, demokratik sülh nəzəriyyəsinin banilərindən biri olan *Maykl Doyl* Fukuyamanın bu fikrini müdafiə edərək qeyd edir ki, liberal demokratiyalar bir-biri ilə münasibətdə gücün tətbiq edilməsindən çəkinirlər. Onun fikrincə, aralarındakı ziddiyyətləri zorakılığa əl atmadan siyasi, diplomatik yolla həll etmək istəyən *pasifist ölkələrin* (müharibənin əleyhinə olan ölkələr.- E.N.) sayı artır. Bu hadisə post-kommunist dünyanın mühüm xüsusiyyətlərindən biridir.

Liberalların "daxili-xarici" yanaşmasını beynəlxalq münasibətlərin neorealizm nəzəriyyəsinin nümayəndələri tənqid edirlər. Neorealistlər hesab edirlər ki, dövlətlərin öz aralarındakı ziddiyyətləri zorakılığa əl atmadan həll edəcəklərinə onların aralarındakı münasibətləri tənzimləyə biləcək hakimiyyətin olmaması çətinlik yaradır. Beynəlxalq münasibətlər sisteminin anarxiya xarakterli olması daxili siyasi rejimdən asılı olmayaraq dövlətlərin xarici siyasətinin istiqamətlərini və beynəlxalq aləmdə onların davranışını oxşar, yəni təcavüzkar edir. Bununla əlaqədar neorealizm nəzəriyyəsinin görkəmli nümayəndələrindən biri amerikalı politoloq *Kennet Volts* qeyd edir ki, ABŞ və SSRİ-nin xarici siyasətinin "soyuq müharibə" dövründə oxşarlığı, yəni sülhyönümlü olmaması, liberalların fikirlərini təkzib edir. Voltsun fikrincə, Fukuyama və Doyl beynəlxalq münasibətlərin sistemli, mürəkkəb əlamətlərini göstərmək əvəzinə *reduksionizmə* (sadələşdirmə, endirməçilik. – E.N.) meyl edirlər, yəni beynəlxalq münasibətlərin mürəkkəb mahiyyətini və xüsusiyyətlərini açmaq əvəzinə onu ölkələrin daxili vəziyyəti ilə izah edirlər.

Beləliklə, “daxili-xarici” yanaşma liberalizmin BMN-nin mühüm metodoloji əsaslarından birini təşkil edir. Bu yanaşmanın əsasında liberallar belə bir nəticəyə gəlirlər ki, müasir dünyada liberal-demokratik dəyərlərin geniş yayılması, liberal-demokratik dövlətlərin sayının artması müharibə təhlükəsinin qarşısının alınması üçün əlverişli şərait yaradır. Bu fikir liberalların BMN-də irəli sürdükləri *demokratik sülh nəzəriyyəsində* əks olunmuşdur.

### 3.3. Demokratik sülh nəzəriyyəsi

*Demokratik sülh nəzəriyyəsinə* əsasən, demokratik dövlətlər bir-biri ilə müharibə aparmırlar. Onlar aralarında yaranan ziddiyyətləri diplomatik, sülh yolu ilə həll edirlər.

Demokratiyaya dair tədqiqatları ilə bütün dünyada tanınan görkəmli amerikalı politoloq *Robert Dal* demokratiyanın sülh üçün şərait yaratmasını onun mühüm bir üstünlüyü kimi qələmə verir. O, qeyd edir: “Demokratik quruluşun bu vacib üstünlüyünü uzun müddət ərzində əvvəlcədən söyləmək mümkün deyildi. Lakin XX əsrin son onilliyində olduqca heyrətləndirici və gözlənilməz təsir özünü büruzə verdi. 1945-ci ildən 1989-cu ilədək dünyada baş vermiş 34 hərbi münaqişədən heç biri demokratik ölkələr arasında olmamışdır.” Demokratik ölkələrin iştirak etdikləri müharibələr adətən onların qeyri-demokratik ölkələrə qarşı apardıqları müharibələr olmuşdur. Lakin bir-birinə münasibətdə demokratik dövlətlər hərbi gücdən istifadə etmirlər. Bu empirik fakt demokratik cəmiyyətin aşağıdakı xüsusiyyətlərindən irəli gəlir:

1. Demokratiya ölkə vətəndaşlarının dövlətin idarə olunmasında, o cümlədən dövlətin xarici siyasətinin istiqamətlərinin müəyyən edilməsində fəal iştirakını təmin edir. Bir qayda olaraq, vətəndaşlar siyasi xadimlərdən, hərbi-sənaye kompleksi nümayəndələrindən fərqli olaraq ölkələrinin müharibə aparmasına qarşı çıxış edirlər;
2. Əksər hallarda demokratik dövlətlər yüksək iqtisadi inkişafa malik olurlar. Burada ölkə vətəndaşlarının maddi rifahının səviyyəsi yüksək olur. Bu, ilk növbədə onunla izah olunur ki, demokratik dövlətlərin iqtisadiyyatı bazar münasibətləri əsasında inkişaf edir. Dövlətin iqtisadiyyata müdaxiləsi çox cüzidir. İstehsal olunan məhsullardan gəlir əldə etmək istəyi istehsalçılar arasında rəqabəti gücləndirir. Rəqabət ölkənin xidmət sahəsində çalışanlar arasında da müşahidə olunur. Bütün bunlar isə öz növbəsində ölkənın iqtisadi inkişafına səbəb olur. İstehsalçılar məhsullarını dünya bazarına çıxararaq beynəlxalq ticarətin inkişafına səbəb olurlar. *Nisbi üstünlük nəzəriyyəsinə* əsasən, beynəlxalq ticarətdə müəyyən məhsulların istehsalı və/ və ya xidmətlərin göstərilməsi sahəsində ixtisaslaşan dövlətlər bir-biri ilə müharibə

aparmaqda maraqlı deyil. Belə ki, onların hər biri beynəlxalq müstəvidə bir-biri ilə ticarət etməkdən faydalanır.

Demokratik sülh nəzəriyyəsi metodoloji baxımdan yuxarıda təhlil etdiyimiz "daxili-xarici" yanaşmaya əsaslanır. Dövlətin daxili durumu onun beynəlxalq münasibətlər sahəsində siyasətini və davranışını müəyyən edir. Maykl Doylun 1986-cı ildə nəşr olunmuş *"Liberalizm və dünya siyasəti"* adlı monoqrafiyası demokratik sülhün tədqiqinə həsr olunmuşdur. Bu monoqrafiyada Doyl demokratik sülh nəzəriyyəsinin əsas müddəalarını irəli sürmüşdür. Heç təsadüfi deyil ki, bəzi tədqiqatçılar demokratik sülh nəzəriyyəsini *"Doyl qanunu"* adlandırmışlar.

Demokratik sülh nəzəriyyəsi 1990-cı illərdə Qərb ölkələrində, xüsusilə ABŞ-ın akademik dairələrində geniş yayılmışdır. Bu nəzəriyyə müasir dövrdə ABŞ-ın xarici siyasətinin müəyyən istiqamətlərinin, xüsusilə onun dünyada demokratiyanın yayılmasına yönəlmiş səylərinin əsaslandırılması məqsədilə istifadə edilir. 1994-cü ildə prezident *Bill Klinton* ABŞ Konqresinə illik müraciətində ölkənin xarici siyasətinin prioritetlərindən biri olan dünyada demokratiyanın yayılması məqsədini əsaslandırarkən ilk dəfə olaraq demokratik sülh nəzəriyyəsinə müraciət etmişdir.

Dünyada müharibənin qarşısının alınmasında, sülhün qorunmasında demokratiyanın mühüm rol oynaması ideyası qeyri-demokratik ölkələrdə demokratik üsul-idarəsinin qurulması üçün ABŞ-ın həmin ölkələrin daxili işlərinə müdaxilə etməsinə, hətta hərbi təcavüz etməsinə bəraət qazandırır. Misal üçün 2003-cü ilin mart ayında baş vermiş ABŞ-ın İraqa hərbi təcavüzünü göstərmək olar. Buna görə də bəzi tədqiqatçılar demokratik sülh nəzəriyyəsini haqlı olaraq tənqid edərək onu ABŞ ekspansionizminin bir aləti kimi qələmə verirlər. *"Beynəlxalq münasibətlərin sosiologiyası"* adlı dərs vəsaitinin müəlliflərinin fikrincə, demokratik sülh nəzəriyyəsi doktrinasının beynəlxalq münasibətlərin praktikasına tətbiq edilməsi özünü iki formada büruzə vermişdir: *güc* (Yuqoslaviya, 1999; İraq, 2003) və *"məxməri" inqilab* (Yuqoslaviya, 2000; Gürcüstan, 2003; Ukrayna, 2004).

Samuel Hantinqton demokratik sülh nəzəriyyəsindən irəli gələn ideyaya, yəni ABŞ tərəfindən dünyada demokratiyanın yayılması ideyasına ehtiyatla yanaşmağı tövsiyə edir. O, bu ideyanı mütləqləşdirərək mexaniki şəkildə bütün ölkələrə tətbiq edilməsinə qarşı çıxır. Hantinqton *"20 il sonra. Üçüncü dünyanın gələcəyi"* adlı məqaləsində ABŞ hökumətinin qeyri-demokratik ölkələrdə demokratiyanı yaymaq cəhdlərini faydasız və hətta Qərb ölkələri üçün təhlükəli hesab edir. O, məqaləsində qeyd edir ki, liberal demokratiya Qərb sivilizasiyasının dəyəri kimi qeyri-Qərb, xüsusilə müsəlman və konfusian ölkələrində tətbiq edilə bilməz. Çünki müsəlman və konfusian ölkələri mədəniyyət baxımından Qərb sivilizasiyasına uyğun gəlmirlər. Buna görə də ABŞ hökuməti demokratik olmayan belə cəmiyyətlərdə elektoral demokratiyanı yaymaqdansa, mədəniyyət baxımından Qərb sivilizasiyasına yaxın olan Latın Amerikası ölkələrində artıq mövcud olan elektoral demokratiyanı liberal

demokratiya səviyyəsinə çatdırsa daha səmərəli və məqsədəuyğun olar. Hantinqton *"Sivilizasiyaların toqquşması və dünya düzəninin yenidən qurulması"* adlı monoqrafiyasında isə ABŞ-ın və Qərb sivilizasiyasına mənsub olan digər ölkələrin demokratik olmayan qeyri- Qərb ölkələri ilə təmasda olmasının Qərbin mədəni dəyərlərinə təhlükəli olduğunu qeyd edir.

Demokratik sülh nəzəriyyəsini beynəlxalq münasibətlərin realizm nəzəriyyəsinin nümayəndələri tənqid edirlər. Onlar bu nəzəriyyəni, onun əsas müddəalarının gerçəkliyə uyğun gəlmədiyinə görə rədd edirlər. Realistlərin fikrincə, sülhə dünyada demokratiyanın yayılması ilə deyil, güc vasitəsilə, təcavüzkar dövlətə qarşı birgə çıxış etməklə nail olmaq olar.

Beləliklə, demokratik sülh nəzəriyyəsinə əsasən, dünyada demokratiyanın yayılması müharibənin qarşısının alınması və sülhün bərqərar olması üçün əlverişli şərait yaradır. Lakin təəssüf ki, müasir dünyada müharibələrə hələ də rast gəlinir və bundan başqa yeni müharibələrin başlanması təhlükəsi vardır. Liberallar öz tədqiqatlarında müharibəyə bir sosial hadisə kimi yanaşaraq onun təhlilinə xüsusi əhəmiyyət verirlər.

### 3.4. Liberalizmdə müharibə konsepsiyası

XVIII-XIX əsrlərdə liberallar bütün dünyada sülhün bərqərar olmasına dair təkliflərini irəli sürəndə qeyd edirdilər ki, müharibənin qarşısını tamamilə almaq üçün demokratiyanı aristokratiyadan, azad ticarəti avtarkiyadan (*özünü təmin edən və beynəlxalq ticarətdə iştirak etməyən iqtisadi sistem. –E.N.*) və kollektiv təhlükəsizliyi qüvvələrin balansından üstün tutmaq lazımdır.

Liberallar üçün sülh normal sosial durumdur. İmmanuel Kantın sözləri ilə desək, sülh daimi ola bilər. Təbiətin qanunları xalqlar arasında harmoniya və əməkdaşlıq üçün şərait yaradır. Buna görə də müharibə həm qeyri-təbii, həm də irrasionaldır. Müharibə süni bir hadisədir. O, mükəmməl olmayan sosial münasibətlərin nəticəsidir. Liberallar insanın mükəmməl və tərəqqiyə can atan bir varlıq olmasına inanırlar. Buna görə onlar müharibəni insanın təbiətinə zidd hadisə kimi qələmə verirlər. İnsanın zəkasının qüvvəsinə və insanın öz daxili potensialına inanaraq liberallar əminliklə qeyd edirlər ki, müharibənin qarşısını almaq mümkündür.

*Jan-Jak Russo* və *İmmanuel Kantdan Cozef Şumpeter və Maykl Doyladək* bütün liberallar hesab edirlər ki, müharibələri qeyri-demokratik hakimiyyətlər törətmişlər. Amerikalı filosof, yazıçı, Amerika inqilabının əsas ideoloqlarından biri *Tomas Peyn (1737-1809) "İnsan Haqları" ("Rights of Man")* adlı əsərində qeyd edirdi ki, "müharibə sistemi" şahzadələri və dövlət xadimlərini hakimiyyətdə saxlamaq və onların zülmünü insanların boyunlarına daha möhkəm bağlamaq, eyni zamanda

əsgərləri, diplomatları və hərbi zavodları işlə təmin etmək məqsədilə düşünülüb yaradılmışdır.

Liberalizmə əsasən, müharibə dövlətin üzərində olan bir xərçəng xəstəliyi idi. Lakin insanlar bu xəstəliyi sağaltmaq iqtidarındadırlar. Hələ XVIII əsrdə müharibənin qarşısının alınmasına dair liberalların irəli sürdükləri fikir indiyədək dəyişməmişdir: müharibə xəstəliyi demokratiya və azad ticarət vasitəsilə müvəffəqiyyətlə müalicə oluna bilər. Demokratik proseslər və institutlar hakim elitanın hakimiyyətini dağıdacaq və onun zorakılığa meylliliyinin qarşısını alacaqdır. Azad ticarət və kommersiya isə fərdlər arasında süni maneələri dəf edəcək və onları birləşdirəcəkdir.

Liberallara görə, demokratik üsul idarəsi müharibə təhlükəsini aradan qaldırır. Liberal demokratiya şəraitində dövlət başçıları öz vətəndaşları qarşısında məsuliyyət daşıyırlar, qanun qarşısında hamı bərabər olur, insan haqlarına, fikir və söz azadlıqlarına, şəxsi mülkiyyətə hörmətlə yanaşılır. Belə bir şəraitdə ölkə vətəndaşları müharibənin əleyhinə çıxış edirlər. Bununla əlaqədar Maykl Doyl deyir: “Müharibə yükünü daşıyan vətəndaşlar hökumətlərini seçəndə müharibələr qeyri-mümkün olur”.

Ölkənin daxilindəki sülh və əmin-amanlıq şəraiti onun xarici siyasətinə də müsbət təsir göstərir. Demokratik prinsiplərə və institutlara əsaslanan liberal ölkələrin xarici siyasətləri təcavüzkar olmur. Belə ölkələr bir-biri ilə müharibə aparmaqda maraqlı olmur. Lakin bu o demək deyil ki, onlar eyni zamanda qeyri-demokratik ölkələrə də qarşı müharibə aparmaqda maraqlı deyil. Öz milli təhlükəsizliklərini qorumaq, qeyri-demokratik ölkələrdə insan haqlarını müdafiə etmək adı altında demokratik dövlətlər totalitar və avtoritar dövlətlərə qarşı müharibə aparırlar. Buna misal kimi ABŞ başda olmaqla Qərb ölkələrinin Yaxın Şərqdə, Afrikada, Mərkəzi Asiyada və digər regionlarda müxtəlif vaxtlarda apardıqları müharibələri göstərmək olar.

Liberallar müharibələrə son qoymağın ən optimal yolu kimi bütün dünyada liberal-demokratik hakimiyyətlərin bərqərar olmasını göstərirlər. Fukuyamaya görə, SSRİ başda olmaqla dünya kommunist sisteminin çökməsi bunun üçün əlverişli şərait yaratmışdır. Belə ki, kommunist sisteminin dağılması dünyada liberal demokratiyanın yayılması üçün əlverişli şərait yaradır. Digər *amerikalı politoloq Con Müller* isə qeyd edir ki, liberal demokratiya şəraitində müharibə mənəviyyata zidd, qeyri-sivil və iyrənc bir hadisə kimi özünü göstərir. O, beynəlxalq diplomatiyada öz səmərəliliyini itirir. Müllerə görə, XX əsrin sonunda müharibənin köhnəlməsi insanların mənəvi inkişaflarının nəticəsidir, etik şüurun sosial davranışın zorakılıq formalarından uzaqlaşması deməkdir. Müharibə xeyirdən, qazancdan çox ziyan, itki gətirdiyinə görə rasional cəhətdən səmərəsiz hadisə hesab olunur.

İnkişaf etmiş ölkələr arasında uzun illər ərzində hökm sürən sakitlik Müller və Fukuyamanın nikbinliyinə əsas verir. Liberalların fikrincə, liberal demokratiya ölkələri artıq elə bir dövrə daxil olur ki, burada müharibə beynəlxalq diplomatiyanın bir aləti kimi gündəmdən çıxır.

Lakin *Kennet Volts* və *Con Mirşeymer* kimi neorealistlər liberalların bu nikbinliyi ilə razılaşmırlar. Onlar sovet hərbi gücünün dağılmasından narahatdırlar. Belə ki, "soyuq müharibə" illəri dövründə ABŞ və SSRİ arasında olan nüvə silahı tarazlığı beynəlxalq sabitliyin əsasını təşkil edirdi. İndi isə qüvvələrin balansı pozulmuşdur və dünya qeyri-müəyyənliyin və qeyri-sabitliyin yeni və qorxulu mərhələsinə daxil olur. Voltsa görə, beynəlxalq siyasətdə balanslaşmamış qüvvə, hətta bu qüvvə ABŞ olsa da belə, təhlükə törədir. Müasir dünyada sülhün yayılma arealı nə qədər genişlənsə də, qüvvələrin balansının pozulması şəraitində müharibənin başlanması təhlükəsi artır. Bu, beynəlxalq münasibətlər sisteminin anarxiyalı xarakterindən irəli gəlir.

### 3.5. Liberalizm azad ticarət haqqında

XVIII-XIX əsrlərdə liberallar *azad ticarətin* inkişafını ölkənin iqtisadi vəziyyətinin və xalqın rifahının yaxşılışdırılmasının səmərəli yolu hesab edirdilər. *David Rikardonun nisbi üstünlük nəzəriyyəsinə* əsasən, hər bir dövlət millətçilik və avtarkiyadan əl çəkdikdə, onun maddi vəziyyəti yaxşılaşır. Ticarətə qoyulan süni maneələr dövlətlər arasında münasibətləri pisləşdirərək onlar arasında müharibələrə səbəb olur. Azad ticarət isə xalqlar arasında əlaqələri genişləndirərək dostluğa və qarşılıqlı anlaşmaya şərait yaradır. Kant yazırdı ki, xalqlar arasında azad ticarət onları birləşdirir, sülhsevər xalqın gücünü və sərvətini artırır, digər xalqlara isə sülhün vacibliyini anladır. Rikardo qeyd edirdi ki, azad ticarət xalqların universal cəmiyyətini yaradır. Adam Smit və Tom Peynin fikrincə, əmtəənin, kapitalın və əməyin azad hərəkəti münaqişələrin qarşısını ala bilər.

Liberallara görə, azad ticarət iqtisadi cəhətdən xalqları bir-birindən elə asılı edir ki, onlar müharibələr və hərbi büdcələr haqqında heç düşünmürlər. Avtarkiya mürtəce qüvvələrin işidir və müharibələrin əsas səbəblərindən biridir. Azad ticarətin xeyri başqa ölkənin ərazisini zəbt etməkdən daha üstündür.

İkinci Dünya müharibəsindən sonrakı dövrdə Avropada regional iqtisadi inteqrasiyanın yaranması belə bir liberal fikrə əsaslanırdı ki, dövlətlərarası münaqişə ehtimalı region ölkələri arasında ticarət və iqtisadi əməkdaşlıq sahəsində ümumi marağın yaranması ilə azalacaqdır. Bu, aralarındakı problemləri tarixən hərbi yolla həll edən Almaniya və Fransanı iqtisadi və siyasi bir təşkilatda əməkdaşlıq etməyə sövq edəcəkdir. Nəticədə Almaniya və Fransa bir-birinin iqtisadi inkişafında maraqlı olacaqdır. *Avropa Birliyi* liberalların bu fikrinin gözəl nümunəsidir. Beynəlxalq

təşkilatlara üzv olmaqla dövlətlər maraqlarını genişləndirir və əməkdaşlıq edirlər. Bu təşkilatların qəbul etdikləri hüquqi sənədlərə, qaydalara tabe olaraq dövlətlər öz milli maraqlarını müəyyən dərəcədə arxa plana çəkir.

Müasir dövrdə liberalizmin görkəmli nümayəndələrindən biri olan *amerikalı politoloq Riçard Rouzkrans "Ticarət edən dövlətin inkişafı" (Richard Rosecrance "The rise of the trading state")* adlı əsərində qeyd edir ki, azad ticarətin inkişafı nəticəsində qarşılıqlı iqtisadi asılılığın artması ərazinin işğalının dəyərini və əhəmiyyətini azaldır. Müasir dünyada ticarətin və iqtisadi əməkdaşlığın xeyri hərbi rəqabətin xeyrindən çoxdur. Son illər aydın oldu ki, beynəlxalq sistemdə *"hərbi dövlət" "ticarət edən dövlətlə"* rəqabət apara bilmir. Rouzkrans hesab edir ki, 1970-ci illərdə hakim elita anlamağa başladı ki, dövlətin zənginliyi onun istehsal edib dünya bazarına çıxardığı məhsulun və təklif etdiyi xidmətlərin payı ilə müəyyən edilir. Bu həqiqətin iki mühüm nəticəsi oldu. Birincisi, iqtisadi cəhətdən bir-birindən asılı olmayan dövlətlərin dövrü başa çatdı. Qarşılıqlı iqtisadi asılılıq göstərir ki, hər bir dövlət beynəlxalq təşkilatın digər üzvləri tərəfindən sanksiyalara məruz qalmamaq üçün təcavüzkar siyasət aparmağa heç cəhd belə etmir. Dövlət öz ticarət tərəfdaşını təhdid etməyi məqsədəuyğun saymır. İkincisi, nüvə əsrində ərazinin zəbt olunması həm təhlükəli, həm də baha başa gələn işdir. Ticarət və xarici investisiya vasitəsilə iqtisadi inkişaf isə daha cəlbedici və əlverişli strategiyadır.

Qeyd etmək lazımdır ki, liberalizmin azad ticarət haqqında fikirləri tənqid olunur. Tənqidçilər ilk növbədə hesab edirlər ki, azad ticarətin və bazar münasibətlərinin səmərəlilik uğrunda rəqabətə səbəb olması nəticəsində rəqabətə dözməyən ölkələr kənarda qalmış olurlar. Azad ticarət var-dövlətin və hakimiyyətin paylaşdırılmasına da təsir göstərir. Səmərəli istehsalın, ixrac qazancının və beynəlxalq əmək bölgüsünün tələblərinə uyğun olaraq icma həyatı bazar həyatına çevrilir. Beynəlxalq sistemdə heç də hər bir ölkə azad ticarət tərəfindən yaradılan imkanların üstünlüyündən faydalanmağa, yaxud bazar qüvvələrindən öz maraqlarına uyğun istifadə etməyə qadir deyil. Yalnız zəngin cəmiyyətlər bazarın gücündən, üstünlüyündən istifadə edə bilər. Amerikalı politoloq *Robert Qilpinə* (neorealist) görə, "azad ticarət bu və ya digər ölkənin iqtisadiyyatını daha güclü iqtisadiyyatlar tərəfindən istismara məruz qoyaraq və dünya bazarının sabitsizliyinə səbəb olaraq milli muxtariyyatı və dövlət nəzarətini dağıdır". Bu fikir ilk dəfə XIX əsrin ortalarında liberalizmin "qızıl əsrində" söylənilmişdir. O vaxt Britaniyada müstəmləkəçilik və sənaye ekspansiyası özünün ən yüksək inkişaf mərhələsində idi.

XIX əsrin ortalarında iqtisadi millətçiliyn görkəmli nümayəndələrindən biri olan alman iqtisadçısı *Fridrix List (1789- 1846)* azad ticarəti bir maska kimi qələmə verirdi. Onun fikrincə, azad ticarətin arxasında Britaniya özünün milli maraqlarını güdür. Daha konkret desək, Britaniya öz sənayesinin böyük məhsuldarlığından və məhsullarının dünya ticarətində aparıcı mövqe tutmasından sui istifadə edirdi.

Britaniya imperiyasının hərbi gücünə arxalanan ingilislər dünya bazarında gedən rəqabətdə öz sənayelərinin maraqlarını qoruyur, hərbi yolla rəqiblərini zəiflədirlər. Onlar texnologiya və sənaye sahəsində üstünlük əldə etdikdən sonra azad ticarətdə birinci oldular. Listə görə, ingilislər öz sənayeləri güclənənə qədər proteksionizm, dövlət tərəfindən ölkənin mənafelərinin qorunması siyasətini yeridirdilər. Buna nail olduqdan sonra onlar azad ticarət vasitəsilə xarici bazarlara maneəsiz giriş uğrunda mübarizə aparmağa başladılar. Listin fikrincə, XIX əsrdə azad ticarət Britaniya kimi sənaye sahəsində lider olan dövlət üçün düzgün siyasət idi, çünki o, zəif ölkələri istismar etmək üçün Britaniyaya imkan yaradırdı. Belə olan şəraitdə yalnız proteksionizm siyasəti zəif ölkələrə Britaniya kimi iqtisadi cəhətdən inkişaf etmiş dövlətin üstünlüyünə qarşı çıxmaq imkanı verə bilərdi. Britaniya azad ticarəti dünyanı qarət etmək üçün icad etmişdir. Buna cavab olaraq bir sıra ölkələrdə *iqtisadi millətçilik* formalaşmışdır.

XX əsrin ikinci yarısında da azad ticarətin müəyyən maraqlara xidmət etməsi haqqında fikir qalmaqda idi. Azad ticarətin tənqidçiləri *"imperializm"* sözünü ona əlavə etdilər. Ümumiyyətlə, o dövrdə ABŞ tərəfindən liberal azad ticarət rejiminin yaradılması dövlət siyasətinin məqsədyönlü fəaliyyətinin nəticəsi idi. ABŞ dünya iqtisadiyyatını yenidən elə qurmaq istəyirdi ki, kapitalın və texnologiyanın sərbəst hərəkətinə uyğun olan açıq dünya iqtisadiyyatını yaratmaq mümkün olsun. ABŞ siyasətçiləri ingilis sterlinq blokunu dağıtmaq, konvertasiya edilən valyutalarını yaratmaq və azad ticarət üçün şərtləri müəyyən etmək istəyirdilər. Onlar xammala hər bir dövlətin, xüsusilə inkişaf etmiş dövlətlərin çıxışının olmasını müdafiə edirdilər. ABŞ anlayırdı ki, dünyanın maliyyə hegemonu olmaq üçün dövlətin gücündən istifadə etmək lazımdır.

ABŞ SSRİ-yə liberal beynəlxalq qaydalara böyük bir təhlükə kimi yanaşırdı, çünki SSRİ-nin nəzarət etdiyi dövlətlərdə ABŞ öz maraqlarını yeridə bilmirdi. Hər hansı bir dövlət və ya blok ABŞ-ın hegemonluq etdiyi sistemdən özünü ayırdıqda düşmənçiliklə üzləşirdi. ABŞ zəruri hallarda belə dövlətlərə qarşı hərbi güc tətbiq edirdi.

Azad ticarət imperializminin tənqidi azad ticarəti dəstəkləyən dövlətlərin ikiüzlülüyü ilə bərabər liberallar tərəfindən müdafiə edilən iqtisadi dünya düzəninin yaradılması üçün paradoks olaraq dövlətin müdaxiləsinin vacibliyini göstərir. İnkişaf etmiş ölkələrin elitasından fərqli olaraq, inkişaf etməkdə olan ölkələrin ideoloqları azad ticarətə şübhə ilə yanaşırlar. Onlar azad ticarəti ölkələrinin təbii sərvətlərinin istismarı, xarici investisiyaların qoyulmasını təmin edən imperializmin silahı kimi qələmə verirlər. Azad ticarət bu ölkələrin iqtisadi suverenliklərinin zəifləməsinə səbəb olur və onların iqtisadi inkişafın alternativ yoluna keçmələrinə imkan vermir. Yeri gəlmişkən qeyd edək ki, müasir qloballaşma dövründə azad

ticarət dövlət elitası, eləcə də qlobal bazarlarda fəaliyyət göstərən biznes elitası tərəfindən dirçəldirilməkdədir.

Beləliklə, azad ticarətin lehinə arqumentlər iqtisadi səmərəlilik baxımından öz əhəmiyyətini saxlamasına baxmayaraq, inkişaf etmiş ölkələr üçün azad ticarət çox vaxt qarşılıqlı olmur, yəni onlar azad ticarətin prinsiplərinə öz ölkələrində əməl etmirlər. Onlar azad ticarətdən yalnız iqtisadi cəhətdən geridə qalmış ölkələrə münasibətdə istifadə edirlər. Azad ticarət belə ölkələrin iqtisadi inkişafına müdaxilə etmək məqsədilə tətbiq edilir. Başqa sözlə desək, azad ticarət haqqında inkişaf etmiş ölkələrin sözləri ilə əməlləri arasında uyğunsuzluq vardır. Bu uyğunsuzluq isə son zamanlar dünya iqtisadiyyatının strukturunda və beynəlxalq ticarətin formalarında baş verən fundamental dəyişikliklərlə bərabər liberalizm nəzəriyyəsinin dünya iqtisadiyyatının qloballaşma prosesini izah etmək üçün münasib bir nəzəriyyə olmasına şübhə yaradır.

## 3.6. Liberalizm gizli diplomatiya, qüvvələrin balansı və kollektiv təhlükəsizlik haqqında

Liberallara görə, Qərb ölkələrində demokratik üsul idarəsinin meydana gəldiyi dövrdən əvvəl hakimiyyətdən hakim elitanın maraqlarına uyğun, xalqın maraqlarına isə zidd istifadə edilirdi. O dövrdə xalqı təmsil etməyən elitanın xarici siyasətdə tətbiq etdiyi diplomatiyanı liberallar *gizli diplomatiya* adlandırırdılar. O dövrün hakim dairələri hesab edirdilər ki, xarici siyasət xüsusi bir sənət olduğuna görə onunla gizli qapılar arxasında təcrübəli diplomatlar məşğul olmalıdırlar, xalq isə bu işə qarışmamalıdır. Liberallar hesab edirlər ki, demokratik üsul idarəsinin tətbiqi nəticəsində xalqın cəmiyyətin müxtəlif sahələrində, o cümlədən xarici siyasət sahəsində qərarların qəbul edilməsi prosesində iştirakı artır. Xarici siyasət demokratik nəzarətlə təmin olunur. Bunun əsas əhəmiyyəti ondadır ki, xalq başqa dövlətlərlə müharibə yox, əməkdaşlıq etməyə can atır. Xalq müharibənin əleyhinə çıxır. Nəticədə beynəlxalq münasibətlərin mahiyyəti dəyişir və ölkələr arasında səmərəli əməkdaşlıq üçün əlverişli şərait yaranır.

Liberallar *qüvvələrin balansını* gizli diplomatiyanın ən zərərli cəhəti kimi, bəşəriyyətin maraqlarına zidd hal kimi təqdim edirlər[3]. Çünki dövlətlərin silahlanması nəticəsində əldə olunan qüvvələrin balansı xalqın maraqlarına, istəyinə ziddir. Onun əldə olunması cəmiyyətdə sosial proqramların ixtisar olunması hesabına baş verir. Bu, bir tərəfdən hərbi-sənaye kompleksinin nümayəndələrinin varlanmasına, digər tərəfdən isə xalqın rifahının aşağı enməsinə səbəb olur.

[3] *Qeyd:* Dərsliyin 14.4 yarımfəslində qüvvələrin balansı nəzəriyyəsi təfsilatla izah olunur.

Liberallar qüvvələrin balansını hakim elitanın gizli fəaliyyətinin nəticəsi hesab edirlər.

XIX əsrin liberal beynəlmiləlçiləri *(Riçard Kobden, David Rikardo, Jeremi Bentam, Con Stüart Mill və s.*) beynəlxalq münasibətlərə yanaşmalarında *anti-statist (ingilis dilindən tərcümədə anti- əleyhinə, statist – dövlətçi*) mövqedə dururdular, yəni onlar dövlətin şəxsi, sosial və iqtisadi məsələlərə müdaxiləsinə qarşı çıxırdılar. Onlar demokratik olmayan siyasi rejimləri beynəlxalq münaqişə və təhlükənin əsas səbəblərindən biri hesab edərək bu rejimlərin demokratik üsul idarəsi ilə əvəz olunmalarını arzu edirlər. Lakin beynəlxalq münasibətlərin transformasiyasının qarşısında duran əsas maneə qüvvələrin balansı sistemi idi. Qüvvələrin balansı sistemi istibdad rejimlərinin ləğv olunmasının qarşısını alaraq onların saxlanılması üçün şərait yaradırdı. Belə ki, imperiyalar və avtoritar hakimiyyətlər Avropa dövlətləri sisteminin bütövlüyündə maraqlı olan qüvvələr tərəfindən dəstəklənirdi. Avropa dövlətləri sisteminin bütövlüyünü saxlamaq naminə imperiyalar və avtoritar hakimiyyətlərə dözümlü münasibət göstərilirdi. Liberallar mövcud vəziyyətdən çıxış yolunu qüvvələrin balansı sistemindən imtinada görürdülər.

Liberallar qüvvələrin balansı sistemini tənqid edərək onu qeyri-müəyyən, məntiqə zidd hesab edirlər. Liberallara görə, qüvvələrin balansını saxlamaq cəhdləri adətən müharibəyə səbəb olur. Qüvvələrin balansı elə bir üsuldur ki, böyük dövlətlər onun vasitəsilə beynəlxalq hüquqa zidd olaraq kiçik dövlətlərin maraqlarını nəzərə almadan öz kommersiya və strateji maraqlarını güdürlər. Buna cavab olaraq, qüvvələrin balansının tərəfdarları qeyd edirlər ki, qüvvələrin balansının əsas funksiyası sülhü yox, dövlətlərin sistemini saxlamaqdır.

1914-cü ilədək əksər alimlər və dövlət xadimləri hesab edirdilər ki, qüvvələrin balansı özünü tənzimləyən bir sistemdir. Bəziləri qüvvələrin balansını hətta iqtisadi sahədəki *tələb və təklif arasındakı qanunun* siyasi ekvivalenti kimi qələmə verirdilər. Birinci Dünya müharibəsinin başlanması bu fikrin yanlış olduğunu sübut etdi. Belə ki, qüvvələrin balansı Birinci Dünya müharibəsinin başlanmasının qarşısını ala bilmədi. Təcavüzkar ölkəyə qarşı birləşməkdə çeviklik göstərməkdənsə, böyük ölkələr iki antaqonist blokda bir-birinə qarşı durdular.

Liberallara görə, müharibə təhlükəsinin qarşısının alınmasının ən səmərəli vasitəsi *kollektiv təhlükəsizlik sistemidir*. Kollektiv təhlükəsizlik sistemi vasitəsilə dövlətlər müharibənin qarşısının alınması və yaxud onun dayandırılması istiqamətində birgə fəaliyyət göstərirlər. Təcavüzə məruz qalan dövlətin digər dövlətlər tərəfindən müdafiə olunması müharibənin qarşısının alınmasında olduqca təsirli bir mexanizmdir. Sistemə daxil olan digər dövlətlərin müqaviməti ilə üzləşən təcavüzkar dövlət geri çəkilməyə məcbur olur.

Millətlər Liqası və BMT öz fəaliyyətlərində kollektiv təhlükəsizlik prinsipinə əsaslanırlar. Lakin bu təşkilatlardan heç biri onlara üzv olan dövlətlərin, xüsusilə

böyük güclərin arasındakı maraqların toqquşması səbəbindən təcavüzün qarşısını almaq məqsədilə kollektiv təhlükəsizlik prinsipini tətbiq edə bilməmişdir.

Sülhün bərqərar olmasını demokratiyanın yayılması ilə əlaqələndirən liberallar kollektiv təhlükəsizlik prinsipi vasitəsilə daxili hüququ beynəlxalq səviyyəyə qaldırmağa cəhd edirlər. Onlara görə, beynəlxalq sistem daxili cəmiyyət kimi eyni yolla tənzimlənsə, beynəlxalq anarxiyanın dağıdıcı qüvvələrinin qarşısını almaq olar. Prezident Vudro Vilsonun 14 maddəsi ABŞ Konstitusiyasının ideyalarını qlobal şəkildə yeritmək cəhdi idi. Vilson Millətlər Liqasını beynəlxalq münasibətlər sistemində dövlətlərin davranışını tənzimləyəcək təşkilat kimi görmək istəyirdi. O, ümid edirdi ki, Millətlər Liqasının üzvləri aralarında yaranan mübahisələri beynəlxalq arbitrə təqdim etməklə və ehtiyac yarandıqda sanksiyalardan istifadə etməklə təcavüzkar dövlətləri münaqişənin həllində dinc vasitələrdən istifadə etməyə məcbur etməlidirlər. Millətlər Liqasının Nizamnaməsinin 16-cı maddəsinə əsasən, bu təşkilatın üzvünə qarşı müharibə onun bütün üzvlərinə qarşı təcavüz kimi qələmə verilirdi. Vilsona görə, beynəlxalq münasibətlər sistemində qüvvələrin balansı deyil, qüvvələrin icması olmalıdır, təşkil olunmuş rəqabətlər deyil, təşkil olunmuş ümumi sülh olmalıdır. Bundan başqa beynəlxalq münasibətlər sistemində artıq bağlı birliklərdə ehtiyac olmayacaqdır, çünki gizli diplomatiya *açıq müzakirə* ilə əvəz olunacaqdır. Dövlətlər aralarında yaranan ziddiyyətlərin, münaqişələrin həlli zamanı gücdən istifadə olunmasından əl çəkəcəklər.

Təəssüf ki, Vudro Vilsonun kollektiv təhlükəsizlik və Millətlər Liqası ilə bağlı ümidləri reallaşmadı. 1930-cu illərdə kollektiv təhlükəsizlik ideyası tənəzzülə uğradı, çünki bu ideya dövlətlər tərəfindən beynəlxalq siyasətin konkret konfiqurasiyasından asılı idi. Konfiqurasiya isə Birinci Dünya müharibəsində məğlub olan dövlətlərin xeyrinə deyildir. Buna görə də bu dövlətlər kollektiv təhlükəsizlik ideyasına qarşı çıxaraq ona qalib ölkələrin xeyrinə işləyən bir mexanizm kimi yanaşırdılar. Bu dövlətlər Versal sülh müqaviləsinin müddəalarına yenidən baxılmasını tələb edirdilər. Onlar Millətlər Liqasının rolunu sülhün qorunmasında deyil, status-kvonun möhkəmləndirilməsində görürdülər. Bu isə onların maraqlarına uyğun gəlmirdi.

1931-ci ildə Yaponiya Mancuriyanı, 1935-1936-cı ildə İtaliya Həbəşistanı işğal etdi. Millətlər Liqası bu təcavüzlərə qarşı heç bir tədbir görmədi. Bu, Millətlər Liqasının öz vəzifəsini icra etmək iqtidarında olmadığını göstərirdi. Bundan başqa bütün dünyada kollektiv təhlükəsizliyin təmin olunmasının əsas vasitələrindən birinin Millətlər Liqası olmasına baxmayaraq, bu təşkilatın fəaliyyəti ona üzv olan dövlətlərin milli suverenliyin möhkəmlənməsi ilə məhdudlaşırdı. Bu isə kollektiv təhlükəsizlik ideyasına uyğun gəlmirdi.

### *Fəslə aid suallar*

1. İctimai-fəlsəfi fikir tarixində beynəlxalq münasibətlərin tədqiqi sahəsində liberalizm ənənəsinin formalaşması kimlərin adları ilə bağlıdır?
2. Liberalizm ənənəsi öz mahiyyətinə görə nikbin yoxsa bədbin xarakter daşıyır? Niyə?
3. Liberalizm cəmiyyətdə təkamül yoxsa inqilab ideyasına əsaslanır? Niyə?
4. Nikola de Kondorsenin təqdim etdiyi liberalizmin əsas müddəaları nədən ibarətdir?
5. Birinci Dünya müharibəsindən sonrakı dövrdə beynəlxalq münasibətlərin liberalizm ənənəsinin yayılması nə ilə bağlı idi?
6. Beynəlxalq münasibətlərin liberalizm nəzəriyyəsinin inkişafında Vudro Vilson nə kimi rol oynamışdır?
7. Vilsonianizmin əsas müddəaları nədir?
8. Vilsonianizmə görə gizli diplomatiya nədir?
9. Vilsonianizmə görə müharibənin səbəbi nə ilə bağlıdır?
10. Vudro Vilsonun tərtib etdiyi "14 maddə" adlı proqram sənəd nədən bəhs edir?
11. Vudro Vilson Millətlər Liqasının yaradılmasını nə ilə əsaslandırırdı?
12. Millətlər Liqasının yaradılması liberalizm nəzəriyyəsinin hansı nəzəri müddəasına əsaslanırdı?
13. İkinci Dünya müharibəsindən sonrakı dövrdə liberalizmin növbəti dirçəlişi onun hansı nəzəri müddəasının geniş yayılmasında özünü büruzə verdi?
14. Niyə "soyuq müharibə" illəri dövründə BMT dünyada sülhü qorumaq missiyasını yerinə yetirə bilmirdi?
15. Niyə Frensis Fukuyama dünya kommunist sisteminin dağılmasını liberal demokratiyanın zəfəri hesab edir?
16. "Daxili-xarici" yanaşma nədir?
17. Demokratik sülh nəzəriyyəsinə görə, niyə demokratik dövlətlər bir-biri ilə müharibə aparmır?
18. Demokratik sülh nəzəriyyəsinin metodoloji əsasını nə təşkil edir?
19. Demokratik sülh nəzəriyyəsi müasir dövrdə ABŞ-ın xarici siyasətinin hansı istiqamətini əsaslandırır?
20. Nisbi üstünlük nəzəriyyəsi nədir?
21. Nisbi üstünlük nəzəriyyəsinə əsasən, müharibənin qarşısını almaq üçün dövlətlər nə etməlidir?
22. "Doyl qanunu" nədir?
23. Niyə bəzi tədqiqatçılar demokratik sülh nəzəriyyəsini ABŞ ekspansionizminin bir aləti hesab edirlər?

24. Niyə Samuel Hantinqton qeyri-demokratik ölkələrdə demokratiyanı yaymaq cəhdlərini faydasız hesab edir?
25. Niyə liberallar müharibəni insanın təbiətinə zidd hadisə kimi qələmə verirlər?
26. Niyə liberallar demokratik üsul idarəsini müharibə təhlükəsinin aradan qaldırılmasında mühüm vasitə hesab edirlər?
27. Niyə Fukuyama hesab edir ki, dünya kommunist sisteminin çökməsi müharibələrin qarşısını alınması üçün əlverişli şərait yaratmışdır?
28. Hansı əsaslara görə XVIII-XIX əsrlərdə liberallar azad ticarətin inkişafını ölkənin iqtisadi vəziyyətinin və xalqın rifahının yaxşılışdırılmasının səmərəli yolu hesab edirdilər?
29. Liberallara görə azad ticarətin inkişafı ilə müharibənin münasibəti necədir?
30. Niyə liberallar avtarkiyanı müharibələrin əsas səbəblərindən biri hesab edirlər?
31. Liberallara görə ölkələr arasında ticarət və iqtisadi əməkdaşlığın inkişafının əhəmiyyəti nədən ibarətdir?
32. Riçard Rouzkransa görə niyə müasir dünyada ticarətin və iqtisadi əməkdaşlığın xeyri hərbi rəqabətin xeyrindən çoxdur?
33. Niyə inkişaf etməkdə olan ölkələrin ideoloqları azad ticarətə şübhə ilə yanaşırlar?
34. Robert Qilpinin azad ticarət haqqında fikirləri nədən ibarətdir?
35. Niyə Fridrix List azad ticarəti tənqid edir?
36. Niyə Fridrix List azad ticarəti Britaniya üçün düzgün siyasət hesab edirdi?
37. Niyə inkişaf etməkdə olan ölkələrin ideoloqları azad ticarətə şübhə ilə yanaşırlar?
38. Niyə ABŞ SSRİ-ni liberal beynəlxalq qaydalara böyük təhlükə hesab edirdi?
39. Liberallar gizli diplomatiyanı niyə tənqid edirlər?
40. Liberallar qüvvələrin balansını niyə tənqid edirlər?
41. Kollektiv təhlükəsizlik sistemi nədir?
42. Kollektiv təhlükəsizlik sisteminə liberallar necə yanaşırlar?

## Ədəbiyyat


*Brzezinski Zb.* The Primacy of History and Culture. // Journal of Democracy, 12, 4, 2001.

*Burchill S. and Linklater A.* Theories of International Relations. N.Y.: St. Martin Press., 1996.

*Даль Р.* О демократии. – М., 2000

*De Mesquita B.B.* An Institutional Explanation of the Democratic Peace. //American Political Science Review, vol.93, no 4; 1999.

*Fukuyama F.* The End of History?// The National Interest. 1989. N16.
*Fukuyama F.* The primacy of culture. // Journal of democracy. 6.1, 7-14. 1995.
*Huntington S.* After 20 Years: The Future of the Third World. // Journal of Democracy, 7, 2.1996.
*Huntington S.* The Clash of Civilizations? //Foreign Affairs 72, n3 (Summer), 1993.
*Кант И.* К вечному миру // Соч. Т. 6. М., 1972.
*Kumar M.* Theoretical Aspects of International Politics. New Delhi, 1978.
*Moravcsik A.* A Liberal Theory of International Politics.// Internaitonal Organization, no.4, 1997.
*Nəcəfov E.Ə.* Liberalizm və realizmin nəzəri və metodoloji əsaslarının müqayisəli təhlili. Elmi Əsərlər. İctimai- siyasi elmlər seriyası, Bakı Slavyan Universiteti, N1-2, 2007, c. 36-44
*Nəcəfov E.Ə.* Liberalizmin iqtisadi nəzəriyyəsinin tənqidi. "XXI əsr: Qlobal Problemlər və Beynəlxalq Əməkdaşlıq" mövzusunda Elmi- Praktik Konfransın Materialları, Bakı Dövlət Universiteti, 2008, s.22-29
*Rüstəmov Y.İ.* Siyasi-hüquqi təlimlər tarixi. Dərs vəsaiti. Bakı, 2000.
*Современные международные отношения* / Под ред. Торкунова А.В. М., 2000.
*Теория международных отношений на рубеже столетий* / Пер. с англ.; Под ред. К. Буса, С. Смита. М., 2002.
*The Covenant of the League of Nations* (Including Amendments adopted to December, 1924) https://avalon.law.yale.edu/20th_century/leagcov.asp#art16
The fourteen points of Woodrow Wilson. https://www.theworldwar.org/learn/peace/fourteen-points
*Фукуяма Ф.* Конец истории? // Вопросы философии. 1990. №3.
*Цыганков П.А.* Теория международных отношений: Учебное пособие. М., 2006.
*Цыганков А.П., Цыганков П.А.* Социология международных отношений. Учебное пособие. М., 2006.
*United Nations Charter* (full text). https://www.un.org/en/about-us/un-charter/full-text

# IV FƏSİL
# REALİZM

## 4.1. Realizmin əsas müddəaları

Liberalizm və realizm beynəlxalq münasibətlərin əsas klassik nəzəriyyələri hesab olunur. Onların hər biri paradiqma və nəzəri yanaşma kimi BMN fənninin tarixinin ən azı əlli ili ərzində hakim nəzəriyyə olmuşdur. Lakin bu nəzəriyyələr bir-birindən əsaslı şəkildə fərqlənərək daim mübarizədə olmuşlar. I fəsildə qeyd olunduğu kimi, bu mübarizə BMN fənninin tarixinə Birinci Böyük debat kimi daxil olmuşdur.

XX əsrin 30-cu illərində liberalizmin Millətlər Liqası timsalında sülhün təmin edilməsində beynəlxalq təşkilatların mühüm rol oynamalarına dair ideyanın puça çıxması, daha konkret desək, Millətlər Liqasının Yaponiyanın Mancuriyanı, İtaliyanın isə Həbəşistanı işğal etməsinin qarşısını ala bilməməsi realizm nəzəriyyəsinin geniş yayılmasına və beynəlxalq münasibətlər sahəsində hakim nəzəriyyəyə çevrilməsinə səbəb olmuşdur.

BMN fənninin müstəqil fənn kimi Birinci Dünya müharibəsindən sonra formalaşmasına baxmayaraq, ictimai-fəlsəfi fikir tarixində beynəlxalq münasibətlərə dair ideyalar bundan xeyli əvvəl irəli sürülmüşdür. Bu ideyalar liberalizmlə yanaşı realizmə də aid idi.

Realizmin müəyyən müddəalarına b.e.ə. V əsrdə yaşamış yunan tarixçisi *Fukididin,* habelə *Nikkola Makiavellinin, Tomas Hobsun, Karl fon Klauzevitsin (1780-1831)* əsərlərində rast gəlmək olar. Bu mütəfəkkirlərin hər biri dövlətlər arasında münasibətləri tədqiq edərkən realizmə uyğun olaraq bu münasibətlərdə gücün, qüvvənin əsas amil olduğunu qeyd edirdilər.

Fukidid *"Peloponnes müharibəsinin tarixi"* adlı əsərində göstərir ki, dövlətlərarası münasibətlərdə güc, qüvvə həlledici rol oynayır. Məsələn, güc vasitəsilə başqa dövləti müəyyən işləri görməyə məcbur etmək olar. Lakin Fukidid qeyd edir ki, güc məqsəd deyil. O, dövlətin təhlükəsizliyini və nüfuzunu saxlamaq üçün vasitədir. Görünür, Fukidid zorakılığın tərəfdarı deyil. O, gücə müraciət etməyin zəruriliyini təəssüf hissi ilə qeyd edir. O, məsələləri zorakılıqla həll etmək istəyini insan təbiəti ilə bağlayır. Dövlətlərarası münasibətlərə dair hüquqi normaların əhəmiyyətini və zəruriliyini vurğulayan Fukidid qeyd edir ki, tərəflərarası tarazlıq olanda hüquq qüvvədə qalır, əks halda zəif güclünün etdiklərinə müqavimət göstərə bilmir.

Nikkola Makiavelli gücü və milli marağı tarixin hərəkətverici qüvvələri kimi təqdim edir. O, güclü dövlətin yaradılmasının zəruriliyini qeyd edir. Onun fikrincə, hakimiyyətə nail olmaq üçün hər bir vasitədən istifadə etmək lazımdır.

Tomas Hobs *“Leviafan”* adlı əsərində qeyd edir ki, insan öz təbiətinə görə *eqoist* məxluqdur. İnsanlar təbii durumda, yəni dövlətin meydana gəlməsinə qədərki dövrdə, bir-birinə münasibətdə aqressiv davranırdılar. Mahiyyətinə görə anarxik olan təbii durumda onlar bir-birindən çəkinərək qorxu altında yaşayırdılar. Onların həyatları daim təhlükə altında idi. Heç bir kəs özünü təhlükəsizlikdə hiss etmirdi. İnsanların həyatları "tənha, kasıb, xoşagəlməz, amansız və qısa" idi. Hobsun dediyi kimi “hamının hamıya qarşı müharibəsi” gedirdi. Sözsüz ki, bu şəraitdə yalnız gücə malik olan insanlar sağ qalırdı.

Hobsun *ictimai müqavilə nəzəriyyəsinə* əsasən, tədricən insanlar öz eqoist maraqlarını, heyvani instinktlərini cilovlamaqla birgə sülh və əmin-amanlıq şəraitində yaşamağa dair razılığa gəldilər. Bu, cəmiyyətin, daha sonra isə dövlətin meydana gəlməsinə səbəb oldu. Artıq yeni tarixi şəraitdə cəmiyyətin anarxik xarakterinin qarşısı alındı. İnsanlar təhlükəsizlik şəraitində yaşamağa başladılar. Onların hüquqları, təhlükəsizlikləri, cəmiyyətdəki daxili sabitlik dövlət tərəfindən təmin olunurdu. Lakin Hobsa görə, dövlətlərin meydana gəlməsi nəticəsində formalaşan beynəlxalq münasibətlər sistemi insanın təbii durumuna xas olan anarxik vəziyyətin hökm sürməsi ilə xarakterizə olunur. Dövlətlərin üzərində duran, onların bir-biri ilə münasibətlərini ictimai müqavilə əsasında tənzimləyə bilən qüvvə yoxdur. İnsanın təbii durumu dövründə olduğu kimi dövlətlər bir-birinə inamsızlıq, hədə-qorxu, aqressiv münasibət nümayiş etdirir. Təbii ki, belə bir durumda hər bir dövlət öz təhlükəsizliyini möhkəmlətmək istəyir. O, hərbi potensialını artırır, yeni silahlar əldə edir, hərbi təlimlər keçirir, digər dövlətlər arasında özünə müttəfiqlər axtarır. Dövlətin öz təhlükəsizliyinin təmin olunmasına yönələn hərəkəti ona rəqib olan dövləti və ya dövlətləri də analoji addım atmağa, yəni təhlükəsizliklərini təmin etməyə vadar edir. Nəticədə hər bir dövlətin istəyinə zidd olaraq gərginlik artır, münaqişə üçün zəmin yaranır. Bu situasiya beynəlxalq münasibətlərdə *təhlükəsizlik dilemması* adlanır.

Təhlükəsizlik dilemması öz mahiyyətinə görə aşağıdakı paradoksal situasiyanı xarakterizə edir. Beynəlxalq münasibətlərin anarxik vəziyyəti şəraitində bir dövlət tərəfindən həyata keçirilən təhlükəsizlik tədbirlərini digər dövlət və ya dövlətlər öz təhlükəsizliklərinə təhdid kimi qəbul edərək cavab tədbirləri həyata keçirirlər. Nəticədə heç bir dövlətin arzu etmədiyi münaqişəli situasiya yaranır. Digər tərəfdən, anarxik vəziyyət şəraitində preventiv təhlükəsizlik tədbirlərinin həyata keçirilməməsi də dövlətə sərf etmir, çünki belə olan halda digər dövlətlər onu zəif qəbul edərək təhdid edirlər.

XIX əsrdə beynəlxalq münasibətlərin realizm nəzəriyyəsində klassik ənənə general Karl fon Klauzevitsin *“Müharibə haqqında”* adlı əsərində geniş şəkildə təqdim olunmuşdur. Klauzevitsə görə, müharibə siyasətin digər vasitələrlə davam etdirilməsidir. Sözsüz ki, bu vasitələrin əsasını güc təşkil edir. Klauzevits

müharibəni tamamilə siyasətə tabe olunmuş hesab edir. Müharibə – siyasətin alətidir. O, dövlətin xarici siyasət məsələlərinin onun daxili siyasət məsələlərindən üstün olmasını qeyd edir. Siyasətin əsasını insan təbiətinin sabitliyi, daimiliyi təşkil edir.

Beləliklə, realizm güc amilinə yüksək önəm verir. Gücün əhəmiyyəti daha çox beynəlxalq münasibətlər sistemində hiss olunur, çünki burada ölkədaxili vəziyyətdən fərqli olaraq aktorların davranışını tənzimləyəcək təsisat yoxdur.

Liberalizm kimi realizm də beynəlxalq münasibətlər sisteminin *anarxik* olduğunu qeyd edir. Lakin əgər liberalizm beynəlxalq təşkilatlar vasitəsilə müharibələrin qarşısının alınmasını mümkün hesab edirsə, realizm müharibələri qaçınılmaz hesab edir. Buna görə liberalizmdən fərqli olaraq realizm dövlətlərarası münasibətlərə *pessimist* ruhda yanaşır. Beynəlxalq sistemin anarxiya halında olması özünü beynəlxalq aləmdə dövlətlərin fəaliyyətini, davranışını nizamlaya bilən heç bir qüvvənin, ali hakimiyyətin yoxluğunda büruzə verir. Digər tərəfdən, realizmə əsasən, öz təbiətinə görə insan eqoist məxluqdur. Dövlətin daxilində insanın eqoist və bu kimi onun təbiətindən irəli gələn digər mənfi cəhətlər mövcud hakimiyyət tərəfindən basılır və ya ən azı məhdudlaşdırılır. Ümumiyyətlə, dövlətin daxilində insanın fəaliyyəti, davranışı qanunlarla tənzimlənir. Buna görə də insan hakimiyyətdən çəkinərək təbiətindən irəli gələn mənfi cəhətlərini cilovlamağa məcbur olur.

Beynəlxalq aləmdə ali hakimiyyətin yoxluğu, anarxiya şəraiti insanın eqoist və bu kimi digər mənfi cəhətlərinin gerçəkləşməsi üçün əlverişli şərait yaradır və hətta bunu ondan tələb edir. Belə anarxiyalı şəraitdə insanın təbiətindən irəli gələn eqoist hisslər daha da inkişaf edərək onların fəaliyyətlərinin əsasını təşkil edir. Belə bir beynəlxalq cəmiyyətdə güc və təhlükəsizlik məsələləri ön plana çıxır. Bu səbəbdən realizm güc və təhlükəsizlik faktorlarının əhəmiyyətini nəzərə alan ideyalar məcmusudur. Bu ideyalar fərdin belə bir inamına əsaslanır ki, başqaları həmişə onu məhv etməyə çalışırlar. Buna görə də o, özünü qorumaq üçün başqalarını məhv etməyə hazır olmalıdır.

Beynəlxalq münasibətlərin anarxiya vəziyyətində olmasını, insanın isə təbiətcə eqoist, öz maraqlarını güdən bir məxluq olmasını əsas götürən realizm güc siyasətini, *Realpolitika*-nı özünün mahiyyəti kimi təqdim edir. Realpolitika alman dilindən tərcümədə gerçək, realist siyasət mənasını verir. O, dövlət siyasi kursunun bir növüdür. İlk dəfə olaraq bu siyasi kursu *Almaniyanın birinci kansleri Otto fon Bismark (1815-1898)* təqdim etmiş və həyata keçirmişdir. Realpolitika mənəvi-etik dəyətlərə, ideologiyaya deyil, *gücə, maddi amillərə* əsaslanır.

Gücü və təhlükəsizliyi təmin edə biləcək əsas qüvvə *dövlət* olduğuna görə realizm nəzəriyyəsində dövlət mərkəzi yer tutan kateqoriyalardan biridir. Realizmə əsasən, dövlət gücün real təcəssümü kimi çıxış edir. Beynəlxalq səviyyədə ali

hakimiyyətin yoxluğu, anarxiya şəraiti, insanın eqoist və bu kimi digər mənfi cəhətlərinin olması münaqişəni, müharibəni qaçınılmaz edir. Belə bir vəziyyətdə dövlətin daha da inkişaf etdirilməsini realistlər mühüm bir məsələ kimi qələmə verirlər. Lakin onlar dövlətin inkişaf etdirilməsi dedikdə ilk növbədə onun maddi, xüsusən iqtisadi-hərbi inkişafını nəzərdə tuturlar. Dövlətin mənəvi-etik cəhətdən təkmilləşməsi məsələsini realistlər vacib hesab etmirlər, çünki bu dəyərlər, onların fikrincə, dövlətin güclənməsinə xidmət etmir və hətta bəzi hallarda dövlətin beynəlxalq münasibətlər sahəsində mövqelərinin itirilməsinə səbəb olur. Beynəlxalq sistemin və insanın yuxarıda qeyd etdiyimiz xüsusiyyətləri dövlətlərin beynəlxalq münasibətlər sahəsindəki hərəkətləri, davranışları mənəvi-etik prinsiplərlə, hətta onların hüquqi öhdəlikləri ilə deyil, maraqları və hakimiyyət uğrunda mübarizələri ilə müəyyən olunur. Bununla əlaqədar klassik realizmin görkəmli nümayəndələrindən biri olan *Hans Morqentau* qeyd edir ki, anarxiya şəraitində dövlətlər mənəvi-etik dəyərlərə əməl etməyə can atmırlar. Belə bir şəraitdə universal mənəvi-etik prinsiplər dövlətlərin fəaliyyətlərinə münasibətdə tətbiq oluna bilməz. Bundan başqa dövlətlər, xüsusilə güclü dövlətlər onların maraqlarına cavab verməyən universal mənəvi-etik normaları pozmağa meyllidirlər. Realizm məktəbinin digər görkəmli nümayəndələri *Corc Kennan və Henri Kissinger* Morqentaunun qeyd olunan fikirlərini müdafiə edərək xarici siyasət sahəsində mənəvi-etik prinsiplərə əməl olunmasının zərərli olduğunu qeyd edir və müharibələrin qacınılmaz olduğunu iddia edirlər. Onların fikrincə, müharibənin qarşısının alınmasının ən optimal yolu ona hazırlaşmaqdır.

Realizmə əsasən, hər bir dövlət başçısı *millətin maraqlarını* müdafiə etməlidir. Millətin maraqları dedikdə onun təsirinin, siyasi, iqtisadi və mədəni maraqlarının yayılması, ərazisinin genişlənməsi nəzərdə tutulur. Realizm nəzəriyyəsində beynəlxalq münasibətlər sahəsində bu maraqların qorunmasının əsas vasitəsi kimi gücün həlledici amil kimi təsvir edilməsi ilk baxışda elə təəssürat yaradır ki, bu nəzəriyyə müharibənin tərəfdarıdır. Lakin bu, belə deyil. Beynəlxalq münasibətlərin bütün nəzəriyyələri kimi realizm də beynəlxalq sahədə fəaliyyət göstərən aktorlar arasında mövcud siyasi, ideoloji, iqtisadi, mədəni və digər əlaqələri izah etməklə müharibənin qarşısının alınmasının yollarını araşdırır. Realizm sadəcə olaraq obyektiv səbərlərə görə (*beynəlxalq şəraitin anarxiya vəziyyətində, insanın təbiətcə eqoist bir məxluq olması)* müharibənin qaçınılmaz olduğunu qeyd etməklə gücə arxalanmanın vacib olduğunu vurğulayır. Realizmə görə, məhz güclü iqtisadi-hərbi potensiala malik olan dövlət real müharibə təhlükəsindən özünü qorumağa qadirdir. Belə ki, onun iqtisadi-hərbi qüdrəti digər dövlətləri ona hücum etməkdən çəkindirir, müharibə baş verdikdə isə onun bu qüdrəti ona qalib gəlməyə imkan verir. Bu müddəaları əsas götürən realizm nəzəriyyəsi beynəlxalq sistemdə dövlətlər arasında *qüvvələrin balansının* yaradılmasını müharibənin qarşısını ala biləcək real amil kimi

qələmə verir. Realizmin bu məsələyə dair əsas müddəaları *qüvvələrin balansı nəzəriyyəsində* əks olunmuşdur.

Realizmin əsas müddəalarının daha dərindən açıqlanması məqsədilə novbəti iki yarımfəsildə XX əsrdə bu nəzəriyyənin inkişafında böyük rol oynamış *Edvard Karr* və *Hans Morqentaunun* fikirləri təhlil olunur.

## 4.2. Edvard Karr

*Klassik realizmin* banilərindən biri ingilis politoloqu *Edvard Karr* hesab olunur. Realistlər Edvard Karrın *"İyirmi illik böhran. 1919- 1939" ("Twenty years' crisis. 1919- 1939".)* adlı monoqrafiyasını beynəlxalq münasibətlər nəzəriyyəsinin fundamental əsərlərindən biri hesab edirlər.

Karrın beynəlxalq münasibətlərə dair fikirləri onun həm siyasi, həm də akademik dairələrlə sıx təmasda olduğuna görə yüksək qiymətləndirilir. 1916-1936-cı illərdə Karr Böyük Britaniyanın xarici işlər nazirliyində diplomat kimi çalışmışdır. Məlum olduğu kimi, 1916-1936-cı illər olduqca ziddiyyətli bir dövr idi. Bir tərəfdən Birinci Dünya müharibəsinin davam etdiyi dövr və ondan sonrakı illər, digər tərəfdən isə beynəlxalq münasibətlər nəzəriyyəsinin müstəqil bir elm sahəsi kimi formalaşması dövrü. Bir siyasi xadim, diplomat kimi Karr dünyada baş verən hadisələri müşahidə edirdi və bu hadisələr onun beynəlxalq münasibətlərə dair fikirlərinin formalaşmasında mühüm rol oynamışdır. 1936-cı ildə Karr siyasi fəaliyyətdən ayrılaraq elmi fəaliyyətlə məşğul olmağa başlamışdır. O, Aberistvis şəhərində yerləşən ilk beynəlxalq münasibətlər kafedrasının açıldığı Uels Universitetində professor kimi fəaliyyət göstərmişdir.

Karrın realizm nəzəriyyəsinin formalaşmasına onun diplomat kimi fəaliyyəti ilə yanaşı liberalizmin beynəlxalq münasibətlərə dair fikirlərinin tənqid etməsi böyük təsir göstərmişdir. Karr yuxarıda qeyd etdiyimiz *"İyirmi illik böhran. 1919-1939"* kitabında realizmin əsas müddəalarını irəli sürməklə bərabər liberalizmin ideyalarını əsaslı şəkildə tənqid edir. Bu kitabda Karr müdafiə etdiyi realizmin reallığa uyğun hesab etdiyi ideyalarına liberalizmin mövqeyinin zidd olduğunu göstərmək üçün liberalları *utopist* adlandırır.

Qeyd etdiyimiz kimi, liberallar müharibəni dövlətin bir fəaliyyət sahəsi kimi ləğv etmək istəyirdilər. Liberallar xarici siyasətin aparılmasında gizli diplomatiyanı açıq müzakirə ilə əvəz etmək arzusunda idilər. Onlar hesab edirdilər ki, qüvvələrin balansı prinsipi kollektiv təhlükəsizlik prinsipi ilə əvəz olunmalı idi. Millətlər Liqasının vasitəsilə münaqişələrin sülh yolu ilə həll edilməsi təmin edilməli idi. Liberalların beynəlxalq münasibətlərə dair fikirlərinin reallığa deyil onların istəklərinə əsaslanmasını tənqid edərək Karr qeyd edirdi ki, dünyada sülhün bərqərar olması istəyə yox, real fəaliyyətə əsaslanmalıdır. Sülhü arzulamaqla ona nail olmaq

eyni deyil. Liberalların müharibənin qarşısını almaq istəyi beynəlxalq münasibətlər elmini *utopiyaya* çevirdi. Beynəlxalq sülhə nail olmaq istəyi beynəlxalq münasibətləri elə bir elm sahəsinə çevirdi ki, orada arzu təfəkkürdən, ümumiləşdirmə müşahidədən üstün oldu.

Karra görə, liberallar mövcud faktların tənqidi təhlilinə fikir vermirdilər. Realistlər isə real faktların təhlilinə xüsusi fikir verirdilər. Karr realizmi belə xarakterizə edir: "Hər hansı bir elmin inkişafında təfəkkürün istəyə təsiri elmin utopik mərhələsinin sonunu göstərir və realizm adlanır. Realizm utopik mərhələyə qarşı reaksiya olaraq tənqidi aspektin təqdim edilməsi ilə bağlıdır. O, faktların qəbul edilməsini, onların səbəblərinin və nəticələrinin təhlil olunmasının vacibliyini vurğulayır. O, təfəkkürün əsas funksiyasını hadisələrin ardıcıllığının öyrənilməsində görür."

Karr əmin idi ki, liberalizm beynəlxalq siyasəti təhlil edərkən hakimiyyətin mərkəzi elementini tədqiq etmədiyinə görə realizmin tənqidinə məruz qalmalıdır. Beynəlxalq sistemdə *qüvvələrin qeyri-bərabər bölünməsi* beynəlxalq münasibətlərin qərərsiz təhlilinin mərkəzi məsələsi olmayınca, müharibə və münaqişələrin səbəbləri düzgün dərk olunmayacaqdır.

Liberallar inanırdılar ki, hər bir xalq sülhə can atır, müharibə siyasəti, təcavüzkar siyasət aparan xalq isə özünü irrasional və mənəviyyatsız aparır. Karra görə, bu fikir mövcud durumun (status- kvo) saxlanılmasında maraqlı olan qalib ölkələrin mövqeyinin ifadəsi idi. Müharibədən sonrakı dövr qalib dövlətlərin xüsusi maraqlarını əks etdirirdi və buna görə də Almaniya kimi ölkələr Versal (1918) müqaviləsindən qane deyildi.

Karr hesab edir ki, mövcud dünya nizamından razı olmayan, ərazisinin sərhədlərini, yaxud iqtisadi və strateji qüvvəsini dəyişmək istəyən dövlət üçün beynəlxalq sülh universal harmoniya kimi qəbulolunmazdır. Beynəlxalq sülh öz iradəsini, istəyini digər dövlətlərə qarşı qoyan güclü dövlətlərin şüarıdır. Beynəlxalq sistemdə dövlətlər arasında maraqların təbii harmoniyası yoxdur. Yalnız qlobal hakimiyyətin konkret konfiqurasıyasının keçici və müvəqqəti harmoniyası vardır. Müharibə beynəlxalq sistemdə qüvvələrin həyata keçirə biləcəyi yeganə və məqsədəuyğun yoldur.

Dövlətlər arasında maraqların harmoniyası məfhumunu təkzib etmək üçün Karr *laissez-faire (fransız dilindən tərcümədə "icazə verin edək" mənasını verir. Hökumətin müdaxiləsinə qarşı çıxan azad bazar kapitalizminin iqtisadi fəlsəfəsi. - E.N.*) iqtisadiyyatını misal gətirir. Onun fikrincə, laissez-faire aparıcı iqtisadi ölkələrdəki hakim elitaların ideologiyasıdır. Bu ideologiyaya görə, hakim elitaya sərfəli olan hamı üçün sərfəlidir. XIX əsrdə ingilis manufakturaçısı və taciri *laissez-faire*-nın onun zənginliyini artırdığını gördükdə əmin oldu ki, bu, bütün Britaniya üçün xeyirlidir. İngilis dövlət xadimi öz növbəsində görəndə ki, *laissez-faire*

ingilislərin rifafını qaldırır, o, qərara gəldi ki, azad ticarət bütün dünyanın rifahını artırır. Karr XIX əsr alman iqtisadçısı *Fridrix Listi* müdafiə edərək qeyd edirdi ki, azad ticarət Britaniya hakim sənaye ölkəsi olduğu zaman düzgün siyasət idi. O vaxt yalnız *proteksionizm* siyasəti zəif ölkələri Britaniyanın caynağından qurtara bilən real bir siyasət idi. ABŞ-da və Almaniyada aparılan iqtisadi millətçilik siyasəti Britaniyanın iqtisadi gücünə qarşı yönəlmişdir. Dövlət nəzarəti zəif dövlətlərin özünümüdafiə silahıdır. Millətlər arasında maraqların təbii harmoniyası yoxdur. Xalqlar arasında ümumi maraq tənzimləmə yolu ilə yaranır.

Liberallar beynəlxalq sistemdəki dövlətlərə hörmət əlaməti olaraq hakimiyyəti aradan götürmək istəyirdilər. Karr kimi realistlər isə hesab edirdilər ki, milli hakimiyyətin arxasınca getmək təbiidir. Bunu nəzərə almadıqda dövlətlər risk edirlər. Gücünün artmasına laqeyd olan milli dövlətlər sadəcə olaraq öz milli maraqlarını təhlükə altına qoyurlar. Karra görə, müxtəlif dövlətlər hərbi-iqtisadi güclərini artırdıqda öz milli maraqlarını qorumağa qadir olurlar. Milli maraqların toqquşması zəruridir. Belə toqquşmalar müharibələrə səbəb olur. Bu toqquşmaların qarşısının alınmasının yeganə yolu dövlətlər arasında təxmini *qüvvələrin balansının* yaradılmasıdır. Karr qeyd edirdi ki, liberalların dediyi kimi, qüvvələrin balansı beynəlxalq münaqişənin səbəbi deyil. O, təbiətin qanunlarına bənzəyir. Belə ki, qüvvələrin balansı beynəlxalq hakimiyyətin normal ifadəsidir və sülhün ən yaxşı təminatçısıdır. *Kollektiv təhlükəsizlik* isə qalib dövlətlərin hakimiyyətini, status-kvonu möhkəmlədir.

Karra görə, 1919- 1939-cu illər arasında dünyada elə bir reallıq yaranmışdır ki, beynəlxalq aləmi bürümüş anarxiya yeni müharibəni qaçınılmaz edirdi. Karrın *"İyirmi illik böhran. 1919- 1939"* kitabı ilk dəfə 1939-cu ildə, yəni İkinci Dünya müharibəsinin ərəfəsində çap edilmişdir. Bu fakt realistlərin liberallar üzərində qələbəsinin əyani təsdiqi idi. Karr yeni müharibənin qaçılmaz olduğunu o dövrdə baş verən 2 hadisə ilə əlaqələndirirdi. Birincisi, yuxarıda qeyd etdiyimiz kimi, Millətlər Liqasının dünyanın müxtəlif yerlərində baş verən münaqişələrin qarşısını ala bilməməsi onun timsalında sülhün təmin edilməsində beynəlxalq təşkilatların mühüm rol oynamalarına dair liberalizmin ideyasının iflasa uğramasını göstərdi. Millətlər Liqası dövlətlərarası müharibələrin qarşısını almaq üçün heç bir siyasi və ya hərbi gücə malik deyildi. 30-cu illərin ikinci yarısında Almaniya, İtaliya və Yaponiyanın daxil olduqları hərbi blokun formalaşması və təcavüzkar fəaliyyəti Karrın beynəlxalq münasibətlər sistemində gücün həlledici amil olmasına dair fikrini təsdiqləyirdi.

İkincisi, 1929-1933-cü illərdə ABŞ-da baş verən "Böyük depressiya" və onun törətdiyi qlobal iqtisadi tənəzzül azad ticarətin dövlətlər arasında harmonik iqtisadi əlaqələrin yaranmasına səbəb olacağına dair liberalizmin müddəasını təkzib etdi. "Böyük depressiya" dövründə ABŞ-da işsizliyin səviyyəsi 3 faizdən 25 faizə qalxdı,

ümumdaxili məhsulun həcmi isə 2 dəfə azaldı. Karra görə, sosial-iqtisadi sahədə baş verən böhran liberalizmin azad ticarətin dövlətlərarası iqtisadi əlaqələrin inkişafına səbəb olacağına dair fikrinin yanlış olduğunu göstərdi. Karr mövcud sosial-iqtisadi böhran vəziyyətindən çıxışı dövlətin iqtisadiyyata fəal müdaxiləsində görürdü. Dövlətin iqtisadiyyata müdaxiləsinin vacibliyini əsaslandırarkən Karr o dövrdə Sovet İttifaqında uğurla həyata keçirilən 5 illik plan təcrübəsinə istinad edirdi.

### 4.3. Hans Morqentau

Hans Morqentaunun *"Millətlər arasında siyasət. Hakimiyyət və sülh uğrunda mübarizə" ("Politics among nations. The Struggle for Power and Peace.")* monoqrafiyası realistlərin stolüstü kitabı hesab olunur. Bu əsər İkinci Dünya müharibəsindən sonra yazılmışdır. O vaxt ABŞ dünyada iqtisadi və hərbi-strateji sahələrdə öz hegemonluğunu yeridirdi. Bu əsər realizmin prinsiplərini möhkəmlətməklə yanaşı yaranmış şəraitdə ABŞ-ın oynayacağı rola intellektual dəstək verirdi. Sözügedən əsər bir tərəfdən elmi-tədqiqat və tədris sahələrində realizmin mövqeyinin möhkəmlənməsinə xidmət etməli, digər tərəfdən isə müharibədən sonrakı dövrdə ABŞ-ın xarici siyasətini istiqamətləndirməli idi.

Hans Morqentau beynəlxalq münasibətlərin tədqiq olunmasında Edvard Karr kimi pozitivizmin metodologiyasını tətbiq edirdi və bu yolla beynəlxalq siyasət elmini yaratmaq istəyirdi. Pozitivizm yanaşmasının intellektual dəqiqliyi dünya siyasətinin əsasını təşkil edən gerçəkliyə uyğun gələn faktları aşkarlayır. Heç də təsadüfi deyildir ki, Morqentaunun ideyalarında qanuna, prinsiplərə, gerçəkliyə və elmə istinad edilir. Məsələn, Morqentaunun nəzəriyyəyə verdiyi tərif təbiət elmlərindən alınmışdır. Morqentauya görə, nəzəriyyə abstrakt prinsiplərlə, yaxud gerçəkliklə bağlı olmayan məfhumlarla deyil, bizi əhatə edən hadisələrə qayda və məna verməklə özünü göstərməlidir. Nəzəriyyə faktlara uyğun gəlməlidir, faktlar nəzəriyyəyə yox. Bir sözlə, nəzəriyyə fakta əsaslanan və müstəqil olmalıdır. O, empirik və məntiqi meyara da cavab verməlidir. Morqentauya görə, xarici siyasətin rasional mahiyyəti vardır. Onu nəzəriyyələr aşkar etməlidir.

Morqentaunun *"Millətlər arasında siyasət. Hakimiyyət və sülh uğrunda mübarizə"* əsəri Karrın beynəlxalq münasibətləri elmi cəhətdən öyrənmək çağırışına cavab idi. Morqentaunun beynəlxalq münasibətlərin öyrənilməsinə yönəlmiş nəzəriyyəsinin əsasını *siyasi realizmin altı prinsipi* təşkil edir:

1. Siyasət obyektiv qanunlarla idarə olunur. Bu qanunların kökü insan təbiətindədir. Insan təbiəti dəyişməz olduğuna görə bu qanunlar min illər belə keçsə də, dəyişmir. Qanunlar bizim istəyimizdən asılı deyil. Beynəlxalq münasibətlər nəzəriyyəsi bu qanunların dərk olunmasına yönəlmişdir. Biz bu qanunları dərk etməklə rasional siyasi davranışı proqnozlaşdıra bilərik;

2. Beynəlxalq siyasətin dərk olunmasının açarı hakimiyyət, güc mənasında təqdim olunan *maraq* anlayışıdır. Bu anlayış beynəlxalq siyasəti dərk etməyə cəhd edən *ağıl* və *faktlar* arasında əlaqə yaratmaqla siyasətin dərk olunmasını mümkün edir. Güc kimi təqdim olunan maraq anlayışı siyasətçilərin həqiqi davranışlarını açıqlayır. Xarici siyasətin müəyyən edilməsində etik məsələlərə, siyasi fəlsəfəyə və ya fərdi maraqlara yer yoxdur. Hakimiyyət beynəlxalq münasibətlərin öyrənilməsində mərkəzi məsələdir. “Beynəlxalq siyasət də bütün başqa siyasətlər kimi hakimiyyət uğrunda mübarizədir”. Beynəlxalq siyasətin son məqsədi nə olursa olsun, onun bilavasitə məqsədi həmişə hakimiyyətdir. Morqentauya görə, hakimiyyət, güc – insanın başqalarının fikirlərinə və hərəkətlərinə nəzarət deməkdir;

3. Dövlətlər kimi insanlar da öz maraqlarını güdürlər. İnsanlar və dövlətlər arasındakı münasibətlər daxili və beynəlxalq səviyyələrdə siyasət vasitəsilə inkişaf edir. Burada onların müxtəlif maraqlarının toqquşması mümkündür.

Dövlətin gücünün müəyyən edilməsi və istifadə olunması, gücün həyata keçirildiyi mədəni və siyasi kontekstdən asılıdır. Ümumiyyətlə, güc ona xidmət edən bütün sosial münasibətləri əhatə edir. Çağdaş dünyanı dəyişdirmək beynəlxalq siyasi həyatın davamlı həqiqətləri olan maraq və gücü nəzərə almaq deməkdir;

4. Universal mücərrəd etik prinsiplər dövlətin fəaliyyətini müəyyən etmir. Onlar siyasətdə tətbiq oluna bilməz. Lakin buna baxmayaraq, şübhəsiz, dövlətin fəaliyyətinin etik və mənəvi əhəmiyyəti olmalıdır. Mənəvi prinsiplər fərdlərə təsir edir, lakin dövlətlər mənəvi agent deyil. Buna görə də dövlətlərin beynəlxalq fəaliyyətini izah etmək cəhdi mənəvi prinsiplərə əsaslanmamalıdır.

Bu və digər siyasi fəaliyyətin qiymətləndirilməsi üçün universal etik davranış qaydaları yoxdur. Siyasi fəaliyyət ondan irəli gələn konkret siyasi nəticələrin əsasında qiymətləndirilir. Siyasi liderin fəaliyyətini müəyyən vaxt kəsiyində yalnız onun üçün mümkün olan seçimlərin hərtərəfli təhlili əsasında qiymətləndirə bilərik. Mənəvi fəaliyyət ilə siyasi fəaliyyətin tələbləri arasında ziddiyyət vardır;

5. Heç bir dövlətin özünün etik davranış qaydalarını universal etik davranış qaydaları kimi təqdim etməyə, və yaxud öz ideologiyasını digər dövlətlərə yeritməyə haqqı yoxdur. Universal şəkildə razılaşdırılmış mənəvi prinsiplərin məcmusu yoxdur. Vaxtaşırı dövlətlər öz fəaliyyətlərini etik müstəvidə (insan hüquqlarının müdafiəçisi) qələmə verməyə çalışmasına baxmayaraq, onlar beynəlxalq sahədə fəaliyyətlərinə bəraət vermək məqsədilə mənəvi prinsiplər vasitəsilə öz üstünlüklərini göstərmək istəyirlər və milli maraqlarını müdafiə edirlər. Universal mənəvi prinsiplər dövlətin fəaliyyətinin etibarlı istiqamətləndiricisi deyil. Morqentauya görə, dövlətlər universal etik davranış qaydaları irəli sürməklə öz milli yaxud mədəni dəyərlərini dünyaya tanıtmaq istəyirlər. Maraq elə bir daimi standartdır ki, onun vasitəsilə siyasi fəaliyyətə qiymət verilir və o, istiqamətləndirilir;

6. Siyasi sahə intellektual cəhətdən digər sahələrdən asılı deyil. Buna görə də beynəlxalq sahə, onun təhlil və dəyərləndirmə meyarları fərqlidir. Siyasi realist hakimiyyət kimi müəyyən edilmiş maraq termini ilə fikirləşir. Onun qarşısında duran əsas sual belə səslənir – beynəlxalq siyasət dövlətin gücünə təsir edir? Siyasi realist qeyri-siyasi hadisələri tanısa da, onların əhəmiyyətini qəbul etsə də, o, bu hadisələrə siyasət nöqteyi nəzərindən yanaşır.

Morqentaunun irəli sürdüyü bu altı prinsip mövcud şəraitin intellektual əhval-ruhiyyəsini əks etdirirdi. Bu prinsiplər liberalizmə qarşı yönəlmişdir. Morqentauya görə, beynəlxalq siyasət dövlətlər arasında hakimiyyət uğrunda mübarizədir: milli maraqları güdmək normal, arzuolunan və müəyyən mənada zəruri bir fəaliyyətdir.

Morqentaunun siyasi fəlsəfəsi belə bir fikrə əsaslanır ki, insanın təbiətində *hakimiyyət istəyi* vardır. Dünyada daim xeyir və şər, ölüm və həyat arasında mübarizə gedir. Bu mübarizə tez-tez insana düşmən olan qüvvələrinin qələbəsi ilə nəticələnir. Bu dünya bir-birinə zidd olan və münaqişə edən maraqların dünyasıdır. İnsanın təbiətindən irəli gələn *eqoizm* və *hakimiyyət istəyi* münaqişənin və şərin səbəbidir. Eqoizm münaqişəyə səbəb olur, çünki birisi nə istəsə, başqası da həmin şeyi istəyir, yaxud onda həmin şey artıq vardır. Eqoizm tam irrasional deyil. Onun tələbi yerinə yetirilə bilər. Buna görə də Morqentau hesab edir ki, insanın insana qarşı müharibəsi eqoizm kimi izah edilə bilməz. İnsanın insana qarşı müharibəsinin izahı hakimiyyət istəyindədir. Eqoizmdən fərqli olaraq hakimiyyət istəyinin həddi-hüdudu yoxdur. Bu, irrasional impulsdur. Hakimiyyət istəyi hər cür siyasətin mahiyyətini təşkil edir.

Morqentau hakimiyyəti, gücü *zorakılıqdan* ayırır. Siyasi hakimiyyət, güc hərbi, yaxud psevdo-hərbi gücə çevriləndə, zorakılıq yaranır. Güc beynəlxalq münasibətlərdə *həm vasitə, həm də məqsəddir*. O, vasitədir, çünki milli marağa qulluq edir. O, məqsəddir, çünki əldə olanda milli maraq da təmin edilmiş olur.

Həm daxildə, həm də beynəlxalq sahədə hakimiyyət, güc uğrunda mübarizə gedir. Lakin daxili və beynəlxalq siyasətdə mühit *fərqlidir.* Onun fikrincə, mədəni oxşarlıq, birlik, texniki birləşmə və siyasi təşkilat milli dövləti sabit edir. Buna görə də beynəlxalq nizamdan fərqli olaraq, daxili siyasi nizamı zorla dəyişməyə ehtiyac daha azdır. Daxili siyasətdə sabitliyi, beynəlxalq siyasətdə isə qeyri-stabilliyi dövlətin özü yaradır. Beynəlxalq sahədə hakimiyyət uğrunda mübarizəyə nəzarət edə biləcək mərkəzləşdirilmiş güc yoxdur.

Başqalarına nəzarət, yaxud təsir etmək imkanını ifadə edən hakimiyyət, güc dövlətlərin xarici siyasətini də müəyyən edir. Hər bir siyasi akt hakimiyyəti, gücü saxlamağa, artırmağa, yaxud nümayiş etdirməyə yönəlmişdir. Üç müxtəlif siyasət qeyd olunan aktlara uyğun gəlir: *status-kvo hakimiyyəti, imperializm hakimiyyəti və nüfuz hakimiyyəti.*

İndi isə Morqentaunun *milli maraq konsepsiyasını* nəzərdən keçirək.

***Milli maraq***

Morqentaunun fikrincə, hakimiyyət *milli marağın* inikası olduğuna görə, dövlət öz milli marağını güdməlidir. Milli maraq xarici siyasət üçün yeganə istiqamətverici amildir.

Morqentau milli marağın bir-birindən fərqli olan *iki elementinin* olduğunu qeyd edir:

1. Məntiqi cəhətdən tələb olunan və bu mənada zəruri olan;
2. Dəyişən və şəraitlə müəyyən edilən.

Xarici siyasət *uzunmüddətli məqsədlər* (dəyişməyən element) güdməlidir. İkinci element konkret şəraitlə bağlıdır və submilli, milli və supramilli maraqlarla müəyyən edilir. *Qrup maraqları* milli səhnədə özünü milli maraqlarla eyniləşdirərək, xarici siyasətin aparılmasına təzyiq göstərə bilər. Milli maraq bilavasitə və ya dolayısı yolla xarici təcavüzlə də zəbt ola bilər. Morqentauya görə, milli marağın bu iki elementi arasında düzgün balans yaradılmalıdır.

Morqentaunun milli maraq konsepsiyası "mənəvi ləyaqətdən" azad deyil. Mövcud seçimlərdən ən az pis olanı götürmək lazımdır. Morqentauya görə, siyasi fəaliyyət mənəvi dəyərləri hakimiyyət vasitəsilə həyata keçirmək cəhdi kimi təqdim edilə bilər. Milli maraq bütün xalqlar üçün azadlıqdan və ya iqtisadi rifahdan daha üstündür.

***Sülhü qorumaq problemi***

Əgər bütün xalqlar öz maraqlarını güdürlərsə, onda *maraqların toqquşması* labüddür. Belə olan halda sülhü necə qorumaq olar? Bu sualın kontekstində Morqentau sülh üçün atılan müxtəlif cəhdləri nəzərdən keçirir. Bu cəhdləri o, *üç kateqoriyaya* bölür:

1. Məhdudlaşdırma vasitəsilə sülh;
2. Transformasiya (dəyişmə) vasitəsilə sülh;
3. Birgə yaşamaq vasitəsilə sülh.

Birinci kateqoriyaya tərksilah, kollektiv təhlükəsizlik, hüquqi nizamlama, sülh yolu ilə dəyişmə, beynəlxalq hakimiyyət cəhdləri daxildir. İkinci kateqoriyaya dünya dövləti sxeminin və dünya cəmiyyətinin yaradılmasına yönələn cəhdləri aid etmək olar. Üçüncü cəhd diplomatiyanı özündə ehtiva edir.

Morqentauya görə, siyasi problemlərin nizamlanması tərksilah üçün zəruridir. Məhdudlaşdırma və transformasiya vasitəsilə sülhə nail olmaq üçün edilən cəhdləri qəbul etməyən Morqentau *diplomatiyaya* böyük ümid bəsləyir. Onun fikrincə, diplomatiya sülhü daha yaxşı möhkəmlədə bilər. Diplomatiya iki mühüm funksiyanı həyata keçirir: *bilavasitə və dolayısı*. Bilavasitə funksiyanın köməyi ilə o,

münaqişələri azaldır və yumşaldır. Dolayısı funksiyanın köməyi ilə o, dünya icmasının yaradılmasına şərait yaradır.

Morqentauya görə, diplomatiya *doqquz qaydaya* riayət etməklə öz funksiyalarını düzgün yerinə yetirə bilər:

1. Diplomatiya vuruşmaq ruhundan azad olmalıdır;

2. Xarici siyasətin məqsədlərinə milli maraq kimi tərif verilməlidir və bu məqsədlər hakimiyyət, güc ilə müdafiə edilməlidir;

3. Diplomatiya siyasi səhnəyə başqa xalqların nəzər nöqtəsindən də baxmalıdır;

4. Dövlətlər həyati əhəmiyyəti olmayan məsələlər üzrə güzəştə getməyə hazır olmalıdırlar;

5. Dövlətlər süni üstünlüklərə deyil, real üstünlüklərə can atmalıdırlar;

6. Dövlətlər belə bir mövqeyi qəbul etməməlidirlər ki, bu mövqedən itkisiz geriyə çəkilmək, risksiz isə qabağa getmək mümkün deyil;

7. Dövlət zəif müttəfiqinə onun yerinə qərar qəbul etməyə icazə verməməlidir;

8. Hərbi qüvvələr siyasi rəhbərliyə tabe olmalıdırlar;

9. Hökumət ictimai rəyin lideri olmalıdır, qulluqçusu yox.

Morqentauya görə, yaxşı diplomatiyadan başqa sülhü daha iki vasitə ilə saxlamaq olar:

1. Qüvvələrin balansı vasitəsilə;

2. Beynəlxalq hüququn, beynəlxalq mənəviyyatın və dünya ictimai rəyinin normativ məhdudlaşdırılması vasitəsilə.

Hakimiyyət uğrunda mübarizə qüvvələrin balansını yaradır. Xalqlar qüvvələrin balansı vasitəsilə özlərini müdafiə etməyə çalışırlar.

Beynəlxalq mənəviyyat sülhü qorumaq üçün hələ yetişməmişdir, çünki millətçilik beynəlmiləlçilikdən üstün mövqe tutur. Morqentau müasir dünyada dünya ictimai rəyinə inanmır, çünki, onun fikrincə, bütün xalqlar üçün ümumi mənəviyyat olmamalıdır. Beynəlxalq hüquq da özünün müxtəlifliyi ilə müxtəlif xalqlarda sülhü saxlamağa qadir deyil. Beynəlxalq hüququ dünyada yarada bilən qüvvə yoxdur.

### *Morqentaunun nəzəriyyəsinin dəyərləndirilməsi*

Morqentaunun nəzəriyyəsi bir neçə istiqamətdən tənqid edilmişdir. İlk növbədə onun pozitivist metodologiyası tənqid edilmişdir. Morqentaunun pozitivizmə və empirik elmə yaxınlığı təəccüblü deyil, çünki onun əsas əsəri çapdan çıxdığı vaxt (1948-ci il) təbiət elmlərində mühüm kəşflər edilirdi. Bu kəşflərin nəticəsində insanın təbiət üzərində hökmranlığı artırdı. Əgər təbiət elmləri təbiətin insana tabe olmasına kömək edirsə, bu elmlərin metodologiyasını beynəlxalq münasibətlərin

tədqiq olunmasında istifadə etmək olarmı? Bu metodologiyanı beynəlxalq münasibətlər sahəsində baş verən hadisələrin tədqiqində istifadə etmək olarmı?

Morqentaunun realizmi insan təbiətinə xas olan apriori (*təcrübədən asılı olmayan.- E.N.*) xüsusiyyətlərə əsaslanır. Bu xüsusiyyətlərə insan tərəfindən öz marağını, xeyrini güdmək kimi əlamətlər daxildir. Morqentau qeyd edir ki, onun nəzəriyyəsi insan təbiətinin qeyd olunan xüsusiyyətlərinin nəzərə alınmasının əsasında irəli sürülmüşdür. Lakin onun insan təbiəti haqqında nəzəriyyəsi apriori olaraq elmi deyil, çünki bu nəzəriyyənin sübut olunan nəzəriyyə ilə heç bir əlaqəsi yoxdur. Bundan başqa Morqentau nəzəriyyəsini empirik faktlar vasitəsilə əsaslandırmır. O, müəyyən ümumiləşdirmələrə müraciət edir. Morqentaunun nəzəriyyəsinin ilk müddəasına əsasən, bütün insanlar hakimiyyətə can atırlar. Bu müddəadan belə bir nəticə irəli gəlir ki, beynəlxalq münasibətlər hakimiyyət uğrunda hədsiz toqquşmaların səhnəsidir və hal-hazırda sülhün bərqərar olması isə bu qaydadan müəyyən istisnadır.

Morqentau yaradıcılığında *marksizmin* tənqidinə xüsusi fikir verir. Lakin onun bu tənqidi zəifdir. Onun marksistlər tərəfindən irəli sürülmüş imperializm nəzəriyyəsinin tənqidinə yönəlmiş fikirləri sadəlövh və qərəzlidir. Morqentau xarici siyasətin *iqtisadi əsaslarına* yetərincə fikir vermir və kapitalizmin mahiyyəti və onun beynəlxalq nizama təsiri haqqında kifayət qədər danışmır. Beynəlxalq aktorlardan o, yalnız milli dövlətin rolunu qeyd edir. Beynəlxalq qeyri-hökumət təşkilatların və beynəlxalq bazarların rolunu isə o, tədqiq etmir.

Morqentaunun milli maraq nəzəriyyəsi mənəviyyatsızlığa görə tənqid olunur. O, dövlətin hər bir fəaliyyətinə bəraət qazandıraraq onu mənəviyyata uyğun hesab edir. Beləliklə, Morqentaunun nəzəriyyəsi beynəlxalq siyasətin hakimiyyətdən başqa digər sahələrini izah etmir.

### 4.4. Ənənəvi realizmin tənqidi

Ənənəvi realizm 1920-ci və 1930-cu illərin liberalizminə cavab olaraq formalaşmışdır. Ənənəvi realistlər *(Edvard Karr, Hans Morqentau, Arnold Volfers, Klaus Knorr, Corc Kennan, Henri Kissinjer)* öz fikirlərini liberalizmin tənqidi əsasında formalaşdırmışdılar. Ənənəvi realizm beynəlxalq münasibətlər nəzəriyyəsi fənninin tarixində özünü bu fənnin klassik və əsas yanaşmalarından biri kimi göstərmişdir.

Ənənəvi realizm bir çox şübhə doğurmayan müddəalara əsaslanır. Belə müddəalardan biri dövlətə aiddir. Realizm müasir milli dövləti siyasi təşkilatın ən arzuolunan forması hesab edir. Realizm nəzəriyyəsində *milli suverenlik* insanların təbii siyasi vəziyyəti kimi qələmə verilir. Beynəlxalq sistem anarxiya kimi, yəni

milli dövlətlərin fəaliyyətlərini tənzimləyə biləcək ali hakimiyyətin olmadığı məkan kimi təqdim edilir.

Bununla belə qeyd etmək lazımdır ki, realizm nəzəriyyəsi beynəlxalq münasibətlər sistemində baş verən bir çox hadisələri izah edə bilmir. Beynəlxalq münasibətlər sistemini anarxiya kimi, insanı eqoist məxluq kimi təqdim etməklə realizm bir çox suallara məntiqi cəhətdən əsaslandırılmış cavab verə bilmir. Buna görə də o, bir sıra nəzəriyyələr tərəfindən tənqid olunur. Məsələn, marksizm realizmi kapitalist istehsal münasibətlərinin həm daxili, həm də beynəlxalq səviyyədə saxlanılmasında maraqlı olduğuna görə tənqid edir. Marksizmə görə, realizmlə inkişaf etmiş ölkələrdəki hakim sinfin maraqları arasında oxşarlıq vardır.

Bundan başqa realizm nəzəriyyəsi beynəlxalq münasibətlərin aktorları sistemini dövlətlərlə məhdudlaşdırır. Liberalizm isə bu sistemə dövlətlərlə yanaşı beynəlxalq təşkilatları, transmilli şirkətləri, qeyri-hökumət təşkilatları, ictimai qruplar və ayrı-ayrı şəxsləri daxil edir. Bu, realizm nəzəriyyəsinin daha bir zəif tərəfidir.

Ənənəvi realizmin bəzi müddəalarının gerçəkliyə uyğun gəlməməsi, onun bir sıra aktual məsələlərə cavab verə bilməməsi neorealizmin formalaşmasına səbəb oldu. Ötən əsrin 70-ci illərinin ikinci yarısında realizm nəzəriyyəsi neorealizm formasında yenidən yüksəlməyə başladı.

### *Fəslə aid suallar*

1. İctimai-fəlsəfi fikir tarixində beynəlxalq münasibətlərin tədqiqi sahəsində realizm ənənəsinin formalaşması kimlərin adları ilə bağlıdır?
2. Realizm ənənəsi öz mahiyyətinə görə nikbin yoxsa bədbin xarakter daşıyır? Niyə?
3. Niyə Millətlər Liqasının Yaponiyanın Mancuriyanı, İtaliyanın isə Həbəşistanı işğal etməsinin qarşısını ala bilməməsi realizm nəzəriyyəsinin geniş yayılmasına səbəb olmuşdur?
4. Fukididə görə, dövlətlərarası münasibətlərdə güc məqsəddir yoxsa vasitə?
5. Fukidid dövlətlərarası məsələlərin həll edilməsində gücə müraciət etməyin zəruriliyini nə ilə əlaqələndirir?
6. Tomas Hobsa görə, insanların təbii durumunun əsas xüsusiyyətləri nədən ibarət idi?
7. Hobsun ictimai müqavilə nəzəriyyəsinin əsas müddəaları nədən ibarətdir?
8. Hobsa görə, dövlətlərin meydana gəlməsindən sonrakı dövrdə onlar arasında müharibə təhlükəsi qalır yoxsa yox? Niyə?

9. Hobsa görə, dövlətin meydana gəlməsindən sonrakı dövrdə onun daxili vəziyyəti ilə beynəlxalq vəziyyəti arasında əsas fərq nədən ibarətdir?
10. Hobsa görə, beynəlxalq münasibətlər sistemində dövlətlərin bir-birinə inamsızlıq, aqressiv münasibət nümayiş etdirməsi nə ilə bağlıdır?
11. Beynəlxalq münasibətlərdə təhlükəsizlik dilemması nədir?
12. Niyə təhlükəsizlik dilemmasının paradoksal xarakter daşıyır?
13. Niyə Klauzevits beynəlxalq münasibətlərin realizm nəzəriyyəsinin nümayəndəsi hesab olunur?
14. Niyə realizmə əsasən, gücün əhəmiyyəti daha çox beynəlxalq münasibətlər sistemində hiss olunur?
15. Liberalizm ilə realizm arasında beynəlxalq münasibətlər sisteminə baxışda oxşar və fərqli cəhət nədir?
16. Realizm və liberalizm nəzəriyyələrinə əsasən, beynəlxalq münasibətlərin aktorları sisteminə hansı elementlər daxildir?
17. Niyə realizm müharibələri qaçınılmaz hesab edir?
18. Niyə realizm güc və təhlükəsizlik faktorlarına yüksək əhəmiyyət verir?
19. Niyə realizm pozitivizm metodologiyasına əsaslanır?
20. Realizmə əsasən, nəzəriyyə faktlara uyğun gəlməlidir, yoxsa faktlar nəzəriyyəyə? Niyə?
21. Realpolitika nədir?
22. Niyə realistlər dövlətin mənəvi- etik cəhətdən təkmilləşməsi məsələsini vacib hesab etmirlər?
23. Niyə realizmə universal mənəvi-etik prinsipləri dövlətlərin fəaliyyətləri üçün əhəmiyyətli hesab etmir?
24. Realizmə əsasən, millətin maraqları nəyi ehtiva edir?
25. Realistləri müharibənin tərəfdarları hesab etmək olar? Niyə?
26. Edvard Karr liberalizmin beynəlxalq münasibətlərə dair hansı müddəalarını tənqid etmişdir?
27. Niyə Edvard Karr liberalları utopist adlandırırdı?
28. Niyə Edvard Karr hesab edirdi ki, Birinci Dünya müharibəsində qalib çıxan dövlətlər status- kvo-nun saxlanılmasında maraqlı idilər?
29. Niyə Edvard Karr beynəlxalq sülhü öz iradəsini, istəyini digər dövlətlərə qarşı qoyan güclü dövlətlərin şüarı hesab edirdi?
30. Niyə Edvard Karr laissez-faire iqtisadiyyatını iqtisadiyyatını aparıcı iqtisadi ölkələrdəki hakim elitaların ideologiyası hesab edirdi?
31. Niyə Edvard Karr iqtisadi sahədə aparılan proteksionizm siyasətini zəif ölkələr üçün səmərəli siyasət hesab edirdi?
32. Niyə Edvard Karr dövlətlərin milli maraqlarının toqquşmasını zəruri hesab edir?

33. Edvard Karr yeni dünya müharibəsinin qaçınılmazlığını nə ilə əlaqələndirirdi?
34. Niyə Edvard Karr 1929-1933-cü *illərdə dövlətin iqtisadiyyata müdaxiləsinin zəruriliyini əsaslandırarkən o dövrdə Sovet İttifaqında uğurla həyata keçirilən 5 illik plan təcrübəsinə istinad edirdi*?
35. Hans Morqentaunun siyasi realizm nəzəriyyəsinin altı prinsipinin əhəmiyyəti nədir?
36. Niyə Hans Morqentau siyasətin idarə olunduğu obyektiv qanunları dəyişməz hesab edir?
37. Niyə Hans Morqentau hakimiyyəti beynəlxalq münasibətlərin öyrənilməsində mərkəzi məsələ hesab edir?
38. Siyasi fəaliyyətin qiymətləndirilməsində universal etik davranış qaydaların rolu nədən ibarətdir?
39. Hans Morqentauya görə, insanın hansı xüsusiyyəti münaqişənin səbəbidir?
40. Hans Morqentauya görə, milli maraq nədir?
41. Hans Morqentauya görə, maraqların toqquşmasının səbəbi nədir?
42. Hans Morqentauya görə, məhdudlaşdırma vasitəsilə sülh nəyi nəzərdə tutur?
43. Hans Morqentauya görə, transformasiya vasitəsilə sülh nəyi nəzərdə tutur?
44. Hans Morqentauya görə, diplomatiya doqquz qaydasının əhəmiyyəti nədir?
45. Hans Morqentauya görə, yaxşı diplomatiyadan başqa sülhü daha nə ilə qorumaq olar?
46. Niyə Hans Morqentau tərəfindən marksizmin tənqidi zəifdir?

## Ədəbiyyat

*Алексеева Т.А.* Современные политические теории. М., 2000.

*Baldwin D.A.* (ed.). Neorealism and Neoliberalism: The Contemporary Debate. N.Y., 1996.

*Burchill, S. and Linklater A.* Theories of International Relations. N.Y.: St. Martin Press., 1996.

*Doyle M.* Liberalism and World Politics. // Essential Readings in World politics (eds. Karen Mingst and Jack Snyder), New York, 2001.

*Fикuyama F.* The End of History?// The National Interest. 1989. N16.

*Gilpin R.* The Political Economy of International Relations. Princeton, 1987.

*Gilpin R.* The Richness of the Tradition of Political Realism // International Organization. – Vol.38. – No.2 (Spring, 1984). – P. 287-304

*Grieco J.* Anarchy and the Limits of Cooperation: A Realist Critique of the Newest Liberal Institutionalism // International Organization. 1988. Vol. 42. No 2.

*Jervis R.* Realism, Neoliberalism, Cooperation. //International Security vol 19 no.1 (Summer 1999).

*Mesquita B.B.* An Institutional Explanation of the Democratic Peace. //American Political Science Review, vol.93, no 4; 1999.

*Nəcəfov E.Ə.* Liberalizm və realizmin nəzəri və metodoloji əsaslarının müqayisəli təhlili. Elmi Əsərlər. İctimai- siyasi elmlər seriyası, Bakı Slavyan Universiteti, N1-2, 2007, c. 36-44

*Nəcəfov E.Ə.* Liberalizmin iqtisadi nəzəriyyəsinin tənqidi. "XXI əsr: Qlobal Problemlər və Beynəlxalq Əməkdaşlıq" mövzusunda Elmi- Praktik Konfransın Materialları, Bakı Dövlət Universiteti, 2008, s.22-29

*Nəcəfov E.Ə.* Qüvvələrin balansı nəzəriyyəsinin Hans Morqentaunun beynəlxalq siyasət konsepsiyasında yeri. Elmi Əsərlər. İctimai- siyasi elmlər seriyası, Bakı Slavyan Universiteti, N2, 2009, s. 10-17

*Rüstəmov Y.İ.* Siyasi-hüquqi təlimlər tarixi. Dərs vəsaiti. Bakı, 2000.

*Современные международные отношения* / Под ред. ТоркуноваА.В. М., 2000.

*Теория международных отношений: Хрестоматия* / Под ред. и с комментариями П. А. Цыганкова. М., 2002.

*Цыганков П.А.* Теория международных отношений: Учебное пособие. М., 2006.

*Цыганков А.П., Цыганков П.А.* Социология международных отношений. Учебное пособие. М., 2006.

# V FƏSİL
# NEOREALİZM

I fəsildə qeyd etdiyimiz kimi, İkinci Dünya müharibəsindən sonrakı dövrə təsadüf edən BMN fənninin üçüncü inkişaf mərhələsi liberalizm ilə realizm nəzəriyyələri arasında ciddi qarşıdurma ilə xarakterizə olunurdu. Bu nəzəriyyələrin hər biri öz mövqeyini müdafiə edirdi. 70-ci illərin əvvəllərində liberalizm nəzəriyyəsinin yüksəlməsi səbəbindən realizmin mövqeyi zəifləməyə başladı. Bu dövr liberalizm məktəbinin nümayəndələri öz tədqiqatlarında beynəlxalq münasibətlər sistemində dövlətlərin, transmilli şirkətlərin və beynəlxalq təşkilatların arasında qarşılıqlı asılılığın artmasını göstərməklə klassik realizm nəzəriyyəsinin əsas müddəalarını təkzib etdilər. Lakin liberalizm nəzəriyyəsinin realizm nəzəriyyəsi üzərində bu zəfəri uzun sürmədi. Qeyd etdiyimiz kimi, 70-ci illərin ikinci yarısında realizm nəzəriyyəsi neorealizm formasında yenidən yüksəlməyə başladı.

## 5.1. Kennet Volts

Beynəlxalq münasibətlərin neorelizm nəzəriyyəsinin meydana gəlməsi görkəmli Amerika politoloqu *Kennet Voltsun* adı ilə bağlıdır. Kennet Voltsla yanaşı bu nəzəriyyənin görkəmli nümayəndələri sırasında *Barri Byuzanı, Robert Qilpini, Con Mirşaymeri, Robert Cervisi, Stefan Voltu* və başqalarını da göstərmək olar.

*Kennet Volts "Beynəlxalq siyasət nəzəriyyəsi" ("Theory of İnternational Politics") (1979)* adlı kitabında neorealizmin əsas müddəalarını işləyib hazırlamışdır. Neorealizmi beynəlxalq münasibətlərin yeni bir nəzəri yanaşması kimi irəli sürməklə Kennet Volts klassik realizmin çatışmazlıqlarını göstərmək istəyirdi. Yeni nəzəriyyənin klassik realizm nəzəriyyəsindən fərqini göstərmək üçün Volts onu *"struktur realizm"* adlandırır. Bu, onunla izah olunur ki, neorealizm beynəlxalq münasibətlər sistemində dövlətlərin fəaliyyətlərinin səbəblərini beynəlxalq strukturun xüsusiyyətləri ilə əlaqələndirir.

Kennet Voltsun neorealizmi və ya struktur realizmi həm ənənəvi realizmin tənqidi, həm də onun əhəmiyyətli dərəcədə intellektual genişlənməsi idi. Volts özündən əvvəl gələn realistlərin nəzəriyyəsi ilə müqayisədə daha mürəkkəb nəzəriyyə təqdim edir.

Voltsun təqdim etdiyi neorealizm nəzəriyyəsi ilk növbədə klassik realizmin aşağıdakı *2 əsas müddəasını* yeni tarixi şəraitdə yenidən səsləndirdi. Birincisi, Voltsa görə, beynəlxalq münasibətlər sisteminin əsas aktoru dövlətdir. Anarxiya ilə xarakterizə olunan bu sistem güclü dövlətlərin fəaliyyəti nəticəsində formalaşır. İkincisi, Volts hesab edir ki, beynəlxalq münasibətlər sistemində dövlətlər insanların

təbii durumuna bənzər vəziyyətdə olduqlarına görə yalnız öz təhlükəsizlikləri və sağ qalmaları haqqında düşünürlər.

Realizm və neorealizm terminləri ədəbiyyatda bəzən eyni mənada istifadə edilsələr də, onlar bir-birindən əsaslı şəkildə fərqlənirlər. Bu iki nəzəriyyə arasındakı *əsas fərq* dövlətlərin beynəlxalq münasibətlər sahəsindəki fəaliyyətlərinin səbəblərinin izah olunmasında daha aydın görünür. Məsələn, dövlətlərin bir-biri ilə müharibə aparmalarının səbəblərini bu nəzəriyyələr müxtəlif amillərlə əlaqələndirirlər. Əvvəlki fəsildə göstərdik ki, klassik realizm müharibəni insanın təbiəti ilə, xüsusilə də onun eqoist məxluq olması, başqaları üzərində hökmranlıq etmək istəyi ilə əlaqələndirir. Neorealizm isə müharibənin səbəblərini beynəlxalq sistemin anarxiya vəziyyətində olması ilə, yəni burada dövlətin daxili mühitindən fərqli olaraq aktorların fəaliyyətlərini qanun çərçivəsində nizamlaya biləcək ali hakimiyyətin yoxluğu ilə bağlayır. Neorealizmə əsasən, insanın təbiətindən, dövlətin daxili siyasi quruluşundan asılı olmayaraq beynəlxalq sistemin anarxiya vəziyyətində olması dövlətlərin fəaliyyətlərinin nəticələrini müəyyən edir. Beynəlxalq münasibətlər sahəsində fəaliyyət göstərən dövlətlərin fəaliyyətlərinin məntiqini anlamaq üçün ilk növbədə beynəlxalq sistemi əsaslı şəkildə təhlil etmək lazımdır. Göründüyü kimi, realizm daxili- xarici, neorealizm isə xarici-daxili yanaşmaya əsaslanır.

Kennet Volts *fiziokratların* (*XVIII əsrin ikinci yarısında Fransada meydana gəlmiş iqtisadiyyat elminin istiqaməti. Onun nümayəndələri var-dövlətin, hakimiyyətin mənbəyini təbiətdə, kənd təsərrüfatının inkişafında görürdülər. – E.N.*) siyasi iqtisad konsepsiyasına istinad edir. Məlum olduğu kimi, fiziokratlar iqtisadiyyatı cəmiyyətdən və dövlət quruluşundan ayrılıqda götürürdülər. Tədqiq etmək məqsədilə bir sahəni başqa bir sahədən ayırmaq süni bir işdir. Lakin bu, intellektual zəiflik deyil, əksinə bu metodun müəyyən üstünlükləri vardır. Bu metod mürəkkəb işləri və münasibətləri sadələşdirməyə, onları dərindən dərk etməyə imkan verir. Volts eyni yanaşmanı beynəlxalq münasibətlərin tədqiq olunmasına tətbiq edir. O, beynəlxalq münasibətlər sistemini hakim ideologiya, din, istehsal üsulu, sosial struktur və mədəni-mənəvi dəyərlər sistemi kimi dövlətin daxili məsələlərindən ayrılıqda götürərək beynəlxalq münasibətlərin mahiyyətini, hərəkətverici qüvvələrini, müəyyənedici amillərini və digər mühüm məsələlərini öyrənməyə çalışır. Bu metodun tətbiqi nəticəsində Volts dövlətlərarası münasibətlərin formalaşmasında və inkişafında beynəlxalq sistemin xarakterinin həlledici rol oynaması ideyasını irəli sürür.

Bu və ya digər dövlət sistemi, xüsusilə dövlətlərin beynəlxalq münasibətlər sahəsində fəaliyyətləri, davranışları beynəlxalq sistemin xarakterindən asılıdır. Volts beynəlxalq siyasəti müəyyən, müstəqil və dövlətin daxili şəraitindən asılı olmayan struktura malik olan bir sistem kimi dərk oluna bilməsi ideyasını irəli sürür.

Bu ideya, bir tərəfdən, yeni bir beynəlxalq münasibətlər nəzəriyyəsi üçün başlanğıc, digər tərəfdən isə Voltsun ənənəvi realizmdən uzaqlaşması kimi qəbul oluna bilər.

Kennet Volts tərəfindən irəli sürülən beynəlxalq münasibətlər sisteminin xarakterinin dövlətlərarası münasibətlərin formalaşmasında və inkişafında həlledici rol oynaması ideyası bu sistemin tədqiq olunmasını gündəmə gətirir.

## 5.2. Beynəlxalq münasibətlər sisteminin əsas qüvvələri və prinsipləri

Kennet Volts beynəlxalq münasibətlər sistemini xarakterizə edərkən qeyd edir ki, beynəlxalq sistemin anarxiya vəziyyətində olması, mərkəzi hakimiyyətin yoxluğu dövlətlərdən elə hərəkət etmələrini tələb edir ki, onlar öz təhlükəsizliklərini təmin etməyə müvəffəq olsunlar. Hər bir dövlət ən azı sağ qalmaq məqsədilə öz maraqlarını müdafiə etməyi bacarmalıdır. Bu məqsəd onların beynəlxalq sistemdəki fəaliyyətlərinin hərəkətverici qüvvəsidir. Siyasi həyatın bu fundamental faktı həm demokratik, həm də avtoritar dövlətlərin qarşısında durur.

Voltsun irəli sürdüyü və sonra cavab verdiyi əsas sual belədir: niyə dövlətlər müxtəlif siyasi sistemlərə və bir-birinə zidd ideologiyalara malik olmalarına baxmayaraq, eyni xarici siyasət yürüdür? Volts "soyuq müharibə" dövründə böyük dövlətlərin bir-biri ilə münasibətlərinə istinad edərək liberalların belə bir fikrini təkzib edir ki, dövlətlərin daxili quruluşu beynəlxalq siyasətin şəraitini, durumunu müəyyən edir. SSRİ və ABŞ tamamilə müxtəlif siyasi və sosial sistemlər idi, lakin onların xarici siyasəti məzmun baxımından çox oxşar idi: hər bir dövlət hərbi güc və təsirlərini yeritməyə can atırdı və hərbi-strateji üstünlük uğrunda rəqabət aparırdı. Voltsa görə, bu onunla izah olunur ki, hər bir dövlətin xarici siyasətinin istiqamətləri onun daxili strukturu ilə deyil, beynəlxalq sistemin qüvvələri ilə müəyyən olunur. Başqa sözlə desək, bu və ya digər dövlətin demokratik və ya avtoritar olması onun xarici siyasətinin sülhsevər və ya təcavüzkar olmasını müəyyən etmir. Beynəlxalq münasibətlər sisteminin qüvvələri dövlətlərin xarici siyasətini oxşar edir. Bu sistem qüvvələrinin tapılması beynəlxalq münasibətlər nəzəriyyəsinə neorealizmin ən böyük töhvəsidir.

Ənənəvi realizmdən fərqli olaraq, Volts beynəlxalq siyasəti, beynəlxalq münasibətlər sistemini müəyyən struktura malik olan sistem kimi qələmə verir. Realizm beynəlxalq münasibətlər sistemini bu cür təsvir edə bilmədi, çünki baş verən siyasi hadisələri dövlətin siyasi sisteminin tərkib hissələrinin tədqiqi ilə izah edən onun biheviorist metodologiyası buna imkan vermirdi. Buna görə, beynəlxalq münasibətlər sisteminin tərkib hissələrinin xüsusiyyətləri və onların bir-birinə qarşılıqlı təsiri siyasi hadisələrin bilavasitə səbəbidir. Hans Morqentau beynəlxalq münasibətlər sisteminin tərkib hissələrinin fəaliyyətini və bir-birinə təsirini tədqiq etməklə baş verən hadisələri dərk və izah etməyə cəhd edir. Lakin o, beynəlxalq

siyasətin sistem məhduddiyyətlərinə fikir vermir, beynəlxalq strukturun mühüm nəticələrini nəzərə almır. Voltsa görə, realistlər səbəbiyyət münasibətlərini dövlətlərdən yuxarı səviyyəyə qaldıra bilmirlər, çünki onlar beynəlxalq sistemi elementləri formalaşdıran bir qüvvə, yəni beynəlxalq sistemi dövlətin xarici siyasətinin xarakterini müəyyən edə biləcək bir qüvvə kimi qəbul etmirlər. Morqentau ilə yanaşı digər realislər də hesab edirlər ki, hakimiyyət istəyi insanın təbiətindədir. Volts kimi neorealistlər isə beynəlxalq münasibətlər sisteminin anarxiya vəziyyətində olduğunu göstərirlər. Bu vəziyyət gücün artırılmasını bir tələb kimi dövlətlərin üzərinə qoyur. Morqentau beynəlxalq siyasətdəki münaqişələri izah etmək üçün insanın təbiətininin dərk olunmasının vacibliyini göstərir. Volts isə Morqentaudan fərqli olaraq reduksionizmdən imtina edir*. Volts beynəlxalq münasibətlər sisteminə bir müstəqil sahə kimi yanaşaraq onu bütün dövlətlərin fəaliyyətini müəyyən edən bir faktor kimi qəbul edir.

Voltsun realizmə münasibəti onun liberalizmə və marksizmə münasibətinə bənzəyir. Volts bu yanaşmaların hər birini reduksionist adlandırır. Bu yanaşmalar “unit-level” *(element-səviyyə, hissə-səviyyə)* nəzəriyyələridir, çünki bu nəzəriyyələr bütövü *(beynəlxalq münasibətlər sistemini*) onun tərkib elementlərini *(daxili durumunu)* tədqiq etməklə izah etmək istəyir. Bu yanaşmalar struktur vəziyyəti, yəni sistemin elementlərə təsirini dərk edə bilmir. Realistlər insan təbiətini və dövlət xadimlərinin maraqlarını, liberallar demokratiyanı və sərbəst ticarəti, marksistlər isə kapital və əmək arasında sinfi mübarizəni vurğulayırlar. Lakin bu yanaşmaların heç biri beynəlxalq münasibətlər sisteminin vacibliyini qeyd etmir.

Voltsa görə, beynəlxalq münasibətlər sistemi fəaliyyətlərində müəyyən qanunauyğunluq nümayiş etdirən dövlətlərin məcmusudur. Bu sistemə daxil olan dövlətlər cəmiyyətdə üstünlük təşkil edən ideologiyalardan, mənsub olduqları mədəniyyətlərdən asılı olmayaraq eyni fəaliyyətlə məşğuldurlar. Onlar bir-birindən yalnız beynəlxalq münasibətlər sisteminə təsir edərək onun dəyişməsinə səbəb olmaları baxımından fərqlənir. Təbii ki, beynəlxalq münasibətlər sistemində dəyişiklik güclü dövlətlərin təsiri nəticəsində baş verir. Bunun üçün ən geniş yayılmış vasitə güclü dövlətlər arasında müharibədir.

Volts beynəlxalq münasibətlər sisteminin iki növünü qeyd edir:

1. *İkiqütblü sistem;*
2. *Çoxqütblü sistem.*

İkiqütblü sistem 1945-ci ildən 1989-cu ilədək mövcud olmuşdur. Burada ABŞ və SSRİ kimi iki hegemon dövlət vardır. Çoxqütblü sistem isə “soyuq müharibədən” əvvəl və sonra özünü mövcud olmuşdur. Bu sistemə bir neçə böyük dövlət daxildir.

---

* *Qeyd:* Məlum olduğu kimi, beynəlxalq münasibətlərin reduksionist nəzəriyyələri səbəbləri fərdi yaxud milli dövlət səviyyələri ilə bağlayır, beynəlxalq münasibətlərin sistem nəzəriyyələri isə bu səbəbləri beynəlxalq səviyyəyə qaldırır.

Voltsa görə, çoxqütblü sistemlə müqayisədə ikiqütblü sistem daha sabitdir, çünki ikiqütblü sistemin aktorları mövcud status-kvo-nun saxlanılmasında maraqlıdırlar. Çoxqütblü sistemdə isə hər bir hegemon dövlət üçün sistemə nəzarət etmək imkanı az olduğuna görə, eləcə də onun hər birinin fəaliyyətinin gözlənilən nəticəsi qeyri-müəyyən olduğuna görə onlar status-kvo-nun saxlanılmasına can atmırlar. Bundan başqa çoxqütblü sistem şəraitində potensial ikitərəfli münaqişələrin sayı daha çox olur və dövlətlər arasında anlaşılmazlıq isə artır. Bu səbəbdən müasir dövrdə böyük dövlətlər arasında strateji tarazlıq, müvazinət pozulur. Beynəlxalq münasibətlərin təkrar olunan xüsusiyyətləri, ilk növbədə hakimiyyət və təhlükəsizlik uğrunda mübarizə vaxtaşırı özünü göstərəcəkdir. Müasir çoxqütblü sistemi əvvəlki çoxqütblü sistemin mövcud olduğu dövrlə, xüsusilə Birinci və İkinci Dünya müharibələrindən əvvəlki dövrlərlə müqayisə edərək, Con Mirşeymer narahatlığın artdığını bildirir. Onun proqnozuna görə, son qırx beş il ərzində əldə olunan sabitlik çətin ki gələcəkdə saxlanılsın.

III fəsildə qeyd etdiyimiz kimi, liberallar SSRİ başda olmaqla dünya kommunist sisteminin çökməsini müharibələrin qarşısının alınması istiqamətində əlamətdar hadisə kimi qələmə verirdilər. Çünki dünya kommunist sisteminin çökməsi Yer kürəsində liberal demokratiyanın yayılması üçün əlverişli şərait yaradır. Liberalizmin demokratik sülh nəzəriyyəsinə isə əsasən, demokratik dövlətlər bir-biri ilə müharibə aparmırlar. Liberallardan fərqli olaraq neorealistlər SSRİ başda olmaqla dünya kommunist sisteminin dağılmasını dünyada müharibə təhlükəsinin artmasının əsas səbəblərindən biri kimi təqdim edirlər. Çünki, onların fikrincə, SSRİ-nin bir dövlət kimi dağılması beynəlxalq münasibətlər sistemində sabitliyi təmin edən ikiqütblü dünyaya son qoydu. Con Mirşeymerə görə, ikiqütblü dünya dövründə uzun müddət ərzində mövcud olan sabitlik üç faktorun nəticəsi idi:

1. Kontinental Avropada hərbi qüvvənin ikiqütblü paylaşdırılması;
2. ABŞ və SSRİ arasında olan hərbi qüvvənin təxmini bərabərliyi;
3. nüvə silahının olmasının sakitləşdirici təsiri.

Neorealistlərin fikrincə, SSRİ-nin dağılması ikiqütblü sistemin yaratdığı bu sabitliyə son qoydu. Buna görə onlar ikiqütblüyün ləğv olunmasını ümumdünya siyasətində ən dramatik dəyişiklik hesab edirlər.

Beynəlxalq münasibətlər sisteminin müəyyənedici əlamətlərini və daxili siyasi sistemlərdən fərqini göstərməyə çalışan Volts hesab edir ki, bu sistemin *üç mühüm xüsusiyyətə malik strukturu vardır:*

*1. Sistemin fərqləndirici prinsipi;*

*2. Sistemdə elementlərin xarakteri;*

*3. Sistemdə elementlərin qabiliyyətinin paylaşdırılması.*

1. Beynəlxalq münasibətlər sisteminin fərqləndirici prinsipi *anarxiyadır.* Burada dövlətlərarasası münasibətləri tənzimləyən yüksək səviyyəli hakimiyyət yoxdur.

Fərdlərdən fərqli olaraq milli dövlətlər elə bir mühitdə mövcuddurlar ki, onların özləri özlərinə kömək etməli olurlar. Belə bir mühitdə sağ qalmaq üçün dövlətlər təhlükəsizliklərini hərbi qüvvələrini artırmaqla təmin etmək istəyirlər. Bu təhlükəsizlik dilemması bütün ölkələr üçün onların daxili mədəni və ya siyasi xüsusiyyətlərindən asılı olmayaraq ümumidir. Voltsa görə, beynəlxalq sistemin anarxiyalı mahiyyəti bir neçə əsr ərzində sistemin fərqləndirici prinsipi olaraq qalır;

2. Voltsa görə, sistemdə olan elementlərin xarakteri *eynidir,* yəni beynəlxalq sistemdə bütün dövlətlər strukturun məhdudiyyətlərinə görə funksional cəhətdən oxşardır. Anarxiyalı mühit dövlətləri nizamlayır: onlar hər hansı funksiyadan əvvəl öz təhlükəsizliklərini güdürlər. Sağ qalmaq istəyi onların fəaliyyətinin çox hissəsini müəyyən edir. Lakin dövlətlər funksional cəhətdən eyni olsalar da, öz qabiliyyətlərinə görə fərqlənirlər;

3. Beynəlxalq sistem üzrə hakimiyyətin qeyri-bərabər və daim artan paylaşdırılması vardır. Dövlətlər eyni məsələlərlə qarşılaşır, lakin onları yerinə yetirmək qabiliyyətlərinə görə dövlətlər bir-birindən fərqlənirlər. Hər bir dövlətin ümumi məqsədlərə nail olmaq qabiliyyəti onun beynəlxalq münasibətlər sistemindəki yerindən və xüsusilə onun nisbi gücündən asılıdır. Beynəlxalq münasibətlər sistemində gücün paylaşdırılması dövlətlərin fəaliyyətini dərk etmək üçün bir açar kimi ideologiyanı, yaxud digər daxili amili nəzərə almır. Buna görə də neorealistlər böyük və kiçik dövlətləri bir-birindən fərqləndirirlər.

### 5.3. Neorealizm nəzəriyyəsinin dəyərləndirilməsi

Beləliklə, neorealizm nəzəriyyəsi *iki müddəaya* əsaslanır: Birincisi, beynəlxalq münasibətlər sistemi *anarxiya* durumundadır. Burada qayda-qanunu, nizam-intizamı yaradacaq qüvvə yoxdur. İkincisi, bu sistemdə olan dövlətlər ilk növbədə öz təhlükəsizlikləri və sağ qalmaqları haqqında düşünürlər. Bunun üçün isə onlar öz hərbi güclərini artırmalıdırlar. Dövlətlər arasında hərbi üstünlük uğrunda gedən mübarizə beynəlxalq münasibətlərin mühüm cəhətlərindəndir. Buna görə də neorealizm münaqişənin, müharibənin zəruri, əməkdaşlığın isə təsadüfi xarakter daşıdığını göstərir. Bundan başqa neorealizm nəzəriyyəsi əməkdaşlığın əsasən hegemon dövlətlərin səyi nəticəsində reallaşmasının mümkün olmasını qeyd edir. Belə ki, yalnız hegemon dövlətlər öz hərbi və iqtisadi gücünün hesabına digər dövlətləri əməkdaşlığa cəlb edir.

Beynəlxalq münasibətlərin neorelizm nəzəriyyəsi 1979-cu ildən, yəni Kennet Voltsun *"Beynəlxalq siyasət nəzəriyyəsi"* adlı kitabının dərc olunmasından başlayaraq "soyuq müharibə" illərinin sonunadək aparıcı nəzəriyyələrdən biri olmuşdur. Lakin neorealizm nəzəriyyəsinin Sovet İttifaqının süquta uğramasının və bunun nəticəsində ikiqütblü sistemin yox olmasının səbəblərini izah edə bilməməsi

Voltsun *"çoxqütblü sistemlə müqayisədə ikiqütblü sistemin daha sabit olmasına"* dair yuxarıda qeyd etdiyimiz fikrini təkzib etdi.

Beynəlxalq münasibətlər nəzəriyyəsi üzrə görkəmli politoloq *Endryu Linkleytere* görə, Kennet Voltsun element-sistem *(yəni dövlət- beynəlxalq münasibətlər sistemi. E.N.)* münasibəti ilə bağlı əsas problem ondadır ki, burada elementlər tərəfindən sistemin dəyişilməsi nəzərdə tutulmur. Volts hesab edir ki, dövlətlər beynəlxalq münasibətlər sistemini dəyişməyə qadir deyil*. Voltsun bu fikri beynəlxalq sistemin daimiliyini göstərdiyinə baxmayaraq, qeyd olunan fikir beynəlxalq sistemin dövlətlər tərəfindən əsaslı şəkildə dəyişməsi ideyasına ziddir. Burada ziddiyyət və zəiflik hiss olunur. Bir tərəfdən Volts hesab edir ki, dövlətlərin dəyərləri, mənəvi istəkləri və əxlaqı beynəlxalq münasibətlər sistemindəki anarxiyanın sistemli məhdudiyyətlərinə görə həyata keçmir. Digər tərəfdən isə o da *Maykl Doyl* kimi liberalların belə bir fikri ilə razılaşır ki, getdikcə daha çox dövlətlər demokratik olur. Bu o deməkdir ki, dövlətlər öz daxili vəziyyətlərinin təsiri nəticəsində dəyişə bilərlər.

Volts liberalların *(Riçard Rozenkrans)* belə bir fikrini təkzib edir ki, dövlətlər arasındakı qarşılıqlı asılılıq beynəlxalq sistemin anarxiyalı olmasının qarşısını alır. Lakin aydındır ki, gücdən istifadə müasir dövrdə sabitliyə təhdid edir. Liberal demokratiyanın dünyada genişlənməsi faktı elementlərin beynəlxalq sistemin strukturunu dəyişməyə qadir olmalarına dair neorealizmin müddəasının gerçəkliyə uyğun olmadığını göstərir.

Volts rasionalistlərin *(ingilis tənqidi məktəbinin. -E.N.)* də belə bir fikrini təkzib edir ki, beynəlxalq sistem anarxiyalı olmasına baxmayaraq, o, normativ qaydada tənzimlənir. Ümumi maraqlara və dəyərlərə, qaydalara və institutlara malik olan rasionalistlərin beynəlxalq cəmiyyət ideyası neorealistlərin *"dövlətlər altruist davranışa qadir deyil"* fikrini təkzib edir. Voltsa görə, dövlətlər öz milli maraqlarını beynəlxalq nizama qurban verməzlər.

Neomarksist mövqedən çıxış edən *kanadalı politoloq Robert Koks* hesab edir ki, neorealizm beynəlxalq münasibətləri böyük dövlətlərin iradəsindən asılı vəziyyətə qoyur. Bu, neorealizmin müəyyən mənada ardıcıl nəzəriyyə olmamasından xəbər verir. Koks neorealizm nəzəriyyəsini problemi həll edən nəzəriyyələrin sırasına daxil edir. Bu nəzəriyyə sosial və siyasi münasibətləri əvvəlcədən mövcud olan kimi qəbul edir və əgər bu münasibətlərə maneçilik edən ünsür varsa, onda onu aradan götürməyə çalışır.

## *Fəslə aid suallar*

* *Qeyd:* İstisna kimi Volts sistemin məhdudiyyətlərinə müqavimət göstərən bəzi güclü dövlətləri göstərir.

1. Beynəlxalq münasibətlərin neorealizm nəzəriyyəsinin görkəmli nümayəndələri kimlərdir?
2. Beynəlxalq münasibətlərin neorealizm nəzəriyyəsi mahiyyətinə görə nikbin yoxsa bədbin xarakter daşıyır? Niyə?
3. Kennet Volts neorealizm nəzəriyyəsinin realizm nəzəriyyəsindən fərqini göstərmək üçün onu necə adlandırırdı?
4. Niyə Kennet Volts neorealizm nəzəriyyəsini "struktur realizm" adlandırır?
5. Niyə Kennet Voltsun təqdim etdiyi neorealizm nəzəriyyəsi ənənəvi realizmin tənqidi hesab olunur?
6. Niyə Kennet Voltsun təqdim etdiyi neorealizm nəzəriyyəsi ənənəvi realizmin intellektual genişlənməsi hesab olunur?
7. Neorealizm nəzəriyyəsinə əsasən, müharibələrin qarşısını almaq olar yoxsa yox? Niyə?
8. Neorealizm nəzəriyyəsi müharibənin səbəblərini nə ilə əlaqələndirir?
9. Niyə realizm nəzəriyyəsi daxili- xarici, neorealizm nəzəriyyə isə xarici-daxili yanaşmaya əsaslanır?
10. Hansı metodun tətbiqi nəticəsində Kennet Volts dövlətlərarası münasibətlərin formalaşmasında və inkişafında beynəlxalq sistemin xarakterinin həlledici rol oynaması ideyasını irəli sürür?
11. Kennet Voltsa görə, dövlətlərin beynəlxalq münasibətlər sahəsində fəaliyyətləri və davranışları nə ilə müəyyən olunur?
12. Kennet Voltsa görə, dövlətlərin beynəlxalq münasibətlər sistemindəki fəaliyyətlərinin hərəkətverici qüvvəsi nədir?
13. Kennet Voltsa görə, dövlətin demokratik və ya avtoritar olması onun xarici siyasətinin sülhsevər və ya təcavüzkar olmasını müəyyən edir? Niyə?
14. Niyə Kennet Voltsun realizmə münasibəti onun liberalizmə və marksizmə münasibətinə bənzəyir?
15. Niyə Kennet Volts liberalizm və marksizm yanaşmalarını reduksionist adlandırır?
16. Kennet Voltsa görə, beynəlxalq münasibətlər sisteminə daxil olan dövlətlərin bir-birindən fərqi nədən ibarətdir?
17. Kennet Voltsa görə, beynəlxalq münasibətlər sistemi nədir?
18. Kennet Voltsa görə, beynəlxalq münasibətlər sisteminin neçə növü vardır? Hansılardır?
19. Niyə Kennet Volts ikiqütblü sistemi çoxqütblü sistemdən daha sabit sayır?
20. Niyə neorealistlər SSRİ başda olmaqla dünya kommunist sisteminin dağılmasını dünyada müharibə təhlükəsinin artmasının əsas səbəblərindən biri kimi qələmə verirlər?

21. Con Mirşeymerə görə, ikiqütblü dünya dövründə beynəlxalq aləmdə sabitliyin əldə olunması nə ilə izah olunurdu?
22. Niyə neorealistlər hesab edirlər ki, dünya kommunist sisteminin dağılması ikiqütblü sistemin yaratdığı bu sabitliyə son qoydu?
23. Kennet Voltsa görə, beynəlxalq münasibətlər sisteminin fərqləndirici prinsipi nədir?
24. Kennet Voltsa görə, beynəlxalq münasibətlər sistemində olan elementlərin xarakterinin eyni olması nə deməkdir?
25. Kennet Voltsa görə, beynəlxalq münasibətlər sistemində elementlərin qabiliyyətlərinin paylaşdırılması nə deməkdir?
26. Niyə neorealizm münaqişənin, müharibənin zəruri, əməkdaşlığın isə təsadüfi xarakter daşıdığını qeyd edir?

## Ədəbiyyat

*Baldwin D.A.* (ed.). Neorealism and Neoliberalism: The Contemporary Debate. N.Y., 1996.

*Burchill S. and Linklater A.* Theories of International Relations. N.Y.: St. Martin Press., 1996.

*Doyle M.* Liberalism and World Politics. // Essential Readings in World politics (eds. Karen Mingst and Jack Snyder), New York, 2001.

*Fикиуата F.* The End of History?// The National Interest. N16, 1989.

*Gilpin R.* The Political Economy of International Relations. Princeton, 1987.

*Gilpin R.* The Richness of the Tradition of Political Realism // International Organization. – Vol.38. – No.2 (Spring, 1984). – P. 287-304

*Grieco J.* Anarchy and the Limits of Cooperation: A Realist Critique of the Newest Liberal Institutionalism // International Organization. 1988. Vol. 42. No 2.

*Jervis R.* Realism, Neoliberalism, Cooperation. //International Security vol 19 no.1 (Summer 1999).

*Nəcəfov E.Ə.* Liberalizm və realizmin nəzəri və metodoloji əsaslarının müqayisəli təhlili. Elmi Əsərlər. İctimai- siyasi elmlər seriyası, Bakı Slavyan Universiteti, N1-2, 2007, c. 36-44

*Nəcəfov E.Ə.* Qüvvələrin balansı nəzəriyyəsinin Hans Morqentaunun beynəlxalq siyasət konsepsiyasında yeri. Elmi Əsərlər. İctimai- siyasi elmlər seriyası, Bakı Slavyan Universiteti, N2, 2009, s. 10-17

*Rüstəmov Y.İ.* Siyasi-hüquqi təlimlər tarixi. Dərs vəsaiti. Bakı, 2000.

Современные международные отношения / Под ред. ТоркуноваА.В. М., 2000.

*Теория международных отношений: Хрестоматия* / Под ред. и с комментариями П. А. Цыганкова. М., 2002.

*Цыганков П.А.* Теория международных отношений: Учебное пособие. М., 2006.

*Цыганков А.П., Цыганков П.А.* Социология международных отношений. Учебное пособие. М., 2006.

*Waltz K. N.* Man, the State and War. New York, 1959.

*Waltz K. N.* Theory of International Politics. New York, 1979.

# VI FƏSİL
# NEOLİBERALİZM

Beynəlxalq münasibətlərin neoliberalizm nəzəriyyəsinin meydana gəlməsi ötən əsrin 80-ci illərinə, xüsusilə "soyuq müharibə" illərinin başa çatması dövrünə təsadüf edir. I fəsildə qeyd etdiyimiz kimi, bu dövrdə BMN fənni özünün dördüncü inkişaf mərhələsinə addamışdır.

Neoliberalizmin formalaşması neorealizmin geniş yayılmasına qarşı bir növ reaksiya idi. Bu iki nəzəriyyə arasında yaranan debat beynəlxalq münasibətlərin əsas nəzəri mübahisələrindən biri kimi özünü büruzə verdi. Onların hər biri əvvəlki fəsillərdə nəzərdən keçirdiyimiz ənənəvi realizmə və liberalizmə əsaslanırdı. Lakin yeni tarixi şəraitdə neorealizm ənənəvi realizmin müəyyən müddəalarını inkişaf etdirdiyi kimi neoliberalizm də ənənəvi liberalizmin bəzi müddəalarında tarixi şəraitə uyğun müəyyən dəyişikliklər etmişdir.

## 6.1. Robert Koheyn və Cozef Nay

Neoliberalizm nəzəriyyəsinin formalaşması amerikalı politoloqlar *Robert Koheyn* və *Cozef Nay* adları ilə bağlıdır.

Robert Koheyn ABŞ-ın Dyuke, Harvard, Stenford və Prinston kimi məşhur universitetlərində beynəlxalq münasibətlərdən dərs demişdir. 2005-ci il Xarici Siyasət sorğusunun nəticələrinə görə, Koheyn beynəlxalq münasibətlərin ən nüfuzlu alimi adına layiq görülmüşdür. 2011-ci ildə isə beynəlxalq münasibətlərin tədqiqatçıları arasında keçirilən sorğunun nəticələrinə əsasən, Koheyn son 20 ildə beynəlxalq münasibətlər elmi sahəsində çalışan ən məhsuldar politoloqlar arasında 2-ci yeri tutmuşdur. Bundan başqa Açıq Sillabus Layihəsinə əsasən, Amerika universitetlərində politologiya üzrə tərtib olunan sillabuslarda ən çox onun əsərlərinə istinad edilir.

1984-cü ildə Koheynin işıq üzü görən *"Hegemonluqdan sonra: Dünya siyasi iqtisadiyyatında əməkdaşlıq və ixtilaf" (After Hegemony. Cooperation and Discord in the World Political Economy, 1984)* adlı monoqrafiyası onu elmi dairələrdə neoliberalism nəzəriyyəsinin görkəmli nümayəndəsi kimi tanıtdı. 1989-cu ildə Koheyn bu əsərə görə "Dünya nizamını təkmilləşdirən ideyalar" adlı Luisville universitetinin təsis etdiyi Qromayer mükafatını almışdır.

Bu əsərdə Koheyn neoliberalizmin əsas müddəalarını təqdim edir. O, ilk növbədə neorealizmin dövlətlər arasında əməkdaşlıq üçün əsas şərt kimi hegemon dövlətin olmasına dair fikrini təkzib edir. O, sülhün təmin olunmasında dövlətlər arasında əməkdaşlığın mühüm əhəmiyyət kəsb etdiyini qeyd edərək bu əməkdaşlığın reallaşması üçün ABŞ kimi hegemon dövlətin olmasını əsas şərt olmadığını qeyd

edir. Əksinə, onun fikrincə, əməkdaşlıq hegemon dövlətin olmadığı şəraitdə mümkündür. Çünki belə olan şəraitdə əməkdaşlıq edən dövlətlər bərabər əsaslarda əməkdaşlıq edərək bir-biri ilə sıx təmasda olmalarında maraqlıdırlar. Yəni dövlətlər arasında hegemon dövlətin olmaması onlara çoxtərəflilik əsasında əməkdaşlıq etmək üçün əlverişli imkan yaradır. Çoxtərəfli əməkdaşlıq beynəlxalq təşkilatlarda reallaşır. Koheynin əsas tezisi belə səslənir - çoxtərəfli institutlar, ilk növbədə beynəlxalq təşkilatlar dövlətlər üçün faydalıdır. Beynəlxalq həyatın institutlaşdırılması, daha dəqiq desək, beynəlxalq müqavilələrin, beynəlxalq rejimlərin və ya beynəlxalq təşkilatların inkişaf etdirilməsi dövlətlər arasında münaqişələrin qarşısının alınmasında mühüm rol oynayır.

Koheyn *"beynəlxalq rejimlər"* məfhumunu beynəlxalq münasibətlər nəzəriyyəsinin lüğətinə daxil edir. Beynəlxalq rejimlər vasitəsilə dövlətlər dünya siyasi iqtisadiyyatında əməkdaşlıq inkişaf edir. O, qeyd edir ki, beynəlxalq rejimlərin təkamülü dünyada ABŞ-ın hegemonluğunun zəifləməsi fonunda baş verir. O, beynəlxalq rejimləri öz mənafelərini güdən aktorlar arasında mərkəzləşdirilməmiş, sərbəst əməkdaşlığı asanlaşdıran vasitə kimi qiymətləndirir. Bu cür əməkdaşlıq *Avropa İttifaqı* kimi beynəlxalq təşkilatlarla yanaşı, beynəlxalq təşkilat olmayan *Tariflər və ticarət haqqında ümumi razılaşma (General Agreement on Tariffs and Trade)* kimi beynəlxalq iqtisadi razılaşmalar vasitəsilə də həyata keçir. Bu beynəlxalq təşkilatlar və beynəlxalq iqtisadi razılaşmalar anarxiya şəraitində dövlətlərin fəaliyyətlərini formalaşdırır və tənzimləyir.

Beynəlxalq münasibətlərin neoliberalizm nəzəriyyəsinin digər görkəmli nümayəndəsi *Cozef Nay* uzun müddət ərzində Harvard Universitetinin nəzdindəki Con Kennedi adına Dövlət İdarəçiliyi Məktəbinin dekanı olmuşdur. 1994- 1995-ci illərdə Bill Klintonun prezidentliyi dövründə Nay Beynəlxalq Təhlükəsizlik Məsələləri üzrə müdafiə nazirinin köməkçisi vəzifəsində çalışmışdır. Hazırda Nay Harvard Universitetinin professoru olmaqla yanaşı Amerika Diplomatiya Akademiyasının, həmçinin Xarici İşlər Siyasəti və Müdafiə Siyasəti Şuralarının üzvüdür. 2011-ci ildə ABŞ-da nəşr olunan *"Xarici Siyasət" jurnalı (Foreign Policy magazine)* Nayın adını dünyanın ən tanınmış mütəfəkkirləri siyahısına daxil etmişdir. 2014-cü ilin sentyabr ayında isə bu jurnal beynəlxalq münasibətlər üzrə alimlər və siyasətçilər tərəfindən Nayı bu sahə üzrə ən nüfuzlu alimlərdən biri olaraq göstərdiklərini bildirdi.

1977-ci ildə Cozef Nay Robert Koheynlə birlikdə *"Güc və qarşılıqlı asılıq"* adlı kitablarını dərc etdirirlər. Bu kitabda onlar ilk dəfə olaraq *asimmetrik və qarşılıqlı asılıq* terminlərini beynəlxalq münasibətlər elminin lüğətinə daxil edirlər. Qeyd olunan terminlərin neoliberalizm nəzəriyyəsinin əsas müddəalarının müəyyən edilməsində böyük əhəmiyyəti vardır.

Cozef Nay *"yumşaq güc" nəzəriyyəsinin* müəllifidir. O, bu nəzəriyyəni 80-ci illərin sonlarında irəli sürmüşdür. "Yumşaq güc" nəzəriyyəsinə əsasən, müasir dövrdə siyasət sahəsində (xüsusilə də beynəlxalq siyasət sahəsində) qoyulmuş məqsədlərə nail olmaq üçün qarşı tərəfə realistlərin dedikləri kimi güc vasitəsilə təzyiq etmək əvəzinə onu öz tərəfinə cəlb etmək, onunla əməkdaşlıq etmək daha faydalıdır. Bunun üçün dövlətlərarası münasibətlərdə gücün, xüsusilə də hərbi gücün tətbiq edilməsindən imtina edərək mədəniyyət, təhsil, ticarət kimi "yumşaq güc" resurslarından istifadə etmək lazımdır. Bu, ilk növbədə iqtisadi baxımdan əhəmiyyətlidir. "Yumşaq güc"ün tətbiqinin digər müsbət cəhəti qarşı tərəfin xoşluğu ilə, hətta onun bilavasitə iştirakı ilə, onunla əməkdaşlıq etməklə qoyulmuş məqsədlərə nail olmaqdadır.

Nay hesab edir ki, hər bir dövlətin "yumşaq güc"ü 3 resursa əsaslanır: Birincisi, onun *mədəniyyətinə*. Bir ölkənin mədəniyyətinin digər ölkələrin vətəndaşlarına cəlbedici göründükdə bu, onlarda istər-istəməz həmin ölkəyə rəğbət hissi oyadır. İkincisi, ölkənin *siyasi dəyərlərinə.* Söhbət ilk növbədə müəyyən ölkənin daxili siyasətində tətbiq olunan *demokratiya, sosial ədalət, insan hüquqlarına hörmət, qanunun aliliyi və digər siyasi dəyərlərdən* gedir. Üçüncüsü, ölkənin *xarici siyasətinə*. Burada isə müəyyən ölkənin apardığı xarici siyasətin başqaları tərəfindən *qanuni və mənəvi nüfuza* malik hesab etmələri nəzərdə tutulur.

Cozef Nay 2004-cü ildə Nyu Yorkda nəşr olunan *"Yumşaq güc: Dünya siyasətində uğur qazanmaq üçün vasitə"* adlı monoqrafiyasında "yumşaq güc"ün əhəmiyyəti haqqında aşağıdakıları yazır: "Bir ölkə dünya siyasətində istədiyi nəticələri əldə edə bilər. Çünki digər ölkələr onun dəyərlərinə heyran qalmaqla, onun getdiyi yolu təqlid etməklə, onun inkişaf səviyyəsinə can atmaqla onun ardınca getmək istəyir. Bu mənada gündəmi müəyyənləşdirmək və dünya siyasətinə başqalarını cəlb etmək lazımdır. Ölkələri yalnız hərbi güc və ya iqtisadi sanksiyalarla hədələyərək dəyişməyə məcbur etmək düzgün deyil. Bu yumşaq güc başqalarını sizin istədiyiniz nəticələri arzulamalarına səbəb olmaqla onları məcbur etmək əvəzinə sizə qoşulmağa yönəldir."

Nay "sərt güc" və "yumşaq güc" arasında müqayisə apararaq *"ağıllı güc"* terminini ilk dəfə olaraq beynəlxalq münasibətlər nəzəriyyəsi elminə daxil etmişdir. Naya görə, "ağıllı güc" dedikdə səmərəli strategiyada sərt və yumşaq gücləri birləşdirmək qabiliyyəti nəzərdə tutulur. Klinton administrasiyasının, sonralar isə Obama administrasiyasının üzvləri tərəfindən "ağıllı güc" termininin geniş istifadə edilməsi bu termini populyarlaşdırdı.

### 6.2. Neoliberalizmin əsas müddəaları

Beynəlxalq münasibətlərin neoliberalizm nəzəriyyəsi dövlətləri beynəlxalq münasibətlər sisteminin əsas aktorları kimi qələmə verir. Lakin realistlərdən fərqli olaraq bu nəzəriyyənin nümayəndələri dövlətləri beynəlxalq münasibətlər sisteminin yeganə aktorları hesab etmirlər. Dövlətlərlə yanaşı bu sistemdə transmilli şirkətlər, müxtəlif beynəlxalq təşkilatlar da fəaliyyət göstərir və hətta onun inkişaf istiqamətinin müəyyən edilməsində mühüm rol oynayır. Bundan başqa neoliberalizmə əsasən, müasir dövrdə beynəlxalq münasibətlər sistemində transmilli şirkətlərin və beynəlxalq təşkilatların rolunun artması müşahidə olunur. Təbii ki, beynəlxalq münasibətlər sistemində fəaliyyət göstərən aktorların sayının artmasının bəzi mənfi nəticələri də vardır. Söhbət ilk növbədə insanların əmin-amanlıq şəraitində yaşamalarına təhdid edən aktorların sayının və müxtəlifliyinin artmasından gedir. Bu çətin vəziyyətdən ən optimal çıxış yolu kimi neoliberalizm nəzəriyyəsi *kollektiv təhlükəsizlik konsepsiyasını* təklif edir.

Kollektiv təhlükəsizlik konsepsiyasının mahiyyəti beynəlxalq təhlükəsizliyin təmin olunmasının yollarının müəyyən edilməsindədir. Göründüyü kimi, neoliberalizm nəzəriyyəsinin əsasını beynəlxalq təhlükəsizliyin təmin olunması və müharibədən beynəlxalq siyasətin aləti kimi imtina məsələləri təşkil edir. Neoliberalizm beynəlxalq münasibətlərin aktorlarının əsas məqsədini beynəlxalq təhlükəsizliyin təmin edilməsində görür. Bununla o, bu məqsədi universal ideallarin və liberal demokratiya dəyərlərinin bütün dünyada yayılmasında görən klassik liberalizmdən fərqlənir.

Neoliberalistlər beynəlxalq təhlükəsizliyin əldə olunmasının əsas şərti kimi beynəlxalq əməkdaşlığın əldə olunmasını göstərirlər. Beynəlxalq əməkdaşlıq həmçinin ölkələrin sosial-iqtisadi inkişafına səbəb olur. Liberal demokratiya dəyərlərinin geniş yayılması, bazar münasibətlərinin inkişafı beynəlxalq əməkdaşlığın dərinləşməsi üçün əlverişli şərait yaradır.

Bəzi obyektiv və subyektiv səbəblərdən beynəlxalq hüquq işləmədikdə, beynəlxalq təşkilatların fəaliyyətləri isə səmərəsiz olduqda, neoliberalistlər ümidlərini *beynəlxalq mənəviyyatın* yayılmasına yönəldirlər. Beynəlxalq mənəviyyatın yayılmasının əsas meyarları kimi insan haqları, demokratiya və qanunun aliliyi göstərilir.

Müəyyən məsələlərə münasibətdə neoliberalizm ilə neorealizmin mövqelərində oxşarlıq özünü büruzə verir. Məsələn, bu nəzəriyyələrin hər ikisinə əsasən, beynəlxalq münasibətlərin əsasında *milli maraq* durur. Hər bir dövlət beynəlxalq münasibətlər sistemində öz milli marağına uyğun fəaliyyət göstərir. Bundan başqa neoliberalizm və neorealizm dövləti əsas aktor hesab etməklə yanaşı onu *rasional aktor* kimi də təqdim edirlər. Dövlətin rasional aktor kimi çıxış etməsi o deməkdir ki, beynəlxalq münasibətlər sistemində hər bir addım atmazdan əvvəl

dövlət bu addımın müsbət və mənfi nəticələrini müəyyən edib onları tutuşdurur. Sonra isə rasional seçim edir.

Lakin yuxarıda qeyd etdiyimiz kimi, neoliberalizmin formalaşması neorealizmin geniş yayılmasına bir növ reaksiya idi. Buna görə də bu iki nəzəriyyə arasında ciddi *fərqli cəhətlər* vardır.

Neoliberalizmə əsasən, dövlətlər rasional seçimlərində üstünlüyü *nisbi qazanca* yox, *mütləq qazanca* verirlər. Neoliberalistlər hesab edirlər ki, beynəlxalq əməkdaşlıqdan əldə olunan fayda mütləq xarakter daşıyır. Bu o deməkdir ki, dövlətlər bir-biri ilə əməkdaşlıqdan fayda gördükdə, daim bu əməkdaşlığa can atmalıdırlar.

Dövlətlərin rasional fəaliyyət göstərmələrində, rasional seçim etmələrində beynəlxalq təşkilatlar əhəmiyyətli rol oynayır. Beynəlxalq təşkilatlar dövlətlərə əməkdaşlıq üçün şərait yaratmaqla onlara bu əməkdaşlığın nəticələri haqqında məlumat verirlər. Bu isə öz növbəsində dövlətlərə rasional seçim imkanı yaradır. Məsələn, illik iqtisadi inkişaf artımı 1 faiz təşkil edən dövlət görsə ki, müəyyən bir beynəlxalq iqtisadi təşkilata üzv olduqda onun illik iqtisadi inkişaf artımı 5 faiz təşkil edəcək, o, bu təşkilata daxil olacaqdır. Seçim edən dövləti onunla əməkdaşlıq edən dövlətin qazancı maraqlandırmır, çünki o, seçimində üstünlüyü mütləq qazanca verir.

Beynəlxalq münasibətlər sistemində fəaliyyət göstərən dövlətlərin əldə etdikləri qazanca yanaşmaları baxımından neoliberalizm və neorealizm nəzəriyyələri bir-birindən əsaslı şəkildə fərqlənirlər. Yuxarıdakı misalda biz göstərdik ki, neoliberalizmə əsasən, dövlətlər seçimlərində üstünlüyü mütləq qazanca verirlər. Yəni əgər bir dövlətin beynəlxalq təşkilat çərçivəsində digər dövlətlərlə əməkdaşlığı onun iqtisadi inkişafına səbəb olursa, o, təşkilatdakı fəaliyyətini davam etdirir. Neorealizm nəzəriyyəsində isə üstünlük *nisbi qazanca* verilir. Bu o deməkdir ki, bir dövlət görsə ki, beynəlxalq təşkilat çərçivəsində onunla əməkdaşlıq edən dövlət ondan çox qazanır, o, bu əməkdaşlıqdan imtina edəcəkdir. Dediklərimizi yuxarıdakı misala yenidən müraciət etməklə göstərək. Neorealizm nəzəriyyəsinə əsasən, beynəlxalq təşkilat çərçivəsində əməkdaşlıq nəticəsində illik iqtisadi inkişaf artımı 1 faizdən 5 faizə artan *A* dövləti görsə ki, onunla əməkdaşlıq edən *B* dövlətinin illik iqtisadi inkişaf artımı 1 faizdən 8 faizə qalxacaq, o, bu əməkdaşlıqdan imtina edəcəkdir. Çünki, neorealistlərə görə, *A* dövləti ilə əməkdaşlıq edən *B* dövlətinin bu əməkdaşlıqdan əldə etdiyi daha yüksək illik iqtisadi inkişaf artımı tədricən gələcəkdə *A* dövlətinin *B* dövlətindən geridə qalması ilə nəticələnəcəkdir. Bu isə dövlətin milli maraqlarına, təhlükəsizliyinə təhdiddir. Məhz geridə qalmaq qorxusu *A* dövlətini beynəlxalq təşkilat çərçivəsində *B* dövləti ilə əməkdaşlıqdan çəkindirir.

Neoliberalizm nəzəriyyəsinin üstünlüyü mütləq qazanca, neorealizm nəzəriyyəsinin üstünlüyü nisbi qazanca vermələri bu nəzəriyyələrin əsas müddəalarından, daha dəqiq desək, onların beynəlxalq təşkilatlar çərçivəsində dövlətlər arasında reallaşan əməkdaşlığa münasibətlərindən irəli gəlir.

Bu nəzəriyyələrin hər biri beynəlxalq münasibətlər sistemini xarakterinə görə *anarxik* hesab edirlər. Onlar dövlətləri beynəlxalq anarxiya şəraitində fəaliyyət göstərdiklərini qeyd edirlər. Lakin neorealizm nəzəriyyəsindən fərqli olaraq neoliberalizm nəzəriyyəsi bu anarxik sistemdə beynəlxalq təşkilatlar çərçivəsində dövlətlər arasında reallaşan əməkdaşlığa yüksək önəm verir. Onu vacib, hətta zəruri hesab edir. Neoliberalistlərə görə, sözügedən əməkdaşlıq vasitəsilə beynəlxalq münasibətlər sisteminin anarxik xarakterinin qarşısını almaq mümkündür. Bundan başqa bu əməkdaşlıq ən azı dövlətləri müharibədən çəkinməyə yönəldir. Buna görə də neoliberalizm beynəlxalq təşkilatlar çərçivəsində dövlətlər arasında reallaşan əməkdaşlığı yüksək qiymətləndirir və neorealizmdən fərqli olaraq mütləq qazancla kifayətlənir.

Neoliberalizm nəzəriyyəsi beynəlxalq münasibətlər sistemində dövlətlər, transmilli şirkətlər və beynəlxalq təşkilatlar arasında *qarşılıqlı asılılığın* artmasını göstərməklə klassik realizm nəzəriyyəsinin əsas müddəalarını təkzib edir. Bu nəzəriyyənin nümayəndələri realistlərdən fərqli olaraq beynəlxalq münasibətləri *"toqquşan bilyard toplarının"* sistemi kimi deyil, beynəlxalq münasibətlər sistemində fəaliyyət göstərən aktorları bir-birinə bağlayan *"siyasi, iqtisadi və sosial münasibətlərin toru*" kimi təqdim edirlər. Onların əsərlərində dövlətlər beynəlxalq münasibətlər sisteminin əsas aktorları kimi təqdim olunsalar da, bütün aktorların bir-birindən qarşılıqlı asılılığı realizmin hərbi gücün dövlətlərarası münasibətlərdə həlledici rol oynamasına dair fundamental ideyasını kölgədə qoyur.

## 6.3. Neoliberalizm nəzəriyyəsinin dəyərləndirilməsi

Beləliklə, ötən əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəlində "soyuq müharibə" illərinin başa çatması dövründə meydana gələn beynəlxalq münasibətlərin neoliberalizm nəzəriyyəsi həmin dövr üçün beynəlxalq münasibətlər sahəsində aktual məsələlərin həllinə dair bir sıra yeni fikirlər, paradiqmalar irəli sürdü. Yeni tarixi şəraitdə neoliberalizm, bir tərəfdən liberalizmin yeni tarixi şəraitə uyğun gəlməyən nəzəri müddəalarını inkişaf etdirirdi, digər tərəfdən isə o, realizmə əsaslanan neorealizmin ideyalarının yayılmasına qarşı çıxırdı.

Beynəlxalq münasibətlər sahəsində baş verən hadisələrin təhlilinə dair neoliberalizm və neorealizm nəzəriyyələri arasındakı qarşıdurma özünü açıq şəkildə göstərsə də, bu qarşıdurma beynəlxalq münasibətlər nəzəriyyəsi fənninin inkişafının əsasən daha erkən mərhələlərində müşahidə olunan liberalizm və realizm arasındakı

qarşıdurmadan əhəmiyyətli dərəcədə fərqlənirdi. Belə ki, neoliberalizm və neorealizm arasında liberalizm və realizm arasında olduğu kimi ciddi qarşıdurma yox idi. Hətta neoliberalizmin nümayəndələri neorealizm nəzəriyyəsinin bir sıra ümumi xarakter daşıyan müddəaları ilə razılaşaraq onları qəbul edirdilər. Məsələn, Robert Koheyn anarxik beynəlxalq mühitdə əməkdaşlıq üçün mövcud olan imkanların genişliyini sadəcə olaraq müxtəlif səbəblərlə əlaqələndirərək neorealizm nəzəriyyəsinin ümumi müddəaları ilə razılaşırdı. Koheyn neoliberalistlər və neorealistlər arasında gedən mübahisəni belə izah edirdi: "Neoliberalistlər üçün problem əməkdaşlığı qorumaqdır, neorealistlər üçün isə problem ilk növbədə əməkdaşlığı əldə etməkdir".

Neoliberalizm və neorealizm nəzəriyyələri arasında olan bu oxşar cəhətlərin olmasına baxmayaraq bu nəzəriyyələr bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Neoliberalizm neorealizmdən fərqli olaraq dövlətlərarası münasibətlərdə, xüsusilə dövlətlər arasında əməkdaşlığın inkişaf etdirilməsində, sülhün qorunmasında beynəlxalq təşkilatların rolunu yüksək qiymətləndirir. Bu nəzəriyyəyə əsasən, beynəlxalq təşkilatlar ona üzv olan dövlətlərin daxili və xarici siyasətlərinin istiqamətinə əhəmiyyətli dərəcədə təsir göstərirlər. Dövlətlər arasında iqtisadi, ticarət, təhsil, elm, mədəniyyət və digər sahələri əhatə edən əməkdaşlığı inkişaf etdirməklə beynəlxalq təşkilatlar beynəlxalq münasibətlər sisteminin anarxik xarakterinin qarşısını alırlar. Bununla onlar sülhün və beynəlxalq təhlükəsizliyin bərqərar olunması ilə xarakterizə olunan yeni dünya düzəninin formalaşmasında mühüm rol oynayırlar.

### *Fəslə aid suallar*

1. Beynəlxalq münasibətlərin neoliberalizm nəzəriyyəsinin görkəmli nümayəndələri kimlərdir?
2. Beynəlxalq münasibətlərin neoliberalizm nəzəriyyəsi mahiyyətinə görə nikbin, yoxsa bədbin xarakter daşıyır? Niyə?
3. Niyə Robert Koheyn dövlətlər arasında əməkdaşlıq üçün hegemon dövlətin olmasını vacib hesab etmir?
4. Robert Koheynə görə, dövlətlər arasında əməkdaşlığın həyata keçirilməsində beynəlxalq təşkilatların rolu nədən ibarətdir?
5. Robert Koheyn görə, "beynəlxalq rejimlər" məfhumunu nədir?
6. Cozef Nayın irəli sürdüyü "yumşaq güc" nəzəriyyəsinin əsas müddəaları nədir?
7. Cozef Naya görə, dövlətin "yumşaq güc"ü hansı resurslara əsaslanır?

8. Cozef Naya görə, dövlətin "yumşaq güc"ünün onun mədəniyyətinə əsaslanmasının əhəmiyyəti nədən ibarətdir?
9. Cozef Nay dövlətin "yumşaq güc"ünün onun siyasi dəyərlərinə əsaslanması dedikdə nəyi nəzərdə tutur?
10. Cozef Nay dövlətin "yumşaq güc"ünün onun xarici siyasətinə əsaslanması dedikdə nəyi nəzərdə tutur?
11. Cozef Naya görə, "ağıllı güc" nədir?
12. Dövlətlərin beynəlxalq münasibətlər sisteminin əsas aktorları kimi qələmə verilməsində beynəlxalq münasibətlərin neoliberalizm və neorealizm nəzəriyyələri arasında əsas fərq nədən ibarətdir?
13. Neoliberalizm nəzəriyyəsinə əsasən, kollektiv təhlükəsizlik konsepsiyasının mahiyyəti nədən ibarətdir?
14. Neoliberalizm nəzəriyyəsinə əsasən, beynəlxalq münasibətlərin aktorlarının əsas məqsədi nədən ibarətdir?
15. Neoliberalizm nəzəriyyəsinə əsasən, müharibələrin qarşısını almaq olar, yoxsa yox? Niyə?
16. Neoliberalizm nəzəriyyəsi ilə klassik liberalizm nəzəriyyəsi arasında əsas fərq nədən ibarətdir?
17. Neoliberalizm nəzəriyyəsinə əsasən, beynəlxalq əməkdaşlığın əhəmiyyəti nədən ibarətdir? Ona necə nail olmaq olar?
18. Neoliberalizm nəzəriyyəsinə əsasən, beynəlxalq mənəviyyat nədir və ondan hansı hallarda istifadə olunur?
19. Neoliberalizm və neorealizm nəzəriyyələri arasında oxşar cəhətlər nədən ibarətdir?
20. Neoliberalizm və neorealizm nəzəriyyələri arasında fərqli cəhətlər nədən ibarətdir?
21. Neoliberalizm və neorealizm nəzəriyyələrinə əsasən, dövlətin rasional aktor kimi çıxış etməsi nə deməkdir?
22. Neoliberalizm nəzəriyyəsinə əsasən, dövlətlər rasional seçimlərində üstünlüyü nisbi qazanca yox, mütləq qazanca verirlər? Niyə?
23. Neorealizm nəzəriyyəsinə əsasən, dövlətlər rasional seçimlərində üstünlüyü nisbi qazanca yox, mütləq qazanca verirlər? Niyə?
24. Niyə neoliberalizm nəzəriyyəsi dövlətlərin rasional seçimlərində üstünlüyü nisbi qazanca, neorealizm nəzəriyyəsi isə mütləq qazanca verir?

## Ədəbiyyat

*Baldwin D.A. (ed.).* Neorealism and Neoliberalism: The Contemporary Debate. N.Y., 1996.

*Богомолов О.Т.* О неолиберализме / Международная жизнь. 1999. №2
*Burchill, S. and Linklater A.* Theories of International Relations. N.Y.: St. Martin Press., 1996.
*De Mesquita B.B.* An Institutional Explanation of the Democratic Peace. //American Political Science Review, vol.93, no 4; 1999.
*Doyle M.* Liberalism and World Politics. // Essential Readings in World politics (eds. Karen Mingst and Jack Snyder), New York, 2001.
*Dupont A.* Is there an Asian way? //Survivals. The IISS quarterly, vol. 38, #2, 1996.
*Fukuyama F.* The End of History?// The National Interest. 1989. N16.
*Gilpin R.* The Political Economy of International Relations. Princeton, 1987.
*Jervis R.* Realism, Neoliberalism, Cooperation. //International Security vol 19 no.1 (Summer 1999).
*Grieco J.* Anarchy and the Limits of Cooperation: A Realist Critique of the Newest Liberal Institutionalism // International Organization. 1988. Vol. 42. No 2.
*Nəcəfov E.Ə.* Liberalizmin iqtisadi nəzəriyyəsinin tənqidi. "XXI əsr: Qlobal Problemlər və Beynəlxalq Əməkdaşlıq" mövzusunda Elmi- Praktik Konfransın Materialları, Bakı Dövlət Universiteti, 2008, s.22-29
*Nəcəfov E.Ə.* Liberalizm və realizmin nəzəri və metodoloji əsaslarının müqayisəli təhlili. Elmi Əsərlər. İctimai- siyasi elmlər seriyası, Bakı Slavyan Universiteti, N1-2, 2007, c. 36-44
*Nye J.* Soft Power: The Means to Success in World Politics. New York: Public Affairs, 2004
*Rüstəmov Y.İ.* Siyasi-hüquqi təlimlər tarixi. Dərs vəsaiti. Bakı, 2000.
Современные международные отношения / Под ред. ТоркуноваА.В. М., 2000.
*Теория международных отношений: Хрестоматия* / Под ред. и с комментариями П. А. Цыганкова. М., 2002.
*Фукуяма Ф.* Конец истории? // Вопросы философии. 1990. №3.
*Цыганков П.А.* Теория международных отношений: Учебное пособие. М., 2006.
*Цыганков А.П., Цыганков П.А.* Социология международных отношений. Учебное пособие. М., 2006.

# VII FƏSİL
# "İNGİLİS MƏKTƏBİ" NƏZƏRİYYƏSİ

## 7.1. "İngilis Məktəbi" nəzəriyyəsinin ümumi xarakteristikası

*Suverenlik, anarxiya və təhlükəsizlik dilemması terminləri* realizm nəzəriyyəsinin leksikonunda mühüm yer tutduğu halda, *sosial tərəqqi və mənəviyyat ideyaları* realistlərin çoxunun beynəlxalq münasibətlər nəzəriyyəsində yoxdur. Realistlər *etik prinsiplərin, sosial tərəqqi və mənəviyyat ideyalarının* yalnız ölkənin *daxilində* reallaşdırılmasını mümkün hesab edirlər, çünki bu prinsip və ideyaların həyata keçirilməsi dövlət tərəfindən təmin edilir. Beynəlxalq münasibətlər sistemində isə dövlətlər ilk növbədə öz təhlükəsizlikləri haqqında düşündüklərinə, digər dövlətlərin əksəriyyətinə inanmadıqlarına və burada dövlətlərin fəaliyyətlərinə nəzarət edə biləcək ali hakimiyyətin olmadığına görə bu prinsip və ideyaların reallaşdırılması istiqamətində fəaliyyət göstərməyi realistlər əhəmiyyətsiz hesab edirlər. Onların fikrincə, dövlətlərarası münasibətlər sistemində universal etik prinsiplər dövlətlərin milli maraqlarını əsaslandırmaq və rəqib ölkəni tənqid etmək məqsədinə xidmət edir.

Daxili və beynəlxalq siyasət arasında əlaqəninin inkar olunmasına realizm, xüsusilə də neorealizm nəzəriyyələrində rast gəlmək olar. Bu nəzəriyyələrin nümayəndələri hesab edirlər ki, ölkənin daxilindəki vəziyyət beynəlxalq vəziyyətlə bir-birindən əsaslı şəkildə fərqləndiyinə görə, daxili və beynəlxalq siyasətin məzmunu oxşar olmur. Artıq qeyd etdiyimiz kimi, liberalizm nəzəriyyəsinin nümayəndələri isə daxili və beynəlxalq siyasət arasında sıx əlaqənin olduğunu göstərirlər. Onlar daxili və beynəlxalq siyasət arasındakı fərqin azalmasını nəinki mümkün, hətta zəruri hesab edirlər. Onlar dövlətlərarası münasibətlərdə universal etik prinsiplərin rolunu yüksək qiymətləndirirlər. Bu prinsiplər dövlətlərarası münasibətlərin tənzimlənməsində, ilk növbədə burada münaqişələrin, müharibələrin qarşısının alınmasında əvəzsiz rol oynayır. Liberallar hesab edirlər ki, realistlər dünyada sülhün bərqərar olunmasına inanmırlar. Realizm nəzəriyyəsinin nümayəndələri isə liberalizmi qanunun aliliyi, açıq diplomatiya və kollektiv təhlükəsizliyə əsaslanan yeni dünya nizamının gələcəyi haqqında sadəlövh, optimist və zərərli ideyaları irəli sürməkdə günahlandırırlar. Realistlərin qənaətinə görə, liberalların kosmopolit fikirləri milli təhlükəsizliyin təmin olunması məsələsini diqqətdən kənarda qoyur. Dünya müharibələri arasındakı illərin təcrübəsi realizmin fikirlərinin doğru olmasını göstərdi.

Realizm və liberalizm nəzəriyyələri arasındakı bu fikir ayrılığı, mübarizə beynəlxalq münasibətlərə dair fikir tarixində mühüm yer tutur və realistlərlə liberallar arasındakı Birinci Böyük debatın əsasını təşkil edir. Beynəlxalq

münasibətlərin bir çox nəzəri məsələlərinə dair bir-birinə zidd mövqedən çıxış edən bu iki nəzəriyyənin mübahisəsi *"İngilis Məktəbi" nəzəriyyəsinin (rasionalizm nəzəriyyəsi)* meydana gəlməsində mühüm rol oynamışdır.

*Beynəlxalq münasibətlərin "İngilis Məktəbi" nəzəriyyəsi* bir termin kimi ədəbiyyata ötən əsrin 70-ci illərində daxil edilmişdir. Bu nəzəriyyənin adı onun Böyük Britaniyada meydana gəlməsi və əsasən ingilis müəllifləri tərəfindən inkişaf etdirilməsi ilə bağlıdır. Ədəbiyyatda "İngilis Məktəbi" nəzəriyyəsinə *rasionalizm nəzəriyyəsi* də deyilir. Bu nəzəriyyənin əsasını holland hüquqşünası Huqo Qrosi qoymuşdur.

"İngilis Məktəbi" nəzəriyyəsinin görkəmli nümayəndələrindən *Hedli Bullu, Martin Vaytı, Con Vinsenti və Adam Vatsonu* qeyd etmək olar. Onlardan Hedli Bull və Martin Vayt bu nəzəriyyənin formalaşmasında böyük rol oynamışdılar. Bu nəzəriyyənin indiki nümayəndələri arasında *Robert Ceksonu, Tim Danneni, Nikolas Vhileri, Riçard Littli və Barri Byuzanı* göstərmək olar. 1990-cı illərin sonlarından başlayaraq Barri Byuzan, Riçard Littl və digər politoloqların səyləri nəticəsində bu nəzəriyyənin inkişafında bir dirçəlmə müşahidə olunur. Baxmayaraq ki, "İngilis Məktəbi" nəzəriyyəsi əsasən Britaniyada geniş yayılmışdır, o, hazırda beynəlxalq siyasətin tədqiq olunmasına münasibətdə ən mühüm yanaşmalardan biri hesab olunur.

"İngilis Məktəbi" nəzəriyyəsi BMN-də realizm və liberalizm nəzəriyyələri arasında yerləşən müstəqil bir fikir cərəyanı kimi həm realizmin, həm də liberalizmin müəyyən əlamətlərini ehtiva edir. Düzdür, bu nəzəriyyənin bəzi nümayəndələrinin fikirlərində realizmin heç bir əlaməti yoxdur. Məsələn, Martin Vayt *"Beynəlxalq nəzəriyyə niyə yoxdur?"* adlı əsərində qeyd edir ki, daxili siyasət firavan həyatın, beynəlxalq siyasət isə təhlükəsizliyin təmin edilməsinə yönəlmişdir. Yəni burada Vayt realizmdən fərqli olaraq, beynəlxalq sistemi anarxiya kimi təsvir etmir. Lakin başqa bir yerdə o, realist ruhda qeyd edir: "Beynəlxalq münasibətlər tərəqqi nəzəriyyəsi ilə uzlaşmır". Göründüyü kimi, "İngilis Məktəbi" nəzəriyyəsinin realizmə və liberalizmə həm zidd, həm də uyğun gələn müddəaları vardır.

Realizm kimi "İngilis Məktəbi" nəzəriyyəsi də müasir beynəlxalq münasibətlər sisteminin anarxiya vəziyyətində olduğunu, zorakılığın "anarxiyalı cəmiyyətin", o cümlədən dövlətlərarası münasibətlərin fərqləndirici xüsusiyyəti olduğunu qeyd edir. Bu müddəalara görə onu *"realizmin ingilis variantı"* kimi təqdim edirlər. Lakin realizm nəzəriyyəsindən fərqli olaraq, "İngilis Məktəbi" nəzəriyyəsinə əsasən, insan cəmiyyətinə məxsusluq hissi dövlətə və beynəlxalq münasibətlərə öz sivilizasiya möhürünü vurmuşdur, yəni insanlar öz şüurlu fəaliyyətlərinin hesabına beynəlxalq münasibətlər sisteminin anarxiya vəziyyətinə və bu vəziyyətin səbəb olduğu münaqişələrə, müharibələrə aparan dağıdıcı, kor-təbii qüvvələrin təsirinə məruz

qalmırlar. Beynəlxalq hüquq və mənəviyyat əhəmiyyətli dərəcədə zorakılığın qarşısını alır.

"İngilis Məktəbi" nəzəriyyəsinin nümayəndələri liberallar kimi beynəlxalq münasibətlər sisteminin *azadlıq və bərabərlik prinsiplərini* özündə ehtiva etdiyinə inanırlar. Bundan başqa onlar beynəlxalq münasibətlər sisteminin anarxiya vəziyyətində olduğunu etiraf etsələr də realistlərdən və neorealistlərdən fərqli olaraq onun daha *sivil and nizamlı* olduğunu qeyd edirlər. Lakin bununla belə qeyd olunan nəzəriyyənin əksər nümayəndələri liberalların daimi *sülh ideyasını* qəbul etmir. Onlar bu ideyanı *utopiya* adlandırırlar. Bundan başqa onlar liberalların demokratiyanın bütün dünyada zəfər çalacağına dair fikirlərini sadəlövh hesab edərək tənqid edirlər. Rasionalistlər müasir beynəlxalq münasibətlər sistemində zorakılığın hələ də mövcud olduğunu göstərirlər.

Martin Vayt 1950-ci illərdə London İqtisad Məktəbində oxuduğu mühazirələrinin birində rasionalizmi belə təsəvvür edirdi: "Rasionalizm nəzəriyyəsi realizm və liberalizm nəzəriyyələrinin arasında yer tutur. Rasionalizmə əsasən, anarxiya dövlətləri öz təhlükəsizlikləri barədə düşünməyə vadar edir. Universal mənəviyyat suveren dövlətin eqoizminin qarşısını alır. Hətta anarxiya şəraitində beynəlxalq nizamın yüksək səviyyəsi mövcuddur".

"İngilis Məktəbi" nəzəriyyəsinin realizm və liberalizm arasında tutduğu mövqe belə bir mühüm sualı ortaya qoyur: bu nəzəriyyədə qayda-qanun və dəyişiklik bir-biri ilə necə uzlaşır? Bu sualla əlaqədar iki əsas məqamı qeyd etmək lazımdır:

1. Anarxiya şəraitində dövlətlərin gücə, hakimiyyətə can atmalarına nəzarət etmək bacarıqlarını göstərməklə rasionalizm realizmdən uzaqlaşır (realizmə görə, dövlətlər daim güclərini artırırlar. Bu, onların mühüm funksiyasıdır). Dövlətlərin bir-biri ilə razılığa gələrək birgə yaşamaları məsələsi rasionalizmi realizmdən daha çox maraqlandırır. Realistlər diqqətlərini beynəlxalq sistemin mahiyyətinə yönəldirlər və hesab edirlər ki, rasionalistlər beynəlxalq cəmiyyətin vacibliyini şişirdirlər. *Beynəlxalq sistemdən* (dövlətlərin bir-birinə təsir etdikləri və bir-birinin iqtisadi və hərbi imkanlarını və siyasi məqsədlərini nəzərə aldıqları məkan) *beynəlxalq cəmiyyətə* (dövlətlərin ümumi məqsədləri olduğu və ümumi institutlara etibar etdikləri məkan) keçmək rasionalizm üçün çox vacibdir;

2. "İngilis Məktəbi" nəzəriyyəsi hesab edir ki, beynəlxalq nizam göydən düşməyibdir, yəni öz-özünə yaranmayıbdır. O, çox möhkəm olmayan nailiyyətdir və təcavüzkar qüvvə onu dağıda bilər. Rasionalizm belə bir sualı ortaya qoyur: beynəlxalq nizam necə dəyişməlidir ki, o, mənəviyyat və ədalətin tələblərinə cavab versin? Bu sualla cavab olaraq Martin Vayt qeyd edir ki, bütün zamanlar üçün əsas siyasi məsələ qanun və ya təhlükəsizliyin təmin edilməsi olmuşdur, çünki bunlar ədalət və inkişaf üçün şərait yaradır. Hesab olunur ki, 1980-ci və 1990-cı illərdə "İngilis Məktəbi" nəzəriyyəsi kimi beynəlxalq münasibətlərdə ədalətin müdafiəçisi

kimi çıxış etməyə başladı (əvvəllər o, daha çox beynəlxalq nizamın bərqərar olmasını vurğulayırdı).

"İngilis Məktəbi" nəzəriyyəsinə əsasən, bir-biri ilə hərtərəfli münasibətlərin inkişafında maraqlı olan müstəqil dövlətlərin birliyi olan beynəlxalq cəmiyyət nizamın yüksək səviyyədə və dövlətlər arasında zorakılığın isə aşağı səviyyədə olmasını təmin etməklə müharibələrin qarşısının alınması üçün əlverişli şərait yaradır. Buna görə "İngilis Məktəbi" nəzəriyyəsi öz mahiyyətinə görə nikbin xarakter daşıyır.

## 7.2. "İngilis Məktəbi" nəzəriyyəsində beynəlxalq cəmiyyət anlayışı. Nizam və ədalətin münasibəti

"İngilis Məktəbi" nəzəriyyəsi *beynəlxalq cəmiyyət* anlayışını BMN-nin əsas tədqiqat obyekti kimi təqdim edir. Bu nəzəriyyənin təməl ideyasını belə ifadə etmək olar: suveren dövlətlər birgə səyləri ilə xarakterinə görə anarxik də olsa beynəlxalq cəmiyyət yaratmağa nail olmuşlar. Bərabər hüquqa malik olan dövlətlərdən ibarət olan beynəlxalq cəmiyyətin yaradılması faktını "İngilis Məktəbi" nəzəriyyəsi müasir beynəlxalq münasibətlərin ən mühüm cəhətlətindən biri kimi qələmə verir. Bu nəzəriyyəyə əsasən, beynəlxalq cəmiyyət nizamın yüksək səviyyədə və dövlətlər arasında zorakılığın isə aşağı səviyyədə olması ilə xarakterizə olunur.

"İngilis Məktəbi" nəzəriyyəsinin görkəmli nümayəndələri Martin Vayt və Hedli Bull öz tədqiqatlarında beynəlxalq cəmiyyət anlayışının tədqiq olunmasına xüsusi fikir verərək bu anlayışı bir-biri ilə hərtərəfli münasibətlərin inkişafında maraqlı olan müstəqil dövlətlərin birliyi kimi xarakterizə edirlər. Onlar bu nəzəriyyənin realizm və liberalizm nəzəriyyəsinə münasibətdə oxşar və fərqli nəzəri müddəalarını müəyyən edirlər. Beynəlxalq cəmiyyət konsepsiyasının tərəfdarları realizmin "dövlətlər - beynəlxalq münasibətlərin əsas aktorudur", "xarici siyasətin əsasını milli maraq təşkil edir" kimi əsas müddəalarını qəbul etsələr də, liberalizmin ruhunda dövlətlərarası münasibətlərin tənzimlənməsində və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsində hüquqi və etik normaların, ümumi marağın rolunu yüksək qiymətləndirirlər.

Hedli Bull *"Anarxiyalı cəmiyyət" ("The Anarchical Society")* adlı əsərində realistlər və liberallar kimi dövlətlərin anarxiyalı şəraitdə, yəni onların beynəlxalq səviyyədə fəaliyyətlərini tənzimləyə bilən ali hakimiyyətin olmadığı şəraitdə olduqlarını qeyd edir. Qeyd etdiyimiz kimi, realizm və neorealizm nəzəriyyələri bu cür anarxiyalı beynəlxalq mühitdə dövlətlərarası münaqişələrin qacınılmaz olduğunu göstərirlər. Lakin realizm və neorealizm nəzəriyyələri münaqişələrin səbəblərini müxtəlif amillərlə bağlayır: realizm nəzəriyyəsi daim öz gücünü artırmağa can atan dövlətlərin üzləşdikləri və həlli yolu olmayan təhlükəsizlik

dilemması ilə, neorealizm nəzəriyyəsi isə beynəlxalq sistemin anarxik xarakteri ilə. Liberalizm və neoliberalizm nəzəriyyələri beynəlxalq münasibətlər sisteminin anarxiyalı olduğunu qeyd etsələr də onlar realizm və neorealizm nəzəriyyələrindən fərqli olaraq dövlətlərarası münaqişələrin qarşısının alınmasını mümkün hesab edirlər. Bunun üçün klassik liberallar dünyada demokratik dəyərlərin yayılmasını, İkinci Dünya müharibəsindən sonrakı liberallar isə beynəlxalq təşkilatlar rolunun artırılmasını təklif edirdilər. “İngilis Məktəbi” nəzəriyyəsinin görkəmli nümayəndəsi olan Hedli Bull qeyd olunan məsələyə dair əsərində realizm və liberalizm yanaşmalarını birləşdirən bir mövqe irəli sürür. Bu mövqe realizm nəzəriyyəsinin 2 mühüm müddəasını ehtiva edir:

1. Suveren dövlətlər beynəlxalq münasibətlər sisteminin əsas aktorlarıdır;
2. Bu dövlətlər anarxiyalı mühitdə fəaliyyət göstərir.

Bullun təqdim etdiyi mövqedə liberalizm yanaşmasının əlaməti isə beynəlxalq təşkilatlar çərçivəsində dövlətlərin ümumi maraqlar və ümumi dəyərlər ətrafında birləşmələri ideyasında əks olunmuşdur. Lakin Bull liberalizm-neoliberalizm nəzəriyyələrindən fərqli olaraq beynəlxalq münasibətlər sistemini beynəlxalq cəmiyyət kimi təqdim edir. Onun fikrincə, müasir dövlətlər beynəlxalq sistemlə yanaşı beynəlxalq cəmiyyət yaradırlar. Bu beynəlxalq cəmiyyət dövlətlərin qəbul etdikləri ümumi ideyalar, dəyərlər, identikliklər və normalar vasitəsilə formalaşır.

“İngilis Məktəbi” nəzəriyyəsində *beynəlxalq sistem və beynəlxalq cəmiyyət* arasında münasibətin təhlilinə xüsusi fikir verilir. Bullun fikrincə, *beynəlxalq sistem* iki və ya daha çox dövlətin bir-biri ilə əlaqələri və bir-birinə təsir etməyə imkanları olanda yaranır. Dövlətlər müharibə, diplomatiya, ticarət, miqrasiya prosesləri vasitəsilə bir-birinə təsir göstərir. Bu və ya digər vasitənin dövlətlər tərəfindən tətbiq edilməsi konkret tarixi şəraitdən asılıdır. Buna görə də beynəlxalq sistem tənzimlənməyən inkişafın nəticəsi kimi özünü göstərir. *Beynəlxalq cəmiyyət* isə əksinə məqsədyönlü şəkildə formalaşır. O, beynəlxalq sistemdən fərqli olaraq ümumi maraqlara, məqsədlərə və dəyərlərə malik olan dövlətlər tərəfindən yaradılır. Dövlətlər bir-biri ilə münasibətlərini ümumi maraqlar əsasında qururlar. Beynəlxalq sistem beynəlxalq cəmiyyətdən əvvəl yaranır. Beynəlxalq sistem beynəlxalq cəmiyyətsiz mövcud ola bilər. Amma beynəlxalq cəmiyyət yalnız beynəlxalq sistemdə formalaşır.

“İngilis Məktəbi” nəzəriyyəsi beynəlxalq sistemləri beynəlxalq cəmiyyətlərə transformasiya edən prosesləri, eləcə də sivilizasiyanın çökməsinin, idarəedilməz gücün yenidən ortaya çıxmasının qarşısını alan etik normaları və institutları təbliğ edir. Bu nəzəriyyə eyni zamanda beynəlxalq cəmiyyətin fərdlər və onların assosiasiyaları üçün ədaləti təşviq etmək vasitələrini inkişaf etdirib-etdirməməsi məsələsini araşdırır.

Bull beynəlxalq cəmiyyətlər və beynəlxalq sistemlər arasındakı fərqi göstərməklə yanaşı beynəlxalq münasibətlər sistemində *nizam* və *ədalət* arasındakı əlaqəni müəyyən etmək məqsədilə beynəlxalq cəmiyyətin müxtəlif növlərini müəyyənləşdirir. O, *"Beynəlxalq cəmiyyətin Qrosi konsepsiyası" ("The Grotian Conception of International Society")* adlı məqaləsində beynəlxalq cəmiyyətin *2 konsepsiyası* arasında müqayisə aparır. Birincini Bull *"həmrəylik" və ya "Qrosi"* konsepsiyası, ikincini isə *"plüralist"* konsepsiyası adlandırır. Bull qeyd edir ki, Huqo Qrosi tərəfindən irəli sürülən beynəlxalq cəmiyyətin birinci konsepsiyasına əsasən, dövlətlər qəbul olunmuş qanunların riayət olunmasına münasibətdə həmrəylik göstərirlər. Bu həmrəylik müharibələrin ədalətli və ədalətsiz növlərə bölünməsində, bundan irəli gələn humanitar müdaxilə hüququnun həyata keçirilməsində özünü büruzə verir. Başqa sözlə desək, beynəlxalq cəmiyyətin Qrosi konsepsiyasına əsasən, dövlətlərin bir-biri ilə həmrəylik nümayiş etdirmələri mümkündür.

Bulla görə, XVIII əsrdə yaşamış isveçrəli hüquqşünas *Emer de Vattelin* irəli sürdüyü beynəlxalq cəmiyyətin plüralist konsepsiyası isə dövlətlər arasında həmrəyliyi qeyri-mümkün hesab edərək onların yalnız müəyyən minimum məqsədlər üçün razılaşmağa qadir olduqlarını iddia edir.

Bu qeyd olunan 2 konsepsiya arasında fərqli cəhətləri göstərərək Bull İkinci Dünya müharibəsindən sonrakı dövrdə plüralist beynəlxalq cəmiyyətin həmrəy olmaq perspektivinin hələ real olmadığını söyləyir. Bullun belə bir müəyyən mənada pessimist görünən nəticəsi onun beynəlxalq cəmiyyətin əsas məqsədləri arasındakı münaqişəyə dair mülahizələri ilə bağlıdır. Bull hesab edir ki, hər bir dövlətin suverenliyinin qorunmasının məqsədi bir çox hallarda qüvvələrin balansının və sülhün saxlanılması məqsədi ilə toqquşur. Misal üçün o, XVIII əsrdə Polşanın müstəqilliyinin beynəlxalq tarazlıq naminə üç dəfə qurban verildiyini, eləcə də 1935- 1936-cı illərdə Millətlər Liqasının Həbəşistanın İtaliya tərəfindən işğal olunmasına qarşı reaksiya vermədiyini göstərir. Bu misallarda nizamın hər bir suveren dövlətə bərabər münasibət göstərilməsini tələb edən ədalətdən üstünlüyü qeyd olunur. Çağdaş beynəlxalq cəmiyyət nizam və ədalət arasındakı gərginliyin digər nümunələrini də ehtiva edir. Məsələn, nizam dövlətlər arasında nüvə klubunun üzvlərinin sayının artırılmasının qarşısının alınmasını tələb etdiyi halda, ədalət hər bir dövlətin nüvə silahına malik olmaq hüququnu tanıyır.

Beynəlxalq cəmiyyətlə bağlı daha bir məqam dövlətlərin ədalət haqqında fərqli və əksər hallarda bir-birinə zidd fikirlərə sahib olmalarıdır. Belə ki, dövlətlər ədalət haqqında fərqli fikirlərini bir-birinə təqdim etməyə çalışdıqda, beynəlxalq cəmiyyət tənəzzülə uğrayır. Çünki belə olan halda dövlətlər arasında fikir, dəyər ayrılığı yaranır ki, bu da beynəlxalq cəmiyyətin yuxarıda qeyd olunan xüsusiyyətinə

ziddir. Bull misal kimi, 1999-cü ildə Serbiyaya qarşı NATO-nun həyata keçirdiyi hərbi əməliyyata dair dövlətlər arasında fikir ayrılığını göstərir.

Bull qeyd edir ki, dövlətlər ədalətin mənasına dair razılaşmaya bilərlər, amma onlar beynəlxalq nizamın saxlanılmasında çox maraqlıdırlar. Əksər dövlətlər hesab edir ki, hər bir dövlət başqasının suverenliyinə hörmətlə yanaşmalıdır. Nizam və ədalət arasında gərginliyi qeyd etməsinə baxmayaraq Bull eyni zamanda qeyd edir ki, beynəlxalq nizamın mənəvi dəyəri vardır, çünki o, ümumilikdə bütün insan cəmiyyətindəki nizam üçün əhəmiyyətlidir.

"İngilis Məktəbi" nəzəriyyəsinə əsasən, beynəlxalq cəmiyyətin formalaşması dövlətlər arasında birgəyaşayışın və əməkdaşlığın ilkin formalarının bəzi ümumi prinsiplərinə dair razılaşmanın əldə olunmasının göstəricisidir. Lakin nizam və ədalət arasındakı gərginlik qeyd olunan razılaşmanın əldə olunmasının qarşısını alır. Ənənəvi olaraq Qərb ölkələri nizamı, qeyri-Qərb ölkələri isə ədaləti üstün tutur. Bu, nizam və ədalət arasında gərginliyin artmasına səbəb olur.

Bull haqlı olaraq qeyd edir ki, Qərbin insan hüquqlarının müdafiəsi adı ilə bir neçə inkişafda olan ölkəyə humanitar intervensiyası beynəlxalq cəmiyyətin həssas çərçivəsinə zərərli təsir göstərir. Ümumiyyətlə, Qərbin inkişafda olan ölkələrə humanitar intervensiyası məsələsinə "İngilis Məktəbi" nəzəriyyəsinin nümayəndələri arasında fikir ayrılığı vardır. Məsələn, *Tim Danneni* və *Nikolas Vhiler* öz daxilində insan hüquqlarını kobud şəkildə pozan dövlətlərə Qərbin humanitar intervensiyasını (hətta beynəlxalq hüquq pozulsa belə) dəstəkləyirlər. Bu nəzəriyyənin digər nümayəndəsi *Robert Cekson* isə buna qarşı çıxır. O, 1999-cü ildə NATO-nun Serbiyada həyata keçirdiyi hərbi əməliyyatın Rusiya ilə Serbiyanın tarixi və dini yaxınlığı səbəbindən Rusiya ilə Qərb dövlətlərinin arasında münasibətlərin gərginləşməsinə səbəb olduğunu misal gətirərək qeyd edir ki, gələcəkdə Qərbin inkişafda olan ölkələrə humanitar intervensiyaları böyük güclər arasında münasibətləri gərginləşdirməklə beynəlxalq nizama xələl gətirə bilər. Ceksonun fikrincə, insan hüquqlarının ən böyük pozuntularının müharibə vaxtı baş verir. Buna görə dövlətlər arasında nizamın saxlanılması humanitar intervensiyaya münasibətdə prioritet məsələ olmalıdır.

Beləliklə, "İngilis Məktəbi" nəzəriyyəsinin əsas tədqiqat obyekti olan beynəlxalq cəmiyyət bərabər hüquqa malik olan dövlətlərdən ibarətdir. O, nizamın yüksək səviyyədə və dövlətlər arasında zorakılığın isə aşağı səviyyədə olması ilə xarakterizə olunur. Beynəlxalq cəmiyyətdə ədalətin yüksək səviyyədə olması beynəlxalq nizamın saxlanılması üçün tələb olunur. Beynəlxalq cəmiyyətə daxil olan bütün dövlətlər onun əsas prinsiplərini, o cümlədən suverenlik və başqa dövlətlərə müdaxilə etməmək ideyalarını qəbul edirlər. Dövlətlər arasında artan etnik-mədəni müxtəlifliklərə baxmayaraq beynəlxalq cəmiyyətə daxil olan inkişaf

etmiş və inkişafda olan dövlətlər birgəyaşayışın universal prinsiplərini, eləcə də etnik, dini, irqi bərabərlik prinsiplərini qəbul edirlər.

### 7.3. "İngilis Məktəbi" nəzəriyyəsinin dəyərləndirilməsi

Beynəlxalq münasibətlər nəzəriyyəsinin iki aparıcı yanaşmaları olan realizm və liberalizm arasında gedən ideoloji mübarizə "İngilis Məktəbi" və ya rasionalizm adlı yeni bir nəzəri yanaşmanın meydana gəlməsində mühüm rol oynamışdır. Klassik realizmin görkəmli nümayəndələrindən olan Edvard Karr özünün *"İyirmi illik böhran. 1919- 1939"* adlı əsərində realizmin sterilliyindən və liberalizmin sadəlövhlüyündən azad olan yeni bir beynəlxalq münasibətlər nəzəriyyəsinin yaradılmasının vacibliyi qeyd edirdi. Beynəlxalq münasibətlərin "İngilis Məktəbi" nəzəriyyəsinin meydana gəlməsini Karrın arzusunun müəyyən dərəcədə reallaşması kimi qəbul etmək olar. Belə ki, yuxarıda göstərdiyimiz kimi, "İngilis Məktəbi" nəzəriyyəsi həm realizmin, həm də liberalizmin bir sıra ideyalarını özündə birləşdirir. Bundan başqa o, realizm və liberalizm nəzəriyyələrinin daha çox tənqid olunan çatışmazlıqlarından uzaqdır.

Realizm və liberalizm arasında olan bir yanaşma kimi rasionalizm beynəlxalq nizamın qorunmasına yönələn əməkdaşlığa dövlətləri cəlb etməklə hakimiyyət və təhlükəsizlik uğrunda mübarizəni saxlayan sivil prosesləri müəyyən edir. Rasionalistlər inanırlar ki, beynəlxalq nizam fərdlərin həyatlarına nizam gətirmək imkanı ilə ölçülməlidir. Lakin nizam ədalət ilə ziddiyyətdə olduğa halda, seçim edilməlidir. Bull kimi rasionalistlərin kosmopolit layihələrə rəğbətləri vardır. Lakin onlar hesab edirlər ki, insan ağlı hamı tərəfindən qəbul olunan etik prinsipləri müəyyən etməyə qadirdir.

Yuxarıda qöstərdik ki, "İngilis Məktəbi" nəzəriyyəsi Böyük Britaniyada meydana gəlmişdir. Bu fakt onun əsas müddəalarında öz əksini tapmışdır. Beynəlxalq münasibətlər nəzəriyyəsinin ABŞ məktəbi ilə "İngilis Məktəbi"ni müqayisə edən *P.A. Sıqankov və A.P. Sıqankov* qeyd edirlər: "Amerika beynəlxalq münasibətlər nəzəriyyəsinin əsasında liberal normaların aliliyi və fövqal qüdrətli hegemonluq ideyası dururdusa, Böyük Britaniya beynəlxalq münasibətlər nəzəriyyəsi böyük imperiyanın dağılması və qlobal dünyada dialoqun axtarışı şəraitində inkişaf edirdi. Buna müvafiq olaraq ingilislərə dünyada imperiya hökmranlığının ifratçılıqlarını dəf etmək istəyi xasdır. Bu isə özünü rasionalistlərin irəli sürdükləri beynəlxalq cəmiyyət ideyasında, onların beynəlxalq anarxiyanı daha "yetkin" şəkildə təqdim etmələrində, həmçinin dünyada etik nizamın "kommunitar" sübut etmək cəhdlərində göstərir".

Realizm nəzəriyyəsindən fərqli olaraq "İngilis Məktəbi" nəzəriyyəsi bir dövlətin başqa dövlətin maraqlarını necə nəzərə almasını və hətta anarxiya şəraitində

nizamı necə yarada bilməsini göstərir. Rasionalistlər beynəlxalq münasibətlərin bir prinsipi kimi tolerantlığın vacibliyini vurğulamaqda maraqlıdırlar. Nizam universal normalar və konkret mədəniyyətlər arasında maraqların balansından asılıdır. Nizam möhkəm nailiyyət deyil və həmişə təcavüzkar dövlətlərin siyasətləri ilə pozula bilər. Lakin o, elə bir çərçivədir ki, orada mənəviyyatın və ədalətin inkişaf etməsi mümkündür. Dövlətlər arasında nizam daimi deyil.

Dövlətlərin sistemlərinin (beynəlxalq sistem) dövlətlərin cəmiyyətlərinə (beynəlxalq cəmiyyət) necə keçmələrinin tədqiq olunmasında maraqlı olan "İngilis Məktəbi" nəzəriyyəsi icmaların başqalarının maraqlarını nəzərə almaqla daha açıq olmalarının yollarını tədqiq edir. Bununla əlaqədar Martin Vayt yazır: "İcmalar başqalarının fikirlərini nəzərə almaqla öz fikirlərini dəyişsələr, onda beynəlxalq cəmiyyət mövcud ola bilər". Vaytın bu sözlərində rasionalizm nəzəriyyəsinin digər nəzəriyyələrdən, xüsusilə realizmdən və neorealizmdən fərqli cəhəti əks olunmuşdur. Göründüyü kimi, "İngilis Məktəbi" nəzəriyyəsi məqsədyönlü şəkildə, ümumi maraqlara və dəyərlərə malik olan dövlətlər tərəfindən yaradılan beynəlxalq cəmiyyət ideyasına yüksək önəm verir. Bu nəzəriyyəyə əsasən, beynəlxalq cəmiyyətin genişləndirilməsi zorakılığa deyil, dövlətlərin birgə yaşamalarına, bir-birinə güzəşt etmələrinə əsaslanmalıdır.

### *Fəslə aid suallar*

1. Beynəlxalq münasibətlərin "İngilis Məktəbi" nəzəriyyəsinin görkəmli nümayəndələri kimlərdir?
2. Beynəlxalq münasibətlərin "İngilis Məktəbi" nəzəriyyəsi mahiyyətinə görə nikbin, yoxsa bədbin xarakter daşıyır? Niyə?
3. Hansı məsələlərə dair realizm və liberalizm nəzəriyyələri arasındakı fikir ayrılığı "İngilis Məktəbi" nəzəriyyəsinin meydana gəlməsində mühüm rol oynamışdır?
4. "İngilis Məktəbi" nəzəriyyəsi bir termin kimi ədəbiyyata nə vaxt daxil edilmişdir?
5. "İngilis Məktəbi" nəzəriyyəsinin adı nə ilə əlaqədardır?
6. "İngilis Məktəbi" nəzəriyyəsində realizm nəzəriyyəsinin əlamətləri nədən ibarətdir?
7. "İngilis Məktəbi" nəzəriyyəsinə görə beynəlxalq sistem nədir?
8. "İngilis Məktəbi" nəzəriyyəsinə görə beynəlxalq cəmiyyət nədir?
9. "İngilis Məktəbi" nəzəriyyəsinə görə beynəlxalq sistemin beynəlxalq cəmiyyətə keçməsi müsbət yoxsa mənfi hadisədir? Niyə?

10. Niyə beynəlxalq cəmiyyətin yaradılması "İngilis Məktəbi" nəzəriyyəsində müasir beynəlxalq münasibətlərin ən mühüm cəhətlətindən biri kimi qələmə verilir?
11. Martin Vayt və Hedli Bull beynəlxalq cəmiyyəti necə təqdim edirlər?
12. Martin Vayt "Beynəlxalq nəzəriyyə niyə yoxdur?" adlı əsərində beynəlxalq siyasəti necə təsvir edir?
13. Hedli Bullun dövlətlərarası münaqişələrin qarşısının alınmasına dair irəli sürdüyü mövqe nədən ibarətdir?
14. Hedli Bullun dövlətlərarası münaqişələrin qarşısının alınmasına dair irəli sürdüyü mövqedə realizm nəzəriyyəsinin əlaməti nədən ibarətdir?
15. Hedli Bulla görə, beynəlxalq sistem nə vaxt yaranır?
16. Hedli Bulla görə, beynəlxalq cəmiyyət nə vaxt yaranır?
17. Hedli Bulla görə, beynəlxalq cəmiyyətin hansı növləri vardır?
18. Hedli Bulla nizam və ədalət arasındakı münasibətlər haqqında nə deyir?
19. Niyə dövlətlərin ədalət haqqında fərqli fikirləri beynəlxalq cəmiyyətin tənəzzülə uğramasına gətirir?
20. Qərb ölkələri nizamı yoxsa ədaləti daha üstün tuturlar?
21. Qərbin inkişafda olan ölkələrə humanitar intervensiyası məsələsinə "İngilis Məktəbi" nəzəriyyəsinin nümayəndələri arasında olan fikir ayrılığı nədən ibarətdir?
22. Niyə Robert Cekson inkişafda olan ölkələrə Qərbin humanitar intervensiyalarının böyük güclər arasında münasibətləri gərginləşdirməklə beynəlxalq nizama xələl gətirəcəyini hesab edir?
23. Robert Cekson beynəlxalq nizamın saxlanılmasını yoxsa humanitar intervensiyanı prioritet məsələ sayır?

## Ədəbiyyat

*Булл Х.* Анархическое общество: исследование проблемы порядка в мировой политике // Антология мировой политической мысли: В 5-ти т. Т.II. Зарубежная политическая мысль XX века. М., 1997.

*Bull H.* The Anarchical Society: A Study of Order in World Politics. London, 1977.

*Bull H.* "The Grotian Conception of International Society", in H. Butterfield and M. Wight (eds), Diplomatic Investigations: Essays in the Theory of International Relations, London, 1966.

*Bull H. and Watson A.* (Eds.) Expansion of International Society. Oxford: Oxford University Press, 1984.

*Burchill S. and Linklater A.* Theories of International Relations. N.Y.: St. Martin Press., 1996.

*Buzan B.* The English School: An Under-Exploited Resource in IR. // Review of International Studies, 24(3): 471-88.

*Dunne T.* Inventing International Society: A History of the English School. Basingstoke: Macmillan, 1998.

*Dupont A.* Is there an Asian way? //Survivals. The IISS quarterly, vol. 38, #2, 1996.

*Fearon J.* Domestic Politics, Foreign Policy, and Theories of International Relations. *//Annual Review of Political Science*. Vol. 1: 28, 1998.

*Fearon J.* Rationalist Explanations for war, //International Organization 49, n3 (Summer), 1995.

*Patten C.* Asian values and Asian success. A speech by the Governor of Hong Kong. //Survivals. The IISS Quarterly, vol. 38, #2, 5-12, 1996.

*Rüstəmov Y.İ.* Siyasi-hüquqi təlimlər tarixi. Dərs vəsaiti. Bakı, 2000.

*Цыганков П.А.* Теория международных отношений: Учебное пособие. М., 2006.

*Цыганков А.П., Цыганков П.А.* Социология международных отношений. Учебное пособие. М., 2006.

*Wight M.* Why is there no International Theory? // H. Butterfield and M. Wight (eds). H. Butterfield and M. Wight (eds), *Diplomatic Investigations* (London: George Allen & Unwin), pp. 17–34, 1996.

*Wight M.* International Theory: The Three Traditions. Leicester: Leicester University Press, 1991.

# VIII FƏSİL
# MARKSİZM

## 8.1. Beynəlxalq münasibətlərin hakim və tənqidi nəzəriyyələri

Müasir ədəbiyyatda beynəlxalq münasibətlər nəzəriyyələrini iki qrupa bölürlər: *hakim və tənqidi nəzəriyyələr*[4].

Beynəlxalq münasibətlərin *hakim nəzəriyyələrinə* realizm, liberalizm, neorealizm, neoliberalizm və İngilis Məktəbi (rasionalizm) daxildir[5]. Bu qrupa daxil olan nəzəriyyələri əvvəlki fəsillərdə təhlil edərkən biz gördük ki, onlar beynəlxalq münasibətlər sahəsində mövcud olan problemlərin həllinə, ilk növbədə dövlətlərarası müharibələrin qarşısının alınmasına dair öz təkliflərini irəli sürürlər.

Ədəbiyyatda beynəlxalq münasibətlərin hakim nəzəriyyələrinin *iki əsas xüsusiyyətinin* olması qeyd olunur:

1. Bu nəzəriyyələr pozitivist metodologiyasına əsaslanır;
2. Onlar mövcud sosial və siyasi strukturları legitimləşdirir.

Beynəlxalq münasibətlərin hakim nəzəriyyələrinin nümayəndələri *pozitivist metodologiyasına* əsaslanmağı bu nəzəriyyələrin böyük üstünlüyü kimi qələmə verirlər. Onlar hesab edirlər ki, təbiət elmlərində olduğu kimi ictimai elmlərdə də tədqiqatın səmərəliliyinin əsas şərti kimi onun obyektinin subyektindən ayrılmasıdır. Başqa sözlə desək, tədqiqatçı faktları istədiyi kimi izah etməməlidir, onlara müdaxilə olunmasına yol verməməlidir. Məhz bununla təhlilin obyektivliyinə, qərəzsizliyinə, əldə olunan biliyin ideologiyadan, normalardan, mövcud dəyərlər sistemindən azad olunmasına nail olmaq mümkündür. Lakin beynəlxalq münasibətlərin hakim nəzəriyyələrinin nümayəndələrinin bu fikri ilə tənqidçilər razılaşmırlar. Tənqidçilər hesab edirlər ki, hər bir nəzəriyyənin, o cümlədən beynəlxalq münasibətlər nəzəriyyəsinin pozitivist metodologiyasına əsaslanması nəzəriyyənin praktiki funksiyasının qarşısını alır. Nəticədə nəzəriyyə öz missiyasını idraki funksiyanın yerinə yetirilməsi ilə məhdudlaşdıraraq *tövsiyələrin hazırlanması* məsələsini qarşısına qoymur.

---

[4] *Qeyd:* Frankfurt Məktəbinin görkəmli nümayəndələrindən biri *Maks Horkhaymer* beynəlxalq münasibətlər nəzəriyyələrini *ənənəvi və tənqidi nəzəriyyələr* qruplarına, neomarksist *Robert Koks* isə onları *problemi həll edən və tənqidi nəzəriyyələr* qruplarına bölür. Gördüyümüz kimi, bu müəlliflər hakim nəzəriyyələri ənənəvi və ya problemi həll edən nəzəriyyələr kimi adlandırırlar. Lakin bu fərq formal xarakter daşıyır, çünki beynəlxalq münasibətlərə dair ədəbiyyatda tənqidi nəzəriyyələrə qarşı qoyulan hakim, ənənəvi və ya problemi həll edən nəzəriyyələrin mahiyyəti eynidir. Hakim, ənənəvi və ya problemi həll edən nəzəriyyələr kimi adlandırılan nəzəriyyələr, tənqidi nəzəriyyələrdən fərqli olaraq, istər dövlətin daxilində, istərsə də beynəlxalq münasibətlər sahəsində mövcud siyasi, iqtisadi, sosial durumun saxlanılmasına və hakimiyyətdə olanların maraqlarına xidmət edir. Elə bu xüsusiyyətlərinə görə tənqidi nəzəriyyələrə qarşı qoyulan nəzəriyyələrin ənənəvi və ya problemi həll edən nəzəriyyələr yox, *hakim nəzəriyyələr* adlandırılmasını daha məqsədəuyğun hesab edirik.

[5] *Qeyd:* Bəzi müəlliflər İngilis Məktəbinin (rasionalizm) hakim və tənqidi nəzəriyyələrin xüsusiyyətlərini özündə cəmləşdirdiyini nəzərə alaraq onu qeyd olunan qruplar arasına yerləşdirirlər. (Məsələn: Oliver Daddow İnternational Relations Theory. London, 2009, pp.102-103.

Beynəlxalq münasibətlərin hakim nəzəriyyələrinin ikinci əsas xüsusiyyətinə, yəni bu nəzəriyyələrin mövcud *sosial və siyasi strukturları legitimləşdirmək, bu strukturların mövcud olmalarına bəraət qazandırmaq cəhdinə* gəldikdə, tədqiqatçılar bu xüsusiyyətin birinci xüsusiyyətdən irəli gəldiyini söyləyirlər. Bununla əlaqədar *Robert Koks* qeyd edir ki, pozitivist metodologiyası əsasında sosial gerçəkliyi, o cümlədən beynəlxalq münasibətləri olduğu kimi götürüb orada baş verən proseslərə müdaxilə etməyi və onları dəyişməyi deyil, sadəcə olaraq onları izah etməyi qarşısında əsas məqsəd kimi qoyan beynəlxalq münasibətlərin hakim nəzəriyyələrinin nümayəndələri istər–istəməz mövcud sosial və siyasi strukturları legitimləşdirirlər. Lakin dünyada, o cümlədən inkişaf etmiş ölkələrdə mövcud sosial və siyasi strukturlara diqqət yetirdikdə, orada sosial ədalət, insan azadlığı baxımından müəyyən ciddi problemlərin olduğunu aydın şəkildə görürük. Beynəlxalq münasibətlər sahəsinə gəldikdə, burada da bir çox problemlərin mövcud olmasının şahidi oluruq. Məsələn, inkişafda olan ölkələrin inkişaf etmiş ölkələr tərəfindən istismar olunması, bəzi inkişafda olan ölkələrə münasibətdə inkişaf etmiş ölkələr tərəfindən ikili standartların tətbiq edilməsi və bunlar kimi digər ədalətsizliklər.

Lakin qeyd etmək lazımdır ki, beynəlxalq münasibətlərin hakim nəzəriyyələrinə yuxarıda göstərilən xüsusiyyətlərin bu qrupa daxil olan hər bir nəzəriyyəyə eyni dərəcədə şamil olunması bir qədər düzgün deyil. Belə ki, əvvəlki fəsillərdə göstərildiyi kimi, hakim nəzəriyyələr hesab olunan realizm, liberalizm, neorealizm, neoliberalizm və İngilis Məktəbi (rasionalizm) nəzəriyyələrindən pozitivist metodologiyasını daha çox *klassik realizm* tətbiq edir. Bundan başqa bu nəzəriyyələrin hər biri mövcud sosial və siyasi strukturları legitimləşdirməyi qarşısında məqsəd kimi qoymur. Məsələn, bu nəzəriyyələrdən liberalizm mövcud cəmiyyətin siyasi, iqtisadi, sosial sahələrində müəyyən transformasiyanın, daha konkret desək, demokratiya və bazar iqtisadiyyatı istiqamətində əsaslı islahatların həyata keçirilməsini vacib hesab edir. Liberalizmə əsasən, dövlətin daxilində həyata keçirilən bu islahatlar beynəlxalq münasibətlər sahəsində də müsbət dəyişikliklərə səbəb olur. İlk növbədə bu sahədə müharibə təhlükəsinin qarşısı əhəmiyyətli dərəcədə alınır. Başqa sözlə desək, realizmdən fərqli olaraq, liberalizm mövcud sosial və siyasi strukturlarda müəyyən transformasiyanın zəruriliyini göstərir. Düzdür, bəzi hallarda liberalizmin irəli sürdüyü praktiki əhəmiyyət daşıyan tövsiyələr cəmiyyətin müxtəlif sahələrində mənfi halların yaranmasına səbəb olur. Məsələn, keçmiş sovet respublikalarında bazar iqtisadiyyatına keçid cəmiyyətin təbəqələşməsini daha da dərinləşdirmiş, bir çox respublikalarda isə ölkə əhalisinin arasında orta sinfin xüsusi çəkisini əhəmiyyətli dərəcədə azaltmışdır. Bundan başqa iqtisadi liberalizmin tərkib hissələrindən olan azad ticarətin dövlətlərarası münasibətlərdə tətbiq olunması rəqabətə dözümlü olmayan, zəif iqtisadiyyata malik

olan inkişafda olan ölkələrin inkişaf etmiş ölkələr tərəfindən istismar olunmasını artırmışdır. Liberalizmin tənqidçiləri onun bu çatışmazlıqlarını əsas götürərək bu nəzəriyyənin ölkə daxilində müəyyən qrup insanların, xüsusilə hakimiyyətdə olanların, beynəlxalq münasibətlər sahəsində isə inkişaf etmiş ölkələrin maraqlarına xidmət etməsini göstərirlər. Bunun əsasında liberalizmin əleyhdarları onun ideoloji xarakter daşımasını vurğulayır və buna görə də onu tənqid edirlər.

*Tənqidi nəzəriyyələr* sosial gerçəklik ilə ictimai elmlər sahəsinə aid olan bilik, nəzəriyyə, o cümlədən beynəlxalq münasibətlər nəzəriyyəsi arasında sıx əlaqənin, daha konkret desək, bu biliyin, nəzəriyyənin *sosial gerçəkliyin inikası* olduğunu göstərir. Bununla tənqidi nəzəriyyələr pozitivist metodologiyasına əsaslanan realistlərdən fərqli olaraq, ictimai elmlər sahəsində *tədqiqatın subyekti ilə obyektinin bir-birindən ayrılması və obyektiv biliyin olması ideyalarını rədd edir.*

Tənqidi nəzəriyyələrin nümayəndələri öz nəzəriyyələrinin hakim nəzəriyyələrdən *əsas fərqini* tənqidi nəzəriyyələrin mövcud siyasi, iqtisadi, sosial, ekoloji, mədəni və digər durumda, o cümlədən beynəlxalq münasibətlər sahəsində ciddi problemlərin olduğunu göstərməsində və bu problemlərin həll olunması üçün burada köklü dəyişikliklərin həyata keçirilməsinə dair tövsiyələrin və təkliflərin verməsində görürlər. Onların fikrincə, bu dəyişikliklərin reallaşdırılması cəmiyyətin bütün sahələrində sosial ədaləti bərqərar edəcək, dövlət daxilində əhalinin bütün təbəqələrinin, beynəlxalq münasibətlər sistemində isə bütün dövlətlərin maraqlarına cavab verən şərait yaradacaqdır. Realizm, liberalizm, neorealizm, neoliberalizm və İngilis Məktəbi (rasionalizm) kimi hakim nəzəriyyələr isə nə dövlətdaxili, nə də ki, dövlətlərarası münasibətlərdə hökmranlığa, istismara son qoyur. Tənqidi nəzəriyyələrin nümayəndələri hesab edirlər ki, hakim nəzəriyyələrin irəli sürdükləri ideyalar ölkə daxilində hakimiyyətdə olan siniflərin, beynəlxalq müstəvidə isə hegemon dövlətlərin maraqlarını müdafiə edir və mövcud siyasi, iqtisadi və sosial vəziyyətin dəyişməsini öz qarşısında məqsəd kimi qoymur. Məsələn, tənqidi nəzəriyyələr qrupuna daxil olan nəzəriyyələrdən biri *yaşıl siyasət nəzəriyyəsi (Green Politics)* realizmi tənqid edərək qeyd edir ki, hərbi gücün beynəlxalq münasibətlər sahəsində həlledici amil olduğunu göstərməklə realistlər hər bir vasitə ilə dövlətin hərbi gücünün artmasının vacibliyini vurğulayırlar və bu durumun saxlanılmasını vacib hesab edirlər. Bu isə müasir dövrdə bütün bəşəriyyətin sağ qalması üçün böyük təhlükədir, çünki realistlərin bu təklifi bir tərəfdən qızğın silahlanmaya səbəb olur, digər tərəfdən isə cəmiyyətin müasir sosial-iqtisadi inkişafı, eləcə də ətraf mühitin qorunması üçün vacib olan davamlı inkişaf ideyasını qəbul etmir. Başqa bir tənqidi nəzəriyyə isə *feminizm nəzəriyyəsi* realistlərin gücə önəm vermələrini tənqid edərək göstərir ki, gücün, zorakılığın təbliğ olunması cəmiyyətdə kişilərin qadınlara münasibətdə üstünlüyünü daha da artırır, qadınların cəmiyyətin siyasi, iqtisadi və sosial sahələrində fəal iştirak etmələrinə mane olur. Təbiətlərinə görə sülhsevər,

barışığın tərəfdarları, gücün, zorakılığın əleyhdarları olan qadınların cəmiyyətin müxtəlif sahələrində, xüsusilə dövlətin idarə olunmasında iştirakları məhdudlaşdırılır. Bu isə öz növbəsində dünyada müharibə təhlükəsinin artmasına səbəb olur.

*Avstraliyalı politoloq Riçard Devetak* tənqidi nəzəriyyələri xarakterizə edərkən qeyd edir ki, bu qrupa daxil olan nəzəriyyələr *(yaşıl siyasət, feminizm, modernizm, post-modernizm, konstruktivizm)* aralarındakı müəyyən fərqlərə baxmayaraq onlar bir ideya ətrafında birləşirlər - beynəlxalq münasibətlərin tədqiq olunması azadedici siyasət tərəfindən istiqamətləndirilməlidir. Devetakın dediklərini belə izah etmək lazımdır - beynəlxalq münasibətlərin tədqiqi elə bir nəzəri yanaşmaların əsasında aparılmalıdır ki, bu yanaşmalar ictimai həyatın daxili və beynəlxalq sahələrindəki istismara və hökmranlığa son qoysun, sosial ədaləti bərqərar etsin, bütün aktorların maraqlarını eyni səviyyədə müdafiə etsin, bu sahələrdə mövcud olan problemlərin həll olunmasına kömək etsin.

Tənqidi nəzəriyyələrin meydana gəlməsi *Avropanın İntibah dövrünə* təsadüf edir. Tənqidi yanaşmanın cizgilərini *İmmanuel Kant, Georq Vilhelm Fridrix Hegel, Karl Marks, Fridrix Nitsşe* və başqa mütəfəkkirlərin yaradıcılıqlarında görmək olar. Bu mütəfəkkirlər yaşadıqları dövrün, cəmiyyətin siyasi, iqtisadi, sosial və mənəvi reallıqlarını tənqid edirdilər. Məsələn, Karl Marks kapitalist cəmiyyətini ədalətsiz, istismar üzərində qurulmuş, müharibəyə səbəb olan bir cəmiyyət kimi tənqid edərək onun yeni ictimai-iqtisadi formasiya olan kommunizmlə əvəz olunmasının yollarını göstərirdi.

Tənqidi nəzəriyyələrin inkişafındakı yeni mərhələ XX əsrin ortalarında meydana gəlmiş *Frankfurt Məktəbi* ilə bağlıdır. Frankfurt Məktəbinin nümayəndələri öz tədqiqatlarında Hegelin, Karl Marksın və Ziqmund Freydin ideyalarına əsaslanırdılar. Frankfurt Məktəbinin *Maks Horkheymer, Teodor Adorno, Herbert Markuze, Erix Fromm, Yurgen Habermas* kimi nümayəndələri yaşadıqları dövrün, cəmiyyətin siyasi, iqtisadi, sosial və mənəvi reallıqlarını tənqid edərək göstərirdilər ki, müasir cəmiyyət monolit, sinifsiz və totalitar cəmiyyətə çevrilmişdir. Bu cəmiyyət kütləvi informasiya vasitələri və populyar mədəniyyət vasitəsilə yanlış fikirlərin geniş yayılması hesabına qalır. *Herbert Markuzenin "Bir ölçülü insan" ("One dimensional man")* adlı əsərində qeyd etdiyi kimi, bu cəmiyyətdə insan öz arzu və istəkləri ilə hərəkət etmir. O, dövlət tərəfindən idarə olunur. Populyar mədəniyyət və kütləvi informasiya vasitələrinin köməyi ilə hər bir insanın şüuruna yeridilən yanlış tələbatlar onların manipulyasiya olunmasını asanlaşdırır. Frankfurt Məktəbinin nümayəndələri qeyd olunan çatışmazlıqları həm kapitalist, həm də sosialist cəmiyyətlərinə, ümumiyyətlə *industrial cəmiyyətə* şamil edirlər. İndustrial cəmiyyətə qarşı mübarizə onun dəyərlərinin, normalarının və bütövlükdə onun özünün inkar olunması ilə bağlıdır. Müasir industrial cəmiyyətə

qarşı mübarizədə tənqidə xüsusi önəm verilir. Frankfurt Məktəbinin nümayəndələri tədqiqatlarında tənqidin rolunu cəmiyyətin hər hansı bir sahəsində olan çatışmazlığını üzə çıxarmaqla məhdudlaşdırmırlar. Onlar tənqidin rolunu çatışmazlıqların aradan qaldırılması məqsədilə onlara səbəb olan sosial və siyasi strukturları əsaslı şəkildə təhlil edib təkminləşdirməkdə görürlər.

Beləliklə, hakim nəzəriyyələrdən fərqli olaraq tənqidi nəzəriyyələr sosial gerçəkliyə tənqidi münasibət bəsləyərək onu əsaslı şəkildə dəyişmək istəyir. Tənqidi nəzəriyyələrin mövqeyinin mahiyyəti *Karls Marksın "Feyerbax haqqında tezislər" adlı əsərinin 11-ci tezisində* aydın şəkildə ifadə olunmuşdur. Burada Marks özündən əvvəlki fəlsəfəni qiymətləndirərkən qeyd edir: "Filosoflar dünyanı müxtəlif cür izah edirdilər, lakin əsas məsələ onu dəyişməkdən ibarət idi." "Dünyanı dəyişmək," cəmiyyətin müxtəlif sahələrində əsaslı dəyişikliklər həyata keçirmək məsələsi tənqidi nəzəriyyələrin qarşısında duran əsas məsələdir. Bu dəyişikliklərin əsas əhəmiyyəti ictimai həyatın daxili və beynəlxalq sahələrində istismara, hökmranlığa son qoymaq, sosial ədaləti bərqərar etmək, ümumiyyətlə insanın azad olunmasına nail olmaqdır. Bununla əlaqədar Frankfurt Məktəbinin görkəmli nümayəndələrindən biri *Maks Horkheymer* qeyd edir ki, müasir dünyada azadlığın əldə olunmasının imkanlarını təhlil etmək istəyi insan fəaliyyətinin rasional təşkil olunmasının çətinlikləri ilə bərabər ora aparan yolların tənqidi təhlilinə səbəb olur.

Beynəlxalq münasibətlərin tənqidi nəzəriyyələrinin qeyd olunan xüsusiyyətləri daha qabarıq şəkildə *marksizm, konstruktivizm, yaşıl siyasət, feminizm və digər* nəzəriyyələrdə əks olunmuşdur.

## 8.2. Beynəlxalq münasibətlərin marksizm nəzəriyyəsinin əsas müddəaları

Beynəlxalq münasibətlərin marksizm nəzəriyyəsi realizm və liberalizm nəzəriyyələri ilə yanaşı BMN fənninin *klassik paradiqmalarındandır.* Lakin yuxarıda qeyd etdiyimiz kimi, realizm və liberalizm nəzəriyyələri beynəlxalq münasibətlərin hakim nəzəriyyələri qrupuna, marksizm isə onun tənqidi nəzəriyyələri qrupuna daxildir. Bundan başqa marksizm nəzəriyyəsi realizm və liberalizm nəzəriyyələrindən aşağıdakı müddəalara görə fərqlənir:

1. *Beynəlxalq münasibətlərin aktorlarına görə*

Qeyd etdiyimiz kimi, realizmdə dövlətlər, liberalizmdə isə dövlətlərlə yanaşı beynəlxalq təşkilatlar, transmilli şirkətlər, qeyri-hökumət təşkilatları, ictimai qruplar və ayrı-ayrı şəxslər aktor qismində çıxış edirlər. Marksizmdə beynəlxalq münasibətlərin aktorları kapitalist cəmiyyətinin əsas sinifləri olan *burjuaziya və proletariatdır;*

2. *Beynəlxalq münasibətlərin xarakterinə görə*

Realizm beynəlxalq münasibətləri anarxiya şəklində təsvir edir, liberalizm beynəlxalq hüququn və dövlətlərarası etik normaların beynəlxalq münasibətlərin anarxiyalı xarakterinin qarşısının alınmasında rolunu yüksək qiymətləndirir. Marksizm beynəlxalq münasibətlərin xarakterinin cəmiyyətin daxilindəki burjuaziya və proletariat arasında olan ziddiyyətli münasibətlə müəyyən edildiyini göstərərək onu imperialist, istismarçı kimi təsvir edir;

*3. Beynəlxalq münasibətlərin məqsədlərinə, vasitələrinə və baş verən proseslərin mahiyyətinə görə*

Realizmə əsasən, beynəlxalq münasibətlərin əsas məqsədi milli maraqların qorunması və dövlətin təhlükəsizliyinin təmin olunmasıdır. Bu məqsədə nail olmaq üçün vasitə kimi güc və qüvvələrin balansı çıxış edir. Belə olan şəraitdə müharibələr qaçınılmazdır. Liberalizm dünyada ümumbəşəri dəyərlərin yayılmasını məqsəd kimi əsas götürür. Bu məqsədə nail olmaq üçün dövlətlərarası qarşılıqlı əməkdaşlıq, beynəlxalq hüququn inkişafı əsas rol oynayır. Marksizmə əsasən, cəmiyyətin daxilində milli burjuaziyanın hökmranlığına son qoymaq əsas məqsəd olduğu kimi, beynəlxalq münasibətlər sahəsində də dünya burjuaziyasının hökmranlığına son qoymaq əsas məqsəd kimi çıxış edir. Vasitə kimi sinfi mübarizə və onun ən yüksək forması olan sosialist inqilabının baş verməsidir. Buna görə də marksizm beynəlxalq münasibətlər sahəsində baş verən prosesləri müharibələr, sinfi münaqişələr və inqilablar kimi təqdim edir;

*4. Nəzəri təhlilin ilkin müddəasına görə*

Yuxarıda qeyd etdiyimiz kimi, beynəlxalq münasibətlərin realizm nəzəriyyəsi insan təbiətinin dəyişməzliyi ideyasına əsaslanır, liberalizm nəzəriyyəsi demokratik dəyərlərin hər bir xalq tərəfindən qəbul olunmasına inanır. Marksizm isə beynəlxalq münasibətləri izah edərkən *iqtisadi determinizm prinsipini* əsas götürür. Bu prinsipə əsasən, dünya bazarının formalaşması sosial qarşıdurmanın qlobal xarakterini və beynəlxalq münasibətlər sistemindəki sonrakı dəyişiklikləri müəyyən edir.

Beynəlxalq münasibətlərin marksizm nəzəriyyəsinin əsasını *sinfi yanaşma* təşkil edir. Bu yanaşmaya əsasən, bu və ya digər dövlətin daxili vəziyyəti, xüsusilə mülkiyyət münasibətləri və oradan irəli gələn istehsal və sinfi münasibətlər dövlətin xarici siyasətinin xarakterini, yəni onun xarici siyasətinin sülhsevər və ya təcavüzkar olmasını müəyyən edir. Bu yanaşma liberalizmdə qeyd olunan "daxili-xarici" yanaşma ilə *forma baxımından* eynidir. Lakin *məzmun baxımından* marksizmin və liberalizmin "daxili-xarici" yanaşması bir-birindən fərqlidir. Belə ki, marksizm xüsusi mülkiyyəti qəbul etmir, cəmiyyətdəki bütün ziddiyyətlərin, o cümlədən sinfi mübarizəni ondan irəli gəldiyini göstərir və nəhayət xarici siyasətin təcavüzkar olmasının, müharibələrin başlanmasının səbəbini onunla bağlayır. Mülkiyyət hüququnu insanın ən vacib hüquqlarından biri kimi xarakterizə edən liberalizm isə xüsusi mülkiyyəti demokratik cəmiyyətin təməl daşlarından ən mühümü kimi qəbul

edir, onun ləğvini cəmiyyətin inkişafının obyektiv qanunlarına zidd olduğunu göstərir. Liberalizmə görə, xüsusi mülkiyyətin olmaması totalitar cəmiyyətin yaranması üçün əlverişli şərait yaradır.

Sovet ədəbiyyatında sinfi yanaşmanın mütləqləşdirilməsi nəticəsində dövlətlərarası münasibətlər *üç qrupa* bölünürdü:

1. *hökmranlıq və tabeçilik;*
2. *qarşılıqlı əməkdaşlıq və qarşılıqlı yardım;*
3. *keçid münasibətləri.*

Qeyd olunan birinci münasibətlər quldarlıq, feodalizm və kapitalizm dövründə ölkələr arasında, ikinci münasibətlər – sosialist ölkələri arasında, üçüncü münasibətlər isə inkişaf etməkdə olan ölkələr arasında mövcud idi. İnkişaf etməkdə olan ölkənin inkişaf istiqamətindən asılı olaraq, yəni onun kapitalist və ya sosialist inkişaf istiqamətini seçməsindən asılı olaraq, birinci və ya ikinci münasibətlər növünə keçid baş verə bilərdi. Bu bölgünün əsasını mülkiyyət münasibətləri təşkil edir.

Liberalizmin və marksizmin forma baxımından oxşar olan daxili-xarici yanaşmalarının digər bir ümumi cəhəti onların gercəkliyə uyğun gəlməməsi idi. Neorealizmə aid olan fəsildə biz liberalların daxili-xarici yanaşmasının konkret faktlar əsasında neorealistlər tərəfindən tənqid olunduğunu göstərmişdik. Bu tənqid real faktlara istinad etdiyinə görə əsaslıdır. Marksizmin də daxili-xarici yanaşması gerçəkliyə uyğun gəlmirdi. Misal üçün SSRİ ilə bir neçə sosialist ölkələrinin arasında (Çin Xalq Respublikası, Yuqoslaviya Sosialist Federativ Respublika) olan ciddi ziddiyyətləri göstərmək olar.

### 8.3. Marksizmin tarix konsepsiyası

Marksa görə, insan tarixi *siniflər mübarizəsi* tarixidir. İnsan tarixi ətraf mühitin fəthini, insanın nəzarətindən və dərk etmək qabiliyyətindən kənardakı qüvvələrin ram edilməsini, qorxunun və nadanlığın ləğv edilməsini göstərir. Müasir cəmiyyətin dəyişdirilməsi ilə kapitalist cəmiyyətinə xas olan özgəninkiləşdirilmə, insanın insan tərəfindən istismarı və digər sosial problemlərin qarşısı alınır. Buna görə də cəmiyyətin dəyişdirilməsi məsələsi marksizmin *əsas siyasi məqsədidir.* Yuxarıda qeyd etdiyimiz kimi, Karl Marks "Feyerbax haqqında tezislər" adlı əsərinin 11-ci tezisində dünyanın dəyişdirilməsini əsas məsələ hesab edirdi. Onun fikrincə, bu məsələnin həlli xüsusi mülkiyyətin ləğv edilməsi, burjuaziya sinfinin hakimiyyətinə son qoyulması və bütün insanların bərabərliyinin təmin edilməsi ilə bağlı idi. Onun qənaətinə görə, qeyd olunan məsələ sosialist inqilabı vasitəsilə həyata keçə bilərdi.

Marks hesab edirdi ki, mövcud fəlsəfi-siyasi nəzəriyyələrdə cəmiyyətin strukturuna istehsalın təsiri nəzərə alınmırdı. O, bununla bağlı xüsusilə idealistləri

(Hegel) tənqid edirdi. Marksın əsas ideyası ondan ibarət idi ki, tarix boyu sinfi mübarizə münaqişənin əsas forması və sosial dəyişikliyin səbəbi olmuşdur.

Marksdan əvvəlki filosoflar tarixin, ictimai həyatın izahında *idealist* idilər, çünki tarixi inkişafın səbəblərini ideyalar ilə bağlayırdılar. Marks iqtisadi sahələri digər sahələrdən, bütün istehsal münasibətlərini isə digər ictimai münasibətlərdən ayırmaqla özünün *tarix nəzəriyyəsini (tarixin fəlsəfəsini)* irəli sürdü. Onun fikrincə, *iqtisadi sahə, istehsal münasibətləri* tarixi inkişafda aparıcı rol oynayır. Marksın *tarixi materializm nəzəriyyəsi* iki prinsipə əsaslanır:

*1. Tarixi inkişafın əsas səbəbləri maddi xarakter daşıyır;*

*2. Tarixin əsl yaradıcısı xalqdır.*

*"Lui Bonapartın 18-ci brümeri"* əsərində Marks göstərir ki, insanlar tarixlərini özləri yaradırlar, lakin onlar bunu istədikləri kimi edə bilmirlər, yəni tarixin inkişafı *obyektiv* xarakter daşıyır. İnsan onda olan öz müqəddəratını təyin etmək gücünə görə öz tarixini yarada bilir.

Marksizmin tarix konsepsiyası ilə əlaqədar onu da əlavə etmək lazımdır ki, Karl Marks və Fridrix Engels cəmiyyətin *endogen* (səbəbi daxilində olan. – E.N.) izahına üstünlük verirdilər. Çünki onların fikrincə, cəmiyyətlər dəyişikliyin daxili məntiqi ilə hərəkət edən bir-biri ilə bağlı olan qurumlardır. Düzdür, onlar tarixi inkişafda dövlətlərarası münasibətlərin rolunu inkar etmirdilər. Lakin Marks və Engels dövlətlərarası münasibətləri istehsalın sahələri ilə müqayisə etdikdə onların rolunu ikinci və ya üçüncü dərəcəli hesab edirdilər.

XIX əsrin ikinci yarısında aparıcı Avropa dövlətlərində *millətçiliyin* baş qaldırması Marks və Engelsi irəli sürdükləri tarix konsepsiyalarını yenidən nəzərdən keçirməyə vadar etdi. Yeni tarixi şəraitdə onlar əvvəlki baxışlarında müəyyən dəyişikliklər edərək hesab etdilər ki, beynəlxalq fəhlə hərəkatına qoşulmaqdan öncə proletariat müstəmləkəçiliyə qarşı mübarizə aparmalıdır.

Marksizmin "sosialist internasionalizminə qoşulmaqdan öncə müstəmləkəçiliyə son qoymaq lazımdır" fikri XX əsr marksistləri tərəfindən qəbul olunmuşdur. Lakin bəzi nüfuzlu Üçüncü Dünya marksistləri millətçiliyi beynəlmiləlçilikdən üstün tuturdular. Çünki onların hesab edirdilər ki, milli hökmranlığa qarşı mübarizə öz əhəmiyyətinə görə sinfi hökmranlığa qarşı mübarizədən daha əhəmiyyətli idi.

Marksizmin tarix konsepsiyasının tənqidçiləri hesab edirlər ki, Marks və Engels tarixi inkişafda etnik-mədəni müxtəlifliyin rolunu, milli kimliyin əhəmiyyətini, ümumiyyətlə mədəniyyətin rolunu kifayət qədər anlaya bilməmişlər. Marksizmin tarix konsepsiyasında əsas fikir iqtisadi amillərə verilir. Buna görə də heç təsadüfi deyil ki, bu nəzəriyyənin tənqidçiləri onu *iqtisadi determinizmin növü* kimi səciyyələndirirlər.

### 8.4. Marksizmin millətçiliyə münasibəti

Beynəlxalq münasibətlərə marksist yanaşması insanları birləşdirən və inkişafda kapitalizmin mühüm rolunu vurğulayan prosesləri əks edir. Marksın və Engelsin ilk yazılarında beynəlxalq proletariata bu proseslərdə aparıcı rol verilir, lakin universal sosial əməkdaşlıq üçün imkanlar millətçiliyin yaranması işığında nəzərdən keçirilməlidir. Millətçilik problemi dünya iqtisadiyyatında inkişaf etməkdə olan ölkələrin inkişaf etmiş ölkələr tərəfindən istismarı problemi müasir marksist tədqiqatlarının diqqətindədir.

Marks və Engels daxili sinfi münasibətlər və istehsalın üsulları ilə maraqlanmalarına baxmayaraq, onlar kapitalizmin dağınıq əhalini eyni ərazidə yaşayan bir millət şəklində birləşdirməsini də qeyd edirdilər. Kapitalizm özünün ilkin mərhələsində milli əlaqələri yaratdı. Sosial əlaqələrin bir növü kimi milli əlaqələr milli icmanın üzvlərini bir-biri ilə bağlayaraq onları cəmiyyətdə yaşayan başqa xalqların nümayəndələrindən ayırdı. Cəmiyyət daxilində milli əlaqələr sinfi mənsubiyyətin formalaşmasına mane olurdu. Lakin kapitalizm yetkinləşdikcə o milli bəndləri ayıraraq proletariat arasında beynəlxalq birliklərin meydana gəlməsinə şərait yaratdı.

Marksizmi yeni tarixi şəraitdə inkişaf etdirən Vladimir Lenin və Nikolay Buxarın irəli sürdükləri *imperializm nəzəriyyəsində* ilk növbədə Birinci Dünya müharibəsinin səbəblərini açıqlayırlar. Onların fikrincə, bu müharibənin əsas səbəblərindən biri aparıcı kapitalist dövlətlərində yığılan artıq kapitalın yeni bazarlara yerləşdirilməsi ilə bağlıdır. Onlar qeyd edirlər ki, yetkin kapitalizm tərəfindən azad ticarətin dəstəklənməsinə və xalqlar arasında sülh şəraitində qarşılıqlı asılılığın zəruri şəkildə inkişaf etdirməsinə dair liberalizmin geniş yayılmış müddəaları müasir dövrdə həqiqətə uyğun deyil. Lenin *"İmperializm kapitalizmin ən yüksək mərhələsi kimi"* adlı əsərində imperializmi *inhisarçı kapitalizm* kimi qələmə verir.

Lenin və Buxarin hesab edirdilər ki, kapitalizmin yüksək inkişaf mərhələsini təşkil edən imperializm əsrin əsas tendensiyası olan laissez-faire ideologiyasını inkar etmiş və öz iqtisadi və siyasi məqsədlərinə zor hesabına nail olmaq istəyən yeni merkantilist dövlətləri yaratmışdır. Onların irəli sürdükləri imperializm nəzəriyyəsində əlavə kapitalın yığılması sülhə əsaslanan beynəlxalq şəraitin pozulmasının əsas səbəbi kimi qələmə verilir. Lakin Lenin hesab edirdi ki, başqa amillər, o cümlədən Britaniyanın hegemonluğunun çökməsi və hərbi gücün yeni konfiqurasiyasının yaranması beynəlxalq münasibətlər sistemində Millətlər Liqası tərəfindən gücün tətbiqinə qoyulan məhdudiyyətlərin zəifləməsinə səbəb olur.

Lenin və Buxarin qeyd edirdilər ki, millətçilik ideologiyasının geniş yayılması Marksın sinfi mübarizə haqqında təlimini əhəmiyyətsiz edir. Baxmayaraq ki, Lenin

müəyyən ölkələrdə imperalizmə qarşı yönələn millətçi hərəkatlara dəstək verilməsinin zəruriliyini vurğulayırdı, lakin o, millətçilik hərəkatının müxtəlif xalqların proletariatının birləşməsinə mane olduğunu, ümumiyyətlə, sinfi mübarizəyə qarşı yönəldiyini göstərirdi. Heç təsadüfi deyil ki, Lenin milli mədəniyyətlərə münasibətdə *avstro–marksist federalist yanaşmasının* mövqeyinə qarşı çıxırdı. Çünki bu mövqe mövcud çoxmillətli dövlətlərin daxilində milli azlıqlara real avtonomiyanın verilməsini təklif edirdi. Lenin haqlı olaraq hesab edirdi ki, milli azlıqlara real avtonomiyanın verilməsi onları müəyyən dərəcədə sinfi mübarizədən yayındırırdı.

Lenin hesab edirdi ki, milli hərəkatlar çoxmillətli dövlətdən tam ayrılmaq, yaxud onun tərkibində qalmaq arasında seçim etməlidir. Milli hərəkatların əksəriyyəti çoxmillətli dövlətin tərkibində qalmaq istəyəcəklər, çünki milli azlıqlar iqtisadi inkişafı ayrılıqda təmin edərkən müəyyən obyektiv çətinliklərlə qarşılaşır. Ayrılmağı seçən milli hərəkatlar isə özlərini milli düşmənçilik və inamsızlıq yaradan beynəlxalq şəraitdən azad edəcəklər. Yeni tarixi şəraitdə müxtəlif xalqların proletariatının birləşməsi mümkün olacaqdır.

Beləliklə, marksizmin millətçiliyə bir ideologiya və hərəkat kimi münasibəti birmənalı deyil. O, bir tərəfdən, məzlum xalqların müstəmləkəçiliyə, imperialist qüvvələrə qarşı mübarizəsinin forması olduğuna görə millətçiliyi, onun real təzahür forması olan xalqların milli-azadlıq mübarizəsini dəstəkləyir. Digər tərəfdən isə marksizm xalqların milli, etnik zəmində birləşməsini təbliğ etməklə onları bu zəmində bir-birinə qarşı-qarşıya qoyduğuna və bununla da onların sinfi mübarizəyə qalxmalarına əngəl yaratdığına görə millətçiliyi zərərli bir ideologiya və hərəkat hesab edir. Başqa sözlə desək, millətçiliklə marksizmin kompromisi sosializmin millətçiliyə uyğunlaşdırılmasının, bir də proletariatın ayrı-ayrı etnik qruplara bölünməsinin qarşısını almağı nəzərdə tutur.

### 8.5. Neomarksizm

Marksizm nəzəriyyəsinin, o cümlədən marksizmin beynəlxalq münasibətlər nəzəriyyəsinin bir sıra müddəalarının gerçəkliyə uyğun gəlməməsi neomarksizmin meydana gəlməsinə səbəb oldu. Neomarksistlər (*İmmanuel Vallerştayn, Robert Koks, Samir Amin və başqaları*) yeni tarixi şəraitdə marksizm nəzəriyyəsinin müəyyən müddəalarını inkişaf etdirdilər.

Beynəlxalq münasibətlər nəzəriyyəsi sahəsində neomarksistlərin irəli sürdükləri əsas nəzəriyyələrdən biri *inkişaf etmiş (core states - mərkəzi, əsas ölkələr) və inkişaf etməkdə olan ölkələr (periferiya ölkələri)* arasında münasibətlərin tədqiq olunması ilə bağlı olan *asılılıq nəzəriyyəsidir*. Bu nəzəriyyəyə əsasən, müasir dövrdə kapitalist əmək bölqüsü, əmtəə mübadiləsi dünya dövlətlərinin iqtisadi inkişafının

səviyyəsini nəinki bərabərləşdirmir, hətta inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında mövcud uçurumu daha da dərinləşdirir. Bu uçurumun dərinləşməsi beynəlxalq əmək bölgüsündə, əmtəə mübadiləsində inkişaf etmiş ölkələrin hazır məhsulların (ilk növbədə sənaye məhsullarının), inkişaf etməkdə olan ölkələrin isə təbii resursların, xammalın ixracında ixtisaslaşmaları ilə bağlıdır. Bu əmək bölgüsündə inkişaf etmiş ölkələr özünün hərbi-siyasi və iqtisadi gücündən sui-istifadə edərək periferiya ölkələrinə istehsal etdikləri məhsulları baha qiymətə satırlar, bu ölkələrin təbii resurslarını isə ucuz qiymətə alırlar. Öz mahiyyətinə görə qeyri-bərabər, ədalətsiz olan bu əmək bölgüsü, əmtəə mübadiləsi inkişaf etməkdə olan ölkələrin inkişaf etmiş ölkələrdən asılılığını artırır.

Neomarksistlərin fikrincə, periferiya ölkələrinin inkişaf etmiş ölkələrdən asılılığının qarşısını almaq üçün bu ölkələrdə *yerli sənayenin inkişafına* nail olmaqla mövcud beynəlxalq əmək bölgüsündə, əmtəə mübadiləsində iştirakdan imtina etməkdir. Bu, bir tərəfdən inkişaf etməkdə olan ölkələrin təbii resurslarının, xammalının ucuz qiymətə inkişaf etmiş ölkələrə satışının qarşısını alacaq, digər tərəfdən isə yerli sənayenin gücü ilə yerli xammalın əsasında daha ucuz qiymətə istehsal olunan məhsulların dünya bazarına çıxarılmasına gətirəcəkdir. Bundan ilk növbədə inkişaf etməkdə olan ölkələr qacanacaqlar.

Asılılıq nəzəriyyəsinin məzmunundan göründüyü kimi neomarksistlər inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasındakı mövcud münasibətlərin, o cümlədən əmək bölgüsünün, əmtəə mübadiləsinin ilk növbədə qeyri-bərabər, ədalətsiz, yəni yalnız inkişaf etmiş ölkələrin maraqlarını əks etdirdiyini qeyd edərək bu münasibətlərin qarşılıqlı fayda, bərabərlik və sosial ədalət prinsipləri əsasında yenidən qurulmasını təklif edirlər.

Neomarksistlərin inkişaf etməkdə olan ölkələrin maraqlarını müdafiə etmələrinin daha bir göstəricisi onların inkişaf etmiş ölkələrin maraqlarına müdafiə edən *hiberliberalizm nəzəriyyəsinin* tənqididir. Neomarksizmin görkəmli nümayəndələrindən biri olan *kanadalı professor Robert Koks* öz əsərlərində hiberliberalizm nəzəriyyəsinin tənqidinə xüsusi fikir verir. Hiberliberalizm nəzəriyyəsinə əsasən, dövlətlər arasında iqtisadi inteqrasiyanın intensivləşməsi şəraitində dövlət qlobal bazar qüvvələrinə dəstək verməlidir. Dövlətin bu dəstəyi özünü ilk növbədə transmilli şirkətlərin inkişaf etməkdə olan ölkələrdəki fəaliyyətlərinə şərait yaratmasında büruzə verir. Bazar qüvvələrinə yol açmaqla inkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi inkişafının qarşısını alırlar. Belə ki, azad ticarət şəraitində əsasən təbii resursları, xammalı ilə mövcud əmək bölqüsündə iştirak edən inkişaf etməkdə olan ölkələr yuxarıda qeyd olunan səbəblərə görə inkişaf etmiş ölkələrlə rəqabətə girə bilmirlər və nəticədə onların sosial-iqtisadi inkişafı daha da zəifləyir, inkişaf etmiş ölkələrdən asılılıqları daha da artır.

Neomarksizmin asılılıq nəzəriyyəsinə əsasən, inkişaf etmiş ölkələrdəki hakim sinfin nümayəndələri transmilli şirkətlər vasitəsilə inkişaf etməkdə olan ölkələrin təbii sərvətlərini daha asan yolla əldə etmək məqsədilə bu ölkələrin elitasını müxtəlif üsullarla ələ alırlar. Nəticədə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdəki hakim sinfin maraqları qovuşur, onların maraqları arasında birlik yaranır. Bu birlik inkişaf etməkdə olan ölkələrin inkişaf etmiş ölkələr tərəfindən yaradılmış və onların maraqlarına xidmət edən beynəlxalq əmək bölqüsünə daxil olmalarını təmin edir. Lakin yuxarıda qeyd etdiyimiz kimi, inkişaf etməkdə olan ölkələrin bu əmək bölgüsündə iştirak etmələri onların maraqlarına xidmət etmir. Buna görə də elitalararası birlik periferiya ölkələrinin iqtisadi inkişafının qarşısını alır. Periferiya ölkələri yalnız dünya kapitalist iqtisadiyyatından ayrılmaqla, dünya bazarlarında hökm sürən qeyri-bərabər əmtəə mübadiləsindən azad olmaqla və müstəqil şəkildə yerli sənayelərini inkişaf etdirməklə iqtisadi inkişafa nail ola bilərlər.

*Tanınmış amerikalı sosioloq İmmanuel Vallerştayn "Müasir dünya sistemi" (Immanuel Wallerstein. "The modern world system") adlı dörd cildlik əsərində irəli sürdüyü "dünya sistemi nəzəriyyəsi"ndə (World system theory)* oxşar fikir irəli sürür. O, qeyd edir ki, müasir kapitalizm bütün dünyada sənayeləşməyə səbəb olmaq iqtidarında deyil. Çünki müasir kapitalizm sistemi inkişaf etməkdə olan ölkələrin inkişaf etmiş ölkələr tərəfindən istismarına əsaslanır. Dövlət daxilində proletariatın burjuaziya tərəfindən istismar olunduğu kimi, dövlətlərarası münasibətlərdə də periferiya ölkələri inkişaf etmiş ölkələr tərəfindən istismar olunurlar. Vallerştayn dünya sistemi nəzəriyyəsində proletariatı periferiya ölkələri ilə, burjuaziyanı isə mərkəzi, əsas, inkişaf etmiş ölkələrlə bərabər tutur. O, periferiya və mərkəzi, əsas, inkişaf etmiş ölkələr arasına yarı-periferiya ölkələri yerləşdirir. Bu nəzəriyyəyə əsasən, dünya sisteminin perspektivi kapitalist dünya iqtisadiyyatının siyasi prinsiplərinə və Qərbin mədəni hegemonluğuna meydan oxumaqda periferiya və yarı-periferiya ölkələrinin rolunun artması ilə bağlıdır.

Neomarksizm qlobal inkişafa müasir kapitalizmin təsir etmək ideyasını inkar edir. Bundan başqa neomarksizm hesab edir ki, kapitalizm bütün cəmiyyətləri vahid dünya tarixinin çərçivəsinə salır, iqtisadi istismara və qeyri-bərabərliyə qarşı milli üsyanlara şərait yaradır. Müasir dövrün neomarksist nəzəriyyələri marksist mövzusunu təkrar edir: qeyri-bərabər kapitalist inkişafı millətçiliyin inkişafına səbəb olur.

Neomarksizm ənənəvi marksizm kimi beynəlxalq münasibətlərin təhlilində iqtisadi faktora, onun ictimai inkişafda roluna yüksək önəm verir. Həmçinin o, marksizm kimi beynəlxalq münasibətləri sinfi mübarizə, istismar və bərabərsizlik münasibətləri kimi xarakterizə edir, beynəlxalq mühitin xarakterini münaqişəli şəkildə olduğunu vurğulayır. Nəhayət, neomarksizm ənənəvi marksizm kimi beynəlxalq münasibətlərin tərəqqiyönümlü inkişafına inanır.

Qeyd olunan bu oxşar cəhətlərlə bərabər neomarksizm və ənənəvi marksizm arasında bir çox fərqli cəhətlər də vardır.

Neomarksizm ənənəvi marksizmdən fərqli olaraq ictimai inkişafda iqtisadi faktorun deyil, mədəniyyətin aparıcı rol oynadığını qeyd edir. Neomarksistlər milli mübarizəni sinfi mübarizədən daha vacib hesab edirlər. Milli hərəkatlara dəstək məsələsi neomarksistlər və klassik marksistlər arasında böyük ziddiyyətə səbəb olmuşdur.

Qərbin hökmranlığı dövründə marksizm öz kosmopolitizmini formalaşdırdı. O vaxt hesab olunurdu ki, qeyri–Avropa dünyası modernləşmənin Qərb formalarını qəbul edəcəkdir. Lakin məlumdur ki, dünya tarixi Qərb tarixi deyil. Bir çox qeyri–Avropa cəmiyyətləri fərdiçilik, materializm, sekulyarizm və bu kimi digər Qərb dəyərlərini qəbul etmirlər.

Marksistlərdən fərqli olaraq neomarksistlər daxili və xarici siyasətin münasibətlərini təhlil etdikdə ikincini əsas sayırlar.

Nəhayət, neomarksistlər xüsusi beynəlxalq münasibətlər nəzəriyyəsinin yaradılmasının vacibliyini qeyd edirlər.

### 8.6. Marksizmin dəyərləndirilməsi

BMN-də marksizmə münasibət birmənalı deyil. Onun üstün və zəif tərəflərinin daha əsaslı təhlili ona münasibətdə stereotip olan yanaşmanın qarşısını alır.

Marksizm beynəlxalq münasibətlərin tənqidi nəzəriyyələrinin ən güclü yanaşmalarından biri hesab olunur, çünki o, kapitalist ictimai-iqtisadi formasiyasının təbii, yaxud dəyişməz olmasına dair fikri inkar edir. Bir tənqidi nəzəriyyə kimi marksizm kapitalist cəmiyyətinin əsaslı şəkildə transformasiya olmasını mümkün və zəruri hesab edir. O, ölkələr və xalqlar arasında əməkdaşlığın qarşısında olan məhdudiyyətlərin aradan götürülməsinin vacibliyini qeyd edir və bunun üçün ilk növbədə ölkələrdə sosialist inqilabı vasitəsilə burjuaziyanın hakimiyyətinə son qoymağa çağırır. Lakin marksizmin cəmiyyətin siniflərə əsaslanan bölgüsünə həddindən artıq fikir verməsi ona cəmiyyətin irqə, millətə, dinə, dilə, genderə əsaslanan bölgüsü ilə ciddi məşğul olmağa imkan vermir. Nəticədə millətçilik, dövlət, geosiyasət və müharibə kimi bir çox hadisələrin tədqiq olunmasına lazımi diqqət verilmir. Bu yanaşmanın əsasında *"sinfi mübarizə, sosialist inqilabı bütün insanları istismardan azad edəcəkdir"* kimi yanlış müddəa irəli sürülür. Bundan başqa, marksizm Avropasentrik nəzəriyyələrdəndir, yəni o, Qərb sivilizasiyasını digər dünya sivilizasiyalarından üstün hesab edir.

Məlum olduğu kimi, XX əsrin 90-cı illərinin əvvəllərində dünya kommunist sistemi dağıldı. Bu sistemin dağılmasında keçmiş Sovet İttifaqının bir dövlət kimi dünya xəritəsindən silinməsi həlledici rol oynadı. Sovet İttifaqının çoxmillətli bir

dövlət kimi süqutunun əsas səbəblərindən biri onun ərazisində yaşayan qeyri-rus xalqlarının milli azadlıq uğrunda mübarizəsi idi. Dünya kommunist sisteminin dağılması marksizmin sinfi yanaşmaya əsaslanan beynəlxalq münasibətlər konsepsiyasının yanlış olması ilə yanaşı, xalqlarının milli azadlıq uğrunda mübarizəsinin ideoloji əsasını təşkil edən millətçiliyin marksizmdən güclü olduğunu göstərdi.

Marksın optimist proqnozuna əsasən, bütün xalqlar bir sosialist cəmiyyətində birləşəcəklər. Bu proqnoz milli dövlətlər arasında sonsuz münaqişələrlə güclənən dezinteqrasiya proseslərinə görə tənqid edilir. Realistlər universal sosializm ideyasını bir utopiya kimi rədd edirlər. Bundan başqa onlar marksistlərin kapitalizmin dünyada inkişafı nəticəsində inqilabi proletariatın meydana çıxması ideyasını da inkar edirlər.

Hakimiyyətdə olan marksizmin milli dövlətin təhlükəsizliyini qorumaq məqsədilə diplomatiyanın ənənəvi metodlarına, yəni realistlərin qeyd etdikləri metodlara əl atması realizmin marksizmə münasibətdə mövqeyini gücləndirdi. Stalinin Hitler ilə imzaladığı müqavilə, müharibələrarası Çin kommunistlərinə SSRİ tərəfindən köməyin göstərilməməsi (həmin vaxt SSRİ-yə Yaponiyanın artan hərbi gücünə qarşı ilk növbədə güclü, hətta antikommunist Çin lazım idi) realistlərin belə bir fikrini təsdiqlədi ki, anarxiya şəraitində milli dövlətlər ilk növbədə öz maraqları haqqında düşünürlər. Beynəlxalq sistemi dəyişmək əvəzinə marksizm bu sistem tərəfindən dəyişilirdi. Başqa sözlə desək, gerçəkliyə uyğun gəlmədiyinə görə marksizm sıradan çıxırdı. Bundan başqa Şərqi Avropanın bir sıra sosialist ölkələrində müstəqilliyin əldə olunmasına yönələn millətçi hərəkatların baş qaldırması, SSRİ və Çin arasında sərhəd mübahisələri, Kamboca və Vyetnam, Çin və Vyetnam arasında müharibələr marksizmin sosialist ölkələr arasında dost və əməkdaşlıq münasibətlərin olmasına dair nəzəri müddəasının gerçəkliyə uyğun gəlmədiyini göstərdi.

Realizm marksizmin daha bir zəif tərəfini onun dövlətə reduksionist yanaşması ilə əlaqələndirir. Marksizm dövlətin rolunu hakim sinfin maraqlarını xarici rəqiblərdən və hakimiyyətdə olmayan siniflərdən müdafiə etməkdə görür. Lakin marksizm zorakılıq alətlərinə, dövlətin monopoliya nəzarətinin vacibliyinə, bir də dövlətin cəmiyyətdə əmin-amanlığı təmin etmək, xarici təhdidlərə müqavimət göstərmək, müharibəyə hazırlaşmaq və müharibə aparmaq kimi funksiyalarına lazımi qiymət vermir.

### *Fəslə aid suallar*

1. Beynəlxalq münasibətlərin hakim nəzəriyyələrinin mahiyyəti nədən ibarətdir?

2. Beynəlxalq münasibətlərin hakim nəzəriyyələrinə hansı nəzəriyyələr daxildir?
3. Beynəlxalq münasibətlərin tənqidi nəzəriyyələrinin mahiyyəti nədən ibarətdir?
4. Beynəlxalq münasibətlərin tənqidi nəzəriyyələrinə hansı nəzəriyyələr daxildir?
5. Beynəlxalq münasibətlərin hakim nəzəriyyələrinin nümayəndələrinin fikrincə, pozitivist metodologiyasına əsaslanmağın üstünlüyü nədən ibarətdir? Onların bu məsələ ilə bağlı arqumentlərinə tənqidçilər nə cavab verirlər?
6. Beynəlxalq münasibətlərin tənqidi nəzəriyyələrinin meydana gəlməsi hansı dövrə aiddir?
7. Niyə Frankfurt Məktəbi tənqidi nəzəriyyələrin inkişafındakı yeni mərhələni təşkil edir?
8. Niyə Karls Marksın "Feyerbax haqqında tezislər" adlı əsərinin 11-ci tezisi tənqidi nəzəriyyələrin mahiyyətini əks edir?
9. Niyə marksizm tənqidi nəzəriyyə hesab olunur?
10. Beynəlxalq münasibətlərin marksizm nəzəriyyəsinin realizm və liberalizm nəzəriyyələrindən oxşar və fərqli cəhətləri hansılardır?
11. Beynəlxalq münasibətlərin marksizm nəzəriyyəsinə əsasən, beynəlxalq münasibətlərin əsas aktorları hansı qüvvələrdir?
12. Beynəlxalq münasibətlərin marksizm nəzəriyyəsinə əsasən, sinfi yanaşma nədir?
13. Beynəlxalq münasibətlərin marksizm və liberalizm nəzəriyyələrinin daxili-xarici yanaşmalarının oxşar və fərqli cəhətləri hansılardır?
14. Sovet ədəbiyyatında sinfi yanaşmanın mütləqləşdirilməsi nəticəsində dövlətlərarası münasibətlər hansı qruplara bölünürdü? Bu bölgünün əsasını nə təşkil edirdi?
15. Niyə marksizmin daxili-xarici yanaşması gerçəkliyə uyğun gəlmir?
16. Marksizmin əsas siyasi məqsədi nədir?
17. Karl Marksa görə, dünyanın dəyişdirilməsi nə ilə bağlıdır?
18. Karl Marksa görə, sinfi mübarizənin əhəmiyyəti nədən ibarətdir?
19. Niyə Karl Marksdan əvvəlki filosoflar tarixin, ictimai həyatın izahında idealist mövqedən çıxış edirdilər?
20. Karl Marksın tarixi materializm nəzəriyyəsinin mahiyyəti nədən ibarətdir?
21. Marksizmin tarix konsepsiyasında dövlətlərarası münasibətlərdə ölkədaxili amillər yoxsa beynəlxalq sistem aparıcı rol oynayır? Niyə?

22. XIX əsrin ikinci yarısında aparıcı Avropa dövlətlərində millətçiliyin baş qaldırması nəticəsində marksizmin tarix konsepsiyası hansı dəyişikliyə məruz qaldı?
23. Niyə marksizm iqtisadi determinizm kimi qələmə verilir?
24. Niyə Üçüncü Dünya marksistləri millətçiliyi beynəlmiləlçilikdən üstün tutdular?
25. Vladimir Lenin və Nikolay Buxarın irəli sürdükləri imperializm nəzəriyyəsində müasir kapitalizm cəmiyyətini necə xarakterizə edirlər?
26. Marksizmin millətçilik ideologiyasına münasibəti necə idi?
27. Beynəlxalq münasibətlərin neomarksizm nəzəriyyəsinin görkəmli nümayəndələri kimlərdir?
28. Asılılıq nəzəriyyəsiinin əsas müddəaları hansılardır?
29. Periferiya ölkələrinin inkişaf etmiş ölkələrdən asılılığının azaldılması üçün neomarksistlər nə təklif edirlər?
30. Niyə neomarksistlər tərəfindən hiberliberalizm nəzəriyyəsinin tənqid olunması onların inkişaf etməkdə olan ölkələrin maraqlarını müdafiə etmələrinin göstəricisi hesab olunur?
31. İmmanuel Vallerştaynın dünya sistemi nəzəriyyəsinin əsas müddəaları hansılardır?
32. Beynəlxalq münasibətlərin neomarksizm və ənənəvi marksizm nəzəriyyələri arasında oxşar və fərqli cəhətləri hansılardır?
33. Beynəlxalq münasibətlərin marksizm nəzəriyyəsi mahiyyətinə görə nikbin yoxsa bədbin xarakter daşıyır? Niyə?
34. Dünya kommunist sisteminin dağılması marksizmin beynəlxalq münasibətlər konsepsiyasının təntənəsinin yoxsa iflasının göstəricisidir? Niyə?

## Ədəbiyyat

*Burchill S.* Liberalism. // Theories of International Relations (eds. Burchill, Scott and Andrew Linklater). Palgrave Macmillan Press, 2005.

*Cox R. W.* “Social Forces, States and World Orders: Beyond International Relations Theory”, // Millennium, 10(2), 1981

*Cox R. W.* “Gramsci, Hegemony and International Relations”, Millennium, 12(2), 1983.

*Валлерштайн И.* Анализ мировых систем: современное системное видение мирового сообщества // Социология на пороге XXI века: новые направления исследований. М., 1998.

*Daddow O.* International Relations Theory. London, 2009.

*Devetak R.* “The Project of Modernity and International Relations Theory”. // Millennium, 24(1), 1995.
*Halliday F.* The Making of the Second Cold War, London, 1983.
*Horkheimer M.* Critical Theory, New York, 1972.
*Gilpin R.* The Political Economy of International Relations. Princeton, 1987.*Merle M.* The Sociology of International Relations. Berg. N.Y., 1987.
*Гоулдманн К.* Международные отношения: общие проблемы // Политическая наука: новые направления / Под ред. Р.Гудина и Х.Д. Клингеманна. М., 1999.
*Kubalkova V. and Cruickshank A.* Marxism–Leninism and the Theory of International Relations. London, 1980.
*Ленин В.И.* Империализм как высшая стадия капитализма // Полн. собр. соч. Т. 27.
*Маркс К., Энгельс Ф.* Манифест Коммунистической партии // К. Маркс и Ф.Энгельс. Сочинения. 2-е изд. Т. 4. М., 1955.
*Маркс К.,* Тезисы о Фейербахе. // К. Маркс и Ф.Энгельс. Сочинения. 2-е изд. т. 3, стр. 1-4.
*Маркс К., Энгельс Ф.* Восемнадцатое брюмера Луи Бонапарта // К. Маркс и Ф.Энгельс. Сочинения. 2-е изд. Т. 8. М., 1955.
*Marcuse H.* One-Dimensional Man: Studies in the İdeology of Advanced İndustrial Society. New York, 1964
*Rüstəmov Y.İ.* Siyasi-hüquqi təlimlər tarixi. Dərs vəsaiti. Bakı, 2000.
*Теория международных отношений: Хрестоматия* / Под ред. и с комментариями П. А. Цыганкова. М., 2002.
*Цыганков П.А.* Теория международных отношений: Учебное пособие. М., 2006.
*Цыганков А.П.,* Цыганков П.А. Социология международных отношений. Учебное пособие. М., 2006.
*Wallerstein I.* The Modern World-System, vol. I: Capitalist Agriculture and the Origins of the European World-Economy in the Sixteenth Century, New York/London: Academic Press, 1974.
*Wallerstein I.* The Modern World-System, vol. II: Mercantilism and the Consolidation of the European World-Economy, 1600–1750. New York: Academic Press, 1980.
*Wallerstein I.* The Modern World-System, vol. III: The Second Great Expansion of the Capitalist World-Economy, 1730-1840s. San Diego: Academic Press, 1989.
*Wallerstein I.* The Modern World-System, vol. IV: Centrist Liberalism Triumphant, 1789–1914. Berkeley: University of California Press, 2011.

# IX FƏSİL
# KONSTRUKTİVİZM

## 9.1. Konstruktivizm nəzəriyyəsinin əsas müddəaları

Beynəlxalq münasibətlərin *konstruktivizm (sosial konstruktivizm)* nəzəriyyəsi XX əsrin 80-ci illərinin sonunda ABŞ-da meydana gəlmişdir. *"Konstruktivizm" terminini* beynəlxalq münasibətlər nəzəriyyəsinə ilk dəfə *amerikalı tədqiqatçı Nikolas Onyuf* daxil etmişdir. O, bu termin vasitəsilə beynəlxalq münasibətlər sahəsində baş verən hadisələrin sosial xarakter daşıdığını, yəni onların *müxtəlif ictimai faktorlarla (siyasi rejim, ideoloji amillər)* bağlı olduğunu göstərmək istəyirdi. Beynəlxalq münasibətlərin konstruktivizm nəzəriyyəsinin görkəmli nümayəndələrindən *Aleksandr Vendt, Mixael Barnet, Marta Faynmour, Fridrix Kratoçvil, Peter Katzensteyni* və başqalarını göstərmək olar.

Konstruktivizm nəzəriyyəsinin meydana gəlməsi dünya kommunist sisteminin dağılması və "soyuq müharibə"nin başa çatması dövrünə təsadüf edir. Həmin dövrdə hakim olan neorealizm və neoliberalizm nəzəriyyələri beynəlxalq münasibətlər sistemində baş verən mühüm hadisələri, ilk növbədə dünya kommunist sisteminin dağılması və "soyuq müharibə"nin başa çatması ilə əlaqədar yeni dünya düzəninin yaranmasını izah etməyə qadir deyildilər[6]. Belə olan şəraitdə hakim nəzəriyyələrin pozitivist metodologiyası tənqidə məruz qalırdı.

Konstruktivizm nəzəriyyəsi realizm və neorealizm nəzəriyyələrindən fərqli olaraq aktorları cəmiyyətin təsirindən təcrid olunmuş, səbəbi özündə olan bir qüvvə kimi deyil, *sosial mühitin normalarının, dəyərlərinin və ideyalarının təsiri altında formalaşan faktor* kimi qələmə verir. O, beynəlxalq münasibətlərin əhəmiyyətli cəhətlərinin maddi amillərlə yanaşı tarixi inkişafın nəticəsində cəmiyyətdə meydana gələn *ideoloji amillərin təsiri* altında formalaşdığını iddia edir. Konstruktivistlərə görə, aktorların kimliklərinin formalaşması onların maraqlarının yaranmasına səbəb olur. Aktorların sosial və siyasi agentlər kimi inkişafı məhz cəmiyyətdə baş verir.

Konstruktivizm nəzəriyyəsinin tədqiqat obyekti beynəlxalq münasibətlərin hakim nəzəriyyələrinin tədqiqat obyektlərindən fərqlənir. Realizm və neorealizm nəzəriyyələri tədqiqat obyekti kimi *təhlükəsizlik və maddi gücü,* liberalizm

---

[6] *Qeyd:* Beynəlxalq münasibətlər nəzəriyyələrinin tarixinə nəzər saldıqda belə bir mühüm qanunauyğunluq nəzərə çarpır: aparıcı nəzəriyyələrin, paradiqmaların meydana gəlməsi mühüm tarixi hadisələrlə eyni vaxta düşür. Əvvəlki fəsillərdən məlum olduğu kimi, beynəlxalq münasibətlərin liberalizm nəzəriyyəsinin yüksəlməsi Birinci Dünya müharibəsinin başa çatması dövründə, realizm nəzəriyyəsinin isə aparıcı nəzəriyyə statusuna nail olması dünya müharibələri arasındakı böhran illərində və İkinci Dünya müharibəsindən sonrakı illərdə baş vermişdir. Yuxarıda qeyd etdiyimiz kimi, konstruktivizm nəzəriyyəsinin meydana gəlməsi dünya kommunist sisteminin dağılması və "soyuq müharibə"nin başa çatması ilə eyni vaxta təsadüf edir. Bu nəzəriyyələrin hər birinin qeyd olunan tarixi hadisələrlə eyni vaxtda meydana gəlməsi təsadüfi deyil. Bu tarixi hadisələri izah etməyə müvəffəq olan, onların qoyduqları problemlərin həlli yoluna dair tövsiyələri irəli sürən hər bir nəzəriyyə həmin dövrdə aparıcı nəzəriyyə, paradiqmaya çevrilmişdir.

nəzəriyyəsi isə *iqtisadi qarşılıqlı asılılıq və əməkdaşlığı* götürür. Konstruktivizm beynəlxalq sistemin formalaşmasında və inkişaf etməsində *ideyaların* və *mənəvi dəyərlər kimi çıxış edən ideoloji amillərin* rolunu tədqiq edir.

İdeyalar dedikdə konstruktivizm beynəlxalq sistemdə fəaliyyət göstərən dövlət və qeyri-dövlət aktorlarına təsir edən gercəkliyin məqsəd, qorxu, təhdid, mənsubiyyət və bu kimi digər elementlərini nəzərdə tutur. *Amerikalı professor Mixail Barnett* (*Michael Barnett*) qeyd edir ki, beynəlxalq münasibətlərin konstruktivizm nəzəriyyəsi *ideyaların* beynəlxalq strukturu müəyyən etməsi, bu strukturun dövlətlərin maraqlarını və kimliyini təyin etməsi, həmçinin dövlət və qeyri-dövlət aktorlarının bu strukturu yenidən yaratmaları kimi məsələləri ehtiva edir. Konstruktivizm nəzəriyyəsinə əsasən, *beynəlxalq siyasət inandırıcı ideyalar, kollektiv dəyərlər, mədəniyyət və sosial mənsubiyyət* vasitəsilə formalaşır. Beynəlxalq münasibətlər maddi gerçəkliyə məna verən ideyalarla yaranır. Ənənəvi nəzəriyyələrin dəyişməz müddəalarını tənqid edərək konstruktivizm nəzəriyyəsi beynəlxalq münasibətlərin sosial konstruksiya olduğunu, yəni onun cəmiyyətdə dəyişikliklərə uğradığını göstərir. Qeyd olunduğu kimi, beynəlxalq münasibətlər sahəsində dəyişikliklərin səbəbləri ideyalarla, mənəvi dəyərlərlə bağlıdır.

Konstruktivizm realizm, neorealizm, liberalizm, neoliberalizm və İngilis Məktəbi (rasionalizm) kimi hakim nəzəriyyələrdən yuxarıda göstərilən cəhətlərə görə fərqlənsə də *avstraliyalı professor Kristian Roys-Smitin* qeyd etdiyi kimi, onun İngilis Məktəbi (rasionalizm) nəzəriyyəsi ilə üç mühüm oxşar cəhəti vardır. Birincisi, konstruktivistlər rasionalistlər kimi *beynəlxalq sistem* və *beynəlxalq cəmiyyət* arasında müqayisə apararaq müasir dövlətlərin beynəlxalq cəmiyyət qurmağa can atdıqlarını iddia edirlər, yəni onlar dövlətlərin bir-biri ilə münasibətlərini ümumi maraqlar əsasında qurmaq istədiklərini qeyd edirlər. İkincisi, konstruktivistlər İngilis Məktəbinin nümayəndələri kimi müxtəlif xalqların, dövlətlərin tarixi inkişafının və mədəniyyətlərinin xüsusiyyətlərinin öyrənilməsinin və nəzərə alınmasının vacibliyini vurğulayırlar. Üçüncüsü, konstruktivistlər rasionalistlər kimi neorealistlərin tətbiq etdikləri pozitivizm metodologiyasından irəli gələn verifikasiya və sübuta deyil, adi izaha, mühakiməyə əsaslanan klassik yanaşma metodunu tətbiq edirlər.

Konstruktivizm tarixi mərhələlərin xüsusiyyətlərini yaxud dövlətlərin daxili şəraitindəki fərqli cəhətləri nəzərə almayan hakim nəzəriyyələrin, xüsusilə neorealizmin beynəlxalq münasibətlərin ümumi nəzəriyyəsini yaratmaq ideyasını absurb adlandırır. Konstruktivizmə əsasən, ictimai elmlər sahəsinə aid olan biliyin, nəzəriyyənin məzmununa cəmiyyətdəki ideyalar, mədəni dəyərlər, tarixi və siyasi şərait təsir göstərir. Dünyada mədəni dəyərlərin, tarixi və siyasi şəraitin müxtəlif olması səbəbindən dövlətlərin maraqları bir-birindən fərqlənir. Konstruktivizm ictimai elmlər, o cümlədən beynəlxalq münasibətlər nəzəriyyəsi sahəsinə aid olan

biliyin, nəzəriyyənin universal xarakter daşıması ideyasını, yəni onun bütün dövrlərə və bütün cəmiyyətlərə aid olması ideyasını təkzib edir. Konstruktivistlər, yuxarıda qeyd etdiyimiz kimi, müxtəlif xalqların, dövlətlərin tarixi inkişafının, mədəniyyətlərinin xüsusiyyətlərinin öyrənilməsinin və nəzərə alınmasının vacib olduğunu qeyd edirlər.

Biliyin, nəzəriyyənin məzmununa cəmiyyətdəki mədəni dəyərlərin, tarixi və siyasi şəraitin təsir etməsinə dair konstruktivizmin irəli sürdüyü fikrin böyük praktiki əhəmiyyəti vardır. Belə ki, bu fikir cəmiyyətdə mövcud olan mədəni dəyərləri, konkret tarixi və siyasi şəraiti nəzərə almadan Qərbin reallıqlarını əks edən dəyərləri universal hesab edərək bütün ölkələrə şamil etməsinin yanlış olduğunu göstərir. Konstruktivistlərin fikrincə, Qərbin reallıqlarını əks edən və universal hesab olunan belə yanlış fikirlərdən biri *"demokratiya və onun dünyada sülhün qorunmasına kömək etməsi"* fikridir. Konstruktivistlər hesab edirlər ki, mədəni determinizm prinsipi demokratiyanın universal dəyər olaraq bütün ölkələrə yayılmasını düzgün addım hesab etmir. Əgər bu və ya digər cəmiyyətdə demokratiya üçün lazımi mədəni, tarixi və siyasi şərait yoxdursa, o, zorla yeridilməməlidir. Əks halda cəmiyyətin sosial-iqtisadi inkişafında geriləmə, siyasi sahəsində isə destruktiv hadisələrin yaranması müşahidə olunacaqdır. Məsələn, keçmiş Sovet İttifaqında demokratikləşmənin müəyyən cəhətlərinin (aşkarlıq, xüsusi mulkiyyətə əsaslanan təsərrüfat fəaliyyəti növlərinin yaradılması) cəmiyyətdə gerçəkləşdirilməsini nəzərdə tutan *Mixail Qorbaçovun Yenidənqurma siyasəti* Sovet imperiyasının süqutuna səbəb olan əsas səbəblərdən biri *etnik millətçiliyin* meydana gəlməsi üçün zəruri şərait yaratmışdır.

Konstruktivistlərin demokratiyanın və digər Qərb dəyərlərinin qeyri-Qərb cəmiyyətləri üçün münasib olmaması fikrini ötən əsrin 80-ci illərində bir sıra Şərqi Asiya ölkələrində meydana gəlmiş *"Asiya inkişaf yolu" konsepsiyasının* tərəfdarları da müdafiə edirlər. Onlar hesab edirlər ki, demokratiya, insan haqları, fərdin azadlığı və bu kimi digər Qərb dəyərləri bir çox Şərqi Asiya xalqlarının mədəni əsasını təşkil edən *Konfusianizmə* ziddir. Belə ki, Konfusianizm fərdiyyətçiliyi inkar edərək kollektivizm və əməkdaşlığı təbliğ edir. "Asiya inkişaf yolu" konsepsiyasının əsasını qoyanlardan biri *Sinqapurun keçmiş baş naziri Li Kuan Yev* müasir Amerika cəmiyyətinin üzləşdiyi problemlərə öz tənqidi münasibətini bildirərək qeyd edir ki, fərdə cəmiyyətdə istədiyi kimi özünü aparmaq hüququnun verilməsi cəmiyyətdə qayda-qanunun pozulmasına səbəb olur. Onun fikrincə, Qərb dəyərlərinin Şərqi Asiya cəmiyyətində yayılması ənənəvi ailə münasibətlərini dağıdır, narkomaniyanın yayılmasına və cinayətin artmasına səbəb olur.

Konstruktivizm nəzəriyyəsinin yaranmasında və inkişafında sosiologiya elminin böyük rolu olmuşdur. Bu, sosioloji yanaşmanın konstruktivizm nəzəriyyəsinin əsas müddəalarının əsaslandırılmasında və burada empirik metodun

geniş tətbiq olunmasında özünü büruzə verir. Sosioloji yanaşmaya əsaslanaraq konstruktivizm beynəlxalq münasibətlərin mühüm aspektlərini, orada baş verən hadisələrin səbəblərini realizmdən fərqli olaraq insanın təbiəti ilə deyil, neorealizmdən fərqli olaraq beynəlxalq sistemin anarxiya vəziyyəti ilə deyil, tarixi inkişafın və sosial və mədəni faktorların inkişaf xüsusiyyətləri ilə əlaqələndirir. Aleksander Vendt, Riçard Eşli, Marta Faynmour, Fridrix Kratoçvil, Con Racci kimi konstruktivistlər sosioloji yanaşmanın əsasında beynəlxalq münasibətlər sahəsində baş verən hadisələrin səbəblərini müəyyən tarixi və sosial faktorlarla izah edirlər.

Beynəlxalq münasibətlərin konstruktivizm nəzəriyyəsinin xüsusiyyətləri ilk növbədə onun *beynəlxalq sistem* haqqında irəli sürdüyü müddəalarda əks olunur. Buna görə də növbəti yarımfəsildə konstruktivizmin *beynəlxalq sistem konsepsiyasını* tədqiq edəcəyik.

### 9.2. Konstruktivizmin beynəlxalq sistem konsepsiyası

Konstruktivizmin meydana gəldiyi və yüksəldiyi dövrdə hakim nəzəriyyələri əsasən neorealizm təmsil etdiyinə görə konstruktivizmin əsas hücum hədəfi neorealizm olmuşdur. Neorealizm kimi konstruktivizm də beynəlxalq münasibətləri tədqiq edərkən *sistemli yanaşmaya* əsaslanır. Hər iki nəzəriyyə beynəlxalq sistemin strukturdan və aktorlardan (dövlətlər) ibarət olduğunu qeyd edir. Hər iki nəzəriyyə beynəlxalq sistemin anarxiya vəziyyətində olduğunu xüsusi olaraq vurğulayır. Beynəlxalq sistemin anarxiya vəziyyətində olmasını isə bu iki nəzəriyyə dövlətlərə təsir edə biləcək ali hakimiyyətin olmaması ilə izah edir. Hər iki nəzəriyyə anarxiya şəraitində olan beynəlxalq sistemdə fəaliyyət göstərən dövlətləri tədqiqat mərkəzinə yerləşdirir. Lakin neorealistlərdən fərqli olaraq konstruktivistlər beynəlxalq sistemin *sosial xarakter* daşıdığını göstərirlər. Konstruktivistlər aktorların qarşılıqlı təsiri altında beynəlxalq sistemin transformasiyaya məruz qaldığını qeyd edirlər. Məsələn, bununla əlaqədar *Aleksander Vendt* qeyd edir ki, beynəlxalq sistem yalnız aktorların qarşılıqlı təsiri altında formalaşır, yenidən yaranır və transformasiyaya uğrayır. Beynəlxalq sistemin strukturu ilə aktorlar arasında münasibəti təhlil edərkən neorealizm *strukturu* əsas, muəyyənedici güvvə kimi qələmə verərək aktorların (dövlətlərin) beynəlxalq sistemdəki fəaliyyətlərini ondan asılı olduğunu göstərir. Kennet Voltsa görə, struktur elə bir qüvvədir ki, ona aktorlar nəzarət edə bilmirlər. Struktur dövlətlərin beynəlxalq sistemdə fəaliyyətlərini məhdudlaşdırır. Konstruktivizm isə hər iki faktorun *eyni gücə, eyni statusa* malik olduğunu qeyd edərək, onların qarşılıqlı asılılıqlarını, bir-birinin formalaşmasına təsir etdiklərini qeyd edir. Aleksander Vendt hesab edir ki, struktur yalnız sosial qarşılıqlı təsir, yəni aktorların bir-biri ilə qarşılıqlı münasibətdə olmaları vasitəsilə mövcud olur. Bununla əlaqədar Vendt *"Beynəlxalq siyasətin sosial nəzəriyyəsi"* əsərində yazır:

“Beynəlxalq münasibətlərin xarakteri dövlətlərin bir-biri haqqında söylədikləri fikirlərdən və gözləntilərdən asılıdır. Bu isə maddi strukturlar vasitəsilə (yəni güc, təhlükəsizlik. - N.E.) deyil, sosial strukturlar vasitəsilə müəyyən olunur”. Bir sözlə, konstruktivizmə əsasən, struktur aktorların beynəlxalq münasibətlər sistemində fəaliyyətlərinə təsir etməklə yanaşı onların bir-birinə olan münasibətindən asılıdır.

Konstruktivizmin beynəlxalq sistem haqqında söylədikləri mühüm fikirlərdən biri də onun *anarxik* olması fikridir. Yuxarıda qeyd etdik ki, neorealizm də beynəlxalq sistemin anarxiya vəziyyətində olduğunu iddia edir. Neorealizmə əsasən, beynəlxalq sistemin anarxik xarakter daşıması beynəlxalq siyasətin mahiyyətini müəyyən edir. Anarxiya şəraitində beynəlxalq siyasət bilavasitə dövlətlər arasında gücün paylaşması ilə müəyyən edilir. Dövlətlər arasındakı mübahisələri tənzimləyən ali hakimiyyətin yoxluğu onları özünə kömək sistemini yaratmağa, silahlanmağa vadar edir.

Aleksander Vendt neorelizmin bu müddəalarına münasibət bildirərək qeyd edir ki, anarxiya digər sosial institutlar kimi əvvəlcədən verilmiş bir hadisə deyil, o, sosial transformasiya nəticəsində meydana gələn bir hadisədir. Yeri gəlmişkən qeyd edək ki, konstruktivizm neorealizmin anarxiya haqqında irəli sürdüyü ideyaya qarşı bir tənqidi münasibət kimi formalaşmışdır. Vendt göstərir ki, beynəlxalq sistemin anarxik strukturu əzəldən mövcud olmamışdır. Bu struktur cəmiyyətdə baş verən proseslərin təsiri ilə formalaşmışdır. Beynəlxalq sistemdə fəaliyyət göstərən aktorların kimliklərini və maraqlarını nəzərə almadıqlarına, sosial institutların, o cümlədən anarxiyanın bu aktorlar üçün əhəmiyyətini aydınlaşdırmadıqlarına görə neorealistlərin anarxiya haqqında söylədikləri fikirlərdə beynəlxalq siyasət, dövlətlərarası münasibətlər haqqında olduqca az məlumat əks olunmuşdur. Vendt neorealistlərin anarxiyanın aktorların fəaliyyətlərinə müəyyənedici təsir göstərməsinə dair fikirlərini təkzib edərək göstərir ki, anarxiya beynəlxalq münasibətlər sistemində dövlətlərin fəaliyyətlərini zəruri olaraq müəyyən etmir, eləcə də onları özünə kömək sistemini yaratmağa məcbur etmir. Yalnız konkret sosial şəraitdən asılı olaraq anarxiya dövlətləri özlərinə kömək etməyə məcbur edə bilər. Belə bir şərait dövlətlər təhlükəsizliyi *rəqabətedici, nisbi məfhum* kimi qəbul etdikdə, yəni bir dövlətin təhlükəsizliyinin təmin olunması başqa dövlətin təhlükəsizliyinin itirilməsi bahasına baş verdikdə yaranır. Lakin dövlətlərin təhlükəsizliyi *əməkdaşlıq* kimi qəbul edildikdə, yəni bir dövlətin təhlükəsizliyinin təmin olunması başqa dövlətin təhlükəsizliyinə xələl yetirmədikdə, yaxud dövlətlər təhlükəsizliyi *kollektiv* şəkildə qəbul etdikdə, yəni başqa dövlətlərin təhlükəsizliklərinin təmin olunmasını dövlətlər özləri üçün vacib, faydalı hesab etdikləri hallarda, anarxiya dövlətləri özlərinə kömək etməyə sövq etməyəcəkdir, yəni onları qızğın silahlanmağa yönəltməyəcəkdir.

Beləliklə, konstruktivistlər beynəlxalq sistemin anarxiya vəziyyətində olmasını göstərməklə yanaşı neorealistlərdən fərqli olaraq bu anarxiyanın xarakterinin sosial şəraitdən asılı olduğunu qeyd edirlər. Bunun nəticəsində konstruktivistlər neorealistlərin anarxiyanın birmənalı olaraq müharibəyə səbəb olması fikrini rədd edirlər. Bununla belə anarxiyanın sosial şəraitdən asılı olaraq müharibəyə səbəb ola biləcəyini nəzərə alan konstruktivizm nəzəriyyəsi onun aradan götürülməsinin vacib olduğunu qeyd edir. Aleksander Vendt 2003-cü ildə nəşr etdiyi *"Niyə dünya dövləti zəruridir?"* adlı məqaləsində *beynəlxalq sistemin anarxik strukturunun dünya dövləti ilə əvəz olunmasının* vacibliyini göstərir. Vendt dünya dövlətinin yaradılmasının vacibliyini *iki əsas səbəblə* izah edir.

Birinci səbəb *maddi arqumentlə* bağlıdır. Dünya dövlətinin hələ də mövcud olmamasının ziyanı gündən–günə artır, çünki kütləvi qırğın silahlarının artması, terrorizmin yayılması beynəlxalq sistemdə zorakılığı artırır. Vendt hesab edir ki, müasir dövrdə fərdlər, qruplar ən çox təhlükəsizliyi, gücü, var-dövləti deyil, özlərinin hüquq və azadlıqlarının tanınmasını və onlara hörmət edilməsini istəyirlər. Buna isə, Vendtin qənaətinə görə, dünya dövlətinin yaradılması ilə nail olmaq mümkündür.

Dünya dövlətinin yaradılmasının vacibliyinin ikinci səbəbini Vendt *dünya dövlətinin əleyhinə güclü arqumentin olmaması* ilə izah edir. Onun fikrincə, müasir beynəlxalq münasibətlər sistemi dövlətləri, xalqları bir- birinə qarşı yönəldir və buna bəraət qazandırır. Dünya dövləti heç bir dövlətə belə haqq verməyəcəkdir. Vendt haqlı olaraq qeyd edir ki, dünya dövləti ideyasını daha çox liberallar müdafiə edirlər.

### 9.3. Konstruktivizm beynəlxalq aktorların kimlikləri və maraqları haqqında

Anarxiyanın aktorların (dövlətlərin) fəaliyyətlərinə təsirinin xarakterinin sosial şəraitdən, yəni dövlətlərin təhlükəsizliyi rəqabət və ya əməkdaşlıq kimi qəbul etmələrindən asılı olduğunu göstərməklə konstruktivistlər beynəlxalq aktorların *kimliklərinin və maraqlarının* təhlil olunmasına xüsusi önəm verirlər. Onların fikrincə, beynəlxalq aktorların kimliklərini və maraqlarını müəyyən etmədən onların beynəlxalq münasibətlər sistemində fəaliyyətlərini anlamaq mümkün deyil.

Konstruktivizm beynəlxalq aktorların kimliklərinin və maraqlarının insan təbiətindən irəli gələn, maddi strukturlar (güc, təhlükəsizlik) vasitəsilə müəyyən olan, yaxud obyektiv mövcud olan hadisə kimi deyil, bu və ya digər cəmiyyətdə mövcud olan ideyaların, dəyərlər sisteminin təsiri nəticəsində yaranan və dəyişikliklərə məruz qalan hadisələr kimi xarakterizə edir. Beynəlxalq aktorların kimliklərinin və maraqlarının mahiyyəti onların öz kimlikləri və maraqlarını dərk etmələri ilə müəyyən olunur, yəni aktorların *subyektiv münasibətindən* asılıdır.

Aktorların öz kimlikləri və maraqlarının dərk olunmasına isə onları əhatə edən müxtəlif hadisələr, xüsusilə cəmiyyətdə mövcud olan ideyalar, dəyərlər sistemi təsir edir. Başqa sözlə desək, konstruktivistlərə görə, cəmiyyətdə mövcud olan ideyalar, dəyərlər sistemi aktorların kimliklərinin və maraqlarının məzmununu müəyyən edir. Konstruktivizm nəzəriyyəsinin tanınmış nümayəndələrindən *Marta Faynmour* dövlətlərə onların maraqlarını dərk etmələrində kömək göstərən beynəlxalq təşkilatların rolunu yüksək qiymətləndirir. Onun fikrincə, maraq kənarda mövcud olan və özünün aşkar olunmasını gözləyən hadisə deyil. Maraq qarşılıqlı sosial təsirin (*social interaction*) vasitəsilə cəmiyyətdə formalaşır və beynəlxalq münasibətlər sistemində dövlətlərin fəaliyyətlərini müəyyən edir.

Neorealizm beynəlxalq aktorların (dövlətlərin) maraqlarını təhlükəsizliyin və hərbi-iqtisadi gücün artmasında, liberalizm isə bu maraqları siyasi və iqtisadi institutların demokratikləşdirilməsində görür. Konstruktivizm beynəlxalq aktorların maraqlarının onların kimliklərindən asılı olduğunu qeyd edir. Konstruktivizm bu maraqların sosial xarakter daşıdıqlarını qeyd edərək onların cəmiyyətdə mövcud ideyalar, dəyərlər sisteminin təsiri altında formalaşdıqlarını və dəyişdiklərini göstərir. Hakim nəzəriyyələr beynəlxalq aktorların maraqlarının necə və hansı faktorların təsiri altında formalaşdıqları məsələsini tədqiq etmirlər. Onları yalnız bu maraqları dövlətlər *necə həyata keçirmələri* narahat edir. Hakim nəzəriyyələr cəmiyyəti dövlətlərin öz məqsədlərini həyata keçirdikləri strateji məkan hesab etməklə onun aktorların maraqlarının dəyişməsinə heç bir təsir etməyəcəyini iddia edirlər. Konstruktivistlər isə əksinə hesab edirlər ki, dövlətlərin maraqlarının necə və hansı faktorların təsiri altında formalaşdıqlarını və dəyişdiklərini bilmək çox vacibdir. Belə ki, bunun vasitəsilə beynəlxalq münasibətlər sistemində baş verən hadisələri izah etmək mümkün olur. Konstruktivistlər dövlətlərin maraqlarının formalaşmasını anlamaq üçün fərdlərin və ya dövlətlərin kimliklərinin müəyyən olunmasını vacib hesab edirlər. Bununla əlaqədar Aleksander Vendt qeyd edir ki, maraqların əsasını kimliklər təşkil edir. Məsələn, alimin kimliyi onun maraq dairəsini tədqiqat aparmağa yönəldir, futbolçunun kimliyi isə onun maraq dairəsinə oyun zamanı rəqib qapısına qol vurmağı, öz qapısını qorumağı daxil edir. Dövlət səviyyəsində də kimliyin mahiyyəti maraqların məzmununa həlledici təsir göstərir. Totalitar və avtoritar siyasi rejimlərə mənsub olan dövlətlər cəmiyyətdə demokratiyanın, siyasi plüralizmin yayılmasında, azad seçkilərin keçirilməsində maraqlı deyil.

Yuxarıda qeyd etdik ki, konstruktivizmə görə, beynəlxalq münasibətlər sisteminin strukturu ilə aktorlar arasında qarşılıqlı asılılıq münasibətləri mövcuddur. Bu iki faktor bir-birinə təsir edir, xüsusilə bir-birinin yaranmasında mühüm rol oynayır. Beynəlxalq münasibətlər sisteminin strukturunun aktorlara təsiri onların kimlik və maraqlarının formalaşmasında özünü xüsusilə büruzə verir. Məlum

olduğu kimi, neorealizmdən fərqli olaraq, konstruktivistlər beynəlxalq aktorların kimlik və maraqlarının formalaşmasına maddi strukturların yox, normativ və ideoloji strukturların təsir etdiyini qeyd edirlər. Konstruktivistlərin fikrincə, cəmiyyətdə mövcud olan mənəvi dəyərlər, ideyalar hər bir aktorun kimliyini, həmçinin onun müvafiq iqtisadi, siyasi və mədəni fəaliyyətinin məqsədini və xarakterini müəyyən edir. Kristian Roys-Smit göstərir ki, konstruktivistlər normativ və ideoloji strukturların aşağıda qeyd olunan üç mexanizm vasitəsilə aktorların kimliklərinin və maraqlarının formalaşmasına təsir etməsini qeyd edirlər: *təsəvvür, kommunikasiya və məcburetmə*.

*Təsəvvürə* münasibətdə konstruktivistlər hesab edirlər ki, cəmiyyətdə mövcud olan normativ və ideoloji strukturlar aktorların fəaliyyətlərini müəyyən edir, yəni mövcud şəraitdə aktorlar nə edə biləcəklərinə dair nə düşünürlər, onlar qarşılarında hansı maneələri görürlər və öz məqsədlərinə nail olmaqlarını necə təsəvvür edirlər. Başqa sözlə desək, cəmiyyətdəki normativ və ideoloji strukturlar aktorların fəaliyyətlərindəki zəruri və mümkün hesab etdikləri addımları müəyyən edirlər. Məsələn, demokratik bir cəmiyyətdə prezident və ya baş nazir öz hakimiyyətini möhkəmlətmək üçün yalnız təsəvvür edəçək və müəyyən strategiyadan istifadə edəcəkdir. Onun təsəvvürü yaşadığı demokratik cəmiyyətin mənəvi və ideoloji normaları tərəfindən müəyyən olunacaqdır.

Normativ və ideoloji strukturlar *kommunikasiya* vasitəsilə də aktorların kimliklərinə və maraqlarına təsir edir. Fərd və ya dövlət öz fəaliyyətinə bəraət qazandırmaq üçün legitim davranışın mövcud normalarına arxalanacaqdır. Məsələn, demokratik dövlət ölkənin daxilində gördükləri işlərə bəraət qazandırmaq üçün hüquqi normativ aktlara istinad edir. Bəzi hallarda, xüsusilə dövlətlərin beynəlxalq münasibətlər sahəsindəki fəaliyyətindən söz gedəndə, bəzi mövcud hüquqi aktlar bir-biri ilə ziddiyyət təşkil edir. Belə olan hallarda ideoloji, mənəvi arqumentin əhəmiyyəti artır. Məsələn, ABŞ və onun müttəfiqləri keçmiş Yuqoslaviyaya, İraqa və Liviyaya hərbi müdaxilə edərkən ideoloji, mənəvi arqumentə istinad edirdilər.

Nəhayət, normativ və ideoloji strukturların aktorların kimliklərinin və maraqlarının formalaşmasına təsəvvür və kommunikasiya mexanizmləri vasitəsilə təsir etmək mümkün olmadıqda, *məcburetmə* mexanizmindən istifadə olunur. Məcburetmə mexanizmi aktorların davranış və hərəkətlərini tənzimləyir, onlara məhdudiyyət qoyur. Cəmiyyətdə qəbul olunmuş normativ və ideoloji strukturlar aktorların fəaliyyətlərini tənzimləyərək onları müəyyən məsələnin həll olunmasına yönəldir.

### 9.4. Konstruktivizm nəzəriyyəsinin dəyərləndirilməsi

Beynəlxalq münasibətlərin tənqidi nəzəriyyələri ictimai elmlər sahəsinə aid olan hər bir bilik sisteminin, nəzəriyyənin, o cümlədən beynəlxalq münasibətlər nəzəriyyəsinin siyasi təsirə məruz qaldığını üzə çıxarmaqla, onun ideoloji xarakter daşıdığını, bu və ya digər sosial qrupun marağının əks etdiyini göstərməklə, sosial gerçəkliyi legitimləşdirmək deyil, onu tənqidi təhlil edərək orada əsaslı şəkildə dəyişikliklərin həyata keçirilməsinin vacibliyini göstərir. Bununla tənqidi nəzəriyyələr beynəlxalq münasibətlərin öyrənilməsinə əhəmiyyətli təsir göstərir. Konstruktivizm nəzəriyyəsi tənqidi nəzəriyyələrin konkret bir növü kimi müasir dövrdə onların əsas cəhətlərini aydın şəkildə təqdim edir.

Konstruktivizm nəzəriyyəsinin meydana gəlməsi beynəlxalq münasibətlər sahəsində baş verən hadisələrin dərk olunmasına münasibətdə yeni bir yanaşma idi. Heç təsadüfi deyil ki, konstruktivizmi ədəbiyyatda yeni bir analitik çərçivə kimi qələmə verirlər. O, hər bir hadisənin *sosial xarakter* daşıdığını qeyd edir, ictimai elmlər sahəsinə aid olan biliyin, nəzəriyyənin məzmununa cəmiyyətdəki ideyaların, normaların, mədəni dəyərlərin, tarixi, xüsusilə siyasi şəraitin təsir etdiyini göstərir. Konstruktivizm nəzəriyyəsi hətta anarxiyanın, həmçinin aktorların kimliklərinin və maraqlarının sosial xarakter daşıdığını qeyd edir. Konstruktivizmin başqa bir xüsusiyyəti onun sosial faktorların sırasında qeyri-maddi faktorlara, ilk növbədə ideyalara, mədəni dəyərlərə, mədəniyyətə xüsusi önəm verməsidir. Bir sözlə, konstruktivizm nəzəriyyəsi beynəlxalq münasibətlərin təhlilində sosioloji və kulturoloji yanaşmalara yüksək önəm verir. O, beynəlxalq münasibətlərin təhlil olunmasında sosial ölçünün rolunu xüsusilə qiymətləndirir.

Qeyd etmək lazımdır ki, konstruktivizm nəzəriyyəsinin meydana gəlməsinədək olan dövrdə beynəlxalq münasibətlərin hakim nəzəriyyələrində geniş yayılmış materialist və rasionalist yanaşmaları beynəlxalq münasibətlər sahəsində baş verən hadisələrin təhlili zamanı tarixi, sosioloji və kulturoloji metodların roluna lazımınca əhəmiyyət vermirdi. Məsələn, materialist yanaşmaya görə, hər bir dövlətin beynəlxalq münasibətlər sistemində yeri və fəaliyyəti ilk növbədə onun hərbi gücü ilə müəyyən olunur. Materialist yanaşmanı əsas tutan realizm, neorealizm və neoliberalizm nəzəriyyələri hər bir dövlətin marağının əsasında hərbi gücün artırılması məqsədinin durduğunu qeyd edirlər. Onlar hərbi gücü dövlətin beynəlxalq münasibətlər sistemində fəaliyyətinin hərəkətverici qüvvəsi kimi xarakterizə edirlər.

Beynəlxalq münasibətlərin hakim nəzəriyyələrində tətbiq olunan başqa bir yanaşma- rasionalist yanaşma isə xalqları, dövlətləri eyni məntiqə əsaslanan, cəmiyyətin təsirindən müəyyən mənada təcrid olunmuş, ideyaların, mədəni dəyərlərin təsirinə uğramayan, maraqları cəmiyyətdaxili faktorlardan deyil, əvvəlcədən verilmiş kimi təsvir edir. Hər iki yanaşma hərbi gücü əsas götürməklə

beynəlxalq münasibətlər sahəsində dövlətlərin fəaliyyətlərinə qeyri-maddi faktorların, ilk növbədə ideyaların və mədəni dəyərlərin təsirini inkar edir.

Konstruktivizm nəzəriyyəsi tarixi, sosioloji və kulturoloji metodların əsasında dövlətlərin beynəlxalq münasibətlər sistemində olan fəaliyyətlərindəki ümumi məntiq ideyasını, yəni dövlətlərin fəaliyyətlərinin universal səbəb-nəticə əlaqələri əsasında baş verməsi ideyasını təkzib edir. Bu nəzəriyyə müxtəlif mədəniyyətlərə malik olan dövlətlərin beynəlxalq münasibətlər sistemində fəaliyyətlərini anlamaq üçün eyni meyarların tətbiq edilməsinin yanlış olduğunu göstərir. Konstruktivizm dövlətlərin tarixi inkişafının xüsusiyyətlərinin, o cümlədən mədəniyyətlərinin xüsusiyyətlərini nəzərə alınmasının vacibliyini qeyd edir. Bu işin həyata keçirilməsində isə konstruktivizm nəzəriyyəsi tarixi, sosioloji və kulturoloji metodlardan geniş istifadə edir.

Beləliklə, konstruktivizm nəzəriyyəsi tənqidi nəzəriyyələrin əsas müddəalarını yeni tarixi şəraitdə inkişaf etdirmişdir. Konstruktivizm nəzəriyyəsinin irəli sürdüyü müddəalar onun beynəlxalq münasibətlər nəzəriyyəsi fənninin inkişafında yeni bir mərhələ olmasına səbəb olmuşdur. Onun beynəlxalq münasibətlər nəzəriyyəsi fənninə gətirdiyi yeni müddəalar ideyaların, mənəvi dəyərlərin beynəlxalq münasibətlər sahəsində bir sıra mühüm dəyişikliklərə səbəb olduğunu göstərməklə bu fənnin fəlsəfi xarakterini gücləndirmişdir.

### *Fəslə aid suallar*

1. Beynəlxalq münasibətlərin konstruktivizm nəzəriyyəsi nə vaxt və harada meydana gəlmişdir?
2. Beynəlxalq münasibətlərin konstruktivizm nəzəriyyəsinin görkəmli nümayəndələri kimlərdir?
3. Beynəlxalq münasibətlərin konstruktivizm nəzəriyyəsi mahiyyətinə görə nikbin, yoxsa bədbin xarakter daşıyır? Niyə?
4. Beynəlxalq münasibətlərin konstruktivizm nəzəriyyəsi hakim yoxsa tənqidi nəzəriyyələr qrupuna daxildir? Niyə?
5. Beynəlxalq münasibətlərin konstruktivizm nəzəriyyəsinə əsasən, beynəlxalq münasibətlər sahəsində baş verən hadisələr təbii yoxsa sosial xarakter daşıyır? Niyə?
6. Beynəlxalq münasibətlərin konstruktivizm nəzəriyyəsinə əsasən, aktorların sosial və siyasi agentlər kimi inkişafı harada reallaşır?
7. Beynəlxalq münasibətlərin konstruktivizm nəzəriyyəsinin tədqiqat obyekti nədir?

8. Beynəlxalq münasibətlərin konstruktivizm nəzəriyyəsinə əsasən, ideyalar nədir?
9. Kristian Roys-Smitiə görə, konstruktivizm nəzəriyyəsinin İngilis Məktəbi (rasionalizm) nəzəriyyəsi ilə oxşar cəhətləri nədir?
10. Beynəlxalq münasibətlərin konstruktivizm nəzəriyyəsinə əsasən, beynəlxalq münasibətlərin ümumi nəzəriyyəsini yaratmaq mümkündür? Niyə?
11. Beynəlxalq münasibətlərin konstruktivizm nəzəriyyəsinə əsasən, dövlətlərin maraqları bir-birindən fərqlənir yoxsa oxşardır? Niyə?
12. Beynəlxalq münasibətlərin konstruktivizm nəzəriyyəsi Qərbin təqdim etdiyi dəyərləri universal hesab edir? Niyə?
13. Beynəlxalq münasibətlərin konstruktivizm nəzəriyyəsinin tədqiqat obyekti hansı metodlar vasitəsilə tədqiq olunur?
14. Beynəlxalq münasibətlərin konstruktivizm nəzəriyyəsi demokratiyanın universal dəyər olaraq bütün ölkələrə yayılmasını mümkün hesab edir? Niyə?
15. Beynəlxalq münasibətlərin konstruktivizm nəzəriyyəsi ilə “Asiya inkişaf yolu” konsepsiyası Qərb dəyərlərinin qeyri-Qərb cəmiyyətlərində yayılmasına dair hansı fikri bölüşdürürlər?
16. Niyə “Asiya inkişaf yolu” konsepsiyasının tərəfdarları Qərb dəyərlərini Konfusianizmə zidd olduğunu qeyd edirlər?
17. Beynəlxalq münasibətlərin konstruktivizm nəzəriyyəsinin yaranmasında və inkişafında sosiologiya elminin böyük rolu nə ilə izah olunur?
18. Beynəlxalq münasibətlərin konstruktivizm və neorealizm nəzəriyyələri arasında oxşar və fərqli cəhətləri hansılardır?
19. Aleksander Vendtə görə, beynəlxalq sistem necə yaranır?
20. Aleksander Vendt beynəlxalq sistemin anarxiya vəziyyətində olmasının səbəbini nədə görür?
21. Aleksander Vendtə görə, hansı halda anarxiya dövlətləri özlərini müdafiə etməyə sövq edir?
22. Aleksander Vendt dünya dövlətinin yaradılmasının vacibliyini nə ilə əsaslandırır?
23. Beynəlxalq münasibətlərin konstruktivizm nəzəriyyəsinə əsasən, beynəlxalq aktorların kimlikləri və maraqları hansı amillərin təsiri nəticəsində yaranır?
24. Niyə beynəlxalq münasibətlərin konstruktivizm nəzəriyyəsi dövlətlərin maraqlarının necə və hansı faktorların təsiri altında formalaşdıqlarının və dəyişdiklərinin vacib olduğunu qeyd edir?

## Ədəbiyyat

*Barnett, M. and Duvall, R. D.* Power in World Politics, //International Organization, 59(1), 2004. *Barnett, M. and Finnemore. M.* Rules for the World: International Organizations in Global Politics (Ithaca) 2004.

*Burchill S. and Linklater A.* Theories of International Relations. N.Y.: St. Martin Press., 1996.

*Dupont A.* Is there an Asian way? //Survivals. The IISS quarterly, vol. 38, #2, 1996.

*Fearon J.* Domestic Politics, Foreign Policy, and Theories of International Relations. *//Annual Review of Political Science*. Vol. 1: 28, 1998.

*Kratochwil, F.* Constructing a New Orthodoxy? Wendt's' "Social Theory of International Politics and the Constructivionist Challenge",// Millennium: Journal of International Studies, 29(1), 2000.

*Patten C.* Asian values and Asian success. A speech by the Governor of Hong Kong. //Survivals. The IISS Quarterly, vol. 38, #2, 5-12, 1996.

*Rüstəmov Y.İ.* Siyasi-hüquqi təlimlər tarixi. Dərs vəsaiti. Bakı, 2000.

*Цыганков П.А.* Теория международных отношений: Учебное пособие. М., 2006.

*Цыганков А.П., Цыганков П.А.* Социология международных отношений. Учебное пособие. М., 2006.

*Wendt A.* 'Anarchy is what States Make of it, // International Organization, 46, 1992.

*Wendt A.* Social Theory of International Politics. Cambridge: Cambridge University Press., 1999.

*Wendt A.* Why a World State is Inevitable, //European Journal of International Relations, 9(4), 2003.

# X FƏSİL
# FEMİNİZM

## 10.1. Feminizm nəzəriyyəsinin əsas müddəaları

Beynəlxalq münasibətlərin feminizm nəzəriyyəsi digər ictimai elmlərdə olan feminizm nəzəriyyələri kimi feminizm ictimai-siyasi hərəkatının tərkib hissəsidir. Ümumiyyətlə, feminizm olduqca sadə, lakin çox əhəmiyyətli bir ideyaya əsaslanır – kişilərlə yanaşı qadınlar da cəmiyyətin siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində eyni hüquqlara malik olmalıdırlar. Feminizm hərəkatına daxil olan müxtəlif siyasi hərəkatlar, nəzəriyyələr və etik-fəlsəfi təlimlər qadınların hüquqlarını və maraqlarını müdafiə edirlər.

Bəzi tədqiqatçılar feminizm hərəkatının tarixində *üç əsas mərhələnin* olduğunu qeyd edirlər. *Birinci mərhələ XIX əsri və XX əsrin əvvəllərini* əhatə edir. Bu mərhələdə feminizm hərəkatı qadınların *seçki hüquqları* uğrunda mübarizə aparırdı.

Feminizm hərəkatının *ikinci mərhələsi 1960-cı illərin əvvəllərində başladı və 1980-ci illərin sonunadək* davam etdi. Bu mərhələdə hərəkatın qarşısında duran əsas məsələ qadınlara qarşı müşahidə olunan *ayrıseçkiliyə* son qoymaq idi. *"Şəxsi – siyasi deməkdir"* şüarı ikinci mərhələnin feministləri ilə əlaqələndirilirdi. Bu şüarla onlar qadınların mədəni və siyasi bərabərsizliklərinin bir-biri ilə sıx bağlı olduğunu demək istəyirdilər. Feministlər qadınlara onların şəxsi həyatlarının əsaslı şəkildə siyasiləşdirilmiş olduğunu və seksizmi* təbliğ edən hakimiyyət strukturlarının təsirinə məruz qaldığını anlatmaq istəyirdilər. Başqa sözlə desək, feministlər cəmiyyətdə qadınlara qarşı ayrıseçkilik hallarının yayılmasını siyasi səbəblərlə əlaqələndirirdilər.

Feminizm hərəkatının *üçüncü mərhələsi 1990-cı illərin əvvəllərində* meydana gəldi. Bu mərhələ ikinci mərhələnin tənqidi əsasında yarandı. Onun feministləri ikinci mərhələnin feministlərini qadınlar arasında irqi, etnik, sinfi, milli və dini müxtəlifliklərə fikir vermədiklərinə görə tənqid edirdilər. Onlar haqlı olaraq göstərirdilər ki, cəmiyyətdəki etnik-mədəni müxtəlifliklər ayrıseçkiliyə, o cümlədən gender problemlərinin yaranmasına təsir edir.

Beynəlxalq münasibətlərin feminizm nəzəriyyəsi fəlsəfənin, sosiologiyanın, politologiyanın və digər ictimai elmlərin feminizm nəzəriyyələri ilə müqayisədə yeni yaranmış sahədir. Bu nəzəriyyənin tarixi inkişafın sonrakı mərhələsində yaranması beynəlxalq münasibətlər nəzəriyyəsi fənninin fəlsəfə, sosiologiya,

* *Qeyd:* Seksizm – insanların cinsiyyətinə görə onlara qarşı önyargı və ayrıseçkilikdir. O, bir cinsin digərindən daha aşağı və ya daha dəyərsiz olduğunu təbliğ edir.

politologiya və digər bir çox ictimai elmlərdən cavan fənn olmasından başqa onun əhatə etdiyi beynəlxalq münasibətlər sahəsinin genderləşdirilmiş olması, yəni bu sahədə tarixən kişilərin qadınlara münasibətdə dominant mövqe tutmaları ilə bağlıdır.

Beynəlxalq münasibətlərin feminizm nəzəriyyəsi ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində meydana gəlmişdir. "Soyuq müharibə" dövrünün başa çatması ilə əlaqədar beynəlxalq münasibətlərin ənənəvi nəzəriyyələrinin yenidən nəzərdən keçirilməsi, burada yeni tarixi şəraitlə əlaqədar tənqidi istiqamətin gücləndirilməsi, eləcə də BMT, Dünya Bankı və digər beynəlxalq qurumlarda qadınların rolunun artması beynəlxalq münasibətlərin feminizm nəzəriyyəsinin yaranması üçün əlverişli şərait yaratdı. Beynəlxalq münasibətlərin feminizm nəzəriyyəsinin görkəmli nümayəndələrindən olan *amerikalı professor Sintiya Enlonun* fikrincə, bu yeni istiqamətin meydana gəlməsində qadın tədqiqatçıların (həmçinin bəzi kişi tədqiqatçıların da) universitet kurrikulumlarının, elmi assosiasiyaların illik proqramlarının təkminləşdirilməsinə, feminizm məsələləri üzrə ixtisaslaşan elmi jurnalların nəşr edilməsinə yönəlmiş birgə fəaliyyəti mühüm rol oynamışdır. Belə ki, bu fəaliyyətin nəticəsində feminist ideyalar beynəlxalq münasibətlər sahəsinə gətirilmişdir.

Beynəlxalq münasibətlərin feminizm nəzəriyyəsinin görkəmli nümayəndələrindən Sintiya Enlo ilə yanaşı *Judit Enn Tikneri, Karol Konu, Ceki Tru, Reyvin Konneli, Spayk Petersonu* və başqalarını da göstərmək olar.

Feminizm nəzəriyyəsinə əsasən, beynəlxalq münasibətlərin ənənəvi nəzəriyyələri kişilərin qadınlar üzərində dominantlığı ideyasını təbliğ edir. Ənənəvi nəzəriyyələr beynəlxalq münasibətlər sahəsində qadınların rolunun tədqiq olunmasına önəm vermir. Feminizm nəzəriyyəsi beynəlxalq münasibətlər nəzəriyyəsində və praktikasında qadınların real həyatlarında üzləşdikləri problemlərin göstərilməməsini, xüsusilə də onların beynəlxalq siyasətdə rolunun nəzərə alınmamasını çatışmazlıq kimi qeyd edir. Çünki bu, beynəlxalq münasibətlər sahəsini sistemli şəkildə tədqiq olunmasına imkan vermir.

Feminizm nəzəriyyəsi qadınların dünyada zorakılıqla üzləşdiklərini göstərərək beynəlxalq münasibətlərin ənənəvi nəzəriyyələrini bu məsələyə biganə qaldığına görə onları tənqid edir. BMT-nin təqdim etdiyi hesabata əsasən, hər 10 qadından 7-si həyatları boyu müxtəlif işgəncələrə məruz qalır. Hazırda təxminən 600 milyon qadın məişət zorakılığının hələ də cinayət sayılmadığı dövlətlərdə yaşayır. Belə hallar əsasən avtoritar və totalitar dövlətlərdə müşahidə olunur. *Ceki Tru "Qadınlara qarşı zorakılığın siyasi iqtisadiyyatı" (Jacqui True. "The Political Economy of Violence against Women".)* adlı monoqrafiyasında müəyyən özəl sahədə (məsələn, məişət sahəsində) qadınlara qarşı edilən zorakılıqla onların ictimai yerlərdə, iş yerlərində və müharibə dövründə üzləşdikləri zorakılıq növləri

arasındakı əlaqəni tədqiq edir. O göstərir ki, qadınlar cəmiyyətin heç bir sahəsində kişilərlə eyni iqtisadi, siyasi və sosial hüquqlara malik deyillər və hər yerdə onlar zorakılığa məruz qalırlar.

Feminizm nəzəriyyəsinin nümayəndələri qadınların zorakılığa məruz qalmalarının səbəbini ilk növbədə onların dövlət idarəçiliyi sistemində, o cümlədən müxtəlif beynəlxalq və regional təşkilatlarda zəif təmsil olunmaları ilə əlaqələndirirlər. Məsələn, Dünya Bankına əsasən, 2015-ci ildə qadınlar milli parlamentlərdə deputatların cəmi 22.9 faizini təşkil edirdi. Feminizm nəzəriyyəsinin nümayəndələrinin fikrincə, qeyd olunan sahələrdə qadınların zəif təmsil olunmaları kişilərdən asılılıqlarını artıraraq onları marginal qrupa çevirir və zorakılığa məruz qalmaları üçün şərait yaradır.

Hələ 2000-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Şürasında keçirilən "Qadınlar, sülh və təhlükəsizlik" adlı sessiyada qəbul olunmuş 1325-ci Qətnamədə qadınların dövlət idarəçiliyi sistemində fəal təmsil olunmalarının zəruriliyi qeyd olunurdu. Həmçinin Qətnamədə post-münaqışə cəmiyyətlərində qadınların və qızların "özəl tələbatlarının" qarşılanmasının, onların sülhün möhkəmləndirilməsi ilə bağlı təşəbbüslərinin dəstəklənməsinin, seçki hüquqlarının müdafiə olunmasının vacibliyi göstərilir. Lakin göründüyü kimi, qadınların idarəçilik, qərarların qəbuletmə strukturlarında fəal təmsil olunmaları qarşısında hələ də müəyyən problemlər qalmaqdadır.

Əsas diqqəti dövlətlərin və onların aralarındakı münasibətlərin tədqiq olunmasına yönəltməklə ənənəvi nəzəriyyələr dövlət qurumlarına əsasən kişilərin rəhbərlik etdiklərinə, güc və qərar qəbuletmə strukturlarında da onların hakim mövqe tutduqlarına, qadınların isə qeyd olunan sahələrdə çox zəif təmsil olunduqlarına fikir vermirlər. Bundan başqa ənənəvi nəzəriyyələr dövlətlə yanaşı qlobal siyasətə təsir edən, eləcə də qlobal siyasətin təsirinə məruz qalan digər faktorların, ilk növbədə qadınların da rolunun tədqiq olunmasına əhəmiyyət vermir. Bununla da onlar qadınları beynəlxalq münasibətlərin aktoru kimi təqdim etmirlər. Feminizm nəzəriyyəsi isə qadınların beynəlxalq münasibətlərin mühüm aktoru olduğunu qeyd edir. O, qlobal siyasətdə qadınların zorakılığa məruz qalmalarını və marginallaşmalarını göstərir. Bununla belə o, eyni zamanda qadınları müdafiəyə ehtiyacları olanlar və ya münaqişələrin qurbanları kimi təsvir edən genderləşdirilmiş nəzəri konstruksiyalara qarşı çıxır. Feminizm nəzəriyyəsi belə konstruksiyaları gender bərabərsizliyinin əyani göstəricisi, eləcə də qadınları qlobal siyasətdən təcrid olunmalarına səbəb olan amil kimi dəyərləndirir. Bu nəzəriyyəyə əsasən, əgər qadınlar beynəlxalq münasibətlərin aktorları yox, qurbanları, təcavüzkar, fəal yox, sülhsevər, passiv, və ya dövlət yox, məişət səviyyəsində fəaliyyət göstərən məxluq kimi təsvir olunurlarsa, onda qadınların qlobal siyasət səviyyəsində fəaliyyətləri nəzərə alınmır və onlar marginal qrup kimi dəyərləndirilirlər. Feminizm nəzəriyyəsi

qadınların qlobal siyasət sahəsində müxtəlif yönlü fəaliyyətlərinə istinad edərək qeyd olunan nəzəri konstruksiyaları tənqid edir. Bununla da feminizm nəzəriyyəsi beynəlxalq münasibətlər sahəsində baş verən prosesləri daha dolğun və hərtərəfli təqdim edir.

VIII fəsildə qeyd etdiyimiz kimi, feminizm nəzəriyyəsi beynəlxalq münasibətlərin tənqidi nəzəriyyələrindən biridir. Beynəlxalq münasibətlərin tənqidi nəzəriyyələri cəmiyyətin siyasi, iqtisadi, sosial, ekoloji, mədəni, o cümlədən beynəlxalq münasibətlər sahələrində ciddi problemlərin olduğunu göstərməklə yanaşı onların həll olunması üçün sadalanan sahələrdə zəruri dəyişikliklərin həyata keçirilməsinə dair tövsiyələrin və təkliflərin irəli sürülməsinə yönəlmişdir. Beynəlxalq münasibətlərin feminizm nəzəriyyəsi də bir tənqidi nəzəriyyə kimi qadınların real həyatlarında üzləşdikləri problemlərin göstərilməsi ilə məhdudlaşmır. O, bu problemlərin həllinə dair müvafiq tövsiyə və təkliflər irəli sürür. Bu tövsiyə və təkliflərə feminizm nəzəriyyəsinin görkəmli nümayəndələrinin əsərlərində rast gəlmək olar.

### 10.2. Sintiya Enlo

*Amerikalı professor Sintiya Enlo* beynəlxalq münasibətlərin feminizm nəzəriyyəsinin banilərindən biridir. O, 2014-cü ildə təqaüdə çıxanadək Boston şəhərində yerləşən Klark universitetində çalışmışdır. Enlo ABŞ-ın, Böyük Briyaniyanın və İsveçin bir neçə universitetlərinin fəxri doktoru seçilmişdir. Hazırda o, *"Siyasətin beynəlxalq feminist jurnalının"* redaksiya heyətinin üzvüdür.

Sintiya Enlonun irəli sürdüyü feminizm nəzəriyyəsinin əsas müddəaları ilk dəfə olaraq sistemli şəkildə onun 1989-cu ildə çapdan çıxmış *"Bananlar, çımərliklər və hərbi bazalar: Beynəlxalq siyasətin feminist mənasının anlanılması" (Cynthia Enloe. "Bananas, Beaches, and Bases: Making Feminist Sense of International Politics") a*dlı monoqrafiyasında təqdim olunmuşdur. Bu kitab beynəlxalq münasibətlər nəzəriyyəsi sahəsində feminizm məsələləri ilə bağlı tədqiqatların aparılmasına güclü təkan verdi. Belə ki, kitab işıq üzü gördükdən sonra Qərb ölkələrində feminizm məsələlərinə dair məqalələr, monoqrafiyalar yazıldı, yeni fənlər tədris edildi, dissertasiyalar müdafiə olundu. 2014-cü ildə kitabın yeni nəşri çapdan çıxdı.

Sintiya Enlo kitabında ilk növbədə feminizm məsələlərinə həsr olunmuş tədqiqatların əhəmiyyətini yüksək dəyərləndirir. O qeyd edir ki, Banqladeşdə tekstil fabrikalarında işləyən qadınlardan tutmuş Qərb ölkələrinin xarici siyasət sahəsində çalışan elit diplomatların arvadlarınadək qadınların həyatlarının tədqiq edilməsi beynəlxalq münasibətlər sahəsinin daha dərindən və daha əsaslı şəkildə dərk edilməsi üçün imkan yaradır. Onun fikrincə, feminizm məsələlərinə həsr olunmuş

elmi tədqiqatlar qadınların fikirlərinə, fəaliyyətlərinə nəzarət etmək imkanı yaradır. Bu isə hakimiyyətin legitimləşdirilməsi və saxlanılması üçün vacibdir. Əgər biz qadınların həyat şəraitləri ilə ciddi maraqlanmasaq, onda beynəlxalq gücün dinamikasının təhlili, çox güman ki, ən yaxşı halda yarımçıq, ən pis halda isə qüsurlu və etibarsız olacaqdır. Enlo təəssüf hissi ilə qeyd edir ki, beynəlxalq münasibətlərin hətta ən sanballı araşdırmalarında belə qadınlar kənarda qalırlar, çünki bu araşdırmaların müəllifləri qadınların beynəlxalq münasibətlər sahəsində önəmsiz olduqlarını düşünürlər. Enlo bu müəlliflərin müəyyən dərəcədə doğru düşündüklərini qeyd edir. O yazır: "Həqiqətən, bir kabinet iclasında, beynəlxalq ticarət təşkilatının sessiyasında, gərgin sülh danışıqlarında toplanan əhəmiyyətli siyasətçilərin fotoşəkillərinə baxdıqda, biz orada adətən kişiləri görürük. Belə olan halda ortaya sual çıxır- əgər qadınlar bu cür tədbirlərdə iştirak etmirlərsə, qərarların qəbul olunması prosesinə təsir göstərmirlərsə, onlar elmi araşdırmaların obyekti ola bilərlərmi?" Lakin bu müəlliflərdən fərqli olaraq Sintiya Enlo qadınları beynəlxalq münasibətlərin mühüm bir aktoru hesab edərək onların tədqiqat obyekti olmalarının vacibliyini qeyd edir. O, tarixi hadisələrə müraciət edərək qadınların cəmiyyətin müxtəlif sahələrində, o cümlədən beynəlxalq münasibətlər sahəsində fəal rol oynadıqlarını göstərir. Onun müraciət etdiyi belə tarixi hadisələrdən biri XIX əsrin əvvəllərində Böyük Britaniyada qadınların quldarlığa qarşı hərəkatıdır. Qadınlar bu hərəkatın inkişafında böyük rol oynamışlar. Onlar Karib dənizi ətrafında yerləşən plantasiyalarda qulların əməyi ilə hazırlanan qəndin Britaniyada satışına qadağa qoyulmasına nail olmuşlar. Qadınların bu fəaliyyəti qəndin dünyada satışına təsir göstərmiş, eləcə də insan hüquqlarının ümumi anlayışını əsaslı şəkildə dəyişmişdir.

Sintiya Enlonun bu əsərində müzakirə olunan daha bir mühüm məsələ Qərb müstəmləkəçiliyi ilə qadınların cəmiyyətdəki vəziyyəti arasındakı münasibətin müəyyən edilməsidir. Enlo bu hadisələrin münasibətini təhlil edərək belə bir nəticəyə gəlir ki, Qərb müstəmləkəçiliyinin dünyada yayılması Qərb ölkələrində qadınların cəmiyyətdəki vəziyyətinə mənfi təsir göstərmişdir. Belə ki, Qərb müstəmləkəçiliyi Qərb ölkələrinin qeyri-Qərb ölkələrdən üstün olduqları ilə bağlı ideyaları yaymaqla yanaşı Qərb ölkələrində kişilərin qadınlardan üstün olduqlarını da təbliğ edirdi.

Müstəmləkəçiliklə yanaşı qadınların cəmiyyətdəki vəziyyətinə münaqişə də mənfi təsir göstərir. Çünki gücün həlledici rol oynadı bir hadisə olan münaqişə *maskulinliyin (kişilik.- E.N.)* artmasını tələb edir. Bu isə kişilərin qadınlardan üstün mövqedə olmalarını nəzərdə tutur.

Enloya görə, feminizm hərəkatının müstəmləkəçilik və münaqişədən başqa üzləşdiyi daha bir problem *ev xidməti sənayesidir (qadınların ev xadimələri kimi işləmələri.- E.N.)*. O, qeyd olunan xidməti siyasi nəticələri olan beynəlxalq biznes adlandırır. Avropada sənaye inqilabı dövründə ev xadimələrinə böyük tələbat vardır.

Çünki orta sinfə mənsub olan qadınlar öz qadınlıqlarını qorumaq üçün fiziki işdən çəkinirdilər. Sənaye inqilabı dövründən günümüzədək ev xadimələri onlara orta sinfə tabe olan qrup kimi yanaşılması səbəbindən, müəyyən problemlərlə üzləşirlər. Onlar kişilərdən aşağı səviyyədə olan insanlar kimi təqdim olunurlar.

Müstəmləkəçilikdən və cəmiyyətin patriarxal adət-ənənələrindən zərər çəkmiş qadınların cəmiyyətdəki vəziyyətinin yaxşılaşdırılması üçün Sintiya Enlo kişilərin dünyanı idarə etdiklərini sübut etməyə çalışan köhnəlmiş müstəmləkəçilik fikirlərdən əl çəkməklə yanaşı qadınların hüquqlarını müdafiə edən təşkilatları dəstəkləməyi təklif edir.

### 10.3. Cudit Enn Tikner

Beynəlxalq münasibətlərin feminizm nəzəriyyəsinin daha bir görkəmli nümayəndəsi uzun illər Cənubi Kaliforniya Universitetdə işləmiş *professor Cudit Enn Tiknerdir.* Onun elmi maraq dairəsinə sülh, milli təhlükəsizlik məsələləri ilə yanaşı beynəlxalq münasibətlərə feminist yanaşması da daxildir. Onun beynəlxalq münasibətlərdə feminizm məsələlərinə həsr olunmuş əsərlərindən aşağıdakıları göstərmək etmək olar: *"Hans Morqentaunun siyasi realizm konsepsiyasının siyasi prinsipləri: feminist yanaşması", "Dünya siyasətinin genderləşdirilməsi: soyuq müharibədən sonrakı dövrdə problemlər və yanaşmalar", "Beynəlxalq münasibətlərdə gender".*

Bu əsərlərdən ən önəmlisi 1992-ci ildə Nyu Yorkda nəşr olunmuş *"Beynəlxalq münasibətlərdə gender" ("Gender in International Relations")* hesab olunur. Çünki bu əsərdə Cudit Enn Tikner feminist yanaşmanın əsas müddəalarını təqdim edir. O, kitabın əsas məqsədini gender məsələsini təhlil kateqoriyası kimi beynəlxalq münasibətlər fənninə daxil etməkdə görür.

Tikner bu kitabda beynəlxalq münasibətlər nəzəriyyəsi fənnində *"kişilik" (maleness, manliness)* ideyalarının geniş yayıldığını göstərir. Kişilik ideyaları *"hegemon maskulinliyə"* əsaslanır. "Hegemon maskulinlik" kişinin qadından üstün olduğunu təbliğ edir. Bu fənn qadını güclü amil hesab etmir və buna görə də qadının beynəlxalq münasibətlər sahəsindəki fəaliyyətinə önəm vermir. Məsələn, burada milli təhlükəsizlik və müharibə kimi məsələlər müzakirə olunarkən kişilərin qadınlara münasibətdə dominantlığı qeyd olunur. Və ya təhlükəsizlik tədqiqatları kimi sahədə qadınların kifayət qədər təmsil olunmamaları göstərilərək onlar marginal qrup kimi təqdim olunurlar.

Tikner qeyd edir ki, maskulinlik və siyasət bir-biri ilə sıx bağlıdır. Sərtlik, cəsarət, güc, müstəqillik və hətta fiziki qüvvə kimi maskulinlik ilə əlaqəli olan xüsusiyyətlər tarix boyu siyasətin, xüsusən də beynəlxalq siyasətin aparılmasında ən çox dəyər verilən xüsusiyyətlər olmuşdur. Çox vaxt kişilik beynəlxalq arenada

nümayiş etdirildikdə və doğma ölkənin müdafiəsi üçün istifadə olunduqda alqışlanan zorakılıq və gücün tətbiqi ilə assosiasiya olunur.

Tiknerə görə, beynəlxalq münasibətlər sahəsində gender neytrallığı və obyektivliyi altında gizlənən kişi-qadın bərabərsizliyi problemi, kişilərin qadınlara münasibətdə dominantlığı, yəni gender problemi durur. Və feminizm nəzəriyyəsi beynəlxalq münasibətlərin ənənəvi nəzəriyyələrindən fərqli olaraq bu sahədə gender probleminin olduğunu etiraf edir. O, kişilərin qadınlara münasibətdə dominantlığını dövlətin cəmiyyətdəki rolundan irəli gəldiyini söyləyir. O qeyd edir ki, dövlətin təhlükəsizliyini vətəndaşlar əsas dəyər kimi qəbul edirlər. Milli təhlükəsizliyin təmin olunması kişilərə aid olan məsələdir. Kişilər vətənpərvərliyin ən yüksək forması hesab olunan ölkəni müdafiə etmək kimi mühüm məsələ ilə bağlı olduqları halda, qadınlar bu işdən kənarda qalırlar. Qadınlar müəllim, həkim və ya digər peşələrdə fəaliyyət göstərən, ev işləri ilə məşğul olan kimi təqdim olunurlar.

Tikner bu mövcud vəziyyəti gender qərəzliliyi hesab edərək *milli təhlükəsizlik məsələsinə feminist yanaşmasını* irəli sürür. Bu yanaşma gender iyerarxiyasını zərərli hesab edir. Çünki gender iyerarxiyası cəmiyyətdə kişilərin qadınlara münasibətdə dominantlığını yaradaraq milli təhlükəsizliyin hərtərəfli, yəni hərbi, siyasi, iqtisadi, sosial, mədəni və ekoloji ölçülər daxil olmaqla, tərifinin verilməsinin qarşısını alır. Tikner insan və ya fərdi təhlükəsizlik məfhumunu fərdi həyatda təhlükəsizliyin əhatə dairəsi kimi qəbul edir. Onun fikrincə, bura insanın təhlükəsiz iş şəraiti, onun müharibə qorxusundan azad olması və zorakılığa məruz qalmaması daxildir. Tiknerin təhlükəsizlik məhfumuna verdiyi tərif ədalət və azadlıq ideyaları ilə sıx bağlıdır.

Tikner beynəlxalq münasibətlərin ənənəvi nəzəriyyələrini (ilk növbədə realizm və neorealizm nəzəriyyələrini) gücün təzahürü hesab etdikləri kişilərin qadınlara münasibətdə dominantlığını müdafiə etdiklərinə görə onları tənqid edir. O qeyd edir ki, fərd, dövlət və beynəlxalq sistem səviyyələrində müharibə və milli təhlükəsizlik məsələlərini təhlil edən realizm nəzəriyyəsinə əsasən, müasir dünyada müharibə aparmağa qadir olan ölkələr beynəlxalq sistemdə ön sıralarda yer tutur. Hərbi gücə can atmayan dövlətlər isə parçalanır və döyüşə qadir olmayan vətəndaş dövlətin bərpası üçün əhəmiyyət kəsb etmir. Realistlərlə polemikanı davam edərək Tikner qeyd edir ki, onlar müharibənin qacınılmaz olduğunu vurğulayaraq cəmiyyətdə hərbi gücü geniş təbliğ edirlər. Bu isə bir tərəfdən, kişilərin qadınlara münasibətdə üstünlüyünü əsaslandırır, digər tərəfdən isə qadınların vəziyyətini daha acınacaqlı edir, onları zorakılığın müxtəlif növlərinə məruz qoyur.

Tikner realizm nəzəriyyəsini tənqid edərkən IV fəsildə bəhs etdiyimiz *Hans Morqentaunun siyasi realizm konsepsiyasının altı prinsipinə* münasibət bildirir. O, bu prinsipləri yuxarıda qeyd etdiyimiz *"Hans Morqentaunun siyasi realizm konsepsiyasının siyasi prinsipləri: feminist yanaşması"* adlı məqaləsində əsaslı

şəkildə təhlil edir. Tikner Morqentaunun təklif etdiyi prinsipləri təkzib etmir. O, sadəcə olaraq onlara alternativ kimi *feminizm ideyalarına əsaslanan prinsipləri* təklif edir. Tiknerin irəli sürdüyü ilk prinsip siyasətə dair tək kişilərin yox, qadınların da fikirlərinin əks olunmasının zəruriliyini vurğulayır. O hesab edir ki, kişilərin üstünlük təşkil etdikləri hakimiyyət obyektiv, qərəzsiz ola bilməz, çünki burada bütün fikirlər təqdim olunmur.

Morqentaunun irəli sürdüyü prinsiplərdə dövlətin qarşısında duran əsas məsələ hakimiyyət məsələsidir. Tikner iqtisadi zənginlik, hərbi güc və ətraf mühitin qorunması kimi məsələlərin də əhəmiyyətini göstərir. Onun fikrincə, hakimiyyət feminizm tərəfindən irəli sürülən bu məsələlərin həllinə dair əməli işlər görsə, o, daha geniş qrupların maraqlarını nəzərə alar və onların dəstəyinə nail ola bilər.

Yuxarıda qeyd etdiyimiz kimi, Morqentau dövlətin fəaliyyətinin etik və mənəvi əhəmiyyətinin olduğunu göstərsə də, o hesab edir ki, etik prinsiplər dövlətin fəaliyyətini müəyyən etmir. Hətta Morqentau mənəviyyatın uğurlu siyasi fəaliyyətin qarşısını kəsə biləcək bir amil olduğunu deyir. Professor Tikner isə hər bir siyasi fəaliyyətin müəyyən mənəvi əhəmiyyətinin olduğunu söyləyir. O hesab edir ki, beynəlxalq münaqişələrin qarşısının alınmasında və müxtəlif dövlətlər arasında daha güclü birliklərin qurulmasında etik dəyərlər, mənəviyyat böyük əhəmiyyət kəsb edir. Əgər dövlət başçıları öz fəaliyyətlərində etik dəyərlərə, mənəviyyata arxalansalar, onlar digər dövlətlərlə münasibətlərində hərbi gücə, zorakılığa deyil, ağıla, sağlam düşüncəyə arxalanacaqlar.

Beləliklə, bir tərəfdən, gücün və siyasi sistemin əhəmiyyətini vurğulamaqla, digər tərəfdən isə siyasət sahəsində etik dəyərlərin, mənəviyyatın rolunu dəyərləndirməməklə kişilərin qadınlara münasibətdə dominantlığını göstərən Morqentaunun siyasi realizm konsepsiyasının prinsiplərindən fərqli olaraq Tiknerin irəli sürdüyü alternativ prinsiplər kişilərin və qadınların bərabərliyini təmin edən, eləcə də siyasət sahəsində etik dəyərlərin, mənəviyyatın rolunu yüksək qiymətləndirən siyasi sistemi təbliğ edir.

### 10.4. Feminizm nəzəriyyəsinin dəyərləndirilməsi

Beynəlxalq siyasət, ümumiyyətlə beynəlxalq münasibətlər sistemi elə bir sahədir ki, orada tarixən qadınlar zəif təmsil olunmuşlar. Təbii ki, bunun ilk növbədə *obyektiv səbəbləri* vardır. Məlum olduğu kimi, diplomatiya, xarici siyasət, hərbi sahələrdə əsasən kişilər çalışırlar. Qadınlar isə daha çox təhsil, səhiyyə, xidmət və digər bu kimi sosial, mədəni yönümlü işlərlə məşğul olmuş və hazırda olurlar. Kişilər və qadınlar arasındakı qeyd olunan əmək bölgüsü ictimai rəy tərəfindən dəstəklənir. Bununla əlaqədar Cudit Enn Tikner göstərir ki, ABŞ və bütün dünyada həm kişilər, həm də qadınlar hərbi sahənin və xarici siyasətin qadınlar üçün münasib

olmadığını qeyd edirlər. Onun sözlərinə görə, kişilərlə və maskulinliklə ənənəvi olaraq bağlı olan güc, hakimiyyət, müstəqillik, muxtariyyət və rasionallıq xarici siyasətimizin aparılmasını və milli maraqlarımızın müdafiəsini etibar etdiyimiz insanlarda ən çox dəyər verdiyimiz keyfiyyətlərdir. Hətta xarici siyasət sahəsində çalışan qadınlar dövlətin müdafiəsi naminə sərt qərarların qəbul olunması üçün olduqca emosional və zəif görünürlər.

Feminist tənqidçilər sülh uğrunda mübarizədə qadınların iştirakını onların beynəlxalq münasibətlər sahəsində fəaliyyət göstərmələrini sübut edən bir fakt kimi təqdim etmək istəyirlər. Lakin feministlərin bu cəhdi adətən olduqca sadəlövh və zəif hesab olunur.

Beynəlxalq münasibətlər sahəsində qadınlarin zəif təmsil olunmalarının digər obyektiv səbəbi cəmiyyətdə onların kişilərlə müqayisədə zorakılığa daha çox məruz qalaraq onun qurbanlarına çevrilmələridir. Qadınların müdafiə olunmağa ehtiyacları daha çoxdur. Bütün bu amillər qadınların beynəlxalq münasibətlərin fəal aktoru olmasının qarşısını alır.

Qeyd olunan obyektiv səbəblərlə yanaşı qadınların beynəlxalq münasibətlərin fəal aktoru kimi çıxış etmələrinin qarşısının alınmasının *subyektiv səbəbləri* də vardır. Bu subyektiv səbəblərin əsasını beynəlxalq münasibətlər nəzəriyyəsi fənnində realizm və neorealizm kimi nəzəriyyələrin güclü mövqelərinin olması təşkil edir. Məlum olduğu kimi, realizm və neorealizm nəzəriyyələrinin nümayəndələri hərbi gücü beynəlxalq münasibətlərin əsas amili kimi qələmə verərək bu gücün təcəssümü hesab etdikləri kişilərin qadınlara münasibətdə dominantlığını təbliğ edirlər. Buna görə, Cudit Enn Tiknerin qeyd etdiyi kimi, realistlərin və neorealistlərin mövqelərinin güclü olduqları beynəlxalq münasibətlər nəzəriyyəsi fənninin tədqiqat sahəsi qadınları əhatə etmir. Bu fənnin təbliğ etdiyi ideyalardan biri kişilərin qadınlara münasibətdə dominant mövqe tutması ideyasıdır. Qadınlar zorakılığa məruz qalmış və marginal qrup kimi təqdim olunurlar. Beynəlxalq münasibətlər nəzəriyyəsi fənnində maskulinliyin geniş yayılmasının digər göstəriciləri sırasında bu fənn üzrə qadın tədqiqatçıların və müəllimlərin az olmasını da göstərmək olar.

Beynəlxalq münasibətlər nəzəriyyəsi fənnində qadınlara münasibətdə ayrıseçkilik ideyalarının yayılmasına qarşı reaksiya olan feminizm nəzəriyyəsi qadınların beynəlxalq münasibətlərin mühüm aktoru olduğunu qeyd edir. Feminizm nəzəriyyəsi kişi-qadın bərabərliyini demokratiyanın əsas meyarlarından biri olduğunu göstərərək digər sahələrdə olduğu kimi onların beynəlxalq münasibətlər sahəsində də eyni hüquqlara malik olduqlarını iddia edir.

Feminizm nəzəriyyəsi bir tənqidi nəzəriyyə kimi beynəlxalq münasibətlər sahəsində ciddi problemlərin olduğunu göstərməklə yanaşı onların həllinə dair müəyyən təkliflər irəli sürür. Mahiyyət etibarilə bu təkliflər cəmiyyətdə kişi və

qadınlar arasında bərabərliyin təmin olunmasına, eləcə də qadınların bütün sahələrdə rolunun artırılmasına yönəlmişdir.

Feminizm nəzəriyyəsi tərəfindən qadınların beynəlxalq münasibətlərin mühüm aktoru kimi təqdim olunmasının böyük praktiki əhəmiyyəti vardır. Dərsliyin giriş hissəsində beynəlxalq münasibətlər nəzəriyyəsi fənninin predmetinin əhatə dairəsini müəyyən edərkən biz bura dövlətlər arasında müharibələrin qarşısının alınmasının və əməkdaşlığın inkişaf etdirilməsinin yollarının müəyyən edilməsi kimi mühüm məsələləri də daxil etmişdik. Beynəlxalq münasibətlərin feminizm nəzəriyyəsinin sülhü, barışığı tərənnüm edən, gücə, zorakılığa qarşı çıxan qadınların cəmiyyətin müxtəlif sahələrində, xüsusilə beynəlxalq münasibətlər sahəsində mütərəqqi rolunun tədqiq etdiyini nəzərə alaraq deyə bilərik ki, bu nəzəriyyə qadınların beynəlxalq münasibətlərin fəal aktoruna çevrilməsinin vacibliyini göstərməklə müharibə təhlükəsinin qarşısının alınmasının mümkünlüyünü təbliğ edir. Bu nəzəriyyə dövlətlər arasında müharibələrin qarşısının alınmasında və əməkdaşlığın inkişaf etdirilməsində qadınların roluna xüsusi önəm verir.

### *Fəslə aid suallar*

1. Niyə beynəlxalq münasibətlərin feminizm nəzəriyyəsi feminizm ictimai-siyasi hərəkatının tərkib hissəsi hesab olunur?
2. Feminizm hərəkatının birinci mərhələsi hansı dövrü əhatə edir? Bu mərhələdə feminizm hərəkatının qarşısında hansı məsələ dururdu?
3. Feminizm hərəkatının ikinci mərhələsi hansı dövrü əhatə edir? Bu mərhələdə feminizm hərəkatının qarşısında hansı məsələ dururdu?
4. Beynəlxalq münasibətlərin feminizm nəzəriyyəsinin fəlsəfənin, sosiologiyanın, politologiyanın və digər ictimai elmlərin feminizm nəzəriyyələri ilə müqayisədə yeni yaranmış sahə olması hansı səbəblərlə izah olunur?
5. Feminizm hərəkatının üçüncü mərhələsi hansı dövrü əhatə edir? Bu mərhələdə feminizm hərəkatının qarşısında hansı məsələ dururdu?
6. Niyə feminizm nəzəriyyəsi beynəlxalq münasibətlərin tənqidi nəzəriyyəsi hesab olunur?
7. Beynəlxalq münasibətlərin feminizm nəzəriyyəsi nə vaxt yaranmışdır? Onun yaranmasına hansı hadisələr təsir göstərmişdir?
8. Beynəlxalq münasibətlərin feminizm nəzəriyyəsinin görkəmli nümayəndələri kimlərdir?
9. Hansı məsələyə görə feminizm nəzəriyyəsi beynəlxalq münasibətlərin ənənəvi nəzəriyyələrini tənqid edir? Niyə?

10. Beynəlxalq münasibətlərin feminizm nəzəriyyəsi qadınların zorakılığa məruz qalmalarını nə ilə əlaqələndirir?
11. Niyə beynəlxalq münasibətlərin feminizm nəzəriyyəsi qadınların beynəlxalq siyasətdə rolunun nəzərə alınmamasını çatışmazlıq hesab edir?
12. Niyə ənənəvi nəzəriyyələr beynəlxalq münasibətlər sahəsində qadınların zəif təmsil olunduqlarına fikir vermir?
13. Beynəlxalq münasibətlərin feminizm nəzəriyyəsi mahiyyətinə görə nikbin yoxsa bədbin xarakter daşıyır? Niyə?
14. Niyə Sintiya Enlo feminizm məsələlərinə həsr olunmuş elmi tədqiqatların əhəmiyyətini yüksək dəyərləndirir?
15. Sintiya Enlo Qərb müstəmləkəçiliyi və qadınların cəmiyyətdəki vəziyyəti arasındakı münasibəti təhlil edərək hansı nəticəyə gəlir?
16. Sintiya Enloya görə, münaqişə qadınların cəmiyyətdəki vəziyyətinə necə təsir göstərir? Niyə?
17. Qadınların cəmiyyətdəki vəziyyətinin yaxşılaşdırılması üçün Sintiya Enlo nə təklif edir?
18. Cudit Enn Tiknerə görə, hegemon maskulinlik nəyi təbliğ edir?
19. Niyə Cudit Enn Tiknerə görə, beynəlxalq münasibətlərin ənənəvi nəzəriyyələri beynəlxalq münasibətlər sahəsində kişi-qadın bərabərsizliyi probleminin olduğunu etiraf etmir?
20. Cudit Enn Tiknerin irəli sürdüyü milli təhlükəsizlik məsələsinə feminist yanaşmasının mahiyyəti nədən ibarətdir?
21. Niyə Cudit Enn Tikner beynəlxalq münasibətlərin realizm və neorealizm nəzəriyyələrini tənqid edir?
22. Niyə Cudit Enn Tikner kişilərin üstünlük təşkil etdikləri hakimiyyəti qeyri-obyektiv, qərəzli sayır?
23. Hans Morqentaunun siyasi realizm konsepsiyasının prinsipləri ilə Cudit Enn Tiknerin irəli sürdüyü feminizm ideyalarına əsaslanan prinsiplər arasında fərq nədən ibarətdir?
24. Cudit Enn Tikner siyasi fəaliyyətdə etik prinsiplərin rolunu nədə görür?
25. Beynəlxalq münasibətlər sistemində tarixən qadınların zəif təmsil olunmalarının obyektiv səbəbləri nə ilə bağlıdır?
26. Beynəlxalq münasibətlər sistemində tarixən qadınların zəif təmsil olunmalarının subyektiv səbəbləri nə ilə bağlıdır?
27. Feminizm nəzəriyyəsi tərəfindən qadınların beynəlxalq münasibətlərin mühüm aktoru kimi təqdim olunmasının əhəmiyyəti nədən ibarətdir?

## Ədəbiyyat

*Ackerly B., Stern M. and True J. (eds).* Feminist Methodologies for International Relations. Cambridge University Press, 2006
*Burchill, S. and Linklater A.* Theories of International Relations. N.Y.: St. Martin Press., 1996.
*Caprioli M.* “Gendered Conflict”// Journal of Peace Research, 37, 2000
*Caprioli M.* “Feminist IR Theory and Quantitative Methodology”, //International Studies Review, 6(2), 2004.
*Connell R. J.* “The State and Gender Politics”, //Theory and Society, 19, 1990.
*Даль Р.* О демократии. – М., 2000.
*Enloe C.* Bananas, Beaches, and Bases: Making Feminist Sense of International Politics, London, 1989.
*Enloe C.* The Morning After: Sexual Politics at the End of the Cold War, Berkeley, 1994.
*McGlinchey St., Walters R. and Scheinpflug Ch. (eds.)* International Relations Theory. Bristol, 2017.
*Midgeley C.* “Anti-slavery and feminism in nineteenth century Britain”, //Gender and History 5: 475–88.
*Nəcəfov E.Ə.* Müasir dövrdə dövlətlərarası münasibətlərin tədqiq edilməsində Hans Morqentaunun milli maraq konsepsiyasının əhəmiyyəti. Elmi Əsərlər. İctimai-siyasi elmlər seriyası, Bakı Slavyan Universiteti, N2, 2008, s.67-72
*Nəcəfov E.Ə.* Qüvvələrin balansı nəzəriyyəsinin Hans Morqentaunun beynəlxalq siyasət konsepsiyasında yeri. Elmi Əsərlər. İctimai- siyasi elmlər seriyası, Bakı Slavyan Universiteti, N2, 2009, s. 10-17
*Peterson V. S.* “Transgressing Boundaries: Theories of Gender, Knowledge and International Relations”, //Millennium, 21(2), 1992.
*Peterson V. S. and True J.* “New Times and New Conversations”, in M. Zalewski and J. Parpart (eds), The Man Question in International Relations. Boulder Press, 1998.
*Tickner J. A.* “Hans Morgenthau’s Political Principles of Political Realism: A Feminist Reformulation”, //Millennium, 17(3), 1988.
*Tickner J. A.* Gender in International Relations, New York, 1992.
*Tickner J. A.* Gendering World Politics: Issues and Approaches in the Post-Cold War Era, New York, 2001.
*Tickner J. A.* “Feminist Perspectives on 9/11”, //International Studies Perspectives, 3(4), 2002.
*True J.* “Feminism”. In Burchill, Scott; Linklater, Andrew (eds.). Theories of International Relations (3-rd ed.). Basingstoke: Palgrave Macmillan, 2005. pp.213-34.

*True J.* “Feminism”, in A. Bellamy (ed.), International Society and its Critics, Oxford University Press, 2004.

*True J.* The Political Economy of Violence against Women. Oxford University Press, 2012.

*Цыганков П.А.* Теория международных отношений: Учебное пособие. М., 2006.

# XI FƏSİL
# YAŞIL SİYASƏT

## 11.1. Yaşıl siyasət nəzəriyyəsinin əsas müddəaları

Yaşıl siyasət nəzəriyyəsi beynəlxalq münasibətlərin yeni nəzəriyyələrindən biridir. O, qeyd etdiyimiz kimi, beynəlxalq münasibətlərin tənqidi nəzəriyyələr qrupuna daxildir.

Yaşıl siyasət mühüm siyasi qüvvə kimi bir çox ölkələrdə 1970-ci illərin ortalarından başlayaraq özünü büruzə verməyə başladı. Həmin vaxt beynəlxalq münasibətlərə yaşıl siyasət yanaşması ətraf mühitlə bağlı problemlərin artmasına cavab olaraq formalaşmışdır. Artıq ötən əsrin sonlarında yaşıl siyasət nəzəriyyəsi beynəlxalq münasibətlər nəzəriyyəsi fənnində öz yerini tutdu.

Beynəlxalq münasibətlərin yaşıl siyasət nəzəriyyəsinin görkəmli nümayəndələrindən *Metyu Patersonu, Hyu Dayeri, Endryu Dobsonu, Robin Ekkerslini, Erik Helleyneri, Robert Qudini* və başqalarını göstərmək olar. Bu müəlliflərin əsərlərində beynəlxalq münasibətlərə dair yaşıl siyasət nəzəriyyəsinin əsas müddəaları əks olunmuşdur.

Yaşıl siyasət nəzəriyyəsi *yaşıl hərəkatın* tərkib hissəsi kimi çıxış edir. Yaşıl hərəkatın nümayəndələrinin yazılarında və fəaliyyətlərində qlobal siyasətin dinamikasının təhlili ilə yanaşı dünya siyasətinin restrukturizasiyasına dair normativ baxışlar da əks olunmuşdur.

Yaşıl siyasət nəzəriyyəsinə əsasən, beynəlxalq münasibətlər nəzəriyyəsi fənninin *predmetini* ətraf mühitlə bağlı olan iqlim dəyişikliyi, stratosferdə ozonun azalması, havanın və suyun keyfiyyətinin pisləşməsi, içməli su qıtlığı, torpağın eroziyası, meşə zolaqlarının qırılması, biomüxtəlifliyin azalması kimi problemlərin beynəlxalq münasibətlər sisteminə təsiri təşkil edir. Bu problemlərin yaranması insanın təbiətə münasibətdə təcavüzkar fəaliyyətinin nəticəsidir. Yaşıl siyasət nəzəriyyəsinin nümayəndələrinə görə, beynəlxalq münasibətlərin ənənəvi nəzəriyyələri rasionalist yanaşmanı əsas götürdüklərinə və dövləti tədqiqatlarının mərkəzinə qoyduqlarına görə ətraf mühitlə bağlı olan problemləri və onların beynəlxalq münasibətlər sisteminə təsirini dərk etmək iqtidarında deyil.

Ədəbiyyatda yaşıl siyasət nəzəriyyəsinin *üç əsas müddəanı* təbliğ etdiyi qeyd olunur. Birinci müddəa *ekosentrizmlə* bağlıdır. Yaşıl siyasət *antroposentrizmdən ekosentrizmə keçidi* təbliğ edir. Bu keçidin nəticəsində insanla yanaşı bütün canlı varlıqlara, ümumiyyətlə, bütün təbiətə dəyər verilir. Antroposentrik etikadan imtina etməklə ekosentrik etikanın qəbul olunması yaşıl siyasətin əsas cəhəti hesab olunur. *Robin Ekkersli "Ekologizm və siyasi nəzəriyyə: Ekosentrik yanaşmaya doğru" ("Environmentalism and Political Theory: Towards an Ecocentric Approach")* adlı

kitabında ekosentrizmin bir neçə mühüm xüsusiyyətinin olduğunu göstərir. Ekosentrizm insanın və digər varlıqların bir-biri ilə sıx bağlı olduqlarını, onların bütöv bir ekosistemin tərkib hissələri olduqlarını göstərir. Eyni zamanda ekosistem çərçivəsində bütün varlıqlar öz nisbi azadlıqlarını saxlayırlar. Belə bir şəraitdə insan təbiətin digər varlıqları üzərində hökmranlıq etmək iqtidarında olmur. Ekosentrizm insanın maraqlarının dar iqtisadi maraqlarla, ilk növbədə təbii sərvətlərin istismarı ilə məhdudlaşdırmır. O, insanın maraqları çərçivəsinə ekosistemin qorunmasını da daxil edir. Ekosentrizm insanla yanaşı təbiətin də maraqlarını, ilk növbədə onun qorunmasını nəzərə alır. Məhz bu səbəbdən ekosentrizm indiki nəsillərlə yanaşı gələcək nəsillərin də maraqlarını nəzərə alır.

*Robert Qudin* hesab edir ki, yaşıl siyasət nəzəriyyəsinin ən mühüm cəhətlərindən biri onun etik-əxlaqi məsələlərin təbliğ etməsindədir. Qudin bu cəhəti *"yaşıl əxlaq"* adlandırır. Onun sözlərinə görə, yaşıl əxlaq fauna və floranı, ümumiyyətlə təbiəti qorumaq üçün insanın maddi inkişafının məhdudlaşdırılmasının zəruriliyini göstərir. Qeyd olunan məhdudlaşdırma insanın istehlak azadlığını məhdudlaşdırsa da, onun insanlara xeyri daha çoxdur. İnsanların ənənəvi azadlıqlarına bəzi məhdudiyyətlərin qoyulması yolu ilə təbiətin qorunması onların maddi maraqlarının təmin edilməsi ilə müqayisədə daha vacibdir. Təbiətin qorunmasına böyük önəm verməklə yaşıl siyasət nəzəriyyəsi ekosentrizmi təbliğ edir.

Qudin ekosentrizmi xarakterizə edərkən bu yanaşmanın antroposentrizmdən fərqini onun təbiətin qorunması məsələlərinə xüsusi diqqət yetirməkdə görür. O, haqlı olaraq qeyd edir ki, ekosentrizm ilə antroposentrizm arasındakı bu fərq yaşıl siyasətin mahiyyətini dərk etməyə kömək edir. O, bu iki yanaşma arasında olan fərqin səbəbini ekosentrizmin insanın bəzi tələbat və istəklərinin məhdudlaşdırdığı ilə deyil, əksinə bu tələbat və istəklərin daha geniş ekoloji perspektivə daxil etdiyi ilə əlaqələndirir. Ekosentrizm sağlam ekosistemlərin yaradılmasını prioritet məsələ hesab edir, çünki ekosistemlər insanın sağlamlığı və rifahı üçün böyük əhəmiyyət kəsb edir. Antroposentrizm isə təbiəti insanların yalnız praqmatik məqsədləri üçün əhəmiyyət kəsb etdiyini göstərir və ona insanların maddi tələbatlarını ödəyən vasitə kimi yanaşır.

Yaşıl siyasət nəzəriyyəsinin təbliğ etdiyi *ikinci müddəa* ekoloji böhranın səbəbini *inkişafa məhdudiyyətlərlə* əlaqələndirməkdədir. Söhbət cəmiyyətin inkişafının qarşısını alan məhdudiyyətlərdən gedir. "İnkişafa məhdudiyyətlər" termini analitik mərkəz olan Roma Klubunun* sifarişi ilə qlobal inkişafın

---

** Qeyd: Roma Klubu 1968-ci ildə italiyalı sənayeçi və xeyriyyəçi Aurelio Peççei, şotlandiyalı kimyaçı və davamlı inkişaf hərəkatının banisi Aleksandr Kinq, məhşur amerikalı bankçı Deyvid Rokfeller tərəfindən təsis olunmuşdur. Qeyri-kommersiya və qeyri-hökumət təşkilatı olan Roma Klubunun 100 nəfərdən ibarət olan üzvləri sırasında sabiq və indiki dövlət və hökumət başçıları, yüksək rütbəli siyasi xadimlər, tanınmış alimlər, diplomatlar, iqtisadçılar, iş adamları və beynəlxalq təşkilatların nümayəndələri vardır. Təşkilatın baş qərargahı İsveçrənin Vinterthur şəhərində*

proqnozlaşdırılmasına dair 1972-ci ildə *Donella Medouz, Denis Medouz, Yorqen Randers və Uilyam Behrens* tərəfindən hazırlanmış *"İnkişafa məhdudiyyətlər" ("The Limits to Growth")* adlı hesabatdan götürülmüşdür. Bu hesabat kitab formasında 30 milyon nüsxədə və müxtəlif dillərdə nəşr olunaraq dünyanın bir çox ölkələrində yayılmışdır. Hesabatın əsas ideyası ondan ibarətdir ki, *eksponensial iqtisadi inkişaf (birtərəfli, davamlı olmayan, ətraf mühitə ziyan vuran inkişaf. – E.N.) və əhalinin sürətlə artımı bir-biri ilə bağlı olan böhranlara səbəb olur.* Belə ki, eksponensial iqtisadi inkişaf elə bir vəziyyət yaradır ki, bir tərəfdən, əhalinin qida məhsullarına və sənayenin xammala olan tələbatlarını ödəmək mümkün olmur, digər tərəfdən isə sənayenin inkişafı nəticəsində təbiətə atılan tullantılar ətraf mühiti çirkləndirir. Hesabatın müəllifləri kompüter modelləşdirilməsi metodu əsasında apardıqları tədqiqatın əsasında qlobal inkişafın olduqca bədbin proqnozunu verirlər. Bu proqnoza əsasən, hazırki iqtisadi inkişaf modeli, yəni eksponensial iqtisadi inkişaf davam etdikdə bir çox təbii resurslar sürətlə tükənəcək, ekologiya çirklənəcək və bunun nəticəsində 2100-cü ilə qədər insan cəmiyyətləri ciddi böhranla üzləşərək tənəzzülə uğrayacaqlar.

Qeyd etmək lazımdır ki, hesabatda təqdim olunan proqnoz bir çox tədqiqatçılar tərəfindən əsaslı şəkildə təhlil olunaraq təkzib olunmuşdur. Lakin yaşıl siyasət nəzəriyyəsinin tərəfdarları sözügedən hesabatdan eksponensial iqtisadi inkişaf modelinin zərərli model olmasına dair fikrini iqtibas etdilər. *Endryu Dobson* bu fikirdə *üç arqumentin* böyük əhəmiyyət kəsb etdiyini qeyd edir. *Birinci arqumentə* əsasən, texnoloji inkişaf cəmiyyətlərin üzləşəcəkləri böhranın baş verməsinin qarşısını ala bilməz. O, sadəcə olaraq bu böhranın başlanmasının tarixini bir qədər geriyə ata bilər. *İkinci arqument* inkişafın eksponensial xarakteri cəmiyyətlərin gələcəkdə üzləşəcəkləri böhranın müəyyən vaxt ərzində gizli şəkildə qaldıqdan sonra qəflətən baş verəcəyini göstərir. Nəhayət, *üçüncü arqumentə* əsasən, inkişafla bağlı olan problemlər bir-biri ilə əlaqəlidir. Onların ayrı-ayrılıqla həll edilməsi səmərəli deyil. Məsələn, çirklənmə probleminin inkişafla bağlı olan digər problemlərdən ayrılıqda həll edilməsi çirklənmənin baş verdiyi mühiti bir qədər dəyişə bilər, lakin çirklənmənin qarşısını tamamilə ala bilməz. Buna görə də inkişafla bağlı olan problemlər *sistemli şəkildə, birlikdə* həll edilməlidir. Bununla əlaqədar Roma Klubunun təsisçilərindən biri *Aurelio Peççei* qeyd edirdi ki, bəşəriyyətin üzləşdiyi problemlərə - ətraf mühitin çirklənməsi, yoxsulluğun, cinayətkarlığın artması, endemik xəstəliklərin geniş yayılması –təcrid olunmuş problem yaxud "öz çərçivəsində həll oluna bilən problem" kimi yanaşıldıqda, onun

---

*yerləşir. Roma Klubunun əsas məqsədi elmin müxtəlif sahələrində çalışan tanınmış alimləri cəlb etməklə müasir dövrdə bəşəriyyəti narahat edən ətraf mühitin çirklənməsi, iqlim dəyişikliyi, endemik xəstəliklərin, yoxsulluğun, cinayətkarlığın artması və bu kimi digər problemlərin təhlil olunması və onların həllinə dair təklif və tövsiyələrin hesabat formasında hazırlanmasını təşkil etməkdir. İndiyədək Roma Klubunun təşkilatçılığı ilə yüzlərlə hesabat hazırlanmışdır.*

həlli mümkün olmur. O, bunu göstərilən problemlərin bir-biri ilə bağlı olmaları ilə izah edirdi.

Yaşıl siyasət nəzəriyyəsinin təbliğ etdiyi *üçüncü müddəa* kimi *mərkəzləşdirilmiş dövlət sistemindən* imtina etməyi göstərəmək olar. Başqa sözlə desək, bu nəzəriyyə *mərkəzsizləşdirməni* təbliğ edir və dövlətə münasibətdə bir növ anarxist mövqeyi nümayiş etdirir. Ədəbiyyatda bəzi müəlliflər mərkəzsizləşdirməni yaşıl siyasət nəzəriyyəsinin yuxarıda qeyd olunan iki müddəasından (*ekosentrizm* və *eksponensial inkişaf modelinin tənqidi)* irəli gəldiyini göstərirlər, digərləri isə onu yaşıl siyasətin əsas müddəası kimi təqdim edirlər.

*Mərkəzsizləsdirmə* dövlətin bir institut kimi tənqid olunmasında özünü büruzə verir. Dövləti cəmiyyətin ən yüksək iyerarxik institutu hesab edən yaşıl siyasət nəzəriyyəsinin nümayəndələri onu ekoloji böhranın əsas səbəbkarı kimi təqdim edirlər. Bununla əlaqədar *britaniyalı filosof Alan Karter "Yaşıl siyasət nəzəriyyəsinə doğru" (Alan Carter. "Towards a Green Political Theory")* adlı məqaləsində qeyd edir ki, dövlət müasir ekoloji böhrana səbəb olan müasir cəmiyyətin dinamikasının tərkib hissəsidir. Karter məqalədə cəmiyyətin ekoloji cəhətdən təhlükəli dinamikasını belə təsvir edir: "Mərkəzləşdirilmiş, psevdo-təmsilçi, kvazidemokratik dövlət ətraf mühitə ciddi zərər vuran "sərt" texnologiyaları inkişaf etdirən rəqabətli, qeyri-bərabər iqtisadi münasibətləri tənzimləyir. Bu texnologiyaların tətbiq olunması dövləti gücləndirən (millətçi və militarist) məcburedici qüvvələr tərəfindən dəstəklənir."

Yuxarıda qeyd etdiyimiz kimi, bəzi müəlliflər mərkəzsizləşdirməni yaşıl siyasətin əsas müddəası kimi qələmə verirlər. Məsələn, *Mətyo Paterson* mərkəzsizləşdirmə məsələsini yaşıl siyasət nəzəriyyəsinin beynəlxalq münasibətlərə gətirdiyi ən vacib mövzu hesab edir. Bu, özünü yaşıl siyasətin ən məşhur siyasi şüarlarından birində - *"qlobal miqyasda düşün, yerli səviyyədə isə hərəkət et"* – büruzə verir.

Paterson mərkəzsizləşdirməni yaşıl siyasət nəzəriyyəsinin mühüm bir cəhəti hesab edir. Lakin o, mərkəzsizləşdirməni qlobal xarakter daşıyan ekoloji problemlərin həlli üçün yararsız sayır. Belə ki, ekoloji problemlərin həlli dövlətlər arasında əməkdaşlığın inkişafı əsasında mümkündür. Paterson hesab edir ki, mərkəzsizləşdirmənin nəticəsində yaranan kiçik anarxik cəmiyyətlər ilk növbədə öz maraqlarını güddüklərinə görə icmalararası əməkdaşlığın yaradılmasına can atmırlar. Bundan başqa onlar qlobal ekoloji problemlərin həlli üçün münasib səmərəli mexanizm inkişaf etdirmək iqtidarında deyil. Buna görə də ekoloji problemlərin həllinə yönəlmiş dövlətlərarası əməkdaşlığın reallaşması suveren dövlətlərin fəaliyyəti ilə bağlıdır. Bu, o deməkdir ki, mərkəzsizləşdirmə yaşıl siyasət nəzəriyyəsinin bir müddəası kimi onun digər iki müddəasından (ekosentrizm və eksponensial inkişaf modelinin tənqidi) fərqli olaraq tənqid olunur.

## 11.2. Yaşıl siyasət nəzəriyyəsi və davamlı inkişaf

Yaşıl siyasət nəzəriyyəsi ekosentrizmi təbliğ, eksponensial inkişaf modelini isə tənqid edərək *davamlı inkişaf* modelini müdafiə edir. Davamlı inkişaf modeli yaşıl siyasət nəzəriyyəsinin mühüm kateqoriyalarından biri hesab olunur.

Ətraf mühitin qorunması məsələləri üzrə ixtisaslaşan *BMT-nin Bruntland Komissiyasının* 1987-ci ildə hazırladığı *"Bizim ümumi gələcəyimiz"* adlı Hesabatında davamlı inkişaf konsepsiyası *"gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətinə xələl gətirmədən indiki ehtiyaclara cavab verən inkişaf"* kimi təqdim edilmişdir. Davamlı inkişaf elə bir inkişaf modelidir ki, o, indiki nəsillərin maddi tələbatlarını ödəməklə yanaşı gələcək nəsillərin də tələbatlarının ödənilməsi üçün lazımi şərait yaradır. Gələcək nəsillərin tələbatlarının ödənilməsi üçün inkişaf tək iqtisadi artımın təmin edilməsi ilə məhdudlaşmamalıdır. O, həmçinin, hətta ilk növbədə, ətraf mühitin və təbii ehtiyatların qorunmasına, cəmiyyətdəki sosial və mədəni problemlərin həll edilməsinə də yönəlməlidir. Məlum olduğu kimi, əgər iqtisadi artım ətraf mühitin və təbii ehtiyatların qorunmasını təmin etmirsə, bu, gələcəkdə iqtisadi artımın da qarşısını almış olur. Bununla bərabər qeyd etmək lazımdır ki, dövlətin həyata keçirdiyi iqtisadi artım inkişaf proqramı cəmiyyətdəki sosial vəziyyətin gərginləşməsinin qarşısının alınmasını da nəzərdə tutmalıdır. Burada cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin düzgün təmzimlənməsinin xüsusi əhəmiyyəti vardır. Başqa sözlə desək, davamlı inkişaf iqtisadi, sosial və ekoloji sahələrdə inkişafın əldə olunmasına yönəlmişdir. Bu, 2015-ci ilin sentyabrın 25-də BMT-nin Baş Assambleyası tərəfindən *"2030-cu ilədək davamlı inkişaf sahəsində Gündəlik" (Gündəlik)* adlı qəbul edilən sənəddə aydın şəkildə görünür. Gündəliyə əsasən, 2016-2030-cu illər ərzində bütün dünyada davamlı inkişafı təmin etmək üçün 17 məqsəd və bu məqsədlərdən irəli gələn 169 hədəfə nail olmaq lazımdır. Bu məqsəd və hədəflər iqtisadi, sosial və ekoloji sahələri əhatə edir.

*Davamlı inkişaf termini* ilk dəfə 1980-ci ildə beynəlxalq *QHT "Təbiətin Qorunması naminə Beynəlxalq Birlik"* tərəfindən hazırlanmış *"Təbiətin Qorunmasının Ümumdünya Strategiyası: Davamlı İnkişaf naminə Canlı Resursların Qorunması"* adlı sənəddə işlədilmişdir. Bu sənəddə göstərilir ki, təbiətin qorunmasının ümumdünya strategiyasının qarşısında *3 əsas vəzifə* durur: Birincisi, insanların sağ qalmalarının asılı olduğu mühüm ekoloji proseslərin və yaşamalarını dəstəkləyən sistemlərin (torpağın bərpası və qorunması, suyun və havanın təmizlənməsi) qorunması. İkincisi, genetik müxtəlifliyin saxlanılması. Üçüncüsü, milyonlarla kənd icması və əsas sənaye sahələrini dəstəkləyən növ və ekosistemlərin

(xüsusilə balıq və bir çox vəhşi heyvanlar, meşələr və otlaq sahələri) davamlı şəkildə istifadəsininin təmin edilməsi.

Ötən əsrin 80-ci illərində davamlı inkişaf termini ədəbiyyatda geniş istifadə olunduğuna və yuxarıda qeyd etdiyimiz Roma Klubunun sifarişi ilə hazırlanmış "İnkişafa məhdudiyyətlər" adlı hesabatda verilən proqnozlar səhv çıxdığına görə inkişafının qarşısını alan məhdudiyyətlər məsələsi arxa plana düşdü. Lakin 1990-cı illərdə iqtisadi inkişafa qarşı çıxan siyasət inkişaf etmiş ölkələrdə yenidən gündəmə gəldi. Belə bir şəraitdə iqtisadi inkişaf, xüsusilə eksponensial inkişaf yenidən tənqid mövzusu oldu.

Eksponensial inkişafın tənqidi yaşıl siyasət nəzəriyyəsində daha aydın şəkildə özünü büruzə verir. Yaşıl siyasət nəzəriyyəsinin tərəfdarları inkişafa məhdudiyyətləri əsas götürərək və eksponensial inkişafa qarşı çıxış edərək onun ekoloji fəsadları ilə sosial fəsadları arasında sıx əlaqənin olduğunu iddia edirlər. Başqa sözlə desək, onlar iqlim dəyişikliyi, havanın və suyun keyfiyyətinin pisləşməsi, içməli su qıtlığı, torpağın eroziyası, biomüxtəlifliyin azalması və digər bu kimi ekoloji problemlərin yaranmasının insanların sağlamlığı, həyat şəraiti, rifahı, uşaq doğumunun səviyyəsinin aşağı düşməsi kimi sosial problemlərin kəskin şəkildə artmasına təsir göstərdiyini qeyd edirlər.

Yaşıl siyasət nəzəriyyəsinin tərəfdarları yaranmış şəraitdə real çıxış yolu kimi davamlı inkişaf modelinin qəbul olunması ideyasını irəli sürürlər. Eksponensial inkişaf modelindən fərqli olaraq davamlı inkişaf modeli müasir elmə və onun əsasında hazırlanan yüksək texnologiyanın inkişafına əsaslanır. Məlum olduğu kimi, müasir elmin nailiyyətləri əsasında hazırlanmış yüksək texnologiyalar vasitəsilə ətraf mühitin çirklənməsinin qarşısı alınır və təbii ehtiyatların qorunması təmin edilir. Eksponensial inkişaf üçün tələb olunan xammal qıtlığı dövlətləri bir-biri ilə münaqişələrə sürüklədiyi halda, davamlı inkişaf dövlətləri bir-biri ilə əməkdaşlığa istiqamətləndirir.

Beləliklə, davamlı inkişaf modeli yaşıl siyasət nəzəriyyəsinin təbliğ etdiyi inkişaf modelinin əsasını təşkil edir.

### 11.3. Yaşıl siyasət nəzəriyyəsi və iqlim dəyişikliyi

Yaşıl siyasət nəzəriyyəsinin diqqət mərkəzində ətraf mühitin qorunması məsələsi durur. Beynəlxalq münasibətlərin realizm, liberalizm, neorealizm və digər hakim nəzəriyyələrindən fərqli olaraq yaşıl siyasət nəzəriyyəsi ətraf mühitin qorunmasına böyük əhəmiyyət verir. O, ölkələri ətraf mühitin qorunması məsələsinə xüsusi fikir verməyə çağırır, onların bu istiqamətdə ciddi tədbirlərin həyata keçirilməsinin zəruriliyini göstərir. Bunun ilkin və zəruri şərti kimi yaşıl siyasət

nəzəriyyəsi dövlətləri beynəlxalq münasibətlər sistemində hərbi gücün istifadə olunmasından imtina etməyə çağırır.

Məlum olduğu kimi, müasir dövrdə ətraf mühitin qorunmasını şərtləndirən əsas məsələ qlobal iqlim dəyişikliyinin qarşısının alınmasıdır. Belə ki, hazırda ətraf mühitin qorunmasına təhdid edən atmosferdə karbon qazının miqdarının artması, içməli su mənbələrinin tükənməsi, meşə yanğınları, Arktikada və Antarktidada buzların əriməsi səbəbindən dənizlərdə suyun səviyyəsinin qalxması nəticəsində yaşayış məntəqələrinin su altında qalması, torpağın eroziyası, kənd təsərrüfatı sahəsində məhsuldarlığın aşağı düşməsi, biomüxtəlifliyin azalması və digər bu kimi problemlər məhz iqlim dəyişikliyinin nəticəsində meydana gəlir. İqlim dəyişikliyi nəticəsində ətraf mühitdə baş verən bu böhran hadisələri insanların sağlamlığına və rifahına da mənfi təsir göstərir.

İqlim dəyişikliyi problemi öz mahiyyətinə görə qlobal problemdir. Bu problemin yaranmasında əsas səbəbkar inkişaf etmiş sənaye ölkələrinin olmasına baxmayaraq onun fəsadları bütün dünyada özünü göstərir. Qlobal problem olduğuna görə iqlim dəyişikliyi problemi yalnız bütün ölkələrin birgə səyi ilə həll edilməlidir. Heç bir dövlət tək başına onu həll etmək iqtidarında deyil.

Dünyanın üzləşdiyi iqlim dəyişikliyi problemi ilə birgə mübarizə aparmaq məqsədilə 1992-ci ilin iyun ayında Rio-de-Janeyroda keçən Yer Sammitində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası 154 dövlət tərəfindən imzalanmışdır[7]. Konvensiya üzv dövlətləri iqlim sisteminə insanın təhlükəli müdaxiləsinin qarşısının alınmasına çağırır. Bundan başqa Konvensiyada qida istehsalına təhdidlərin aradan götürülməsi və iqtisadi inkişafın davamlılığının təmin edilməsi məqsədilə ölkələr arasında birgə elmi araşdırmaların aparılması, müntəzəm görüşlərin və danışıqların keçirilməsi planlaşdırılır.

Qlobal iqlim dəyişikliyi dedikdə, iqlimə antropogen xarakterli təsirin nəticəsində Yer kürəsində havanın istiliyinin artması nəzərdə tutulur. Planetimizdə temperaturun artması atmosferə karbon qazının buraxılması səbəbindən baş verir. Sənayeləşmədən əvvəlki dövrlə müqayisədə hazırda planetimizdə orta temperatur 1.1 dərəcə selsiya artmışdır. Bu, mütəxəssislərin qırmızı xətt kimi müəyyən etdikləri temperaturun 2 dərəcə artması həddinə yaxınlaşmağı göstərir. Məlum olduğu kimi, hazırda bütün dünyada temperaturun artması müşahidə olunur. Hesablamalara görə, planetimizdə orta temperaturun 2 dərəcə artması insanlara və təbiətə ciddi təhlükələr törədəcəkdir. Dünya əhalisinin üçdə biri müntəzəm şəkildə şiddətli istiyə məruz qalacaqdır. Bu, insanlar arasında müxtəlif xəstəliklərin, o cümlədən ölüm hallarının artmasına səbəb olacaqdır. Arktikada və Antarktidada dəniz buzlarının əriməsi yaşayış məntəqələrinin və əkin sahələrinin suyun altında qalmasına səbəb olacaqdır.

---

[7] *Qeyd:* Hazırda 197 dövlət BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına qoşulmuşdur.

Bu isə öz növbəsində sənayenin və kənd təsərrüfatının inkişafına, eləcə də insanların rifahına mənfi təsir göstərəcəkdir. Bu fəlakətin qarşısını almaq üçün orta temperatur bu əsrin sonunadək 1,5 dərəcə istiləşməni keçməməlidir.

Qlobal istiləşmənin bütün dünya üçün təhlükəli problem olmasını nəzərə alan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası bu problemin həllinə nail olmaq məqsədilə indiyədək bir neçə mühüm sənəd qəbul etmişdir.

1997-ci ildə *Kioto Protokolu* qəbul olunmuşdur. Kioto Protokolu Konvensiyanın hədəflərinə uyğun olaraq 37 sənaye ölkəsinin qarşısında istixana qazlarının emissiyasının həcmini 1990-cı il ilə müqayisədə 2008-2012-ci illərdə 5 faiz azaltmaq öhdəliyini qoydu.

2015-ci ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 21-ci konfransında *Paris Sazişi* qəbul olunmuşdur. Bu Sazişi 175 dövlət imzaladı[8]. 2016-cı il noyabrın 4-də Avropa İttifaqı Paris Sazişini ratifikasiya etdikdən sonra o, qüvvəyə minmişdir. Kioto Protokolundan fərqli olaraq Paris Sazişi ilk dəfə olaraq hər bir dövlətin qarşısında karbon qazı emissiyasının azaldılması ilə bağlı hüquqi öhdəlik qoymuşdur. Ərazisinin böyüklüyündən və ya kiçikliyindən asılı olmayaraq Paris Sazişini imzalamış hər bir dövlət sənayeləşmədənəvvəlki dövrlə müqayisədə bu əsr ərzində qlobal istiləşməni 2 dərəcədən aşağı, ideal olaraq isə 1,5 dərəcəyədək məhdudlaşdırmaq üçün karbon qazı emissiyasını azaltmaq öhdəliyini qəbul etdi.

Qlobal istiləşmə probleminin qarşısının alınmasına həsr olunmuş BMT-nin daha bir mühüm konfransı 2021-ci il oktyabrın 31-dən noyabrın 12-dək Böyük Britaniyanın Qlazqo şəhərində keçirildi. Bu, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 26-cı konfransı idi. Konfransda iştirakçı dövlətlərin qarşısında atmosferə karbon qazının emissiyasını, yəni havaya buraxılmasını azaltmaqla 2050-ci ilədək qlobal *xalis sıfır emissiyaya (net zero emission)* nail olmaq və bununla da istiləşməni 1,5 dərəcəyədək məhdudlaşdırılmasının əlçatanlığını mümkün etmək məqsədləri dururdu[9]. Bu məqsədlərə çatmaq üçün ölkələr kömürün istifadəsini dayandırmalı, meşələrin məhv olunmasının qarşısını almalı, elektrik nəqliyyat vasitələrinə keçidi sürətləndirməli, bərpa olunan mənbələrə investisiyaların qoyuluşunu dəstəkləməli və bu kimi digər məsələləri həll etməli idilər. İki həftəlik intensiv və qızğın danışıqlardan sonra 200 yaxın ölkə kompromis iqlim sazişi qəbul etdi. Sazişdə qlobal istiləşmənin qarşısının alınması məsələsi əsas hədəf kimi qeyd olunur. Lakin sənəddə Hindistan tərəfindən son anda irəli sürülən təklifə əsasən kömürün istifadəsindən birdəfəlik deyil, tədricən, mərhələli şəkildə imtina olunması nəzərdə tutulur. Hindistanın bu təklifini kömür istifadə edən

[8] *Qeyd:* 2021-ci il mart ayına Paris Sazişini imzalamış dövlətlərin sayı 195 çatmışdır.
[9] *Qeyd:* Xalis sıfır emissiya insanın fəaliyyəti nəticəsində atmosferə karbon qazının emissiyasının miqdarı ilə atmosferdən çıxarılan qazın miqdarı arasındakı tarazlığı ifadə edir. Başqa sözlə desək, xalis sıfır emissiya atmosferə atılan qazın tamamilə oradan təmizlənməsini göstərir.

ölkələrin bir çoxu dəstəklədi. Bu, qlobal istiləşmənin qarşısının alınması hədəfinə istiqamətdə bir növ geriləmə olsa da, ümumilikdə, qəbul olunmuş sözügedən sənəd iqlim dəyişikliyi ilə mübarizədə mühüm bir irəliləyiş idi.

Beləliklə, ətraf mühitin qorunmasını əsas məsələ kimi təqdim edən yaşıl siyasət nəzəriyyəsi bu məsələnin həlli üçün dövlətlərin əməkdaşlığını vacib hesab edir. Bu əməkdaşlığın zəruriliyi müasir dövrdə iqlim dəyişikliyinin əsas səbəbi olan qlobal istiləşmə probleminin xarakterindən irəli gəlir. Bu problem sərhəd tanımır. Qlobal istiləşmənin yaranmasının əsas səbəbkarları müəyyən ölkələr olsa da, onun təhlükəli fəsadları bütün ölkələri əhatə edir. Buna görə də onun qarşısının alınması üçün ölkələr səylərini birləşdirməlidir.

### 11.4. Yaşıl siyasət nəzəriyyəsinin dəyərləndirilməsi

Yuxarıda qeyd olunduğu kimi, yaşıl siyasət nəzəriyyəsi, bir tərəfdən, beynəlxalq münasibətlər sahəsində antroposentrizm prinsipinin geniş yayılmasını tənqid etməklə ekosentrizm ideyasını irəli sürür, digər tərəfdən isə ölkələrin inkişafında iqtisadi və ekoloji böhranlara səbəb olan eksponensial inkişaf modelinin səmərəsiz model olduğunu göstərməklə davamlı inkişaf modelini təbliğ edir. Antroposentrizmdən ekosentrizmə keçid, eləcə də ekoloji böhrana səbəb olan, dövlətlər arasında xammal uğrunda mübarizəyə, hətta müharibələrə səbəb olan, ümumiyyətlə inkişafa məhdudiyyət qoyan eksponensial inkişaf modelindən imtina etməklə davamlı inkişaf modelinin qəbul olunması yaşıl siyasət nəzəriyyəsinin beynəlxalq münasibətlərin digər nəzəriyyələrindən əsas fərqini göstərir.

Yaşıl siyasət nəzəriyyəsi beynəlxalq münasibətlərin yeni nəzəriyyələrindən biri olmaqla yanaşı onun müasir dövr üçün böyük əhəmiyyət kəsb edən nəzəriyyələrindən biridir. Belə ki, bu nəzəriyyənin tədqiq etdiyi ekoloji problemlər müasir dövrün ən aktual problemlərindəndir. Yaşıl siyasət nəzəriyyəsi bəşəriyyətin üzləşdiyi ekoloji böhrana cavab olaraq meydana gəlmişdir. Bu nəzəriyyə dövlətlərin üzləşdikləri qlobal xarakter daşıyan ekoloji problemlərin həlli yollarının müəyyən edilməsini qarşısında əsas məqsəd kimi qoyur.

Müasir dövrdə ətraf mühitin qorunmasının əsas problemi olan iqlim dəyişikliyinin səbəbi qalıq yanacaqlarının istifadəsi ilə bağlıdır[10]. Qalıq yanacaqlarının, xüsusilə də kömürün istifadə olunması qlobal istiləşməyə səbəb olur. Yaşıl siyasət nəzəriyyəsi qlobal istiləşmənin qarşısını almaq üçün bu istiqamətdə dövlətlərin birgə fəaliyyətini vacib hesab edir. Yaşıl siyasət nəzəriyyəsi dövlətlərin birgə fəaliyyətinin ilkin və əsas şərti kimi insanların ekoloji şüurunun inkişafının

---

[10] *Qeyd:* Qalıq yanacaqları dedikdə ilk növbədə kömür, neft, yanar şist, təbii qaz nəzərdə tutulur. Məlum olduğu kimi, bu yanacaqlar məhv olmuş bitki və heyvanların qalıqlarından yaranır. Onlara torpağın və/ və ya suyun altında rast gəlinir. Bu yanacaqların tərkibində olan karbon və hidrogeni yandırmaqla enerji alınır.

zəruriliyini göstərir. Ekoloji şüur insanların təbiətdə maraqlarının müdafiə olunması məsələsindən daha çox təbiətin özünün maraqlarının müdafiə olunması məsələsini ortaya qoyur. Buna görə də ekoloji şüurun inkişafı təmin edilmədikdə, dövlətlərin hərbi və iqtisadi sahələrdə davam edən rəqabəti iqlim dəyişikliyi probleminin həll olunmasının qarşısını alır.

Dövlətləri beynəlxalq münasibətlərin əsas aktoru hesab edən, eləcə də milli maraqların müdafiə olunmasını dövlətlərinin xarici siyasət fəaliyyətinin əsas məsələsi kimi qələmə verən realizm və neorealizm nəzəriyyələri qlobal istiləşmə problemini dünya dövlətlərinin birgə əməkdaşlığı əsasında həll olunmasını təklif etmək iqtidarında deyil. Çünki bu nəzəriyyələr beynəlxalq münasibətlər sistemində dövlətlərin səmərəli fəaliyyətlərinin əsas göstəricisi kimi milli maraqların müdafiəsində görür. Bu isə əsasən rəqabət yolu ilə mümkündür.

Yaşıl siyasət nəzəriyyəsi isə mərkəzsizləşdirmə ideyasına əsaslanaraq dövləti cəmiyyətin ən yüksək iyerarxik institutu kimi ekoloji böhranın əsas səbəbkarı hesab edir. Yaşıl siyasət nəzəriyyəsi qlobal istiləşmənin qarşısının alınmasında beynəlxalq qurumların, qeyri-hökumət təşkilatlarının, yaşıl hərəkatların roluna yüksək önəm verir. Bu nəzəriyyə rəqabət şəraitində fəaliyyət göstərən suveren milli dövlətlər ideyasının mütləqləşdirilməsinə qarşı çıxır. O, dövlətlərin dar milli maraqlar çərçivəsindən çıxaraq qlobal xarakter daşıyan iqlim dəyişikliyi probleminin həlli istiqamətində birgə fəaliyyət göstərmələrinin vacibliyini qeyd edir. Bununla da beynəlxalq münasibətlərin ənənəvi nəzəriyyələrindən fərqli olaraq yaşıl siyasət nəzəriyyəsi beynəlxalq münasibətlərə dair yeni baxışı və onun təkmilləşdirilməsinin yeni konsepsiyasını təqdim edir.

## Fəslə aid suallar

1. Beynəlxalq münasibətlərin yaşıl siyasət nəzəriyyəsi beynəlxalq münasibətlərin hakim yoxsa tənqidi nəzəriyyələr qrupuna daxildir? Niyə?
2. Beynəlxalq münasibətlərin yaşıl siyasət nəzəriyyəsi nə vaxt yaranmışdır? Onun yaranmasına hansı hadisələr təsir göstərmişdir?
3. Beynəlxalq münasibətlərin yaşıl siyasət nəzəriyyəsinin görkəmli nümayəndələri kimlərdir?
4. Yaşıl siyasət nəzəriyyəsinə əsasən, beynəlxalq münasibətlər nəzəriyyəsi fənninin predmetini nə təşkil edir?
5. Yaşıl siyasət nəzəriyyəsinin nümayəndələri niyə hesab edirlər ki, beynəlxalq münasibətlərin ənənəvi nəzəriyyələri ətraf mühitlə bağlı olan problemləri və onların beynəlxalq münasibətlər sisteminə təsirini dərk edə bilmir?
6. Antroposentrizmdən ekosentrizmə keçidin mahiyyəti nədən ibarətdir?

7. Robert Qudinə görə "yaşıl əxlaq" nə deməkdir?
8. Robert Qudinə görə ekosentrizm ilə antroposentrizm arasındakı fərq nədən ibarətdir?
9. Yaşıl siyasətə görə inkişafa məhdudiyyət dedikdə nə nəzərdə tutulur?
10. Eksponensial inkişaf nə deməkdir?
11. Roma Klubuna görə eksponensial inkişaf niyə zərərlidir?
12. Endryu Dobson Roma Klubunun hesabatında eksponensial iqtisadi inkişaf modelinin zərərli model olmasına dair fikirdə hansı arqumentlərin böyük əhəmiyyət kəsb etdiyini qeyd edir?
13. Yaşıl siyasət nəzəriyyəsinin mühüm cəhətlərindən olan mərkəzsizləşdirmə nəyi ifadə edir?
14. Niyə yaşıl siyasət nəzəriyyəsi mərkəzləşdirilmiş dövlət sistemini tənqid edir?
15. Niyə davamlı inkişaf modeli yaşıl siyasət nəzəriyyəsinin mühüm kateqoriyalarından biri hesab olunur?
16. Davamlı inkişaf nədir?
17. Niyə beynəlxalq münasibətlərin yaşıl siyasət nəzəriyyəsi davamlı inkişaf ideyasını müdafiə edir?
18. Beynəlxalq münasibətlərin realizm və yaşıl siyasət nəzəriyyələri dövlətin hərbi gücünün artması məsələsinə münasibəti necədir?
19. İqlim dəyişikliyi nə ilə bağlıdır və onun hansı nəticələri vardır?
20. Qlobal istiləşmənin qarşısının alınması istiqamətində Kioto Protokolunun əsas təklifi nədən ibarətdir?
21. Qlobal istiləşmənin qarşısının alınması məqsədilə Paris Sazişi dövlətlərin qarşısında hansı öhdəliyi qoymuşdur?
22. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 26-cı konfransında qlobal istiləşmənin qarşısının alınması istiqamətində hansı qərar qəbul olunmuşdur?
23. Niyə beynəlxalq münasibətlərin yaşıl siyasət nəzəriyyəsi ətraf mühitin qorunmasını dövlətlərin əməkdaşlığı üçün vacib hesab edir?
24. Niyə yaşıl siyasət nəzəriyyəsi beynəlxalq münasibətlərin ən aktual nəzəriyyələrindən biri hesab olunur?
25. Niyə beynəlxalq münasibətlərin yaşıl siyasət nəzəriyyəsi insanların ekoloji şüurunun inkişafını vacib hesab edir?

## Ədəbiyyat

*Carter A.* "Towards a Green Political Theory", in A. Dobson and P. Lucardie (eds), The Politics of Nature: Explorations in Green Political Theory. London, 1993.

*Dyer H.* “Climate Anarchy: Creative Disorder in World Politics”, // International Political Sociology 8 (2), pp.182–200, 2014.

*Dyer H. “Green Theory". In McGlinchey, Stephen; Walters, Rosie; Scheinpflug, Christian (eds.). Bristol: E-International Relations. pp. 84–90, 2017.*

*Eckersley R.* Environmentalism and Political Theory: Towards an Ecocentric Approach. London, 1992.

*Eckersley R.* The Green State: Rethinking Democracy and Sovereignty. Massachusetts University Press, 2004.

*Goodin R.* Green Political Theory. Cambridge, 1992

*Helleiner E.* “International Political Economy and the Greens”, //New Political Economy, 1(1), 1996.

*Helleiner E.* “New Voices in the Globalization Debate: Green Perspectives on the World Economy”, in R. Stubbs and G. Underhill (eds), Political Economy and the Changing Global Order, 2nd edition, Oxford, 2000.

*Meadows D., Randers J. and Behrens W.* The Limits to Growth. London, 1972.

*Meadows D. and Randers J.* Beyond the Limits. London, 1992.

*Nəcəfov E.Ə.* Multikulturalizmin sosial-fəlsəfi təhlili. Bakı, 2020.

*Nəcəfov E.Ə.* “Davamlı və inklüziv inkişafın əldə olunmasında multikulturalizm siyasətinin rolu”. Multikulturalizmə giriş. (Ali məktəblər üçün dərslik), Bakı, 2019

*Nəcəfov E.Ə.* Yaşıl siyasət və davamlı inkişaf. Dövlət İdarəçiliyi. Nəzəriyyə və təcrübə, Jurnal, N5 (74), 2021, s.144-155

*Paterson M., Doran P., Barry J.* "Green Theory". In Hay, C.; Lister, M.; Marsh, D. (eds.). The State: Theories and Issues. Basingstoke: Palgrave Macmillan. pp. 135–154, 2010

*Paterson M.* "Green Politics". In Burchill, Scott; Linklater, Andrew (eds.). Theories of International Relations (3-rd ed.). Basingstoke: Palgrave Macmillan. pp. 235-57, 2013.

*Paterson M.* “Overview: Interpreting Trends in Global Environmental Governance”,// International Affairs, 75(4), 1999

*Vogler J.* "Environmental Issues". In Baylis, John; Smith, Steve; Owens, Patricia (eds.). The Globalization of World Politics: An Introduction to International Relations (8th ed.). Oxford: Oxford University Press. pp. 387–403, 2020.

United Nations Resolution adopted by the General Assembly on 25 September 2015. Transforming our world: the 2030 Agenda for Sustainable Development, 2015. https://sustainabledevelopment.un.org/post2015/transformingourworld

# XII FƏSİL
# BMN-də BÖYÜK DEBATLAR

Beynəlxalq münasibətlər nəzəriyyəsində əsas məktəbləri nəzərdən keçirdikdən sonra onların bəzilərinin arasında gedən mübahisələrdən, ideoloji qarşıdurmalardan danışmaq məqsədəuyğundur.

Beynəlxalq münasibətlər nəzəriyyəsinin bir elm sahəsi kimi formalaşmasında və sonrakı inkişafında onun tədqiqat sahəsinə aid olan bir çox məsələlərə dair müxtəlif məktəblər və nəzəri yanaşmalar tərəfindən irəli sürülən anlayışlar, fərziyyələr, konsepsiyalar və nəzəriyyələr əhəmiyyətli rol oynamışdır. BMN-nin bir müstəqil elm sahəsi kimi meydana gəlməsindən indiyədək onun tədqiq etdiyi bir sıra mühüm məsələlərə dair müxtəlif məktəblər və nəzəri yanaşmalar arasında mübahisələr gedir. Bu mübahisələr BMN-nin tarixinə "Böyük debatlar" kimi daxil olmuşlar. Mübahisələrin predmeti müxtəlifdir: fənnin predmetindən tutmuş orada tətbiq edilən metodlaradək. Debatlar beynəlxalq münasibətlərin tədqiqatçıları arasında fikir ayrılığını göstərir. Ümumilikdə fikir ayrılığı BMN fənninin inkişafına xidmət edir.

BMN-nin tarixində dörd böyük debat olmuşdur. Debatların hər biri müxtəlif vaxt meydana gəlmişdir. Onların hər birinin meydana gəlməsində beynəlxalq aləmdə baş verən hadisələr önəmli rol oynamışdır. Bu debatlar indi də davam etməkdədir.

Bu fəsildə biz hər bir debatı ayrılıqda təhlil edəcəyik.

## 12.1. Birinci Böyük debat

I fəsildə qeyd etdiyimiz kimi, təxminən ötən əsrin 30-cu illərinin sonunda başlayan BMN fənninin ikinci inkişaf mərhələsi realizmlə liberalizmin qarşıdurmasının sərtləşməsi ilə xarakterizə olunurdu. Bu iki paradiqma arasındakı qarşıdurma BMN sahəsində Birinci Böyük debatın meydana gəlməsi ilə nəticələndi.

Realizm və liberalizm arasındakı debatın predmeti BMN fənni üçün mühüm əhəmiyyət kəsb edən məsələləri əhatə edir. Belə məsələlərin sırasında *beynəlxalq münasibətlərin mahiyyəti, hərəkətverici qüvvələri, dəyərləri, aktorları* kimi məsələlər var. Realizmi müdafiə edən tədqiqatçılar beynəlxalq münasibətlər sisteminin anarxik olduğunu göstərərək dövlətin rolunun gücləndirilməsinin vacibliyini qeyd edirlər. Liberalizm nəzəriyyəsinin nümayəndələri isə müharibələrin qarşısının alınması məqsədilə Millətlər Liqası kimi beynəlxalq təşkilatların dünya siyasətində rolunun artması ideyasını müdafiə edirlər. Realizm milli hakimiyyətin genişlənməsini məqsəd kimi qarşıya qoymuşdursa, liberalizm sülhü bərqərar etməyə və möhkəmlətməyə yönəlmişdir.

Realizm və liberalizm arasında əsas fərqlərdən biri ondadır ki, liberalizm dəyərlərə üstünlük verir və onlara əsaslanır, realizm isə gücü, hakimiyyəti əsas götürərək onları dəyər kimi qələmə verir. Liberallar hesab edirlər ki, beynəlxalq təşkilatlar, dövlətlərarası müqavilələr və qanunlar vasitəsilə müharibənin qarşısını almaq mümkündür. Realistlər isə liberalların bu fikrini rədd edərək müharibənin qarşısını sadalanan vasitələrlə alınmasının mümkün olmadığını iddia edirlər. Yuxarıda qeyd olunduğu kimi, realistlər liberalları belə fikir irəli sürdüklərinə görə utopist adlandırırdılar.

Beləliklə, BMN fənninin tarixində meydana gələn ilk Böyük debat fənnin iki əsas paradiqması olan realizm və liberalizm arasında özünü göstərmişdir. Bu debat beynəlxalq münasibətlərin bir sıra aktual məsələləri üzrə indiyədək davam edir.

### 12.2. İkinci Böyük debat

1960-cı illərin sonunda BMN sahəsində İkinci Böyük debat meydana gəldi. Bu debat iki müxtəlif intellektual mədəniyyətlər, daha konkret desək, tədqiqat metodları – *biheviorizm, sayentisizm* ("science" ingilis dilindən tərcümədə "elm" deməkdir.- Red.) və *ənənəçilik*- arasında idi. İkinci Böyük debat belə bir sual ətrafında gedirdi: Beynəlxalq münasibətlərin öyrənilməsində səmərəli metod hansıdır – dəqiq elmlərdən götürülmüş və biliklərin təcrübə yolu ilə yoxlanılmasını nəzərdə tutan biheviorist metod yoxsa deduksiya, induksiya, analiz, sintez, ümumiləşdirmə və digər bu kimi ümummentiqi metodların tətbiqinə əsaslanan ənənəvi metod?

Ümumiyyətlə, biheviorizm bir tədqiqat metodu kimi 1950-ci illərin ortalarında əsasən ABŞ-da formalaşmışdır. Pozitivizmin ictimai elmlərdə tətbiq edilən bir metodu kimi biheviorizm beynəlxalq münasibətlərin öyrənilməsində də geniş tətbiq edilməyə başladı. İctimai elmlərdə biheviorizm metodunun tətbiq edilməsinin tərəfdarları hesab edirdilər ki, dəqiq elmlərdə (fizika, kimya və s.) tətbiq edilən metodlar ictimai elmlərdə də tətbiq edilməlidir. Bu tələbləri onlar belə əsaslandırırdılar ki, son zamanlar dəqiq elmlərdə tətbiq edilən metodların sayəsində mühüm elmi kəşflər, nailiyyətlər əldə olunmuşdur. Onların fikrincə, dəqiq elmlərin metodlarının ictimai elmlərdə tətbiq edilməsi onların da inkişafına səbəb olacaqdır.

Biheviorizmin tərəfdarları qeyd edirdilər ki, realizm özünün güc, milli maraq və digər əsas kateqoriyalarının dəqiq tərifini verməməsinə görə beynəlxalq siyasət sahəsində düzgün proqnoz vermək mümkün olmamışdır. Əgər hər hansı bir nəzəriyyənin müddəaları düzgün proqnoz vermək üçün yararlı deyilsə, onda həmin nəzəriyyədən imtina etmək məqsədəuyğundur. Bihevioristlərin fikrincə, elmin terminlərinin, kateqoriyalarının dəqiq tərifi verilməlidir, elm düzgün metodları tətbiq etməlidir və hər bir elmi tədqiqat riyazi metodla hesablana biləcək faktlardan

istifadə etməlidir. Beynəlxalq münasibətləri əsaslı öyrənmək üçün statistikadan, kompyutor proqramlaşdırmasından, simulyasiya və oyun nəzəriyyələrindən geniş istifadə etmək lazımdır.

Ənənəçilər isə əksinə hesab edirlər ki, beynəlxalq münasibətləri əsaslı şəkildə öyrənmək üçün tarixə müraciət edib oradan müəyyən məsələlər ilə əlaqədar ümumiləşdirmələr etmək kifayətdir. Onların fikrincə, biheviorislərin dedikləri kimi empirik faktları toplayıb və təhlil etmək məqsədilə yeni metodları icad etməkdə ehtiyac yoxdur. Ənənəçilərin fikrincə, cəmiyyət o cümlədən beynəlxalq münasibətlər elə mürəkkəb və rəngarəngdir ki, onu quru statistik metodla dərk etmək mümkün deyil. Beynəlxalq münasibətləri, ümumiyyətlə, ictimai münasibətləri dəqiq elmlərin metodları vasitəsilə dərk etmək olmaz.

Bəzi tədqiqatçılar hesab edirlər ki, biheviorist- ənənəçilik qarşıdurmasının realizm- idealizm qarşıdurması ilə heç bir əlaqəsi yoxdur, çünki İkinci debat təhlilin yolu, yəni metodu ilə bağlıdır, Birinci debat isə beynəlxalq münasibətlərin predmetinə aiddir. Bu yanlış fikrin əsasında digər bir yanlış fikir durur ki, ona əsasən, beynəlxalq münasibətlərin məzmunu və onu tədqiq edən metod arasında heç bir əlaqə yoxdur. Lakin məzmun və tədqiqat metodu arasında sıx əlaqə vardır. Tədqiqat metoduna məzmun təsir edir. Əgər beynəlxalq münasibətləri kimsə müəyyən şəkildə təsvir edirsə, bundan asılı olaraq o, beynəlxalq münasibətlərin öyrənilməsi üçün konkret metodun münasibliyini məsləhət görəcəkdir.

Biheviorizm və ənənəçilik arasında mübahisə ənənəçilərin beynəlxalq münasibətlərin öyrənilməsində dəqiq elmlərin metodlarının tətbiq edilməsinə razı olmamalarının nəticəsində yarandı. Elmi metodlar yalnız 1960-cı illərdə tətbiq edilməyə başlandı. Beynəlxalq münasibətlərin öyrənilməsində dəqiq elmlərin metodlarının tətbiq edilməsinin tərəfdarları (Morton Kaplan, Karl Doyç, Kvunsi Vrayt, Devid Sinqer, Ernst Xaas və başqaları) beynəlxalq münasibətlərin öyrənilməsində ənənəvi yanaşmanın məhdud olmasını qeyd edərək dəqiq elmlərin metodlarının istifadə edilməsinin əhəmiyyətini vurğulayırdılar. Onlar öz tədqiqatlarında empirik faktların toplanmasına və təhlil olunmasına xüsusi fikir verirdilər. Bihevioristlər beynəlxalq münasibətlərin tədqiq edilməsində təcrübə yolu ilə yoxlanılmayan hər bir müddəadan, fərziyyədən əl çəkməyə çağırırdılar. Onların fikrincə, bunu etməklə beynəlxalq münasibətlərin elmi cəhətdən öyrənilməsinə nail olmaq mümkündür. Lakin bihevioristlərin bu fikirlərinə ənənəvi metodların tərəfdarları fəal şəkildə qarşı çıxış edirdilər.

Ənənəçilərin mövqeyini fəal müdafiə edənlərdən biri Hedli Bull idi. Onun bu səpkidə yazdığı məqalələr biheviorizm və ənənəçilik arasında mübahisəni daha da qızışdırdı. Hedli Bull əsərlərində beynəlxalq münasibətlərin öyrənilməsində biheviorist yanaşmanı münasib metod hesab etmirdi və üstünlüyü fəlsəfə, tarix və hüquqa əsaslanan ənənəvi metoda verirdi.

Biheviorist yanaşma belə bir fikrə əsaslanır: beynəlxalq münasibətlər insanlarla bağlıdır və buna görə də o, bu sahədə fəaliyyət göstərən insanların fəaliyyətinin təhlil və izah olunması ilə təhlil və izah oluna bilər. Bu mənada biheviorist yanaşma milli dövləti öz tədqiqat sahəsi hesab edən və onu tədqiq edən ənənəvi yanaşmadan fərqlənir. Biheviorist yanaşmaya əsasən, tədqiqatın əsas məqsədi insanların sosial cəhətdən müəyyən edilmiş fəaliyyətini öyrənməkdir. Bunun üçün tədqiqatçı bir neçə ictimai elmləri, xüsusilə sosiologiyanı, psixologiyanı, antropologiyanı yaxşı bilməlidir, çünki bu elmlər insanın davranışını dərk etməyə kömək edir. Bihevioristlər nə vaxtsa *"ümumi nəzəriyyənin"* (insanların bütün davranışlarını izah edə biləcək) yaradılmasının mümkün olacağına inanırlar.

Ənənəçilər bihevioristlərin arzuladıqları "ümumi nəzəriyyənin" yaradılmasını şübhə altına qoyurlar. Ənənəçi bihevioristdən fərqli olaraq hesab edir ki, faktlar həmişə özləri fikir daşıyıcıları olmur. Tədqiqatçı faktları izah etməklə onlara *məna* verir.

Biheviorist qeyd edir ki, tədqiqatın əldə olunan nəticələri tədqiqatçının nəyəsə üstünlük verməsindən azad olmalıdır. Biheviorist simulyasiya və kontent təhlil kimi kəmiyyət prosedurlarından istifadə edir. Bihevioristlər nəzəriyyələrini (qərarın qəbul olunması nəzəriyyəsi, sövdələşmə və danışıqlar nəzəriyyəsi, diplomatiya nəzəriyyəsi) statistika və riyaziyyat, kontent təhlil, oyun və simulyasiyanın laboratoriya texnikası kimi yeni üsulları tətbiq etməklə irəli sürmüşlər.

1960-cı illərdə ABŞ-da biheviorizm ilə ənənəçilik tədqiqat metodlarının arasındakı qarşıdurma birincinin qələbəsi ilə nəticələndi. O vaxtdan ABŞ-ın əksər universitetlərində beynəlxalq münasibətlərin təqdid olunmasında bihevioristlərin irəli sürdükləri tədqiqat metodları geniş tətbiq olunur.

Biheviorizm və ənənəçilik metodlarının hər ikisi beynəlxalq münasibətlərlərin öyrənilməsində faydalı metod kimi tətbiq edilə bilər. Lakin biheviorist yanaşması qarşıya qoyulmuş məqsədləri əsaslı və hərtərəfli şəkildə əhatə edə bilmir. Bu isə ümumiləşdirmələrin aparılmasına imkan vermir.

### 12.3. Üçüncü Böyük debat

1970-ci illərin əvvəllərində BMN elminin inkişafında Üçüncü Böyük debat meydana gəldi. Birinci və İkinci debatlarda olduğu kimi Üçüncü debatda da mübahisə tərəflərindən birini siyasi realizm nəzəriyyəsi təmsil edirdi.

Üçüncü Böyük debatın formalaşmasına siyasi realizm nəzəriyyəsinin dövlət haqqında konsepsiyasına qarşı BMN-də yenicə yaranmış *transmilli istiqamətin* tərəfdarlarının (Robert Keoheyn, Cozef Nay, Con Qrum, Robert Mansbeç və başqaları) tənqidi çıxışları əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Transmilli istiqamətin nümayəndələrinin fikrincə, müasir dövrdə siyasi realizm və xüsusilə

onun dövlət haqqında konsepsiyası beynəlxalq münasibətlərin əsas inkişaf istiqamətinə uyğun gəlmir, çünki müasir beynəlxalq münasibətlər artıq milli marağa və gücə əsaslanan dövlətlərarası münasibətlər kimi xarakterizə edilə bilməz. Beynəlxalq aləmdə dövlətlərlə bərabər digər akrotlar da *(məsələn, beynəlxalq təşkilatlar, transmilli şirkətlər, geyri-hökumət təşkilatları)* fəaliyyət göstərir və beynəlxalq münasibətlərin inkişaf istiqamətinə, xarakterinə təsir edirlər. Bunun nəticəsində beynəlxalq münasibətlər dövlətlərarası münasibətlərdən transmilli münasibətlərə transformasiya edir.

Transmilli münasibətlərin xüsusiyyətləri ondadır ki, burada dövlət aparıcı rol oynamır və bu münasibətlər dövlətin iştirakı olmadan meydana gəlir. Transmilli münasibətlərin formalaşmasına beynəlxalq aləmdə transmilli şirkətlərin rolunun artması, elmi-texniki tərəqqinin nəticəsində rabitə və nəqliyyat vasitələrinin surətlə inkişafı, dünya maliyyə bazarlarında baş verən proseslər güclü təsir göstərmişdir. Bütün bu proseslər, bir tərəfdən, beynəlxalq münasibətlər sahəsində dövlətin rolunun azalmasına, digər tərəfdən isə dünyada qarşılıqlı asılılığın sürətlə artmasına gətirmişdir.

### 12.4. Dördüncü Böyük debat

BMN-də *Dördüncü Böyük debat* XX əsrin 80-ci illərinin sonunda meydana gəlmişdir. Bu debatın yaranması neoliberalizmin görkəmli nümayəndələrindən biri olan Robert Koheynin adı ilə bağlıdır. Robert Koheyn 1988-ci ildə Beynəlxalq Tədqiqatlar Assosiasiyasında *"Beynəlxalq institutlar: iki yanaşma"* mövzusunda çıxışı zamanı *rasionalizm- reflektivizm qarşıdurması* haqqında ilk dəfə olaraq məlumat vermişdir.

*Rasionalizm- reflektivizm* qarşıdurması yeni, Dördüncü Böyük debatın məzmununu təşkil edir. Dördüncü debat beynəlxalq münasibətlər nəzəriyyəsinin *epistemologiya* məsələlərini, yəni idrak məsələlərini ehtiva edir. Bu debatda qarşı tərəflər kimi çıxış edən rasionalistlər və reflektivistlər obyektin dərk olunması məsələsinə münasibətdə bir-birinə əks mövqe nümayiş etdirirlər. Belə ki, pozitivizm metodologiyasına əsaslanan rasionalistlər obyektin dərk olunmasını müşahidə, təcrübə, ölçü, analiz, sübut və s. bu kimi elmi metodların tətbiqi ilə əlaqələndirirlər. Bu mövqe realizm, neorealizm, liberalizm və neoliberalizm tərəfindən müdafiə olunur.

Biliyin əldə olunmasında pozitivizm metodologiyasını rədd edən reflektivistlər isə obyektiv biliyin mövcudluğunu inkar edərək biliyin subyektiv xarakter daşıdığını qeyd edirlər.

Reflektivistlər beynəlxalq münasibətlər sahəsində baş verən hadisələrin izahedici, şərhedici və ya iştirakedici üsullarla izah olunmasının vacibliyini

göstərirlər. Yəni beynəlxalq münasibətlər sahəsində baş verən bu və ya digər hadisəni dərk etmək üçün tədqiqatçı həmin hadisəni subyektiv şəkildə bir növ yaşayaraq anlamalıdır. Anlamaq elə bir izahedici prosesdir ki, onun vasitəsilə tədqiqatçı baş verən hadisəni pozitivizm metodologiyasına əsaslanaraq kənardan müşahidə və təhlil etmir. O, aktora obyekt kimi deyil, subyekt kimi yanaşır. Yəni özünü bir növ onun yerində hiss edir.

Reflektivist yanaşmaya konstruktivizm, feminizm, post-modernizm kimi nəzəriyyələrdə rast gəlmək mümkündür. Məsələn, feminizm nəzəriyyəsinə əsasən, beynəlxalq münasibətlər sahəsində baş verən müəyyən hadisələrə qadınların mövqelərindən baxdıqda həmin hadisələri daha aydın şəkildə dərk etmək mümkün olur. Tədqiqatçı beynəlxalq münasibətlər sahəsində baş verən hadisələri subyektiv şəkildə qavramaqla və ona məna verməklə öz dünyagörüşünü formalaşdırır. Reflektivizm yanaşmasının tərəfdarlarının fikrincə, bu, beynəlxalq münasibətlər sahəsində baş verən hadisələri daha dərindən dərk olunmasına kömək edir.

***

Təhlil etdiyimiz debatların hər birinin BMN-nin bir elm sahəsi kimi formalaşmasında və inkişafında əvəzsiz rolu vardır. Digər elmlərdə olduğu kimi beynəlxalq münasibətlər nəzəriyyəsi elmində də debatların yaranması normal və obyektiv bir hadisədir. Onların olması, bir tərəfdən, elmin inkişafına səbəb olur, digər tərəfdən isə elmin inkişafının göstəricisi kimi çıxış edir. Başqa sözlə desək, debatlar beynəlxalq münasibətlər nəzəriyyəsi fənninin inkişafına münasibətdə həm *səbəb*, həm də *nəticə* kimi çıxış edir.

Debatlarda hər bir tərəfin təklif etdiyi yanaşma elmin müəyyən müddəalarını müxtəlif səpkidən öyrənməyi təklif edir. Bu, isə öz növbəsində son nəticədə elmdəki bu və ya digər paradiqmanın yeniləşməsinə və ümumilikdə elmin inkişafına səbəb olur.

Yuxarıda qeyd etdiyimiz kimi, BMN-də debatlar indi də davam etməkdədir. Bunun müəyyən müsbət əhəmiyyəti vardır. Belə ki, debatların davam etməsi beynəlxalq münasibətlər nəzəriyyəsi elminin inkişafı üçün əlverişli şərait yaradır.

### Fəslə aid suallar

1. BMN-də neçə Böyük debat vardır?
2. BMN-dəki Böyük debatların yaranmasının səbəbi nədir?
3. BMN-dəki Böyük debatların əhəmiyyəti nədir?

4. BMN sahəsində Birinci Böyük debat nə vaxt meydana gəlmişdir? Onun predmetini hansı məsələ(lər) təşkil edir?
5. Müasir dövrdə Birinci Böyük debat öz aktuallığını qoruyur? Niyə?
6. BMN sahəsində İkinci Böyük debat nə vaxt meydana gəlmişdir? Onun predmetini hansı məsələ(lər) təşkil edir?
7. Bir tədqiqat metodu kimi biheviorizm beynəlxalq münasibətlərin hansı nəzəriyyələrində tətbiq olunur?
8. BMN sahəsində Üçüncü Böyük debat nə vaxt meydana gəlmişdir? Onun predmetini hansı məsələ(lər) təşkil edir?
9. BMN-də transmilli istiqamətin nümayəndələri ilə siyasi realizm nümayəndələri arasında əsas fikir ayrılığı nədən ibarətdir?
10. Müasir dövrdə transmilli münasibətlərin xüsusiyyətləri nədən ibarətdir?
11. BMN sahəsində Dördüncü Böyük debat nə vaxt meydana gəlmişdir? Onun predmetini hansı məsələ(lər) təşkil edir?
12. Biliyin əldə olunmasında pozitivizm metodologiyasının mahiyyəti nədən ibarətdir?
13. Biliyin əldə olunmasında reflektivizm metodologiyasının mahiyyəti nədən ibarətdir?
14. Reflektivist yanaşmaya əsasən, beynəlxalq münasibətlər sahəsində baş verən hadisəni anlamaq nə deməkdir?
15. BMN-də debatların olması bu sahənin inkişafına necə təsir göstərir?

## Ədəbiyyat

*Baldwin D.A.* (ed.). Neorealism and Neoliberalism: The Contemporary Debate. N.Y., 1996.

*Benneyworth I.E.* The ‘Great Debates’ in international relations theory, 2011. https://www.e-ir.info/2011/05/20/the-%E2%80%98great-debates%E2%80%99-in-international-relations-theory/

International Relations: The Great Debates. // Edited by Rainer Baumann, Peter Mayer, Bernhard Zangl. 2012.

*Jervis R.* Realism in the Study of World Politics. //International Organization vol.52, no.4 (Autumn) 1998.

*Kaplan M.* A new Great Debate: Traditionalism versus Science in International Relations // World Politics. 1966. Vol. XIX.

*Карр Э. Х.* Двадцать лет кризиса: 1919-1939. Введение в изучение международных отношений // Теория международных отношений: Хрестоматия. М., 2002

*Lapid Y.* The Third Debate: On the Prospects of International Theory in a Post-Positivist Era. //International Studies Quarterly vol.33 no.3 (September 1989).
*Nəcəfov E.Ə.* Beynəlxalq siyasətə dair realist- idealist, elmi (bixeviorist) – ənənəvi (tradisional) yanaşmalar. // Beynəlxalq münasibətlərin aktual problemləri. 2005. № 4.
*Powel R.* Anarchy in International Relations Theory: the Neorealist-Neoliberal Debate // International Organization. 1994. Vol. 42. No 2.
*Сандерс Д.* Международные отношения: неореализм и неолиберализм. // Политическая наука: новые направления / Под ред. Р.Гудина и Х.Д. Юшнгеманна. М., 1999.
*Schoeder P.* Historical Reality vs. Neo-realist Theory. // International Security vol 19 no.1 (Summer) 1994.
Теория международных отношений на рубеже столетий / Пер. с англ.; Под ред. К. Буса, С. Смита. М., 2002.
*Цыганков А.П., Цыганков П.А.* Социология международных отношений. Учебное пособие. М., 2006.
*Цыганков П.А.* Теория международных отношений: Учебное пособие. М., 2006.
*Waltz K.* Evaluating Theories. //American Political Science Review vol.91 no.4 (December) 1997.

# III BÖLMƏ

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR NƏZƏRİYYƏSİNİN AKTUAL PROBLEMLƏRİ

## XIII FƏSİL
## AKTORLARIN DAVRANIŞ NƏZƏRİYYƏLƏRİ

### 13.1. Aktorların davranış nəzəriyyələrinin ümumi xarakteristikası

Əvvəlki fəsillərdə təqdim olunan beynəlxalq münasibətlərin öyrənilməsinə dair məktəblərin və nəzəri yanaşmaların hər birinin özünəməxsus konkret nəzəriyyələri vardır. Bu nəzəriyyələr mənsub olduqları məktəblərin və nəzəri yanaşmaların müəyyən müddəalarını əsaslandırır. Məsələn, liberalizmin nisbi üstünlük nəzəriyyəsi beynəlxalq əmək bölgüsü şəraitində dövlətlərarası münasibətlərdə sərbəst ticarətin əhəmiyyətini göstərir. Realizmin qüvvələrin balansı nəzəriyyəsi dövlətlərarası münasibətlərdə qüvvənin, gücün əhəmiyyətini açıqlayır. Və yaxud neomarksizmin asılılıq nəzəriyyəsi müasir beynəlxalq əmək bölgüsündə, əmtəə mübadiləsində inkişaf etməkdə olan ölkələrin inkişaf etmiş ölkələrdən asılılıqlarının artdığını qeyd edir. Lakin beynəlxalq münasibətlərin müəyyən nəzəri yanaşmasına aid olan nəzəriyyələrin bir çatışmazlığı vardır. Konkret belə bir nəzəriyyənin mənsub olduğu nəzəri yanaşmanın bu və ya digər müddəasının əsaslandırması onun digər nəzəri yanaşma tərəfindən, xüsusilə də əks nəzəri yanaşma tərəfindən tətbiqini məhdudlaşdırır, hətta qeyri-mümkün edir. Məsələn, liberalizmin nisbi üstünlük nəzəriyyəsi realizm nəzəri yanaşmasında tətbiq olunmadığı kimi, realizmin qüvvələrin balansı nəzəriyyəsi də liberalizm nəzəri yanaşmasında tətbiq olunmur. Bir qayda olaraq belə nəzəriyyələr əsasən mənsub olduqları nəzəri yanaşmanın çərçivəsində tətbiq olunur. Bu isə onların neytrallığını, universallığını və hətta müəyyən dərəcədə elmiliyini şübhə altına salır.

Beynəlxalq münasibətlərin müəyyən nəzəri yanaşmasına aid olan nəzəriyyələrlə yanaşı beynəlxalq münasibətlərin öyrənilməsinə dair elə nəzəriyyələr var ki, onlar qeyd olunan məhdudiyyətdən və çatışmazlıqdan azaddır. Onlar neytral xarakter daşıyır, çünki heç bir məktəbə, heç bir nəzəri yanaşmaya aid deyil. Beynəlxalq münasibətlərin bu qəbildən olan nəzəriyyələrinə *aktorların davranış nəzəriyyələrini* aid etmək olar.

Aktorların davranış nəzəriyyələrindən *qərarın qəbul edilməsi nəzəriyyəsini, oyunlar nəzəriyyəsini, cücənin oyunu və məhbus dilemmasını* göstərmək olar. Bu nəzəriyyələrin müddəalarını dövlətlərlə yanaşı qərar qəbul edən, seçim qarşısında olan hər bir aktora, subyektə (beynəlxalq təşkilat, transmilli şirkət, qrup, fərd) şamil

etmək olar. Bu nəzəriyyələr beynəlxalq münasibətlərdə bütün aktorların optimal davranışlarını, seçimlərini əsaslandırır. Buna görə də bu nəzəriyyələri ümumilikdə *üstün tutulan davranış nəzəriyyələri* də adlandırmaq olar.

### 13.2. Qərarın qəbul edilməsi nəzəriyyəsi

*Qərarın qəbul edilməsi nəzəriyyəsi* aktorların davranış nəzəriyyələrindən biri kimi beynəlxalq münasibətlər sahəsində fəaliyyət göstərən aktorların rasional seçim etmələrinin yollarından bəhs edir. Bu nəzəriyyənin intellektual kökləri XVIII əsrə gedib çıxır. Ümumiyyətlə, qərarın qəbul edilməsi idarəetmə prosesinin tərkib hissəsi kimi bir çox sahələrdə, ilk növbədə dövlət idarəçiliyində, geniş tətbiq olunur.

1948-ci ildə məhşur *amerikalı politoloq Herbert Saymonun "İdarəçilik davranışı: İdarəçilik təşkilatında qərarın qəbul edilməsi prosesinin tədqiqi" ("Administrative Behaviour; A Study of Decision-Making Process in Administrative Organisation")* adlı monoqrafiyasının dərc olunması qərarın qəbul edilməsi nəzəriyyəsinin tətbiqi sahəsini daha da genişləndirdi. Bu nəzəriyyə sosiologiya, psixologiya, iqtisadiyyat elmlərində, 1960-cı illərin əvvəllərində isə seçkilərin və ictimai rəyin öyrənilməsi ilə əlaqədar politologiya elmində geniş tətbiq edilməyə başladı.

Herbert Saymon əsərində qərarın qəbul edilməsini idarəetmənin əsas elementi kimi təqdim edir. O, qərarın qəbul edilməsi prosesinin *iki əsas hissədən* ibarət olduğunu qeyd edir: *qəbul olunan qərar* və *onun icrası.* Bu hissələr bir-biri ilə sıx bağlıdır. Onların hər biri eyni dərəcədə vacibdir. Saymonun fikrincə, idarəetmə nəzəriyyəsi həm qərarın qəbul edilməsi, həm də onun icrası məsələləri ilə məşğul olmalıdır.

Qərarın qəbul edilməsi prosesi aşağıdakı *mərhələrdən* ibarətdir:

1. Problemin müəyyən edilməsi;
2. müvafiq məlumatın toplanması;
3. mümkün alternativlərin göstərilməsi;
4. faktların tutuşdurulması;
5. mövcud alternativlər arasında seçim etməklə qərarın qəbul edilməsi;
6. qəbul olunmuş qərarın həyata keçirilməsi;
7. qəbul olunmuş qərarın qoyulmuş problemin həlli baxımından qiymətləndirilməsi.

Bu sadalanan mərhələlər rasional hərəkət edən aktorun qeyri-müəyyənlik və risk şəraitində necə davranmalı lazım olduğunu göstərir. Onlar bu və ya digər təşkilatın səmərəli şəkildə idarə edilməsi üçün rasional seçimin qəbul olunması və həyata keçirilməsi ilə nəticələnir.

Qərarın qəbul edilməsi prosesinin mərhələlərinin təhlili onun aşağıdakı *cəhətlərinin* olduğunu göstərir:

1. *Qərarın qəbul edilməsi kompromis nəticəsində baş verir.* Herbert Saymon qərarı qəbul edilməsi ilə kompromisin bir-biri ilə sıx bağlı olduğunu qeyd edirdi. Qərarı qəbul edən şəxsin qarşısında bir neçə mümkün alternativ olur. Təbii ki, həmin şəxs özünə sərf edən bir və ya bir neçə alternativi seçir. Bu seçimi edərkən o, kompromisə getməyə məcbur olur. Kompromisin əsas məqsədi şəxsin təmsil etdiyi təşkilatın məqsədinə nail olmaqdır. Qərarı qəbul edən şəxsin kompromisə getməsinin digər səbəbi isə onun qəbul etdiyi qərarın gerçəkliyə uyğun gəlməsinin təmin edilməsidir. Bir qayda olaraq, gerçəkliyə zidd olan qəbul olunmuş qərar iflasa uğrayır;
2. *Qərarın qəbul edilməsi prosesi rasionallığa əsaslanır.* Qərarı qəbul edən şəxs kompromis qərarın yalnız gerçəkliyə uyğun, real olacağı halda onu qəbul edir. O, mümkün alternativ qərarlar arasında seçim edərkən də rasionallıq nümayiş etdirməlidir. O, qəbul olunan qərarın bütün aspektlərini, ilk növbədə qərarın qəbul olunmasına təsir edən faktorları, qərarın həyata keçirilməsi və onun nəticələri kimi məsələləri nəzərə almalıdır;
3. *Qərarın qəbul edilməsi bir nəfərin məhsulu deyil.* Qərarın qəbul edilməsi müəyyən bir qrupun fəaliyyəti ilə bağlıdır. Qeyd olunan cəhət, xüsusilə beynəlxalq münasibətlər sahəsində qəbul olunan qərarlar üçün daha xarakterikdir. Hətta avtokratik və totalitar cəmiyyətlərdə də bu sahədə qərar qəbul edərkən dövlət başçısı ekspertlərlə məsləhətləşmələr aparır;
4. *Qərarın qəbul edilməsi bir məsələni yox, bir neçə məsələni əhatə edir. Amerikalı politoloq Stivin Vasbi* qərarın qəbul edilməsinin aşağıdakı kateqoriyalarını müəyyən etmişdir:
   a. Qərarı kim qəbul etmişdir?
   b. Qərarın məzmunu nədir?
   c. Qərar nə vaxt qəbul olunmuşdur?
   d. Qərar necə qəbul olunmuşdur?
   e. Qərar harada qəbul olunmuşdur?
   f. Qərarın qəbul olunması situasiyasının xüsusiyyətləri nədən ibarətdir?
   g. Qərar hansı qərarlar qrupuna aiddir?
   h. Hansı səbəbə görə məhz bu qərar qəbul olundu?
5. *Qərarın qəbul edilməsi prosesində rasional yanaşma üstünlük təşkil edən amil olsa da, bəzən qərarların qəbulu prosesinə irrasionallıq və ya qərəzlilik də daxil olur.* Belə hallara adətən demokratik cəmiyyətlərdə rast gəlinir. Məsələn, bu cəmiyyətlərdə hökumət demokratik dəyərlərə sadiqliyini nümayiş etdirmək üçün müəyyən qruplar tərəfindən irəli sürülən irrasional tələbləri qəbul edir. Lakin belə bir praktika norma halını almır.

*Qərarların qəbul edilməsi prosesinin* təhlilinə dair klassik yanaşma tədqiqatı *iki əsas mərhələyə* bölür. Birinci mərhələdə *qərar qəbul edən əsas şəxslər* (məsələn, dövlət başçısı və onun məsləhətçiləri, xarici işlər, müdafiə, milli təhlükəsizlik və digər nazirliklər) müəyyən edilir və onların hər birinin rolları göstərilir. Nəzərə alınır ki, bu şəxslərin hər birinin istənilən dövlət idarəsindən hər hansı bir vacib məlumatı tələb etmək səlahiyyətləri vardır. İkinci mərhələdə *qərarları qəbul edən şəxslərin* dünyagörüşləri, təcrübələri, siyasi baxışları, idarəetmə üsulları nəzərə alınmaqla onların siyasətdə üstün tutduqları amillərin təhlili aparılır.

Qərarın qəbul edilməsi nəzəriyyəsinin geniş tətbiq olunmasında tanınmış *amerikalı professor Riçard Şnayderin (1916- 1997) (Richard Snyder)* böyük xidmətləri olmuşdur. Xarici siyasət məsələləri üzrə ixtisaslaşan Şnayder qərarın qəbul edilməsi nəzəriyyəsini ilk dəfə olaraq xarici siyasətin təhlilində tətbiq etmişdir.

Şnayderə görə qərarın qəbul edilməsinə *üç faktor* təsir edir:

1. *Cəmiyyətin daxili quruluşu.* Siyasi partiyalar, təzyiq qrupları, qeyri-hökumət təşkilatları, ictimai rəy, ictimai rəyin formalaşmasına səbəb olan təşkilatlar, siyasi sistem cəmiyyətin daxili quruluşunun elementləri kimi qərarın qəbul edilməsində mühüm rol oynayırlar. Effektiv qərar qəbul etmək üçün qərar qəbul edənlər ilə xalq arasında əməkdaşlıq olmalıdır. Əməkdaşlıq, ilk növbədə, qəbul olunmuş qərarın həyata keçirilməsində xalqın fəal iştirak etməsi deməkdir;
2. *Xarici faktor.* Dövlətin xarici siyasətinə dair qərarları qəbul edənlər bu faktorun roluna xüsusi fikir verməlidirlər. Onlar qeyd olunan sahədə hər hansı bir qərar qəbul edərkən çalışmalıdırlar ki, həmin qərar dövlətin milli maraqlarının müdafiə edilməsini əsas götürməklə yanaşı digər dövlətlərlə münaqişələrə zəmin yaratmasın, onlarla dostluq və əməkdaşlıq münasibətlərini inkişaf etdirsin;
3. *Kommunikasiya və informasiya şəbəkəsi.* Məlum olduğu kimi, rasional qərarın qəbul edilməsində müvafiq məlumatın, faktların olması vacibdir. Bunlar isə səmərəli kommunikasiya şəbəkəsi vasitəsilə əldə olunur. Qərar qəbul edən şəxsin fəaliyyətinin səmərəliliyi əhəmiyyətli dərəcədə onun mövcud faktoloji materialdan istifadə etməsindən asılıdır.

Beləliklə, qərarın qəbul edilməsi nəzəriyyəsi beynəlxalq münasibətlər sahəsində fəaliyyət göstərən aktorların bu sahədə rasional seçim etmələrinin mahiyyətini, mərhələlərini, yollarını, əhəmiyyətini, eləcə də onların seçiminə təsir edən faktorları izah edir.

### 13.3. Oyunlar nəzəriyyəsi

*Oyunlar nəzəriyyəsi* rasional fəaliyyətin, davranışın modelidir. Qərarın qəbul edilməsində bu nəzəriyyədən bir metod kimi geniş istifadə olunur. Oyunlar nəzəriyyəsi rəqabətdə olan aktorlar arasında münaqişənin həllini və aktorların strategiyalarının optimallığını oyrədən tətbiqi riyaziyyatın bir qoludur. Bu nəzəriyyə vasitəsilə aktorların faktiki fəaliyyətləri, mümkün strategiyaları öyrənilərək onların rasional və optimal strategiyaları müəyyən edilir. Müəyyən mənada oyunlar nəzəriyyəsini müstəqil və bir-biri ilə rəqabətdə olan aktorlar tərəfindən optimal qərarın qəbul olunmasını öyrədən elm adlandırmaq olar.

Oyunlar nəzəriyyəsinin əsasını ABŞ-ın məhşur REND strateji tədqiqatlar mərkəzinin əməkdaşları, *tanınmış riyaziyyatçı Con fon Neyman və iqtisadçı Oskar Morqenştern* qoymuşlar. 1944-cü ildə onların birgə yazdıqları *"Oyunlar nəzəriyyəsi və iqtisadi fəaliyyət"* adlı əsərin çap edilməsindən sonra oyunlar nəzəriyyəsi riyaziyyatın mühüm bir istiqaməti oldu. Digər *tanınmış riyaziyyatçı Con Neş* bu müəlliflərin əsərindən irəli gələn oyunlar nəzəriyyəsinin tətbiqini genişləndirmişdir. O, Neyman və Morqenşterndən fərqli olaraq oyunlar nəzəriyyəsini iki və daha çox oyunçular üçün tətbiqini işləyib hazırlamışdır.

Oyunlar nəzəriyyəsinin diqqət mərkəzində rasional fəaliyyət göstərən oyunçular arasında interaktiv vəziyyətin modeli kimi özünü təqdim edən oyun durur. Oyunlar nəzəriyyəsinin məğzi ondan ibarətdir ki, bir oyunçunun qazancı digər oyunçu tərəfindən həyata keçirilən strategiyadan asılıdır. Oyunlar nəzəriyyəsinə əsasən, bütün iştirakçıların hərəkətləri və seçimləri hər birinin əldə etdiyi nəticəyə təsir göstərir. Və güman edilir ki, oyundakı aktorlar rasional hərəkət edirlər və çalışırlar ki, oyunda qazanclarını maksimum dərəcədə artırsınlar. Bu nəzəriyyəni iki və daha çox oyunçunun iştirak etdiyi situasiyada (oyunda) tətbiq etmək mümkündür. Oyunçunun hər biri rasional hərəkət etməklə iştirakçı olduğu situasiyada qalib çıxmaq istəyir. Oyunda hər bir oyunçunun öz məqsədi, fəaliyyət planı (strategiyası) vardır. Oyunçulardan hər biri öz qərarını etdikdə və nəticə əldə olunduqda oyunda *tarazlıq* adlanan və bütün oyunçular üçün eyni əhəmiyyət daşıyan yeni bir mərhələ yaranır. Bu mərhələni Con Nəş tədqiq etdiyinə görə o, ədəbiyyatda *Neş tarazlığı* adlanır.

Neş tarazlığı oyunlar nəzəriyyəsinin əsas məfhumlarından biridir. Neş tarazlığı iki və daha çox oyunçunun iştirak etdiyi qeyri-əməkdaşlıq oyunun həllini müəyyən etməyin ən ümumi yoludur. Bu məfhum riyazi və məntiqi yolla oyun iştirakçılarının özlərinə sərf edən nəticələri əldə etmək üçün zəruri atılacaq addımları müəyyən edir. Daha konkret desək, Neş tarazlığı strategiyaların elə bir kombinasiyasıdır ki, oyunçuların heç birinin öz strategiyasını birtərəfli şəkildə dəyişməkdə maraqlı olmadığını göstərir.

Neş tarazlığı oyunlar nəzəriyyəsinin bir strategiyası kimi, eləcə də bu nəzəriyyənin daxilində olan bir qərarın qəbul olunması teoremi kimi aktorun əldə

etdiyi strategiyanı saxlamaq yolu ilə onun istədiyi nəticəyə nail ola biləcəyini göstərir. Neş tarazlığı situasiyasında güman edilir ki, hər bir oyunçu digər oyunçunun və ya oyunçuların tarazlıq strategiyalarını bilir. Bu situasiyada heç bir oyunçu özünün hazırki strategiyasını dəyişməkdə maraqlı olmur. Çünki əks halda əldə olunmuş tarazlıq pozulur və strategiyasını dəyişən aktor uduzur. Başqa sözlə desək, Neş tarazlığı situasiyasında hər bir oyunçu hazırki strategiyasını saxlamağa çalışır. O, qeyd olunan strategiyasını qoruyub saxladığına görə uduzmur.

Neş tarazlığını aşağıdakı misal vasitəsilə əyani şəkildə izah etmək olar. Həsən və Namiqin arasında belə bir oyunu təsəvvür edək. *Cədvəl 1-dən* göründüyü kimi, bu iki oyunçunun qarşısında 2 seçim vardır: *A* və ya *B strategiyaları.* Həsən və Namiq *A strategiyasını* seçsələr, onların hər biri 100 manat qazanacaqdır. Onların ikisi də eyni vaxtda *B strategiyasını* seçsələr, heç nə qazanmayacaqlar. Təbii ki, belə bir şəraitdə bu oyunçular üçün *A strategiyası* əlverişli olduğuna görə onlar bu strategiyanı seçəcəklər. Həsənin seçimi Namiqə, Namiq seçimi isə Həsənə bəlli olsa belə, nə Həsən, nə də ki, Namiq əlverişli strategiya olan *A strategiyasını* digər strategiya ilə dəyişməyəcəklər. Əks halda, cədvəldən göründüyü kimi, strategiyasını dəyişən oyunçu 100 manat itirəcəkdir. Bu misalda *A strategiyası* Neş tarazlığını təşkil edir.

Namiq Həsən

| | A strategiyası | B strategiyası |
|---|---|---|
| A strategiyası | Namiq: 100<br>Həsən: 100 | Namiq: 100<br>Həsən: -100 |
| B strategiyası | Namiq: -100,<br>Həsən: 100 | Namiq: 0,<br>Həsən: 0 |

*Cədvəl 1.* Neş tarazlığı.

Oyunlar nəzəriyyəsinin strategiyası olan Neş tarazlığının mahiyyətini daha dərindən dərk etmək üçün onu bu nəzəriyyənin digər bir strategiyası olan *dominant strategiya* ilə müqayisə etmək məqsədəuyğundur.

Oyunlar nəzəriyyəsində dominant strategiya rəqiblərin necə hərəkət etməsindən asılı olmayaraq bütün mümkün strategiyalar arasında aktor üçün optimal variantı ifadə edən termindir. Dominant strategiya Neş tarazlığı strategiyasından fərqli olaraq rəqiblərin istifadə etdiyi strategiyaya əhəmiyyət vermir. Çünki

dominant strategiyanın aktoru öz rəqiblərindən rəqabət gedən sahədə üstünlüyə malikdir. Aktorun strategiyası rəqiblərinin istifadə etdiyi strategiyadan asılı olmayaraq hər bir halda onun üçün optimal nəticəni təmin edir. Dominant strategiya Neş tarazlığına daxil ola bilər. Lakin iki və daha çox aktorların iştirak etdiyi oyunda Neş tarazlığı dominant strategiyadan daha optimal strategiya ola bilməz.

Dominant strategiya ilə Neş tarazlığı arasındakı fərqi *birqütblü* və *ikiqütblü (və ya çoxqütblü) dünya* arasındakı fərqlə müqayisə etmək olar. Dominant strategiya birqütblü dünya ilə, Neş tarazlığı isə ikiqütblü və çoxqütblü dünya ilə assosiasiya olunur. Dünya kommunist sisteminin dağılması, "soyuq müharibə"nin başa çatması nəticəsində formalaşan birqütblü dünyada ABŞ yeganə hegemon dövlət kimi beynəlxalq münasibətlər sistemində özünü istədiyi kimi aparırdı. Lakin, məlum olduğu kimi, İkinci dünya müharibəsindən sonrakı ikiqütblü dünya düzənində vəziyyət fərqli idi. O dövrdə ABŞ-la yanaşı Sovet İttifaqının da güc mərkəzi kimi çıxış etməsi beynəlxalq münasibətlər sistemində bu dövlətləri bir birinin maraqlarını nəzərə almağa məhkum etmişdir. Eyni vəziyyət müasir çoxqütblü dünya düzənində də müşahidə olunur. ABŞ-la yanaşı Çin və Rusiyanın dünya güc mərkəzləri kimi çıxış etmələri ABŞ-ın hegemonluğunu məhdudlaşdırır. Artıq ABŞ rəqibləri olan Çin və Rusiyanın istifadə etdiyi strategiyaya əhəmiyyət vermiyə bilməz.

Neş tarazlığının müəyyən çatışmazlıqları vardır. Məlum olduğu kimi, bir çox hallarda (məsələn, müharibə zamanı, auksionlarda alqı-satqı zamanı və s.) aktorun öz rəqibinin strategiyası, onun istəyi haqqında məlumatı olmur. Belə olan hallarda Neş tarazlığı yaranmır, çünki rəqibinin strategiyasını bilmədən aktor öz strategiyasını saxlamağa qərar verə bilmir. Bu, Neş tarazlığının əsas çatışmazlığını təşkil edir. Bundan başqa dominant strategiyadan fərqli olaraq Neş tarazlığı heç də həmişə ən optimal nəticəyə gətirib çıxarmır. Neş tarazlığı sadəcə olaraq aktor tərəfindən onun əlində olan məlumatın əsasında mümkün olan, məğlubiyyəti istisna edən strategiyanın seçildiyini göstərir.

Oyun məfhumu elə bir situasiyanı xarakterizə edir ki, orada hər bir iştirakçı ən böyük üstünlük uğrunda mübarizə aparır. Hər bir oyunda maraqların toqquşması baş verir. Maraqların toqquşması beynəlxalq münasibətlər sahəsində də özünü büruzə verir. Oyunlar nəzəriyyəsi vasitəsilə beynəlxalq münasibətlər sahəsində fəaliyyət göstərən aktorlar arasında qarşılıqlı asılılıq halları kimi müəyyən edilən strateji vəziyyətlərin təhlili aparılır. Bu nəzəriyyə qeyd olunan sahədə baş verən hadisələrə dair fərziyyələr irəli sürür, onların rasional izahını verir və gələcək inkişafını proqnozlaşdırır.

Oyunlar nəzəriyyəsinin məqsədi müəyyən sosial situasiyalarda rasional fəaliyyəti xarakterizə edə biləcək və bu fəaliyyətin ümumi cəhətlərini müəyyən edə biləcək prinsipləri aşkar etməkdir. Rasional fəaliyyət beynəlxalq münasibətlərdə hər

bir aktorun müəyyən dəyərlərinin və məqsədlərinin olmasını və onun bunlara əsasən gerçəkliyə uyğun hərəkət etməsini göstərir.

Beləliklə, oyunlar nəzəriyyəsi bu və ya digər situasiyada hansı seçimin daha optimal olmasını müəyyən edir. Digər faktorlar nəticəyə təsir etdiklərinə görə nəticəni törədən bütün səbəblərə nəzarət etmək mümkün olmadıqda seçimin alternativ variantları arasında oyunlar nəzəriyyəsi riyazi model vasitəsilə ən optimal variantı müəyyən edir.

Oyunlar nəzəriyyəsinin çərçivəsində *üç növ* oyun vardır:

*1. Eyni maraqlarla olan oyunlar;*

*2. Əks maraqlarla olan oyunlar;*

*3. Qarışıq maraqlarla olan oyunlar.*

Eyni maraqlarla olan oyunlar rasional oyunçuların arasında əməkdaşlığın əsasında mümkün olur. Əks maraqlarla olan oyunlar elə bir şəraitdə oynanılır ki, oyunçular əməkdaşlığın heç bir mümkünlüyünü görmürlər. Burada hər bir aktor ən azı məğlub olmamağa çalışır. Qarışıq maraqlarla olan oyunlarda həm əməkdaşlıq, həm də münaqişə mümkündür. Lakin hətta eyni maraqlarla olan oyunlarda tam əməkdaşlıq mümkün deyil.

Oyunlar nəzəriyyəsi oyunları onların nəticələrinin xarakteri baxımından iki qrupa bölür:

1. *Cəmi sıfıra bərabər olan oyun;*
2. *Cəmi sıfıra bərabər olmayan oyun:*

1. Cəmi sıfıra bərabər olan oyunda *(zero sum games)* hər bir oyunçunun (oyunda yalnız iki oyunçu olur) müəyyən sayda strategiyası vardır[11]. Oyunçulardan heç biri seçimini rəqibə bildirmir. Bu oyunun nəticəsində bir oyunçunun qazancı başqasının itkisinə bərabər olur. Oyunun nəticəsi aktorlar arasında *antaqonist (düşmən)* münasibətlərin yaranmasına səbəb olur. Buna görə də heç təsadüfi deyil ki, ədəbiyyatda cəmi sıfıra bərabər olan oyunlara *antaqonist* oyunlar da deyilir. Cəmi sıfıra bərabər olan oyununun ən sadə misalı kimi *qəpik oyununu* göstərmək olar. Bu oyunda iki oyunçu *A* və *B* eyni zamanda əllərində qəpiyi masanın ustünə qoyur. Əgər masaya qoyulan qəpiklərin hər biri üz və ya arxa tərəfə düşürsə, onda oyunçu *A* udur və *B* oyunçunun qəpiyini qötürür. Əgər qəpiklərdən biri üz tərəfə, digəri isə arxa tərəfə düşürsə, onda oyunçu *B* udur və *A* oyunçunun qəpiyi ona qalır. Qəpik oyununun nəticəsinə əsasən, oyunçulardan birinin qazancı başqasının itkisinə bərabərdir. Bu oyunda uduşun və itkinin cəmi sıfıra bərabər olur. Heç-heçə bitməyən idman oyunları (məsələn, basketbol, voleybol, xokkey və s..) cəmi sıfıra bərabər olan oyunlara aiddir;

[11] Qeyd: "Zero sum game" termini ingilis dilindən Azərbaycan dilinə "cəmi sıfıra bərabər olan oyun" və ya "sıfır məbləğli oyun" kimi də tərcümə olunur.




*Şəkil2*. Cəmi sıfıra bərabər olan oyun

*2. Cəmi sıfıra bərabər olmayan oyun (non-zero sum games)* elə bir vəziyyəti xarakterizə edir ki, burada birinin qələbəsi mütləq şəkildə başqasının uduzması demək deyil. Eləcə də birinin uduzması mütləq şəkildə qarşı tərəfin qələbəsi demək deyil. Cəmi sıfıra bərabər olmayan oyunda bütün tərəflər eyni zamanda qazana yaxud eyni zamanda uduza bilər. Biznes və siyasət sahəsində misalların əksəriyyəti cəmi sıfıra bərabər olmayan oyunlardır. Çünki burada bir tərəfin əldə etdiyi qazanc digər tərəfin itkisinə bərabər olmur. Burada tərəflərarası münasibətlər münaqişə ilə bərabər əməkdaşlıqla da xarakterizə olunur. Misal üçün biznes sahəsində bağlanan müqavilələri göstərmək olar. Bir çox hallarda belə müqavilələrdən hər tərəf faydalanır.




Şəkil 3. Cəmi sıfıra bərabər olmayan oyun

https://amyjokim.com/blog/2012/11/09/coop-first-non-zero-sum-games-are-reshaping-our-digital-world/

Beləliklə, oyunlar nəzəriyyəsi vasitəsilə beynəlxalq münasibətlər sahəsində fəaliyyət göstərən aktorlar arasında qarşılıqlı asılılıq halları kimi müəyyən edilən strateji vəziyyətlərin təhlili aparılır. Bu nəzəriyyə aktorların fəaliyyətlərinin izahını

verir, eləcə də onların fəaliyyətlərinin optimallığının təmin olunmasına dair tövsiyələr irəli sürür. Qeyd olunan məsələlərin həll olunmasında oyunlar nəzəriyyəsinin əsas növlərindən hesab olunan *"cücənin oyunu"* və *məhbus dilemması* mühüm rol oynayır.

## 13.4. "Cücənin oyunu"

*"Cücənin oyunu"* (ədəbiyyatda ona həmçinin *şahin-göyərçin oyunu* deyilir) oyunlar nəzəriyyəsinin əsas növlərindən biridir. O, oyunlar nəzəriyyəsində iki aktor arasında münaqişə modelini təqdim edir. Bu oyuna əsasən, aktorların hər birinin məhvinə səbəb ola biləcək münaqişənin böyüməsinin qarşısını almaq üçün aktorlardan ən azı biri digərinə güzəşt etməlidir. Lakin güzəşt edən aktora *qorxaq (cücə)*, onun rəqibinə isə *qəhrəman* deyirlər. Təbii ki, heç bir aktor qorxaq kimi çıxış etməyi, yəni güzəşt etməyi öz qüruruna sığışdırmır. Buna görə də hər bir aktor çalışır ki, güzəştə onun rəqibi getsin. "Cücənin oyununun" məzmununu belə bir misal vasitəsilə təsvir etmək olar: iki sürücü avtomobillərini bir-birinə qarşı istiqamətdə yüksək suratlə idarə edir. Toqquşma baş verdiyi halda, onların ikisi də məhv olacaqdır. Toqquşmadan qorxub avtomobilini yoldan çıxaran sürücü oyunu uduzur. Yolundan çıxmayan, düz gedən sürücü isə qalib olur.

"Cücənin oyunu" elə bir strategiyadır ki, orada kritik həddə yaxınlaşmayınca heç bir oyunçu güzəşt etmir. Psixoloji təzyiq mənfi nəticənin qarşısını almaq üçün oyunçulardan birini və yaxud ikisini də güzəştə getməyə məcbur edə bilər. Əgər sürücülərdən heç biri yoldan çıxmasa, avtomobillər toqquşar və nəticə onların hər biri üçün çox pis olar. Təbii ki, toqquşma ilə müqayisədə avtomobili yoldan çıxarmaq olduqca yüngül itkidir. Buna görə də toqquşma baş verməsin deyə avtomobili yoldan çıxarmaq məqsədəuyğun strategiyadır. Toqquşmanın qarşısını almaq məqsədilə avtomobili yoldan çıxarmağın mənası *əməkdaşlıq,* avtomobili toqquşmaya doğru yönəltmək isə *əməkdaşlıqdan imtina (münaqişə)* deməkdir.

Real həyatda "cücənin oyununu" nüvə silahı sahəsində silahlanma yarışına tətbiq etmək olar. Məsələn, nüvə silahının istehsalı sahəsinə münasibətdə iki dövlət *A* və *B-nin* qarşısında 2 seçim vardır. Birincisi, bu sahəyə sərmayə qoymaq. İkincisi, bu sahəyə sərmayə qoymaqdan imtina etmək. Dövlətlərin qeyd olunan seçimlərindən asılı olaraq burada *4 nəticə* mümkündür:

1. *A* nüvə silahının istehsalına sərmayə qoyur, *B* isə qoymur. Nəticədə *A B-yə* münasibətdə üstünlüyə nail olur;
2. *B* nüvə silahının istehsalına sərmayə qoyur, *A* isə qoymur. Nəticədə *B A-ya* münasibətdə üstünlüyə nail olur;

3. Heç bir dövlət nüvə silahının istehsalına sərmayə qoymur. Nəticədə dövlətlərin hərbi potensialı eyni səviyyədə qalır və buna görə də onlar bir-birinin hücumundan qorxmurlar;
4. Dövlətlərin ikisi də nüvə silahının istehsalına sərmayə qoyur. Nüvə silahının istehsalı hər iki dövlətin maliyyə-iqtisadi potensialının səviyyəsinin aşağı düşməsinə səbəb olur. Silahlanmanın nəticəsində dövlətlər nüvə silahını əldə etsələr də, onlar artıq bir-birinin nüvə hücumuna məruz qalmaqdan qorxurlar. Təbii ki, bu variant həm *A*, həm də *B* üçün ən pis nəticədir.

Görkəmli *ingilis filosofu Bertrand Rassel 1959-cu ildə yazıdığı "Sağlam düşüncə və nüvə müharibəsi" ("Common Sense and Nuclear Warfare")* adlı əsərində "cücənin oyununu" şərh edərək bu oyunun geosiyasi versiyasının təhlükəli olduğunu qeyd edir. "Məsuliyyətsiz oğlanların oynadıqları "cücənin oyunu" yalnız bu oğlanların həyatlarını təhlükə altına qoyduğuna baxmayaraq, bu oyun mənəviyyatsız və təhlükəli hesab olunur. Lakin görkəmli dövlət xadimləri bu oyunu oynamaqla yüz milyonlarla insanın həyatını təhlükə altına salmaqlarına baxmayaraq, onların fəaliyyəti öz xalqları tərəfindən yüksək qiymətləndirilir. Əlbəttə, bu, absurddur. Hər bir ölkənin dövlət xadimləri belə təhlükəli oyuna görə tənqid olunmalıdırlar".

"Cücənin oyununda" cəmi sıfıra bərabər olan oyunlardan fərqli olaraq tərəflərarası əməkdaşlıq üçün imkan vardır. Bunun üçün sürücülərin ikisi də avtomobillərini yoldan çıxarmalıdırlar. Bu seçim nəticəsində sürücülər sağ qalırlar və onlardan heç biri başqasına "cücə" deyib onu təhqir etmir. *Cədvəl 2-də* cücənin oyununda olan mümkün nəticələr rəqəmlə təsvir edilmişdir: *0*- ən pis, *3* - ən yaxşı nəticədir.

| | Dönmək | Düz sürmək |
|---|---|---|
| Dönmək | 2,2 | 1,3 |
| Düz sürmək | 3,1 | 0,0 |

*Cədvəl* 3. "Cücənin oyunu".

"Cücənin oyununda" hər bir oyunçu rəqibinin etdiyinin əksinə hərəkət etmək istəyir. Əgər birinci oyunçu əmin olsa ki, rəqib oyunçu avtomobili döndərəcəkdir, onda o, əks strategiyanı seçərək avtomobilini düz sürəcəkdir. Əgər birinci oyunçu bilsə ki, başqa oyunçu avtomobilini döndərmək fikrində deyil, o, qəzaya uğramamaq üçün avtomobilini yoldan çıxaracaqdır.

"Cücənin oyunu" cəmi sıfıra bərabər olmayan oyunlar qrupuna daxildir. Çünki yuxarıdakı cədvəldən göründüyü kimi, bu oyunda qarşı tərəflər eyni zamanda

qazana (hər bir aktor 2 qazanarsa) və yaxud eyni zamanda uduza (heç bir aktor qazanmır) bilərlər.

Beynəlxalq münasibətlər sahəsində "cücənin oyunu" situasiyasının əsas əhəmiyyəti ondadır ki, öz rəqibinin məqsədlərini bilmədiyinə baxmayaraq, bu və ya digər dövlət elə bir strategiya seçə bilər ki, onun və rəqibinin maraqlarına heç bir ziyan dəyməsin. Lakin bu strategiyanın reallaşması qarşı tərəflərin hər birinin eyni mövqedən çıxış etməsindən asılıdır.

### 13.5. Məhbus dilemması

Məhbus dilemması oyunlar nəzəriyyəsinin elə bir növüdür ki, o, iki rasional aktorun əməkdaşlığının onların hər birinin maraqlarına uyğun gəlməsinə baxmayaraq ondan imtina etmələrinin səbəbini göstərir.

1950-ci ildə *amerikalı riyaziyyatçılar Merril Flad və Melvin Dreşer* paradoksa səbəb olan *əməkdaşlıq və münaqişənin modelini* işləyib hazırlamışlar. Bu model məhbus dilemmasının nəzəri əsasını təşkil edirdi. *Kanadalı riyaziyyatçı Albert Takker* (*Albert Tucker*) dilemmanın adını *məhbus dilemması* qoyaraq onun məzmununu aşağıdakı misal vasitəsilə göstərmişdir.

Cinayətkar təşkilatın iki üzvü *A* və *B* müəyyən cinayətin törədilməsində şübhəli şəxs qismində həbs olunmuşlar. Onların hər biri təkadamlıq kamerada saxlanıldıqlarına görə bir-biri ilə danışmağa imkanları yoxdur. Sözügedən cinayətin həbs olunan şəxslər tərəfindən törədilməsinə dair müstəntiqin əlində kifayət qədər dəlil yoxdur. Lakin müstəntiq onların ən azı cinayətkar təşkilata üzv olduqlarına görə hər ikisinə qarşı ittiham irəli sürüb az müddətə olsa da azadlıqdan məhrum edə bilər. Təbii ki, müstəntiqin əsas məqsədi yeni törədilmiş cinayətin üstünü açmaqdır. Bu məqsədə nail olmaq üçün o, hiyləyə əl atır. Müstəntiq məhbus *A* və məhbus *B*-ya ayrılıqda şirnikləndirici təklif edir. Bu təklifə əsasən, məhbuslardan kim cinayətin digər məhbus tərəfindən törədildiyini desə, yəni əgər onlardan biri digərinə münasibətdə satqınlıq etsə, onda satqınlıq edən məhbus azadlığa buraxılacaqdır, digər məhbus isə cinayətkar kimi uzun müddətə azadlıqdan məhrum olunacaqdır. Bu təklif hər bir məhbusu satqınlığa sövq edir. Lakin məhbuslar bu cəlbedici təklifdən imtina edərək birlikdə alternativ seçim edə bilərlər, yəni onlar müstəntiqə cinayətdən xəbərləri olmadıqlarını söyləyə bilərlər. Belə olan halda məhbuslar bir biri ilə əməkdaşlıq etmiş olacaqlar. Müstəntiq isə öz növbəsində məhbusların bu hərəkətlərindən narazı qalaraq onların əvvəl törətdikləri cinayətlərin əsasında yalnız minimal müddətə hər birinin azadlıqdan məhrum olunmasına çalışacaqdır. Məhbus dilemması ilə bağlı olan bu misal *cədvəl 3-də* göstərilmişdir.

| Məhbus B / Məhbus A | Əməkdaşlıq | Satqınlıq |
|---|---|---|
| Əməkdaşlıq | A-1 il; B-1 il | B-azadlığa buraxılır; A-5 il |
| Satqınlıq | A-azadlığa buraxılır; B-5 il | A-2 il; B-2 il |

*Cədvəl 4.* Məhbus dilemması

Cədvəl 4-dən göründüyü kimi, hər bir məhbusun qarşısında iki bir birinə əks seçim, yəni *dilemma* vardır: digər məhbusa münasibətdə satqınlıq edib cinayəti onun boynuna atmaq və yaxud cinayətin onların törətmədiyini söyləmək. İlk baxışda ikinci seçim ədalətli və əlverişli görünür, çünki bu seçim edildikdə məhbusların hər biri ən minimal cəza *(hərəsi 1 il)* alır. Lakin məhbuslar ayrılıqda dindirildiklərinə görə onların heç biri başqasının cəlbedici görünən satqınlıq etməyəcəyindən əmin deyil. Bundan başqa satqınlıq edən məhbusun həbsdən azad olmaq şansı vardır. Buna görə də məhbuslar əməkdaşlığın onların hər birinin maraqlarına uyğun gəlməsinə baxmayaraq rasional hərəkət edərək ondan imtina edirlər və bir-birinə qarşı satqınlıq edirlər. Ayrılıqda hər bir məhbus rasional hərəkət etsə də birlikdə onlar qeyri-rasional qərar qəbul etmiş olurlar. Çünki onlar bir-biri ilə əməkdaşlıq etsəydilər, hər birinin qazancı satqınlıq etməsindən çox olardı.

Məhbus dilemması "cücənin oyunu" kimi maraqları bir birinə zidd olan aktorların davranışlarını təqdim edir. Əvvəlki yarımfəsildə qeyd etdiyimiz kimi, "cücənin oyunu"nda oyunçulardan biri üçün ən optimal nəticə rəqib oyunçu avtomobilini yoldan çıxartdığı halda onun avtomobilinin düz getməsidir. Məhbus dilemmasında da eynilə - məhbuslardan biri üçün ən optimal nəticə istintaq zamanı başqa məhbusun susduğu halda cinayətin susan məhbus tərəfindən törədildiyini söyləməkdir. Məhbus dilemması "cücənin oyunu" kimi cəmi sıfıra bərabər olmayan oyunlar qrupuna daxildir. Çünki cədvəl 3-dən göründüyü kimi, bu oyunda qarşı tərəflər (məhbuslar) eyni zamanda eyni nəticə əldə edə bilərlər, yəni hər bir məhbus 1 il (bir biri ilə əməkdaşlıq etdikdə) və yaxud 2 il (bir birinə qarşı satqınlıq etdikdə) müddətinə azadlıqdan məhrum oluna bilərlər.

Beləliklə, oyunlar nəzəriyyəsinin növü olan məhbus dilemması aktorlar arasında elə bir situasiyanı xarakterizə edir ki, orada qarşılarında əməkdaşlıq və satqınlıq seçimləri olan hər bir aktor rasional hərəkət edərək üstünlüyü ikinciyə verir. Bu seçim Neş tarazlığını təşkil edir. Çünki sözügedən seçimi dəyişmək istəyən aktor məğlub olur. Bu seçim hər bir aktor üçün ən etibarlı seçimdir. O, hər bir aktorun strategiyasının digər aktorun strategiyasına münasibətdə ən optimal və

məğlubiyyəti istisna edən cavab olduğunu göstərir. Bununla belə məhbus dilemmasını aktorlar arasında qarşıdurmanı (satqınlığı) təbliğ edən oyunlar nəzəriyyəsi kimi təqdim etmək düzgün deyil. Məhbus dilemması aktorlar arasında sadəcə olaraq elə bir situasiyanı təqdim edir ki, orada bir birindən təcrid olunmuş aktorların əməkdaşlığı mürəkkəbləşir. Lakin yuxarıdakı cədvəl 3-dən göründüyü kimi, aktorların hər biri üçün ən arzuolunan seçim onların bir biri ilə əməkdaşlıq etmələridir.

Hansı hallarda aktorlar bir birinə qarşıdurmağı yox, əməkdaşlıq etməyi seçirlər? Bəzi məhbus dilemmasını xarakterizə edən hallarda aktorlar onların hər biri üçün eyni zamanda ən arzuolunan seçim olan əməkdaşlığı seçirlər. Belə hallar adətən *təkrarlanan məhbus dilemmasında (ticarətçi dilemması)* baş verir. Təkrarlanan məhbus dilemması biroyunlu, yəni təkrarolunmayan məhbus dilemmasından fərqli olaraq aktorlara növbəti oyunda cavab vermək imkanı verir. Yəni əvvəlki oyunun nəticələrinin təhlili aktorları növbəti oyunda onların hər birinin maraqlarına xidmət edən strategiyanın (əməkdaşlıq strategiyasının) seçilməsinə yönəldir. Məsələn, məhbus dilemmasını xarakterizə edən situasiyada iki aktor rasional hərəkət edərək bir birinə münasibətdə satqınlıq strategiyasını seçir. Yuxarıda qeyd etdiyimiz kimi, ayrılıqda hər bir məhbus rasional hərəkət etsə də onların qəbul etdikləri satqınlıq strategiyası qeyri-rasionaldır, çünki bu strategiya onların əməkdaşlığının qarşısını alır. Bunu hər bir aktor anlayır. Bir biri ilə təmaslarının davamlı olduğunu nəzərə alan aktorların hər biri növbəti təmasda, çox güman ki, əməkdaşlığı seçirlər.

## Fəslə aid suallar

1. Beynəlxalq münasibətlərin müəyyən nəzəri yanaşmasına aid olan nəzəriyyələrin çatışmazlığı nədir?
2. Niyə liberalizmin nisbi üstünlük nəzəriyyəsi realizm nəzəri yanaşmasında tətbiq olunmur?
3. Niyə realizmin qüvvələrin balansı nəzəriyyəsi liberalizm nəzəri yanaşmasında tətbiq olunmur?
4. Beynəlxalq münasibətlərin müəyyən nəzəri yanaşmasına aid olan nəzəriyyələr universal xarakter daşıyır yoxsa yox? Niyə?
5. Aktorların davranış nəzəriyyələrinin beynəlxalq münasibətlərin müəyyən nəzəri yanaşmasına aid olan nəzəriyyələrdən üstün cəhətləri nədən ibarətdir?
6. Niyə aktorların davranış nəzəriyyələrini üstün davranış nəzəriyyələri adlandırmaq olar?
7. Qərarın qəbul edilməsi nəzəriyyəsi nədən bəhs edir?
8. Herbert Saymon qərarın qəbul edilməsinə dair hansı fikirləri irəli sürür?

9. Qərarın qəbul edilməsi prosesi hansı mərhələlərdən ibarətdir?
10. Qərarın qəbul edilməsi prosesi mərhələlərinin hansı cəhətləri vardır?
11. Riçard Şnaydersə görə qərarın qəbul edilməsinə hansı faktorlar təsir edir?
12. Oyunlar nəzəriyyəsinin nədir?
13. Oyunlar nəzəriyyəsinin əsasını kim qoymuşdur?
14. Neş tarazlığı nədir?
15. Niyə Neş tarazlığı situasiyasında heç bir oyunçu əldə etdiyi strategiyanı dəyişmək istəmir?
16. Oyunlar nəzəriyyəsində dominant strategiya nədir?
17. Neş tarazlığı ilə dominant strategiyanın oxşar və fərqli cəhətləri nədən ibarətdir?
18. Neş tarazlığının çatışmazlıqları nədir?
19. Cəmi sıfıra bərabər olan oyun nədir?
20. Niyə cəmi sıfıra bərabər olan oyunlara antaqonist oyunlar deyilir?
21. Cəmi sıfıra bərabər olmayan oyun nədir?
22. "Cücənin oyunu"nun mahiyyəti nədir?
23. "Cücənin oyunu" cəmi sıfıra bərabər olan yoxsa cəmi sıfıra bərabər olmayan oyundur? Niyə?
24. "Cücənin oyunu"nda Neş tarazlığı yaranır? Niyə?
25. "Cücənin oyunu"nda konkret bir aktor üçün ən optimal nəticə nədir?
26. Məhbus dilemmasının mahiyyəti nədir?
27. Məhbus dilemması cəmi sıfıra bərabər olan yoxsa cəmi sıfıra bərabər olmayan oyundur? Niyə?
28. Məhbus dilemmasında Neş tarazlığı yaranır? Niyə?
29. Məhbus dilemmasında konkret bir aktor üçün ən optimal nəticə nədir?
30. Məhbus dilemmasını xarakterizə edən hansı hallarda aktorlar əməkdaşlığı seçirlər?
31. Təkrarolunan məhbus dilemması nədir?

## Ədəbiyyat


*Axelrod R.* The Complexity of Cooperation. Princeton University Press, 1997

*Грум Дж.* Растущее многообразие международных акторов. // Международные отношения: социологические подходы. / Под ред. П.А.Цыганкова. Москва, 1998.

*Лебедева М.М., Цыганков П. А.* Теоретические поиски в международных исследованиях. // Международные исследования в 1990-е годы: подходы американских и французских авторов. / Под ред. М.М.Лебедевой и П.А.Цыганкова, М., 2001.

*Levy J.* Prospect Theory Rational Choice and International Relations: (Theoretical Applications and Analytical Problems.) // International Studies Quarterly no.41, 1997.
*Farnham B.* Political Cognition and Decision-Making. // Political Psychology vol.11 no.1. 1990.
*Fearon J.* Rationalist Explanations for War. // International Organization 49, n3 (Summer), 1995.
*Hartmann A.* “On Chicken, War and, Other Auctions” http://citeseerx.ist.psu.edu/viewdoc/download?doi=10.1.1.726.965&rep=rep1&type=pdf#:~:text=A%20widely%20accepted%20application%20for,be)%20higher%20than%20the%20opponent's
*Hermann M. and Hagan J.* International Decision Making: Leadership Matters”.// Essential Readings in World politics (eds. Karen Mingst and Jack Snyder), New York, 2001.
*Kumar M.* Theoretical Aspects of International Politics. New Delhi, 1978.
*Neumann J., Morgenstern O.* Theory of games and economic behaviour. The 60th edition. 2002.
*Poundstone W.* Prisoner’s Dilemma: John von Neumann, Game Theory, and the Puzzle of the Bomb. Doubleday, 1992.
*Powell R.* Bargaining Theory and International Conflict. //Annual Review of Political Science. Vol. 5. 2002.
Теория международных отношений на рубеже столетий / Пер. с англ.; Под ред. К. Буса, С. Смита. М., 2002.
*Verhoeff T.* The Trader’s Dilemma: A Continuous Version of the Prisoner’s Dilemma. 1998. https://www.win.tue.nl/~wstomv/publications/td.pdf
*Цыганков А.П., Цыганков П.А.* Социология международных отношений. Учебное пособие. М., 2006.
*Цыганков П.А.* Теория международных отношений: Учебное пособие. М., 2006.
*Wasby St. Political Science*: The Discipline and its Dimensions. Scribner, 1970.

# XIV FƏSİL
# GÜC. MİLLİ MARAQ. İDEOLOGİYA

## 14.1. Güc BMN-nin kateqoriyası kimi

Güc (qüvvə) və onunla bağlı olan məsələlər beynəlxalq münasibətlər nəzəriyyəsinin aktual problemlərindən biridir. Sözün geniş mənasında güc (qüvvə) öz istəyinə nail olmaq, başqalarına nəzarət etmək, onlara müəyyən işləri gördürmək, gördükləri işlərdən isə çəkindirmək deməkdir.

Beynəlxalq münasibətlər sahəsində güc dövlətin öz məqsədlərinə nail olmaq, digər dövlətin və ya dövlətlərin isə fəaliyyətlərinə nəzarət və təsir etmək qabiliyyəti kimi təqdim oluna bilər. Dövlətin ərazisi, təbii sərvətləri, əhalisi, iqtisadi inkişaf səviyyəsi onun gücünün əsasını təşkil etsə də, onları dövlətin real gücü hesab etmək olmaz. Çünki bu faktorların real gücə çevrilməsi onların vasitəsilə dövlətin digər dövlətin və ya dövlətlərin fəaliyyətlərinə nəzarət və təsir etməyi nəzərdə tutur. Məsələn, 1930-cu illərin əvvəllərində böyük ərazisi və təxminən yarım milyard (dünya əhalisinin təxminən dörddə biri) əhalisi olan Çin bu göstəricilərə görə ondan dəfələrlə geridə olan Yaponiya İmperiyasının hərbi təcavüzünə məruz qalmış və Mançuriyanı itirmişdir.

Siyasi münasibətlər digər münasibətlərlə sıx bağlı olduğuna görə güc tək siyasi faktor kimi çıxış etmir. Dövlət digər dövlətin və ya dövlətlərin fəaliyyətlərinə nəzarət yaxud təsir edə biləndə, güc siyasi xarakter daşıyır və buna görə də beynəlxalq siyasətin hadisəsinə çevrilir.

## 14.2. Gücün elementləri

Dövlətin gücünün elementlərini iki qrupa bölmək olar: *təbii* və *sosial*. Təbii qrupa *coğrafiya, təbii sərvətlər və əhali*, sosial qrupa isə *iqtisadi inkişaf səviyyəsi, siyasi sistem, hərbi hazırlıq, xarici siyasət, milli mənəviyyat və siyasi ideologiya* daxildir. Dövlətin gücünün təbii qrupuna daxil olan faktorlardan fərqli olaraq onun sosial qrupuna daxil olan faktorlar insanın fəaliyyətinin nəticəsidir.

*Coğrafiya*

Geosiyasətçilərin fikrincə, coğrafiya dövlətin gücünün əsas elementlərindən biridir. Onlar coğrafi faktorlardan *dövlətin ərazisinin böyüklüyünü* xüsusilə qeyd edirlər. Ərazinin böyüklüyü burada əkinə yararlı torpağın, müxtəlif çeşiddə və miqdarda xammalın olması, çoxlu sayda əhalinin yaşaması ilə yanaşı dövlətə müharibə vaxtı manevr etməyə əlverişli imkan verir. Belə ki, dövlətin ərazisinin böyüklüyü düşmənin hücumundan qorunmaq üçün dövlətə onun işğal olunmayan

ərazisinə çəkilməyə və orada hərbi gücünü səfərbər etməyə şərait yaradır. Məsələn, Sovet İttifaqının ərazisinin böyüklüyü İkinci Dünya müharibəsində faşist Almaniyasının məğlub olunmasında mühüm rol oynamışdır.

*Təbii sərvətlər*

Dövlətin gücünün artmasına ən çox təsir göstərən təbii sərvətlərdən nefti, təbii qazı, müxtəlif qiymətli metalları, dəmiri, alüminiumu və s. göstərmək olar. Lakin bu və ya digər dövlətdə təbii sərvətlərin bolluğu onun güclü olması üçün kifayət deyil. Bunun üçün ərazisində təbii sərvətləri olan dövlət onlara sahib çıxmalı və bu sərvətləri ölkənin inkişafı üçün istifadə etməlidir. Tarix boyu inkişaf etmiş dövlətlər öz hərbi-siyasi və iqtisadi üstünlüklərindən istifadə edərək zəngin təbii sərvətlərə malik olan lakin sosial-iqtisadi və hərbi baxımdan zəif olan dövlətlərin təbii sərvətlərini öz nəzarətləri altında salmağa çalışmışlar. Bir çox hallarda onlar buna müvəffəq olmuşlar.

*Əhali*

Ölkənin inkişafında əhalinin rolu ilk növbədə iqtisadi inkişafı və ordunu insan qüvvəsi ilə təmin etmədir. Lakin, məlum olduğu kimi, əhalinin çoxluğu özü-özlüyündə dövlətin iqtisadi və hərbi sahələrdə güclü olmasına zəmanət vermir. Bunun üçün dövlətin iqtisadiyyatı və hərbi-sənaye kompleksi inkişaf etmiş olmalıdır.

*İqtisadi inkişaf səviyyəsi*

Ölkənin iqtisadi inkişafının əsasını ilk növbədə onun sənayesinin inkişafı təşkil edir. Yuxarıda qeyd etdiyimiz kimi, ölkənin münbit təbii sərvətləri onun güclü ölkə olmasına zəmanət vermir. Bu sərvətlər sadəcə olaraq onun güclü olması üçün *imkandır.* Bu imkanın *gerçəkliyə* çevrilməsi üçün ölkə yüksək sənaye inkişafına malik olmalıdır. Qeyd olunan imkanın gerçəkliyə çevrilməsində Qərbin inkişaf etmiş ölkələri müasir elmi nailiyyətlərə əsaslanan yüksək texnologiya vasitəsilə böyük nailiyyətlər əldə etmişlər. Onlar sənayelərinin inkişafının sayəsində yüksək iqtisadi inkişafa nail olaraq inkişafda olan ölkələri istismar etməkdə davam edirlər. Bir qayda olaraq sənayeləşmiş ölkə istehlakdan çox istehsal edir. İstehsaldan əldə olunan gəlir ölkənin əhalisinin həyat səviyyəsinin artması üçün imkan yaradır. Bu isə xalqı hakimiyyəti dəstəkləməyə sövq edir. Xalqın dəstəyi dövlətin güclü olmasının əsas göstəricilərindən biridir.

*Siyasi sistem*

Məlum olduğu kimi, avtoritar, totalitar və demokratik rejimlər müasir dövrdə siyasi sistemin əsas formaları hesab olunur. Öz məqsədlərinə nail olub digər

dövlətlərin fəaliyyətlərinə təsir göstərmək baxımından demokratik dövlətlərin daxili və xarici siyasətləri totalitar və avtoritar dövlətlərin daxili və xarici siyasətlərindən daha səmərəlidir. Belə ki, demokratik cəmiyyətlərdə hakimiyyət dövlətin daxili və xarici siyasətlərinə aid olan və müəyyən mübahisə doğuran məsələləri zorakılıq, güc vasitəsilə deyil, müzakirələr vasitəsilə, qarşı tərəfi inandırmaqla həll etməyə çalışır.

*Hərbi hazırlıq*

Dövlətin güclü olması onun hərbi gücündən və ya hərbi hazırlığından çox asılıdır. Dövlətin hərbi hazırlıq səviyyəsi hərbi rəhbərliyin idarəetmə qabiliyyəti, silahlı qüvvələrin sayı və keyfiyyəti, onun müasir hərbi silahlarla təchiz olunması ilə müəyyən edilir. Müasir dövrdə nüvə silahına malik olan dövlətlərin hərbi sahədəki imkanları rəqiblərinin bu sahədəki imkanlarından daha yüksəkdir.

*Xarici siyasət*

Dövlətin gücünün sosial qrupuna daxil olan elementlərdən xarici siyasət önəmli yer tutur. O, beynəlxalq münasibətlər sahəsində dövlətin nüfuzunun artmasına təsir göstərir. Çünki hər bir dövlətin qeyd olunan sahədəki fəaliyyəti onun xarici siyasəti vasitəsilə həyata keçirilir. Xarici siyasət ölkənin daxilindəki hakimiyyət dəyişmələrindən asılı olmamalıdır. Bununla belə o, çevik olmalıdır. Beynəlxalq situasiyadan asılı olaraq o, dəyişə bilər.

*Milli mənəviyyat*

Milli mənəviyyat dövlətin, xalqın maraqlarını şəxsi maraqlardan üstün tutmağı öhdəlik kimi vətəndaşların qarşısında qoyur. Milli mənəviyyatın məzmununu ölkədəki mövcud siyasi sistemin forması müəyyən edir. Avtoritar, xüsusilə də totalitar cəmiyyətlərdə fərdin maraqları tamamilə dövlətin maraqlarına tabe olunur. Demokratik cəmiyyətdə isə milli mənəviyyatın təbliğ olunması fərdin maraqlarının nəzərə alınmasının vacibliyini inkar etmir. Burada fərdin maraqlarına xüsusi önəm verilməklə onlarda vətənpərvərlik ruhu inkişaf etdirilir.

*Siyasi ideologiya*

Hakim dairələrin maraqlarını əks edən siyasi ideologiya onun hakimiyyətdə qalmasına yönəlmişdir. Ölkə daxilində siyasi ideologiya vətəndaşlara vətənpərvərlik, xüsusilə də dövlətçilik ideyalarını təbliğ edərək onların dövlətə dəstəyinin qazanılmasına yönəlmişdir. Beynəlxalq aləmdə isə hakim dairələrin siyasi ideologiyasında təmsil etdikləri dövlətin daxili və xarici siyasətlərinin nailiyyətləri təbliğ olunur. Bunun əsas məqsədi beynəlxalq ictimaiyyətdən özünə dəstək almaqdır.

Beləliklə, dövlətin gücünün elementlərinin hər biri onun güclü olması üçün əhəmiyyətli rol oynayır. Bununla belə qeyd etmək lazımdır ki, bu elementlər ümumilikdə vahid bir sistemin tərkib hissələridir. Bu o deməkdir ki, onların birlikdə olması sistemin, yəni dövlətin daha güclü olmasını təmin edir.

### 14.3. Gücdən istifadə metodları

Bu fəslin əvvəlində güc məfhumuna verdiyimiz tərifin əsasında deyə bilərik ki, dövlətin güclü olmasının əsas göstəricilərindən biri onun digər dövlətin və ya dövlətlərin fəaliyyətlərinə təsir etməsidir. Yəni əgər hər hansı bir dövlət digər dövlətin və ya dövlətlərin fəaliyyətlərinə təsir edə bilirsə, onda o, güclü dövlət hesab olunur.

Dövlət digər dövlətin və ya dövlətlərin fəaliyyətlərinə aşağıda qeyd olunan *dörd metod* vasitəsilə təsir edə bilər: *inandırma, şirnikdirmə, cəzalandırma və məcburetmə.*

Gücdən istifadənin ən sadə metodu *inandırmadır.* Bu metoddan istifadə edən dövlət *A* müəyyən dəlillər vasitəsilə dövlət *B-ni* inandırmağa çalışır ki, *B* siyasətini *A-nın* istəyinə uyğun dəyişdirsin. *A* mövcud şəraiti *B-yə* elə təqdim edir ki, *B* əvvəlki planından daşınır. Qeyd etmək lazımdır ki, diplomatiya ilk növbədə inandırma metoduna əsaslanır. İnandırma metodu vasitəsilə digər dövlətin fəaliyyətinə təsir etmək diplomatiyanın səmərəliliyinin əsas göstəricilərindən biridir.

*Şirnikdirmə* metodu, adından göründüyü kimi, digər dövlətə və ya dövlətlərə müəyyən şirnikdirici vədlərin verilməsi ilə bağlıdır. Vədlər müxtəlif formada ola bilər. Əsasən onlar *maddi, iqtisadi və siyasi formada* olur. Maddi vədlərə maliyyə yardımı, güzəştli kreditin verilməsi və s. daxildir. İqtisadi vədlərdən ticarət haqqında müqavilələri, güzəştləri, texniki yardımı və s. göstərmək olar. Siyasi vədlər sırasına dövlətin ərazi bütövlüyünün tanınmasını, onun mövqeyinin müxtəlif beynəlxalq tədbirlərdə dəstəklənməsini və s. daxil etmək olar.

Adətən, inandırma və ya şirnikdirmə vasitəsilə digər dövlətin fəaliyyətinə təsir etmək mümkün olmayanda *cəzalandırma* metodundan istifadə olunur. Bu metod cəzalanan dövləti müəyyən güzəştlərdən, vədlərdən məhrum etməyi nəzərdə tutur. Əgər cəzalandırma metodundan istifadə edilərsə, o elə bir şəkildə həyata keçirilməlidir ki, cəzalanan tərəf səhvlərini düzəltdikdə ona qarşı yönələn cəza tədbirləri tez bir zamanda dayandırıla bilsin.

*Məcburetmə metodu* cəzalandırma metodunun məntiqi davamıdır. Daha konkret desək, cəzalandırma bir növ preventiv metoddur. O, dövləti qarşı tərəfə münasibətdə zorakı fəaliyyətdən çəkindirmək məqsədini güdür. Lakin cəza tədbirləri nəticəsiz qaldıqda, yəni onlar qarşı tərəfə təsir etmədikdə, məcburetmə metodu istifadə olunur.

Əlbəttə, hər bir dövlət bu metodların hamısından başqa bir dövlətə qarşı istifadə etməyə qadir deyil. Məsələn, inkişafda olan ölkələr inkişaf etmiş ölkələrə münasibətdə cəzalandırma və ya məcburetmə metodlarından istifadə edə bilmirlər. Onlar inkişaf etmiş ölkələrin fəaliyyətinə təsir etmək üçün adətən inandırma və ya şirnikdirmə metodlarından istifadə edirlər. Bundan başqa metodların seçilməsi güc vasitəsilə nail oluna biləcək məqsədlərdən asılıdır. Məsələn, inandırma metodundan istifadə etməklə adətən qarşı dövlətin siyasətində kiçik dəyişikliklərə nail olmaq mümkündür. Lakin təcrübə göstərir ki, inandırma metodu vasitəsilə qarşı dövlətin daxili və xarici siyasətində köklü dəyişikliklərə nail olmaq mümkün olmur. Bu və ya digər metoddan uğurla, yaxud uğursuz istifadə edilməsi qarşı dövlətin ona edilən təzyiqə müqavimət göstərmək imkanından asılıdır. Gücdən istifadənin ən son həddi fiziki gücün tətbiq edilməsidir. Fiziki gücü tətbiq etməklə bir dövlət digər dövlətin fəaliyyətini dəyişməyə nail olur. Fiziki gücdən istifadənin kulminasiyası müharibədir.

Beləliklə, inandırma, şirnikdirmə, cəzalandırma və məcburetmə metodları gücdən istifadə metodları kimi bir dövlətin digər dövlətin və ya dövlətlərin fəaliyyətlərinə təsir etmək məqsədilə tətbiq edilir. Onların tətbiq edilməsinin səmərəliliyi konkret tarixi şəraitdən asılıdır.

### 14.4. Qüvvələrin balansı nəzəriyyəsi

Hər bir dövlət öz imkanı daxilində gücdən istifadə metodları vasitəsilə başqa bir dövlətin fəaliyyətində istədiyi dəyişikliklərə nail olmağa calışır. Sözsüz ki, dövlətin bu işdə müvəffəqiyyəti onun gücündən asılıdır. Onun güclü, güvvətli olması başqa bir dövlətin və ya dövlətlərin fəaliyyətlərinə təsir etmək imkanını artırır. Bundan başqa dövlətin güclü, qüvvətli olması onun fəaliyyətinə digər dövlətlərin müdaxiləsinin qarşısını alır. Dövlətlərarası münasibətlərdə gücün, qüvvənin mühüm bir amil olmasını nəzərə alan dövlətlər öz potensialını, ilk növbədə hərbi potensialını artırmağa can atırlar. Bu, öz əksini dövlətlər arasında silahlanmanın aparılmasında, onların hərbi potensialının çoxalmasında tapır. Bir qayda olaraq silahlanma sahəsindəki rəqabətdə güclü iqtisadi potensiala malik olan dövlətlər qalib çıxırlar. Bu rəqabətdə məğlub olan ölkələr sosial-iqtisadi inkişaf sahəsində ciddi problemlərlə üzləşirlər. Məsələn, keçmiş SSRİ-nin dağılmasının əsas səbəblərindən biri onun iqtisadiyyatının ABŞ-la gedən hərbi rəqabətə dözə bilməməsi olmuşdur. Məhz güclü iqtisadiyyata malik olan dövlətlər arasında hərbi sahədə rəqabət gedir. Rəqabətdə olan tərəflərin hər biri çalışır ki, onun rəqibi hərbi sahədə ondan üstün olmasın, ən azı onların səviyyələri bərabər olsun. Nəticədə tərəflər arasında *tarazlıq, balans* yaranır. Bu balansın dövlərlərarası münasibətlərdə

böyük əhəmiyyəti vardır. O, rəqabətdə olan hər bir tərəfi sonsuz və təhlükəli qarşıdurmadan əl çəkməyə yönəltməklə müharibə təhlükəsinin qarşısını alır.



*Şəkil 4.* Qüvvələrin balansı.
https://upload.wikimedia.org/wikipedia/commons/d/d5/BalanceOfPower_%28cropped%29.jpg

IV fəsildə qeyd etdiyimiz kimi, Hans Morqentau sülhü yaxşı diplomatiya və beynəlxalq hüququn, beynəlxalq mənəviyyatın və dünya ictimai rəyinin normativ məhdudlaşdırılması ilə bərabər qüvvələrin balansı vasitəsilə də qorunmasını mümkün hesab edirdi. Onun fikrincə, qüvvələrin balansı və onun əldə olunmasına yönələn siyasətlər dövlətlərarası münasibətlərdə mühüm tənzimləyici bir faktor rolunu oynayır. Realistlər qüvvələrin balansına "beynəlxalq münasibətlərin əsas prinsipi", "siyasətin fundamental qanunu" deyirlər.

Dövlətlər *iki yolla* qüvvələrini balanslaşdırırlar: *daxili* və *xarici balanslaşma* ilə. Daxili balanslaşma dövlətlərin iqtisadi inkişafları və/ və ya hərbi xərcləri artdıqda baş verir. Xarici balanslaşma isə dövlətlər öz maraqlarını əsas götürərək bu və ya digər hərbi alyansa goşulduqda əldə olunur.

III və IV fəsillərdə qeyd etdiyimiz kimi, liberalizm və realizm nəzəriyyələri qüvvələrin balansı sisteminə münasibətdə bir-birinə zidd dururlar. Liberallar qüvvələrin balansını tənqid edərək onu müharibəyə səbəb olan, istibdad rejimlərinin ləğv olunmasının qarşısını alan bir sistem kimi qələmə verirlər. Realistlər isə əksinə qüvvələrin balansını müharibənin qarşısını alan və sülhün qorunmasını təmin edən bir faktor kimi təqdim edirlər.

Hans Morqentaunun fikrincə, qüvvələrin balansına *iki əsas metodla* nail olmaq mümkündür:

1. *Güclü dövləti zəiflətməklə;*
2. *Dövlətlərarası münasibətlərdə zəif dövlətin nüfuzunu artırmaqla.*

Güclü dövləti zəiflətmək üçün ən səmərəli üsul ona münasibətdə *"parçala və hökm sür"* siyasətinin aparılmasıdır. Bu siyasətin nümunəsi kimi Morqentau XVII əsrdən İkinci Dünya müharibəsinin sonunadək Fransanın Almaniyaya münasibətdə və XX əsrin 20-ci illərindən bəri Sovet İttifaqının Avropanın bir neçə ölkəsinə münasibətdə apardıqları siyasəti göstərir.

Qüvvələrin balansına nail olmağın ikinci metoduna, yəni dövlətlərarası münasibətlərdə zəif dövlətin nüfuzunun artırılmasına gəldikdə, Morqentau buna nail olmağın *iki müxtəlif* yolunu göstərir. Birinci yol ondan ibarətdir ki, hərbi-iqtisadi sahədə *B* dövləti *A* dövlətinə çatmaq üçün bu sahədə öz gücünü artırır. İkinci yol isə *B* dövlətinin *A* dövlətinə qarşı olan dövlətlərin koalisiyasına qoşulmasını nəzərdə tutur.

Qüvvələrin balansı hakimiyyətin, gücün ideal paylaşdırılmasıdır. Qüvvələrin balansı nəzəriyyəsinə əsasən, sülhü bütün dövlətlərin hərbi potensialını nəzarət altına qoymaqla deyil, təcavüzkar dövlətlərə qarşı çıxmağa hazır olan dövlətə dəstək verməklə qorumaq olar. Qüvvələrin balansı dövlətlər arasında hərbi sahədə rəqabətin nəticəsində öz-özünə yaranan bir durumdur. O, təbii və qaçınılmaz bir hadisə kimi özünü büruzə verir. Qüvvələrin tarazlaşdırılması dövlətin xarici siyasətinin məqsədlərindən biridir. Bəzi tədqiqatçılar hesab edirlər ki, qüvvələrin balansı adi dövlətlər üçün təbii və obyektiv şəkildə, aparıcı, güclü dövlət üçün isə məqsədyönlü şəkildə meydana gələn sosial hadisədir.

Qüvvələrin balansı nəzəriyyəsinə əsasən, müxtəlif gücə malik olan çoxlu dövlətlərin olduğu və hər birinin öz gücünü artırmağa can atdığı situasiyada bütöv sistem tarazlıqda olur. Bu nəzəriyyəyə görə, qüvvələrin balansının əsas üstünlüyü sülhün və kiçik dövlətlərin suverenliklərinin qorunmasını təmin etməkdir. Aparıcı dövlətlər arasında hərbi gücün bərabər paylaşdırılması onları bir-birinə hərbi təcavüz etməkdən çəkindirir. Qüvvələrin balansı şəraitində aparıcı dövlətlər hətta kiçik dövlətlərə belə təcavüz etməkdən çəkinir. Bu, kiçik dövlətlərin suverenliklərinin qorunması üçün əlverişli şərait yaradır.

Beləliklə, qüvvələrin balansı nəzəriyyəsi beynəlxalq münasibətlər sistemində güc faktorunun həlledici rol oynadığını göstərməklə bir-biri ilə rəqabətdə olan dövlətlərin hərbi potensiallarının balanslaşdırılmasının müharibə təhlükəsinin qarşısının alınmasında, eləcə də sülhün qorunmasında əhəmiyyətini vurğulayır.

## 14.5. Kollektiv təhlükəsizlik

Qüvvələrin balansı dövlətlər arasında hərbi sahədə tarazlığı saxlamaq üçün onları hərbi potensiallarını daim artırmağa yönəltməklə dövlətləri çətin bir dilemma qarşısında qoyur. Dövlətlərin hərbi potensiallarının artması dünyada sülhün qorunmasına təhlükə yaradır. Çünki bu potensialın artması ilə yanaşı onun dövlətlər

tərəfindən bir birinə qarşı istifadə etmək təhlükəsi yaranır. Bu dilemma IV fəsildə bəhs etdiyimiz təhlükəsizlik dilemmasının təzahürlərindən biridir.

*Kollektiv təhlükəsizlik* dövlətlərin üzləşdiyi bu dilemmanın həlli yolunu təklif edir. Daha konkret desək, o, daim artan və təkmilləşən hərbi sursatın təcavüz məqsədilə deyil, qorxutma məqsədilə istifadə edilməsi ideyasını irəli sürür. Kollektiv təhlükəsizlik sisteminə əsasən, daim artan və təkmilləşən hərbi sursat sülhün saxlanılmasında maraqlı olan dövlətlər tərəfindən təcavüzkar dövlətin müharibəyə başlamasının qarşısını almağa yönəldilir. Bu mühüm iş beynəlxalq dövlətlərarası təşkilat vasitəsilə təşkil olunur və həyata keçirilir. Beynəlxalq dövlətlərarası təşkilat nə qədər nüfuzlu olsa, bir o qədər də kollektiv təhlükəsizlik prinsipinin həyata keçirilməsi səmərəli olacaqdır. Kollektiv təhlükəsizlik prinsipi BMT-nin fəaliyyətinin əsasını təşkil edir.

Kollektiv təhlükəsizlik dünyada sülhün qorunmasına və təcavüzün qarşısının alınmasına yönələn dövlətlərin birgə fəaliyyət sistemidir. Bu sistemə daxil olan hər hansı bir dövlətə qarşı hərbi təcavüz olduqda, sistemin digər üzv dövlətləri birləşərək təcavüzün qarşısını alırlar. Böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlər sülhün saxlanılmasında məsuliyyət daşıyır. Kollektiv təhlükəsizlik sistemi "*hamı bir nəfər üçün və hər bir nəfər hamı üçün*" prinsipinə əsaslanır.

Kollektiv təhlükəsizlik məfhumunda *"kollektiv" məfhumu* istifadə edilən vasitənin *mahiyyətini*, *"təhlükəsizlik" məfhumu* isə onun *məqsədini* açıqlayır. Vasitə mahiyyət baxımından kollektiv olduğuna görə, məqsəd də eyni baxımdan kollektiv olur. Kollektiv təhlükəsizlik prinsipinə əsasən, təşkilatın üzvü olan hər hansı bir dövlətə qarşı təcavüz təşkilatın digər üzvlərinə qarşı təcavüz kimi qiymətləndirilir. Əlbətdə, kollektiv təhlükəsizlik sülhün qorunması üçün yeganə vasitə deyil. Digər vasitələr sırasında əvvəlki yarımfəsildə təhlil etdiyimiz qüvvələrin balansını, sılahsızlaşdırmanı, dövlətlərarası mübahisəli məsələlərin dinc yolla həll edilməsini göstərmək olar.

Kollektiv təhlükəsizlik prinsipinə əsasən, müharibənin qarşısını güc vasitəsilə almaq mümkündür. Kollektiv təhlükəsizlik prinsipi zorakılığı ləğv etmir, sadəcə olaraq onu nəzarət altında saxlayır.

Kollektiv təhlükəsizlik ideyası Millətlər Liqasının əsas fəaliyyət prinsiplərindən biri idi. 1945-ci ildə bu məhfum BMT-nin Nizamnaməsində əks olunmuşdur. Ötən əsrin 20-ci illərində *ABŞ-ın prezidenti Vudro Vilsonun* bu ideyanı dəstəkləməsi onun geniş yayılmasına səbəb olmuşdur. Vilson hesab edirdi ki, indi qüvvələrin balansının əvəzinə, bir qrup dövlətin digər qrup dövlətə qarşı durmasının əvəzinə dünyada sülhün keşiyində duran vahid güclü dövlətlər qrupu olmalıdır.

Beynəlxalq təşkilata üzv olmaq kollektiv təhlükəsizliyin mahiyyətinə dair belə bir fikri təsdiqləyir: sülhsevər dövlətlər təcavüzkar dövlətə qarşı birgə hədə-qorxu gəlməklə müharibənin qarşısını almağa müvəffəq olurlar. Bu fikir *təhlükəsizliyin*

*izolyasionist siyasətinə* qarşı yönəlmişdir. Təhlükəsizliyin izolyasionist siyasəti bu və ya digər dövlətin müdafiəsi məqsədilə digər dövlətlərin bu işə qarışmasını nəzərdə tutmur. Bu siyasətə alternativ kimi *kollaborationist siyasəti ("collaboration"- ingilis dilindən əməkdaşlıq deməkdir.- E.N.)* göstərmək olar. Kollaborationist siyasət dövlətlərin bir-birilə əməkdaşlığını nəzərdə tutur.

Millətlər Liqasının təsis olunmasından əvvəl böyük dövlətlərin əksəriyyətinin kollaborationist siyasəti qarşılıqlı yardım kimi tanınan dövlətlərarası alyansların müqavilələrinə əsaslanırdı. Dövlətlərarası alyanslar Millətlər Liqasının, hətta BMT-nin təsis olunmasından sonra da bu alyanslara daxil olan dövlətlərin milli təhlükəsizliyinin zəruri vasitəsi olaraq qalırdı. Lakin Millətlər Liqası və BMT kollaborationist siyasətin *yeni bir ölçüsünü* - kollektiv təhlükəsizlik sistemini-gündəmə gətirdi. *BMT-dən kənarda* həyata keçirilən kollaborationist siyasət *kollektiv müdafiə* kimi qələmə verilirdi. *BMT-nin daxilində* isə, yəni ona üzv olan dövlətlər arasında həyata keçirilən kollaborationist siyasət kollektiv təhlükəsizlik kimi təqdim olunurdu. BMT ilk dəfə kollektiv təhlükəsizlik prinsipini 1950-ci ildə Şimali Koreyanın Cənubi Koreyaya hücumunu dayandırmaq məqsədilə tətbiq etdi. Bu hücumu dəf etmək üçün ABŞ özünün yaxın müttəfiqləri ilə BMT-nin bayrağı altında hərbi əməliyyata başladı.

Müharibə təhlükəsinin qarşısının alınmasında və sülhün qorunmasında qüvvələrin balansının əldə olunmasına böyük önəm verən və kollektiv təhlükəsizlik prinsipinə isə skeptik yanaşan Hans Morqentaunun fikrincə, kollektiv təhlükəsizlik sistemi müharibənin qarşısını *üç şərtə* əməl olunduqda ala bilər:

1. Kollektiv təhlükəsizlik prinsipinin tətbiq olunmasını müdafiə edən dövlətlər təcavüzkar dövlətə və ya dövlətlər alyansına qarşı elə hərbi güc nümayiş etdirməlidirlər ki, həmin dövlətə və ya dövlətlər alyansı təcavüzkar planlarından əl çəksin;
2. Hərbi gücünü nümayiş etdirən dövlətlərin eyni təhlükəsizlik konsepsiyası olmalıdır. Bu məsələ üzrə onlarda fikir ayrılığı olmamalıdır;
3. Sözügedən dövlətlər aralarında olan mübahisəli məsələləri, bir birinə zidd olan siyasi maraqlarını ümumi müdafiə məsələsinə qurban verməlidirlər.

Bu şərtlərin əsasında dövlətlərin maraqlarının harmoniyasına nail olmaq məsələsi durur. Realizm nəzəriyyəsinin görkəmli nümayəndəsi kimi Morqentau beynəlxalq münasibətlərin anarxik vəziyyəti şəraitində belə bir harmoniyaya nail olmağı qeyri-mümkün hesab edirdi. Buna görə də o, müharibə təhlükəsinin qarşısının alınmasında kollektiv təhlükəsizlik prinsipinə bir qədər skeptik yanaşaraq qüvvələrin balansının rolunu yüksək qiymətləndirirdi.

Kollektiv təhlükəsizlik ilə qüvvələrin balansı arasında *oxşar* və *fərqli cəhətlər* vardır. Onların *oxşar cəhətlər* aşağıdakılardır:

1. *Məqsədlər*. Kollektiv təhlükəsizlik və qüvvələrin balansının əsas məqsədi üzv dövlətlərin təhlükəsizliyinin təmin olunmasıdır;
2. *Fəaliyyət metodları.* Kollektiv təhlükəsizlik və qüvvələrin balansı hərbi gücə qarşı tərəfi qorxutma və ya onun təcavüzünün qarşısının alınması vasitəsi kimi yanaşır;
3. *Müdafiə xarakterli müharibə*. Kollektiv təhlükəsizlik və qüvvələrin balansı müdafiə xarakterli müharibəni mümkün hesab edirlər.

Kollektiv təhlükəsizlik ilə qüvvələrin balansı arasındakı *fərqli cəhətlərdən* aşağıdakıları göstərmək olar:

1. Qüvvələrin balansı dövlətləri dost və düşmən dövlətlər qruplarına böldüyü halda kollektiv təhlükəsizlik sistemi dövlətlərin əməkdaşlığını təbliğ edir;
2. Qüvvələrin balanslaşdırılması nəticəsində formalaşan alyanslar konkret dövlətə qarşı yönəldiyi halda kollektiv təhlükəsizlik sistemi özünü *təcavüzkar* aparan dövlətə qarşı yönəlmişdir;
3. Qüvvələrin balansı sistemində müəyyən bir dövlətin neytral mövqe tutması mümkündür. Kollektiv təhlükəsizlik sistemində isə hər bir üzv dövlət təcavüzkar dövlətə qarşı aparılan müharibəyə qoşulmalıdır;
4. Qüvvələrin balansının yaradılması və qorunması kollektiv təhlükəsizlik sisteminin yaradılması və qorunması ilə müqayisədə daha asan məsələdir. Çünki, yuxarıda qeyd etdiyimiz kimi, qüvvələrin balansı adi dövlətlər üçün təbii və obyektiv şəkildə yaranır. Kollektiv təhlükəsizlik sisteminin yaradılması və qorunması üçün mürəkkəb qaydaların tərtib olunması və bir sıra təşkilati məsələlərin həll edilməsi tələb olunur.

### 14.6. Milli maraq və təhlükəsizlik dilemması

*Milli maraq* məfhumu BMN fənninin əsas kateqoriyalarından biridir. Beynəlxalq münasibətlərlər sistemi dövlətlərin milli maraqlar uğrunda mübarizəsi ilə xarakterizə olunur. Milli maraq mövcud vəziyyətin qiymətləndirilməsi əsasında dövlətin tələbatlarını və niyyətlərini ehtiva edir. Milli marağa dövlətin suverenliyinin, müstəqilliyinin, ərazi bütövlüyünün qorunması, müdafiəsinin gücləndirilməsi, ölkənin davamlı sosial-iqtisadi inkişafının təmin edilməsi, vətəndaşların həyat səviyyəsinin və rifahının yaxşılaşdırılması, xalqın milli-mənəvi dəyərlərinin qorunması, ətraf mühitin mühafizəsi və s. daxildir.

Milli maraq tarixi prosesin gedişində formalaşır. Milli maraq məfhumu millətin, milli dövlətlərin meydana gəlməsi və millətin maraqlarının dövlətin maraqları ilə eyniləşdirilməsi ilə bağlıdır. Milli maraqdan əvvəl dövlətlər padşahların, kralların istəklərinə istinad edirdilər. Vətəndaş cəmiyyəti inkişaf etdikcə və müəyyən yetkinlik həddinə çatdıqca inteqral "millət-dövlət" sistemi

yaranır ki, onun daxilində şəxsi və dövlət maraqlarının tarazlaşdırılması mexanizmləri hazırlanır. Bu halda milli maraqlar üzvi şəkildə dövlətin maraqlarını ehtiva edir. Vətəndaş cəmiyyətinin zəif olduğu ölkələrdə isə milli maraqlar adətən hakim dairələrin, dövlət bürokratiyasının maraqları ilə əvəz olunur.

Güclə bağlı olan məsələ kimi *milli maraq* beynəlxalq münasibətlər nəzəriyyəsinin aktual problemlərindən biridir. Qeyd etdiyimiz kimi, Hans Morqentau milli marağı güdməyi dövlətin əsas vəzifələrindən biri hesab edərək bu vəzifənin həll olunmasında gücü əsas vasitələrdən biri hesab edirdi.

Milli maraq dövlətin və millətin xidmət etdikləri ümumi məqsəddir. O, dövlətlərin bir-birinə münasibətdə nail olmaq, yaxud müdafiə etmək istədikləri məqsəddir. Dövlətlər beynəlxalq münasibətlər sistemində öz inkişaf istiqamətlərini, məqsədlərini milli maraqlarına əsasən formalaşdırırlar. Onların xarici siyasətinin əsas istiqamətləri milli marağın əsasında formalaşır. Milli maraq dövlətlərin xarici siyasət sahəsində uzun və qısamüddətli fəaliyyətinin məzmununu müəyyən edir. Buna görə də dövlətin xarici siyasəti elə aparılmalıdır ki, o, milli marağın reallaşması üçün zəmin yaratsın.

Heç bir dövlət öz milli marağında güzəştə getmir. Bəzən öz milli marağını müdafiə etmək üçün dövlət müharibəyə də başlayır. Milli maraq dövlətin siyasi, iqtisadi, hərbi gücünün artması, xalqın güzəranının yaxşılaşdırılması, dövlətin beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsi ilə yanaşı *milli təhlükəsizliyin* təmin olunmasına da yönəlmişdir.

Milli təhlükəsizliyin əhəmiyyətini heç kəs inkar edə bilməz. Lakin, IV fəsildə qeyd etdiyimiz kimi, dövlətin öz təhlükəsizliyini təmin etməsi ona rəqib olan dövləti və ya dövlətləri də analoji addım atmağa, yəni təhlükəsizliklərini təmin etməyə vadar edir. Bu isə təhlükəsizlik dilemması situasiyasının yaranmasına səbəb olur. Qeyd etdiyimiz kimi, bu situasiya dövlətlər arasında münaqişə təhlükəsinin artdığını göstərir. *Amerikalı politoloq Con Herts* təhlükəsizlik dilemması ilə bağlı yaranan paradoksal vəziyyətin qarşısının alınmasına dair belə bir təklif irəli sürür. Özünün təhlükəsizliyini təmin etmək məqsədilə hərbi qüdrətini artırmaq istəyən hər bir dövlət başqa dövlətləri inandırmalıdır ki, o, hərbi gücünü təcavüz məqsədilə istifadə etməyəcəkdir. Bu o deməkdir ki, dövlətin xarici siyasəti eyni zamanda *iki məsələni* həll etməlidir:

1. Dövlətin özünün təhlükəsizliyini təmin etmək;
2. Öz təhlükəsizliyini təmin etmək məqsədilə həyata keçirilən tədbirlərdən digər dövlətlərin şübhələrini yayındırmaq.

Müasir dövrdə bir neçə qeyri-demokratik ölkənin nüvə silahını istehsal etmək imkanını əldə etməsi və dünyanın müxtəlif ölkələrində törədilən dəhşətli terror hadisələri ilə əlaqədar təhlükəsizliyin təmin edilməsinin əhəmiyyəti artmışdır. Mövcud şəraitdə artıq bu və ya digər dövlətin deyil, bütün bəşəriyyətin təhlükəsizliyindən

söhbət gedir. Bəşəriyyətin sağ qalması problemi *milli marağın yeni məqsədi* kimi özünü büruzə verir. Buna görə də müasir dövrdə milli maraq *beynəlxalq təhlükəsizliklə* əlaqələndirilir və yavaş-yavaş *beynəlxalq marağa* çevrilir. Bununla əlaqədar *Kennet Volts legitim milli marağın* məzmununu açıqlayarkən qeyd edir ki, o, beynəlxalq inteqrasiyaya tərəf yönəlmişdir. Buna görə də dövlətin milli marağının müdafiə edilməsinin dövlətlərarası münaqişəyə səbəb olmasına dair ənənəvi fikir artıq gerçəkliyə uyğun gəlmir. Onun fikrincə, bütün xalqların maraqlarının birləşmə sahələrini göstərməklə milli maraq beynəlxalq mənəviyyatın genişlənməsinə səbəb olur.

Beləliklə, müasir dövrdə dünyada baş verən hadisələrlə əlaqədar (beynəlxalq terrorizmin geniş yayılması, nüvə müharibəsi təhlükəsinin artması) təhlükəsizlik probleminin əhəmiyyəti artaraq dövlətlərin milli maraqlarının əsas məqsədlərindən biri kimi özünü büruzə verir. Hər bir dövlət öz təhlükəsizliyini təmin etmək məqsədi ilə hərbi gücünün artmasının qeydinə qalır. Bu isə öz növbəsində başqa dövlətlər tərəfindən onların təhlükəsizliyinə qarşı yönələn təhlükə kimi qarşılanır. Öz təhlükəsizliyini möhkəmlətmək istəyən dövlət bəzi hallarda təcavüzkar dövlət kimi qələmə verilir. Yaranmış dilemmanı həll etmək üçün təhlükəsizliyini təmin etmək istəyən dövlət başqa dövlətləri əmin etməlidir ki, onun bu sahədə həyata keçirdiyi tədbirlər heç bir dövlətin təhlükəsizliyinə təhdid etmir.

### 14.7. Milli maraq və ideologiya

*İdeologiya* müxtəlif siyasi qrupların maraqlarını, dünyagörüşünü və ideallarını ifadə edən konseptual şəkildə formalaşmış biliklər sistemidir. İdeologiya milli maraq ilə sıx bağlıdır. Dövlətin rəsmi ideologiyasında onun milli marağı əks olunur. Bu, milli marağın ideologiyaya münasibətdə *müəyyənedici rol* oynadığını göstərir. Bununla belə qeyd etmək lazımdır ki, ideologiya da milli marağa münasibətdə müəyyənedici rol oynaya bilər. Belə hallara ideoloji dəyərlərin milli marağın məzmununda əks olunmasını aid etmək olar. Məsələn, liberal demokratiya ideologiyasının əsas hədəflərindən olan hər bir vətəndaşın hüquq və azadlıqlarının qorunması məsələsi inkişaf etmiş demokratik dövlətlərin milli maraqlarının tərkib hissəsidir. Onlar bu məsələnin həll olunmasına xüsusi fikir verirlər.

İdeologiya müəyyən dünyagörüşünə əsaslanan biliklər sistemi kimi dövlətin daxili və xarici siyasət məqsədlərini əks edir. Daxili və xarici siyasət sahəsində qərarların qəbul olunmasına və onların həyata keçirilməsinə məsul olanlar siyasi ideologiya vasitəsilə siyasi fəaliyyətlərinin məqsədlərini gizlətməyə çalışırlar. Onlar ideologiya vasitəsilə sosial gerçəkliyi öz maraqlarına uyğun olaraq təhrif edirlər. İdeologiyanın bu təhrifedici funksiyasını əsas götürərək *XX əsrin tanınmış filosofu Karl Mannheym* ideologiyanı sosial reallığın təhrif olunmuş şəkildə inikası hesab

edir. Onun fikrincə, ideologiya hakimiyyətdə olan müəyyən qrupların maraqlarını ifadə edərək mövcud siyasi nizamı qorumağa çalışır.

Lakin ideologiyanın qeyd olunan təhrifedici funksiyasını mütləqləşdirmək düzgün deyil. İdeologiyanın bir neçə müsbət cəhəti də vardır. Bu cəhətlərdən biri odur ki, ideologiya məqsədə nail olmaq vasitəsi kimi istifadə edilir. Məsələn, hakimiyyət uğrunda siyasi mübarizə aparan sosial qrupun ideologiyası olmalıdır. Əgər bu və ya digər sosial qrupun hakimiyyət uğrunda mübarizəsi ideologiya vasitəsi ilə əsaslandırılmırsa, bu mübarizə geniş ictimaiyyət tərəfindən dəstək almır.

İdeologiya hakimiyyət uğrunda mübarizə vasitəsi kimi *üç kateqoriyaya* bölünür:

*1. Status-kvo (mövcud durum) ideologiyası.* Bu ideologiya mövcud hakimiyyətin saxlanılmasına yönəlmişdir;

*2. İmperializm ideologiyası.* Bu ideologiya demokratik status-kvonu dəyişmək üçün əsas axtarır. İmperializm ideologiyası əsas kimi beynəlxalq hüquqa istinad edə bilmir. O, əsasən təbiətin qanunlarına istinad edir. Məsələn, faşist Almaniyası Versal müqaviləsinin müəyyən etdiyi status-kvonu dəyişmək tələbini bərabərlik prinsipinin pozulması ilə bağlayırdı. Bəzən *Çarlz Darvinin* irəli sürdüyü ideyaların təsiri altında imperializm ideologiyası bioloji arqumentlərə istinad edir. Yaşamaq uğrunda mübarizə, ən güclülərin sağ qalması haqqında təlim güclü dövlətlərin dünyadakı hökmranlığına bəraət qazandırır;

*3. Sülh və beynəlxalq hüquq ideologiyası.* Bu ideologiya imperializm ideologiyasına ziddir, çünki o, öz mahiyyəti etibarilə imperializmə qarşı yönəlmişdir.

İmperializm ideologiyasına zidd olan daha bir ideologiya *xalqların öz müqəddəratını təyinetmə ideologiyasıdır.* Bu ideologiya məzlum xalqları azadlıqları uğrunda mübarizəyə çağırır. Lakin bəzi dövlətlər xalqların öz müqəddəratını təyinetmə ideologiyasını başqa dövlətlərin ərazilərini zəbt etmək məqsədilə istifadə edirlər. Məsələn, *Adolf Hitler* Çexoslovakiya və Polşanın işğalını orada yaşayan alman millətindən olan azlıqları müdafiə etmək bəhanəsi ilə həyata keçirmişdir. Bundan başqa ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağı işğal etdikdə də xalqların öz müqəddəratını təyinetmə prinsipini əsas gətirmişdir. Halbuki məlum beynəlxalq hüquqi sənədlərə əsasən, xalqların öz müqəddəratını təyinetmə prinsipi dövlətin ərazi bütövlüyü prinsipini inkar etməməlidir.

Beləliklə, milli maraq ilə müqayisədə ideologiya mühafizəkar bir hadisədir. İdeologiyanın mühafizəkarlığı onun və sosial gerçəkliyi əks edən milli marağın arasında ziddiyyətin yaranmasına səbəb olur. Belə olan hallarda ziddiyyətin aradan götürülməsi ideologiyanın məzmununun milli marağa uyğunlaşdırılması ilə bağlıdır. Lakin qeyd olunan ziddiyyət həmişə bu şəkildə, yəni ideologiyanın məzmununun

milli marağa uyğunlaşdırılması şəklində, həll edilmir. Bəzi dövlətlər (məsələn, keçmiş Sovet İttifaqı) ideologiyanın müddəalarına ehkam kimi yanaşaraq onları gerçəkliyə uyğun şəkildə dəyişmirlər. Əksinə onlar milli marağı ideoloji çərçivəyə salaraq daxili və xarici siyasətlərinin istiqamətlərini gerçəklikdə baş verən dəyişikləri nəzərə almaqla yox, öz ideoloji dəyərlərinə əsasən müəyyən edirlər. Nəticədə belə dövlətlərin inkişafının bütün sahələrində ciddi problemlərin yaranması müşahidə olunur.

### *Fəslə aid suallar*

1. Beynəlxalq münasibətlər sahəsində güc nədir?
2. Dövlətin gücünün elementlərinin neçə qrupu vardır? Onların bir-birindən əsas fərqi nədən ibarətdir?
3. Müharibədə iştirak edən dövlət üçün onun ərazisinin böyüklüyünün əhəmiyyəti nədir?
4. Niyə dövlətin ərazisində təbii sərvətlərin bolluğu onun güclü olması üçün kifayət deyil?
5. Niyə əhalinin çoxluğu dövlətin güclü olması üçün kifayət deyil?
6. Dövlətin güclü olmasında onun iqtisadi inkişafının əhəmiyyəti nədir?
7. Dövlətin güclü olmasında onun siyasi sisteminin əhəmiyyəti nədir?
8. Dövlətin hərbi hazırlıq səviyyəsi hansı amillərlə müəyyən edilir?
9. Niyə dövlətin xarici siyasəti çevik olmalıdır?
10. Dövlətin güclü olmasında milli mənəviyyatın əhəmiyyəti nədir?
11. Dövlətin güclü olmasında siyasi ideologiyanın əhəmiyyəti nədir?
12. Gücdən istifadənin inandırma metodu nədir?
13. Gücdən istifadənin şirnikdirmə metodu nədir?
14. Gücdən istifadənin cəzalandırma metodu nədir?
15. Gücdən istifadənin məcburetmə metodu nədir?
16. Dövlərlərarası münasibətlərdə qüvvələrin balansının əhəmiyyəti nədir?
17. Dövlətlərin qüvvələrinin daxili yolla balanslaşdırılması nədir?
18. Dövlətlərin qüvvələrinin xarici yolla balanslaşdırılması nədir?
19. Morqentauya görə, qüvvələrin balansına necə nail olmaq olar?
20. Morqentauya görə, güclü dövləti necə zəiflətmək olar?
21. Morqentauya görə, dövlətlərarası münasibətlərdə zəif dövlətin nüfuzunu necə artırmaq olar?
22. Qüvvələrin balansının yaratdığı dilemmanın mahiyyəti nədir?
23. Qüvvələrin balansının yaratdığı dilemmanı kollektiv təhlükəsizlik sistemi necə həll edir?

24. Dövlərlərarası münasibətlərdə kollektiv təhlükəsizlik sisteminin əhəmiyyəti nədir?
25. Niyə kollektiv təhlükəsizlik sistemi "hamı bir nəfər üçün və hər bir nəfər hamı üçün" prinsipinə əsaslanır?
26. Təhlükəsizliyin izolyasionist siyasəti ilə təhlükəsizliyin kollaborationist siyasəti arasında fərq nədir?
27. Kollaborationist siyasət hansı hallarda kollektiv təhlükəsizlik və hansı hallarda kollektiv müdafiə kimi özünü göstərir?
28. Morqentauya görə, kollektiv təhlükəsizlik sistemi müharibənin qarşısını necə ala bilər?
29. Niyə Morqentau kollektiv təhlükəsizlik sisteminə skeptik yanaşır?
30. Kollektiv təhlükəsizlik ilə qüvvələrin balansı arasında oxşar cəhətlər nədir?
31. Kollektiv təhlükəsizlik ilə qüvvələrin balansı arasında fərqli cəhətlər nədir?
32. Milli maraq nədir?
33. Con Herts təhlükəsizlik dilemması ilə bağlı yaranan paradoksal vəziyyətin qarşısının alınması üçün nə təklif edir?
34. İdeologiya nədir?
35. İdeologiya ilə milli marağın münasibəti necədir?
36. İdeologiyanın təhrifedici funksiyası nədən ibarətdir?
37. Status-kvo ideologiyası nədir?
38. İmperializm ideologiyası nədir?
39. Sülh və beynəlxalq hüquq ideologiyası nədir?
40. Xalqların öz müqəddəratını təyinetmə ideologiyası nədir?
41. Niyə milli maraq ilə müqayisədə ideologiya mühafizəkar bir hadisədir?
42. Milli maraq və ideologiya arasındakı ziddiyyəti necə həll etmək olar?

## Ədəbiyyat


*Гоббс Г.* Левиафан // Избр. соч.- В 2 т. Т. 2. М, 1991.

*Fearon J.* Domestic Politics, Foreign Policy, and Theories of International Relations. //Annual Review of Political Science. Vol. 1, 1998.

*Herz J.* Idealist Internationalism and the Security Dilemma.// World Politics. Vol. 2, No. 2 (Jan., 1950), pp. 157-180

Internaional Politics: Concepts, Theories and Issues. Edited by Rumki Basu. New Delhi, 2012

*Jervis R.* Rational Deterrence: Theory and Evidence. //World Politics, vol 41, 1989.

*Jervis R.* Cooperation under Security Dilemma. // Essential Readings in World politics (eds. Karen Mingst and Jack Snyder), New York, 2001.

*Капустин Б. Г.* «Национальный интерес» как консервативная утопия // Свободная мысль. 1996. № 3.

*Kumar M.* Theoretical Aspects of International Politics. New Delhi, 1978.

*Morgenthau H.* "The Balance of Power," "Different Methods of the Balance of Power", and "Evaluation of the Balance of Power", from "Politics among Nations: The Struggle for Power and Peace".// Essential Readings in World politics (eds. Karen Mingst and Jack Snyder), New York, 2001.

*Межуев В.В.* Понятие «национальный интерес» в российской общественно-политической мысли // Полис. 1997. № 1.

*Молчанов М.А.* Дискуссионные аспекты проблемы «национальный интерес» // Полис. 2000. № 1.

Национальный интерес versus государственный интерес: теоретические понятия и политическая реальность. «Круглый стол» // Полис. 2000. № 1.

*Nəcəfov E.Ə.* Müasir dövrdə dövlətlərarası münasibətlərin tədqiq edilməsində Hans Morqentaunun milli maraq konsepsiyasının əhəmiyyəti. Elmi Əsərlər. İctimai-siyasi elmlər seriyası, Bakı Slavyan Universiteti, N2, 2008, s.67-72

*Nəcəfov E.Ə.* Qüvvələrin balansı nəzəriyyəsinin Hans Morqentaunun beynəlxalq siyasət konsepsiyasında yeri. Elmi Əsərlər. İctimai- siyasi elmlər seriyası, Bakı Slavyan Universiteti, N2, 2009, s. 10-17

*Orakhelashvili A.* Collective Security. Ofxord University Press, 2011. https://books.google.az/books?hl=ru&lr=&id=z8dsDTHfzCsC&oi=fnd&pg=PP2&dq=collective+security+system&ots=ADDYuMEwaw&sig=m4gX0erPQtPIXaYyuegV5zhuaS8&redir_esc=y#v=onepage&q=collective%20security%20system&f=false

*Rüstəmov Y.İ.* Siyasi-hüquqi təlimlər tarixi. Dərs vəsaiti. Bakı, 2000.

*Цыганков П.А.* Теория международных отношений: Учебное пособие. М., 2006.

# XV FƏSİL
# XARİCİ SİYASƏT VƏ DİPLOMATİYA

## 15.1. Xarici siyasətin mahiyyəti

Xarici siyasət beynəlxalq münasibətlər sistemində dövlətin bu sistemin digər aktorları ilə davranışını xarakterizə edir. Daha konkret desək, xarici siyasət dövlətin beynəlxalq münasibətlər sistemində fəaliyyətinin istiqamətlərini, onun digər aktorlarla münasibətini əks edir. Bu münasibətin əsasını dövlətin milli maraqlarının müdafiə olunması təşkil edir.

Xarici siyasətin nəzəri problemləri üzrə ixtisaslaşan tanınmış *Amerika politoloqu Corc Modelskiyə* görə, xarici siyasət "digər dövlətlərin davranışlarını dəyişdirmək və öz davranışını beynəlxalq mühitə uyğunlaşdırmaq üçün dövlət tərəfindən inkişaf etdirilən fəaliyyətlər sistemidir." Onun fikrincə, xarici siyasətin əsas məqsədlərindən biri dövlətlərin fəaliyyətini öz dövlətinin xeyrinə tənzimləməkdir.

Xarici siyasət qərarı aşağıdakı proseslərdən ibarətdir: *birgəyaşama, əməkdaşlıq və münaqişə.* Bu proseslərin hər biri dövlətlərarası münasibətlərin məzmununu xarakterizə edir.

Xarici siyasətin inkişafına dövlətin daxili vəziyyəti, digər dövlətlərin daşranışları və müəyyən geosiyasi ideyaların reallaşması ilə bağlı dövlətin planları təsir göstərir. Buna görə də xarici siyasət dövlətin digər fəaliyyət istiqamətlərinin, məqsədlərinin, həmçinin ideologiyanın, iqtisadi situasiyanın, siyasi şəraitin kontekstində dərk olunmalıdır.

Xarici siyasət məfhumunun mahiyyətinin dərk olunmasında onun *beynəlxalq münasibətlər məfhumu* ilə müqayisəsi mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq münasibətlər məfhumunun həcmi ilə müqayisədə xarici siyasət məfhumunun həcmi dardır. Belə ki, xarici siyasət məfhumunun həcminə *dövlətlərarası münasibətlər* daxildir. Beynəlxalq münasibətlər məfhumunun həcmi isə dövlətlərarası münasibətlərlə yanaşı beynəlxalq münasibətlər sisteminin digər aktorları (məsələn, beynəlxalq təşkilatlar, transmilli şirkətlər və s.) arasındakı münasibətləri də ehtiva edir.

Xarici siyasətin sistemli təhlilinə *siyasi xadimlər, xarici siyasətin məqsədləri, prinsipləri, vasitələri, bir də xarici siyasət ilə daxili siyasətin arasındakı münasibətin tədqiqi* daxildir.

Dövlətin xarici siyasətinin formalaşmasında və həyata keçirilməsində *siyasi xadimlərin* rolu böyükdür. Siyasi xadimlərin fəaliyyəti *iki səviyyədə* icra olunur:

1. Siyasi xadimlərin funksiyalarının yerinə yetirilməsində onlara göstərişlər verən yerli ictimaiyyət səviyyəsində;
2. Fəaliyyətini tənzimləmək istədikləri başqa dövlətlər səviyyəsində.

Modelski siyasi xadimlərin birinci səviyyədə apardıqları fəaliyyəti *"təsir"*, ikinci səviyyədəkini isə *"nəticə"* adlandıraraq siyasi xadimlərin vəzifəsini təsirləri nəticələrə çevirməkdə görür.

Xarici siyasət fəaliyyəti ilə məşğul olan dövlət xadimləri öz dövlətlərinin maraqlarını digər dövlətlərə təqdim etməklə yanaşı, digər dövlətlərin də maraqlarını öz dövlətlərinə izah edirlər. Onlar xarici siyasət sahəsində milli maraq və məqsədləri müəyyən edərək siyasəti formalaşdırırlar. Məhz bu səbəbdən bəzi tədqiqatçılar hesab edirlər ki, xarici siyasət siyasi xadimlər tərəfindən qərarların qəbul olunması ilə bağlıdır.

Dövlətin milli maraqları onun *xarici siyasətinin məqsədlərinin* məzmunu təşkil edir. Milli maraqla bərabər xarici siyasətin məqsədlərinin formalaşmasına *dövlət ideologiyası* da təsir edir. Əvvəlki fəsildə milli maraqla ideologiyanın münasibətini açıqlayarkən qeyd etdik ki, totalitar cəmiyyətlərdə ideologiya ilə milli maraq arasında ziddiyyət yarandıqda üstünlük ideologiyaya verilir. Bu cür cəmiyyətlərin xarici siyasət fəaliyyətlərində belə ziddiyət yarandıqda, üstünlük yenə də ideologiyaya verilir. Bu isə öz növbəsində dövlətinin beynəlxalq aləmdə mövqelərinə mənfi təsir göstərir.

Bəzi hallarda dövlət özünün xarici siyasətinin müəyyən məqsədlərini bəyan etmir, sadəcə olaraq onları gizlədir və ya tamamilə başqa məzmunda təqdim edir.

Ümumiyyətlə, xarici siyasətin məqsədləri *əsas* və *ikincidərəcəli qruplara* bölünür. Dövlətin xarici siyasətinin *əsas məqsədləri* onun strateji əhəmiyyət kəsb edən milli maraqlarının beynəlxalq münasibətlər sistemində müdafiə olunmasını əks edir. Onlar dövlətin xarici siyasət konsepsiyasınının əsas müddəalarını təşkil edir. *İkincidərəcəli məqsədlər* dövlətin milli maraqları üçün mühüm əhəmiyyət kəsb etmir. Lakin onlara nail olmaqla dövlət beynəlxalq aləmdə öz nüfuzunu artırmış olur. Bu iki qrupa daxil olan məqsədlər vaxt baxımından öz növbəsində *qısamüddətli, ortamüddətli, uzunmüddətli* və *perspektiv məqsədlərə* bölünür.

İlk baxışda xarici siyasətin məqsədlərini onun *prinsiplərindən* ayırmaq çətin görünür. Lakin onları eyniləşdirmək düzgün deyil. Belə ki, xarici siyasətin məqsədləri dövlətin əldə etmək istədiklərini əks edirsə, xarici siyasətin prinsipləri onun fəaliyyətinin hansı çərçivədə, hansı qaydalara riayət etməklə həyata keçməsini göstərir. Məsələn, müasir dövrdə Azərbaycan Respublikasının xarici siyasətinin əsas məqsədlərindən biri ölkənin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü və təhlükəsizliyini qorumaqdır. Ölkəmiz bu məqsədə beynəlxalq hüququn normalarına riayət etmək prinsipinin əsasında nail olmağa çalışır. Xarici siyasətimizin prinsipi beynəlxalq hüququn ərazinin bütövlüyünün toxunulmazlığı, münaqişəli məsələlərin danışıqlar yolu ilə həll edilməsi kimi prinsiplərinə əsaslanır.

*Xarici siyasətin vasitələri* onun məqsədlərinə nail olmaq üçün nəzərdə tutulmuşdur. Vasitələrin xarakteri məqsədlərin məzmunundan asılıdır.

İndi isə xarici siyasətin sistemli təhlilinin mühüm tərkib hissəsi olan xarici siyasətlə daxili siyasət arasında münasibəti nəzərdən keçirək.

### 15.2. Xarici və daxili siyasət arasında münasibət

Xarici siyasətlə daxili siyasət arasında münasibətin tədqiq olunması xarici siyasətin və ümumilikdə beynəlxalq münasibətlərin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

Əvvəlki fəsillərdə biz gördük ki, beynəlxalq münasibətlərin bəzi nəzəriyyələri xarici siyasətin daxili siyasətlə münasibətinin təhlilinə xüsusi fikir verir. Lakin xarici siyasətin determinantları kimi onlar müxtəlif amilləri göstərir. Məsələn, liberalizmə və marksizmə əsasən, ölkənin xarici siyasətinin məzmunu onun daxili siyasəti ilə müəyyən edilir. Neorealizm isə xarici siyasətin məzmununu beynəlxalq sistemlə əlaqələndirir.

Daxili siyasətlə müqayisədə xarici siyasətdə qadağan olunan fəaliyyət növlərinin sayı olduqca azdır. Məsələn, xarici siyasətlə müqayisədə daxili siyasətdə zorakılıq halları dövlət tərəfindən qanunla qadağan olunmuşdur. Xarici siyasətdə isə daxili siyasətdə dövlətin funksiyasını yerinə yetirə bilən təsisatın olmaması səbəbindən burada hətta müharibəyə yol verilir. Daxili siyasətin əsasını təşkil edən dövlətin daxili hüquqi normaları beynəlxalq hüququn normalarından daha aydın və müəyyəndirlər. Onların icra olunmasını dövlətin güc strukturları təmin edir. Buna görə də daxili siyasətdə nizam xarici siyasətdən daha möhkəmdir.

Daxili və xarici siyasət arasındakı münasibətdə daxili siyasət müəyyənedici rol oynayır. Ölkədaxili sabitlik dövlətin xarici siyasətinin sülhyönümlü, beynəlxalq hüququn prinsiplərinə uyğun olması üçün zəmin yaradır. Və əksinə ölkədaxili vəziyyətin qeyri-sabit, böhranlı olması dövlətin xarici siyasətinin təcavüzkar olmasına, onun beynəlxalq hüquq normalarına məhəl qoymamasına şərait yaradan əsas səbəblərdən biridir. Məsələn, daxili siyasətin xarici siyasətə münasibətdə müəyyənedici rol oynamasını əsas götürərək deyə bilərik ki, əgər ölkə daxilində etnik, dini zəmində heç bir qarşıdurma yoxdursa, müxtəlif xalqların, dinlərin arasında tolerantlıq, dialoq və əməkdaşlıq münasibətləri mövcuddursa, bu dövlətin xarici siyasəti sülhyönümlü olaraq dünyada dinlərarası, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa və əməkdaşlığa yönələcəkdir. Başqa sözlə desək, multikulturalizmi daxili siyasətinin tərkib hissəsi kimi qəbul edən dövlət ona özünün xarici siyasətinin də mühüm bir istiqaməti kimi də yanaşır.

Daxili siyasətin xarici siyasətə münasibətdə müəyyənedici rolunu qeyd etməklə bərabər xarici siyasətin daxili siyasətə əks təsirini də göstərmək vacibdir. Ölkənin xarici siyasət sahəsində əldə etdiyi uğurlar onun daxili siyasətinə müsbət təsir göstərir, daxili vəziyyətini sabitləşdirir, hakimiyyətdə olanların mövqelərini möhkəmlədir, müxalifətin

nüfuzunu zəifldir. Ölkənin xarici siyasət sahəsində üzləşdiyi məğlubiyyətlər isə əksinə onun daxili vəziyyətinə mənfi təsir göstərir. Bu, ilk növbədə özünü xalqın hakim dairələrə qarşı artan etirazlarında büruzə verir. Ölkədaxili müxalif qüvvələr iqtidarın xarici siyasətindəki uğursuzluqlarını ona qarşı istifadə edir, etiraz nümayişləri təşkil olunur, hakimiyyətin istefası, növbədənkənar seçkilərin keçirilməsi tələb olunur və s.

Beləliklə, daxili və xarici siyasət arasındakı münasibət qarşılıqlı xarakter daşıyır. Bu münasibətdə daxili siyasət müəyyənedici rol oynasa da, xarici siyasət ona əks təsir göstərir.

### 15.3. Diplomatiya xarici siyasətin həyata keçirilməsinin bir vasitəsi kimi

*Diplomatiya termini* (qədim yunan dilindən tərcümədə *diploma*- "qatlanmış", "ikiyə bükülmüş" və *-ma* - və "obyekt") qatlanmış, ikiyə bükülmüş sənəd mənasını verir*. Hazırda bu termin bir neçə mənada işlədilir. Bəzən o, xarici siyasət məfhumunun sinonimi kimi işlədilir. Məsələn, "Yaxın Şərqdə Böyük Britaniyanın diplomatiyası məğlubiyyətə uğradı". Bəzən diplomatiya məfhumu danışıqlar mənasını verir. Məsələn, "bu problem diplomatiya yolu ilə həll olundu". Bəzən isə diplomatiya məfhumu beynəlxalq danışıqların aparılmasında bacarıqdan istifadə edən abstrakt keyfiyyəti təsvir edir. Məsələn, "o, diplomat kimi danışır". Lakin qeyd olunan mənalarda işlədilən diplomatiya məfhumunun heç biri onun məzmununu açıqlamır.

Ümumiyyətlə, diplomatiya danışıqlar, dialoq və digər dinc vasitələrlə beynəlxalq münasibətlərin idarə olunması deməkdir. Diplomatiya elə bir metoddur ki, onun vasitəsilə beynəlxalq münasibətlər dövlət başçıları, səfirlər və xarici siyasət sahəsində fəaliyyət göstərən digər rəsmi şəxslər tərəfindən tənzimlənir və idarə olunur. Diplomatiya dinc vasitələrlə xarici dövlətlərin və xalqların qərarlarına və davranışlarına təsir göstərməyin müəyyən bir metodudur. Onun tətbiqi müharibəni və digər zorakı metodları istisna edir. Diplomatiya zorakılıq mümkün olan sahədə tətbiq olunsa da onun *əsas funksiyası* zorakılığın qarşısını almaqdır. Bununla əlaqədar Hans Morqentau qeyd edir ki, diplomatiya dövlətin milli maraqlarının dinc vasitələrlə təşviqi deməkdir. Diplomatiya dövlətin qarşısında duran məqsədlərə nail olmaq üçün danışıqlar, sövdələşmə və digər dinc vasitələrdən istifadə etməklə başqa dövlətlərə təsir etməyi nəzərdə tutur. Sözügedən məqsədlərə nail olmaq üçün diplomatlar *inandırma, şirnikləndirmə, təzyiq* və *təhdid* kimi təsir metodlarından

---

* *Qeyd:* Qədim Yunanıstanda qatlanmış və ya ikiyə bükülmüş sənəd daşıyıcıya səyahət etmək icazəsi verirdi. Bir müddət sonra dəftərxana tərəfindən bu sənəd dövlətlər arasında bağlanmış müqavilələrə əlavə olundu. Daha sonra diplomatiya termini beynəlxalq münasibətlər termini ilə eyniləşdirildi. Bu, onun sənədlə assosiasiya olunmasına son qoydu. Nəhayət, XVIII əsrdə fransız termini hesab olunan diplomat və ya diplomatist termini "dövlət adından danışıqlar aparmaq səlahiyyətinə malik olan şəxs" mənasını verməyə başladı.

istifadə edirlər. Diplomatların fəaliyyətlərində istifadə etdikləri əsas silahları təmsil etdikləri dövlətin və ya təşkilatın gücü ilə dəstəklənən *sözlərdir.*

*Danışıqlar* başqalarına təsiretmə metodlarından biridir. Danışıqlar *inandırma metodunun* əsasını təşkil edir. İnandırma metodu isə, yuxarıda qeyd etdiyimiz kimi, gücdən istifadənin dörd metodundan (şirnikləndirmə, cəzalandırma, məcburetmə) biridir. Diplomat məcburetmə metodundan danışıqlar prosesində istifadə edə bilməz. Onun rolu müharibəyə apara bilən ultimatumun qarşı tərəfə təqdim olunması ilə məhdudlaşır. İnandırma metodu beynəlxalq diplomatiyada istifadə edilə bilən əsas metoddur. Məhz inandırma diplomatın qabil olduğu mühüm məharətdir. Bundan başqa diplomat danışıqlar prosesində qarşı tərəfə təsir etmək məqsədilə ona şirnikləndirici və ya cəzalandırıcı seçim vəd edə bilər.

Diplomatiya ilk növbədə sülhün qorunmasına yönəlmişdir. Diplomatiya dövlətlər arasında razılaşmalara nail olmaq və mübahisəli məsələləri həll etmək üçün danışıqların vacibliyini göstərir. O, iflasa uğradıqda, müharibə təhlükəsi reallaşır. Lakin hətta müharibə zamanı da diplomatiya öz əhəmiyyətini itirmir. Belə ki, diplomatik danışıqlar özünü müharibəni dayandırılmasının ən səmərəli yolu kimi göstərir.

Diplomatiya tərəflər arasında razılığın əldə olunmasına yönəlmişdir. Bu o deməkdir ki, diplomatiya yalnız razılıq olmayan yerdə münasibdir. Tərəflər arasında tam razılıq olduqda o, münasibliyini itirir. Daha konkret desək, diplomatiya real və ya potensial anlaşılmazlığın, yaxud razılığın olmadığı yerlərdə istifadə edilir. Lakin razılığın olmaması elə bir həddə çatmamalıdır ki, onu danışıqlar vasitəsilə həll etmək mümkün olmasın. Bununla belə qeyd etmək lazımdır ki, razılığın olması, yaxud olmaması situasiyaları elə dəyişə bilər ki, nəticədə müəyyən məsələ üzrə razılıq itirilə bilər və əksinə, situasiyaların dəyişməsi nəticəsində tərəflərin razılıq əldə edə bilmədikləri məsələ üzrə razılıq əldə oluna bilər.

Bir qayda olaraq diplomatlar təmsil etdikləri dövlətlərin siyasətini təşviq edirlər. Onlar dövlətlərinin xarici siyasət qərarlarını istədikləri kimi dəyişə bilməzlər. Buna görə də diplomatiya sahəsində uğurun qazanılması təkcə diplomatların şəxsi keyfiyyətlərindən asılı deyil. Bu, əhəmiyyətli dərəcədə dövlətin xarici siyasətinin məzmunundan da asılıdır. Məhz buna görə də bəzi hallarda diplomatlar təmsil etdikləri dövlətin zəifliyi və ya hökumətin səmərəsiz fəaliyyət göstərməsi səbəbindən öz fəaliyyətlərində uğur qazana bilmirlər. Dövlətin zəifliyi hökumətin səmərəsiz fəaliyyəti ilə müqayisədə daha təhlukəlidir, çünki dövlət qüdrətli olduğu halda hökumətin buraxdığı səhvlər asanlıqla aradan götürülə bilər. Dövlətin xarici siyasətinin səmərəliliyi onun qüdrətindən çox asılıdır. Bu, bir daha onu göstərir ki, keçmişdə olduğu kimi, müasir dövrdə də dövlətlərarası münasibətlərdə güc faktoru mühüm rol oynayır. Məsələn, müasir dövrdə ABŞ diplomatiyasının səmərəliliyi əhəmiyyətli dərəcədə onun qüdrəti, gücü ilə izah olunur.

Diplomatiyanın səmərəliliyi tərəflər arasındakı ziddiyyətlərin ciddi olub-olmamasından da asılıdır. Əgər dövlətlərarası münasibətlərdə bu və ya digər dövlətin milli maraqları ciddi təhlükə altındadırsa, o, hər hansı bir kompromisə getməkdən imtina edir və nəticədə diplomatiyanın dövlətlərarası ziddiyyətlərinin həll olunmasında əhəmiyyəti azalır. Diplomatiyanın əhəmiyyəti dövlətlərarası ziddiyyətlərin ciddi olmadığı şəraitdə artır.

Qarşı tərəflər arasında mübahisəli məsələlərin danışıqlar vasitəsilə tənzimlənilməsinə yönələn diplomatiya bir metod *kimi gizli* və *açıq* formada həyata keçirilir. *Açıq diplomatiya* dövlətin idarə olunması ilə, o cümlədən xarici siyasətlə bağlı qərarların qəbul olunması prosesində xalqın fəal iştirakını nəzərdə tutur. *Gizli diplomatiya* isə xalqın qeyd olunan prosesə cəlb olunmasını qəbul etmir. Gizli diplomatiyanın tərəfdarları hesab edirlər ki, xarici siyasətlə bağlı məsələlərlə dövlət xadimləri, diplomatlar məşğul olmalıdırlar. III fəsildə qeyd etdiyimiz kimi, liberallar gizli diplomatiyanı müharibələrin əsas səbəblərindən biri kimi qələmə verirdilər. Liberallara görə, sülhün qorunmasında maraqlı olan xalqın xarici siyasətlə bağlı qərarların qəbul olunması prosesində iştirakı müharibənin qarşısını alan mühüm faktorlardan biridir.

Diplomatiya termini xarici siyasət terminınə yaxın olsa da, onlar bir birindən əsaslı şəkildə fərqlənirlər. Belə ki, diplomatiya siyasi liderlər tərəfindən müəyyən olunan xarici siyasətin əsas alətidir. Diplomatiyadan başqa xarici siyasət dövlətin milli maraqlarını müdafiə edərkən digər dövlətlərə təsir etmək məqsədilə məxfi agentlər, təxribat, müharibə kimi alətlərdən də istifadə edir. Qeyd olunan alətlərdən fərqli olaraq diplomatiya dövlətlərarası mübahisələri dialoq və danışıqlar vasitəsilə, yəni dinc yolla tənzimləyir. Beləliklə, diplomatiya xarici siyasətin həyata keçirilməsinin vasitələrindən biridir.

## 15.4. Diplomatiyanın növləri

Diplomatiyanın *iki əsas təsnifatı* vardır. Birinci təsnifatın əsasını *diplomatiyanın subyektlərinin sayı* təşkil edir. Bu təsnifata *birtərəfli, ikitərəfli* və *çoxtərəfli* diplomatiya daxildir.

*Birtərəfli diplomatiya* və yaxud *unilateralizm*, adından göründüyü kimi, bir dövlət tərəfindən həyata keçirilir. Bir qayda olaraq, diplomatiyanın subyekti olan dövlət öz maraqlarını ön plana çəkməklə digər dövlətlərin maraqlarına əhəmiyyət vermir. Bu dövlət heç bir dövlətlə məsləhətləşmədən, heç bir dövlətin, dünya ictimaiyyətinin maraqlarını nəzərə almadan beynəlxalq münasibətlər sahəsinə aid müəyyən məsələ ilə bağlı müstəqil şəkildə qərar qəbul edir. O, hətta digər dövlətlərin beynəlxalq münasibətlər sistemindəki fəaliyyətlərinə, xarici siyasətlərinə təsir göstərə bilir. Adətən, birtərəfli diplomatiya güclü dövlətlər tərəfindən tətbiq olunur.

Buna misal kimi 2003-cü ildə *ABŞ-ın sabiq prezidenti Corc Buşun (oğul)* qərarı ilə ölkənin hərbi qüvvələrinin İraqa təcavüz etməsini və 2017-ci ildə *ABŞ-ın sabiq prezidenti Donald Trampın* qərarı ilə ABŞ-ın İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Paris Sazişindən çıxmasını göstərmək olar.

İlk baxışda unilateralizm izolyasionizm siyasətinə oxşayır. Lakin onlar bir-birindən əhəmiyyətli dərəcədə fərqlənirlər. İzolyasionizm dövlətin başqa dövlətlərlə siyasi, iqtisadi, mədəni və digər əlaqələrdən təcrid olunmasını nəzərdə tutur. Birtərəfli diplomatiya isə dövlətin başqa dövlətlərlə əlaqələrinin kəsilməsini yox, bu əlaqələrdə onun milli maraqlarının üstün tutulmasını nəzərdə tutur.

*İkitərəfli diplomatiya* və yaxud *bilateralizm* bilavasitə iki dövlət arasında müxtəlif sahələri ehtiva edən əməkdaşlığa əsaslanır. Bu əməkdaşlıqda dövlətin tərəfdaşı qismində dövlətlə yanaşı beynəlxalq hökumətlərarası təşkilatlar, beynəlxalq qeyri-hökumət təşkilatları və transmilli şirkətlər də ola bilər. İkitərəfli diplomatiyanın əsasını qarşılıqlı maraq doğuran məsələlər təşkil edir. Buna görə də ikitərəfli diplomatiyanın hər bir aktoru əməkdaşlığın inkişafına maraq göstərir. Bu isə ikitərəfli diplomatiyanın həyata keçirilməsini asanlaşdırır və tezləşdirir.

*Çoxtərəfli diplomatiya* və yaxud *multilateralizm* üç və ya daha çox aktor arasındakı münasibətləri ehtiva edir. Burada dövlətlərlə yanaşı aktorlar qismində beynəlxalq hökumətlərarası təşkilatlar, beynəlxalq qeyri-hökumət təşkilatları, transmilli şirkətlər, görkəmli şəxslər də çıxış edə bilər. Çoxtərəfli diplomatiyada bütün aktorlar eyni hüquqa malik olurlar və heç bir ayrıseçkiliyə məruz qalmırlar. İkitərəfli diplomatiyada aktorlar arasında qarşılıqlı maraq doğuran məsələlər üzrə əməkdaşlıq *bilavasitə* həyata keçirildiyi halda, çoxtərəfli diplomatiyada bu cür əməkdaşlıq adətən *vasitəçidən* istifadə etməklə həyata keçirilir. Vasitəçi qismində isə əsasən beynəlxalq təşkilatlar çıxış edirlər. Başqa sözlə desək, çoxtərəfli diplomatiyada aktorlar arasında əməkdaşlıq beynəlxalq təşkilatlar çərçivəsində reallaşır. Çoxtərəfli diplomatiyanın bu cəhəti dövlətlərin əməkdaşlıqda rolunu əhəmiyyətli dərəcədə azaldır.

İkitərəfli diplomatiya ilə çoxtərəfli diplomatiya arasında daha bir fərq ondadır ki, çoxtərəfli diplomatiyada daha çox aktorların iştirak etmələri onlar arasında razılığın əldə olunması üçün daha çox vaxt və səy tələb edir. İkitərəfli diplomatiyada isə iki aktor arasında razılığın əldə olunması üçün çox vaxt və səy tələb olunmur.

Diplomatiyanın *ikinci təsnifatının* əsasını dövlətin xarici siyasətinin məqsədlərinə nail olmaq üsulları təşkil edir. Diplomatiyanın bu təsnifatına daxil olan əsas növlərindən aşağıdakıları qeyd etmək olar: *sakitləşdirmə siyasəti, silahlı qayıq diplomatiyası, miqrasiya diplomatiyası, preventiv diplomatiya, iqtisadi və ya ticarət diplomatiyası, elm diplomatiyası, borc tələsi diplomatiyası, dollar diplomatiyası, məkik diplomatiyası, vətəndaş diplomatiyası, yumşaq güc diplomatiyası və rəqəmsal diplomatiya.*

*Sakitləşdirmə siyasəti və ya sakitləşdirmə diplomatiyası* böyük əhəmiyyət kəsb etməyən və prinsipial olmayan məsələlərdə dövlətlərin bir-birinə müxtəlif güzəştlərin edilməsini nəzərdə tutur. Belə güzəştlərin tətbiqi nəticəsində dövlətlər arasında mövcud olan ziddiyyətlərin daha da gərginləşməsinin qarşısı alınır. Bu isə öz növbəsində dövlətlər arasında müharibə təhlükəsinin aradan qaldırılmasına kömək edir.

*Silahlı qayıq diplomatiyası* digər dövlətlərə təsir etmək üçün hədə-qorxu vasitəsi kimi dövlətin hərbi gücünün nümayiş etdirilməsini nəzərdə tutur. Düzdür, diplomatiyanın bu növündə onun digər növlərində olduğu kimi dövlətin hərbi gücündən istifadə olunmur. Lakin burada qarşı tərəfdə dövlətin hərbi potensialı haqqında müəyyən təsəvvür yaranır.




*Şəkil 5.* Silahlı qayıq diplomatiyası.
(https://broelman.com.au/2015/03/18/gunboat-diplomacy-2)

*Miqrasiya diplomatiyası* silahlı qayıq diplomatiyası kimi digər dövlətə hədə-qorxu ilə təsir etməyi nəzərdə tutur. Lakin burada hədə-qorxu vasitəsi qismində insanların miqrasiyası çıxış edir. Başqa sözlə desək, burada söhbət bir dövlətin başqa bir dövlətə (adətən iqtisadi cəhətdən inkişaf etmiş dövlətə) təsir etmək üçün onun ərazisində yaşayan və yaxud onun ərazisindən keçən miqrantların sözügedən inkişaf etmiş dövlətin ərazisinə keçmələri üçün şəraitin yaradılmasından gedir. Miqrasiya diplomatiyasını aparan dövlət miqrantların inkişaf etmiş dövlətin ərazisinə keçmələrinin qarşısının alınması müqabilində onun qarşısına müəyyən tələblər qoyur. Məlum olduğu kimi, müasir dövrdə Suriyada gedən vətəndaş müharibəsinin nəticəsində bu ölkədən olan və Avropaya miqrasiya etmək istəyən bir neçə milyon suriyalı qaçqın məcburən Türkiyənin, İordaniyanın və Livanın ərazilərində

məskunlaşmışdır. Bu qaçqınlar Türkiyənin, İordaniyanın və Livanın miqrasiya diplomatiyası kontekstində istifadə olunurlar.

*Preventiv (to prevent ingilis dilindən tərcümədə "qarşısını almaq".) diplomatiya*, adından göründüyü kimi, aktorlar arasında münaqişənin, müharibənin baş verməsinin qarşısının alınmasına yönəlmişdir. Bu missiyanı yerinə yetirmək üçün preventiv diplomatiya ilk öncə qarşı tərəflər arasında mübahisələrin yaranmasının qarşısını alır. Tərəflər arasında mübahisələr artıq mövcud olduqda, preventiv diplomatiya mövcud mübahisələrin münaqişələrə çevrilməsinin qarşısını almağa yönəlir. Tərəflər arasında mübahisələrin münaqişələrə çevrilməsi baş verdiyi halda preventiv diplomatiyanın əsas məqsədi münaqişələrin yayılmasını məhdudlaşdırmaq olur.

Müharibələrin bəşəriyyətə böyük tələfatlar, dağıntılar, ümumiyyətlə böyük bəlalar gətirdiklərini görən beynəlxalq və regional təşkilatlar, beynəlxalq ictimaiyyət preventiv diplomatiyaya böyük ümidlər bəsləyir. Buna görə də preventiv diplomatiya bir sıra beynəlxalq, regional təşkilatların fəaliyyətlərinin əsas istiqamətlərindən biridir. Ayrı-ayrı dövlətlər də preventiv diplomatiya xarakterli fəaliyyətlə məşğul olurlar. Preventiv diplomatiya ilə bağlı olan fəaliyyət növlərinə aşağıdakıları aid etmək olar: münaqişənin başlanmasına dair erkən xəbərdarlıq, BMT və ya digər təşkilatlar tərəfindən bu və ya digər dövlətin təcavüzkar davranışına dair faktların aşkarlanması, dövlətlər arasında etimadın möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, silahsızlaşdırılmış zonaların yaradılması və s..

*İqtisadi və ya ticarət diplomatiyası* dünyada sülhün qorunmasında, dövlətlər arasında müharibələrin qarşısının alınmasında mühüm rol oynayır. 3.5-ci yarımfəsildə qeyd olunduğu kimi, liberallara görə, dövlətlər arasında iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsi onları bir-birindən asılı etməklə müharibə təhlükəsinin qarşısını alır. Bu iqtisadi-ticarət əlaqələrinin inkişafında diplomatiya mühüm rol oynayır. Belə ki, dövlətlər arasında diplomatik danışıqların aparılmasının mühüm nəticələrindən biri onların bir-biri ilə iqtisadi-ticarət əməkdaşlıqlarının inkişaf etdirilməsidir. İqtisadi diplomatiyanın əsas məqsədi beynəlxalq iqtisadi-ticarət münasibətləri sistemində iştirakçı dövlətlərin iqtisadi maraqlarının müdafiə olunmasıdır. Onun səmərəli olmasının əsas şərtlərindən biri dövlətlərarası iqtisadi-ticarət əməkdaşlığında bütün tərəflərin maraqlarının təmin olunmasına nail olmaqdır.

*Elm diplomatiyası* əhəmiyyətinə görə iqtisadi diplomatiyaya yaxındır. O, iqtisadi diplomatiya kimi dövlətlər arasında əməkdaşlığı təşviq edir. Müasir dövrdə ölkələrin sosial-iqtisadi, təhsil, səhiyyə, ətraf mühitin qorunması və digər sahələrdə üzləşdikləri problemlərin həllində elmin və yüksək texnologiyanın inkişafı mühüm rol oynayır. Dövlətlərin elmin və yüksək texnologiyanın inkişafı sahəsindəki

əməkdaşlığı onlara ümumi problemlərin həll edilməsində kömək edir. Belə olan şəraitdə dövlətlər, bir tərəfdən, silahlanma, digər tərəfdən isə elm və yüksək texnologiya sahəsində əməkdaşlıq arasında seçimlərini birinciyə yox, ikinciyə verir.

*Borc tələsi diplomatiyası* əsasən ikitərəfli münasibətlərdə tətbiq olunur. İqtisadi cəhətdən inkişaf etmiş ölkə inkişafda olan ölkəyə kredit verməklə onu özündən asılı vəziyyətə salır və bununla da onun daxili işlərinə müdaxilə etmək imkanı əldə edir. Bu vəziyyətdə borc bir növ tələ rolunu oynayır. Kreditverən ölkənin tələsinə düşən ölkə eyni zamanda onun təsiri altına düşür. Müasir dövrdə bəzi beynəlxalq təşkilatlar (məsələn, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və s.) inkişafda olan ölkələrə kredit verməklə onlardan dövlət siyasətlərində müəyyən dəyişikliklərin həyata keçirilməsini tələb edirlər. Lakin bəzi hallarda beynəlxalq təşkilatların tələbləri ilə həyata keçirilən dəyişikliklər inkişafda olan ölkələrdəki reallığa uyğun gəlmir və nəticədə bu ölkələrdəki sosial-iqtisadi vəziyyət daha da pisləşir.

*Dollar diplomatiyası* ABŞ-da, xüsusilə *Uilyam Hovard Taftın* prezidentliyi dövründə (1909-1913-ci illər) geniş tətbiq edilmişdir. Dollar diplomatiyası siyasəti ABŞ-ın xarici siyasətinin bir istiqaməti kimi hərbi gücdən istifadəni minimuma endirməklə onun əvəzinə xarici ölkələrə sərmayə qoymaqla orada ABŞ-ın siyasi və iqtisadi məqsədlərinə nail olmağı nəzərdə tutur. Prezident Taft Latın Amerikası ölkələrinə ABŞ-ın birbaşa hərbi müdaxiləsinin baha başa gəldiyini və səmərəsiz olduğunu anlayaraq dollar diplomatiyası siyasətini müdafiə edirdi. Prezident Taft özündən əvvəlki prezidentin - *Teodor Ruzveltin* Latın Amerikasına ABŞ-ın hərbi müdaxiləsini təbliğ edən "Böyük Çubuq" diplomatiyasını səmərəsiz hesab edirdi. Prezident Taft qeyd edirdi ki, Birləşmiş Ştatlar digər ölkələrə sərmayə qoymaqla onları öz təsiri altında saxlaya bilər.




*Şəkil 6.*Dollar diplomatiyası. (https://en.topwar.ru/182489-dollarovaja-diplomatija-kak-popytka-ustanovlenija-regionalnoj-gegemonii-ssha.html)

Dollar diplomatiyası siyasəti Amerikanın iqtisadi bazarının genişlənməsində mühüm rol oynadı və ABŞ-ın dünyada bir dominant güc kimi formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərdi. Bu siyasət böyük xərclər tələb edən müharibələrin qarşısını almağa kömək etdi, iqtisadi cəhətdən zəif olan ölkələri ABŞ ilə əlaqələndirdi. Lakin bununla bərabər bu siyasət ABŞ-ın dünyada bir demokratik ölkə kimi nüfuzunun aşağı düşməsinə səbəb olurdu. Belə ki, öz iqtisadi maraqlarını müdafiə etmək məqsədilə ABŞ sərmayə qoyduğu ölkələrin daxili işlərinə müdaxilə edirdi. Heç təsadüfi deyil ki, Vudro Vilson 1913-cü ilin martında prezident seçildikdən sonra dollar diplomatiyası siyasətinin Amerikanın demokratiya müdafiəçisi imicinə zərbə vurduğunu anlayaraq bu siyasətdən imtina etdi.

*Məkik diplomatiyası* üçüncü dövlətin (vasitəçinin) iştirakı ilə rəqib dövlətlər arasında mübahisələrin sülh yolu ilə həlli vasitələrindən biridir. Mübahisə tərəfləri arasında birbaşa danışıqların bu və ya digər səbəbdən mümkünsüz olduğu halda üçüncü tərəf onlar arasında danışıqların aparılması ilə məşğul olur. Məkik diplomatiyasında üçüncü tərəf (vasitəçi) ardıcıl olaraq rəqib dövlətin birindən digərinə məkik kimi dəfələrlə səfər edir. Bununla o, rəqib dövlətlər arasında qarşılıqlı anlaşmanın və bir-birinə güzəşt etmələrinin əldə olunmasına çalışır. Siyasi ədəbiyyatda "məkik diplomatiyası" termini ilk dəfə 1974-cü ildə işlədilmişdir. Bu termin *ABŞ-ın Dövlət Katibi Henri Kissincerin* Yaxın Şərqdə 1973-cü il oktyabrın 6-dan 25-dək İsrail ilə Misir və Suriyanın başçılıq etdiyi ərəb dövlətlərinin koalisiyası arasında baş vermiş müharibədən sonra sülhün möhkəmləndirilməsi məqsədilə müharibədə iştirak edən bir neçə dövlətin paytaxtlarına səfərlərini xarakterizə edirdi.




*Şəkil 7*. Məkik diplomatiyası.
(https://www.cagle.com/paresh-nath/2010/05/shuttle-diplomacy-2)

*Vətəndaş diplomatiyası* beynəlxalq münasibətlər sistemində dövlət diplomatiyasına alternativ olan diplomatiyadır. O, dövlət diplomatiyası kimi danışıqlar vasitəsilə ölkələr və xalqlar arasında münaqişələrin, müharibələrin qarşısının alınmasına yönəlmişdir. Lakin diplomatik fəaliyyətin subyektləri baxımından dövlət diplomatiyası ilə vətəndaş diplomatiyası bir-birindən fərqlənir. Belə ki, dövlət diplomatiyasının subyektləri peşəkar diplomatlar olduğu halda, vətəndaş diplomatiyasının subyektləri müxtəlif qeyri-hökumət təşkilatları, təhsil, səhiyyə, mədəniyyət, idman və s. müəssisələri, hətta ayrı-ayrı şəxslər olur.

Ədəbiyyatda vətəndaş diplomatiyası mənasında *"qeyri-rəsmi diplomatiya", "qeyri-hökumət diplomatiyası", "diplomatlarsız diplomatiya"* kimi terminlər də işlədilir. Vətəndaş diplomatiyasını tanınmış amerikalı politoloq, uzun müddət diplomat işləmiş *Cozef Montville "İkinci dərəcəli diplomatiya"* adlandırır. Montville 1981-ci ildə dərc olunmuş *"Freydə görə xarici siyasət"* adlı əsərində *"Birinci dərəcəli diplomatiya"* və *"İkinci dərəcəli diplomatiya" (Track One diplomacy and Track Two diplomacy)* terminlərini irəli sürmüşdür. Montvilleyə görə, Birinci dərəcəli diplomatiya rəsmi dövlət diplomatiyasıdır. O, dövlət və hökumət rəsmilərinin, peşəkar diplomatların dövlətlər arasında apardıqları danışıqlarla bağlı fəaliyyətlərini ehtiva edir. İkinci dərəcəli diplomatiya isə qeyri-rəsmi şəxslər tərəfindən həyata keçirilir. Lakin bu şəxslər münaqişələrin həlli sahəsində nəzəri biliklərə və təcrübəyə malik olan peşəkarlardır. Montville göstərir ki, vətəndaş diplomatiyasının məqsədi bir ölkə daxilində və ya dövlətlərarası müstəvidə münaqişənin azaldılması və ya həll edilməsidir. Buna insanlar arasında ünsiyyəti yaxşılaşdırmaqla və bir-birinin fikrini anlamaqla mövcud olan qəzəbin və ya gərginliyin və ya qorxunun azaldılması yolu ilə nail olmaq mümkündür.

*Yumşaq güc diplomatiyasının* əsasını VI fəsildə haqqında danışdığımız Cozef Nayın "yumşaq güc" nəzəriyyəsi təşkil edir. Yumşaq güc diplomatiyası qarşı tərəfə təsir vasitəsi kimi ölkənin mədəniyyətindən, siyasi dəyərlərindən və xarici siyasətindən istifadə edir. Öz mahiyyətinə görə qeyri-zorakı olan bu vasitələr yumşaq güc diplomatiyasını aparan dövlətə ona qarşı duran dövlətin beynəlxalq münasibətlər sistemindəki fəaliyyətinə təsir etməyə imkan yaradır. Burada heç bir hərbi gücdən, zorakı vasitələrdən istifadə olunmur. Heç təsadüfi deyil ki, yumşaq güc diplomatiyasını bu xüsusiyyətinə görə bəzən *"ürəklər və ağıl diplomatiyası"* adlandırırlar.




*Şəkil 8.* Yumşaq güc diplomatiyası.
(https://pdgc2015a.wordpress.com/author/richardadelugba/)

*Rəqəmsal diplomatiya və ya eDiplomatiya* – diplomatiyanın ən müasir növüdür. O, diplomatiyanın əsas funksiyası olan dinc vasitələrlə beynəlxalq münasibətlərin idarə olunmasını internetin və yeni informasiya kommunikasiya texnologiyalarının (İKT) köməyi ilə həyata keçirilməsini nəzərdə tutur. Rəqəmsal diplomatiya yuxarıda təhlil etdiyimiz diplomatiyanın bir çox növlərində də istifadə oluna bilər.

Rəqəmsal diplomatiya adi diplomatiya ilə müqayisədə *3 mühüm üstünlüyə* malikdir. *Birincisi,* o, çox qısa müddət ərzində, operativ şəkildə aparılır. Diplomatik danışıqlar aparan dövlətlər internetin imkanlarından istifadə etməklə müzakirə olunan məsələlərə dair qərarlarını bir-birinə operativ şəkildə çatdırır. *İkincisi,* fiziki formatda aparılan diplomatik danışıqlar ilə müqayisədə rəqəmsal diplomatiya çox ucuz başa gəlir. Danışıqlar zamanı iştirakçı tərəflər hərəsi öz iş yerində oturub qarşı tərəflə məsələləri müzakirə edirlər. Bunun üçün harasa səfər etməyə, səfərlə bağlı zəruri xərclər etməyə ehtiyac olmur. *Üçüncüsü,* rəqəmsal diplomatiya adi diplomatiyadan təhlükəsizlik baxımından da üstündür. Rəqəmsal diplomatiyanın bu üstünlüyü özünü COVİD-19 pandemiyası dövründə çox aydın şəkildə büruzə verdi. Həmin dövr koronovirusun dünyada surətlə yayılması və onun bir neçə milyon insanın həyatına son qoyması diplomatik danışıqların, eləcə də beynəlxalq və regional təşkilatların tədbirlərinin fiziki formatda deyil, onlayn formatda keçirilməsini tələb edirdi. Qeyd etmək lazımdır ki, rəqəmsal diplomatiyanın qeyd olunan üstünlüyü müharibə dövründə də özünü göstərir. Ölkə başçıları bir biri ilə görüşlərini onlayn formatda keçirirlər.

Müasir dövrdə rəqəmsal diplomatiya danışıqlar vasitəsilə yanaşı Facebook, Twitter, Teleqram, İnstagram, YouTube, TikTok kimi sosial media platformalarında da aparılır. Bu onlayn platformalar arasında Twitter-in müstəsna yeri vardır. Belə ki,

digər platformalarla müqayisədə Twitter-in izləyicilərin ümumi sayı, eləcə də burada diplomatik hesabların sayı daha çoxdur. Bundan başqa Twitter beynəlxalq diqqəti daha çox cəlb etdiyinə görə oradakı yazılara ənənəvi mətbuatda daha tez-tez istinad edilir.

### 15.5. Diplomatiya və beynəlxalq hüquq

Nəzəri cəhətdən diplomatiya ilə beynəlxalq hüquq arasında ziddiyyət vardır. Belə ki, beynəlxalq hüquq dövlətlərarası hüquqi nizamın milli maraqdan daha üstun olmasını iddia edir. Diplomatiya isə dövlətin milli maraqlarını təşviq edir. Beynəlxalq hüquqa əsasən, beynəlxalq münasibətlər sahəsində milli maraqların toqquşmasının qarşısının alınmasının səmərəli yollarından biri dövlətlərin müəyyən beynəlxalq hüquqi normalara əməl etmələridir. Əgər beynəlxalq münasibətlər sahəsində heç bir dövlət öz milli maraqlarının müdafiə olunmasında qarşı tərəfə münasibətdə güzəştə getmirsə, belə olan halda müharibə təhlükəsi yaranır. Bu isə diplomatiyanın məğlubiyyəti deməkdir. Bunun qarşısını almaq üçün, dövlətlər diplomatiya vasitəsilə milli maraqlarını təşviq edərkən beynəlxalq hüququn tələblərinə hörmətlə yanaşmalı və onlara əməl etməlidir. Məhz beynəlxalq hüququn fundamental prinsip və qaydalarına riayət olunması diplomatiyadan səmərəli şəkildə istifadə etmək üçün münasib şərait yaradır. Beləliklə, diplomatiya ilə beynəlxalq hüquq arasında nəzəri cəhətdən ziddiyyətin olmasına baxmayaraq, diplomatiya ilə beynəlxalq hüquq arasında sıx əlaqə vardır.

Elmi tədqiqatlarda beynəlxalq hüququn beynəlxalq münasibətlər sistemində sülhyönümlü dəyişikliklərin həyata keçirilməsində əhəmiyyətini göstərən *amerikalı politoloq Kvunsi Vrayt* beynəlxalq hüquq və diplomatiya arasındakı münasibətləri təhlil edərək qeyd edir ki, diplomatik danışıqlarda iştirak edən dövlətlərin hər birinin beynəlxalq hüququn prinsip və qaydalarına əməl etmələri danışıqların səmərəliliyini artırır. Beynəlxalq hüquq diplomatik danışıqların səmərəliliyinin təmin olunmasının vacib bir aləti kimi çıxış edir. O, bu və ya digər dövlətin xarici siyasət məqsədlərinin həyata keçməsi üçün vasitələr təklif edir. Diplomatlardan danışıqlar zamanı razılıq əldə etmək üçün ümumi dil, inandırıcı davranış tərzi və digər münasib vasitələr tələb olunur. Bunların hamısı danışıqlar prosesini asanlaşdırır. İmzalanmış sənədlərdəki qeyri-müəyyən ifadələr, müddəalar tərəflərin real razılığa gələ bilməmələrindən xəbər verir.

Diplomatiya dövlətlərarası mübahisəli məsələlərin həll edilməsi istiqamətində atılan ilk addımdır. O, uğurla nəticələnmədikdə müxtəlif alternativ vasitələrdən, metodlardan, o cümlədən zorakılıqdan, gücdən istifadə olunur. Lakin bunu etməzdən öncə başqa dövlətlərin, beynəlxalq təşkilatların vasitəçiliyinə, beynəlxalq məhkəməyə müraciət olunur. Danışıqlar vasitəsilə mübahisəli məsələlər həll edilə

bilmədiyi hallarda belə beynəlxalq hüquq öz əhəmiyyətini itirmir və atılacaq növbəti addımları müəyyən edir.

Beynəlxalq hüquq diplomatik danışıqların səmərəliliyinin təmin olunmasının əhəmiyyətli bir aləti olmaqla yanaşı eyni zamanda onun *nəticəsi* kimi çıxış edir. Müəyyən mənada bu onunla izah olunur ki, beynəlxalq hüquq şərti xarakter daşıyır. Diplomatiya danışıqlar vasitəsilə dövlətlərarası mübahisəli məsələləri həll edərək beynəlxalq çoxtərəfli sazişlər formasında beynəlxalq hüququn inkişafına təkan verən beynəlxalq müqavilələrin imzalanmasına səbəb olur.

Tarixən beynəlxalq hüquq diplomatiyanın məqsədi olmamışdır, çünki diplomatiyanın məqsədi milli maraqdır, daha konkret desək, onun müdafiə olunmasıdır. Bununla belə, qeyd etmək lazımdır ki, son zamanlar qlobal problemlərin artması ilə əlaqədar iqtisadi cəhətdən geridə qalmış ölkələrdə aclıqdan ölən insanların taleyi, dünyada sülhün möhkəmlənməsi, ətraf mühitin qorunması, qlobal istiləşmənin qarşısının alınması və digər bu kimi problemlər insanları çox narahat edir. Nəticədə milli maraq konsepsiyası genişlənir, beynəlxalq hüququn normalarının və prinsiplərinin inkişafı diplomatiyanın mühüm bir məqsədinə çevrilir. Bu isə müasir dövrdə diplomatiya ilə beynəlxalq hüququn yaxınlaşmasından xəbər verir.

Müasir dövrdə diplomatiya belə bir situasiyanı nəzərə almalıdır ki, milli marağın iki mühüm tərkib hissəsinin (iqtisadi inkişaf və milli təhlükəsizlik) müvəffəqiyyətlə həyata keçirilməsində beynəlxalq hüququn möhkəmlənməsinin böyük əhəmiyyəti vardır. Lakin əgər diplomatiya beynəlxalq hüququn mükəmməl sistemini yaratmağa nail olsa, onda onun özü köhnələrək əhəmiyyətini itirəcəkdir, çünki diplomatiyanın danışıqlar aparmaq mədəniyyəti kimi funksiyalarından biri müharibənin qarşısını almaqdır. Beynəlxalq hüququn təkmilləşməsi isə müharibə təhlükəsini aradan götürür. Beləliklə, müasir dövrdə diplomatiya ilə beynəlxalq hüququn yaxınlaşması müşahidə olunur.

### 15.6. Köhnə və yeni diplomatiya

Ədəbiyyatda *köhnə* və *yeni diplomatiya* terminlərinə rast gəlinir. Köhnə diplomatiyaya bəzən *diplomatiyanın fransız metodu* da deyilir. Bu metod *kardinal Rişelyenin* adı ilə bağlıdır. XVII əsrdən XX əsrin əvvəllərinədək bütün Avropa dövlətləri diplomatiyanın fransız metodunu qəbul etmişdir. Diplomatiyanın fransız metodunun, yəni köhnə diplomatiyanın *beş əlaməti* vardır.

Köhnə diplomatiyanın *birinci əlamətinə* əsasən, Avropa dünyanın ən mühüm qitəsidir. Asiya, Afrika, Latın Amerikası isə Avropa dövlətlərinin kommersiya, imperialist ekspansiyasının zonaları kimi qələmə verilir. Diplomatiya yalnız Avropa dövlətləri arasında tətbiq edilir. Digər qitələrlə münasibətdə diplomatiyanın yerinə

güc tətbiq edilir. Başqa sözlə desək, köhnə diplomatiyanın birinci əlamətinə əsasən, yalnız Avropa dövlətləri öz aralarında yaranan problemləri danışıqlar vasitəsilə həll edə bilərlər. Köhnə diplomatiya özünün bu əlamətinə görə məhdudlaşdırılmış idi və yalnız bir neçə ölkə onu tətbiq edirdi (ABŞ 1897-ci ilədək təcrid olunmuş vəziyyətdə idi);

Köhnə diplomatiyanın *ikinci əlaməti* onun birinci əlamətinin məntiqi davamı kimi çıxış edir. Onun ikinci əlamətinə əsasən, beynəlxalq münasibətlər sistemində kiçik dövlətlər heç bir əhəmiyyət kəsb etmir. Kiçik dövlətlər yalnız böyük dövlətlərə müharibə vaxtı və ya müharibə ərəfəsində hərbi resurslarını, döyüş aparmaq üçün ərazilərini, təbii sərvətlərini təklif etdikdə, onların əhəmiyyəti artır. Kiçik dövlətlərin hərbi cəhətdən zəif olmaları onları diplomatik cəhətdən də zəif edir. Buna görə də onlar dünya siyasətində müstəqil siyasət aparmağa qadir deyil. Böyük dövlətlər, adətən, onların maraqlarını nəzərə almır;

Köhnə diplomatiyanın *üçüncü əlamətinə* əsasən, beynəlxalq münasibətlər sistemində böyük dövlətlər kiçik dövlətlərin davranışlarına və ümumilikdə sülhün qorunmasına görə məsuliyyət daşıyır. Balkan müharibələri zamanı (1912-1913-cü illər) Avropanın bəzi böyük dövlətləri kiçik dövlətlər arasında gedən müharibəyə müdaxilə etmişdir. Bu müdaxilə 1913-cü ildə Londonda çağırılmış böyük dövlətlərin səfirlərinin konfransı formasında keçirilmişdir. Bu konfrans köhnə diplomatiyanın tətbiq edilməsinin son və ən uğurlu bir təcrübəsi idi. Konfransın əhəmiyyəti ondan ibarət idi ki, o, beynəlxalq münasibətlər sahəsində kiçik bir böhranın böyük bir böhrana keçməsinin qarşısını aldı.

Köhnə diplomatiyanın *dördüncü əlaməti* hər bir Avropa ölkəsində peşəkar diplomatik xidmətin təsis edilməsindən ibarət idi. Diplomatik xidmətdə çalışanların demək olar ki, hamısı eyni biliyə və təcrübəyə malik idi. Onlar səylərini müharibənin qarşısının alınmasına yönəltmişdilər. Diplomatlar təmsil etdikləri dövlətlərdən bir qədər müstəqil şəkildə fəaliyyət göstərərək müharibənin qarşısını almaq üçün birlikdə əllərindən gələni edirdilər. Məsələn, 1913-cü ildə Fransanın, Rusiyanın, Almaniyanın, İtaliyanın və Avstriyanın səfirləri tərəfindən Balkan böhranının qarşısının alınması onunla izah olunurdu ki, təmsil etdikləri dövlətlərin aralarında konkret mübahisəli məsələlərin olmasına baxmayaraq səfirlər bir-birinə inanırdılar və onların hər biri müharibənin əleyhinə çıxış edirdi;

Köhnə diplomatiyanın *beşinci əlamətinə* əsasən, danışıqlar gizli aparılmalıdır. Diplomatiyanın gizli xarakteri xalqın danışıqların məzmunundan xəbərdar olmamasını və onun danışıqlara hər hansı bir formada təsir etməsinin qarşısının alınmasını nəzərdə tutur. Diplomatiyanın gizli xarakteri belə bir arqumentə əsaslanır: danışıqlar zamanı qarşı tərəflər bir-birinə müəyyən güzəştlər edirlər. Lakin, adətən, xalq qarşılıqlı güzəştləri birtərəfli güzəştlər kimi, yəni qarşı tərəfə münasibətdə edilən güzəştlər kimi qəbul edir. Nəticədə dövlətin daxilində narazılıq artır və danışıqlar

pozulur. Gizli diplomatiyanın əsas üstünlüyü onda idi ki, danışıqlar ardıcıl bir proses formasında həyata keçirilir. Köhnə diplomatiyanın gizli xarakteri tərəflərə fikirləşmək üçün kifayət qədər vaxt verir. Danışıqlar zamanı tərəflər razılığa gələ bilmədikdə onlar müəyyən vaxtdan sonra danışıqları davam etdirə bilər, çünki danışıqların məzmunu əhaliyə bəlli olmur və əhali diplomatlara bu və ya digər qərarın qəbul edilməsində təzyiq edə bilmir.

*Yeni diplomatiyanın* formalaşması Birinci Dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. Onun formalaşmasında ABŞ-ın Prezidenti Vudro Vilsonun hazırladığı *"14 maddə"* adlı proqram sənədi mühüm rol oynamışdır. Belə ki, 3.1. yarımfəsildə qeyd etdiyimiz kimi, bu sənəddə Vilson dünya dövlətlərini müharibələrə sürükləyən köhnə diplomatiyadan əl çəkib sülh danışıqlarının gizli qapılar arxasında deyil, açıq şəkildə aparılmasını tələb edir. O, köhnə diplomatiyanın əsas əlamətlərindən biri sayılan məxfiliyi tənqid edir. Diplomatik danışıqların açıq şəkildə aparılması xalqın beynəlxalq münasibətlər sistemində fəal iştirakına səbəb olur. Bu isə öz növbəsində sülh danışıqlarının səmərəliliyini artırır. Bundan başqa qeyd olunan sənəddə xalqların ümumi birliyinin yaradılmasının zəruriliyi göstərilir. Sənədin 14-cü maddəsinə əsasən, bu birliyin yaradılması bütün dövlətlərin siyasi müstəqilliyinin və ərazi bütövlüyünün qorunmasına təminat verəcəkdir. Köhnə diplomatiyada kiçik dövlətlərin beynəlxalq münasibətlər sistemində roluna əhəmiyyət verilmədiyi halda yeni diplomatiyanın əlamətlərini özündə birləşdirən Vilsonun hazırladığı *"14 maddə"* kiçik dövlətlərin də eyni hüquqa malik olduqlarını vurğulayır.

Yeni diplomatiyanın formalaşmasına təsir edən faktorlardan beynəlxalq təşkilatların yaradılmasını da qeyd etmək olar. Beynəlxalq təşkilatlar çərçivəsində dövlətlərin birgə fəaliyyəti onların arasında köhnə diplomatiyaya xas olan böyük və kiçik dövlətlər arasındakı subordinasiya məsələsini əhəmiyyətli dərəcədə aradan götürürdü.

Yeni diplomatiyanın formalaşmasına səbəb olan əsas sosial faktorlardan biri yeni nəqliyyat vasitələrinin yaranması olmuşdur. Köhnə diplomatiya dövründə müəyyən bir məlumatın lazımi ünvana çatdırılmasına bir neçə ay tələb olunurdu. Səfirlər təmsil etdikləri dövlətlərlə gediş-gəliş əlaqələrinin zəif olduğuna görə fəaliyyət göstərdikləri dövlətlərdə müəyyən məsələyə dair özləri qərar verirdilər. Hökumətdən bu və ya digər məsələ ilə bağlı göstərişin gəlib çatdığı vaxt artıq bu göstəriş köhnəlirdi və onun əhəmiyyəti azalırdı. Səfirlərlərin bəziləri bu vəziyyətdən məmnun idilər. Məmnun olanlar diplomatik vəzifələrini icra edərkən özlərini bir tərəfdən məsul, digər tərəfdən isə müstəqil hiss edirdilər. Lakin bəzi diplomatlar müstəqil formada fəaliyyət göstərməkdən çəkinirdilər. Onlar öz hökumətlərindən bu və ya digər münaqişəli məsələyə dair göstəriş almadan qərar qəbul etmirdilər. Bu diplomatlar öz vaxtlarını, əsasən ölkələrinə məruzələrin yazılmasına sərf edirdilər.

Lakin onların məruzələrinin praktiki əhəmiyyəti əksər hallarda çox az olurdu, çünki bu məruzələrin diplomatların ölkələrinə çatdığı vaxt bir çox hallarda vəziyyət dəyişmiş olurdu.

Kütləvi informasiya vasitələrinin inkişafı və bununla əlaqədar diplomatik xidmətdə istifadə edilən kommunikasiya vasitələrinin təkmilləşdirilməsi diplomatiyanın təcrübəsinə inqilabi təsir göstərmişdir. Məsələn, əgər 200 il öncə 2000 kilometrlik məsafəni qət etmək üçün diplomata 2-3 ay tələb olurdusa, indi bunun üçün cəmi bir neçə saat tələb olunur. Bu dəyişikliklərin nəticəsində diplomatların məruzələri təmsil etdikləri ölkələrə tez çatdırılır. Onlar ölkələrindən göstərişləri tez əldə edirlər. Ümumiyyətlə, diplomatlar dünyada baş verən hadisələrdən tez xəbərdar olurlar. Bununla belə, qeyd etmək lazımdır ki, müasir texnologiyanın inkişafı və bunun nəticəsində kütləvi informasiya vasitələrinin təkmilləşdirilməsi diplomatın roluna dair ortaya bəzi suallar qoyur. Kommunikasiya vasitələrinin təkmilləşdirilməsi diplomatların hadisələrə və qərarlara təsir etmək imkanını azaltmışdır. Artıq onlar yeni kommunikasiya vasitələrinin köməyi ilə öz hökumətləri ilə daimi əlaqə yarada bilirlər. Nəticədə köhnə diplomatiya dövründə olduğu kimi diplomatlar müstəqil şəkildə, özləri bildikləri kimi qərar vermək iqtidarında deyillər. Onlar qərarları hökumətlərindən aldıqları göstərişlərin əsasında verirlər.

Beləliklə, kommunikasiya vasitələrinin təkmilləşdirilməsi köhnə diplomatiyadan yeni diplomatiyaya keçidə səbəb olmuşdur. Bu keçid öz əksini köhnə diplomatiyanın bir neçə əlamətinin yox olmasında tapmışdır. Məsələn, artıq demək olmaz ki, diplomatiya yalnız Avropa dövlətləri arasında tətbiq edilir və yaxud diplomatik fəaliyyətlə yalnız peşəkər diplomatlar məşğul olurlar. Müasir diplomatiya bütün dünyada tətbiq edilir və diplomatik fəaliyyətlə peşəkar diplomatlarla yanaşı digər qrup insanlar da məşğul olurlar (vətəndaş diplomatiyası). Lakin bu o demək deyil ki, kommunikasiya vasitələrinin təkmilləşdirilməsi nəticəsində diplomatiyanın xarakterində baş vermiş dəyişikliklər peşəkar diplomatların hadisələrin gedişatına təsirini azaltmışdır. Diplomat işlədiyi xarici ölkə haqqında məlumatın əsas mənbəyi və oradakı siyasi hadisələrin icmalçısı olaraq qalır. Məhz xarici ölkədə yaşayan və işləyən səfirin bu ölkənin siyasi vəziyyəti haqqında tam təsəvvürü ola bilər. Buna görə də səfirin göndərdikləri hesabatlara onun təmsil etdiyi dövlət lazımi fikir verməli və hesabatlardakı tövsiyələri öz xarici siyasətində nəzərə almalıdır.

### *Fəslə aid suallar*

1. Xarici siyasət nədir?

2. Corc Modelskiyə görə, xarici siyasət nədir?
3. Xarici siyasət qərarı hansı proseslərdən ibarətdir?
4. Xarici siyasətin inkişafına hansı faktorlar təsir göstərir?
5. Hansı məfhumun həcmi daha genişdir - xarici siyasət yoxsa beynəlxalq münasibətlər məfhumunun? Niyə?
6. Xarici siyasətin məqsədlərinin formalaşmasına hansı faktorlar təsir göstərir?
7. Dövlətin xarici siyasət fəaliyyətində onun ideologiyası ilə milli maraqları arasında ziddiyyət yarandıqda üstünlük nəyə verilməlidir? Niyə?
8. Xarici siyasətin məqsədlərini hansı əsaslara görə bölmək olar?
9. Xarici siyasətin məqsəd və prinsipləri arasında fərq nədir?
10. Daxili siyasətin xarici siyasətə münasibətdə müəyyənedici rolu nədən ibarətdir?
11. Xarici siyasətin daxili siyasətə əks təsiri nədir?
12. Daxili siyasət və xarici siyasət arasında münasibət nədən ibarətdir?
13. Niyə daxili və xarici siyasət arasındakı münasibət qarşılıqlı xarakter daşıyır?
14. Diplomatiya nədir?
15. Hans Morqentau görə, diplomatiya nədir?
16. Açıq və gizli diplomatiya nədir?
17. Niyə diplomatiya xarici siyasətin həyata keçirilməsinin vasitələrindən biri hesab olunur?
18. Diplomatiyanın təsnifatları hansı əsaslara görə aparılır?
19. Birtərəfli diplomatiya nədir?
20. İkitərəfli diplomatiya nədir?
21. Çoxtərəfli diplomatiya nədir?
22. Birtərəfli diplomatiyanın izolyasionizm siyasətindən fərqi nədir?
23. İkitərəfli və çoxtərəfli diplomatiya arasında fərq nədən ibarətdir?
24. Sakitləşdirmə diplomatiyası nədir?
25. Silahlı qayıq diplomatiyası nədir?
26. Miqrasiya diplomatiyası nədir?
27. Preventiv diplomatiya nədir?
28. İqtisadi diplomatiya nədir?
29. Elm diplomatiyası nədir?
30. Borc tələsi diplomatiyası nədir?
31. Məkik diplomatiyası nədir?
32. Vətəndaş diplomatiyası nədir?
33. Cozef Montvilleyə görə, vətəndaş diplomatiyası nədir və ona necə nail olmaq mümkündür?
34. Yumşaq güc diplomatiyası nədir?
35. Niyə yumşaq güc diplomatiyası "ürəklər və ağıl diplomatiyası" adlandırılır?
36. Diplomatiya ilə beynəlxalq hüquq arasında münasibət nədən ibarətdir?

37. Beynəlxalq hüquq diplomatik danışıqların vasitəsidir yoxsa nəticəsi?
38. Niyə köhnə diplomatiyaya diplomatiyanın fransız metodu deyilir?
39. Köhnə diplomatiyanın əlamətləri nədir?
40. Yeni diplomatiyanın formalaşmasında Vudro Vilsonun hazırladığı "14 maddə" adlı proqram sənədi əhəmiyyəti nədən ibarətdir?
41. Niyə Vudro Vilson köhnə diplomatiyanın əsas əlamətlərindən biri sayılan məxfiliyi tənqid edir?
42. Yeni diplomatiyanın formalaşmasında beynəlxalq təşkilatların yaradılmasın rolu nədən ibarətdir?

## Ədəbiyyat


*Davidson, W. D., and J. V. Montville,* "Foreign Policy According to Freud, " Foreign Policy, Vol. 45, Winter 1981—1982.

*Brzezinski Z.* War and Foreign Policy, American-Style, //Journal of Democracy, 11, 1, 2000.

*Fearon J.* Domestic Politics, Foreign Policy, and Theories of International Relations. *//AnnualReview of Political Science*. Vol. 1: 28, 1998.

*Kumar M.* Theoretical Aspects of International Politics. New Delhi, 1978.

*Merle M.* The Sociology of International Relations. Berg. N.Y., 1987.

*Modelski G.*. A *Theory of Foreign Policy.* Princeton University, 1962

*Morgenthau H.* The Future of Diplomacy. // International Politics (eds. R. Jervis and R. Art). Columbia University Press, 1996.

*Nəcəfov E.Ə.* Azərbaycan Respublikasının multikulturalizm siyasətinin onun xarici siyasətinə təsiri. Strateji təhlil. Azərbaycan Respublikasının daxili və xarici siyasətinə, beynəlxalq münasibətlərə dair analitik jurnal. Say 1-2 (15-16), 2016, ss.35-43

*Nye J.* Soft Power: The Means To Success In World Politics. New York: Public Affairs, 2004

*Зонова Т.В.* Экономическая дипломатия. Высшая школа экономики. 2013 http://ecsocman.hse.ru/data/701/948/1219/54-63.pdf

*Цыганков П.А.* Теория международных отношений: Учебное пособие. М., 2006.

*Цыганков А.П.* Ганс Моргентау: взгляд на внешнюю политику // Власть и демократия: Сборник статей. М., 1992.

*Цыганков А.П., Цыганков П.А.* Социология международных отношений. Учебное пособие. М., 2006.

# XVI FƏSİL
# MÜNAQİŞƏ VƏ MÜHARİBƏ

## 16.1. Münaqişə bir sosial hadisə kimi

Münaqişə - sözün geniş mənasında bu və ya digər sahədə maraqların toqquşması ilə xarakterizə olunan insan fəaliyyətinin mümkün nəticələrindən biridir. O, iki və ya daha çox şəxsin və ya qrupun bir-birinə zidd olan məqsədlərə malik olduğu halda yaranır. Münaqişə fikirlərimizi, mənəvi-mədəni dəyərlərimizi, münasibətlərimizi xarakterizə edən müxtəlifliyin nəticəsidir. Fərdlərin, qrupların, dövlətlərin müəyyən məsələyə dair maraqlarının, dəyərlərinin müxtəlifliyi münaqişənin yaranması üçün zəmin yaradır.

*Tanınmış amerikalı konfliktoloq Dadli Uiks (Dudley Weeks)* qeyd etdiyi kimi, münaqişə təkamül kimi varlığımızın tərkib hissəsidir. Münaqişə özünü bu və ya digər formada cəmiyyətin müxtəlif sahələrində - məişətdən, ailədən tutmuş dövlətə, beynəlxalq münasibətlərədək - büruzə verir.

Özünün başlanğıc mərhələsində münaqişə *gizli və ya örtülü* olur. Burada qarşı tərəflər maraqlarının müxtəlif, hətta bir- birinə zidd olduğunu anlayırlar. Tərəflər maraqlarına müxtəlif üsullarla, yollarla nail olmaq istəyəndə, münaqişə özünü açıq şəkildə göstərir, yəni o, gizli formadan *açıq* formaya keçir. Gizli münaqişə zamanı tərəflər bir-birinə qarşı istifadə edilən vasitə kimi təhdidlərə, təzyiqlərə, vədlərə əl atırlar. Açıq münaqişə zamanı isə vasitə kimi müharibədən istifadə olunur. Daha bir *tanınmış amerikalı konfliktoloq Kennet Bouldinq (Kenneth Boulding)* gizli-açıq münaqişə münasibətlərini diplomatiya- müharibə münasibətləri kimi xarakterizə edir.

*Funksional baxımdan* münaqişələr *destruktiv* və *konstruktiv* olur. *Destruktiv münaqişə* xarakterinə görə dağıdıcı hadisədir. Buna görə də onun qarşısının alınması vacibdir. Yarandıqda isə o, dərhal həll edilməlidir. *Konstruktiv münaqişə* isə xarakterinə görə müsbət bir hadisədir. Bu, ilk növbədə onunla bağlıdır ki, ümumiyyətlə hər bir münaqişənin, xüsusilə konstruktiv münaqişənin yaranması sosial dinamikanın nəticəsidir. Onun yaranması yeni inkanların açılmasından xəbər verir. Konstruktiv münaqişə destruktiv münaqişədən fərqli olaraq bu imkanları yeniliyə, quruculuğa tərəf istiqamətləndirir.

## 16.2. Beynəlxalq münaqişələr və onların tənzimlənməsi

Münaqişələr fərdlər, qruplar və dövlətlər arasında baş verdiyinə görə onları *fərdlərarası, qruplararası* və *dövlətlərarası* növlərə bölürlər. Qrupların və dövlətlərin daxilində baş verən münaqişələr *daxili münaqişələr* kateqoriyasına,

qruplararası və dövlətlərarası münaqişələr isə *xarici münaqişələr* kateqoriyasına aiddir. Xarici münaqişələrin əsas növü kimi *beynəlxalq münaqişələr* çıxış edir.

Beynəlxalq münaqişələr dövlətlər arasında, eləcə də dövlətlər və beynəlxalq münasibətlərin digər aktorları arasında müəyyən məsələlərə dair maraqların toqquşması nəticəsində yaranır. Belə məsələlərə ərazi iddiaları, milli və dini azlıqların müdafiə olunması, iqtisadi, ticarət, mədəniyyət, ətraf mühitin qorunması, miqrasiya və digər məsələlər daxildir. Qeyd olunan məsələlərlə bağlı ziddiyyətlər dövlətlər arasında diplomatik münasibətlərin gərginləşməsinə gətirir. Gərginliyin aradan götürülməməsi dövlətlər arasında müharibənin başlanması ehtimalını artırır. Müharibənin başlanması beynəlxalq münaqişələrin kulminasiya nöqtəsinə çatmasından xəbər verir.

Beynəlxalq münaqişədə birbaşa iştirak edən aktorlar "münaqişə tərəfləri", bu münaqişənin həll edilməsində iştirak edən aktorlar isə "üçüncü tərəflər" adlanırlar.

BMN-nin aktual problemlərindən biri beynəlxalq münaqişələrin qarşısının alınması və onların həlli problemidir. BMN beynəlxalq aləmin müxtəlif sahələrində fəaliyyət göstərən aktorların maraqları arasında yaranan ziddiyyətlərin tədqiq edilməsinə xüsusi fikir verir. Belə ki, beynəlxalq münaqişələrin yaranmasının səbəblərini bu ziddiyyətlərdə axtarmaq lazımdır.

Müasir dövrlə müqayisədə "soyuq müharibə" dövründə dövlətlərarası münaqişələr nadir hallarda baş verirdi. Bu, ilk növbədə dünyada ikiqütblü sistemin mövcudluğu ilə izah olunurdu. Bu ikiqütblü sistemin başında duran ABŞ və SSRİ aralarındakı müxtəlif sahələri əhatə edən ziddiyyətlərə baxmayaraq hərbi sahədəki balansın saxlanılmasında maraqlı idilər. Bununla belə ABŞ və SSRİ bir-birinə açıq hərbi təcavüz etməsə də, təsirləri altında olan ölkələrə bütün sahələrdə, o cümlədən hərbi sahədə kömək göstərirdilər, hətta bəzən onları müharibəyə təhrik edirdilər. Heç təsadüfi deyil ki, o dövrdə baş verən ölkələrarası müharibələrin bir çoxunun səbəbi dolayısı ilə ABŞ və SSRİ arasındakı qarşıdurma ilə bağlı idi. Bu müharibələrdə ABŞ və SSRİ arasında olan qarşıdurmanın izi özünü büruzə verirdi. Misal üçün 1950-ci illərdə baş verən Koreya müharibəsini və 1960-cı və 1970-ci illərdə Yaxın Şərqdə gedən müharibələri göstərmək olar.

ABŞ-ın və SSRİ-nin təsirləri altında olan ölkələrdə baş verən daxili münaqişələr də onların nəzarəti altında idi. ABŞ-ın və ya SSRİ-nin təsiri altında olan dövlətdə münaqişə baş verdikdə, başqa bir dövlət bu məsələyə müdaxilə etmirdi. Bu münaqişələrin tənzimlənməsi ilə ABŞ və ya SSRİ (hərəsi öz nəzarəti altında olan ölkələrdə) məşğul olurdu. Misal üçün ABŞ-ın 1954-cü ildə Qvatemalada, 1965-ci ildə Dominikan Respublikasında, SSRİ-nin isə 1956-cı ildə Macarıstanda, 1968-ci ildə Çexoslovakiyada və 1981-ci ildə Polşada baş vermiş ölkədaxili münaqişələrin tənzimlənməsində iştirak etdiklərini göstərmək olar.

SSRİ-nin dağılması ilə "soyuq müharibə" dövrü başa çatdı. İkiqütblü sistemin yerini birqütblü sistem tutdu. Beynəlxalq münasibətlər sistemində ikiqütblü sistemin yaratdığı qüvvələrin balansına son qoyuldu. Bu əsaslı dəyişikliklər beynəlxalq münaqişələrdə bir sıra dəyişikliklərə səbəb olmuşdur. Müasir dövrdə *beynəlxalq münaqişələrdəki dəyişikliklər* dedikdə aşağıdakılar nəzərdə tutulur:

1. *Beynəlxalq münaqişələrin sayının artması.* Yuxarıda qeyd etdiyimiz kimi, dünyada ikiqütblü sistemin mövcudluğu dövründə bu sistemin bir birinə qarşı duran qütblərinə başçılıq edən ABŞ və SSRİ aralarındakı hərbi sahədəki balansın saxlanılmasında maraqlı idilər. SSRİ-nin beynəlxalq arenadan getməsi nəticəsində ABŞ-ın başçılıq etdiyi birqütblü dünya sistemi formalaşdı. Belə bir şəraitində ABŞ demokratiya və insan haqlarının müdafiəsi, təhlükəsizliyin təmin olunması və digər bəhanələr adı altında bir sıra ölkələrə hərbi təcavüz etmək üçün əlverişli imkan əldə etdi. ABŞ 1994-cü ildə Haitiyə, 1999-cu ildə keçmiş Yuqoslaviyaya, 2001-ci ildə Əfqanıstana, 2003-cü ildə İraqa hərbi müdaxilə həyata keçirdi. Bəzi hərbi əməliyyatlara ABŞ NATO üzrə müttəfiqlərini də cəlb etmişdir;

2. *Beynəlxalq münaqişələrin səbəblərinin dəyişməsi.* "Soyuq müharibə" dövründə beynəlxalq münaqişələr əsasən siyasi-ideoloji zəmində yaranırdısa, müasir dövrdə onlar əsasən mədəniyyət, daha dəqiq desək, dini və ya etnik zəmində yaranır. Bundan başqa, müasir dövrdə dövlətlər arasında bazarlar və təbii sərvətlər uğrunda mübarizə getdikcə kəskinləşir;

3. *Beynəlxalq münaqişələrin iştirakçılarının dəyişməsi*. Müasir dövrdə beynəlxalq münaqişələrdə qarşıduran tərəflərdən biri dövlət, digəri isə qeyri-qanuni fəaliyyətlə məşğul olan transmilli təşkilat, beynəlxalq terror təşkilatı və ya beynəlxalq miqyasda fəaliyyət göstərən radikal dini və ya etnik hərəkatlar olur (Məsələn, beynəlxalq terror təşkilatı olan İraq Şam İslam dövləti (İŞİD).

Ümumilikdə götürüldükdə, beynəlxalq münaqişə mənfi bir hadisədir. O, destruktiv xarakter daşıyır. Lakin bunu bütün beynəlxalq münaqişələrə şamil etmək olmaz. Məsələn, beynəlxalq münaqişələr kateqoriyasına aid olan milli azadlıq hərəkatı, inkişafda olan ölkələrin transmilli şirkətlərə qarşı mübarizəsi konstruktiv xarakter daşıyır. Belə ki, istismara qarşı yönələn və sosial ədalətin bərqərar olmasını qarşısına qoyan bu hadisələr cəmiyyətin inkişafına səbəb olurlar.

Beynəlxalq münaqişələrin tənzimlənməsinə gəldikdə qeyd etmək lazımdır ki, ölkədaxili münaqişələrdən fərqli olaraq beynəlxalq münaqişələrin qanun vasitəsilə tənzimlənməsi obyektiv səbəblərə görə çətindir, çünki bu münaqişələrin xüsusiyyətləri bir çox hallarda beynəlxalq hüquqda əks olunmur. Buna görə də beynəlxalq münasibətlər sahəsində münaqişələrin tənzimlənməsi siyasi diplomatik yollarla həyata keçirilir. Bundan başqa müasir dövrdə beynəlxalq münaqişələrin məzmununun, səbəblərinin, iştirakçılarının dəyişməsi ilə yanaşı onun tənzimlənmə mexanizmləri də dəyişir. Daha konkret desək, bu mexanizmlərin strukturu bir qədər

mürəkkəbləşmişdir. Məsələn, müasir dövrdə milli dövlətin rolunun azalması ilə əlaqədar beynəlxalq münaqişələrin tənzimlənməsində, bir tərəfdən, diplomatik vasitələrin səmərəliliyinin azalması müşahidə olunur, digər tərəfdən isə baş verən münaqişələrin səbəblərinin və onların həll edilməsi metodlarının sırasında iqtisadi mexanizmlərin və maliyyə vasitələrinin rolu artır.

Müasir dövrdə beynəlxalq münaqişələrin tənzimlənmə mexanizmləri sistemində *informasiya, hüquqi* və *hərbi elementlər* mühüm rol oynayır.

Bu sistemdə *informasiya elementinin* rolunu xüsusi qeyd etmək lazımdır. Belə ki, beynəlxalq münaqişələrin tənzimlənməsində kütləvi informasiya vasitələrinin (KİV), o cümlədən sosial şəbəkələrin rolu getdikcə artır. Onlar ictimai rəyin formalaşmasında mühüm rol oynayaraq ictimaiyyəti münaqişəyə qarşı qaldırır. Lakin KİV münaqişələrin tənzimlənməsi ilə bərabər onların başlanmasına, yaxud gərginləşməsinə də səbəb ola bilər.

Beynəlxalq münaqişələrin tənzimlənmə mexanizmləri sistemində *hüquqi elementin* əhəmiyyəti ilk növbədə beynəlxalq hüquq normalarını BMT, ATƏT kimi təşkilatlar vasitəsilə tətbiq edərək dövlətləri təcavüzkar siyasətdən yayındırmağa vadar etməkdir.

Nəhayət, beynəlxalq münaqişələrin tənzimlənmə mexanizmləri sistemində *hərbi elementin* özünəməxsus yeri vardır. Onun vasitəsilə beynəlxalq münaqişələr tənzimlənir və onlara dövlətlərarası təşkilatlar tərəfindən nəzarət olunur.

Beləliklə, beynəlxalq münaqişələr problemi BMN-nin aktual problemlərindən biridir. Konstruktiv beynəlxalq münaqişələrdən fərqli olaraq destruktiv beynəlxalq münaqişələr mənfi bir hadisədir. Buna görə də onların tənzimlənməsi mühüm əhəmiyyət kəsb edən bir məsələdir.

Yuxarıda qeyd etdiyimiz kimi, beynəlxalq münaqişələrin kulminasiya nöqtəsi müharibə ilə bağlıdır.

### 16.3. Müharibənin mahiyyəti və səbəbləri

*Müharibə* dövlətlər, xalqlar, hərbi birləşmələr arasında silahlı münaqişədir. Bu münaqişə zorakılıqla, təcavüzlə, dağıntılarla və ölümlə müşahidə olunur. Lakin qeyd olunan cəhətlər bütün müharibələrə şamil olunmur. Çünki elə müharibələr var ki, onlar tərəflər arasında silahlı qarşıdurmanı istisna edir, dağıntılara və insan tələfatına səbəb olmur. Məsələn, "soyuq müharibə", informasiya müharibəsi və s. Bu o deməkdir ki, müharibə məfhumunu 2 mənada işlədilir: *geniş və dar mənalarda. Geniş mənada* bu məfhum silahlı münaqişələrlə yanaşı digər münaqişələri də ehtiva edir. *Dar mənada* isə müharibə məfhumu zorakılığa, təcavüzə, dağıntılara və insan tələfatına səbəb olan qarşı tərəflər arasında baş verən silahlı münaqişəni ifadə edir.

Müharibənin hərtərəfli təhlil olunması BMN-də mühüm əhəmiyyət kəsb edir. Müharibənin qarşısının alınmasının yollarının müəyyən edilməsi isə BMN fənninin əsas məsələsi kimi çıxış edir.

*İngilis tədqiqatçısı Deyvid Smitə (David Smith)* görə, 1998-2003-cü illər ərzində dünyada 120 müharibə baş vermişdir. Digər tədqiqatçılar bu məsələ ilə əlaqədar müxtəlif rəqəmlər göstərirlər. Bu, ilk növbədə ədəbiyyatda müharibəyə verilən təriflərin bir-birindən fərqlənməsi ilə bağlıdır. Məsələn, Kvunsi Vrayt hesab edir ki, müharibə məfhumunun həcmini bir qədər genişləndirərək onu müxtəlif icmalar arasındakı zorakılıq kimi qələmə vermək olar. *ABŞ tədqiqatçıları Deyvid Sinqer (David Singer) və Melvin Smol (Melvin Small)* müharibə məfhumunun həcmini daha da genişləndirərək onu iki və ya daha çox dövlətin silahlı qüvvələri arasında, yaxud dövlətin nizami qoşunları və hər hansı bir hərbi qruplaşma arasında baş verən və min nəfərdən çox adamın ölümünə səbəb olan silahlı toqquşma kimi təqdim edirlər.

Müharibənin nəzəri məsələləri ilə məşğul olan bir çox tədqiqatçılar metodoloji əsas kimi ilk növbədə Karl fon Klauzevitsin "Müharibə haqqında" əsərinə istinad edirlər. Dərsliyin IV fəslində qeyd olunduğu kimi, Klauzevits müharibəni siyasətin digər vasitələrlə davam etdirilməsi hesab edərək onun siyasi mahiyyətini müəyyən etmişdir. Klauzevitsin fikrincə, müharibə – dövlətin və ya digər icmanın adından icra olunan rasional bir hərəkətdir. Onun əsasında siyasi məqsədlər durur. Bu tərifdə müharibə onun əsas iştirakçısı olan dövlətlə sıx bağlıdır.

Ümumilikdə, müharibələrin *əsas səbəbi* siyasi qüvvələrin müxtəlif xarici və daxili siyasi məqsədlərə nail olmaq üçün hərbi gücdən istifadə etmələri ilə bağlıdır. Ədəbiyyatda müharibələrin səbəblərinə dair bir neçə nəzəriyyə vardır. Bu nəzəriyyələr bir-birindən müharibənin səbəbi kimi bu və ya digər faktora önəm vermələri ilə fərqlənir. Sözügedən nəzəriyyələrdən aşağıdakıları xüsusilə qeyd etmək lazımdır: *psixoanalitik, təkamül, iqtisadi, sosioloji və demoqrafik nəzəriyyələr.*

*Psixoanalitik nəzəriyyənin* əsas müddəaları *niderlandlı psixoanalitik Cust Merlo (Joost Meerloo)* tərəfindən irəli sürülmüşdür. Merlo *"Ağlın zorlanması" ("The Rape of the Mind")* adlı əsərində müharibəni insan təbiətinə xas olan təcavüzkarlığın, qəzəbin təzahürü kimi qələmə verərək qeyd edir: "Müharibə əksər hallarda bəşəriyyətin yığılmış daxili qəzəbinin kütləvi təzahürüdür. Qəzəb özünü göstərdiyi zaman bəşəriyyətin daxili qorxuları kütləvi qırğına (yəni müharibəyə. – E.N.) transformasiya olur". Bu nəzəriyyənin digər bir nümayəndəsi *britaniyalı psixoanalitik Con Baulbi (John Bowlby)* hesab edir ki, insan öz təbiətinə görə təcavüzkar və qəddardır. İnsanın incikliyi başqa irqlərə, dinlərə, xalqlara qarşı qərəz və nifrətə çevriləndə bu mənfi xüsusiyyətlər daha da güclənir, dövlət isə müharibə vasitəsilə onların insanın təbiətindən çıxarılmasına nail olur. Bu isə müharibənin

başlanmasına səbəb olur. Psixoanalitik nəzəriyyənin tərəfdarlarının fikrincə, müharibənin insanın təbiətinə xas olan təcavüzkarlıqdan irəli gəlməsi onun qarşısının alınmasını çətinləşdirir.

*Müharibənin təkamül nəzəriyyəsi* psixoanalitik nəzəriyyədən fərqli olaraq müharibənin insanın təbiətindən irəli gəldiyini iddia etmir. O, müharibənin tarixin təkamülü, inkişafı nəticəsində yarandığını qeyd edir. Təkamül nəzəriyyəsi tarix boyu baş verən proseslərin (məsələn, əhalinin sayının çoxalması və ölkələr arasında təbii resurslar üzərində rəqabətin gərginləşməsi) müharibələrin başlanmasında həlledici rol oynadığını qeyd edir. Başqa sözlə desək, təkamül nəzəriyyəsi müharibəni öz tarixi və sosial kökləri olan bir hadisə kimi qələmə verir.

*Müharibənin iqtisadi nəzəriyyələri* onun başlanmasının səbəblərini beynəlxalq sistemdə ölkələr arasında artan iqtisadi rəqabətlə əlaqələndirir. Tarixi hadisələr göstərir ki, dünyada təbii sərvətləri və bazarları ələ keçirmək məqsədlərini güdən dövlətlərin bir-biri ilə rəqabəti bir çox hallarda onlar arasında müharibələrin başlanmasına səbəb olur.

*Müharibənin sosioloji nəzəriyyələri* ona bir sosial hadisə kimi yanaşaraq onun başlanmasının səbəblərini cəmiyyətdə baş verən müxtəlif hadisələrlə izah edirlər. Bu nəzəriyyələr arasında birlik yoxdur. Belə ki, onlardan bəziləri müharibənin səbəblərinin daxili siyasətlə, başqaları isə xarici siyasətlə bağlı olduğunu qeyd edirlər. Məsələn, alman tarixçiləri *Ekart Kerin (Ekart Kehr)* və *Hans Ulrix Vehlerin (Hans-Ulrich Wehler)* əsərlərinə istinad edən tədqiqatçılar qeyd edirlər ki, müharibə cəmiyyətin daxilində baş verən proseslərin nəticəsidir. Xarici faktorlar isə yalnız hərbi təcavüzün istiqamətini müəyyən edir. Onların fikrincə, Birinci Dünya müharibəsi beynəlxalq münaqişələrin, gizli sazişlərin və ya qüvvələrin balansının pozulmasının nəticəsində baş vermişdir. Bu müharibə burada iştirak edən hər bir ölkənin daxilindəki iqtisadi, sosial və siyasi vəziyyətin nəticəsində baş vermişdir. Müharibənin səbəblərini xarici siyasətlə əlaqələndirən tədqiqatçılar isə Karl fon Klauzevitsin fikirlərinə istinad edərək müharibələrin başlanmasını dövlət xadimlərinin qərarları və geosiyasi vəziyyətlə bağlı olduğunu iddia edirlər.

*Müharibənin demoqrafik nəzəriyyələrini* 2 qrupa bölmək olar: *maltuzian və gənclərin artımı nəzəriyyələri.*

Müharibənin maltuzian nəzəriyyəsi *ingilis keşişi, iqtisadçısı Tomas Maltusun (Thomas Malthus) (1766-1834)* demoqrafik nəzəriyyəsinə əsaslanır. Maltusun nəzəriyyəsinə əsasən, dünyada əhalinin sayının sürətlə artması onun ərzaqla tələbatının ödənilməsini çətinləşdirir. Belə olan bir vəziyyətdə müharibələr, epidemik xəstəliklər və aclığın yayılması əhalinin artımının qarşısını ala bilər. Göründüyü kimi, maltuzian nəzəriyyələri müharibələrin başlanmasının səbəblərini əhalinin sayının artmasında və onun ərzaqla təmin olunmasının çətinləşməsində görür.

*Gənclərin artımı nəzəriyyəsinin* tərəfdarları müharibələrin başlanmasının səbəblərini dünyada, xüsusilə də inkişafda olan ölkələrdə gənclər arasında işsizlərin sayının artmasında görürlər. Samuil Hantinqton irəli sürdüyü “sivilizasiyaların toqquşması” tezisini, daha konkret desək, İslam sivilizasiyasının Qərbi Avropa sivilizasiyasına təhdid etməsini müsəlman ölkələrindən işsiz gənclərin Qərb ölkələrinə miqrasiya etmələri ilə bağlayır. Onun fikrincə, başqa insanları öldürməyə gedənlər, yəni müharibədə iştirak edənlər əsasən 16-30 yaş arasında olan kişilərdir. Müsəlman ölkələrində kişilərin 30-40 faizinin 16-30 yaş arasında olan gənclərin olması müharibə üçün zəmin yaradır. Çünki müsəlman ölkələrində bu qrupa daxil olan gənclərin əksəriyyəti işsizdir. İşsiz qalan gənclər düşdükləri depressiyadan mümkün çıxış yollarını zorakılıq aktlarında, o cümlədən müharibələrdə iştirak etmələrində görürlər. Gənclərin potensial aqressivliyindən müəyyən qruplar öz çirkin məqsədləri üçün istifadə edirlər.

Müasir dövrdə davam edən qloballaşma prosesi müharibələrin başlanmasının səbəblərini daha da rəngarəng etmişdir. Bu, ilk növbədə dünya siyasətində beynəlxalq münasibətlərin ənənəvi aktorları ilə yanaşı onun yeni aktorlarının meydana çıxmaları ilə bağlıdır. Məsələn, beynəlxalq aləmdə müxtəlif təyinatla fəaliyyət göstərən QHT-lər, beynəlxalq mafiya strukturları və cinayət qruplaşmaları, eləcə də böyük biznesin iqtisadi gücünün və siyasi potensialının artması, kütləvi miqrasiya proseslərinin intensivləşməsi, aparıcı KİV-lərin insanların şüuruna və davranışına təsirlərinin artması kimi proseslər müasir dövrdə beynəlxalq münasibətlərin xarakterinə əhəmiyyətli dərəcədə təsir göstərir. Belə bir şəraitdə, yuxarıda qeyd etdiyimiz kimi, “soyuq müharibə” dövrü ilə müqayisədə müasir dövrdə dövlətlərarası münaqişələr daha çox baş verir. Lakin qeyd olunan prosesə əks digər proses də özünü büruzə verir. Belə ki, müasir dövrdə müəyyən faktorların təsiri nəticəsində dövlətlərarası müharibələrin baş vermək ehtimalı azalır. *Fransız politoloqu Jan Pol Dyufor (Jean Paul Dufour)* müasir dövrdə dövlətlərarası müharibələrin baş vermək ehtimalını aşağıdakı 5 səbəbə görə azaldığını göstərir: *texnoloji, iqtisadi, strateji, hüquqi və siyasi.*

*1. Texnoloji səbəb.* Müasir dövrdə elmin son nailiyyətlərinin tətbiqi nəticəsində elə yüksək texnoloji cəhətdən mükəmməl silah növləri hazırlanır ki, dövlətlər, xüsusilə də inkişaf etmiş dövlətlər bir-biri ilə müharibə aparmaqdan çəkinirlər;

2. *İqtisadi səbəb.* Müasir silahların baha başa gəlməsinə görə iqtisadi baxımdan müharibə aparmaq sərf etmir;

3. *Strateji səbəb.* İkiqütblü beynəlxalq sistemin dağılmasından sonrakı dünyada müharibəni törədən heç bir dövlətə böyük dövlətlərin dəstəyinin təmin olunmasına zəmanət yoxdur. Bundan başqa, beynəlxalq ictimaiyyət təcavüzkar dövləti qınayır və onun cəzalandırılmasına çağırır;

4. *Hüquqi səbəb.* Hüquqi baxımdan dövlətin ərazi bütövlüyü və müstəqilliyi uğrunda aparılan müharibələr istisna olmaqla bütün başqa müharibələr qeyri-qanunidir. Qeyri-qanuni müharibələr isə beynəlxalq ictimaiyyət tərəfindən tənqid olunur;

5. *Siyasi səbəb.* Dünya kommunist sisteminin dağılmasının mühüm nəticələrindən biri dünyada demokratik dövlətlərin sayının artması oldu. Dyufurun fikrincə, demokratik dövlətlər obyektiv səbəblərə görə qeyri-demokratik dövlətlərdən, xüsusilə totalitar rejimlərdən fərqli olaraq müharibəyə meylli deyil. III fəsildə qeyd olunduğu kimi, demokratik sülh nəzəriyyəsinə əsasən, demokratik dövlətlər bir-biri ilə müharibə aparmırlar. Onlar aralarında yaranan ziddiyyətləri diplomatik, sülh yolu ilə həll etməyə çalışırlar.

### 16.4. Müharibələrin növləri

Müharibələri müxtəlif əsaslara görə müəyyən növlərə bölmək olar. Ədəbiyyatda müharibələrin ən çox aşağıdakı əsaslara görə bölgüsünə rast gəlinir:

*Mənəvi əsasa görə*

*Mənəvi əsasa görə* müharibələr *ədalətli* və *ədalətsiz* olur. Ədalətli müharibələrin qarşısında dövlətin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün təmin olunması kimi ali məqsədlər durur. Vətən müharibəsi, milli azadlıq müharibəsi ədalətli müharibənin konkret növlərindəndir. Ədalətsiz müharibələrin sırasına təcavüzkar və işğalçı müharibələr daxildir.

*İştirakçılara görə*

*İştirakçılara görə* müharibələr *ölkələrarası və ölkədaxili* olur. Ölkələrarası müharibə iki və daha çox ölkə arasında baş verir. Ölkədaxili müharibə isə ölkənin daxilində müxtəlif siyasi qruplar arasında olur. O, özünü vətəndaş müharibəsi formasında büruzə verir. Son zamanlar bu təsnifata yeni bir müharibə növü də əlavə olmuşdur: xarici müdaxilə ilə müşayiət olunan vətəndaş müharibəsi. Müharibənin bu yeni növü artıq özünü İraqda, Suriyada, Liviyada və digər ölkələrdə göstərmişdir.

*Siyasi məqsədlərə görə*

*Siyasi məqsədlərə görə* müharibələr *milli azadlıq və işğalçı müharibələrə* bölünür. Yuxarıda biz milli azadlıq və işğalçı müharibələri müvafiq şəkildə ədalətli və ədalətsiz müharibələrin konkret növləri kimi təqdim etmişdik. Qeyd olunan növlərin eyni zamanda müxtəlif təsnifatlarda olması normal haldır.

*Geosiyasi yanaşmaya görə*

*Geosiyasi* baxımdan müharibələr *lokal, regional və genişmiqyaslı (dünya)* olur. *Lokal müharibə* məhdud hərbi-siyasi məqsədlər güdən iki ölkə arasında baş verən müharibədir. Lokal müharibə iştirakçı dövlətlərin sərhədləri daxilində aparılır və ilk növbədə yalnız bu dövlətlərin maraqlarına toxunur. Məsələn, 1980-1988-ci illərdə İran və İraq arsında, 1992-1993-cü illərdə və 2020-ci ildə Ermənistan və Azərbaycan arasında baş vermiş müharibələr lokal müharibə kateqoriyasına daxildir.

*Regional müharibə* eyni bölgənin iki və daha çox dövlətinin iştirak etdiyi, milli və ya koalisiya silahlı qüvvələri tərəfindən aparılan müharibədir. Bu müharibə zamanı müxtəlif silahlardan istifadə edilə bilər. Misal üçün regional müharibələrə 1967-ci, 1973-cü, 1982-ci illərdəki Ərəb-İsrail müharibələrini daxil etmək olar.

*Genişmiqyaslı (dünya) müharibə* dövlətlərin koalisiyaları və ya dünya birliyinin ən böyük dövlətləri arasında gedən müharibədir. Burada qarşı tərəflər radikal hərbi və siyasi məqsədlər güdürlər. Belə bir müharibə silahlı münaqişənin genişlənməsinin, dünyanın müxtəlif regionlarından xeyli sayda dövlətin iştirak etdiyi lokal, regional müharibənin nəticəsi ola bilər. Genişmiqyaslı müharibədə adi silahlarla yanaşı nüvə silahı da istifadə oluna bilər. Bu müharibə qrupuna Birinci (1914–1918-ci illər) və İkinci (1939–1945-ci illər) Dünya müharibələri daxildir.

*Hərbi əməliyyatların istiqamətinə görə*

*Hərbi əməliyyatların istiqamətinə görə* müharibələr *konvensional və total* olur. *Konvensional müharibə* iki və ya daha çox dövlət arasında açıq qarşıdurmada adi silahlardan və döyüş meydanında hərbi taktikalardan istifadə etməklə aparılan müharibədir. Bu müharibədə kimyəvi, bioloji, radioloji və ya nüvə silahlarından istifadə qadağandır. Konvensional müharibə ilk növbədə düşmənin hərbi potensialının zərərsizləşdirilməsinə və/ və ya yox edilməsinə yönəlmişdir.

*Total müharibələr* isə hədəf kimi düşmən tərəfin hərbi potensialı ilə yanaşı onun əhalisini də götürür. Total müharibədə istifadə olunan silahlar, qarşıya qoyulan məqsədlər baxımından heç bir məhdudiyyət olmur. Burada iştirakçı dövlətlər tərəfindən müharibə qanunlarına məhəl qoyulmur.

*"Soyuq müharibə"*

Müharibələrin təsnifatında *"soyuq müharibə"* xüsusi yer tutur. Bu, "soyuq müharibə"nin mahiyyətindən irəli gəlir. Yuxarıda qeyd etdiyimiz kimi, "soyuq müharibə" qarşı tərəflər arasında silahlı toqquşmanı istisna edir. "Soyuq müharibə" zamanı qarşı tərəflər arasında münaqişə özünü iqtisadi, siyasi və ideoloji fəaliyyətlərdə, təbliğat və cəsusluqda, hətta müharibə aparan üçüncü dövlətlərə kömək göstərməkdə büruzə verir.

"Soyuq müharibə" termini ən çox İkinci dünya müharibəsinin sonundan 1991-ci ilədək ABŞ-ın və SSRİ-nin başçılıq etdikləri hərbi-siyasi bloklar arasındakı münasibətləri xarakterizə etmək üçün istifadə olunur. Məlum olduğu kimi, o illər ərzində ABŞ və SSRİ dünyanın müxtəlif ölkələrində baş verən siyasi proseslərə müdaxilə edirdilər. Onlar arasında birbaşa hərbi münaqişə olmasa da, onların nüfuz uğrunda rəqabəti bəzi inkişafda olan ölkələr arasında lokal müharibələrin başlanmasına təkan verirdi. Sözügedən müharibələr isə bu iki fövqəldövlət arasında dolayı müharibələr kimi özünü büruzə verirdi.

*Asimmetrik müharibə*

*Asimmetrik müharibə* iki döyüşən tərəfin resurslarının qeyri-bərabər (yəni asimmetrik) olduğu müharibəyə deyilir. Bu müharibədə hərbi potensialı zəif olan tərəf (bu, dövlətlə yanaşı terror təşkilatı, milli azadlıq hərəkatı, etnik, dini və ya digər təşkilat kimi qeyri-dövlət aktoru da ola bilər. - E.N.) güclü tərəflə mübarizəni uduzmamaq üçün bütün mümkün vasitələrdən, o cümlədən qadağan olunmuş döyüş vasitələrindən, istifadə edir. Belə ki, o, güclü tərəfə qarşı partizan döyüşlərinə, terrora, psixoloji təzyiqə əl atır, rəqib tərəfə qarşı vuruşan qüvvələri dəstəkləyir. Nəticədə paradoksal bir vəziyyət yaranır. Hərbi üstünlüyə malik olan tərəf gözləntilərinə əks olaraq zəif tərəflə apardığı müharibədə nəinki asanlıqla qələbə çalmır, hətta bu müharibəni məğlub olan tərəf kimi dayandırmağa məcbur olur. Asimmetrik müharibənin bu xüsusiyyətini nəzərə alan dövlətlər zəif rəqiblərə qarşı apardıqları müharibədə hərbi əməliyyat strategiyalarını dəyişdirməyə çalışırlar.

*İnformasiya müharibəsi*

*İnformasiya müharibəsi* rəqib dövlət üzərində informasiya üstünlüyünə nail olmaq məqsədilə aparılan əməliyyatdır. İnformasiya müharibəsi rəqib dövlətin məlumatı olmadan onun etibar etdiyi məlumatın onun maraqlarına zidd istifadə edilməsidir. İnformasiya kimin əlinə keçməsi və hansı məqsədlə istifadə olunmasından asılı olaraq təhlükəli silah kimi çıxış edə bilər. Nikkola Makiavelli "Hökmdar" əsərində informasiyanın köməyi ilə insanın şüuruna təsir etmək imkanını qeyd edirdi.

İnformasiya müharibəsi özünün inkişafının ilkin mərhələsində silahlı münaqişənin tərkib hissəsi kimi çıxış edirdi. Hazırda o, bir çox hallarda silahlı münaqişədən ayrılır və dominant mövqe tutur. İnformasiya müharibəsinin ən çox yayılmış formalarından aşağıdakıları göstərmək olar: *kəşfiyyat müharibəsi, psixoloji müharibə, haker müharibəsi və kibermüharibə.*

- *Kəşfiyyat müharibəsi* hücum və özünümüdafiə üçün qiymətli məlumatın toplanması ilə bağlıdır;
- *Psixoloji müharibə* təbliğat və əhalinin informasiya zombiləşdirilməsi ilə bağlıdır;

- *Haker müharibəsinin* əsas məqsədi bütün məlumat bankının (elektron poçt, bank kartları, şəxsi fayllar, yazışmalar və s.) sındırılması, əldə edilməsi və onların icazəsiz istifadə edilməsidir;

- *Kibermüharibə* qarşı tərəfin dövlət qurumlarının, maliyyə və biznes strukturlarının kompüter sistemlərinin və internetə çıxışlarının sıradan çıxarılmasına, obyektin izlənilməsinə, informasiya texnologiyalarına əsaslanan infrastrukturun pozulmasına yönəlmişdir.

*Proksi müharibə*



*Şəkil 9. Proksi* müharibə.
(https://thesentry.org/2022/03/03/6950/medium-op-ed-china-russia-proxy-war-strategic-minerals/)

*Proksi (dolayı, səlahiyyətli, əvəz edən, vasitəçi, müvəkkil) müharibə* hərbi əməliyyatlarda bilavasitə iştirak etməyən tərəflərin təhriki və dəstəyi ilə baş verən müharibədir. Bu müharibədə sözügedən tərəflər kimi, yəni xarici aktorlar kimi dövlətlərlə yanaşı beynəlxalq münasibətlərin digər aktorları da çıxış edə bilərlər. Müharibənin bu növünün adından göründüyü kimi burada bu və ya digər xarici aktor hərbi əməliyyatlarda bilavasitə iştirak etmir. O, öz maraqlarını əsas tutaraq özünə rəqib hesab etdiyi dövlətə və ya digər aktora qarşı döyüşən tərəflərdən birini müharibə etməyə çağırır və ona bu işdə hər cür köməklik (hərbi və maliyyə yardımı, təbliğat və informasiya dəstəyi) göstərir. Əksər hallarda əsas xarici aktor rolunda güclü dövlətlər, nüfuzlu beynəlxalq təşkilatlar çıxış edirlər. Onlar rəqib dövlətə və ya digər rəqib aktora qarşı öz təsiri altında olan aktorun əli ilə müharibə aparırlar. Bu müharibələr yalnız xarici aktorlara münasibətdə proksi müharibə hesab olunur.

Məsələn, 1979-1989-cu illərdə Əfqanıstanda baş verən müharibə ABŞ-a münasibətdə proksi müharibə idi. Belə ki, ABŞ o müharibədə bilavasitə iştirak etmirdi. Lakin o, SSRİ və Əfqanıstan Demokratik Respublikasına qarşı vuruşan yerli hərbi qüvvələrə hərtərəfli köməklik göstərirdi. Eləcə də 2022-ci il fevralın 24-də Rusiyanın Ukraynaya hərbi hücumu ilə başlayan müharibə Avropa İttifaqına, NATO-ya, ABŞ-a və bir sıra Avropa dövlətlərinə münasibətdə proksi müharibə hesab olunur. Çünki bu təşkilatlar və dövlətlər Rusiyaya qarşı müharibədə Ukraynaya hərbi-maliyyə köməyi göstərir, beynəlxalq aləmdə Ukraynanın haqlı tərəf olduğunu təbliğ edirlər.

*Hibrid müharibə*




*Şəkil 10.* Hibrid müharibə.
(https://indianforeignaffairs.com/hybrid-warfare-a-new-face-of-war-in-the-modern-world/)

*Hibrid müharibə* elə bir müharibə növüdür ki, orada bu və ya digər dövlətin düşmən dövlətə qarşı apardığı hərbi təcavüzü müəyyən təxribatlar, kibermüharibə, proksi müharibə, feyk xəbərlərin yayılması, diplomatiya, düşmən dövlətdə keçirilən seçkilərə müdaxilə edilməsi, onun ərazisində fəaliyyət göstərən üsyançılara kömək göstərilməsi kimi əməliyyatlarla birgə həyata keçirir. Hibrid müharibə zamanı ümumiyyətlə hərbi əməliyyatlar aparılmaya da bilər. Yəni bu müharibə sülh şəraitində də mümkündür. Təcavüzkar dövlət bilavasitə silahdan imtina, qeyd olunan əməliyyatlardan isə intensiv şəkildə istifadə etməklə ilk növbədə özünü günahsız tərəf kimi təqdim edir və bununla da mümkün cəzadan, ictimai qınaqdan yaxasını qurtarmaq istəyir. Məsələn, Krım yarımadasının Rusiyaya birləşdirilməsi Rusiyanın Ukraynaya qarşı apardığı hibrid müharibəsinin nəticəsi idi. Bu

müharibədə Rusiya ilə Ukrayna arasında heç bir hərbi toqquşma baş vermədi. Sadəcə olaraq Rusiya hibrid müharibədə istifadə olunan yuxarıda qeyd etdiyimiz əməliyyatlardan bir neçəsini tətbiq etməklə Krımı özünə birləşdirdi.

## *Fəslə aid suallar*

1. Münaqişə nədir?
2. Gizli və açıq münaqişə bir-birindən nə ilə fərqlənir?
3. Konstruktiv və destruktiv münaqişə nədir?
4. Daxili və xarici münaqişə nədir?
5. Beynəlxalq münaqişə nədir?
6. Müasir dövrlə müqayisədə "soyuq müharibə" dövründə dövlətlərarası münaqişələr tez-tez yoxsa nadir hallarda baş verirdi? Niyə?
7. Müasir dövrdə beynəlxalq münaqişələr sahəsində hansı dəyişikliklər baş verir?
8. Müasir dövrdə beynəlxalq münaqişələrin sayının artmasının əsas səbəbi nədir?
9. Hansı beynəlxalq münaqişələr konstruktiv xarakter daşıyır? Niyə?
10. Ölkədaxili münaqişələrlə müqayisədə beynəlxalq münaqişələrin qanunla tənzimlənməsi asandır yoxsa çətin? Niyə?
11. Müasir dövrdə beynəlxalq münaqişələrin tənzimlənmə mexanizmləri sistemində informasiyanın, beynəlxalq hüququn və hərbi gücün rolu nədən ibarətdir?
12. Müharibə nədir?
13. Müharibənin səbəbinə dair hansı nəzəriyyələr vardır?
14. Müharibənin psixoanalitik nəzəriyyəsinin əsas müddəaları nədən ibarətdir?
15. Müharibənin təkamül nəzəriyyəsinin əsas müddəaları nədən ibarətdir?
16. Müharibənin iqtisadi nəzəriyyələrinin əsas müddəaları nədən ibarətdir?
17. Müharibənin sosioloji nəzəriyyələrinin əsas müddəaları nədən ibarətdir?
18. Müharibənin maltuzian nəzəriyyəsinin əsas müddəaları nədən ibarətdir?
19. Müharibənin gənclərin artımı nəzəriyyəsinin əsas müddəaları nədən ibarətdir?
20. Fransız politoloqu Jan Pol Dyufor hansı səbəblərin təsiri nəticəsində müasir dövrdə dövlətlərarası müharibələrin baş vermək ehtimalının azaldığını qeyd edir?
21. Müharibələrin təsnifatı hansı əsaslara görə aparılır?
22. Mənəvi əsasa görə müharibələrin hansı növləri vardır?
23. İştirakçılara görə müharibələrin hansı növləri vardır?

24. Siyasi məqsədlərə görə müharibələrin hansı növləri vardır?
25. Geosiyasi yanaşmaya görə müharibələrin hansı növləri vardır?
26. Hərbi əməliyyatların istiqamətinə görə müharibələrin hansı növləri vardır?
27. "Soyuq müharibə" nədir?
28. Asimmetrik müharibə nədir?
29. İnformasiya müharibəsi nədir?
30. Kəşfiyyat müharibəsi nədir?
31. Psixoloji müharibə nədir?
32. Haker müharibəsi nədir?
33. Kibermüharibə nədir?
34. Hibrid müharibə nədir?

## Ədəbiyyat

*Brzezinski Z.* War and Foreign Policy, American-Style, //Journal of Democracy, 11, 1, 2000.

*Boulding K.* Conflict and Defence. A General Theory. N.Y., 1962.

*Burton J.* Resolution of Conflict. // International Studies Quaterly. XV. 1. March 1972.

*Давыдов Ю. П.* Демократия, демократизация и проблемы войны и мира // США — экономика, политика, идеология. 1999. № 7.

*Fearon J.* Rationalist Explanations for war, //International Organization 49, n 3 (Summer), 1995.

*Фельдман Д.М.* Конфликты в мировой политике. М., 1998.

*Groom A.J.* Paradigms in Conflict: The Strategist, the Conflict Researcher and the Peace Researche // Conflict: Readings in Management and Resolution. L. 1990.

*Hoffman F.* Conflict in the 21st Century: The Rise of Hybrid Wars. Arlington, Virginia: Potomac Institute for Policy Studies, 2007.

*Jervis R.* Theories of War in an Era of Leading-Power Peace. //American Political Science Review. Vol. 96, No. 1, March, 2002.

*Клаузевиц К.* О войне. М., 1996.

*Levy J.* The Causes of War and the Conditions of Peace. //Annual Review of Political Science. Vol. 1, 1998.

*Лебедева М.М.* Политическое урегулирование конфликтов. Подходы, решения, технологии. М., 1999.

*Лебедева М.М.* Вестфальская модель мира и особенности конфликтов на рубеже XXI века // Космополис. 1999.

*Meerloo, J.* The Rape of the Mind. Progressive Press, 2009.

*Smith D.*. The Most Dangerous Animal: Human Nature and the Origins of War. Macmillan. 2009.
So, are civilizations at war?', Interview with Samuel P. Huntington by Michael Steinberger, The Observer, Sunday October 21, 2001.
*Stein G. J.* "Information warfare". Air University (U.S.). Press. Retrieved March 26, 2022.
*Wright Q.* A Study of War. Chicago, 1965.
*Weeks D.* The Eight Essential Steps To Conflict Resolution. N.Y., 1992
*Weeks D. Conflict Resolution.* Tarcher Putnam, 1994.

# XVII FƏSİL
# BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VƏ QLOBALLAŞMA

## 17.1. Beynəlxalq əməkdaşlığın ümumi xarakteristikası

1648-ci ildə imzalanmış Vestfal sülh müqaviləsinin ən mühüm nailiyyətlərindən biri dövlətlər arasında hüquqi münasibətlərin əsasının formalaşması olmuşdur ki, bu da öz növbəsində beynəlxalq əməkdaşlığın meydana gəlməsi, institutlaşması və sonrakı inkişafı üçün əlverişli şərait yaratmışdır. Dövlətlərarası əməkdaşlığın əsasını dövlətlərin bir-birinin suverenliyinə qarşılıqlı hörmət və bir-birinin daxili işlərinə müdaxilə etməmək təşkil edir. Bu əməkdaşlığın əsas məqsədi isə dövlətlərin milli təhlükəsizliyinin və müstəqilliyinin möhkəmlənməsidir.

Ümumiyyətlə, *beynəlxalq əməkdaşlıq* iki və ya daha çox aktorların elə bir münasibətini əks edir ki, orada aktorlar bir-birinə qarşı zorakılığın tətbiq edilməsindən çəkinərək ümumi maraqlarının reallaşdırılmasının yollarını birgə səylə axtarırlar. Bəzən əməkdaşlıq münaqişənin olmaması kimi qələmə verilir. Əslində isə əməkdaşlıq münaqişədən tamamilə azad olmaq demək deyil. O, münaqişənin böhran formasını istisna edir. *Fransız politoloqu Jan Pol Deriennikin (Jean-Pierre Derriennic)* fikrincə, əməkdaşlıq elə bir situasiyadır ki, o, ya hər bir aktoru qane edir, ya da ki, onların heç birini qane etmir. Neoliberalizm nəzəriyyəsinin görkəmli nümayəndəsi Robert Koheyn isə hesab edir ki, əməkdaşlıq bir aktorun öz fəaliyyətini başqa bir aktorun maraqlarına uyğun tənzimlənməsidir.

Dövlətlər arasında əməkdaşlığın inkişafı qlobal və regional xarakterli təşkilatların yaranmasına səbəb olmuşdur. Bundan başqa, müasir dövrdə qlobal problemlərin gərginləşməsi beynəlxalq əməkdaşlığın genişlənməsinin zəruriliyini bir daha vurğulayır. Beynəlxalq əməkdaşlıq siyasi, hərbi, iqtisadi, ticarət, gömrük sahələrindəki ənənəvi məsələlərlə bərabər ekoloji, demoqrafik, enerji, müharibə təhlükəsinin qarşısının alınması kimi məsələlərin də həll edilməsinə yönəlir.

Dövlətlərarası əməkdaşlıq beynəlxalq əməkdaşlığın əsas növü hesab olunur. Dövlətlərarası əməkdaşlıq üçün *üç elementin* olması vacibdir: əməkdaşlıq edən dövlətlərin ümumi məqsədləri, onların bu əməkdaşlıqdan fayda gözləmələri və faydanın qarşılıqlı olması.

Dövlətlərarası əməkdaşlığın aşağıdakı növləri vardır:

1. *Danışıqlar.* Danışıqların əsas məqsədi dövlətlərin qarşılıqlı fəaliyyətlərindən əldə olunan faydaların bölüşdürülməsidir;

2. *Siyasətlərin uzlaşdırılması.* Siyasətlərin uzlaşdırılmasının əsas məqsədi danışıqlar vasitəsilə dövlətlərin birgə fəaliyyətlərinə dair razılığa gəlməkdir;

3. *Gizli əməkdaşlıq.* Burada formal razılıq və ya bilavasitə diplomatik əlaqələr olmadan dövlətlər əməkdaşlıq edirlər;

4. *Məcburi əməkdaşlıq.* Bu əməkdaşlıq zamanı güclü tərəf zəif tərəfi öz siyasətində müəyyən dəyişikliklərin edilməsinə məcbur edir.

## 17.2. Beynəlxalq münasibətlər nəzəriyyələri beynəlxalq əməkdaşlıq haqqında

Beynəlxalq əməkdaşlığın nəzəri problemlərinə dair bir neçə beynəlxalq münasibətlər nəzəriyyələri arasında, xüsusilə *liberalizm* və *realizm,* eləcə də *neorealizm və neoliberalizm* arasında mübahisə gedir.

*Liberalizm* beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsini müharibənin qarşısını ala biləcək bir real qüvvə kimi təqdim edir. Buna görə də liberalizm beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsini fəaliyyətlərinin əsas məqsədlərindən biri hesab edən BMT, Avropa Birliyi, Avropa Şurası, İslam əməkdaşlıq Təşkilatı və bu kimi digər təşkilatların fəaliyyətinə böyük önəm verir.

Məlum olduğu kimi, *realistlər* beynəlxalq aləmdə baş verən proseslərin ən geniş yayılmış və aparıcı istiqaməti kimi münaqişəni göstərirlər. Lakin bu o demək deyil ki, realistlər beynəlxalq əməkdaşlıq probleminə əhəmiyyət vermirlər. Realistlərin bu problemə münasibətinin əsasını aşağıdakı müddəalar təşkil edir:

1. Dövlət beynəlxalq münasibətlərin əsas aktoru olduğuna görə beynəlxalq əməkdaşlığın əsasını dövlətlərarası əməkdaşlıq təşkil edir. Dövlətlərarası əməkdaşlığın isə əsasında qarşı tərəflərin bir-birinin müstəqilliklərinə hörmət etmələri və bir-birinin daxili işlərinə müdaxilə etməmələri durur;

2. Dövlətlərarası əməkdaşlığın yaranmasında beynəlxalq mühitin anarxiyalı olması mühüm əhəmiyyət kəsb edir. Başqa sözlə desək, əməkdaşlıq münaqişə və ya onun təhlükəsi olduğu yerdə yaranır;

3. Beynəlxalq əməkdaşlığın əsas məqsədi təhlükəsizliyin təmin olunmasıdırsa, onun ən sadə və ən geniş yayılmış forması hərbi (hərbi-siyasi) ittifaqdır. Hərbi (hərbi-siyasi) ittifaqların yaradılmasında əsas rol güclü dövlətlərə məxsusdur. Məhz onlar kiçik dövlətləri bu ittifaqlara cəlb edirlər.

Beynəlxalq əməkdaşlıq problemini siyasi realizm mövqeyindən əsaslı şəkildə *isveçrə-amerikalı hüquqşünas, beynəlxalq münasibətlərin realizm nəzəriyyəsinin nümayəndəsi Arnold Volfers* tədqiq etmişdir. Beynəlxalq mühiti anarxiya kimi təsvir edən Volfers qeyd edir ki, öz ölkəsinin başqa ölkələrlə münasibətlərini müəyyən edən və öz dövlətinin adından çıxış edən siyasətçilərin fəaliyyəti milli maraqların qərəzsiz dəyərləndirilməsinə yönəlməlidir. Bunun üçün dövlət xadimləri emosiyalara uymamalıdırlar. Belə olan bir şəraitdə əməkdaşlığın əsas məqsədi qüvvələrin balansı siyasətinin uğurla həyata keçirilməsidir.

Beləliklə, beynəlxalq əməkdaşlıq probleminə liberalizm və realizm nəzəriyyələri müxtəlif metodoloji əsasdan yanaşırlar. Liberalizm beynəlxalq əməkdaşlıq məsələlərində üstünlüyü ümumbəşəri marağa, kollektiv təhlükəsizliyə, beynəlxalq münasıbətlərin hüquqi tənzimlənməsinə, realizm isə üstünlüyü milli marağa, xarici təhlükənin dəf olunmasının vacibliyinə, qüvvələrin balansının əldə olunmasına, beynəlxalq aləmdə baş verən hadisələrin rasional dərk olunmasına verir.

Beynəlxalq əməkdaşlıq məsələsinə münasibətdə liberalizm və realizm nəzəriyyələri kimi *neorealizm* və *neoliberalizm* nəzəriyyələri də müxtəlif mövqelərdən yanaşırlar. V fəsildə qeyd olunduğu kimi, dövlətlər arasında hərbi üstünlük uğrunda gedən mübarizəni beynəlxalq münasibətlərin mühüm cəhətlərindən biri kimi qələmə verən *neorealizm nəzəriyyəsi* münaqişənin, müharibənin zəruri, əməkdaşlığın isə təsadüfi xarakter daşıdığını göstərir və əməkdaşlığın reallaşmasında hegemon dövlətlərin roluna yüksək önəm verir. Neoliberalizm nəzəriyyəsi neorealizmin bu müddəalarını təkzib edir.

*Neoliberalizm nəzəriyyəsinin* beynəlxalq əməkdaşlıq haqqında əsas müddəaları *Robert Koheynin "Hegemoniyadan sonra. Dünya siyasi iqtisadiyyatında əməkdaşlıq və ixtilaf"* adlı əsərində öz əksini tapmışdır. Onun irəli sürdüyü beynəlxalq əməkdaşlıq nəzəriyyəsi təəccüblü görünsə də neorealizmin üç aşağıdakı ideyasını ehtiva edir:

*1. Beynəlxalq münasibətlər sistemində dövlətlərin davranışında anarxiya mühüm rol oynayır;*

*2. Beynəlxalq münasibətlər sisteminin əsas aktoru dövlətdir;*

*3. Dövlət ilk növbədə öz inkişafında maraqlıdır.*

Lakin neoliberalizmin beynəlxalq əməkdaşlıq nəzəriyyəsində neorealizmə xas olan müddəaların olmasına baxmayaraq burada bəzi mühüm fərqli müddəalar da vardır. Məsələn, neoliberalizm nəzəriyyəsinə əsasən, dövlətlər arasında iqtisadi və siyasi sahələrdə qarşılıqlı asılılığın olması onların beynəlxalq münasibətlər sistemində davranışlarına müəyyənedici təsir göstərir. Başqa sözlə desək, beynəlxalq əməkdaşlığın durumu anarxiya ilə bərabər dövlətlər arasında mövcud olan iqtisadi və siyasi asılılıqla da müəyyən olunur. Dövlətlər arasında iqtisadi və siyasi əlaqələr zəif olduqda, onlar bir-biri ilə əməkdaşlığa maraq göstərmirlər. Və əksinə bu əlaqələrin yüksək səviyyədə olması dövlətləri bir-biri ilə müxtəlif sahələrdə - beynəlxalq ticarətin idarə olunmasından ətraf mühitin qorunmasınadək - əməkdaşlıq etməyə yönəldir. Onu da qeyd etmək lazımdır ki, müasir dövrdə dövlətlərarası əməkdaşlıqda ehtiyac artır, çünki ətraf mühitin çirklənməsinin qarşısının alınması, dünyada sülhün qorunması, beynəlxalq terrorizmə, narkomanoyaya qarşı mübarizə, müxtəlif infeksion xəstəliklərin yayılmasının

qarşısının alınması və bu kimi digər qlobal problemlərin həlli yalnız beynəlxalq əməkdaşlıq şəraitində mümkündür.

Beləliklə, neoliberalizm beynəlxalq əməkdaşlığın inkişafı üçün mühüm şərt kimi dövlətlər arasında qarşılıqlı asılılığın olmasını qeyd edir. Neoliberalizmə əsasən, beynəlxalq əməkdaşlığın başqa bir mühüm şərti isə dövlətlər arasında beynəlxalq əməkdaşlığı təmin edə biləcək ali hakimiyyətin olmasıdır. Ali hakimiyyət dövlətləri bir-biri ilə əməkdaşlığın inkişaf etdirilməsinə dair götürdükləri öhdəliklərə əməl etmələrinə nəzarət edəcək, onlara lazımi təlimat, yardım göstərəcəkdir. Neoliberalların fikrincə, dünyada iqtisadi sahədə fəaliyyət göstərən beynəlxalq təşkilatlar beynəlxalq əməkdaşlığı təmin edə biləcək ali hakimiyyətin rolunu qismən icra edirlər.

Dövlətlərarası əməkdaşlığa dair neorealistlər ilə neoliberallar arasında gedən debat *"dövlətlər nisbi üstünlüyün əldə olunmasında maraqlıdırlar" düşünənlər* ilə *"dövlətlər mütləq üstünlüyün əldə olunmasında maraqlıdırlar" düşünənlər* arasında gedən debat kimi xarakterizə olunur. "Dövlətlər nisbi üstünlüyün əldə olunmasında maraqlıdırlar" tezisini əsas götürən neorealistlərə görə, anarxiya şəraitində dövlətlər sağ qalmaqlarını prioritet hesab etdiklərinə və hərbi gücün bunun əsas şərti olduğuna görə onlar öz hərbi gücünü başqa dövlətlərin hərbi gücü ilə daim müqayisə edərək çalışırlar ki, onların hərbi gücünün səviyyəsi başqa dövlətlərin hərbi gücünün səviyyəsindən yüksək olsun. Buna nail olmadıqda, neorealistlər əminliklə qeyd edirlər ki, dövlətlər bir-biri ilə əməkdaşlığa o qədər də can atmırlar, çünki əməkdaşlıq hər bir dövlətə müəyyən mənfəət verməklə yanaşı rəqib dövlətə münasibətdə üstünlüyü də təmin etməlidir. Deyilənləri bir misalda izah edək. Fərz edək ki, iki dövlət arasında ticarət sahəsində bağlanacaq müqavilənin bir dövlətə 20 milyon ABŞ dolları, digər dövlətə isə 25 milyon ABŞ dolları həcmində təmiz gəlir gətirəcəyi gözlənilir. Aydındır ki, hər bir dövlət bu müqavilədən müəyyən mənfəət, mütləq üstünlük əldə edəcəkdir- biri 20 milyon ABŞ dolları, digəri isə 25 milyon ABŞ dolları həcmində. Lakin neorealistlər hesab edirlər ki, bağlanacaq müqavilədən ikinci dövlət birinci dövlətdən daha çox gəlir əldə edəcəyinə görə birinci dövlət bu müqaviləni imzalamayacaqdır. Belə ki, bu müqavilə hər bir dövlətə mütləq üstünlük versə də, o, qarşı tərəfə münasibətdə dövlətin nisbi üstünlüyünü təmin etmir. Başqa sözlə desək, neorealistlərə görə, dövlətlər, xüsusilə də inkişaf etmiş dövlətlər nisbi üstünlüyün əldə olunmasında maraqlı olduqlarına görə mütləq üstünlüyün əldə olunması ilə kifayətlənmirlər. Neoliberallar isə neorealistlərin bu mövqeyi ilə razılaşmayaraq qeyd edirlər ki, bu və ya digər dövlətin başqa dövlətlə müxtəlif sahələrdə əlaqələri olduğu halda nisbi üstünlüyə nail olmaq istəyi onlar arasında əməkdaşlığın inkişaf etdirilməsinin qarşısını alır.

Beləliklə, beynəlxalq əməkdaşlıq məsələsinə liberalizm və realizm, neorealizm və neoliberalizm müxtəlif metodoloji əsaslardan, müxtəlif mövqedən yanaşsalar da

onların hər biri beynəlxalq əməkdaşlığa yüksək önəm verir. Bu nəzəriyyələrdə dünyada sülhün qorunması, ətraf mühitin çirklənməsinin qarşısının alınması, beynəlxalq terrorizmə, narkomaniyaya qarşı mübarizə, infeksion xəstəliklərin yayılmasının qarşısının alınması və bu kimi digər qlobal problemlərin həll olunmasında beynəlxalq əməkdaşlığın rolu yüksək qiymətləndirilir.

## 17.3. Qloballaşmanın mahiyyəti, səbəbləri və əlamətləri

Müasir dövrdə qloballaşma prosesinin təsiri nəticəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyəti artır.

Məlum olduğu kimi, qloballaşma müasir tarixi inkişafın əsas xəttini təşkil edir. Qloballaşma dünyanın müxtəlif regionları arasındakı siyasi, iqtisadi, sosial və mədəni əlaqələri və bu əlaqələrin dəyişməsinin yollarını əks edən hadisədir. Sözün geniş mənasında qloballaşma dünya bazarının genişlənməsi nəticəsində inkişaf edən *iqtisadi inteqrasiya* prosesidir.

Qloballaşma bir iqtisadi inteqrasiya prosesi kimi bütün ölkələrin imkanlarını nəzərə alaraq, xüsusilə inkişaf etmiş ölkələrin kapitalı və müasir texnikasını, inkişafda olan ölkələrin isə təbii sərvətlərini və ucuz əmək qüvvəsini birləşdirərək bütün dünyada iqtisadi artım və həyat səviyyəsini qaldırmağa malikdir.

Müasir qloballaşmanın meydana gəlməsinin əsas *səbəbləri* kimi aşağıdakı faktorları göstərmək olar:

1. *Texnoloji faktor.* Elmin nailiyyətləri nəticəsində yaranan yeni texnologiya istehsalın səmərəliliyinin artırılmasına güclü təsir göstərir. Yeni texnologiyanın yüksək səmərəliliyi yüksək keyfiyyətli məhsulun istehsalı ilə bərabər zəruri xərclərin azalmasına imkan yaradır. Belə texnologiyaya sahib olan inkişaf etmiş ölkələr onun vasitəsilə dünya bazarında öz təsir dairələrini artırırlar. Onlar bir qayda olaraq qloballaşmanın önündə gedirlər;
2. *Iqtisadi faktor.* Iqtisadi faktor dedikdə ilk növbədə transmilli şirkətlərin inkişafı və beynəlxalq əmək bölgüsünün genişlənməsi nəzərdə tutulur. İstehsal fondlarının böyük hissəsinə malik olan və dünya üzrə məhsul istehsalının yarısından çoxunu əlində cəmləşdirən transmilli şirkətlər yüksək texnoloji məhsulun əsas hissəsini istehsal edirlər. Transmilli şirkətlərin inkişafı istehsal əlaqələrinin, əməyin təşkilolunma metodlarının və hazır məhsulun satışının unifikasiyasına səbəb olur. Bütün ölkələrdə vahid istehsal mədəniyyəti və bu mədəniyyətə uyğun olan insanların davranış qaydaları formalaşır;
3. *İnformasiya faktoru.* Müasir dövrdə kütləvi informasiya vasitələrinin sürətli inkişafı və onların cəmiyyətin bütün sahələrində geniş tətbiq edilməsi informasiyalı cəmiyyətin yaranmasına səbəb olmuşdur. İnformasiya cəmiyyətin

sosial- iqtisadi, elmi-texniki inkişafında aparıcı rol oynayır. Mobil telefon, elektron poçt, internet insanın kommunikasiya imkanlarını genişləndirir;
4. *Geosiyasi faktor*. Geosiyasi faktor qlobal problemlərin (yeni dünya müharibəsi təhlükəsi, beynəlxalq terrorizm, demoqrafik, enerji, ekoloji problemlər və s.) yaranması ilə əlaqədar onları həll etmək üçün dünya ictimaiyyətinin səylərinin birləşdirilməsinin zəruriliyini dərk etməklə bağlıdır. Bu zəruriliyin dərk olunması hələ XX əsrin ortalarında BMT-nin yaranması ilə özünü büruzə vermişdir. BMT-nin təsis olunmasının əsas məqsədi siyasi metodlar vasitəsilə müharibələrin qarşısını almaq idi.

Tədqiqatçılar müasir qloballaşmanın aşağıdakı fərqləndirici *əlamətlərini* göstərirlər:

1. Qloballaşmanın müasir mərhələsində yeni bazarlar (24 saat ərzində fəaliyyət göstərən, qlobal şəkildə bir-biri ilə bağlı olan kapital bazarları), yeni əlaqə vasitələri (internet şəbəkələri, mobil telefon, elektron poçt), yeni aktorlar (bir çox dövlətlərdən daha çox iqtisadi gücə malik olan transmilli şirkətlər, milli sərhədləri aşan qeyri-hökumət təşkilatları), yeni qaydalar (güclü məcburetmə mexanizmlərinə arxalanan ticarətə, xidmətlərə və əqli mülkiyyətə dair imzalanmış müqavilələr) yaranır;
2. Ölkələr arasında inteqrasiya prosesləri genişlənir. Bu, özünü iqtisadi sahə ilə bərabər siyasi (beynəlxalq təşkilatlarda birgə fəaliyyət), sosial (təhsil, səhiyyə) və mədəni (ümumi mədəni dəyərlərin, etik normaların formalaşması) sahələrdə də göstərir. Bu isə öz növbəsində qlobal problemlərin həlli üçün vacibdir;
3. İnteqrasiya proseslərinin genişlənməsi dövlətlərin ixtisaslaşmasına səbəb olur. İnkişaf etmiş ölkələrdə əlavə kapital və yüksək texnologiyanın, inkişafda olan ölkələrdə isə ucuz əmək qüvvəsi və təbii sərvətlərin olması ölkələrarası ixtisaslaşmanın əsasını təşkil edir. Ölkələr arasında ixtisaslaşma dərinləşdikcə onların bir-birindən asılılığı artır;
4. Qloballaşma dünyanı "sürətləndirir". Yeni nəqliyyat vasitələri və kommunikasiya sistemləri istehsal olunan məhsulların, ideyaların, kapitalın və insanların daha da sürətlə hərəkət etmələrinə şərait yaradır;
5. Müasir dövrdə yerli hökumətin öz daxili siyasətini formalaşdıran və həyata keçirən mühüm qərarların qəbul olunmasında rolu azalır. Ölkələrin, xüsusilə inkişafda olan ölkələrin Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı (DB) kimi beynəlxalq maliyyə təşkilatlarından daim artan asılılıqları bu təşkilatların onların daxili işlərinə müdaxilə etmələrinə səbəb olur. Ölkələrin iqtisadi zəifliyi belə müdaxilənin güclü olmasına şərait yaradır.

Qloballaşma problemini tədqiq edən mütəxəssislərdən biri- *Filip Mak Mixael (Philip McMichael, "Globalization: Myths and Realities)* hesab edir ki, *qloballaşma*

*layihəsinin* meydana gəlməsi *inkişaf layihəsinin* iflasa uğramasının məntiqi nəticəsi idi. İnkişaf layihəsinin əsasında modernləşmə və sənayeləşmə ideyası durur. İnkişaf layihəsi inkişaf etmiş ölkələrin irəli sürdükləri modernləşməni digər ölkələr üçün bir universal inkişaf modeli kimi irəli sürərək onu İkinci Dünya müharibəsindən sonrakı illərdə bir paradiqmaya çevirmişdir. Bu layihənin əsasında kapitalist sistemi inkişaf etmiş və milli iqtisadi idarəetmə vasitəsilə sabitləşmişdir.

İnkişaf layihəsinin tətbiqi nəticəsində dünyada yeni sənaye dövlətləri meydana gəlmişdir (məsələn, Şərqi Asiya və Latın Amerikası ölkələri). Bu isə öz növbəsində dövlətlər arasında iqtisadi inkişaf fərqini müəyyən dərəcədə azaltmışdır. Lakin inkişaf etmiş ölkələrlə inkişafda olan ölkələr arasında olan iqtisadi uçurum ləğv edilməmişdir. Bu hadisə inkişaf layihəsinin səmərəsizliyindən xəbər verirdi. İnkişaf layihəsi bütün dövlətləri əhatə edib onların inkişafına səbəb ola bilmədi. Belə olan şəraitdə yeni layihənin yaranması zəruri idi.

Qloballaşma layihəsinin yaranması bu zərurətə olan bir cavab idi. Əgər inkişaf layihəsi milli iqtisadi idarəetmənin təkmilləşdirilməsi yolu ilə kapitalizm sistemininin sabitləşməsinə və stabilləşməsinə nail olmaq istəyirdisə, qloballaşma layihəsi bu məqsədə bütün dünya üzrə, yəni qlobal miqyasda iqtisadi idarəetmənin təkmilləşdirilməsi vasitəsilə nail olmaq istəyir. İnkişaf layihəsi universal xarakter daşıyır, yəni o, inkişaf etmiş ölkələrin irəli sürdükləri modernləşməni bütün ölkələrə təklif edir. Qloballaşma layihəsi isə ixtisaslaşma prinsipinə əsaslanaraq dövlətlər və regionlar arasında olan mövcud fərqi, eləcə də onların imkanlarını nəzərə alır. Bu isə öz növbəsində beynəlxalq əməkdaşlığın inkişafı üçün əlverişli şərait yaradır.

Bu layihələr elita baxımından da bir- birindən fərqlənir. İnkişaf layihəsinin elitası dünya kapitalist sisteminin təkmilləşdirilməsində maraqlı olan dövlət qulluqçularıdırsa, qloballaşma layihəsinin elitasını dövlət qulluqçuları ilə bərabər beynəlxalq dövlət və qeyri-dövlət təşkilatlarının, transmilli şirkətlərin yüksək vəzifəli şəxsləri təşkil edir.

Beləliklə, qloballaşma elə bir obyektiv və qanunauyğun prosesdir ki, elm və texnologiyanın nailiyyətlərinin təsiri altında müxtəlif ölkələrin siyasi, iqtisadi və mədəni inkişafının transmilliləşməsində əks olunaraq ölkələrin qarşılıqlı asılılığının artmasına və beynəlxalq əməkdaşlığın genişlənməsinə səbəb olur.

### 17.4. Qloballaşma prosesinin beynəlxalq əməkdaşlığın inkişafına təsiri

Qloballaşma haqqında danışdıqda ilk növbədə iqtisadiyyat, xüsusilə ticarət, istehsal və maliyyə sahələri nəzərdə tutulur. Lakin qloballaşma bu sahələrlə məhdudlaşmır. O, özünü siyasi, sosial və mədəni sahələrdə də göstərir. Bununla belə ticarət, istehsal və maliyyə sahələrindəki dəyişikliklərin daha miqyaslı və siyasi, sosial və mədəni sahələrdəki dəyişikliklərə münasibətdə aparıcı olmalarını nəzərə

alaraq bu sahələrdə baş verən dəyişikliklər *dövlətlərarası və ümumiyyətlə beynəlxalq əməkdaşlığın inkişafına* müsbət təsir göstərir.

Bugünkü kimi dünya ticarəti heç vaxt açiq olmamışdır. Dövlətlərarası münasibətlərdə ticarət maneələrinin götürülməsi qlobal bazarın genişlənməsi üçün əlverişli şərait yaradır. Dünya kommunist sisteminin dağılması, "soyuq müharibə"nin başa çatması qlobal bazarın orbitinə yeni dövlətlərin qoşulmasına səbəb olmuşdur. Yeni müstəqil dövlətlər dünya ticarət şəbəkəsinə qoşularaq burada öz yerlərini müəyyən etmişlər. Dünya ticarətinin inkişafı dövlətlər arasında rəqabəti intensivləşdirərək onların iqtisadiyyatı qarşısında yeni tələblər qoyur. Dövlətlər istehsal fəaliyyətlərini artırmaq məqsədilə bir-biri ilə əmək bölgüsünün əsasında əməkdaşlıq edirlər. Dövlətlər xaricdə istehsal olunan məhsulları istehlak etməklə bərabər daxildəki istehsalı təkmilləşdirmək məqsədilə başqa ölkələrdən müəyyən komponentləri alırlar. İnkişaf etmiş ölkələr istehsal müəssisələrinin bir qismini zəngin təbii sərvətlərə və ucuz əmək qüvvəsinə malik olan inkişafda olan ölkələrə köçürürlər. Beləliklə, bir tərəfdən, dünya ticarət əlaqələrinin genişlənməsi, digər tərəfdən, dövlətlərarası əmək bölgüsünün dərinləşməsi, əməkdaşlığın inkişafı beynəlxalq münasibətlərə müsbət təsir göstərir, onu inkişaf etdirir, dövlətlər arasında qarşılıqlı asılılığı artırır.

Qloballaşma şəraitində istehsalda baş verən dəyişikliklərdən və bu dəyişikliklərin beynəlxalq münasibətlərə təsir etməsindən danışdıqda ilk növbədə transmilli şirkətlərin fəaliyyəti (TMŞ) nəzərdə tutulur. Əvvəlki fəsillərdə qeyd etdiyimiz kimi, müasir dövrdə TMŞ beynəlxalq münasibətlərin əsas aktorlarından biridir. Müasir dövrdə beynəlxalq münasibətlər sahəsində TMŞ-lərin rolu artmaqdadır. Onların fəaliyyətinin təsiri bütün dünyada hiss olunur. Hal-hazirda dünya istehsalının 25%-i və dünya ticarətinin 70%-i TMŞ-lərin payına düşür.

Dünya ticarəti və TMŞ-lərin əllərində cəmləşən dünya istehsalı ilə bərabər iqtisadi qloballaşmanın əsasını qlobal maliyyənin gücü təşkil edir. Dünya maliyyə axınının həcmi ildən-ilə artmaqdadır. Qloballaşma ilə əlaqədar dünyanın ticarət, istehsal və maliyyə sahələrində baş verən istər müsbət, istərsə də mənfi hadisələr dövlətlərarası beynəlxalq münasibətlərə təsir edərək ölkələrin qarşılıqlı asılılıqlarını artırır. Bu isə öz növbəsində dövlətlərin birgə fəaliyyət göstərmələrinin, əməkdaşlıq etmələrinin vacibliyini göstərir. Qlobal problemlərin xarakteri, onların həllində ölkələrin səylərinin birləşdirilməsinin zəruriliyi dövlətlərdən daxili və xarici siyasətlərində müvafiq dəyişikliklərin edilməsini tələb edir. Dovlətlərin siyasəti qlobal problemlərin həllinə yönəlməlidir. Bu tələb bütün dövlətlərin maraqlarına cavab verir.

Bəzi tədqiqatçılar hesab edirlər ki, qloballaşma dövlətlərarası münasibətlərdə inteqrasiya meyllərini artıraraq dövlətlərin əməkdaşlığına əlverişli şərait yaratmaqla yanaşı bu münasibətlərdə bəzi neqativ halların yaranmasına da səbəb olur. Misal

üçün, onlar inkişaf etmiş və inkişafda olan ölkələrin sosial-iqtisadi inkişafındakı fərqin artmasını qeyd edirlər. Belə tədqiqatçılardan biri müasir qloballaşmanın kəskin tənqidçisi, iqtisadiyyat üzrə Nobel mükafatı laureatı, *ABŞ-ın Kolumbiya Universitetinin professoru Cozef Stiqlits "Qloballaşma və onun doğurduğu narazılıqlar" (Joseph E. Stiglitz. "Globalization and its discontents")* adlı məhşur kitabında bununla əlaqədar qeyd edir ki, inkişaf etmiş ölkələr, bir tərəfdən inkişafda olan ölkələri ticarət maneələrinin ləğv edilməsinə təhrik edir, digər tərəfdən isə özləri bu maneələri saxlayırlar. Bunun nəticəsində inkişafda olan ölkələr öz yüngül sənaye və kənd təsərrüfatı məhsullarını inkişaf etmiş ölkələrə ixrac edə bilmirlər və böyük ehtiyac duyduqları ixracdan gələn gəlirdən məhrum olurlar. Bundan başqa inkişaf etmiş ölkələr təkid edirlər ki, inkişafda olan ölkələr sənaye məhsulları istehsalının subsidiyalaşdırılmasını dayandırsınlar. Bunun nəticəsində istehsal etdikləri məhsulları Qərb ölkələrinə ixrac etməkdən məhrum olan, sənaye məhsulları istehsalını inkişaf etdirməkdə ciddi çətinliklərlə üzləşən və inkişaf etmiş sənaye ölkələrinin məhsullarını idxal etməyə məcbur olan inkişafda olan ölkələr daha da yoxsullaşırlar. İnkişaf etmiş ölkələr isə əksinə yaranmış vəziyyətdən bəhrələnirlər. Stiqlits apardığı araşdırmanın əsasında belə bir qənaətə gəlir ki, bu iki kateqoriya ölkələr arasında uçurum daha da dərinləşir. Qloballaşma şəraitində inkişafda olan ölkələrin sosial-iqtisadi inkişaf səviyyəsinin daha da pisləşməsi bu ölkələrdən inkişaf etmiş ölkələrə əmək miqrantlarının axınını artırır. İnkişaf etmiş və inkişafda olan ölkələrin sosial-iqtisadi inkişafındakı fərqin artması beynəlxalq münasibətlərə mənfi təsir göstərərək dünyada hərbi münaqişə təhlükəsini artırır.

Lakin qloballaşmanın qeyd olunan mənfi nəticəsinə baxmayaraq o, bütün ölkələrin, o cümlədən inkişafda olan ölkələrin vahid dünya iqtisadi sisteminə inteqrasiyasını təmin edir. İnkişafda olan ölkələr inkişaf etmiş ölkələr tərəfindən beynəlxalq iqtisadi münasibətlərə daxil olurlar. Bu ölkələrin iqtisadiyyatı dünya iqtisadiyyatına inteqrasiya olunur. Dünya iqtisadiyyatına inteqrasiya inkişafda olan ölkələrə inkişaf etmiş ölkələrlə hərtərəfli əlaqələrin yaradılması, onlarla əməkdaşlıq etmək üçün əlverişli şərait yaradır. İnkişaf etmiş ölkələrdən inkişafda olan ölkələrin iqtisadi inkişafı üçün vacib olan sərmayə axını, elm və texnikanın nailiyyətlərinin, eləcə də yeni idarəetmə üsullarının daxil olması müşahidə olunur. Bu isə öz növbəsində inkişafda olan ölkələrin iqtisadiyyatın inkişafına müsbət təsir göstərir.

Beləliklə, qloballaşma bir obyektiv və qanunauyğun proses kimi beynəlxalq əməkdaşlığın inkişafına müsbət təsir göstərir.

### *Fəslə aid suallar*

1. Beynəlxalq əməkdaşlıq nədir?

2. Dövlətlərarası əməkdaşlıq nədir və onun hansı növləri vardır?
3. Liberalizm nəzəriyyəsinin beynəlxalq əməkdaşlıq konsepsiyasının əsas müddəaları nədən ibarətdir?
4. Realizm nəzəriyyəsinin beynəlxalq əməkdaşlıq konsepsiyasının əsas müddəaları nədən ibarətdir?
5. Neorealizm nəzəriyyəsinin beynəlxalq əməkdaşlıq konsepsiyasının əsas müddəaları nədən ibarətdir?
6. Neoliberalizm nəzəriyyəsinin beynəlxalq əməkdaşlıq konsepsiyasının əsas müddəaları nədən ibarətdir?
7. Dövlətlərarası əməkdaşlığa dair neorealizm və neoliberalizm nəzəriyyələri arasında gedən debatda bu nəzəriyyələrdən hansı "dövlətlər nisbi üstünlüyün əldə olunmasında maraqlıdırlar", hansı "dövlətlər mütləq üstünlüyün əldə olunmasında maraqlıdırlar" müddəasını müdafiə edir? Niyə?
8. Niyə neorealistlər dövlətlərarası əməkdaşlıqda mütləq üstünlüyün əldə olunması ilə kifayətlənmirlər?
9. Qloballaşma nədir?
10. Müasir qloballaşmanın meydana gəlməsində texnoloji faktorun rolu nədən ibarətdir?
11. Müasir qloballaşmanın meydana gəlməsində iqtisadi faktorun rolu nədən ibarətdir?
12. Müasir qloballaşmanın meydana gəlməsində informasiya faktorunun rolu nədən ibarətdir?
13. Müasir qloballaşmanın meydana gəlməsində geosiyasi faktorun rolu nədən ibarətdir?
14. Müasir qloballaşmanın fərqləndirici əlamətləri nədir?
15. Filip Mak Mixaelə görə, qloballaşma layihəsinin inkişaf layihəsinə münasibətdə üstünlüyü nədən ibarətdir?
16. Niyə qloballaşma beynəlxalq əməkdaşlığın inkişafına səbəb olur?
17. Niyə Cozef Stiqlits hesab edir ki, qloballaşma inkişaf etmiş və inkişafda olan ölkələrin sosial-iqtisadi inkişafındakı fərqi artırır?
18. Qloballaşma prosesinin genişlənməsində transmilli şirkətlərin rolu nədən ibarətdir?

## Ədəbiyyat

*Аснер П.* Насилие и мир. М., 1999.

*Давыдов Ю. П.* Норма против силы. М, 2003.

*Doyle M.W.* Ways of War and Peace: Realism, Liberalism, and Socialism. N.Y., 1997.

*Falk, R.* Predatory Globalization. A Critique. Polity press, Cambridge, 1999
*Girvan, N.* "Globalization and Counter- Globalization: The Caribbean in the Context of the South", in Globalization. A Calculus of Inequality. Perspectives from the South, Edited by D. Benn and K. Hall, Kingston, Jamaica, 2000. pp. 65- 87
*Gosovic, B.* "Intellectual Hegemony in the Content of Globalization", in Globalization. A Calculus of Inequality. Perspectives from the South, Edited by D. Benn and K. Hall, Kingston, Jamaica, 2000. pp. 1-8
*Grieco J.* Anarchy and the Limits of Cooperation: A Realist Critique of the Newest Liberal Institutionalism // International Organization. 1988. Vol. 42. No 2.
*Grieco J.* Cooperation among Nations. Ithaca; N.Y., 1990.
*Kapur D.* The IMF: A Cure or a Curse?, //Essential Readings in World politics (eds. Karen Mingst and Jack Snyder), New York, 2001.
*Keohane, R.* Power and Governance in a Partially Globalized World. Routledge press, London and New York, 2002
*McMichael, Ph.* "Globalization: Myths and Realities", in From Modernization to Globalization: Perspectives on Development and Social Change, Edited by T. Roberts and A. Hite, Malden, USA. 2000. pp. 274-91
*Milner H.* International Theories of Cooperation: Strengths and Weaknesses// World Politics. 1992. Vol.44.
*Patteen, C.* Asian values and Asian success', // *Survival*, 1996.Vol 38, No 2, pp. 5-12
*Perkins, J.* Confessions of an Economic Hit Man. New York, 2006
*Stiqlitz, C.* Qloballaşma və onun doğurduğu narazılıqlar, Bakı, 2004
*Zakariya, F.* Culture is destiny? A conversation with Lee Kuan Yew, Foreign Affairs, 2002. Vol 73, Iss. 2.
*Цыганков А.П., Цыганков П.А.* Международное сотрудничество: возможности социологического подхода // Общественные науки и современность. М., 1999. № 1. 1994.

# ADLAR GÖSTƏRİCİSİ

**A**
Açıq diplomatiya, 43, 95, 207

Ağıllı güc, 88

Aktorların davranış nəzəriyyələri, 170-182

Amerika Birləşmiş Ştatları (ABŞ), 11, 12, 14-16,42, 43, 45-49, 52, 54, 64-66, 78, 80, 86, 87, 102, 124, 131, 139, 144, 163, 165, 174, 176, 190, 193, 194, 207, 208, 211, 215, 216, 221, 224, 229,

Amerika Birləşmiş Ştatlarının liberal hegemonluq siyasəti, 14-16

Antroposentrizm, 149, 150, 157

Antroposentrizmdən ekosentrizmə keçid, 149, 157

Aristotel, 28

Aron Raymon, 9

"Asiya inkişaf yolu" konsepsiya, 126

Asılılıq nəzəriyyəsi, 116, 117, 170

Avropa İttifaqı, 10, 15, 87, 156

Avropasentrik nəzəriyyə, 119

Avtarkiya, 48, 50

Azad ticarət, 42, 48-52, 65, 66, 107, 114, 117

Azərbaycan, 8, 198, 203, 228

**B**
Barnett Mixail, 125

Baulbi Con, 224

Behrens Uilyam, 151

Bentam Jeremi, 16, 41, 53

Beynəlxalq cəmiyyət, 41, 61, 82, 97-103, 125

Beynəlxalq əməkdaşlığa dair nəzəriyyələr:
- liberalizm nəzəriyyəsi beynəlxalq əməkdaşlıq haqqında, 234
- neoliberalizm nəzəriyyəsi beynəlxalq əməkdaşlıq haqqında, 236-238
- neorealizm nəzəriyyəsi beynəlxalq əməkdaşlıq haqqında, 236-238

- realizm nəzəriyyəsi beynəlxalq əməkdaşlıq haqqında, 235

Beynəlxalq əməkdaşlıq, 89, 90, 234-238

Beynəlxalq hüquq, 14, 16, 18, 54, 70, 89, 97, 101, 111, 191, 198, 213-214, 222-223

Beynəlxalq münaqişələr, 12, 44, 53, 65, 143, 220-223, 225

Beynəlxalq münaqişələrdəki dəyişikliklər:
-beynəlxalq münaqişələrin iştirakçılarının dəyişməsi, 222
-beynəlxalq münaqişələrin sayının artması, 222
-beynəlxalq münaqişələrin səbəblərinin dəyişməsi, 222

Beynəlxalq münaqişələrin tənzimlənmə mexanizmləri, 223

Beynəlxalq münasibətlərin aktorları, 9, 10, 26, 72, 89, 110, 138

Beynəlxalq münasibətlərlə beynəlxalq siyasətin münasibəti, 10, 11

Beynəlxalq münasibətlərlə xarici siyasətin münasibəti, 202

Beynəlxalq münasibətlər nəzəriyyəsi (BMN) fənni, 11, 71, 91, 133, 136, 144, 145, 149, 167
- beynəlxalq hüquqla münasibəti, 18
- fəlsəfə ilə münasibəti, 16, 17
- iqtisadi nəzəriyyə ilə münasibəti, 18, 19
- politologiya ilə münasibəti, 17
- tarixlə münasibəti, 17, 18

Beynəlxalq münasibətlər nəzəriyyəsi fənninin:
- əhəmiyyəti, 19-21
- hakim nəzəriyyələri, 106-108, 110, 124, 125, 127, 132, 133, 154
- ideoloji funksiyası, 20-21
- idraki funksiyası, 19
- meydana gəlməsi və əsas inkişaf mərhələləri, 11-16
- müstəqil bir fənn kimi formalaşması, 11, 12
- praktiki funksiyası, 19-20
- predmeti, 9-11
- proqnozlaşdırıcı funksiyası, 20
- tənqidi nəzəriyyələri, 106-108, 110, 118, 132, 133, 139, 149

Beynəlxalq münasibətlər nəzəriyyəsi fənninin metodları:
- antropoloji metod, 28
- biheviorist metod, 26
- delfi metodu, 36
- eksperiment, 35
- eksplikativ metodlar, 33-35
- funksional metod, 26-27
- ivent analiz, 33-34
- kontent–analiz, 33
- koqnitiv kartlaşma, 34-35
- kulturoloji metod, 25
- modelləşdirmə metodu, 37

- müqayisə metodu, 32-33
- müşahidə metodu, 30-31
- normativ metod, 25-26
- proqnoz metodları, 35-37
- psixoloji metod, 28-29
- sənədlərin öyrənilməsi metodu, 31-32
- sistem metodu, 27-28
- situasiyanın təhlili metodlar,
- sosioloji metod, 24-25
- ssenarilərin qurulmaşı metodu, 36
- struktur-funksional metod, 27
- tarixi metod, 29
- tətbiqi metodlar, 30-37
- ümumi metodlar, 24-30

Beynəlxalq münasibətlər nəzəriyyəsində debatlar:
- Birinci Böyük debat, 14, 59, 95, 162
- Dördüncü Böyük debat, 166, 167
- İkinci Böyük debat, 163
- Üçüncü Böyük debat, 165, 166

Beynəlxalq münasibətlər sistemi:
-birqütblü beynəlxalq münasibətlər sistemi, 14, 15, 178, 222
-ikiqütblü beynəlxalq münasibətlər sistemi, 14, 20, 80, 82, 176, 221
-çoxqütblü beynəlxalq münasibətlər sistemi, 15, 79-82, 176

Beynəlxalq təhlükəsizlik, 196

Beynəlxalq təşkilatlar, 10, 15, 32, 43, 50, 59, 61, 65, 72, 76, 87, 89, 92, 99, 110, 130, 162, 166, 202, 236, 238

Beynəlxalq Ticarət Təşkilatı, 10, 15, 140

Birləşmiş Millətlər Təşkilatı (BMT), 10, 14, 43, 54, 137, 138, 153, 155, 192-194, 210, 223, 234, 239

Bismark Otto fon, 62

Bouldinq Kennet, 220

Böyük Britaniya, 12, 42, 63, 96, 102, 140, 156, 205

“Böyük depressiya”, 65

Bruntland Komissiyası, 153

Bull Hedli, 13, 96, 98-102,

Buxarın Nikolay, 114

Buş (oğul) Corc, 208

Byuzan Barri, 76, 96

**C**
Cəmi sıfıra bərabər olan oyun (zero sum games), 177-179

Cəmi sıfıra bərabər olmayan oyun (non-zero sum games), 177, 178, 180, 182

Cücənin oyunu, 178-180, 182,

**Ç**
Çin Xalq Respublikası, 112

Çoxqütblü beynəlxalq münasibətlər sistemi, 15, 79-81, 176

**D**
Dal Robert, 45

"Daxili-xarici" yanaşma, 44-46, 111
- neorealizm nəzəriyyəsi tərəfindən "daxili-xarici" yanaşmanın tənqidi, 45

Darvin Çarlz, 198

Davamlı inkişaf, 153, 154, 157

Demokratik sülh nəzəriyyəsi, 44-47, 80, 227
- ABŞ ekspansionizminin bir aləti kimi, 47
- realizm nəzəriyyəsi tərəfindən tənqidi, 47

Demokratik cəmiyyət, 46, 112, 131, 172, 188

Demokratiya, 45-48, 54, 79, 89, 107, 126, 131, 144, 222
- elektoral demokratiya, 47
- liberal demokratiya, 14-16, 42, 44, 45, 47-49, 80, 82, 89, 197

Deriennik Jan Pol, 233

Devetak Riçard, 109

Diplomatiya, 69,70, 99, 119, 143, 189, 191, 205-217, 220, 230
- açıq diplomatiya, 43, 95, 207
- beynəlxalq hüquqla münasibəti, 213, 214
- birtərəfli diplomatiya (unilateralizm), 207, 208
- borc tələsi diplomatiyası, 209-211
- çoxtərəfli diplomatiya (multilateralizm), 207, 208
- elm diplomatiyası, 210
- gizli diplomatiya, 12, 42, 53, 55, 63, 207, 216
- iqtisadi və ya ticarət diplomatiyası, 210
- ikitərəfli diplomatiya (bilateralizm), 208
- köhnə diplomatiya (diplomatiyanın fransız metodu), 42, 214-217
- məkik diplomatiyası, 211
- miqrasiya diplomatiyası, 209

- preventiv diplomatiya, 209-210
- rəqəmsal diplomatiya (eDiplomatiya), 212-213
- sakitləşdirmə siyasəti (sakitləşdirmə diplomatiyası), 209
- silahlı qayıq diplomatiyası, 209
- xarici siyasətlə münasibəti, 205-207
- vətəndaş diplomatiyası, 211-212
- yeni diplomatiya, 214-217
- yumşaq güc diplomatiyası, 212

Dobson Endryu, 149-151

Dollar diplomatiyası, 211

Dominant strategiya, 175, 176

Doyl Maykl, 44, 46, 48, 82
- Doyl qanunu, 46

Dövlətlərarası əməkdaşlığın növləri:
- danışıqlar, 42, 140, 155, 156, 203, 205-207, 210-216, 234
- gizli əməkdaşlıq, 234
- məcburi əməkdaşlıq, 235
- siyasətlərin uzlaşdırılması, 234

Dünya sistemi nəzəriyyəsi, 117

Dünya kommunist sistemi, 9, 14, 20, 43, 49, 80, 119, 124, 176, 227, 241

Dyufor Jan Pol, 226

**E**

Ekkersli Robin, 149

Ekoloji problemlər, 152, 154, 157, 239

Ekoloji şüur, 158

Ekosentrizm, 149, 150, 152, 153, 157

Eksponensial iqtisadi inkişaf, 151

Engels Fridrix, 113, 114

Enlo Sintiya, 137, 139-141

Eyni maraqlarla olan oyunlar, 177

**Ə**

Əks maraqlarla olan oyunlar, 177

Ənənəçilik, 163-165

Əsəd Bəşər, 20

Ətraf mühitin qorunması, 108, 142, 153-155, 156, 157, 210, 220, 236

**F**
Faynmour Marta, 127, 127, 130

Feminizm nəzəriyyəsi, 108, 136-139, 141-145, 167
-realizm və neorealizm nəzəriyyələrinə münasibət, 142-143

Feminizm hərəkatının tarixi, 136-138

Fiziokratlar, 77

Frankfurt Məktəbi, 109, 110

Freyd Ziqmund, 29, 109

Fukidid, 11, 59

Fukuyama Frensis, 44, 45, 49

**G**
Gizli diplomatiya, 12, 42, 53, 55, 63, 207, 216

Güc (qüvvə), 11, 47, 59-62, 67, 68, 70, 78-82, 87, 88, 89, 91, 97, 99, 108-110, 113-116, 118, 128, 130-132, 138-145, 163, 166, 169, 176, 186-198, 206-209, 211, 213, 214, 237

Gücdən istifadə metodları:
- cəzalandırma, 189, 190
-inandırma, 188, 189, 190, 196, 206
- məcburetmə, 189, 190
- şirnikdirmə, 189, 190

Gücün elementləri:
- coğrafiya, 186, 187
- əhali, 187
- hərbi hazırlıq, 188
- xarici siyasət, 188
- iqtisadi inkişaf səviyyəsi, 187
- milli mənəviyyat, 188
- siyasi ideologiya, 188
- siyasi sistem, 187, 188
- təbii sərvətlər, 187

**H**
Hantinqton Samuil, 17, 25, 47, 226
-“Sivilizasiyaların toqquşması” konsepsiyası, 17, 25, 47, 226

Hegel Georq Vilhelm Fridrix, 109, 113

Həbəşistan, 55, 59, 100

Herts Con, 196

Hiberliberalizm nəzəriyyəsi, 116

Hindistan, 157

Hitler Adolf, 119, 198

Hobs Tomas, 16, 59, 60
- ictimai müqavilə nəzəriyyəsi, 16, 60

**X**
Xalis sıfır emissiyaya, 156

Xarici siyasət, 7, 17, 20, 27, 32, 45, 46, 49, 53, 61-63, 66-71, 78, 79, 88, 92, 98, 111, 118, 139, 143, 144, 158, 173, 186, 188, 190, 192, 196-198, 202- 209, 212, 213, 217, 225, 241
- beynəlxalq münasibətlər məfhumu ilə münasibəti, 202
- daxili siyasətlə münasibəti, 204-205
- dövlət ideologiyası, 203
- əsas və ikincidərəcəli məqsədlər, 203
- qısamüddətli, ortamüddətli, uzunmüddətli və perspektiv məqsədlər, 203
- prinsipləri, 203, 204

**İ**
İctimai inkişafda mədəniyyətin aparıcı rol oynaması konsepsiyası, 25, 118

İdeologiya, 7, 9, 20, 24, 33, 64, 67, 77-79, 81, 106, 114, 115, 186, 197, 198, 202, 203
-xalqların öz müqəddəratını təyinetmə ideologiyası, 198
- imperializm ideologiyası, 198
- status-kvo ideologiyası, 198
- sülh və beynəlxalq hüquq ideologiyası, 198

İqlim dəyişikliyi, 149, 151, 154-158

İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası, 155, 156

"İngilis Məktəbi" nəzəriyyəsi (rasionalizm nəzəriyyəsi), 94-104
-nizam və ədalətin münasibəti, 98-102

"İnkişafa məhdudiyyətlər" ("The Limits to Growth"), 150, 151, 154

İnkişaf etməkdə olan ölkələr, 52, 112, 114, 116, 170

İnkişaf etmiş ölkələr, 20, 49, 52, 72, 107, 108, 113, 116, 117, 154, 170, 187, 190, 238-242

İnkişaf layihəsi, 239, 240

İraq, 47

İraq Şam İslam dövləti (İŞİD), 222

İslam Əməkdaşlıq Təşkilatı, 235

İslam sivilizasiyası, 226

İsrail, 211, 228

İtaliya, 55, 59, 65, 100, 150, 215

**K**
Kant İmmanuel, 16, 41, 48, 50, 109

Karr Edvard, 63-67, 102

Karter Alan, 152

Kennan Corc, 62, 71

Kioto Protokolu, 155

Kissinger Henri, 62

Klauzevits Karl, 59, 60, 224, 225

Klinton Bill, 46, 87, 88

Koheyn Robert, 86, 92, 166, 234, 235

Koks Robert, 82, 83, 107, 115, 116

Kollaborationist siyasət, 193, 194

Kollektiv təhlükəsizlik, 12, 13, 54, 63, 65, 69, 89, 192-195
- qüvvələrin balansı ilə oxşar və fərqli cəhətlər, 194, 195

Kondorse Nikola, 41

Konfusianizm, 126

Konstruktivizm, 124-133
- beynəlxalq aktorların kimlikləri və maraqları, 129-132
- beynəlxalq sistem haqqında, 127-129
- neorealizmlə oxşar və fərqli cəhətlər, 127-128

**Q**
Qalıq yanacaqlar, 157

Qarışıq maraqlarla olan oyunlar, 177

Qərarın qəbul edilməsi nəzəriyyəsi, 170-173

Qərb sivilizasiyası, 47, 119

Qeyri-əməkdaşlıq oyunu, 174

Qilpin Robert, 51, 76

Qlobal istiləşmə, 156-158, 214

Qloballaşma, 52, 226, 234, 238-242

Qloballaşma layihəsi, 240

Qorbaçov Mixail, 126

Qrosi Huqo, 41, 96, 100

Qudin Robert, 149, 150

Qüvvələrin balansı, 48, 49, 53-55, 62-65, 70, 100, 111, 170, 190-195, 222, 225, 235
-liberalizm nəzəriyyəsi tərəfindən tənqidi, 53-55

**L**
Laissez-faire, 64, 114

Latın Amerikası 47, 211, 215, 240

Lenin Vladimir, 114, 115

Liberal demokratiya, 14-16, 42, 44, 45, 47-49, 80, 82, 89, 197

Liberalizm (və ya idealizm), 41-55
- azad ticarət haqqında, 49-52
- müharibə konsepsiyası, 47-49

List Fridrix, 51

Lokk Con, 16, 41

**M**
Makiavelli Nikkola, 16, 27, 29, 59

Maltus Tomas, 225

Mancuriya, 55, 59

Mannheym Karl,

Marks Karl, 197

Marksizm, 9, 14, 25, 71, 72, 79, 110-115, 204
- iqtisadi determinizm prinsipi, 111
- liberalizmlə oxşar və fərqli cəhətlər, 110-112
- millətçiliyə münasibət, 114, 115
- realizmlə oxşar və fərqli cəhətlər, 110-112
- sinfi yanaşma, 111
- sosialist inqilabı, 111, 113, 118, 119
- tarix konsepsiyası, 112, 113
- tarixi materializm nəzəriyyəsi, 113

Markuze Herbert, 109,

Mədəniyyət, 25, 47, 88, 92, 109, 125, 126, 132, 133, 204, 211, 212, 214, 221, 222, 238

Mədəniyyətlərarası və sivilizasiyalararası dialoq, 204

Medouz Denis, 151

Medouz Donella, 151

Merlo Cust, 224

Məhbus dilemması, 170, 178, 180-182

"Məxməri" inqilab, 47

Mərkəzsizləsdirmə, 152, 158

Miqrantlar, 209, 242

Mill Con Stüart, 53

Millətçilik, 49, 70, 113, 115, 119
- iqtisadi millətçilik, 51, 65

Millətlər Liqası, 12-14, 42, 54, 59, 63, 65, 100, 115, 162, 193

Milli maraq, 50, 65, 67-71, 82, 89, 90, 95, 98, 111, 144, 158, 163, 173, 195-198, 202, 203, 205, 207, 208, 213, 214, 235
- ideologiya ilə münasibəti, 197, 198
- milli təhlükəsizlik, 195-197

Mirşeymer Con, 15, 49, 80

Modelski Corc, 202, 203

Montville Cozef, 211

Morqenştern Oskar, 174

Morqentau Hans, 11, 62, 63, 65-71, 78, 79, 141-143, 191, 193-195, 205
- eqoizm, 68

- hakimiyyət istəyi, 68
- kollektiv təhlükəsizlik sistemi haqqında, 194
- milli maraq konsepsiyası, 69
- siyasi realizmin altı prinsipi, 66, 68
- sülhü qorumaq problemi, 69-70
- diplomatiyanın doqquz qaydası haqqında, 70

Müharibə:
- asimmetrik müharibə, 229
- Birinci Dünya müharibəsi, 12, 13, 41, 42, 54, 55, 59, 63, 114, 216, 225
- ədalətli müharibə, 227
- ədalətsiz müharibə, 227
- genişmiqyaslı (dünya) müharibə, 228
- haker müharibəsi, 230
- hibrid müharibə, 230
- xarici müdaxilə ilə müşayiət olunan vətəndaş müharibəsi, 227
- İkinci Dünya müharibəsi, 14, 43, 50, 65, 66, 76, 99, 100, 176, 187, 191, 229, 240
- informasiya müharibəsi, 229, 230
- işğalçı müharibə, 228
- kəşfiyyat müharibəsi, 230
- kibermüharibə, 230
- konvensional müharibə, 228
- lokal müharibə, 228
- mahiyyəti, 223, 224
- milli azadlıq müharibəsi, 228
- ölkədaxili (vətəndaş) müharibə, 227
- ölkələrarası müharibə, 227
- proksi müharibə, 230, 231
- psixoloji müharibə, 230
- regional müharibə, 228
- "soyuq müharibə", 229
- total müharibə, 228

Müharibələrin səbəblərinə dair nəzəriyyələr:
- demoqrafik nəzəriyyə, 225, 226
- gənclərin artımı nəzəriyyəsi, 226
- iqtisadi nəzəriyyə, 225
- maltuzian nəzəriyyə, 225-226
- psixoanalitik nəzəriyyə, 224, 225
- sosioloji nəzəriyyə, 225
- təkamül nəzəriyyəsi, 225

Müller Con, 49

Münaqişə:
- açıq münaqişə, 220
- daxili münaqişə, 220-221
- destruktiv münaqişə, 220
- xarici münaqişə, 221
- gizli və ya örtülü münaqişə, 220
- konstruktiv münaqişə, 220
- mahiyyəti, 220

- münaqişə tərəfləri, 221
- üçüncü tərəflər, 221

Mütləq qazanc, 90, 91

**N**
Nay Cozef, 86-88, 166, 211

Neoliberalizm, 86-92
- neorealizmlə oxşar və fərqli cəhətlər, 90-91

Neomarksizm, 115-118
-marksizmlə oxşar və fərqli cəhətlər, 118

Neorealizm, 76-83
- klassik realizmlə münasibəti, 77
-"struktur realizm", 76

Neş Con, 174

Neş tarazlığı, 174-176, 182

Neyman Con, 174

Nisbi qazanc, 90, 91

Nisbi üstünlük nəzəriyyəsi, 46, 49, 170

Nitsşe Fridrix, 109

**O**
Onyuf Nikolas, 124

Oyunlar nəzəriyyəsi, 170, 174-178, 180, 182

**P**
"Parçala və hökm sür" siyasəti, 191

Paris Sazişi (İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası), 156, 208

Paris Sülh Konfransı, 42

Paterson Mətyo, 148, 152

Peççei Aurelio, 150, 151

Peyn Tomas, 48, 50

Pozitivizm, 26, 27, 66, 71, 125, 163, 166, 167

Proteksionizm siyasəti, 51, 65

**R**
Randers Yorqen, 151

Rasionalizm- reflektivizm qarşıdurması, 166

Rassel Bertrand, 179

Realizm, 59-72
- ənənəvi (klassik) realizm, 62, 63, 71, 72, 76, 78, 86
- marksizm nəzəriyyəsi tərəfindən tənqidi, 72
- zəif tərəfləri, 72, 76

Realpolitika, 61

Reduksionizm, 45, 79

Reflektivist yanaşma, 166-167

Rikardo David, 49, 50, 53

Roma Klubu, 150, 151, 154

Rouzkrans Riçard, 50

Roys-Smit Kristian, 125, 131

Rusiya Federasiyası, 15, 16, 42, 101, 176, 215, 230

Russo Jan-Jak, 48

Ruzvelt Teodor, 211

**S**
Saymon Herbert, 171, 172

Seksizm, 136

Sinqer Deyvid, 164, 224

Sıqankov Pavel, 10, 102

Smit Adam, 41, 50,

Smit Deyvid, 224

Smol Melvin, 224

Sovet Sosialist Respublikaları İttifaqı (Sovet İttifaqı, SSRİ), 7, 8, 9, 14, 20, 43, 45, 49, 52, 66, 78, 80, 82, 112, 119, 126, 176, 187, 190, 191, 198, 221, 222, 229,

Stiqlits Cozef, 242

Suriya, 21, 209, 211, 227

**Ş**
Şnayder Riçard, 173

**T**
Taft Uilyam Hovard, 211

Takker Albert, 180

Təhlükəsizlik dilemması, 60, 81, 95, 99, 192, 195, 196

Təhlükəsizliyin izolyasionist siyasəti, 193

Təkrarlanan məhbus dilemması (ticarətçi dilemması), 182

Tikner Cudit Enn, 137, 141-144

Tomson Kennet, 11

Tramp Donald, 208

Transmilli şirkətlər, 9-11, 18, 72, 76, 89, 91, 110, 116, 117, 166, 202, 208, 222, 237-240

Tru Ceki, 137

**U**
Uiks Dadli, 220

**Ü**
Üstün tutulan davranış nəzəriyyələri, 171

**V**
Vallerştayn İmmanuel, 115, 117

Vasbi Stivin, 172

Vayt Martin, 96-98, 103

Vendt Aleksandr, 123, 127-130

Vestfal sülh müqaviləsi,

Vilson Vudro, 13-42, 54, 55, 193, 216, 211
- liberal beynəlmiləlçilik nəzəriyyəsi və ya vilsonianizm, 42
-“14 maddə” proqram, 42, 54, 216

Volts Kennet, 45, 49, 76-82, 127, 196

Vrayt Kvunsi, 163, 213, 224

**Y**

Yaponiya, 55, 59, 65, 119, 186

Yaşıl əxlaq, 150

Yaşıl siyasət nəzəriyyəsi, 149-158

Yev Li Kuan, 126

Yumşaq güc nəzəriyyəsi, 88, 212,